PƏRİXANIM MİKAYILQIZI (MURADOVA)



# F.B.KÖÇƏRLİ: «ÜMMƏTDƏN - MİLLƏTƏ DOĞRU»



**Firidun bəy Köçərlinin 150 illik yubileyi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

2013-cü ildə Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış maarifpərvər, ictimai xadim, publisist-yazıçı, tənqidçi və tərcüməçi Firidun bəy Əhməd ağa oğlu Köçərlinin anadan olmasının 150 illiyi tamam olur.

Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna dair qiymətli mənbə təşkil edən əsərlər yaratmış və çoxcəhətli zəngin fəaliyyəti ilə ictimai-mədəni fikrin təşəkkülünə mühüm töhfələr vermişdir. Ölkəmizdə təhsil sisteminin milli əsaslar üzərində qurulması prosesində onun maarifçi ziyalı kimi apardığı işlər böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan mədəniyyətinin inkişafı naminə xidmətlərini nəzərə alaraq, Firidun bəy Köçərlinin 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Firidun bəy Köçərlinin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 fevral 2013-cü il
№ 2720

**Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi**

**PƏRİXANIM MİKAYILQIZI (Muradova)**

# FİRİDUN BƏY KÖÇƏRLİ: "ÜMMƏTDƏN MİLLƏTƏ DOĞRU"

**"Elm və təhsil"**
**Bakı - 2016**

**Elmi redaktor:** **Şamil Vəliyev,**
*filologiya elmləri doktoru, professor*

**Pərixanım Mikayılqızı.**
**Firidun bəy Köçərli: "Ümmətdən-millətə doğru".**
**Bakı, "Elm və təhsil", 2016, 490 səh.**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanın görkəmli alim və ədəbiyyatşünası, istedadlı pedaqoq və folklorşünası Firidun bəy Əhməd ağa oğlu Köçərlinin anadan olmasının 150 illiyi ilə əlaqədar imzaladığı 14 fevral 2013-cü il 2720 saylı sərəncamına əsasən Pərixanım Mikayılqızı, ədibin "Əsərləri" kitabını transliterasiya edərək kiril qrafikalı əlifbadan latın qrafikalı əlifbaya çevirmişdi.*

*P.Mikayılqızı 2016-cı ildə həmən sərəncamından irəli gələn müddəanı əsas tutaraq, Azərbaycanın görkəmli ictimai-xadimi Firidun bəy Köçərlinin yaradıcılığına həsr olunmuş "Ümmətdən-millətə doğru" kitabını çapa hazırladı.* *Kitabın ərsəyə gəlməsində göstərdiyi köməyə görə BDU-nun jurnalistika fakültəsinin dekanı filologiya elmləri doktoru, professor, əməkdar jurnalist Şamil Vəliyevə və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru, tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Mais Bağırova təşəkkür edirik.*

**ISBN 978-9952-8142-8-6**

*© P.Mikayılqızı, 2016*



## FİRİDUN BƏY KÖÇƏRLİ - "ELM VƏ İRFAN SAHİBİ"

Azərbaycan dünyanın ən qədim mədəniyyət məbədlərindən biridir. Bu mədəniyyət məbədində əsrlərdir ki, bitib-tükənməyən dahilər meydana gəlir. Gələn nəsillər bu dahilər haqqında öyrənməklə yanaşı, tariximizin də qorumasında mühüm rol oynayırlar.

Azərbaycan ədəbiyyatı klassiklərindən olan maarifpərvər Firidun bəy Köçərli elə şəxsiyyətlərdən idi ki, yaşadığı dövründə zəkasına, biliyinə, qabiliyyətinə görə onu "elm və irfan sahibi" adlandırırdılar. "Elm və irfan sahibi" Firidun bəy pedaqoq, publisist, jurnalist, ictimai-siyasi xadim və nəhayət folklorşünas olmaqla yanaşı həm də ədəbiyyatımızın mahir bilicisi, gözəl insan və sözün həqiqi mənasında əsl ziyalı idi.

Azərbaycan mədəniyyətinin görkəmli şəxsiyyətlərindən hesab edilən Firidun bəy Köçərlinin tədqiqatı ilə bir çox alimlərimiz məşğul olmuş və onun yaradıcılığından bəhrələnmişlər. Son illər isə Firidun bəy Köçərlinin tədqiqatı ilə Azərbaycan Respublikası Prezidentinin Siyasi Sənədlər Arxivinin aparıcı məsləhətçisi, Elmi Kitabxana şöbəsinin müdiri Pərixanım Mikayıl qızı Muradova məşğul olmuş, kitabxananın materialları əsasında "Ümmətdən-millətə doğru" (və yaxud "Ümmətdən-millətə keçid" –Ş.V.) əsərini ərsəyə gətirmişdi. P.Mikayılqızı bu əsərində maarifpərvər ədibin yaradıcılıq fəaliyyətinin bir çox məqamlarını üzə çıxarmağa çalışmışdır.

Firidun bəyin öz sözlərinə istinad edən müəllif sözsüz ki, F.b.Köçərlinin milləti üçün arzusunda olduğu azadlığa qovuşmağının, millətini millət kimi görmək arzusunun, yəni artıq ümmətdən millətə keçid zamanın yetişdiyini göstərmək istəyib.

Firidun bəy Köçərli 1863-cü il 26 yanvarda qədim Azərbaycan torpağı Qarabağda dünyaya göz açıb. Elmə, ədəbiyyata çox böyük həvəsi olan atası Əhmədağa kişi dövrünün nüfuzlu şəxslərindən idi. O, Firdovsidən, Nizamidən, Füzulidən oxuduğu əsərləri hələ kiçik yaşlarından Firidun bəyə aşılamış, onun təhsilli olmağına xüsusi maraq göstərmiş, hətta Firidun bəyin rus dilində təhsil almağında da atasının böyük rolu olmuşdur.

Zəngin Azərbaycan mədəniyyətinin beşiyi olan Qarabağ torpağının Firidun bəy Köçərli yaradıcılığına böyük təsir göstəribdir. Atasının söylədiyi qəzəllər, dastanlar içərisində püxtələşən Firidun bəy böyüdükcə eşitdiyi qəzəllər, dastanlar onun həyat amalına çevrilir. Həyatını ədəbiyyatsız təsəvvür etməyən ədib, təhsilini rus dilində alsa da Azərbaycan klassikasına, doğma dilinə hədsiz məhəbbət bəsləmişdi. Firidun bəy Köçərlinin dünya xalqlarının ədəbiyyatına da xüsusi marağı var idi. O başqa xalqların ədəbiyyatını öz ədəbiyyatımız ilə müqayisə edir, bir çox hallarda əsərlərə tənqidçi mövqedən yanaşırdı. Köçərli rus və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin olmasını arzu edirdi. Buna görə də öz yaradıcılığında tərcümə işinə ciddi yanaşır, xalqlar arasında tərcümə əsərlərini bir körpü hesab edirdi.

Firidun bəy Köçərlinin həyatı bütünlüklə çar üsul-idarəsi dövrünə təsadüf etdiyindən, o, Azərbaycanda hökm sürən ədalətsiz qayda qanunlara biganə qala bilməyərək susmur, öz narazı münasibətini yazılarında və çıxışlarında bildirirdi.

Müəllif on bir başlıqdan ibarət olan "Ümmətdən-millətə doğru" (və yaxud "Ümmətdən-millətə keçid" –Ş.V.) əsərində Firidun bəy Köçərlinin əmək və yaradıcılığı haqqında geniş məlumat verməyə çalışıbdır. Bu günümüzə qədər Azərbaycan tədqiqatçıları tərəfindən Firidun bəy Köçərlinin həyat və yaradıcılıq fəaliyyətinə həsr olunmuş bir neçə əsərlər olubdur. "Ümmətdən-millətə doğru" əsərində də o biri əsərlər kimi dahi Firidun bəyin yaradıcılığının demək olar ki, bütün sahələrinə





toxunulub. Lakin bu maraqlı faktların bir kitabda toplanması əslində oxuculara Firidun bəyin yaradıcılığı ilə daha yaxından və daha geniş tanış olmağa imkan verir.

Firidun bəy Köçərlinin yaradıcılığı çox genişsahəli, rəngarəng olmuşdur. "Ümmətdən-millətə" doğru əsərində bu rəngarənglik başlıqlar altında daha geniş açılır. Əsərdə Firidun bəyin Azərbaycan mədəniyyətinə münasibəti, milli uşaq ədəbiyyatının yaranmasında sərf etdiyi əmək, həyata ictimai-siyasi baxışları, milli mətbuatın yaranmasına münasibəti, Azərbaycanın qədimliyini sübut edən, adət-ənənəmizdən bəhs edən folklor nümunələrinin toplanması, dini fanatizmin güclü olduğu bir zamanda dinə münasibəti, qadınların təhsilə cəlb edilməsi məsələsinin gündəmə gəlməsi, həyatını bağladığı pedaqoji fəaliyyətində göstərdiyi fədakarlığı, ölkəsinin təlim-tərbiyə üsulu ilə başqa dövlətlərin təlim-tərbiyə üsulu ilə müqayisəsi, rusdilli mətbuatla sıx əlaqəsi, vətənpərvərlik və millilik hissinin nə qədər güclü olması öz əksini tapmışdır.

Zaqafqaziya Qori Müəllimlər Seminariyasını bitirən Firidun bəy Köçərli, əvvəl təyinatla İrəvan gimnaziyasına Azərbaycan dili və şəriət müəllimi göndərilir. On il (1885-1895) orda çalışdıqdan sonra isə onu Qori Müəllimlər Seminariyasının tatar şöbəsinə Azərbaycan dili və şəriət müəllimi təyin edirlər. O, Qoridə çalışdığı müddətdə pedaqoji fəaliyyətini daha da genişləndirmiş, bir çox rus, gürcü və Avropa yazarlarının əsərlərindən tərcümələr edərək Azərbaycan oxucularının ixtiyarına vermişdir. Firidun bəy Köçərli Azərbaycan oxucularının savadını artırmaq məqsədilə və onları xarici ədəbiyyatlarla tanış etmək üçün tərcümə işinə də yer verməyə çalışırdı.

Azərbaycan folklorunun tədqiqatı ilə məşğul olan Firidun bəy Köçərli əsl elm adamı idi. Firidun bəy həm də ədəbiyyat tarixçisi kimi tanınmışdır. Onun bu istiqamətdəki fəaliyyətinin əsasını Azərbaycan ədəbiyyatının tarixini araşdırmaq, tədqiqat aparmaq, öyrənmək təşkil edirdi. Firidun bəy Köçərliyə qədər

deмək olar ki, Azərbaycan ədəbiyyatının tarixi tədqiq edilməmişdi. Çox böyük həvəslə işə başlayan Köçərli, çətin və uzun bir proses olan bu işin öhdəsindən gələ bilir.

Kitab nəşr etdirməyin çətin olduğu bir zamanda o, 1903-cü ildə "Azərbaycan türklərinin ədəbiyyatı" adlı əsərini çapdan çıxarmağı bacarır. Əsər ilk tədqiqat mənbəyi kimi məhdud olsa da Firidun bəy üçün dəyərli idi. Maarifpərvər ziyalılar Azərbaycan ədəbiyyatı tarixçiliyində yazılan bu əsərin ilk tədqiqat əsəri olduğunu nəzərə alaraq rəğbətlə qarşıladılar. Əsər Tiflisdə rus dilində kitabça şəklində çap olunmuşdu. Yığcam kitabça formasında olan bu əsər Firidun bəyə böyük şöhrət gətirdi və onun Azərbaycan dilində də olmasını istədilər. Bu ilk işindən ruhlanan Köçərli əsərin davamını daha da genişləndirmək üçün gərgin əməli fəaliyyətə başladı. Ədib Azərbaycanın bölgələrini kəndbəkənd gəzərək və yaxud uzaq rayonlarda yaşayan dostlarına məktub vasitəsi ilə müraciət edərək klassiklərimiz haqqında bildikləri və eşitdiklərini yazıb ona göndərməsini xahiş edirdi.

Nəhayət, Firidun bəy Köçərli 129 ədəbi şəxsiyyət haqqında topladığı materiallar əsasında "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı ikicildlik əsərini ərsəyə gətirə bildi. Amma təəssüf ki, gərəksiz qadağalar, bəhanələr üzündən sağlığında özü bu əsəri nəşr etdirə bilmədi. Kitab 1925-1926-cı illərdə Firidun bəy Köçərlinin ölümündən beş il sonra onun ömür-gün yoldaşı Badisəba xanımın təşəbbüsü ilə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən çap olundu. Daha sonrakı illərdə isə kitab "Azərbaycan ədəbiyyatı" adı ilə yenidən nəşr edildi.

"Ümmətdən-millətə doğru" əsəri bütünlüklə Firidun bəy Köçərlinin yaradıcılığından bəhs edilir. Əsərdə ayrı-ayrı mövzular haqqında materiallar toplanaraq, geniş şərhi verilmişdi.

F.b.Köçərli yaxşı başa düşürdü ki, ana dilində ədəbiyyatı olmayan xalqların mədəniyyəti itib batır və onlar tədricən özgə xalqların təsiri ilə öz mədəniyyətindən bixəbər qalırlar.

F.b.Köçərli ədəbiyyatı millətin inkişaf səviyyəsi hesab





edirdi və hətta Köçərliyə görə ədəbiyyatı millətin "qüdrət və cəlalını" göstərən tarixi vəsiqə, xalqı yaşadan vasitə hesab etmək olar.

Firidun bəy Köçərli əsərini Füzuliyə həsr edilmiş oçerklə başlayır. Lakin əsərdə Füzuli dühası ilə yanaşı Xaqani, Əbül Üla Gəncəvi, Fələki Şirvani, Məhsəti Gəncəvi, İzzəddin Şirvani, Mücirəddin Beyləqani, Seyid Zülfiqar Şirvani və başqaları haqqında da məlumat verilmişdi. Firidun bəyin iki cildlik əsərində M.F.Axundov, M.P.Vaqif, M.V.Vidadi kimi dahi şairlərlə yanaşı, klassik qadın şairələrdən Şahnigar xanım Rəncur, Heyran xanım, Fatma xanım Kəminə, Aşıq Pəri haqqında da yetərincə məlumat almaq olur. Əsərdə XVIII, XIX əsrlərdə və XX əsrin əvvəllərində yaşayıb yaratmış Azərbaycan şairlərinin həyat və yaradıcılığından bəhs edilməklə bərabər, həm də Firidun bəy Köçərlinin bu yolda nə qədər böyük əmək sərf etdiyini görmək olur.

Firidun bəy Köçərli Azərbaycanın həm mədəni, həm də ictimai-siyasi həyatında yaxından iştirak etmişdir. Vətənə, yurda məhəbbəti onun bir tərəfdən Azərbaycanın qədim dövlət olaraq başqa ölkələr arasında tanınmasında, bir tərəfdən də qədim klassiklərimizin yaradıcılığının araşdırılmasında müstəsna rol oynayırdı. O, ölkəsinin ağır sosial-iqtisadi vəziyyətdə yaşamasını görür və eyni zamanda siyasi vəziyyətin ölkədə yaratdığı çətin durumu, xalqına qarşı edilən ayrı-seçkiliyi qəbul etməyərək siyasi fəaliyyətə qoşulur.

Firidun bəy Köçərli olduqca vətənpərvər ziyalı idi. Əsərdə Firidun bəyin yaradıcılığı ilə birgə onun siyasi fəaliyyətinin də hərtərəfli təhlili verilmişdi. Əsərdə qeyd olunduğu kimi Firidun bəy Köçərlinin həyatı bütünlüklə çar üsul-idarəsi dövrünə təsadüf etdiyindən o, Azərbaycanda hökm sürən ədalətsiz qayda qanunlara biganə qala bilmir, öz narazı münasibətini yazılarında və çıxışlarında bildirirdi. "Müsavat" partiyasının üzvü olan Firidun bəy Köçərli siyasi baxışlarına görə daim çar məmurları tərəfindən nəzarətdə saxlanılır, təqib olunurdu. F.b.Köçərliyə

olan siyasi baxış münasibətinin nəticəsində onu millətçi damğası ilə ləkələməyə çalışanlar, sonunda onun həbsinə nail ola bilirlər.

1920-ci ildə həbs olunaraq Gəncə həbsxanasına göndərilən Firidun bəyin vəziyyətindən duyuq düşən şəhər əhalisi, seminariyanın tələbə və müəllimləri üsyan qaldıraraq onun dərhal azad edilməsini tələb edirlər. Bu tələblə onlar hətta inqilab komitəsinə də müraciət edirlər. Gəncədə başlanan qiyamdan istifadə edən Gəncə Hərbi Tribunalının "xüsusi şöbəsi"nin əməkdaşları camaatı duyuq salmamaq üçün guya onun hörmətli bir şəxs olduğunu nəzərə alaraq dindirmədən sərbəst buraxırlar. Əslində məkrli plan üzrə hərəkət edən inqilab komitəsinin bir qrup əməkdaşı Gəncə çayı sahilindəki qırmızı kərpicli məktəb binasında saxlanılan Firidun bəyi aldadaraq çayının sahilinə gətirərək güllələdilər ("Aktual" qəzeti, 2009. №27) .

"Ümmətdən-millətə doğru" əsərində qeyd edildiyi kimi dövründə çox böyük hörmətə malik olan Əhmədağa kişinin ailəsində böyüyən, tərbiyə alan Firidun bəy, zamanın amansız əziyyətlərini uşaq ikən görür, dərk edirdi. Əvvəl mədrəsə, sonra seminariya təhsili alan Firidun bəy Köçərli böyüdükcə repressiya kabusundan qorxmayaraq, milli ədəbiyyatımızın, milli dövlətçiliyimizin mövqeyindən çıxış edirdi.

Firidun bəy Köçərlinin yeri düşdükcə dini mövhumatı, dini fanatizmi kəskin tənqid etməsinə baxmayaraq, etik davranışına görə, xalq arasındakı yüksək nüfuzuna görə onu şeyxülislam vəzifəsinə və parlament üzvü olmağa dəvət edirlər. Müəllimlik peşəsini bütün peşələrdən yüksəkdə hesab etdiyi üçün Köçərli hər iki vəzifədən imtina edir.

Müəllif, Firidun bəyin əmək fəaliyyətində və həyatında baş verən hadisələri monoqrafiyada lazımınca işıqlandırmış və Azərbaycan ədəbiyyatında çox böyük yeri olan dəyərli ədibin yaradıcılığını bir daha Firidun sevənlərin diqqətinə çatdırmağa çalışmışdır.





Firidun bəy Köçərli yaradıcılığı dövründə körpə balaları da unutmamış və onlar üçün ən dəyərli əsəri olan "Balalara hədiyyə" adlı kitabını nəşr etmişdir. Kitab kiçik həcmlidir, bir neçə maraqlı nağıl, hekayə , atalar sözləri və tapmacalardan ibarətdir.

Əsərdə çox düzgün olaraq göstərilir ki, Firidun bəy Köçərlini ölkədə gedən hər bir proses narahat edirdi. O qadınların kölə olmasını istəmirdi. Dini fanatizmin yaratdığı dözülməz qayda-qanunlar qadınların üzərində daha ağır formada özünü büruzə verirdi. İslam dini adından öz xeyirləri üçün yalançı qayda-qanun yaradan fanatik dindarlar bəzən xalqı, dinə tənqidi yanaşanların üzərinə qaldırmağı da bacarırdılar. Əsərdə çox düzgün olaraq qeyd olunub ki, Firidun bəy tənqid edərkən çalışırdı onların heysiyyətinə toxunan, təhqiredici sözlərdən istifadə etməsin. Bu səbəbdən əhali arasında Firidun bəy xüsusi nüfuz sahibi idi. Çar məmurları bu cür məsələlərə heç də yaxşı baxmırdı. Əksinə, onlar çalışırdılar ki, ziyalıları avam camaatın gözündən salsınlar, onlarda ziyalı təbəqəyə qarşı nifrət və kin yaratsınlar. Buna görə çar məmurları hər vəchlə ara qarışdırmaq kimi məsələlərdə canfəşanlıq edirdilər. Çar rejimi əhalinin savadsız təbəqəsindən öz istəklərini həyata keçirmək üçün istifadə etməyə çalışır, ziyalılara imkan vermirdilər ki, avam əhalinin gözünü açsınlar və onları dünya hadisələrindən xəbərdar etsinlər. Bəzən çar məmurları öz məqsədləri üçün yaratdıqları qarşıdurmalarda bir neçə adamı həbs etməklə xalqda bir qorxu, bir xof yaradırdılar.

"Ümmətdən-millətə doğru" əsərinin ana xəttini Firidun bəy Köçərlinin xüsusiyyətində olan millilik təşkil edir. Yaradıcılığının bütün sahələrində milliliyi hiss etdirən Köçərli tələbələrini də həyata və gələcəyə milli ruhda hazırlayırdı.

Firidun bəy Köçərli ağıllı, eyni zamanda müdrik idi. 57 illik ömrünün qırx ilə yaxın bir dövrünü pedaqoji fəaliyyətə həsr edən ədib xalqının Avropa xalqları kimi azad, firavan görmək, qadınlarımızın Avropa qadınları kimi təhsilli olmasını arzu edirdi. O, bu yolda var qüvvəsini sərf edərək inanırdı ki, gün gələ-

cək, onun ölkəsi azad bir dövlət olaraq dünyada tanınacaqdır.

"Ümmətdən-millətə doğru" əsərində qeyd edildiyi kimi milliliyə, dil və əlifba məsələsinə çox ciddi yanaşan Firidun bəyin ümdə arzusu ölkəsinin milli mətbuatının, milli mətbəəsinin olması idi. Kitablarını min bir əzabla illərlə növbə gözləməklə erməni, gürcü mətbəələrində çap etdirən Firidun bəy Köçərli bu yolda ciddi çalışırdı. Onun əsas mübarizəsi isə dilimizin saflığı uğrunda apardığı mübarizə idi. Çar imperiyasının kiçik xalqların dillərinə qarşı olan təzyiqləri, zorla xalqların dillərinin ruslaşmasına çalışmaları Firidun bəyə pis təsir edirdi. Bəlkə də bu səbəbdən onun yaradıcılığının əsasını dil və əlifba məsələləri təşkil edibdir.

Şifahi xalq ədəbiyyatımızı dərindən öyrənən Köçərli Azərbaycan mədəniyyətinə ən dəyərli əsərlər hədiyyə etmişdi. Zamanın nəbzinə uyğun olaraq Azərbaycan klassiklərinə həsr etdiyi əsər müxtəlif adlarla "Azərbaycan tatarlarının ədəbiyyatı", "Azərbaycan türklərinin ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlandırılmış və nəhayət sonuncu dəfə "Azərbaycan ədəbiyyatı" adı ilə nəşr olunmuşdu. Onun ikicildlik "Azərbaycan ədəbiyyatı" əsəri ədəbiyyat tariximizin incisi olaraq bu günümüzdə də istifadə edilir. Azərbaycan klassiklərinin həyat və yaradıcılığından bəhs edən bu əsər Azərbaycan ədəbiyyat tarixindən yetərincə məlumat verir.

Müəllif haqlı olaraq qeyd edir ki, Firidun bəy Köçərli əmək fəaliyyətini təkcə pedaqoji işi ilə bitmiş hesab etmirdi. O məktəblilər üçün dərsliklər hazırlayır, kiçik hekayələr, pyeslər və nağıllar yazır, tərcümələr edir, publisistik məqalələr hazırlayır, təhsil islahatında yeniliklər edilməsi üçün dərs proqramları tutur, adət-ənənələrimizin daha dərindən öyrənilməsi üçün araşdırmalarla məşğul olur və eyni zamanda siyasi proseslərdə yaxından iştirak edirdi.

Firidun bəy Köçərlini ən çox narahat edən ədəbi dil məsələsi idi. Ədəbi dil məsələsini gündəmə gətirən Köçərli Azərbaycanın bölgələr üzrə şivə, ləhcə danışıq formasının ədəbiyyata daxil edilməsinin əleyhinə idi. O, nəinki Azərbaycan türkcəsində olan şivələrin, eləcə də Osmanlı türkcəsinin və ərəb-fars sözlərinin də dilimizə qarışmasının qəti əleyhinə idi.





Avropa ölkələrində təhsil alan bəzi ziyalılarımız yabançı sözlərin ədəbiyyatımıza daxil olmasına çalışırdılar. Firidun bəy belələrinə qarşı çıxır, ana dilimizin heç də qeyri xalqların dilindən geri qalmadığını, əksinə daha gözəl, axıcı dil olduğunu sübut etməyə çalışırdı. Firidun bəy milliyyətindən asılı olmayaraq dilinə hörmət edən hər bir millətin nümayəndəsini dəyərləndirir, onu vətənpərvər adlandırırdı.

"Ümmətdən-millətə doğru" əsərində müəllif haqlı olaraq "Rus pedaqogikasının atası" sayılan K.D.Uşinskini Firidun bəy Köçərlinin nəzərində millətini, dilini sevən biri olduğunu göstərir. Əslində bu belə idi. Köçərli qeyri xalqların yazıçılarının adlarını misal çəkməklə onların dillərinə olan hörmətlərini göstərməyə çalışırdı. Köçərli 1913-cü ildə "Molla Nəsrəddin" jurnalının №22 qeyd edirdi ki, dili olmayan xalq heç nədir. Bu münasibətlə o deyirdi: "Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan, ölüb-itməz, amma dilini alsan fot olar və ondan bir nişan qalmaz".

Ədəbiyyata hədsiz bağlılığı olan Firidun bəy Köçərli "Ədəbiyyat nədir?" sualına belə cavab verirdi: "ədəbiyyat 2 qisimdir: bir qisim ağızda söylənilən nağıl, hekayələrdən, cürbəcür nəğmələrdən, aşıq sözlərindən, məsəllərdən, tapmacalardan, yanıltmaclardan, ağıçı sözlərdən, bayatılardan ibarətdir. Bir qisim ədəbiyyata ədəbiyyati-lisani və ya əfvahi və yaxud el ədəbiyyatı deyilir. İkinci qisim ədəbiyyat üdaba və şüəranın, üləma və hükamanın asari-qələmiyyələrindən vücuda gələn təhrizat və təsnifatdan ibarətdir ki, bunlar xah nəsr ilə yazılmış olsun, xah nəzm ilə, xah ulum və fünuna dair olsun və xah əxlaq və ətvardan, şeir və qəzəliyyətdən bəhs eləsin. Hər iki qisim ədəbiyyatın bünövrəsi və təkyəgahı sözdür ki, qüdrəti-ilahi ilə insanın ağzın-

da xəlq olunubdur və onun vasitəsilə insanın batini aləmə məlum və zahir olur, dəqayiqi-məani onunla bir-birindən təmyiz qılınır və bundan əlavə yer üzündə sair məxluqatilə mabeynində vüqua gələn mümalatı və rəftarı və mədarisi şərh və bəyan eyləyən sözdür. Söz olmasaydı, əlbəttə, ədəbiyyat dəxi olmazdı" (Firidun bəy Köçərli - "Əsərləri", Bakı, 2013, s.7).

Müəllif əsərində Firidun bəy Köçərlinin əsası M.F.Axundov tərəfindən qoyulan realizm ədəbi cərəyanını daha da inkişaf etdirdiyindən bəhs edir. Köçərli yaradıcılıqda dərin realizm və xəlqiliyi yüksək dəyərləndirirdi. M.Ə.Sabirin əsərlərində onun "Açıq və sadə ana dilində" yazmasını səciyyələndirərək deyirdi: "Sabir əsrimizin ən müqtədir və xoş təb şairlərindən birisidir. Onun sabiqdə bəzi mütəar adlar ilə imzalanmış abdar və xoşagəlməz kəlamları "Molla Nəsrəddin"in səhifələrində dərc olunub, oxucuları bir yandan güldürüb, bir yandan ağladırdı. Onun yazdığı şeirlərin çoxu açıq və sadə dildə olub məişətimizin eyninin göstərməyə görə əzbər öyrənilirdi (M. Məmmədov: "Şair və vətəndaş". 1962, I seriya №19,s.16).

O, rusdilli mətbuatla da sıx əlaqə saxlayırdı, mütəmadi olaraq məqalələri "Kaspi", "Kavkaz", "Tiflisskiy listok", "Novoye obozreniye", "Zakavkazye", "Znaniye", "Zakavkazskoye obozreniye", "Kavkazskiy vestnik", "Otqoloski" və digər qəzetlərdə dərc olunurdu. Firidun bəy xalqın həyatından bəhs edən real hadisələrə istinad edərək yazırdı, yəni o uydurmalardan, fantaziyalardan uzaq idi.

Müasir çağdaş dövrümüzün ziyalıları, ədəbiyyatçı və tənqidçilər demək olar ki, Firidun bəy Köçərli yaradıcılığından bəhrələnmiş, ona istinad etmişlər. Neçə-neçə ədəbiyyatşünaslarımız və digər peşə sahibləri F.b.Köçərlinin yaradıcılığına yaxşı bələddirlər. K.Talıbzadə, M.Dadaşzadə, M.C.Paşayev, M.İbrahimov, H.Araslı, Ş.Qurbanov, B.Nəbiyev və onlarla alimlərimiz Firidun bəy Köçərlinin yaradıcılığına müraciət etmiş, tədqiqat aparmış və gözəl əsərlər meydana çıxarmışlar.





Haqqında bəhs etdiyimiz "Ümmətdən-millətə doğru" əsəri də həmən alimlərin əsərləri əsasında meydana gəlmişdi. Müəllif F.b.Köçərlinin yaradıcılığına həsr edilmiş "Ümmətdən-millətə doğru" əsərində klassik ədəbiyyatımızın dəyərli nümayəndələrindən, dövrün ictimai-siyasi hadisələrindən, savadsızlığın ləğv edilməsi uğrunda ziyalılarımızın apardığı mübarizədən, cəmiyyətdə qadın hüquqsuzluğunun aradan qaldırılmasından, dini fanatizmin başımıza gətirdiyi bəlalardan, ölkəmizdə millilik ruhunun oyanması və digər məsələlərdən çox geniş məlumat verilir ki, bu da gələcəkdə Köçərlinin tədqiqatı ilə məşğul olmaq istəyən tədqiqatçılar üçün dəyərli mənbədir.

**Şamil Vəliyev,**
***filologiya elmləri doktoru, professor***

## FİRİDUN BƏY KÖÇƏRLİNİN YENİ TƏDQİQATÇISI

Ulu öndərimiz Heydər Əliyevin sənət adamlarına, mədəniyyət və elm xadimlərinə göstərdiyi daimi qayğı və diqqəti, bu gün də ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün əmək adamlarına göstərilən bu qayğı və diqqət Heydər Əliyev siyasətinin uğurlu davamıdır.

Buna bariz nümunə kimi İlham Əliyevin 14 fevral 2013-cü ildə ədəbiyyatşünas, maarifçi, ictimai xadim, publisist-yazıçı Firidun bəy Köçərlinin 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncamı göstərmək olar.

Bu sərəncam respublikamızın ziyalılarının, alim və jurnalistlərinin, elm və təhsil işçilərinin, şair və yazıçılarının bir daha Firidun bəy Köçərli yaradıcılığına diqqətini artırdı, onun haqqında yeni tədqiqat və axtarışlar aparmaq işini gündəmə gətirdi.

Çox təqdirəlaiq və sevindirici haldır ki, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin şöbə müdiri, aparıcı məsləhətçi, Dövlət qulluğunun baş müşaviri Pərixanım Mikayıl qızı Muradova son illər Firidun bəy Köçərli yaradıcılığına xüsusi vaxt ayırmış və özünün yenicə çapa hazırladığı "Ümmətdən-millətə doğru" tədqiqat işini oxucuya təqdim etmişdir.

Şair, publisist, kitabxanaşünas, ictimai işlərlə fəal məşğul olan, bacarıqlı təşkilatçı, məsuliyyətli, əməksevər işçi kimi tanınan Pərixanım Mikayılqızı tez-tez respublika mətbuatında görkəmli şəxsiyyətlərə həsr etdiyi onlarla maraqlı elmi-publisist məqalələri ilə diqqəti cəlb edir.

Pərixanımın yaradıcılığından danışanda onun 2013-cü





ildə "Elm və Təhsil" nəşriyyatında çapdan çıxmış "Keçmişə qayıtmaq istəyirəm mən" şeirlər kitabını yada salmamaq olmaz. Kitabda analara, nəvələrə, Qarabağ müharibəsinə və soyqırıma məruz qalan azərbaycanlılar haqqında şeirlərə xüsusi yer ayrılmış, Azərbaycanımızın gözəl və füsunkar təbiətinə, əməkçi insanlarına həsr olunmuş şeirlər geniş yer almışdır.

O, elmi axtarışlar, yeni tədqiqatlar və böyük zəhmət hesabına bir daha F.b.Köçərlini görkəmli maarifçi, ədəbiyyatşünas, folklorçu, tərcüməçi, pedaqoq, Azərbaycanda ictimai-mədəni fikrin təşəkkülünə mühüm föhfələr verən, tanınmış ziyalı kimi göstərməyə nail olmuşdur. Əsər bir sıra üstünlükləri ilə fərqlənir. Belə ki, Firidun bəy Köçərlinin ana dilinin saflığı uğrunda mübarizsəsi, rusdilli mətbuatla əməkdaşlığı, F.b.Köçərlinin publisistikasında millilik dəyərləri, onun pedaqoji fəaliyyəti haqqında, Köçərlinin Azərbaycan mədəniyyəti tarixindəki rolu, onun ictimai-siyasi həyat baxışları, Köçərli yaradıcılığında qadına ailədə və cəmiyyətdə münasibət, Köçərli yaradıcılığında dinə münasibət, uşaq ədəbiyyatı haqqındakı dəyərli fikirləri, folklor araşdırmaları, təhsil məsələləri və s. fəaliyyəti Pərixanım Mikayılqızının oxucuya təqdim olunan bu əsərində qabarıq şəkildə, yeni araşdırmalara, tədqiqatlara istinad etməklə, daha yeni rakus və müasir baxışlarla oxucuya təqdim olunur. Bütün bunlar əslində kitabın dəyərini qaldırır, oxucuya yeni fikirlər aşılayır, Köçərli yaradıcılığında oxucuya bəlli olmayan, oxucunun bilmədiyi məqamları ona çatdırmaqda yardımçı olur.

Onu da qeyd etmək lazımdır ki, əsəri nəşrə hazırlayarkən 300-dən çox qəzet, jurnal, kitab və fotolardan, elektron informasiya mənbələrindən istifadə edilmişdir.

Firudin bəy Köçərli yaradıcılığı haqqında uzun illər araşdırmalar aparan Pərixanım sayca ikinci dəfədir ki, bu mövzuya müraciət edir. Hələ 2013-cü ildə Pərixanım F.b.Köçərlinin 495-səhifəlik "Əsərləri" kitabını da kiril qrafikalı əlifbadan, la-

tın qrafikalı əlifbaya transliterasiya etmişdi. Kitab Azərbaycan ziyalıları tərəfindən böyük hüsn-rəğbətlə qarşılanmış və təntənəli şəkildə kitabın oxuculara təqdimatı keçirilmişdir.

Firidun bəy Köçərli yaradıcılığını daim tədqiq edən, onu araşdıran Pərixanım bu gün də bu işdə yorulmaq bilmədən axtarışdadır, o dövrün kitab, qəzet və jurnallarını hələ də vərəqləyir. Mən əminəm ki, bu davamlı axtarışlar, özünün yeni-yeni bəhrəsini verəcəkdir.

İnanıram ki, daim öz üzərində çalışan, özünə böyük tələbkarlıqla yanaşan gözəl ana, mehriban nənə, yaxşı işçi, bacarıqlı təşkilatçı və ictimaiyyətçi, şairə Pərixanım Mikayılqızı bizləri gələcəkdə də öz dəyərli əsərləri ilə sevindirəcəkdir.

Bu işdə ona uğurlar və nailiyyətlər arzulayıram!

**Mais Bağırov,**

***Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru, tarix elmləri namizədi, Azərbaycan Jurnalistlər irliyinin üzvü, Dövlət qulluğunun baş müşaviri***





# FİRİDUN BƏY KÖÇƏRLİNİN AZƏRBAYCAN MƏDƏNİYYƏTİ TARİXİNDƏ ROLU

Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən olan Firidun bəy Köçərli, XIX əsrin sonu XX əsrin əvvəllərində yaşadığı dövrünün ən nüfuzlu pedaqoqu, ədəbiyyat tənqidçisi, publisisti, folkloşünası olmaqla bərabər, həm də gözəl mədəniyyət işçisi idi. O, bütün ömrünü uşaqların təlim-tərbiyəsinə həsr edərək, onlara əsl mənada təhsil, bilik verməklə bərabər mədəniyyəti də öyrədirdi.

F.b.Köçərli bütün bu sadaladıqlarımızla kifayətlənməyərək, uşaqlar üçün kiçik həcmli hekayələr, nağıllar, şeirlər yazmış, Azərbaycan mədəniyyətinə, eləcə də millətin gələcəyi olan balalarımızın maariflənməsinə vicdanla xidmət göstərmişdir. F.b.Köçərlinin yaradıcılığına nəzər saldıqda Azərbaycan ədəbiyyatının bütün sahələrində onun əməyi, zəhməti olduğunu görürük.

Azərbaycan xalqının əsrlər boyu davam edən mübarizəsi bədii inkişafa, ədəbiyyat və sənətdə realistik meyllərin qüvvətlənməsinə təsir göstərməyə bilməzdi. Bunun nəticəsidir ki, Azərbaycan qonşu Şərq ölkələri İran və Türkiyəyə nisbətən bədii inkişaf sahəsində realizm və xəlqilik yoluna daha tez qədəm qoymuşdur (1.s.8).

F.b.Köçərli bütün bu hadisələrin fonunda Azərbaycanın tərəqqisi naminə mübarizə aparanlara qoşularaq, ziyalı təbəqəsinin ən yüksək zirvəsinə ucalmışdır.

Qabaqcıl Azərbaycan yazıçıları mədəniyyətə xidmət göstərərək, müxtəlif janrlarda(xüsusən dram janrı – P.M) əsərlər ya-

zır, onları səhnələşdiririr və tamaşaya hazırlayırdılar.

Baxmayaraq ki, tamaşalarda əsasən Azərbaycan dramaturgiyasının banisi hesab edilən M.F.Axundovun əsərləri üstünlük təşkil edirdi, lakin bunula yanaşı başqa dramaturqların əsərlərinə də müraciət olunurdu. Firidun bəy Köçərli M.F.Axundovun yaradıcılığını özünə məktəb hesab etdiyi üçün ən çox da onun əsərlərinə maraq göstərirdi. Köçərli Axundovun komediyalarını Azərbaycan teatrının yaranmasında ədəbi bir bünövrə sayırdı. Həm də ki, o bunu mədəniyyətimizin inkişafına doğru bir irəliləyiş hesab edirdi.

Danılmaz faktdır ki, mədəniyyətin inkişafına mane olmaq istəyən qüvvələr teatrı ümumiyyətlə qəbul etmir, ona bir əyləncə vasitəsi kimi baxırdılar. Hətta teatrı haram hesab edir, tamaşalara gedənləri isə kafir adlandırırdılar. Bu ən çox dindar ruhanilər tərəfindən pislənilirdi, habelə buna dəstək olan ziyalı müəllimlər və həvəskar aktyorlar dindarlar tərəfindən təqiblərə, təzyiqlərə məruz qalırdılar.

Mədəniyyətin ayrılmaz qolu olan teatr inkişaf etdikcə, məişətə daxil olaraq mühüm bir tərbiyəvi vasitəyə çevrilirdi. Səhnə sənətində realizm uğrunda mübarizə çox böyük əhəmiyyət kəsb edirdi. Teatrın ictimai-tərbiyəvi rolunu möhkəmləndirmək məqsədilə realizm uğrunda aparılan mübarizə eyni zamanda da əyləndirmək təmayülünə qarşı edilən mübarizə demək idi.

Azərbaycan mədəniyyətinin və maarifinin inkişafı üçün böyük əmək sərf edən mübarizlərdən Firidun bəy Köçərli, təkcə Azərbaycan mədəniyyətindən deyil, habelə, rus mədəniyyətindən istifadə edirdi. O, dünya dramaturgiyasının ən yaxşı əsərlərindən tərcümələr etməyi məqsədəuyğun hesab edirdi.

Firidun bəy Köçərli möhkəm kitab həvəskarı idi. O, Azərbaycanın şair və yazıçılarından başqa, rus və dünya ədəbiyyatını da mütaliə etməyi sevirdi. Köçərlinin mədəniyyət tarixindəki xidmətləri çox olubdur. Sadəcə onu qeyd etmək yerinə





düşərdi ki, Köçərlinin incəsənətə olan bağlılığı bəlkə də onun mütaliə etdiyi əsərlərdəki personajları xalqa çatdırmaq həvəsi idi. O, həyatdakı mənfi tiplərin obrazının səhnələşdirilməsini və tamaşaçı ixtiyarına verilməsini maarifçilik təbliğinin bir hissəsi hesab edirdi. Firidun bəy dramaturqların əsərlərindən danışarkən, M.F.Axundovun dramaturgiyasını ədəbiyyatımızın, bütünlükdə mədəniyyətimizin qələbəsi sayırdı. F.b.Köçərli özü dram əsəri yazmasa da, yeni nəslin yazıçı nümayəndələrinin çoxu dram əsəri yazmaqla yaradıçılıq imtahanı vermişdir. Onlar komediya əsərləri ilə yanaşı, faciə janrında da əsərlər yazır və mədəniyyətimizi zənginləşdirirdilər.

F.Köçərli "Azərbaycan komediyaları" (1895) və "Azərbaycan ədəbiyyatı" (1903) əsərlərində milli dramaturgiyanın inkişafından danışarkən M.F.Axundov ənənələrindən öyrənməyi gənc Azərbaycan dramaturqlarının müsbət keyfiyyəti kimi xüsusi qeyd edirdi (8.s.150).

Firidun bəy Köçərlinin yaradıcılıq dövrü elə bir zamana təsadüf edirdi ki, ölkədə inqilabi oyanış bir tərəfdən, sosial-iqtisadi vəziyyətin ağırlığı bir tərəfdən, dini mövhumatın kəskinliyi bir tərəfdən, cəhalət, nadanlıq, hərc-mərclik digər tərəfdən cəmiyyətdə elə bir çətin vəziyyət əmələ gətirmişdir ki, təhsil, azadlıq, maarif-mədəniyyət haqqında nəinki təbliğat aparmaq, hətta danışmaq belə həddindən artıq qorxulu idi, bəzən insanın həyatı bahasına başa gələ bilirdi. Buna görə F.b.Köçərli hər addımında səbrli, təmkinli olmağa və ehtiyatlı davranmağa çalışırdı.

F.b.Köçərli görürdü ki, mədəniyyətin əsas qolu hesab edilən teatr, onun həvəskar aktyorları və teatrın qabaqcıl adamları təqib edilirdi. Qəddar mürtəcelər teatrda ağalıq etməyə başlayırdılar.

F.Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində dramaturgiyanın inkişafında teatrın rolundan söhbət açaraq yazırdı: "...bizim yaşadığımız zamanədə dramatik əsərlər Azərbaycan yazıçı-

larının zövqlərinə uyğun gəlmişdir.Bu, başlıca olaraq belə bir vəziyyətlə izah olunur ki, ədəbi əsərlərin bu növündə cəmiyyətdəki nöqsanları və qüsurları daha dolğun və aydın şəkildə göstərmək və həmin əsərləri səhnədə tamaşaya qoymaqla kütlənin diqqətini bu nöqsanlara və qüsurlara cəlb etmək mümkündür (8.s.151).

Köçərlinin həyatı və fəaliyyəti Tiflis mühiti ilə bilavasitə bağlı olsa da, o Bakı və Azərbaycanın bölgələri ilə müntəzəm əlaqə saxlayırdı. Azərbaycanda baş verən hadisələrə biganə qala bilməyən Firidun bəy onu narahat edən siyasi və mədəni xəbərləri izləyir, əhalinin vəziyyətindən xəbər tuta bilirdi.

Mövhumatçı xürafatçıların ziyalılara qarşı törətdikləri ixtilaflar, çəkişmələr bəzən pis sonluqla bitirdi. Mədəniyyətin əsas bazası olan teatr özünü formalaşdırmağa çalışdığı bir vaxtda, belə adamlar Bakıda "Tağıyev teatrı" adlanan binanı yandıraraq, bu sənəti bütünlüklə tənəzzülə uğratdılar. Onsuzda sosial vəziyyəti ağır olan insanlar, xüsusilə də aktyorlar daha da pis vəziyyətə düşdülər. Onlar acınacaqlı şəraitdə yaşayaraq ölürdü və yaxud öldürülürdü. Bütün bunlardan məlumatlı olan Köçərli, ilk növbədə mədəniyyəti avam kütlələrə anlatmağı, onların şüurlarından bu nadanlığı silməyi, təhsilə, savada yer vermək kimi məsələlərin uğrunda mübarizəyə qalxmağı gərəkli hesab edirdi.

F.b.Köçərli maarifçiliyin yayılması və təbliğində müəllimlərin rolunu əsas vasitə üsulu hesab edirdi. Çünki, uşağa kiçik yaşlarından dərs deyən müəllim onun təlim-tərbiyəsində mühüm rol oynayır. Müəllim uşağa təhsil verməklə yanaşı, həm də ona mədəni rəftarı, ziyalıcasına hərəkət etməyi, etika və estetikanı da başa salır. Bütünlükdə mədəniyyəti əhatə edən bu hərəkətlər tədricən formalaşan uşaqların həyatında özünü büruzə verə bilir.

Firidun bəy Köçərli Azərbaycanın milli mətbuatı, dili, ədəbiyyatı, maarifi, qadın təhsili, azadlığı barədə böyük arzular bəsləyir və xalqın tərəqqisi uğrunda, xüsusilə də mədəni ehtiyaclarının təmin olunmasında əlindən gələn köməyi əsirgəməyirdi.





Bunların başında milli mədəniyyətin dayandığını gözəl anlayan Köçərli təhsilin geniş inkişaf etməsinə daha çox fikir verirdi.

Qeyd edildiyi kimi mədəniyyətin geniş vüsət tapmasında ziyalılarımızın xidməti danılmazdır. F.b.Köçərli də bu ziyalıların sırasında öndə olanlardan idi. O, nəinki görkəmli müəllim, eyni zamanda savadlı ədəbiyyatşünas, publisist, tənqidçi, maarifpərvər, folklorşünas idi. O, eyni zamanda uşaq tərcümə ədəbiyyatının ilkin yaradıcılarından olubdur. Uşaq yaradıcılığı Köçərlidən sonra gələn bir çox bədii söz sənətkarlarımızın, qələm sahiblərimizin ilham mənbəyinə çevrilmişdi.

F.b.Köçərli yüksək səviyyəli mədəniyyət təbliğatçısı idi. Firidun bəy xalqın cəhalət yuxusundan oyanmasına çalışırdı. Artıq elə bir dövr yetişmişdi ki, Köçərlinin özü çar məmurları tərəfindən təqib edilirdi.

F.b.Köçərli yaradıcılığının əsas bir hissəsini folklorumuzun toplanması işinə həsr etmişdir. O, folklora aid nümunələrdən səhnəciklərin hazırlanmasını, onların tamaşaya qoyulmasını, dini mərasimlər zamanı imamların qətlə yetirilməsi gününü (aşura –P.M.) şəbih formasında meydanlarda, xalq arasında oynanılmasını görürdü və bəlkə də bu səbəbdən xalqın bəlalarının səhnələşdirilərək tamaşaya qoyulması ideyasına müsbət münasibətini bildirirdi. Firidun bəy Köçərli müntəzəm olaraq dramaturqların əsərlərinə müraciət etməyi məqsəduyğun sayırdı. Yəni, o mübarizəni dayandırmadan, bu yolla maariflənmənin daha sürətlənə biləcəyini düşünürdü. Köçərli sadəcə bütün yollara əl ataraq fikirlərini, düşüncələrini xalq arasında yaymağa çalışırdı. O bu tamaşaların gec ya tez meydan çərçivəsindən çıxaraq, profesional səhnəyə yol açacağına ümid bəsləyirdi.

1882-ci ildən başlayaraq Şuşada mütərəqqi müəllim və ziyalı qüvvələrinin rəhbərliyi ilə yay tətillərində M.F.Axundovun komediyalarından tamaşalar hazırlayaraq oynayırdılar. Tamaşalar Bakıda və Gəncədə də göstərilirdi. Tamaşaların bir

çox iştirakçıları, o cümlədən bir sıra komediya və vodevillərin müəllifi, "Otello"nun birinci tərcüməçisi Haşım bəy Vəzirov, müəllim-aktyorlar B.Bədəlbəyov, S.Vəlibəyov, məşhur xanəndə C.Qaryağdı, Ə.Haqverdiyev, F.Köçərli və başqaları Bakıya gələrək buradakı dəstəyə qoşulur, "Bakı özəyi"ni təşkilat və yaradıcılıq cəhətdən xeyli qüvvətləndirirdilər. Bu adamların bütün marağı, yaradıcılıq həvəsi Azərbaycanda milli teatr yaratmaq, onu irəli aparmaq ideyasına həsr edilmişdi. Şəxsi, ailə və qulluq interesləri teatr yolunda fəda edirdilər (1.s.36).

Azərbaycanlıların maariflənməsində xüsusi xidmət göstərən F.b.Köçərli mədəniyyəti sanki insan həyatının formulu hesab edirdi. Mədəniyyətdə əxlaqa yüksək qiymət verən ədib harada olmağından asılı olmayaraq insanın intizamlı, nəzakətli, ədəbli olmasının böyük əhəmiyyət daşıdığını qeyd edirdi.

F.b.Köçərli teatr sənətini gözəllik adlandırır və bu gözəlliyi dəyələndirməyi, gözəllikdən zövq almağı, incəsənəti anlamağı mühüm sayırdı. Yəni, Köçərli demək istəyirdi ki, əgər insan həyatda yaşayırsa bütün gözəllikləri duymalı, əsl mənada insan kimi yaşamalıdır. Bu fikirləri əksər ziyalıların həyat və yaradıcılığında görmək olur. Mədəniyyətin əsasını təşkil edən incəsənət bu cəhətdən daha maraqlıdır.

Azərbaycan ədəbiyyatında öz dəstixətti ilə yadda qalan görkəmli şəxsiyyətlər kimi böyük maarifpərvər, demokrat şairi Seyid Əzim Şirvaninin də mədəniyyət və incəsənətə dair maraqlı fikirləri olubdur. Seyid Əzim deyir: "Kim ki, zövq əhli deyil, ani hesab eylə həcər". Həqiqətən gözəl bir şeydən zövq almaq üçün bu gözəlliyi anlamağı və onu qiymətləndirməyi bacarmaq lazımdır. Buna görə də Seyid Əzim musiqiyə dair yazmış olduğu şeirində deyir:

*"Musiqi məclisinin əhli gərək əhli-bəsər,*
*Ta görə pərdeyi-əsrardə yüz nəqşü süvər"*





Musiqinin bütün incəliklərini duymaq üçün adam nəinki bədii cəhətdən savadlı, həm də ümumiyyətlə yüksək mədəni səviyyəli və tərbiyəli olmalıdır (9.s.211).

Buradan bir daha belə nəticəyə gəlmək olur ki, Firidun bəy Köçərlinin mədəniyyət barəsində söylədikləri təkcə təhsil, təlim-tərbiyədə deyil, həmçinin incəsənətdə, teatr, musiqi, şeir, ədəbiyyat və sənət əsərində də olmalıdır.

Ədəbiyyat həvəskarı olan Firidun bəy Köçərlinin qarşıya qoyduğu ən mühüm vəzifəsi, yalnız xalqına xidmətdən ibarət idi. Son dərəcə mədəni davranışlı və yüksək etikaya sahib olan Köçərli elə bu həvəslə də əsl vətəndaş olaraq, ona qarşı edilən bütün haqsızlıqlara dözür və xalqının azadlıq yollarını axtarırdı.

XIX əsrin sonlarında Azərbaycan mədəniyyətində demokratik bir yüksəliş, yenilik özünü göstərməyə başlamışdı. Hələlik az da olsa təhsildə, mətbuatda, incəsənətdə və başqa sahələrdə yenilik, müasirlik hiss olunurdu. Deməli ziyalıların zəhməti hədər getməyir, maarifçilik ideyaları genişlənirdi. Qabaqacıl və mütərəqqi ziyalı Firidun bəy Köçərli bir mübarizə fədaisi olaraq, etdiklərini ictimai vəzifə borcu kimi deyil, əsl millət oğlunun borcu olaraq həyata keçirməyə çalışırdı. F.b.Köçərli ondan əvvəl yaradıcılıq fəaliyyəti ilə məşğul olan dahi sənətkarların əsərlərindən görüb-götürmüşdü. Mənbələrdə onun M.F.Axundovun davamçısı və H.Zərdabi ideyalarının təbliğatçısı kimi bu dahilərin yaradıcılığından bəhrələndiyini açıq-aşkar görmək olur.

Firidun bəy Köçərli H.Zərdabinin "Əkinçi" qəzetində ədəbi əsərlərə mövzu və janr cəhətdən böyük əhəmiyyət verildiyini, mədəniyyətlə bağlı məqalələrin dərc edildiyini bilirdi. Hələ o zaman "Əkinçi" də mahnı janrına xüsusi yer verilmişdi. Müasirliyi və yeniliyi sevən Köçərli bu səbəbdən Zərdabi yaradıcılığını dəyərləndirirdi.

Təsadüfən deyil ki, Həsən bəy Zərdabinin özü Bakı real məktəbinin direktoru olan zaman sevimli tələbəsi N.B.Vəzirovla

birlikdə Azərbaycanda milli teatrın yaradıcısı olmuşdur. 1873-cü ildə onlar M.F.Axundovun "Lənkəran xanının vəziri" komediyasını ilk dəfə səhnədə oynamış və bununla da Azərbaycan teatrının əsasını qoymuşlar (7.s.73).

Firidun bəy Köçərli təhsil aldığı və ədəbi yaradıcılıqla məşğul olduğu zamanlarda dahi şəxsiyyətlərin məktəbindən bəhrələnmiş, lakin öz yolunu seçmişdir. Onun maarif və mədəniyyətə olan marağı sözsüz ki, bu dahilərin yaradıcılığından qaynaqlanmışdır.

Firidun bəy Köçərli ilk dərslərini hələ kiçik yaşlarında olarkən, qəzəl həvəskarı və ədəbiyyat bilicisi olan atasından öyrənirdi, sonralar isə bu maraq ədəbiyyaşünaslıqda öz təsirini göstərməyə başlayır. İlk biliyini atasının məktəbindən alan Köçərli zaman keçdikcə özü də vaxtını müxtəlif dahilərin yaradıcılığına maraq göstərməyə və kitablar oxumağa sərf edirdi. Köçərlinin dostları və müasirləri olan şairlər bu yolda onunla bir ideya, bir məfkurə daşıyıcıları idilər.

Firidun bəy Köçərli Qori seminariyasını bitirən kimi İrəvan gimnaziyasına müəllim təyin olunur. O, 1885-1886-cı dərs ilindən ilk dəfə olaraq müstəqil müəllim kimi əmək fəaliyyətinə başlayır.

1886-cı ildə 23 yaşlı gimnaziya müəllimi Firidun Köçərli İrəvanda teatr tamaşası təşkil edir. O, Qori seminariyasının məzunu kimi 1885-ci ildə İrəvana gəlmişdi. Həmin tamaşa M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli Şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrildi (10.s.1/4).

On il İrəvan gimnaziyasında işlədikdən sonra, F.Köçərli Qafqaz təhsil dairəsi Popeçitelinin 30 oktyabr 1895-ci tarixli əmri ilə Qori Müəllimlər Seminariyasına köçürülür. Bu təyinat Köçərlinin xeyli məmun edir və o böyük bir həvəslə özünə doğma bildiyi Qori seminariyasında fəaliyyətə başlayır (5.s.24).





F.b.Köçərlinin gərgin yaradıcılıq fəaliyyəti, savadı və mədəniyyəti ona əhali arasında hörmət qazandırmışdı. Bu hörmətinə görə gimnaziyanın direktorunun xahişi və Qafqaz təhsil dairəsi Popeçitelinin əmri ilə o, müəllimlikdən əlavə, pansion mürəbbisinin köməkçisi vəzifəsinə təyin edilir. Azərbaycan dilində heç bir ədibin əsərinin olmadığını görən Köçərli rus ədiblərinin əsərlərindən tərcümə etmək kimi ağır bir işi öhdəsinə götürür və kiçik əsərlərin tərcüməsi işi ilə məşğul olmağa başlayır.

Firidun bəy İrəvan gimnaziyasında çalışdığı müddətdə gördü ki, elm, maarif və təhsil cəhətdən bu əyalət Azərbaycanın digər əyalətləri kimi geridə qalmışdır. Burada çox az adam tapılardı ki, savadlı olmuş ola. Köçərli İrəvanda bir neçə ziyalı və şairlə dostluq edirdi ki, bu dostların vasitəsi ilə o, həyatdan köçmüş azərbaycanlı ədiblər haqqında məlumat toplaya bilirdi. Bundan əlavə F.Köçərli müəllimlərlə pedaqoji söhbətlər aparır, bilmədiklərini təcrübəli müəllimlərdən öyrənir və bəzən onların çalışdığı məktəblərə gedərək, dərslərində otururdu. Firidun bəy yetərincə təcrübəsi olan müəllim Bəzminin dərs üsulunu çox bəyəndiyi üçün onu təqdir edirdi. Hətta arada gimnaziyanın direkroru Broşnikovdan icazə alaraq, İrəvanın Azərbaycan məktəblərində dərslərin gedişatı ilə maraqlanır və onların iştirakı ilə açıq dərslər keçirirdi. Çalışqanlığı və intizamlı əmək fəaliyyəti onu hörmət sahibi etmişdi. Buna görə gimnaziyanın direktorunun xahişi və Qafqaz təhsil dairəsi Popeçitelinin əmri ilə o, müəllimlikdən əlavə, pansion mürəbbisinin köməkçisi vəzifəsini icra edir.

Gimnaziyada çalışan gənc müəllim Firidun bəy Köçərli şagirdlərin dərs oxumalarından əlavə, məktəbdə onların ictimai əməyə cəlb edilməsi sayəsində də çalışırdı. O, dərsdən əlavə onlara şeir söyləmək, səhnəciklər hazırlamaq kimi məşğələlər keçirir və çox böyük həvəslə, zövqlə şagirdlərlə məşğul olurdu.

Bilirik ki, ədəbiyyat mədəniyyət deməkdir. Qeyd edildi-

yi kimi mədəniyyət geniş əhatəli olduğu üçün onun haqqında tək bir fikir söyləmək olmur. Çünki, təhsil, tədris, təlim-tərbiyə, nitq, ədəbi dil, davranış, əxlaq və s. ümumilikdə mədəniyyətin əsas formalarından hesab olunur. Bu keyfiyyətlərin birləşməsi ədəbiyyata da öz təsirini göstərir. Belə ki, hər bir qələm sahibi yazdığı əsərinin maraqlı, oxunaqlı alınması üçün bu keyfiyyətlərdən istifadə edərsə əsər uzun müddət yaddaşlarda qalar. F.Köçərli əsl ziyalı olaraq bu keyfiyyətləri özündə cəm etmişdir.

F.Köçərli və mütərəqqi fikirlilərin mübarizə apardığı azadlıq, maarif, müasirlik birbaşa mədəniyyətlə bağlıdır. Ona görə ki, ədəbiyyat nəsr və nəzmdən ibarət olmaqla incəsənətə gözəl əsərlər bəxş etmiş, incəsənət isə mədəniyyətin əsasını təşkil edən bir bölmədir.

İstedadlı tənqidçi və ədəbiyyatşünas Firidun bəy Köçərlinin Azərbaycanın mədəniyyət tarixindəki xidmətlərindən çox danışmaq olar. O daim Azərbaycan mədəniyyətinin yolunda fədakarlıqla çalışmış, gənclərin əxlaqi-mənəvi tərbiyəsində, təlim və təhsilində yaxından köməklik göstərmişdi.

F.b.Köçərlinin S.Qənizadə, M.T.Sidqi, A.Şaiq, A.Səhhət və s. dövrün mütərəqqi ziyalıları ilə müntəzəm məktublaşması, maarifçilik ideyalarının yayılmasında yaxından iştirak etməsi onun Azərbaycan mədəniyyətinə göstərdiyi yüksək xidmətindən xəbər verir. Köçərlinin araşdırdığı tədqiqatlar klassiklərin həyatı, yaradıcılığı, nəsil-nəcabəti haqqında məlumat verməklə yanaşı, həm də onların istedadı, bacarığı haqqında da oxuculara məlumat verə bilmişdir.

F.b.Köçərlinin verdiyi məlumata görə görkəmli müəllim-yazıçı S.M.Qənizadə, XVIII əsrin nüfuzlu şairlərindən olan Ağa Məsih Şirvanının nəslindəndir. Atası Hacı Murtuzəli maarif uğrunda çalışan, müasir düşüncəli bir şəxs olubdur. O maarif yolunda çalışmaqla yanaşı şeirlər yazar, oxumaqdan, yazmaqdan zövq alarmış. F.b.Köçərli 1912-ci ildə ilk dəfə olaraq





S.M.Qənizadənin tərcümeyi-halı, onun yaradıcılıq fəaliyyəti, mədəniyyət və maarif sahəsindəki xidmətlərindən bəhs edən oçerk yazaraq "Məktəb" jurnalında çap etdirmiş və bu məqalə dəyərli oçerk kimi öz qiymətini almışdır. Bu tipli məlumatları F.b.Köçərlinin yaradıcılığında görmək mümkündür. Köçərli yaxşıya yaxşı, pisə pis deyən bir ziyalı idi.

Bu onu göstərirdi ki, Azərbaycan maarifinin fədakar xadimi Firidun bəy Köçərli, nəinki özündən öncə yaşayıb yaradan klassiklərin yaradıcılığını dəyərləndirirdi, eyni zamanda onunla bir dövrdə yaşayan şair və dramaturqların da haqqında qısqanclıq etmədən maraqlı yazılar dərc etdirir və onların layiq olduqları qiymətini verməyi bacarırdı. Çünki Köçərli ilə çiyin-çiyinə çalışan, Qori Müəllimlər Seminariyasının məzunları olmuş ziyalılarımızın hamısının məqsədi, məramı bir idi: "Azərbaycanı inkişaf etdirmək, xalqı azadlığa çıxarmaq".

Azərbaycan mədəniyyət tarixində milli mətbuatın rolu əvəzsiz olubdur. Artıq xalqın mədəni və mənəvi maariflənməsinin qüdrətli silahı olan müstəqil dövrü mətbuata tələbat yaranmışdır. Ana dilində ilk mətbu orqanımız olan "Əkinçi" qəzetinin özü məhz dövrün tələbindən yaranmışdı. Bundan nəticə çıxaran ziyalılar qəzetin nəşri dayandırıldıqdan sonra da milli mətbuatın inkişaf etdirilməsi yolunda çalışaraq, müxtəlif başlıqlarla bu işi davam etdirdilər. Çünki "Əkinçi" Azərbaycan ədəbi dilinin milli dilə çevrilməsi və formalaşmasının sürətləndirilməsində, mətbuat üslubunun yaranmasında həlledici rol oynayırdı. Milli mətbuatın maraqlı olmasında və onun davamlı nəşr edilməsində Firidun bəy Köçərlinin də fəallığı olubdur. Firidun bəyin qəzet səhifələrində yer alan publisistik yazıları Azərbaycan xalqının maarif və mədəniyyətinin, iqtisadiyyat və məişətinin, ictimai və siyasi dünyagörüşünün tərəqqisi yolunda gələcək nəsillər üçün qoyduğu zəngin irs, mənəvi xəzinədir.

F.b.Köçərli hələ gənc yaşlarından mədəniyyətin bütün

sahələri ilə maraqlanır və müasirliyi təbliğ edirdi. O, Qori seminariyasında təhsil aldığı dövrlərdə Bakıda və Tiflisdə göstərilən tamaşalar haqqında mətbuat səhifələrindən məlumat əldə edirdi. Daha sonra əmək fəaliyyəti ilə məşğul olduğu zamanlarda dostları tərəfindən vaxtaşırı Bakıya dəvət olunan Firidun bəy, maarifçilik sahəsindəki fəaliyyətindən əlavə, mədəniyyətin tərəqqisi ilə də maraqlanır və məlumatlar toplayırdı. Əldə etdiyi xəbərlər onun mədəniyyətə olan marağına təsirsiz ötüşmədi. Ədəbiyyatın mədəniyyətlə birbaşa vəhdətini vurğulayan Köçərli tədricən bu sahədə təcrübəsini sınamağa başladı. Məlumdur ki, müasir gənclərin təlim-tərbiyəsində bir tərəfdən ədəbiyyatın rolu vardırsa, digər tərəfdən isə incəsənətin rolu vardır. Zaqafqaziyada fəaliyyət göstərən teatrların azərbaycanlılardan ibarət truppaları şəhərləri gəzir, tamaşalar göstərirdilər.

Teatrın böyük tərbiyəvi əhəmiyyəti olduğunu qeyd edən qabaqcıl Azərbaycan ziyalıları, xüsusən də Qori seminariyasını bitirən müəllimlər təkcə Bakıda deyil, Qubada, Nuxada, Naxçıvanda, Şuşada teatr tamaşaları düzəldir və çox zaman özləri də bu tamaşalarda aktyor kimi iştirak edirdilər.

Bakıda olduğu kimi, başqa şəhərlərdə də əsas teatr təşkilatçıları qabaqcıl müəllimlərdən və ədiblərdən ibarət idi. Bunların içərisində F.b.Köçərli, H.Sarıcalinski, Muxtar Muradov, B.Bədəlbəyov, H.Vəzirov, S.Vəlibəyov, İ.Şəfibəyov, C.Qaryağdı (Şuşa), Məhəmmədtağı Sidqi, C.Məmmədquluzadənin qardaşı Mirzə Ələkbər, dramaturq Eynəli Sultanov (Naxçıvan), Rəşid bəy Əfəndiyev (Nuxa) xüsusilə qeyd edilməlidir (2.s.43).

Çar hökuməti və onun himayə etdiyi mürtəce qüvvələr hər bir yeniliyə, tərəqqiyə müqavimət göstərdikləri kimi teatra, incəsənətə, ümumilikdə mədəniyyətə amansız müqavimət göstərirdilər. Azərbaycanlıların mədəniyyət sahəsindəki sürətli inkişafı, eləcə də başqa sahələrdəki tərəqqisi çar məmurlarını qıcıqlandırır və onlar bu tərəqqinin yoluna sədd çəkmək üçün





müxtəlif üsullara əl ataraq, tərəqqi uğrunda mübarizə aparanlara mane olmağa çalışırdılar.

Mütərəqqifikirli ziyalı F.b.Köçərli nəinki Azərbaycan mədəniyyəti ilə, habelə dünya mədəniyyəti ilə maraqlanır, öyrənirdi. Azərbaycanın hər kiçik uğurunu böyük sevinclə qarşılayan Firidun bəy daha böyük nailiyyətlər əldə etmək üçün var qüvvəsini sərf edirdi. O, həmçinin özünün yaradıcılığı dövründə bir neçə kiçik səhnəciklər yazmış və eyni zamanda bir neçə dramaturqun kiçik əsərlərini səhnələşdirərək maraqlı tamaşalar hazırlamışdır.

Azərbaycan mədəniyyətinə vicdanla xidmət göstərən Firidun bəy Köçərli xalq müəllimlərinin də bu işdə böyük xidmətləri olduğunu qeyd edirdi. Teatr mədəniyyətinin yaranmasında xalq müəllimlərindən hətta aktyor istedadına malik olanlar da var idi ki, onlar teatr mədəniyyətinin yaranmasına işinə xeyli zəhmət sərf etməli olublar. Teatr inkişaf edərək tərbiyəvi vasitə kimi həyatda böyük əhəmiyyət kəsb etməyə, məişətə daxil olmağa başlayırdı.

F.Köçərlinin əsərləri haqqında da müxtəlif qəzetlərdə məlumatlar verilirdi. Məsələn, 1895-ci ildə "Novoye obozreniye" qəzetinin 3, 7, 16 iyun tarixində onun "Tatar komediyaları" adlı əsəri, 11 aprel 1904-cü ildə "Şərqi-Rus"da "Təzə kitab" adlı məqaləsi haqqında xəbər dərc edilmişdir. "Təzə kitab" məqaləsində Firidun bəy Haşım bəy Vəzirovun tərcümə etdiyi "Otello" faciəsinin nəşri barəsində yazmışdır (4.s.103). Bu qeydlərdən əlavə onun əsərləri haqqında tənqidi fikirlər də söylənilirdi.

Mədəniyyətə və elmə böyük marağı olan Köçərli yazıçılarla fikir mübadiləsi edir, məsləhətləşmələr aparır, mədəniyyətə xeyir gətirəcək fikirləri dəstəkləyirdi. Firidun bəy Köçərli tənqidi təbii qəbul edirdi. Çünki o özü obyektiv fikirli tənqidçi idi. Tənqidin yaradıcılığa müsbət təsir göstərə biləcəyini söyləyən ədib, sonunda gözəl əsərlərin meydana gəldiyini xüsusi olaraq vurğulayırdı.

Xeyirxah tənqid və məsləhətdən sonra get-gedə bu aydınlığı, sadəliyi Abdulla Şaiq yaradıcılığında hiss edən F.Köçərli, müəllifin ona məsləhət və qeydlər üçün göndərdiyi "Bahar xanım" adlı bir pərdəlik mənzum pyesini bəyənir, qızlar və uşaqlar üçün ən xoşa gələn bir əsər olduğunu sevinclə qeyd edirdi. Hətta F.Köçərli bu əsəri Üzeyir Hacıbəyovla danışıb operetta şəklinə salmağı da məsləhət görürdü (6.s.17).

Azərbaycanın milli mədəniyyətində baş verən yüksəlişi sevinclə qarşılayan Firidun bəy əlindən gələn köməyi göstərməyə hazır idi. O, ədəbiyyatın zənginləşməsinə, onun üslub və forma cəhətdən genişlənməsinə çalışırdı. Köçərli rus və Qərbi Avropa dramaturqlarının əsərlərinə müraciət etməyi ədəbiyyat üçün mühüm amil hesab edirdi. Azərbaycan mədəniyyətinin tərəqqisinə çalışan Firidun bəy tərcümə əsərlərinə xüsusilə fikir verirdi.

Millətin sabahını düşünən Köçərli müsəlmanların təlim-tərbiyəsinə, zehni-əxlaqının inkişafına mədəniyyətin, eləcə də teatr tamaşalarının təsir göstərəcəyini çox gözəl başa düşdüyündən müasirlərini, qələm sahiblərini bir-birindən yaxşı əsərlər yazmağa dəvət edirdi.

Firidun bəyin İrəvan gimnaziyasında çalışdığı illəri onun ədəbi yaradıcılığının inkişafında çox böyük və müsbət təsiri olubdur.

Firidun bəy Köçərlinin tədqiqatı ilə məşğul olan alimlərimiz haqlı olaraq onun xidmətlərini Azərbaycan mədəniyyətinin, ədəbiyyatşünaslığının sonrakı inkişafına bir təkan adlandırırdılar. Bu həqiqətən də belədir. Köçərli ilk olaraq Azərbaycan ədəbiyyatına "Azərbaycan ədəbiyyatı tarixi" kitabı ilə cığır saldı. O, bu əsəri ilə sübut etməyə çalışırdı ki, Azərbaycanın qüdrətli söz ustadları vardır və olubdur. Böyük marağa səbəb olan bu kitabda yer almış şairlər Azərbaycanın mədəniyyət tarixində izini qoyan dahilərdir.





Köçərli çox gözəl başa düşürdü ki, onun oxuculara təqdim etdiyi bu və digər əsərləri, habelə sənətkarların qələmə aldıqları əsərlər zaman-zaman səhnələşdiriləcək və bu əsərlərdə yer alan mövzular insanların maariflənməsində, dünyagörüşünün artmasında böyük köməyi olacaqdır.

Görkəmli ictimai xadim və böyük maarifpərvər N.Nərimanov nadanlığa, mərifətsizliyə və digər mənfiliklərə qarşı çıxış edərək, xalqın dərdlərini öz dram əsərlərində əks etdirirdi. Nərimanov da Köçərli kimi maariflənmədə məktəbin rolunun əsas olduğunu söyləməklə bərabər, teatrın da bu sahədə önəmli olduğunu qeyd edirdi. O, mədəniyyətin tərəqqisində teatrın xidmətini əvəzolunmaz hesab edirdi.

Xalqı maarifləndirmək, onun gözünü açmaq, mühitə qarşı tənqidi düşüncə oyatmaq üçün ən təsirli vasitələrdən birinin teatr olduğunu qeyd edirdi (2.s 58).

F.b.Köçərli öz müasirlərinin fikirlərinə hörmətlə yanaşaraq, mədəniyyətin həyatımızın yaşam tərzi olduğunu, onun hər sahədə vacibliyini vurğulayırdı. Köçərlinin məqsədi Azərbaycanın Avropadan geri qalmayan bir ölkə olduğunu, gələcək azərbaycanlıların isə mədəni insan kimi yetişdiyini başqa millətlərə göstərmək idi. Təlim və tərbiyəyə yüksək qiymət verən Köçərli, tərbiyələndirici təlimin tərəfdarı idi. O, mədəniyyətin əsas formalarından ən başlıcasının tərbiyə olduğunu göstərirdi.

F.b.Köçərlinin Azərbaycan mədəniyyətinə göstərdiyi xidmətlərdən çox danışmaq olar. Köçərli mədəniyyətin inkişaf edərək məişətimizə daxil olduğunu, tərbiyəvi vasitəyə çevrilərək həyatımızda mühüm əhəmiyyət kəsb etdiyini dönə-dönə qeyd edirdi.

Milli əsərlərin meydana gəlməsi, səhiyyənin yüksəlməsi, maariflənmənin əhali arasında yayılması, təhsilin inkişafı, qadın təhsili və azadlığı, mövhumata və cəhalətə qarşı mübarizənin aparılması kimi məsələlər mədəniyyətin mahiyyətinə təsir

göstərən amillərdəndir. Köçərlinin fikrincə hər bir azərbaycanlı vətəninə, xalqına və onun mədəniyyətinə az da olsa xidmət göstərməyə borcludur.

F.b.Köçərlinin Azərbaycan mədəniyyətinə göstərdiyi xidmətlərinin önündə duran ən dəyərli işi isə onun "Azərbaycan ədəbiyyatı tarixi" kimi sanballı bir əsərin ədəbiyyatşünaslığa verdiyi böyük hədiyyəsidir. Bu əsərin ədəbiyyat tariximizin öyrənilməsində necə böyük rolu olduğunu F.b.Köçərlinin həyat və yaradıcılığı haqqında tədqiqat aparan alimlərimizin əsərlərindən görmək mümkündür.

"Azərbaycan ədəbiyyatı tarixi"nin məzmununu izah etməyə, ayrı-ayrı kitabların, fəsil və hissələrin təhlil və şərhinə keçməzdən əvvəl bu əsərin ümumi məziyyətlərini qeyd etmək lazımdır. Əvvələn onu deyək ki, "Azərbaycan ədəbiyyatı tarixi" xalqımızın çoxəsirlik ədəbiyyat və mədəniyyətinə olan güclü məhəbbət hissilə, böyük zəhmət bahasına meydana çıxmışdır.

F.Köçərli xalqının çoxəsrlik mədəni keçmişini, onun ictimai-siyasi hadisələr, qəhrəmanlıqlar və ziddiyyətlərlə dolu tarixini, bu tarixin dərin məzmunlu söz, hikmət mülkünü irticanın hökm sürdüyü, mətbuat və nəşriyyatın lazımi qaydada olmadığı bir vaxtda müasirlərinə çatdırmaq, onlarda vüqar, qəhrəmanlıq, mübarizə, azadlıq əzmilə dolu keçmişi ilə fəxr etmək hissini gücləndirmək, klassik mədəni irsin sistemli tədqiqi işinə maraq oyatmaq, həmçinin onu qoruyub saxlamaq həvəsini artırmaq istəmişdir. Xalqının qədim tarixini, mədəniyyətini ona tanıtmaq, müasirlərində vətənpərvərlik hissi oyatmaq əsl vətəndaşlıqdır. F.Köçərlinin məhz bu xidməti onun adını ədəbiyyat və mədəniyyət tarixində əbədiləşdirmişdir (6.s.32).

Mənbələrə istinadən deyə bilərik ki, F.b.Köçərli, Azərbaycan oxucularına dahi sənətkarlarımızın həyat və yaradıcılıqları haqqında məlumat vermək, bu sənətkarların əsərləri ilə xalqı tanış etməkdən ötrü xeyli zəhmət çəkməli olmuşdur. Görkəmli





ədib şəhər, kənd və qəsəbələri gəzərək əhali arasında söhbətlər aparır, onlardan eşitdiklərini qeyd edir və bu yolla qüdrətli söz ustadları haqqında materiallar toplayırdı. Bəzi hallarda isə gedə bilmədiyi bölgələrdəki dostlarına məktublar göndərir və onlardan məlumatlar alırdı.

Təəssüflər olsun ki, Firidun bəy Köçərlinin şəxsi arxivinin böyük bir hissəsi məhv edilmiş və haqqında aparılan tədqiqatlar onun arxivinin çox az hissəsi əsasında tədqiq edilmişdir.

Xalqına təmənnasız xidmət göstərən Firidun bəy Köçərli, maarif və mədəniyyətin tərəqqisi uğrunda ilk addım atan alimlərimizdəndir. Əvvəlcə, XVIII əsrlərin axırlarında yazıb-yaratmış qırx bir sənətkar, daha sonra isə XIX əsrin birinci yarısına qədər yaradıcılıqla məşğul olmuş otuz bir şair haqqında material toplayaraq ədəbiyyat tariximizin o dövrlərini işıqlandırmağa nail olmuşdur.

Dahi sənətkarlarımızın bir çoxu haqqında müxtəlif dövrü mətbuatda məqalələr dərc etdirməklə, F.b.Köçərli oxucuların təsəvvüründə klassik dövrün abı-havasını göstərməyə, onların həyat və yaradıcılığı ilə tanışlıq ünsiyyəti yaratmağa çalışırdı.

Məsələn, ədib "Gəncə" başlıqlı yazısında Gəncənin ədəbi-mədəni və onun qədim tarixindən, füsunkar təbiətindən bəhs edərək, Azərbaycan torpağı haqqında oxucuda gözəl hisslər oyadırdı. O, vətəni gözəl ifadələrlə tərənnüm etməyi bacarırdı. Ümumiyyətlə, Firidun bəyin əsərlərində vətənpərvərlik, xalqa bağlılıq, onun tarixinə və ədəbiyyatına olan məhəbbət motivlərinin nə qədər güclü təsiri olduğunu görmək olur. Əbəs yerə deyildir ki, Azərbaycanın mədəniyyət tarixində öz sözünü demiş sənətkarlarla birlikdə həmişə Firidun bəy Köçərlinin də adı çəkilir. F.Köçərli yaxşı nə varsa vətəninə, xalqına aid olmasını istəyirdi. O, millətin gələcəyi naminə yorulmadan çalışırdı.

F.b.Köçərli özünə xas olan bir qürurla, vicdanla və sevgi ilə Azərbaycan mədəniyyətinin tərəqqisi yolunda zəhmət çəkir-

di. O, haqqında söhbət açdığı sənətkarların həyat və yaradıcılığının incəliklərini açmaqla, həm şairin özü haqqında, həm də onun yaşadığı mühit haqqında, həm də o dövrdə baş verən hadisələr haqqında təssəvvür yaratmaq istəyirdi.

Görkəmli ədib mədəniyyətdən bəhs edərkən rus və Qərb mədəniyyətinin müsbət cəhətlərindən Azərbaycan mədəniyyətində istifadə edilməsini məqsədəuyğun sayırdı.

Azərbaycan ədəbiyyatı və mədəniyyətinin nümayəndələri xalq maarifi sahəsində böyük tarixi işlər görmüşlər. Bizim mədəniyyət tariximizin səhifələrində yer almış əsərlər xalqımızın həyatında mühüm rol oynamışdır. Əsrlər boyu Azərbaycan xalqının yaratdığı mədəniyyətdə həmişə yeniliyə, insanpərvərliyə güclü meyl olubdur. Mütərəqqi ziyalıların səyi ilə Azərbaycanda mədəniyyət və elm sürətlə inkişaf etməyə başlayır.

F.b.Köçərli qeyd edirdi ki, Azərbaycanın mədəni həyatında maarifçilik ideyalarının xüsusi yeri vardır. Köçərlinin etnoqrafik araşdırmalrı, pedaqoji fəaliyyəti, əsərləri, təhsil-tədris uğrunda mübarizəsi bütünlüklə mədəniyyətin sahələrini əhatə edir. Firidun bəy Köçərli və onun timsalında alim və yazıçılarımız Azərbaycanda mədəniyyətinin, o cümlədən maarifinin inkişafında böyük xidmətləri əvəzsizdir. Azərbaycanda qabaqcıl rus və Avropa mədəniyyətinin carçısı olan bu dahi şəxsiyyətlər XIX əsrin pedaqoji inkişafına böyük təsir göstərmişlər.

F.b.Köçərli təkcə Azərbaycan sənətkarlarının deyil, habelə, qeyri millətlərin nümayəndələrindən olan dahi sənətkarların yaradıcılığını işıqladıraraq, onların haqqında ayrı-ayrı qəzetlərdə məqalələr dərc etdirirdi. Dahilərin yaradıcılığına sonsuz rəğbət bəsləyən Firidun bəy "Mirzə Fətəli Axundov" adlı əsərini Tiflisdə "Kultura" adlı mətbədə kitabça şəklində çap etdirmiş, ədəbiyyat həvəskarlarının ixtiyarına vermişdir.

Köçərli elm, maarif, mədəniyyət uğrunda qızğın mübarizə aparırdı. Elmin, mədəniyyətin təbliğinə böyük yer verən





ədib, müasirləri tərəfindən layiqincə qiymətləndirilirdi. Elmin və mədəniyyətin geniş yaylması uğrunda mübarizəyə girişmiş mütərəqqi fikirlilər bir-birindən gözəl əsərlər yaratmağa çalışırdılar.

Mədəniyyət haqqında dahilərimiz yüksək fikirlər söyləmişlər. Belə ki, mədəniyyətisiz sivil dövləti təsəvvür etmək olmur. Necə ki, qeyd edildiyi kimi: Mütərəqqi yaradıcılıq ənənələrindən qidalanmayan bir mədəniyyət böyük mədəniyyətə çevrilərək ictimai rəğbət qazana bilməz (10.s.3).

F.b.Köçərli ədəbiyyatın mədəniyyətlə vəhdətindən bəhs edərkən dramaturqların tamaşaya qoyulmuş əsərlərini zamanın tələbi hesab edirdi. O, böyük dramaturq və ictimai xadim M.F.Axundovun yaradıcılığına dönə-dönə qayıdaraq, əsərlərini təbliğ edirdi. Tədqiqatçı, Axundov komediyalarının müxtəlif şəhərlərdə yerli həvəskarlar tərəfindən tamaşaya qoyulması münasibətilə qəzetlərə ürək dolusu sevinc hissilə xəbərlər göndərmiş, Azərbaycan komediyaları haqqında məqaləsində onun yaradıcılığını bütün Azərbaycan və Şərq dram yazanları üçün örnək kimi qiymətləndirmiş, M.F.Axundovun yüzilliyi münasibətilə (1911) axundovşünaslığımızın tarixində ilk dəfə ayrıca kitab yazıb çap etdirmiş və nəhayət, "Azərbaycan ədəbiyyatı tarixi materialları"nda onun yaradıcılığına böyük bir oçerk həsr etmişdir (5.s.145).

F.b.Köçərli belə düşünürdü ki, dramaturgiya ədəbiyyatda bir yenilik olmaqla bərabər, həm də çətin janrdır. Köçərli hər ədibin komediya yazmağa bacarığı olmadığını da bilirdi. O, belə bir janrda əsər ərsəyə gətirmək üçün savadla bərabər təcrübənin də olmasını qeyd edirdi. Komediya yazmaq üçün millətin həyatına yaxndan bələd olmaq və məişətini ətraflı öyrənmək lazımdır. F.b.Köçərlinin müasirləri olan yazıçılar teatra böyük maraq göstərərək bir-birindən maraqlı əsərlər yaratmağa, mədəniyyətə qələmləri ilə xidmət göstərməyə çalışırdılar.

1899-cu ildə Peterburqda təhsilinin bitirib qayıdan dramaturq Ə.Haqverdiyevin teatr fəaliyyəti də bu nöqteyi-nəzərdən çox səmərəli olmuşdur. Haqverdiyev hələ çox gənc ikən teatra həvəs göstərmiş, səhnənin cazibəsini duymuşdur. O özü barədə çox maraqlı açıqlama verərək, 14 yaşı olanda ilk dəfə M.F.Axundovun "Xırs-qildurbasan" pyesinə baxdıqdan sonra onda mütaliəyə həvəsi artdığını qeyd etmişdir. Teatr gənclərin maariflənməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Deməli belə nəticəyə gəlmək olar ki, Firidun bəyin və Tiflisdə təhsil alan azərbaycanlıların açıqfikirli, müasir düşüncəli olmalarında Tiflis mühitinin böyük rolu olubdur. Hər halda mədəniyyət maarif sahəsində öz sözünü deyə bilibdir.

Firidun bəy Köçərli Azərbaycan dilində yazılmış əsərlərə üstünlük verməklə yanaşı, dramaturgiyamızın və teatrın tərəqqisində yenilik və rəngarənglik yaratmaq üçün qabaqcıl rus teatr mədəniyyətindən istifadə etməyə, habelə dünya dramaturgiyasının ən yaxşı əsərlərindən nümunələrin seçilərək Azərbaycan dilinə tərcümə edilməsinə və tamaşaya qoyulmasına böyük əhəmiyyət verirdi.

Mədəniyyət sahəsində yorulmadan çalışan F.b.Köçərli ağıllı, zəhmətkeş Azərbaycan qadınını əsərlərində təsvir edən, habelə onu ilk dəfə səhnəyə çıxaran, onların həyatdakı uğursuzluqlarını canlandıran, əzab-əziyyətlərini qabarıq şəkildə göstərən M.F.Axundovu yenilikçi bir dramaturq olaraq təbliğ edir və alqışlayırdı. F.b.Köçərlinin Axundov yaradıcılığına olan böyük rəğbəti bu dahi dramaturqun ürəkli qələm sahibi olmağını, açıqfikirliliyini və müasir düşüncəli olmasını göstərir. Köçərli öyrəndiklərinin böyük bir qisminin məhz Axundov yaradıcılığından bəhrələndiyini qeyd edirdi.

F.b.Köçərli bədii yaradıcılığın insan şüurunun oyanmasında böyük əhəmiyyət kəsb etdiyini başa düşürdü. O, Azərbaycan dramaturqlarının komediyaları üzərində geniş tədqiqat apararaq oxuculara məlumat verirdi.





Azərbaycan dilində heç bir ədibin əsərinin olmadığını görən Köçərli, rus ədiblərinin əsərlərindən tərcümə etmək kimi ağır bir işi öhdəsinə götürür və ilk olaraq kiçik əsərlərin tərcüməsi işi ilə məşğul olur.

Firidun bəyin Azərbaycanın mədəniyyət tarixinə göstərdiyi xidmətlərindən danışarkən, onun yaşadığı mühiti nəzərə almaq lazımdır. Çünki o dövr çarizm mütəmləkəçiliyinin, dini fanatizmin hökm sürdüyü, qadın hüquqsuzluğunun, işsizliyin, savadsızlığın, nadanlığın baş alıb getdiyi bir dövr idi. Belə bir zamanda siyasi və mədəni vəzifələri yerinə yetirmək elə də asan deyildi.

Azərbaycan mədəniyyətinə göstərdiyi xidməti demək olar ki, onun İrəvanda çalışdığı illərdən başlayır. Yaşadığı və təhsil aldığı mühitdən fərqli olaraq İrəvan mühiti Köçərli üçün sanki yeni dünya yaradır. F.Köçərli İrəvan gimnaziyasında müəllimliklə məşğul olduğu on il müddətində özünün mühərrirlik fəaliyyətini genişləndirməyə başlayır. Təbii ki, o, bu işdə tək olmayıbdır. F.Köçərli və onun müasirlərinin bu yolda göstərdikləri qayğı birbaşa xalqa və onun mədəniyyətinə olan qayğının təzahürü idi.

1905-ci il inqilabi hərəkatının başlanması ilə Azərbaycan mədəniyyətində təhsil, səhiyyə, maarif, dil, qadın azadlığı məsələləri gündəmə gəldi və bütünlükdə incəsənətdə əsaslı dönüş yarandı, bir irəliləyiş hiss edilməyə başladı. İnqilabın nəfəsi hər sahədə duyulurdu. Xüsusilə də teatr, sənət aləmində. İnqilaba qədər bir sıra nailiyyətlər əldə edilsə də, inqilabdan sonra yaradıcılıq imkanlarının artması, ədəbiyyata marağın oyanması, daha sonra tərcümə əsərlərinin yaranması, yeni-yeni əsərlərin yazılması bu tərəqqini bir daha təsdiq etdi.

1905-ci il inqilabı Azərbaycan teatrının inkişafında yeni bir səhifə açdı. Bakı Rusiyada inqilabi proletar hərəkatının ən mühüm ocaqlarından biri idi. 1905-ci il inqilabı dövründə və

sonralar Azərbaycan mədəniyyətinin müqəddəratı, 1905-ci il, inqilabı hərəkatında, Azərbaycan xalqının azadlıq mübarizəsində və Asiya xalqlarının oyanmasında görkəmli rol oynayan Bakı proletariatı ilə əlaqədardır (2.s.88).

Bir tərəfdən mürtəce qüvvələrə qarşı aparılan mübarizə, bir tərəfdən mədəniyyətin inkişaf etdirilməsi məsələsi ziyalılarımızın işini xeyli çətinləşdirmişdir. Azadlıq uğrunda aparılan bu mübarizə bütün ziyalıları ayağa qaldırmışdır. Bu mübarizə ərəfəsində Azərbaycan ziyalıları ilə birlikdə maarifçilik ideyaları yayan Firidun bəy Köçərlinin xidmətləri xüsusi olaraq qeyd edilməlidir.

Milli azadlıq və milli mədəniyyətin inkişafı məsələsi aktual mövzu olaraq gündəmdə idi. Arzularının çiçəklənməsi ümidi ilə xalqa dəstək olmaq, onları gələcəkdə firavan həyata qovuşdurmaq məqsədilə maarifçilər bütün sahələrdə gərgin fəaliyyətə başlamışdılar. Əlbəttə ki, bu prosseslərin gedişində mədəniyyətin rolunu xüsusi qeyd etmək lazımdır. Elmə, mədəniyyətə, maarifə yüksək qiymət verən Firidun bəy Köçərli də bu yolda yorulmadan çalışırdı. Millətin işıqlı gələcəyinə inanan və ona ümidlə baxan Firidun bəy bilirdi ki, gün gələcək onun arzuları reallaşacaqdır. Elə bu arzuyla da o maariflənmə işini dayanmadan aparırdı.

Azərbaycan mədəniyyət tarixində fəal iştirak edən F.Köçərli, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.S.Ordubadi, Ə.Haqverdiyev, N.Vəzirov və başqaları maarifçilik ideyalarını yaymaqla yanaşı, həm yazıçı, həm də məşhur xalq müəllimi, mətbuat və ya səhnə xadimləri idilər.

XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycanın başqa-başqa şəhərlərindən teatra maraq göstərən həvəskarlar, həmçinin yuxarıda adları qeyd olunan müəllim və ədiblər mədəniyyət mərkəzinə çevrilmiş Bakı şəhərinə üz tutmağa və teatr xadimlərinin ətrafına toplaşmağa başladılar. Artıq Bakının teatr





həyatında bir canlanma başlamışdır.

Bolşevik mətbuatının təsiri altında yazan şair və yazıçılar milli siyasi satqınları ifşa edən əsərlər yazır, mütərəqqi və demokratik ideyalar uğrunda mübarizə aparan tərəqqipərvər demokratları müdafiə edirdilər. Mübarizənin ən gözəl yolunu ədəbiyyat və incəsənətdə görən maarifpərvərlər, yalnız bu yolla tərəqqiyə çatmağın mümkünlüyünü iddia edirdilər. Mütərəqqi mübarizlərdən olan Firidun bəy Köçərli xalqın tərəqqisinə xüsusi təsir göstərən dil, azadlıq, təhsil və sair məsələlərlə əlaqədar müxtəlif mətbuat orqanlarında məqalələr dərc etdirməyi məqsədəuyğun hesab edirdi.

Firidun bəy Köçərlinin əsas yaradıcılıq dövrünü Tiflis həyatını əhatə edirdi. Tiflis ədəbi mühiti Azərbaycan mədəniyyətinin maraqlı və zəngin bir sahəsini təşkil edir (3.s.3).

F.b.Köçərli Tiflisdə çalışdığı vaxtlarda orada göstərilən tamaşalara, konsetrlərə baxır və özündə müəyyən fikirlər formalaşdırırdı. Köçərli üçün teatr həyatın güzgüsü idi. O, həyatda gördüklərinin bu güzgüdə əks olunduğunu bilirdi. Tamaşaları böyük maraqla izləyən Köçərli təbii ki, belə bir nəticəyə gələ bilərdi ki, həyatın eybəcərliklərini xalqa çatdırmaq üçün gözəl əsərlərin yaranması və səhnələşdirilməsi labüddür. Bunun üçün maarifləndirməni sürətləndirmək və mədəniyyət uğrunda mübarizəni davam etdirmək və xalqa teatrı anlatmaq lazım idi.

F.b.Köçərli həm klassik, həm də müasir ədəbiyyatdan yazanda, bir yaradıcılıq metodu kimi realizmə üstünlük verir, onun hakim ədəbi cərəyana çevrilməsi üçün ardıcıl mübarizə aparırdı. O, "öz xalqını, onun keçmişini, gələcəyini, onun zəngin mədəniyyətini, ədəbiyyat, elm və sənətini, onun adət və ənənəsini, bülbül tərənəsinə bənzər könül açan gözəl və şirin dilini dərin bir ehtirasla sevirdi. Buna görə də yazırdı, xalqına fayda vermək niyyəti ilə yazırdı, əsərləri də təsirsiz qalmırdı. Bir tərəfdən sənətkarlarımıza kimdən, nədən və necə yazmağın yollarını gös-

tərirdisə, digər tərəfdən də müxtəlif məsləkli adamları ədəbiyyatımızın nəzəri məsələləri ilə məşğul olmağa çağırırdı.

F.Köçərlinin çağırışlarına ilk səs verənlərdən biri S.Ağamalıoğlu idi. O, 1911-ci ildə müzakirə yolu ilə buraxılmış "Azərbaycan ədəbiyyatı" adlı məqaləsində xəlqilik, milli dil və ədəbiyyat, elm və sənət, üslub və cərəyan, novatorluq və ənənə, mövzu və forma haqqında maraqlı fikirlər söyləmişdi (3.s.71).

XIX əsrin sonunda ədəbi-bədii hərəkat onunla fərqlənir ki, dramaturgiya və teatr getdikcə daha mühüm yer tuturdu. Bu təsadüfi deyildi, çünki maarifçi demokratlar öz ideyalarını əməli surətdə həyata keçirməyə, geniş kütlələrin başa düşə biləcəyi və daha çox təsir qüvvəsinə malik sənət formasından istifadə etməyə çalışırdılar (7.s.75). Bu işdə təhsilin, ədəbiyyatın, mətbuatın və maarifin yayılmasının çox böyük əhəmiyyəti var idi. Mürtəce qüvvələrə qarşı hücum edə biləcək, mədəniyyətin tərəqqisinə mane ola biləcək bədxahları yalnız dəyərli əsərlərlə və maraqlı tamaşalarla susdurmaq olardı. Bu yolda yorulmadan çalışan ziyalılarımız nəhayət ki, istəklərinə çatmaq üzrə irəliyə doğru addımlayırdılar. Bu artıq Azərbaycan mədəniyyətinin uğuru idi.

Azərbaycan mədəniyyətində özünəməxsus yeri olan Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatını sevdiyi qədər Azərbaycan mədəniyyətini, incəsənətini də sevirdi. Teatra böyük maraq göstərən ədib, Tiflisdə tamaşaya qoyulan Azərbaycan dramaturqlarının əsərlərinin rezonans doğurduğunu görür və qürur hissi keçirirdi. Tamaşalarda Azərbaycan truppaları ilə yanaşı qeyri millətin nümayəndələri də iştirak edirdi. Tiflisdə müxtəlif dillərdə çap olunan qəzet və jurnallarda Azərbaycan teatrından, bədii əsərlərin səhnə təcəssümündən yazır, teatrın işinə mane olanları tənqid və ifşa edirdilər (3.s.132).

Qeyd olunduğu kimi Azərbaycan mədəniyyətinə "Azərbaycan ədəbiyyatı" adlı dəyərli əsər verən F.b.Köçərli, ədəbiyyat





tariximizin öyrənilməsində, adət-ənənələrimizin üzə çıxarılmasında çox böyük əmək sərf etmişdir. Firidun bəy hələ folklor nümunələrini topladığı vaxtlarda mərasim, tamaşa, ayin və oyunlara xüsusi maraq göstərirdi. Mənbələrdə çox haqlı olaraq qeyd edilir ki, qədim zamanlardan bu günə qədər gəlib çatmış folklor nümunələrimizdən "Kosa-kosa", "Qaravəlli", "Kilim arası" və s. bu kimi oyunların əsasında Azərbaycanda xalq teatrlarının yaranması əmələ gəlmişdir. Köçərlinin folklora göstərdiyi marağı onun bir folklorşünas kimi tanınmasında da böyük rol oynayıbdır. Bilirik ki, folklor mədəniyyətin ayrılmaz hissəsidir.

Köçərlinin mədəniyyətə göstərdiyi misilsiz xidmətlərinin müqabilində, həmçinin folkor nümunələrinə olan marağı sonunda Azərbaycan ədəbiyyatında "Azərbaycan türklərinin tarixi", "Azərbaycan ədəbiyyatı" kimi əsərlərinin meydana gəlməsinə şərait yaratmışdır.

F.b.Köçərli maarifçilik sayəsində fəaliyyətin daha da genişlənməsinə üstünlük verirdi. O, bilirdi ki, yalnız bu yolla avam kütlələri qəflət yuxusundan oyandırmaq olar. Bu iş çətin də olsa belə mümkündür. Köçərli təhsilin və mətbuatın da rolunun danılmaz olduğunu qeyd edirdi. O, ziyalıların birlikdə mübarizə aparmasını istəyirdi.

Azərbaycanda dini fanatizmin geniş vüsət aldığı zamanda təhsildən, maarifdən söz açmağın çətinliyini dərk etməklə yanaşı, teatr tamaşalarının hazırlanması, tələbə və şagirdləri həvəskar aktyor kimi səhnəyə cəlb edilməsi təsəvvür edilməz dərəcədə daha çətin idi.

Ümumiyyətlə, maarif və mədəniyyətə dini nöqteyi-nəzərindən baxan mövhumatçı dindarlar səhnənin, incəsənətin qətiyyən islam dininə uyğun olmadığını, nəinki qadınların, hətta kişilərin səhnəyə çıxaraq tamaşa oynamağına çox pis baxırdılar. Belə olan surətdə təbii ki, maarif işi aparmaq, insanları təhsilə cəlb etməyin nə demək olduğunu anlamaq olur.

Bir daha qeyd edək ki, həqiqətən də milli azadlıq və milli mədəniyyətin inkişafında 1905-ci il inqilabının təsiri böyük olubdur. Xalq kütlələri arasında inqilabi iş aparan, onların siyasi və milli şüurunu yüksəldən və inkişaf etdirən bu proseslərdə daha çox Bakı fəhlə sinfinin Rusiya proletar hərəkatı ilə birləşməsi öz təsirini göstərirdi. O dövr ziyalılarının maarifləndirmə uğrunda apardıqları mübarizəsinin əsas tərəfinin məhz mədəniyyət və incəsənətlə bağl olduğu da aydındır.

F.b.Köçərli Tiflis həyatından bəhs edən yazıları xüsusi ilə üstünlük təşkil edirdi. Çünki onun 40 ilə yaxın bir dövrü əhatə edən pedaqoji fəaliyyətinin əsas hissəsi Tiflislə bağlı idi. Firidun bəy Tiflisdə baş verən inkişafı görür və Azərbaycanın da bu tərəqqiyə çatmasını arzu edirdi.

1911-ci il Tiflis Azərbaycan teatrı tarixində əsaslı dönüş ili idi. H.Ərəblinskinin, Ü.Hacıbəyovun və Ə.Vəlinin Tiflisdə qastrolları, iki yerli dram cəmiyyətinin ayrı-ayrılıqda qaynar fəaliyyəti teatr aləmində, görünməmiş intibah əmələ gətirmişdi (3.s.157).

Firidun bəy Köçərli cəmiyyətdə baş verən tərəqqinin bilavasitə azərbaycanlıların da həyat səviyyəsinə təsir göstərdiyini görür və əlindən gələn köməyi göstərməyə çalışırdı. Ədəbiyyat və incəsənətin xalqa xidmət etdiyini görən tərəqqipərvərlər insanları müasirliyə çağırır, incəsənəti həyatın ayrılmaz hissəsi hesab edirdilər. Xalq şüurunun oyandığı, sinfi toqquşmaların baş verdiyi bir zamanda teatrı inkişaf etdirmək elə də asan məsələ deyildir. Artıq insanları gələcəyə səsləyən əsərlərin yazılması, bu əsərlərin səhnələşdirilməsi, tamaşaya qoyulması, rolları ifa etmək üçün insanların cəlb edilməsi sahəsində maarifpərvərlər ciddi iş aparırdılar. Artıq həm Bakıda, həm də Tiflisdə və İrəvanda teatr cəmiyyətləri fəaliyyətə başlamışdı.

Beləliklə də, Azərbaycan maarifpərvərlərinin gərgin əməyi, ardıcıl təşəbbüsləri nəticəsində 1912-ci il aprelin 1-də gündüz





saat 12-də Tiflis Müsəlman Xalq Evi – "Auditoriya"sı açıldı.

"Auditoriya" çox əlverişli yerdə – azərbaycanlıların daha çox mərkəzləşdiyi "Şeytanbazarda" yerləşirdi. Xalq evinin açılışında rus, gürcü və digər millətlərin dram və xeyriyyə cəmiyyətlərinin, maarif və mədəniyyət ocaqlarının nümayəndələri, "Molla Nəsrəddin" jurnalının bəzi əməkdaşları iştirak edirdi. Burada iştirak edənlər sırasında Ə.Haqverdiyev, Y.Tahirov, H.Mirzəcamalov, İ.Həqqi və bir neçə general, şəhər qlavası Xatisov, Axund Mollazadə və bir neçə səhnə xadimləri də var idi. "Auditoriya"nın açılışında Mirzəli Abbasov Azərbaycan, Firidun bəy Köçərli isə rus dilində "Teatr-xalq evi və onun əhəmiyyəti" mövzusunda məruzə oxumuşlar(3.s.161).

Məlumdur ki, müasir gənclərin təlim-tərbiyəsində bir tərəfdən ədəbiyyatın rolu vardırsa, digər tərəfdən isə incəsənətin rolu vardır. Zaqafqaziyada fəaliyyət göstərən teatrların azərbaycanlılardan ibarət truppaları artıq şəhərləri gəzir, tamaşalar göstərirdilər. Firidun bəy dövrünün qabaqcıl adamları ilə birlikdə mədəniyyətin bədii əhəmiyyətini qiymətləndirərək, onun səviyyəsini qaldırmaq uğrunda mübarizəni davam etdirmək, xalqa daha da səmərəli xidmət göstərmək sahəsində çalışırdılar. Mədəniyyətin Tiflis mühitində daha geniş vüsət tapdığını və sürətlə tərəqqiyə doğru irəlilədiyini görən Firidun bəy Azərbaycan mədəniyyətinin də tezliklə inkişaf edəcəyinə inanırdı.

Azərbaycan mədəniyyət tarixində böyük xidmətləri olan dahi şəxsiyyətlərdən Üzeyir Hacıbəyov, Qori Müəllimlər Seminariyasında oxuyarkən, Firidun bəy Köçərli onun müəllimi olmuşdur. Azərbaycanın mədəniyyət tarixinə adı qızıl hərflərlə yazılmış bu dahi bəstəkarın uğurlar əldə etməsində sözsüz ki, F.b.Köçərlinin əməyi var idi. Çünki Firidun bəyin haqqında tədqiq olunmuş əsərlərə nəzər yetirdikdə onun tələbələrinin öz müəllimləri haqqında çox yüksək fikir söylədiklərini görürük. Köçərli hər zaman xalqının balalarına dayaq durmuş, onların

təlim-tərbiyəsinə xüsusi diqqət yetirmiş və onların yaxşı oxumaqlarına çalışmışdır. Zaqafqaziya Müəllimlər Seminariyasında təşkil olunan tədbirlərdə, gecələrdə o azərbaycanlı tələbələrin qeyri millətlərin uşaqlarından geridə qalmamaqları üçün var qüvvəsini sərf edirdi. Maarif və mədəniyyətimizin tərəqqisinə çalışan F.b.Köçərli seminariyanı bitirib evlərinə dönən tələbələrinin haqqında gözəl fikirlər söyləyərək, onlara seminariyada əldə etdikləri bilikləri gələcək nəsillərə ötürməyi tövsiyə edirdi.

1904-cü il "Şərqi-Rus" qəzetinin 11 iyun 70 saylı nömrəsində Firidun bəyin imzası ilə bir yazı verilmişdir:

"Zaqafqaziya seminariyasında bu il 17 nəfər şagird orada təlim olunan ümum və dününu tamam edib, kursu qurtardı, müəllimlik şəhadətnaməsi aldı. Bunlardan: Azad Əmirov, Zülfüqar Hacıbəyov, Üzeyir Hacıbəyov, Abbas İsmayılov – dördü də Şuşadandır" - F.Köçərli.

Qeyd: Burada adı çəkilən Zülfüqar Hacıbəyov Üzeyirin qardaşı deyil, başqasıdır (4.s.18).

Zaqafqaziya Qori Müəllimlər Seminariyasını bitirməsi barədə Ü.Hacıbəyova verilmiş şəhadətnamədə şura üzvlərinin arasında Firidun bəy Köçərli və Rəşidbəy Əfəndiyevin də imzaları vardır. Hər bir tələbəsinə gözəl xasiyyətnamə verən Köçərli bununla sanki onlara xalq üçün yanmağın, uşaqlara xidmət göstərməyin yollarını öyrətməyə çalışırdı. Bu mənbəni göstərməkdə məqsədimiz Firidun bəyin Azərbaycan mədəniyyətinə hərtərəfli göstərdiyi xidmətini nəzərə çatdırmaqdır. O, bir müəllim kimi öz işini təkcə dərs deməklə bitmiş hesab etmirdi, eyni zamanda mədəniyyətin bütün sahələri üzrə maraqlanır və maarifçilik işi aparırdı.

Firidun bəy Qori seminariyasında fəaliyyət göstərdiyi müddətdə bütün tələbələrin və müəllimlərin sevimlisinə çevrilmişdi. Hər zaman haqqı, ədaləti müdafiə edən Köçərli seminariyada azərbaycanlılara qarşı edilən haqsızlara dözməyərək,





etirazını bildirirdi.

Millət təəssübü çəkən F.b.Köçərli xalqının haqqında yanlış düşünməyi belə ağlına gətirmirdi. O, öz xalqını həmişə yüksəkdə tutur, dəyərləndirirdi.

Ü.Hacıbəyovun "İrşad" qəzetində "Bir şəxs" imzası ilə dərc etdirdiyi "Niyə müəllimlər kəndlərdən qaçırlar" başlıqlı məqaləsinə cavab olaraq Firidun bəy Köçərli "Məişətimizə dair" məqaləsi ilə Qori seminariyasında baş verən mənfi münasibətlərin yalnız azərbaycanlılara deyil, gürcü və ermənilərə də aid olduğuna aydınlıq gətiribdir. Azərbaycanlıların qeyri millətlərin nümayəndələrindən ayrı tutulması, millətinə laqeyd münasibət bəslənməsi Firidun bəyin heysiyyatına toxunurdu. Buna görə Firidun bəy həmişə olduğu kimi öz millətini qorumağı özünə borc bilirdi. F.b.Köçərli vətənpərvər, maarifpərvər, insanpərvər, yurdsevər olmaqla yanaşı əsl müəllim, əsl vətəndaş və əsl mədəniyyət fədaisi idi.

Firidun bəy Köçərlinin həyat və yaradıcılığının tədqiqatı ilə məşğul olarkən sözün həqiqi mənasında onun azadlıq carçısı olduğunu görürük. Maarif və mədəniyyət vurğunu olan Köçərli daim azadlıq uğrunda mübarizə aparmış, xalqın rifahı, mədəniyyəti üçün çalışmışdır.

Azərbaycanın mədəniyyət tarixində öz sözünü demiş M.İ.Qasir, S.Ə.Şirvani, M.T.Sidqi, S.M.Qənizadə, H.Mahmudbəyov, M.Mahmudbəyov, S.Vəlibəyov, R.Əfəndiyev, C.Məmmədquluzadə, N.Nərimanov və başqa ziyalılarımızla bir sırada duran Firidun bəy Köçərlinin millətin tərəqqisi uğrunda ciddi səylə apardığı mübarizə onun adını tariximizə yazdı.

Firidun bəy Köçərlinin çəkdiyi zəhmətinin bəhrəsi olaraq yetişdirdiyi dəyərli mədəniyyət xadimləri ənənəyə sadiq qalaraq öz müəllimlərinin yolu ilə getmiş, Azərbaycan mədəniyyətinin və ədəbiyyatının tərəqqiyə çatmasında hər biri özlərinəməxsus fəallıq göstərmişlər.

Ziyalılarımızın bir qismi yeni məktəblərin açılmasında, bir qismi isə dərsliklərin hazırlanmasında, maarifçiliyin təbliğində, nadanlığa və cəhalətə qarşı mübarizədə fədakarlıq göstərərək xalqın azadlığına çalışdılar.

F.b.Köçərli həm mübariz ziyalı olmaqla bərabər, eyni zamanda da ədəbiyyatşünaslığın təməlini yaradanlardan, ilk tədqiqatçılarından oldu. Bu gün Azərbaycan ədəbiyyatı klassiklərinin həyat və yaradıcılığı ilə məşğul olan əksər tədqiqatçılar Firidun bəy Köçərlinin əsərlərinə müraciət edirlər.

## ƏDƏBİYYAT:


1. C.Cəfərov: "Azərbaycan dram teatrı", Bakı, 1951, 346 s.
2. C.Cəfərov: "Azərbaycan dram teatrı", Bakı, 1959, 416 s.
3. A.Hacıyev: "Tiflis ədəbi mühiti", Bakı, 1980, 182 s.
4. Q.Məmmədli: "Azərbaycan teatrının salnaməsi", Bakı, 1975, 583 s.
5. B.Nəbiyev: "Firidunbəy Köçərli", Bakı, 1963, 162 s.
6. İ.Bəktaşi: "Firidunbəy Köçərlinin yaradıcılıq yolu", Bakı, 1986, 183 s.
7. M.Qasımov, C.Cəfərov: "Azərbaycanda estetik fikir tarixindən", Bakı, 1964, 80 s.
8. X.Məmmədov: "Əkinçi"dən "Molla Nəsrəddinə" qədər, Bakı, 1987, 270 s.
9. M.Allahverdiyev: "Azərbaycan xalq teatrı tarixi", Bakı, 1978, 234 s.
10. http://www./azadliq./info/component/article






## FİRİDUN BƏY KÖÇƏRLİNİN PEDAQOJİ FƏALİYYƏTİ

Azərbaycanın ədəbi fikrinin inkişafında böyük xidmətləri olan ədəbiyyat, dil, fəlsəfə, tarix, iqtisadiyyat və beynəlxalq siyasi hadisələr haqqında bir çox qiymətli əsərlər yazan Firidun bəy Köçərli eyni zamanda, görkəmli pedaqoq olmuş, tədris və təlim-tərbiyə məsələlərinə həsr edilmiş əsərlər müəllifi kimi tanınmışdır (1.s.311).

Firidun bəy əsl müəllim olaraq Azərbaycan təhsilində, maarif və mədəniyyətində öz sözünü demiş alimlərdəndir. Həyatının 35 ildən bir qədər çox hissəsini pedaqoji fəaliyyətə həsr etmiş Köçərlinin müəllimlik təcrübəsi yetərincə idi. Firidun bəy Köçərli peşə xatirinə dərs deməmişdir. O tədris və təlim-tərbiyə məsələlərində canını fəda etmiş ziyalı, tələbələri tərəfindən sevilən müəllim və eyni zamanda pedaqoji fəaliyyətə həsr olunmuş əsərləri ilə şöhrət qazanmışdır.

F.b.Köçərlinin müəllimlik fəaliyyəti 1885-1920-ci illərə qədər olan dövrü əhatə edir. O, bu illər ərzində Azərbaycanın təhsil və maarif məsələləri ətrafında gedən bütün müzakirə və mübahisələrdə demək olar ki, fəal iştirak etmişdir. Köçərli, müəllimlikdən əlavə həm də bir nəzəriyyəçi kimi fəaliyyət göstərirdi. Tədris kitablarının hazırlanması, dərsliklərin tərtib edilməsi və nəşrə göndərilməsi üçün hazır vəziyyətə gətirilməsi işi birbaşa Firidun bəy Köçərlinin adı ilə bağlıdır. Görkəmli akademikimiz Bəkir Nəbiyevin təbirincə desək, "XX əsr Azərbaycan ədəbi siması dedikdə, Firidun bəy Köçərli gözlərimiz önündə canlanır".

1876-cı ildə Qafqaz xalqlarının-gürcülərin, ermənilərin, dağıstanlıların və azərbaycanlıların ibtidai məktəblə-

ri üçün müəllim kadrları hazırlamaq məqsədilə Qori Müəllimlər Seminariyası açılmışdı. 1878-ci ildə Qori Müəllimlər Seminariyasına tələbə toplamaq məqsədilə Aleksandr Osipoviç Çernyayevski Azərbaycan bölgələrini gəzərkən Şuşaya gəlmiş və Firidun bəy Köçərlini həmin seminariyaya dəvət etmişdi. Həmin vaxtdan F.Köçərli həyatının ən yadda qalan illərini bu seminariyaya bağlılığı ilə ifadə edirdi.

Təhsil aldığı illərdə nizam-intizamı və tərbiyəsi ilə müəllimlərin sevimli tələbəsi olan F.b.Köçərli eyni zamanda da seminariyanı əla qiymətlərlə bitirir. Sonralar taleyini seminariyaya bağlayan Köçərlinin, böyük bir müəllim nəslinin yetişməsində böyük əməyi vardır. Ümumiyyətlə peşəsini qəlbən sevən F.b.Köçərli özündən sonra çox zəngin ədəbi irs qoymuşdur ki, bunun da əsas hissəsi pedaqoji fəaliyyəti ilə bağlı olub. O, yeni məktəblərin açılması, şagirdlərin təhsilə cəlb edilməsi, gələcək nəslin savadlanması, qadınlarımızın çadradan çıxaraq təhsilə yiyələnməsi üçün məsələlər qaldırır və bu məsələlər ətrafında tez-tez mübahisələr də edirdi.

Firidun bəy Köçərli həm novatorçu müəllim, həm də böyük tədqiqatçı alim idi. Müəllimi həyatın işığı, millətin çırağı adlandıran ədib, çox gözəl anlayırdı ki, məktəbin tərbiyə işini peşəsini ürəkdən sevən yaxşı xalq müəllimi təşkil edə bilər. O, çox yaxşı bilirdi ki, xalqın qeydinə hamıdan çox qalan, onların gözünü açan müəllimdir. Əsl müəllim dərs dediyi şagirdlərinə işıqlı sabaha doğru inamla addımlamağı öyrədir, onların elmli, bilikli olmasına çalışır. Firidun bəy onu qane etməyən müəllimlərin də olduğunu bilirdi, hətta gündə iki-üç saat dərs deməklə işini bitmiş hesab edən müəllimlərə qarşı öz iradlarını bildirirdi. Köçərli "oxumuş cavanlara" böyük ümid bəsləyirdi.

Görkəmli ədəbiyyatşünas Əziz Şərif yazdırdı "Çar Rusiyasında heç bir təhsil ocağı Qori Müəllimlər Seminariyası qədər Azərbaycana mədəniyyət xadimi verməyibdir". Qori





Müəllimlər Seminariyası fəaliyyət göstərdiyi 42 il ərzində 250 müəllim hazırlayıb ki, bu müəllimlərin arasında Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Firidun bəy Köçərli, Əhməd Seyidov, S.Vəlibəyov, Teymur bəy Bayraməlibəyov, Y.Qasımıv, M.Ə.Xələfov və başqa onlarla görkəmli şəxsiyyətlər olmuşdur. Firidun bəy Köçərlinin başqa ziyalılardan fərqləndirən cəhətlərindən biri də o idi ki, O, 1906-cı ildə müəllimlərin 1-ci və 2-ci qurultaylarında milliləşdirməyə təhsilin məzmunundan başlamaq "ideyası"nı irəli sürmüşdü.

F.b.Köçərli deyirdi: "müəllim öz peşəsinin mahir bilicisi olmalı, şagirdini ilk kəlmədən anlamalıdır". Müəllimlik peşəsinin ən vacib keyfiyyəti uşaqlara qarşı məhəbbət və humanizm hissinin olmasıdır. Belə olan şəraitdə şagirdlə müəllim arasında xoş ünsiyyət olar və şagirdin özündə də müəlliminə qarşı sonsuz məhəbbəti yaranar. Şübhəsiz ki, bu, şagirdin dərsə davamiyyətinə, müəlliminə hörmət etməsinə və eyni zamanda onun yaxşı təhsil almasına təsir göstərər.

Mənbələrdə Firidun bəy Köçərlinin müəllim işlədiyi vaxtlarda bir çox azərbaycanlı balalarının onun köməkliyi ilə seminariyaya qəbul olunmasından bəhs olunur, eləcə də Üzeyir bəy Hacıbəyovun. Lakin, Üzeyir bəyin Köçərli tərəfindən Qori Müəllimlər Seminariyasına qəbul edilməsi faktına rast gəlinmədi. BDU-nun hörmətli professoru Şirməmməd Hüseynovun bu haqda maraqlı söhbətini oxucuların nəzərinə çatdırmağı vacib bildim. Ş.Hüseynovun dediklərindən: "Mən 1948-ci ildə gənc yaşlarımda Şəkidə olarkən, Firidun bəy Köçərli haqqında məlumat almaq üçün Badisəba xanımın evinə getmişdim. Badisəba xanım mənə Firidun bəy Köçərli haqqında olan xatirələrindən danışdı və söhbətin bir yerində qeyd etdi ki, bir dəfə Firidun bəylə evdə oturmuşduq, hava qaralmışdı, birdən qapı döyüldü. Adətə görə qapıya mən deyil, Firidun bəy getdi və geri qayıdanda yanında bir orta yaşlı kişi və 14-15 yaşlarında oğlan uşa-

ğı ilə qayıtdı. Söhbətdən məlum oldu ki, kişi bu uşağın atasıdır və atası uşağı Qori Müəllimlər Seminariyasına yazdırmaq istəyir. Firidun bəy bir qədər uşaqla söhbət etdi və razılıq verdi. Hətta uşağın oxuduğu müddətdə bizim evdə qalacağını da dedi. Sonradan bildim ki, uşaq bu Üzeyir bəydir, həm də Üzeyir bəyin Firidun bəylə qohum olduğunu da öyrəndim. Firidun bəyin bacısı oğlu Zülfiqar Üzeyir bəylə əminəvəsi idi. Sonralar onlar Qori Müəllimlər Seminariyasında da birlikdə oxumuşdular". Musiqiyə böyük həvəsi olan Zülfiqar seminariyanın orkestrində fəal iştirak edirdi. Hətta bacarıq və istedadına görə Ü.Hacıbəyov, A.Əmirov və M.Maqomayev ilə birlikdə pulla mükafatlandırılmışdı.

Lakin ağır xəstəlikdən vəfat edən Zülfiqar Məmməd bəy oğlunun ölümü Firidun bəyi çox sarsıtmışdı. Zülfüqarın ölümü ilə əgər bir ailə oğul itirdisə, xalqımızsa istedadlı bir insanı itirdi.

Firidun bəy müəllim hazırlığı problemlərini daima diqqətində saxlayırdı. Pedaqoji fəaliyyətinin on ildən bir qədər artıq dövrünü İrəvan gimnaziyasında, sonra 1895-ci ildən 1918-ci ilədək Qori Zaqafqaziya Müəllimlər Seminariyasında Müəllim, 1918-1920-ci illərdə Qazax Darülmüəlliminda direktor vəzifəsində şərəflə çalışmışdır. O, pedaqogika və psixologiyanı tədris etmişdir.

1918-ci ildə Azərbaycan Demokratik Respublikasının qələbəsindən sonra təhsilin milli əsaslar üzərində qurulmasında böyük imkan yaranmış və Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin milli və demokratik mövqeyi nəticəsində Qori seminariyasının Azərbaycan(tatar) şöbəsinin Qazaxa köçürülməsi baş tutmuşdu.

Müəllim hazırlığı haqqında "Zaqafqaziya seminariyası", "Tiflisdə müsəlman ruhani seminariyası", "Müsəlmanların ehtiyacı haqqında məsələyə dair" və sair məqalələrində məsələni qaldırmışdır. Ümumiyyətlə, F.Köçərli yaşadığı dövr elə bir





dövrü əhatə edirdi ki, o ruhani seminariyasını açılmasının tərəfdarı olmuş, adı çəkilən məqalədə bu ideyasını əsaslandırmışdır. "Kavkazskiy Kray" qəzetində çap etdirdiyi bir məqaləsində ruhanilərimizin maarifçilk fəaliyyətini alqışlayır. Təsadüfi deyil ki, dahi pedaqoq maarifçilik görüşlərində milliliyin tərəfdarı kimi ardıcıl olmuşdur. Azərbaycan Müəllimlərinin I qurultayında (28 avqust, 1906) "İrşad" qəzetinə yazdığı məqaləsində bu ideyasını ifadə etmişdir (12.№197).

F.Köçərli qurultaya böyük maraq göstərir və qurultayın işini diqqətlə izləyirdi. Qurultayın fəali iştirakçısı olan F.b.Köçərli qurultay iştirakçılarını qarşıda duran çətinliklərə cəsarətli mübarizəyə çağırırdı. Qurultayda qaldırılan məsələlərə Firidun bəy bir qədər fərqli, müasir fikirlərlə rəy bildirmişdir. Əlbəttə ki, Firidun bəy Köçərlinin bu cür çıxış etməsi əlbəttə bəzi ziyalılar tərəfindən birmənalı qarşılanmamışdır. Lakin, Köçərlinin xalqına qarşı milli ruhu yüksək olduğundan və dininə hörməti hədsiz olduğundan bu mövzu ətrafında kəskin çıxış etmirdi. Doğrudur görkəmli ədib mövhumatı, dindarlığı, fanatizmi tənqid edirdi, lakin, ziyalı ruhanilərin fikirlərinə hörmətlə yanaşırdı. Çünki ziyalı ruhanilərin içərisində elmə, savada yüksək dəyər verənlər də var idi.

F.Köçərli müəllimi öz üzərində daim işləməyi, təhsilini artırmağı, biliyini durmadan genişləndirməyi, təcrübəsini zənginləşdirməyi, dövrün tələbini duymağı bacaran şəxs kimi görməyi istəyirdi. O, "Müəllimlərimizin halı" məqaləsində yazırdı: "Yarımçıq müəllimlərin isə öz üzərində çalışmağa, mütaliyəyə həvəsləri olmayır. Özlərinin xəbəri olmaya-olmaya geri qalır və avam halına düşürlər". F.Köçərli müəllim dostlarına yazdığı məktublarında qeyd edirdi ki,müəllimin şəxsiyyətinin tərbiyədə heç bir şeylə əvəz oluna bilməyəcək müstəsna rolu vardır. Əgər o, yaxşı müəllimdirsə, hər bir şəraitdə şagirdlərinə təsir göstərə bilir, onu fəaliyyətə yönəltməyi bacarır. Əsl müəllim ən küt şa-

girdi belə elmlə silahlandıra bilər. Onun bu fikri çex pedaqoqu Y.A.Komenskinin fikirləri ilə səsləşir. Y.A.Komenskiyə görə pis şagird yoxdur, işini bilməyən, pis müəllim vardır" (10.s. 16).

Firidun bəy Köçərli yaxşı müəllimlərin sırasında ən çox hörmət bəslədiyi S.M.Qənizadənin və A.O.Çernyayevsikinin adını qeyd edərək, onların necə bir təəssübkar və yaradıcı müəllim olduğunu göstərirdi. Bu cür müəllimlər pedaqoji fikir tarixində böyük yer tutmuşlar. Rus pedaqoqlarından Uşinski, Lesqaft, alman pedaqoqu Disterverq, isveç pedaqoqu Pestalotsi, ingiltərə pedaqoqu Robert Ouen, Azərbaycan pedaqoqları Həsənbəy Zərdabi, Seyid Əzim Şirvani, Çernyayevski, Əfəndiyev, Abbas Səhhət, Mirzə Ələkbər Sabir və Firidun bəy Köçərlinin özü də belə müəllimlər sırasına daxildirlər. Gələcək nəsillərin elmli, mədəniyyətli olmasında müəllimin rolu əsasdır. Müəllimin özünə nüfuz qazanmağı ilk növbədə onun öznünün davranış və mədəniyyətinin yüksək olmasından asılıdır.

Azərbaycan mədəniyyətinin parlaq simalarından olan Abasqulu ağa Bakıxanov və Mirzə Kazım bəyin də müəllim haqqında yüksək keyfiyyətli, dəyərli fikirləri olmuşdur. Bakıxanıov müəllimin şəxsiyyətinə böyük əhəmiyyət verirdi. O, müəllimdən yüksək dözümlülük və həssaslıq tələb edirdi. O zamankı şəraitdə irəli sürülən bu müsbət keyfiyyət bu gün də öz əhəmiyyətini itirməmişdir. Bakıxanov daha sonra qeyd edirdi ki, müəllim əsəbi vəziyyətdə belə öz hərəkət və sözlərinə diqqətli yanaşmalı, yalnız əsəbi və həyəcanı ötdükdən sonra dərsə başlamalıdır.

Bakıxanov kimi bir çox elmi əsərlərin müəllifi olan, görkəmli elm xadimi, professor Mirzə Kazım bəy yalnız Şərqdə və Rusiyada deyil, bütün dünyada məşhur bir alim idi. O, dövrünün ən qabaqcıl müəllimlərindən idi. Mirzə Kazım bəyin Azərbaycan dili dərslikləri təkmilləşmiş ilk dərsliklərdir. O, başa düşürdü ki, ərəb əlifbası Şərq xalqları mədəniyyətinin inkişafı üçün maneədir.





Azərbaycanın görkəmli maarifpəvərlərinin haqqında əldə gözəl və yetərli məlumat əldə edən F.b.Köçərli müəllimə aid yüksək keyfiyyətləri özündə cəmləşdirmişdir. O, müəllimlik peşəsini yüksək dəyərləndirən hər hansı bir millətlərin nümayəndəsi olan insana dərin rəğbət və hörmətini bildirirdi. Çünki Köçərli müəllimlik peşəsini bütün peşələrdən üstün hesab edirdi.

Azərbaycanın pedaqogika tarixində özünəməxsus yeri olan Firidun bəy Köçərli istər ondan əvvəl, istərsə də onunla bir dövrdə yaşayıb yaratmış ziyalı zümrəsinin yaradıcılığında yüksək keyfiyyətləri dəyərləndirir, müsbət fikrini bildiridi.

O qədər də varlı olmayan mülkədar ailəsində doğulan Firidun bəy ilk təhsilini mollaxanada Mirzə Kərim Münşizadənin məktəbində (1872) aldıqdan sonra (3 il) 3-4 il rus məktəbində oxumuş, sonra yəni, 1879-cu ildə Zaqafqaziya Müəllimlər Seminariyasının (Qori) yenicə açılan tatar şöbəsinə daxil olmuşdur (10. s.26).

O vaxt Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuş ilk beş azərbaycanlılardan biri də Firidun bəy Köçərli idi. Şagird toplamaq məqsədi ilə Şuşaya gələn Çernyayevskinin xeyirxah əməli sayəsində onlarala azərbaycanlı övladları seminariyaya təhsil almağa göndərilmişdir. Firidun bəy hər zaman sevimli müəllimi A.O.Çernyayaevski haqqında xoş sözlər söyləyər və onun adını hörmətlə çəkərdi. Məlumdur ki, Qori Seminariyasının Azərbaycana verdiyi ziyalıları sonrakı illərdə heç bir təhsil ocağı verməmişdir.

Zaqafqaziya Müəllimlər Seminariyasını bitirdikdən sonra Firidun bəy Köçərli Qafqaz tədris dairəsi popeçitelinin 14 iyun 1885-ci il tarixli qərarı ilə İrəvan gimnaziyasına şəriət və tatar dili müəllimi təyin olunur. 1887-ci ilin 6 noyabrında isə yenə popeçitelin 6801 № li qərarı ilə İrəvan gimnaziyası mürəbbisinin müavini vəzifəsinə irəli çəkilir. 1886-cı ildən başlayaraq

"əla və həvəslə" müəllimlik etdiyi üçün demək olar ki, hər il mükafat alır. 1892-ci ilin 20 aprelində 1887-ci ilin 7 noyabrından hesab edilmək şərti ilə ona "Kollejiski sekretar" rütbəsi verilir. Belə ki, bu illərdə ona "Titulyar sovetnik", "Statski sovetnik" kimi rütbələr verilir. 1894-cü ildə "Əla xidmətinə görə" üçüncü dərəcəli Stanislav ordeni ilə təltif olunur. Bütün bu mükafatlar Firidun bəyə pedaqoji fəaliyyətində qazandığı müvəffəqiyyətlərinə görə verilirdi. 1895-ci ilin oktyabr ayında Zaqafqaziya Müəllimlər Seminariyasının tatar şöbəsinə şəriət müəllimi təyin edilir. Bundan sonra F.b.Köçərlinin pedaqoji fəaliyyətində yeni bir dövr başlanır (1.s.312).

Firidun bəy Köçərli millətin maarif çırağını yandıran, onu şölələndirən ziyalı idi. O xalqın qarşılaşdığı haqsızlıqlara qarşı cəsarətlə sözünün deməyi bacarırdı. 1902-ci ildə seminariyaya təyin olunmuş yeni direktora Qafqaz müsəlmanlarına qarşı, xüsusilə də Azərbaycan şöbəsinin tələbələrinə qarşı göstərdiyi qərəzli münasibətinə görə və azərbaycanlı tələbələrə tətbiq edilən cəzalara görə kəskin şəkildə etirazını bildirmişdir. Bu cür çıxışdan sonra Firidun bəyin özünə qarşı da rəhbərlik tərəfindən olan münasibət dəyişilir. O gündən Köçərli nəyin bahasına olursa olsun seminariyanın Azərbaycan şöbəsinin vətənə köçürülməsi üçün mübarizəyə başlayır.

1905-ci ildə seminariyanın Azərbaycan şöbəsinin təlimatçısı F.A.Smirnovun başqa vəzifəyə keçməsi ilə əlaqədar Köçərli bu vəzifəni tutmaq üçün ərizə ilə rəhbərliyə müraciət edir. Lakin Firidun bəyə olan münasibət dəyişilmədiyindən ərizəsi beş il müddətində baxılmamış qalır. İnadkarcasına mübarizəsindən əl çəkməyən Firidun bəy nəhayət 1910-cu ildə arzusuna çata bilir və müvəqqəti də olsa onu Azərbaycan şöbəsinin təlimatçısı vəzifəsinə təyin edirlər.

Görkəmli pedaqoq Firidun bəy hələ gənc yaşlarında mətbuada çıxış etməyə başlayıbdır. İrəvan gimnaziyasında müəllim





kimi fəaliyyət göstərən Köçərlinin, 1886-cı ildə İ.Qaspiralının redaktorluğu ilə nəşr olunan "Tərcüman" qəzetində ilk məqaləsi dərc olunur. O, məqaləsində gənclərin təhsil və təlimindən, milli mətbuatımızın olmamasından, gənclərə təkcə dini elmləri deyil, dünyavi elmlərin də tədris olunmasından və s. bu kimi məsələlərdən bəhs edirdi. İrəvanın din xadimlərinin narazılığına səbəb olan yazısından sonra Köçərliyə qarşı hücumlar artır, lakin o fikrindən dönmədən bu yolda maarifləndirmə mübarizəsinə başlayır. Artıq onun "Qafqaz", "Novoye obozreniye", "Qafqazski vestnik", "Kaspi", "Tifliski listok", "Zaniye", "Zaqafqazye". "Otqolski", "Ziya", "Ziyayi Qafqaziyyə", "Kəşkül" və s. bu kimi mətbuat orqanlarında yazıları dərc olunurdu. Həm rusdilli mətbuatda, həm də Azərbaycanın milli mətbuatında yetərincə imzasına rast gəlinən publisistlərdən Firidun bəy Köçərli, eyni zamanda istedadlı tənqidçi kimi də fəaliyyət göstərirdi. Köçərli bu qədər gərgin yaradıcılıqı ilə bərabər pedaqoji fəaliyyətini dayandırmırdı. O, məktəblər üçün dərsliklərin nəşr edilməsində də çalışqanlıq göstərirdi. "Təlimi-lisani-türk" adlı dərsliyin buraxılmasında F.b.Köçərlinin böyük əməyi olmuşdur.

Firidun bəy Köçərlinin yaradıcılığı ilə yaxından tanış olduqda onun pedaqoji fəaliyyətinin çox yüksək olduğunu, əsl müəllimə xas olan müəllimlik həvəsinin tükənməzliyini aydın görmək olur. O, öz üzərində müntəzəm çalışır, məlumat dairəsini genişləndirmək üçün başqa xalqların bir çox ədəbiyyatlarını mütaliə edirdi. Bunun üçün Qori Müəllimlər Seminariyasının o dövr çox zəngin olan kitabxanasından istifadə edirdi. Firidun bəy Köçərlinin mütaliəsi təkcə bu kitabxana ilə məhdudlaşmayırdı. O, Azərbaycanın və Zaqafqaziyanın, demək olar ki, bütün bölgə və rayonlarında yaşayan və əmək fəaliyyəti ilə məşğul olan həmkarları ilə məktublaşır və dostlarından yeni ədəbiyyatlardan ona göndərmələrini xahiş edirdi. F.b.Köçərli pedaqoji fəaliyyətini genişləndirərək daha böyük müvəffəqiyyət əldə et-

maya çalışırdı.

Təhsil, təlim-tərbiyə, maariflənmə Firidun bəy Köçərlinin ən vacib saydığı məsələlərdən idi. Zaqafqaziya Müəllimlər Seminariyasında canını təhsilə, təlim-tərbiyə işinə həsr edən Firidun bəy Köçərli, orada yüksək vəzifəyə keçməyə səy göstərirdi. Onun məqsədi sadəcə vəzifə tutmaq xatirinə yüksəlmək deyildi, Köçərli yalnız seminariyanın Azərbaycan şöbəsində olan nöqsanların düzəldilməsinə nail olmaq üçün vəzifə tutmağa çalışdı. Nəhayət, Firidun bəy seminariyada çoxdan bəri arzuladığı vəzifəyə müvəqqəti də olsa təyin oluna bilir.

F.b.Köçərli Azərbaycanın həm ictimai, həm sosial, həm də siyasi həyatı ilə yaxından maraqlanırdı. Millətinin yaşadığı çətin həyat tərzi, cəhalət içərisində olması, nadanlıq, millətinin qeyri millətlərdən çox geridə qalması bir vətəndaş kimi onu narahat edirdi. Bu səbəbdən o ilk növbədə xalqın qəflət yuxusundan oyanması yolunda mübarizə aparır və millətinin maariflənməsinə çalışırdı.

F.b.Köçərli pedaqoji fəaliyyətini təkcə dərs deməklə bitmiş hesab etmirdi. O, eyni zamanda savadlı, oxumuş, mədəni yeni bir nəslin formalaşmasında məxsusi olaraq çalışır və bu yolda heç nədən çəkinməyərək maariflənmə işini daha da geniş təbliğ edirdi. Ailələrlə, valideynlərlə mütəmadi görüşən, onlarla söhbətlər aparan F.b.Köçərli, sonunda qismən də olsa istəyinə nail ola bilirdi. "İstər pedaqoji, istərsə də ədəbiyyatşünaslıq sahəsində yorulmadan çalışan Köçərlinin bu xeyirxah işində ona sevimli həyat yoldaşı, dövrünün ziyalı vətənpərvər qadınlarından biri olan Badisəba xanım yaxından kömək edərdi. Azərbaycan maarifinin və ədəbiyyatının qədrini bilən bu nəcib qadın Köçərliyə sadəcə həyat yoldaşı olaraq qalmamış, eyni zamanda onunla iş, məslək və əqidə yoldaşlığı etmişdir... (2.s.5).

F.b.Köçərli daim öz üzərində ciddi işləyən, elmini, biliyini artırmağa səy göstərən pedaqoqlardan olub. O, müəllimlik





etməklə yanaşı, həm də ədəbiyyatla, folklor nümunələri toplamaqla da məşğul olurdu. Ona haqlı olaraq "ədəbiyyat tarixçiliyi elminin banisi" deyirlər.

Müsahibə üsulunu ibtidai siniflərdə səmərəli metodik üsullardan hesab edən Köçərli Azərbaycan müəllimlərinin diqqətini məşhur yunan filosofu Sokrata cəlb edirdi. Məlumdur ki, Sokrat öz əxlaq, tərbiyə və fəlsəfi görüşlərini çap etdirməmiş, yalnız şifahi mühakimə ,sual-cavab və müsahibə yolu ilə yaymışdır. Sonrlar onun hikmətlərini şagirdlərindən biri olan Ksenofant toplayıb çap etdirmişdir. F.Köçərli Sokrat təlimi ilə bağlı olan bu əsəri "Təlimatı-Sokrat"ı tərcümə etmiş və bu əsərdə təbliğ olunan fikirləri Azərbaycan müəllimlərinə çatdırmışdır. Bu xeyirxah iş onun Azərbaycan mədəniyyəti qarşısında etdiyi xidmətlərindən biridir (10.s.27).

F.b.Köçərli xalqa göstərdiyi xidməti ilə xalqının qarşısında sanki bir hesabat verirdi.

Firidun bəy Köçərli haqqında yazılan xatirələrdən onun tələbələrinə atalıq qayğısı göstərməklə bərabər, başqa xüsusiyyətlərini də aşkar etmiş oluruq. Beləki, düz qaməti, təmkini, cidiliyi, gözəl səs tempri olan Köçərlinin mehriban da xasiyyəti var imiş. Bu xüsusiyyətlərinə görə o, həm müasirləri, həm də tələbələri tərəfindən sevilərək, hörmət qazana bilmişdir. Hər bir tələbəsinə eyni qayğı göstərən Firidun bəy xasiyyətinə uyğun olaraq ayrı-seçkiliyin tərəfdarı olmamışdır. O, varlı-kasıb ayrı-seçkiliyinə qarşı etirazını bildirirdi. Baxmayaraq ki, özüortabab bəy ailəsində böyümüşdür, lakin kasıb balalları ilə dostluq edirdi. Köçərli hər kəsə insan olduğuna görə hörmət bəsləyirdi və daim bu hörməti qorumağa çalışırdı.

Firidun bəy Köçərli təhsil ocaqlarında şagird və tələbələrə dərs deməklə kifayətlənməyirdi. O, uşaqların istər zehi, istər əqli əməklə məşğul olmalarına, hər hansı bir sənətə yiyələnmələrinə də çalışır, onlarda olan istedadın üzə çıxmasına şərait yaradırdı.

Zaqafqaziya və Orta Asiyada ilk pedaqoji elmlər doktoru, professor adını almış və Qori Müəllimlər Seminariyasında F.b.Köçərlinin tələbəsi olmuş Əhməd Yusif oğlu Seyidovun (1892-1977) öz müəllimi haqqında yazdığı xatirələrindən onun müəlliminə olan dərin hörmət və sevgisini görmək olur.

Böyük bir müəllim nəslinin yetişməsində diqqətəlayiq işlər görən F.b.Köçərlinin pedaqogikaya aid yazılmış əsərləri də olmuşdur. Azərbaycan Respublika Əlyazmaları fondunda saxlanılan bir sənəddən məlum olur ki, o, "Didaktika haqqında" üç məktub və "Ümumi pedaqogika" adlı əsər də yazmışdır (1.s.311).

Pedaqogika nəzəriyyəsini dərindən mənimsəyən F.b.Köçərli bu tədrisin çox çətin olduğunu, pedaqogikanın uşaqların yaş psixologiyasına uyğun tərtib edilməsinə, sadədən mürəkkəbə kimi qaydalara riayət edilməsinə çalışaraq, 1904-cü ildə "Kaspi" qəzetində dərc etdirdiyi "Təlimin təbii üsulu haqqında" adlı məqaləsində bu barədə ətraflı yazmışdır.

Öz peşəsinin vurğunu olan F.b.Köçərli pedaqoji fəaliyyətə başladığı ilk vaxtlardan bu sahədə istedadını göstərərək yaxşı müəllim adını qazana bilmişdir.

Zaqafqaziya Müəllimlər Seminariyasındakı əmək fəaliyyəti F.b.Köçərlinin həyatında yeni bir dövrün başlanğıcı oldu. Gənc bir müəllimin düşdüyü yeni mühit onun həyatını büsbütün dəyişməsində böyük rol oynadı. Artıq tez-tez dövrü mətbuatda məqalələr dərc etdirən F.b.Köçərli pedaqoji fəaliyyəti ilə yanaşı tənqidçilik, ədəbiyyatşünaslıq və s. maarifləndirici işlərlə də məşğul olurdu.

O, Azərbaycan ədəbiyyatı tarixində böyük tənqidşünas və pedaqoq kimi yadda qalıbdır. F.b.Köçərli layiqli əmək fəaliyyətinə görə 1899-1902-ci illərdə üçüncü dərəcəli "Müqəddəs Anna" və ikinci dərəcəli "Müqəddəs Stanislav" ordenləri ilə və başqa mükafatlarla təltif edilmişdir.





F.Köçərlinin geniş publisistik və elmi fəaliyyəti ona tezliklə böyük şöhrət qazandırır və o, Azərbaycan alimi kimi yavaş-yavaş Zaqafqaziya sərhədlərindən kənarda da tanınmağa başlayır; Peterburq, Tehran, İstambul alimlərindən məktublar alır. Onu Tiflis universitetində mühazirələr oxumağa, Tehran progimnaziyasında müəllimlik vəzifəsinə dəvət edirlər, ədəbiyyat və pedaqogikaya dair məktublar yazıb ondan məsləhət istəyirlər.

F.b.Köçərlinin yaradıcılığının 20 ildən bir qədər çox dövrünü əhatə edən pedaqoji fəaliyyəti məhz gürcü mühiti ilə əlaqəli olubdur. Məlumdur ki, onun mədəniyyətimizə göstərdiyi ən yüksək xidmətlərindən biri Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi olubdur. F.b.Köçərli Qazax seminariyasıyasına iki il rəhbərlik etməsinə baxmayaraq çox mühüm əhəmiyyəti olan işlər görmüş, seminariyaya şagirdlərin cəlb edilməsində böyük əmək sərf etmişdir.

Qori Müəllimlər Seminariyasında mühüm bir vəzifə tutmaq istəyən və bunun üçün uzun müddət ərizə ilə müraciət etməsinə baxmayaraq, F.b.Köçərli müsbət rəy ala bilmirdi. Nəhayət onun səyi nəticəsiz qalmır. O, 1910-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə müvəqqəti də olas təlimatçı vəzifəsinə təyin olunur. Çar çinovnikləri Köçərliyə o qədər etibar etmədiklərin səbəbindən onu arzuladığı vəzifəyə müvəqqəti təyin edirlər. Firidun bəy Köçərlinin 1905-ci ilin 24 iyulunda iki səhifəlik ərizə ilə popeçitelə müraciət etməsindən düz 5 ildən sonra o bu vəzifəni tuta bilmişdir. Açıqdan-açığa Köçərli görürdü ki, onun xalqına qarşı heç də yaxşı münasibət bəslənilmirdi. Bu münasibət müəllimlərə qarşı daha çox hiss olunurdu. Daima Azərbaycan müəllimlərinin hüquqları tapdalanır, onlara qarşı ögey münasibət hər addımda özünü göstərirdi. Ümumiyyətlə azərbaycanlılara qarşı gördüyü haqsızlıqlarla heç cür barışa bilməyən Köçərlinin bir məqsədi var idi. O, çalışırdı

ki, Azərbaycan şöbəsini Qori Müəllimlər Seminariyasının tərkibindən ayırıb Azərbaycana aparsın və bu şöbəni Azərbaycanda müstəqil bir tədris müəssisəsi kimi fəaliyyət göstərməsinə nail olsun. Mənbələrdə qeyd edilir ki, F.b.Köçərli, əvvəl seminariyanın Ağdamda açılmasını arzu edir, sonra fikrini dəyişərək Qazaxı seçir.

Qazaxı çox sevən Köçərli seminariyanın Qazaxda açılması üçün səy göstərir. "Cürətlə demək olar ki, hərgah Firidun bəy olmasa idi, seminariyanın bu qədər zəngin kütübxanasını və başqa büsatını Gürcüstandan buraxmayacaqdırlar. Firidun bəyin bir çox tanışları olan gürcü ədiblərinin ciddiyyəti ilə bu qədər mallar Gürcüstandan çıxıb, Qazaxa daxil oldu. Şübhəsiz ki, bu cəhətdən qazaxlılar boynunda az-çox haqqı gərək olmuş olsun. Hər halda burası inkar ediləsi deyil ki, Firidun bəy Qazaxı çox sevərdi, çünki, Azərbaycanın bir çox şairləri buradan törəmişdi" (2.s.34).

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən Cənubi Qafqaz Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin əmlakının Qoridən Qazax şəhərinə gətirilməsinə icazə verilir və bu işi həmin şöbənin müfəttişi Firidun bəy Köçərliyə həvalə edirlər. Qarışıqlıq bir zamanda başqa bir ölkədən Azərbaycana əmlak gətirməyin nə qədər çətin olduğunu anlamaq olur. Çox əziyyətdən sonra əmlakın Qazaxa daşınması baş tutur və Firidun bəy Köçərli Qazax Müəllimlər Seminariyasına direktor təyin olunur.

1918-ci il noyabr ayının 10-da Qazax Müəllimlər Seminariyasının rəsmi açılışı olur. İlk gündən başlanaraq dərslərin tədrisi ana dilində aparılır. 1918-ci ildə seminariyaya 35 şagird, 1919-cu ildə isə 24 şagird qəbul edilmişdir. Seminariya milli ruhda kadrların hazırlanmasında böyük rol oynamışdır. F.b.Köçərli seminariyanın direktoru vəzifəsini icra etməklə bərabər, pedaqogika, Azərbaycan dili və ədəbiyyatı kurslarının da tədris edirdi. O,





xalqın zəngin mədəni irsini onun malı etmək üçün böyük qüvvə sərf edirdi. Həmən illərdə Qazax seminariyasında müəllim kadrlarının hazırlanması prosesini məhz F.b.Köçərlinin adı ilə bağlayırlar. Bunu o zaman onunla çiyin-çiyinə çalışan və oxuyan müəllimlərin, eləcə də tələbələrin Köçərli haqqında yazmış olduqları xatirələrindən görmək olur.

Belə çətin işin öhdəsindən gəlmək üçün çoxlu əmək sərf edən görkəmli pedaqoq Firidun bəyin zəhməti boşa getməyir. Qazax Müəllimlər Seminariyasının açılması məsələsi reallaşır.

F.b.Köçərlinin ədəbiyyat tariximizə həkk olunan ismi əsrlər keçsə də silinməyəcəkdir. Çünki qiymətini xalq verən ziyalını, xalq da öz tarixində əbədiləşdirir. Necə ki, Azərbaycanın görkəmli dramaturqu Y.V.Çəmənzəminli Köçərli haqqında "ən müqtədir, ən sevgili ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaqla. Bütün keçmişimizi diriltdi, şairlərimizin ülvi ruhlarını canlandırdı və həyatı fikriyyəmizi təbii yoluna saldı" deyə söyləmişdir.

F.b.Köçərlinin Azərbaycan ədəbiyyatının tarixinə dair hazırladığı dörd cildlik kitabı çox təəssüflər olsun ki, özünün sağlığında deyil, ölümündən sonra, yəni sovet hakimiyyəti qurulduqdan sonra onun sədaqətli həyat yoldaşı Badisəba xanımın səyi ilə nəşr edilir.

Görkəmli ziyalının şəxsi arxivində olan materiallarla tanış olduqda, bu arxivin əsas hissəsini yaxın dostlarının və həmfikirlərinin yazdıqları, Firidun bəyin idarə və təşkilatlara göndərdiyi məktublardan ibarət olduğunu görürük.

F.b.Köçərlinin həyat və fəaliyyətinə dair əldə edilmiş sənədlər əsasən alimin Qafqaz Tədris dairəsinin popeçitelinə, Zaqafqaziya Müəllimlər Seminariyasının direktoruna yazdığı müxtəlif tarixli izahat, məktub və ərizələrdən popeçitelin, seminariyanın direktorları A.Slovinskinin, F.A.Smirnovun və başqalarının onun haqqında verdikləri raport və məlumatlardan, for-

mulyar siyahılardan və sairədən ibarətdir (1. s.312).

Köçərli 1896-cı ildə Qori seminariyasına şəriət və türk dili müəllimi təyin edilir. Onun buraya köçürülməsi ruhanilərə xoş gəlmirdi, çünki qorxurdular ki, "başı şapkalı" molla sonralardan şeyxislamlıq iddiasına düşsün. Amma ki, ruhanilərin zənni yanlış idi. Camaat arasında böyük nüfuza sahib olan və 1907-ci ildə şeyxülislamlıq vəzifəsinə dəvət edilməsinə baxmayaraq, F.b.Köçərli bu vəzifənin icrasından imtina edir. Onun məqsədi bütün Qafqazda müəllimlər hazırlayan seminariya məktəbində müəllimlik yerini tutmaq idi. Burada öz fikrini tələbələr vasitəsilə həyata keçirə bilərdi, yəni milləti savadlandırıb tərbiyə verə bilərdi. Odur ki, öhdəsinə götürdüyü bu ağır vəzifəni layiqincə aparırdı və ömrünün axırına kimi bir müəllim sifəti ilə yaşadı. Halbuki, başqa köhnə müəllimlər kimi, istəsə idi (özü üçün) faydalı bir vəzifə də ala bilərdi. Bunu Firidun bəy yapmadı və yapanlardan da razı qalmazdı, çünki müəllimlik onun nəzərində ən müqəddəs bir iş idi (2.s.20).

Baxmayaraq ki, Firidun bəyə şəriət dərslərini keçirməyi tapşırmışdılar, lakin o heç də dövrünün mollaları və dindarları kimi düşünməyirdi. Dininə böyük hörmətlə yanaşan ədibin düşüncələri tamamilə fərqli idi. Şəriət dərsi deməklə bərabər Köçərli dinimizdə olan bir çox məsələləri onların düşündüyü kimi düşünməyirdi. Yəni ilk növbədə Quranda elmə böyük önəm verildiyini qeyd edərək, millətin əməlli-başlı təhsilə yiyələnməsini, qadınlarımızın savadlanmasını, hətta çadranın məcburi olmadığını sübut etməyə çalışır və bu məsələləri həyatın ən vacib problemlərindən hesab edirdi. Köçərli öz zamanının ən düşüncəli və proqressiv ziyalılarından idi. Firidun bəy Köçərli dinimizin düzgün təbliğ edilmədiyini əsas gətirərək cəhalətə, nadanlığa etirazlını bildirirdi. Onun şəxsi arxivindən toplanmış məktublar əsasında hazırlanmış kitabında belə mövzular ətrafında çox maraqlı məqamlar vardır.





F.b.Köçərli qızların təhsilli, savadlı olmaları üçün qız məktəblərinin açılmasına ehtiyac olduğunu anlayırdı. Azərbaycanda və Zaqafqaziyanın digər şəhərlərində azərbaycanlı qızlar üçün ümumtəhsil məktəbi təşkil etmək işinin reallaşması Firidun bəyin çoxdan gözlədiyi arzusunun gerçəkləşməsi demək idi. 1880-cı ildə Tiflis şəhərində Qafqaz müsəlmanları üşün ayrıca qız məktəbi açmaq təşəbbüsü irəli sürüldü. Bu təşəbbüs və cəhd Köçərli dövrünün ziyalılarından olan görkəmli pedaqoq Həsənbəy Zərdabi ilə onun həyat yoldaşı Hənifə xanım Məlikova tərəfindən irəli sürülsə də, bu hər halda bütün Azərbaycan ziyalılarının uğuru, müvəffəqiyyəti idi.

F.b.Köçərli yazırdı: "Müsəlman qız məktəbinin açılması Qafqaz müsəlmanlarının tarixində yeni dövrün başlanğıcı olacaqdır".

F.Köçərli qız məktəbinin əhəmiyyətini qadınların köləlikdən azad olunmasından başqa, həm də ailənin ümumi həyat tərzinin yaxşılaşması baxımından qiymətləndirirdi. O daha sonra yazırdı: "müsəlman qızlarının məktəbi bitirməsi ilə öz vəzifəsinin yaxşı başa düşən təhsilli evdar qadınlar və analar meydana gələcək və tədricən müsəlman həyat tərzi, istər ailədə, istərsə də kənarda yaxşılığıa doğru yenidən qurulacaqdır. İndiyə qədər nökərlərin və mehtərlərin himayəsində böyüyən uşaqların özləri xoşbəxt olacaqlar. F.b.Köçərli Tiflisdə müsəlman qız məktəbinin təsisini alqışlayır və xalqı məktəbə maddi kömək göstərməyə çağırırdı (11.s.213).

Bu qədər cəhd edilməsinə baxmayaraq xəzinədən vəsait buraxılmadığından və əhalidən toplanan vəsait çatışmadığından Tiflisdə müsəlman qız məktəbinin təsisi baş tutmadı. Qadın təhsilinin əhəmiyyətini dərindən dərk edən bir sıra mütərəqqi müəllimlər qızların heç olmazsa oğlan məktəblərinə cəlb edilməsinə cəhd göstərirdilər. Bütün çətinliklərə baxmayaraq XIX əsrin sonlarında Azərbaycan ziyalılarının qadın təhsili uğrunda

mübarizəsi get-gedə genişlənirdi. Bu işdə F.b.Köçərli və onun timsalında ziyalılarımızın üzərinə daha böyük məsuliyyət düşürdü. Əldə edilən hər bir uğur gələcəyə atılan addımın bünövrəsi, başlanğıcı idi.

F.b.Köçərli dərs dediyi tələbələrinin uğurlarına sevinən pedaqoqu idi. 1914-cü ilin "Kaspi" qəzetinin 86-cı sayında "Из жизни и прессы мусульман" sərlövhəli yazıda F.b.Köçərlinin "Leyli və Məcnun" tamaşasında iştirakından bəhs edilir. Firidun bəy hələ Qori seminariyasında dərs deyərkən Bakıdan opera truppasının Tiflisə gəldiyini eşidir. Vaxtilə Firidun bəyin tələbəsi olmuş Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" tamaşalarının oynanılacağını bilən Firidun bəy və R.b.Əfəndiyev ailələri ilə Qoridən Tiflisə tamaşaya baxmağa gəlirlər. İlk dəfə olaraq bu səhnədən doğma ana dilində tamaşaya baxan Köçərli uzun müddət bu tamaşanın təəssüratlarını unuda bilmir. Həmən tamaşada seminariyanın direktoru Smirnov və tələbələr də iştirak etmişdir.

Mədəniyyət, maarif və məktəb sahəsində atılan yeni və müvəffəqiyyətli addımlar, Azərbaycan maarifçilərini bir qədər cəsarətləndirdi. Onlar necə olursa-olsun Azərbaycanda nüfuzlu bir qız məktəbi açmağın vacibliyini daha çox hiss edirdilər (11.s.217).

Bəzi tədqiqatçılar Azərbaycanın böyük bəstəkarı Ü.Hacıbəylinin də bir zamanlar seminariyaya qəbul olunmasında Firidun bəyin köməkliyi olduğunu qeyd edirlər. Bundan başqa xalq şairimiz Səməd Vurğunun Qazax Müəllimlər Seminariyasına qəbul edilməsində də F.b.Köçərlinin rəyi olmuşdur. Firidun bəy üçün "O necə müəllim idi?" sualını vermək günah olardı. İkicə fakta diqqət yetirək. O, pedaqoq fəhmi ilə dahi Üzeyir Hacıbəylini hələ uşaq yaşlarından istedadını sezmiş və Qori Seminariyasına qəbul etdirmişdir. Bu Seminariyanın zəhmətkeş müəllimləri, parlaq məzunları olmasaydı, tarixi fürsət yetişmişsə də





belə, paytaxtı Bakı olan Xalq Cümhuriyyətinin yaranması sual altında ola bilərdi. İkinci fakt, Xalq Cümhuriyyəti Parlamenti 25 yanvar 1919-cu il tarixli iclasında hələ bir qərar qəbul edir ki, dövlət qulluğunda çalışan şəxslər parlament üzvü ola bilməzlər, yəni, iki vəzifədən birini yerinə yetirməlidirlər. Firidun bəy Qazax Müəllimlər Seminariyasında çalışmağı, yəni müəllim kimi dövlətinə xidmət göstərməyi deputatlıqdan üstün tutur və 4 fevral 1919-cu ildə məbusluqdan (deputatlıqdan) istefa verir. Bu yerdə haşiyə çıxıb vurğulamaq istərdik ki, tarix nə qədər də aktual elmdir, o, keçmiş yox, əslində gələcək haqqındadır. Firidunbəyin düşüncələrdə ucaltdığı abidəsi bütün zamanlardan görünəcək, Abbas Zamanovun təbirincə desək," O, ürəyi atəşli bir müəllim" idi (12.№197).

Millətsevərliyi ilə seçilən müəllimlərin içərisində adı hörmətlə çəkilən Firidun bəy Köçərli Azərbaycan elmini və təhsilinin adını yaşatmağa çalışmış və onun və müasirləri olan ziyalılarımızın zəhmətlərinin müqabilində bu gün də Azərbaycan övladları savadsızlığa qarşı mübarizə aparırlar. Dünyanın ən mötəbər ümumtəhsil və ali məktəblərində təhsil alan gənclərimiz Firidun bəyin arzu etdiyi günlərini yaşayırlar.

F.b.Köçərli ağır və çətin olduğu qədər də şərəfli və müqəddəs olan müəllimlik peşəsinni bütün peşələrdən uca sayırdı. O, övladlarımızla bu peşənin gözəlliyi, dəyəri haqqında söhbətlər edirdi. Ümumiyyətlə, Firidun bəy Köçərli azərbaycanlıların təhsilə cəlb olunmağında çox böyük və israrlı maarifçilik işi aparırıdı.

Firidun bəy müəllim firqəsinin tək azərbaycanlılar deyil, milliyyətindən asılı olmayaraq elm və maarif qapılarının millətinin balalarının üzünə açdığı üçün onları ən yüksək zirvədə sayırdı.

F.b.Köçərlinin ictimai-ədəbi görüşlərinin pedaqoji fəaliyyətinə böyük təsiri olmuşdur. O, belə görüşlərdə həm də bir

təbliğatçı vəzifəsinin icra edirdi. İştirakçısı olduğu məclislərdə, tədbirlərdə söhbət zamanı əsasən məktəb yaşlı uşaqların valideynləri ilə təhsilin, savadın balalarımızın həyatında nə qədər önəmli olduğunu onlara başa salır, əhali arasında maarifləndirmə işi aparırdı. Mənbələrə istinadən qeyd edə bilərəm ki, Azərbaycanın görkəmli alimlərindən olan Əhməd Seyidov F.b.Köçərli haqqında çox gözəl fikirlər söyləmiş, onu "XX əsr Azərbaycan maarifinin nəzəri əsaslarının yaradıcılarından biri adlandırmışdır"(12. №197).

Əbəs yerə deyilmir ki, əgər XIX əsr Şuşanın ədəbi mühitini, ədəbiyyatını və ən nəhayət musiqi mədəniyyətini öyrənmək istəyirsənsə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin mühüm simalarından olan Mir Möhsün Nəvvab, Firidun bəy Köçərli və Firidun Şuşinskinin əsərlərini oxumaq yetər.

Onun "Müəllimlərimiz və onların halı" adlı yazısında oxuyuruq: "Ruhani atalardan sonra cəhaləti-millət ilə müttəsil cəngə müsəmməm olan, elm və maarif qapılarını millət üzünə açan ikinci firqə hər millətin içində müəllimlər firqəsi olubdur. Müəllimlərin səyi və qeyrəti sayəsində çox qövm və tayfalar xoşbəxt olub ağ günə çıxıblar, şan və hörmət qazanıblar, dövlət və qüvvət kəsb ediblər" (8.s. 182).

Bu dövrdə mütərəqqi ictimaiyyətin nümayəndələri qadın təhsilinin genişləndirilməsi və Azərbaycan qadınlarının həyata cəlb olunması uğrunda daha fəal çıxış etməyə başladılar. Pedaqoq və publisist olan Firidun bəy Köçərli yazırdı ki, yalnız təhsil müsəlman qadınına ailəni dolandıran, tərbiyəçi və evdar xanım kimi layiqli yer tutmağa imkan verə bilər (9.s.7). Bu işdə Köçərli mətbuatın rolunu əvəzsiz hesab edirdi.

Ədəbi irsin nəşri, ədəbiyyatşünaslıq elminin inkişafı üçün nəşriyyatın, ədəbiyyatı intişar etdirən cəmiyyətin olmasını zəruri məsələlərdən sayan Yusif Vəzir Çəmənzəminli Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi kimi klassiklərin çap olu-





nub geniş xalq kütləsinə çatdırılmamasından şikayətlənirdi: "...Keçmişlərin əsərləri çap olunmamış dururlar. Firidun bəy Köçərli kimi məqtədir bir ədib on beş il zəhmət çəkib, üç cild "Azərbaycan türklərinin ədəbiyyat tarixi"ni vücudə gətirib. Bunları çap etdirən yoxdur". Bu kitabı bir əcnəbi yazsa, Avropada onun ilə böyük ad qazanardı. Görəsən nə üçün bizim aramızda Firidun bəy Köçərli cənabları kimi adamların əmələ gəlməsini şövq və həvəslə qarşılamırıq? "(3.s.254).

Həqiqətən görkəmli alim, tənqidçi, pedaqoq Firidun bəy Köçərlinin əsərlərinin hər biri bir elmi əsər, bir monoqrafiya, bir dərs vəsaitidir. Onun məqalələrinin hər cümləsində insanı düşündürən, insana hətta insan olduğunu anladan, həyatda ən vacib məsələlərin həlli yolları göstərilir. Köçərli öz dövrünün mayakı, ziyası idi. Belə bir şəxsiyyətin Azərbaycanın xoşbəxt gələcəyi naminə çox işlər görə biləcəyini anlayan çar çinovniklərin və onların kölgəsində dolananların əllərinə o dövrün amansız qayda-qanunları yaxşı fürsət verdi və belə xislətli adamlar Azərbaycanın millətsevər, maarifpərvər vətən aşiqlərindən birinin də qətlinə nail ola bildilər.

Firidun bəy Köçərli elm və maarifin insanın mənəvi inkişafında müsbət təsirini göstərməklə bərabər qeyd edir ki, "elmsizlikdən və avamlıqdan müsəlmanların ürəyinə qorxu bərk sirişt edibdir, cəhl və nadanlıq onları cürətsiz, hünərsiz və bir növ üftadə, xar və zəlil edibdir (4.s.71).

Firidun bəy Köçərlinin yaradıcılığında onun pedaqoji fəaliyyəti həyatının ayrılmaz hissəsi olmuşdur. Sözsüz ki, bu məhəbbət ilk olaraq onun böyüyüb boya-başa çatdığı ailəsindən, eləcə də yaşadığı Şuşa şəhərinin o dövrdəki mühitindən qaynaqlanmışdır. Atasının ədəbiyyata olan həvəsi onun tanınmış şairlərin dövrəsində böyüməsinə və balaca Firidunun gələcəyinin formalaşmasında böyük rolu olubdur. Bir tərəfdən də özünün ağıllı, zəkalı olması buna rəvac vermişdir.

Qeyd olunduğu kimi pedaqoji fəaliyyəti dövründə bir pedaqoq kimi artıq tanınan, məşhurlaşan Firidun bəy Köçərlini hətta o zaman Tiflisin ali məktəblərinə mühazirələr oxumağa çağırırdılar. Tapşırılan hər bir işi o şərəflə yerinə yetirirdi. Köçərli təkcə pedaqoji sahədə istedadlı olmayıb, o eyni zamanda bir ədəbiyyatşünas, folklorşünas, publisist və filosof kimi də ədəbiyyatsevərlərə yaxşı tanışdır. Pedaqoji fəaliyyətində tələbələrə ən çox Azərbaycan dilinin estetikasını aşılayan Firidun bəy bu dilin dünya xalqları dilindən heç də geri qalmadığını, sadəcə dili özünəməxsus formada işlədilməsinin və təbliğ olunmasını tövsiyə edirdi. O bir pedaqoq olaraq ilk növbədə Vətənimizi və dilimizi sevməyi öz şagird və tələbələrinə öyrədirdi. Bunu Firidun bəy Köçərlinin dərs dediyi tələbələrinin öz müəllimləri haqqında yazdıqları xatirələrindən görmək olur.

Görkəmli alimin daima Azərbaycan dilinin üzərində çalışması, dil üslubunun zənginləşdirməyə, təkmilləşdirməyə səy etməsi onun əsl pedaqoq olduğunun göstəricisidir. Firidun bəy Köçərlinin yaradıcılıq fəaliyyəti ilə tanış olduqda bunun müəllimlikdən əlavə bir vətəndaşlıq borcu hesab etdiyinin görürük. Onun dərs dediyi tələbələrinin əksəriyyəti sonralar özlərinin pedaqoji fəaliyyəti dövründə müəllimlərinin öyrətdiyi yolla getməyə və bəzən ona bənzəməyə çalışırdılar. Bu da müəllimin tələbələr yanında qazandığı məhəbbətindən irəli gələn bir hadisədir. Tətil günləri tələbələri evinə dəvət edərək, inqilab ədəbiyyatından topladığı kitabçalardan onlara paylayardı. Çarizmin təqiblərindən uzaq olmaq üçün tələbələr müəllimlərindən aldığları kitabçaları oxumaq üçün gizlin yerlər axtarır tapır və yaxud dağ təpəsində olan köhnə qalaların xarabələrində oxuyardılar. Bu kitabların əksəriyyəti qadağan olunmuş ədəbiyyatlar hesab edilirdi. Milli şüurun oyanmasına, millətin öz hüquqlarını tanımasına, cəhalətin aradan qaldırılmasına xidmət edən bu kitabçalar siyasi ad daşıdığı üçün müəllimlər tələbələrə son dərəcə





ehtiyatlı davranmağı məsləhət görürdülər. Bax elə müəllimin nə qədər böyük qüvvəyə malik olduğunu buradan görmək olur.

Firidun bəyin fikrincə müəllim adından daha şərəfli, daha yüksək titul, vəzifə yoxdur. Müəllim öz davranışı, öz hərəkəti, öz danışığı ilə şagirdlərin qəlbində elə iz buraxmalıdır ki, şagird müəllimini nəinki məktəbdə dərs aldığı müddətdə, hətta məktəbi bitirdikdən sonra uzun illər müəllimlərini unuda bilməsinlər. Firidun bəy Köçərli məhz belə müəllimlərdən idi. Köçərli haqqında yazan tələbələri müəllimlərini xoş hisslərlə xatırlayırlar. Qori məzunlarından Ə.Səbri, H.Şahsuvarov, Ə.Seyidov, Q.Həsənov, C.Abbasov və başqaları öz müəllimlərinə olduqca maraqlı xatirələr söyləmişlər. Q.Həsənov: "Mənim, açığını desəm musiqi qabiliyyətim yox idi. Musiqi müəllimimiz mən skripkanı əlimə alan kimi qışqırırdı:- Oy, Həsənov. Yenə də sən oy, oy!-deyə otağı o tərəfə bu tərəfə gəzir və kamança yayının ağacı ilə mənim barmaqlarıma acıqlı-acıqlı vurardı. Bir gün əhvalatı F.Köçərliyə danışdım. Məni dinlədi və mənə elə gəldi ki,o, mənim sözlərimə heç əhəmiyyət vermədi. Düşündüm ki, görünür nahaq yerə demişəm. Amma bilmirəm ki, Firidun bəy musiqi müəllimimizə nə demişdisə, sabahısı günü müəllim mənə yaxınlaşıb «Гасанов, ты хороший мальчик, ты можешь играть. Давай попробуем»- deyə mənimlə çox mehriban dərsə başladı" (10.s.20).

Tələbələrindən Əli Səbri, öz xatirələrində: müəlliminin təkcə elmli, savadlı olmağını deyil, onun həddindən artıq səliqəli,qənaətcil, təmizkar olduğunu və onlara da belə olmağı tövsiyə edirdi. Həmişə bizə təmizkar olmağın mədəniyyətin göstəricisi olduğunu xatırladırdı. Hətta uşaqların israfçılığa yol verməməklərinə də ciddi nəzarət edirdi. Xatirələrdən görünür ki, Firidun bəy kimsəsiz və köməksiz uşaqların köməyi və dayağı olubdur. Köçərli həmişə deyərmiş: "İnsanın dırnağı ilə ayaqqabısının təmizliyi onun mədəniyyətindən xəbər verir".

Müəllimlərə və məktəblərə bu qədər böyük önəm verdiyi üçün müəllimlərin və şagirdlərin Firidun bəyə ürəkdən hörmətləri var idi. Firidun bəy Qafqazın hər yerini özünə vətən bilirdi və hər yerinə məhəbbəti var idi. Müəllim çatışmazlığını misal göstərən Köçərli həm İrəvan gimnaziyasında, həm də Qori Müəllimlər Süminariyasında çalışdığı müddətdə qeyri millətləridən olan müəllimlərinin sayının Azərbaycanlı müəllimlərin sayından bir neçə dəfə çox olduğunu göstərir və əsas səbəb kimi bizim bəzi ziyalılarımızın əhali arasında savadsızlığa qarşı apardıqları mübarizəsinin zəif olduğunu onların nəzərinə çatdırırdı. Eyni zamanda məktəblərin və şagirdlərin də yetərincə olmamağı da bu işə mane olan səbəblərdən idi. Müəllimlərin aldıqları məvacibi də az idi. Məvacibin azlığınından müəllimlik peşəsinə yiyələnənlərin bir çoxu seminariyanı bitirdikdən sonra müəllimliklə deyil, başqa işlə məşğul olmağı məqbul sayaraq məktəbdən uzaqlaşırdılar.

1910-cu il Firidun Köçərlinin pedaqoji fəaliyyətinin ən qızğın dövrlərindən biri olmuşdur. Məsələn 1910-cu ildə çap etdirdiyi "cənab Şirvanskinin "Vətən dili" dərsliyinə yazdığı resenziyaya dair" adlı məqalədə, müəllifin bəzi iradlarının əleyhinə çıxaraq, göstərir ki, birinci sinif üçün tərtib edilmiş dərslik, hər şeydən əvvəl, sadə, anlaşıqlı, canlı və şirin dildə yazılmalıdır, dərsliyin şəkilləri mətn ilə tamamilə uyğun olmalıdır (1.s.315).

Azərbaycan ədəbiyyatının zəngin tarixi, klassiklərimizin bu tarixi yaratması məhz ədəbiyyatımızın dünya ədəbiyyatları içərisində tanınmasına səbəb olmuşdur. Dilimizin poetikliyi, səlisliyi ədəbiyyat nümunələrimizin bir ana laylasını xatırladan axıcılığı, başqa xalqların tərəfindən də yüksək qəbul edilirdi, Bunun təbliğində sözsüz ki, müəllimlərin böyük əməyi vardır. Ədəbiyyat elə-belə meydana gəlməmişdir. Ədəbiyyatın yaranması yaşadıqları hər bir dövrdə mühitə uyğun olaraq müəllimlərin çəkdikləri zəhmətlərin və fədakarlıqlarının sayəsində meydana gəlmişdir.





İstər mollaxanalarda ruhani dərsləri alan, istərsə də ölkəsinin hüdudlarından kənarda təhsil alan və keçmişdən üzü bəri gələn bu ədəbiyyatın yaranmasında klassiklərimizin hər birinin rolu danılmazdır. Lakin, bunların içərisində daha çox əziyyət çəkən bu folklor nümunələrinin toplanaraq kitab halına gətirilməsində böyük əmək sərf edən görkəmli Azərbaycan ədəbiyyatşünası Firidun bəy Köçərli olmuşdur. Bütün ömrünü ədəbiyyata, pedaqoji fəaliyyətə həsr edən ədibin bu gün ki, ədəbiyyatımızda qoyduğu izi silinməzdir.

F.b.Köçərlinin haqqında tədqiqatla məşğul olan alimlər qeyd edirlər ki, Köçərliyə qədər Azərbaycan klassiklərinin həyat və yaradıcılığı haqqında heç bir kitab, əsər yazılmamışdır, nə yaxşı ki, Firidun bəy belə bir əsəri ortya çıxartdı və biz Azərbaycan klassikləri haqqında məlumat əldə edə bildik. Yəni, yenə də müəllimin zəhməti burada özünü göstərmişdir. Köçərlinin "Azərbaycan ədəbiyyatı" adlı kitabı ədəbiyyat tariximizdə əvəzolunmaz əsər olaraq izi qalacaqdır. Əsərin məktəb vəsaiti kimi istifadə edilməsinin özünü bir tarixi hadisə adlandırmaq olar. Bugünki gənc nəslin klassiklərimiz haqqında öyrənib bildikləri məlumatlar məhz Firidun bəy Köçərlinin toplayıb əldə etdiyi materiallar əsasındadır.

XIX əsr Azərbaycanda ictimai fikrin formalaşmasında xalq maarifinin, ümumilikdə təhsilin inkişafı xüsusi mərhələ təşkil edir. Dövlət tərəfindən yeni tipli məktəblərin açılması ölkəmizdə xalq maarifi şəbəkəsinin genişlənməsinə şərait yaratdı.

Firidun bəyin fikrincə təhsildə ən vacib olan məsələlərdən biri təhsil planı ilə yanaşı tədris proqramlarının da əhatəli və ardıcıllıq prinsipləri əsasında tərtib edilməsi idi. O, 1905-ci ildə nəşr olunmuş "İbtidai məktəblərin tədris planı"na öz münasibətini bildirərək, bu tədris planının heç də 1880-ci ildə tərtib edilmiş tədris planından fərqlənmədiyini göstərmişdir. F.Köçərlinin

uşaqlarımızın doğma ana dillərini öyrənməkləri ilə yanaşı qardaş xalqların da dillərinin öyrənilməsinə müsbət münasibəri olduğu üçün tədris planında rus dilinə xüsusi yer verilməsini bəyənirdi. Rus dili tədrisi dərs ilinin ikinci yarısından başladığı üçün, onun ana dilinin tədrisi ilə paralel öyrənilməsi işini asanlaşdırır (10.s.38).

XIX əsr Azərbaycan ədəbiyyatının və pedaqoji fikrin inkişafında əvəzsiz xidmət göstərmiş F.b.Köçərli zəngin ədəbi irsə malik simalardandır. Azərbaycan maarifinin çox acınacaqlı vəziyyətdə olduğunu bilən ədib xalqı bu cəhalət girdabından qurtarmağın yollarını arayır, onun tərəqqisi yolunda yorulmadan çalışırdı.

Tarixə xalq müəlliminin nümunəsi kimi daxil olmuş, xalqa bilik verməyi qarşılarına məqsəd qoymuş, özlərini xalq yolunda şam kimi əridən neçə-neçə cavanlar: Firidunbəy Köçərli, Rəşidbəy Əfəndiyev, Səfərəlibəy Vəlibəyov, Əlişbəy Tahirov, Mahmudbəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Müslim Maqomayev, Pənah Qasımov, Hənəfi Terequlov, Əli Hüseynov, Fərhad Ağazadə, Səmədbəy Acalov, Teymurbəy Bayraəlibəyov, Azad Əmirov, Əhmədağa Mustafayev, Yusif Qasım, Əli Qəmərli, Əhməd Seyidov və onlarca başqaları.

Birincilər seminariyanın otaqlarına ilk qədəm qoyanlar, sonuncular isə şöbənin sonbeşikləri. Hər biri bir tarixi şəxsiyyət, hər biri bir sənətkar, hər biri bir ustad! (11.s.95).

Azərbaycanın mədəniyyət tarixinə öz dəstixətti ilə imza atmış bu şəxsiyyətlər həm qadın azadlığı, qadın təhsili, təlim-tərbiyə, maarifləndirmə və həm də Azərbaycanın digər sahələrinin inkişafında əvəzsiz xidmətlər göstərmişlər.

Firidun bəy Köçərli azərbaycanlılardan ibarət müəllim kadrlarının hazırlanması işində yaxından iştirak etmişdir. Köçərlinin hələ İrəvan gimnaziyasında çalışmağa başladı





vaxtdan əvvəl, İrəvan Müəllimlər Seminariyası bir sıra müəllim kadrları yetişdirərək, kənd məktəblərinə göndərirdilər. XIX əsrin ikinci yarısında kənd məktəblərində çalışan müəllimlərin çoxu məhz İrəvan Müəllimlər Seminariyasının yetirmələri idilər. Firidun bəy Köçərli şagirdlərə dərs deməkdən əlavə maddi yardımla da onlara köməklik göstərirdi. Belə ki, o imkansız ailələrə paltar, pul və digər köməkliklər göstərirdi. Bu təşəbbüsə Köçərlidən başqa qoşulan böyük müəllimlər dəstəsi var idi.

Xalqı maarifləndirmək, təhsil vermək, elmli, savadlı etmək zamanın tələbi olaraq ziyalılarımızı narahat edirdi. Şagirdlərin tərbiyə olunması məsələsinə gəldikdə F.b.Köçərli uşaq döymək məsələsinə çox pis baxır, hətta buna qarşı ciddi mübarizə aparırdı. Mollaxanalarda dərs alan şagirdlərin ayaqlarının fallaqqaya salınaraq çubuqla vurulmasını qəbul edə bilməyən Köçərli, əsərlərində bu tərbiyə prosesinə kəskin tənqidi yanaşırdı. Hətta belə mollaların cəmiyyət qarşısında böyük cinayətə yol verdiklərini göstərirdi. Köçərli bu anti-pedaqoji üsulun tərbiyə nöqteyi-nəzərdən təhlükəli nəticə verdiyini şərh edərək yazırdı: "Şagirdləri döymək, təhqir etmək, şəxsiyyətinə toxunmaq, yaxud onların birini digərinə döydürmək nəticəsində uşaqlar kobudlaşır, bir-birinə nifrət bəsləyir. Sonunda belə tərbiyə almış uşaqlar dəhşətli caniyə çevrilir"(10.s.41).

Köçərlinin ən ümdə arzusu Azərbaycanda maarifin yüksəlməsi, təhsilin inkişaf etdirilməsi idi. O zaman təkcə Qazaxda, Gəncədə və Qarabağda deyil bütün Azərbaycanda təhsil acınacaqlı vəziyyətdə idi. Çar hökuməti tərəfindən Azərbaycan məktəblərinə göstərilən köməkliyi Firidun bəy ögey qayğı kimi dəyərləndirir və onların bu yanaşmasını çəkinmədən tənqid edirdi. Köçərli bu səbəbdən yeni tipli xalq məktəblərinin açılmasını istəyirdi, hətta maarifin yayılması naminə icbari təhsil ideyasını da bəyənirdi. F.b.Köçərlinin arzuları sonsuz idi.

Pedaqoji fəaliyyəti dövründə Köçərlinin ən böyük arzu-

larından biri də ana dilinin məktəblərdə geniş təbliğ olunması idi. Onun ana dili haqqında söylədiyi fikirlər bu gün də öz aktuallığını saxlamaqdadır. Dərsliklərin xüsusi proqram əsasında hazırlanmasında Firidun bəy hər şeydən öndə uşaq psixologiyasını xüsusi olaraq nəzərə alırdı.

Məlumdur ki, Köçərli 1885-1886-cı illərdə ilk müstəqil pedaqoji işə başlamışdır. O, Zaqafqaziya Müəllimlər Seminariyasının tatar bölməsini bitirdikdən sonra İrəvan gimnaziyasında məhz Azərbaycan dili və şəriət fənlərindən dərs demək üçün oraya təyinatla göndərilir.

Tarixən qədim torpağımız olan İrəvan mahalında 1881-ci ildə eyni vaxtda həm İrəvan Seminariyası, həm İrəvan gimnaziyası, həm də yeni üsulda fəaliyyət göstərəcək Uluxanlı məktəbi açılmışdır. Dərslərin rus dilində aparılmasına baxmayaraq, Azərbaycan dili və şəriət dərslərinin aparılması üçün müəllim ştatı təyin edilmişdir. Azərbaycan türklərinin böyük əksəriyyətinin yaşadığı İrəvan torpağında Azərbaycan dili və şəriət dərslərinin keçirilməsinə ehtiyac var idi. 10 il(1885-1895) İrəvan gimnaziyasında müəllimlik fəaliyyəti ilə məşğul olmuş Firidun bəy çalışdığı müddət ərzində çox böyük hörmət sahibi olmuşdur. O vaxt şəhərdə türk müəllimlərinə vəzifə tapmaq o qədər də asan deyildir. Çünki çar hökuməti tərəfindən bu iş qadağan edilmişdi. Şəhərdə iş tapmaq üçün rəislərin, direktorların inamını, hörmətini qazanmaq lazım idi. O, müəllimi məşhur pedaqoq A.O.Çernyayaevskinin ən sevilmli tələbələrindən idi. İlk gündən əmək fəaliyyətinə başlayan Köçərlinin şagirdlərin kitabsızlığı narahat etməyə başladı. Qafqazda türk mətbəəsinin olmaması kitabların nəşr olunmasına əngəl törədirdi. Bu səbəbdən Firidun bəyin "Sokrat" adlı əsərinin çapı illərlə uzanmışdı. Ermənilərin, gürcülərin bir neçə mətbəələri olduqları halda, azərbaycanlıların bir mətbəəsi belə yox idi.

F.b.Köçərli hələ İrəvan gimnaziyasında müəllim işləyərkən proqram məsələləri ilə məşğul olmuş, gimnaziyanın aşağı siniflərində Azərbaycan dilinin tədrisi üçün proqram tərtib etmişdir. Köçərli məktəblərdə məktəb qayda-qanunlarının olmadığını, bəzi qaydaların da kobudcasına pozulduğunu görür və narahat olurdu. Məktəblərdə dərs cədvəli tərtib edilmirdi. Dərs ilinin başlanması və qurtarmasının müəyyən vaxtı yox idi. Məktəblərə qəbul bütün il boyu davam edirdi. Bu vəziyyət bütün Rusiyada olan müsəlman vilayətlərində, eləcə də bütün Qafqazda və Azərbaycanda mövcud idi və demək olar ki, məktəbin daxili qaydaları hər yerdə təxminən eyni idi. F.b.Köçərli ziyalılara müraciət edərək bu işdə dönüş yarada bildi və bunun da yeganə yolu mübarizə aparmaq idi ki, Köçərli də bunu bacardı.





Firidun bəy Köçərli gözəl pedaqoq olduğu kimi, gözəl də mədəniyyət xadimi idi. O, hələ 23 yaşında ikən İrəvan teatrında M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasını tamaşaya hazırmışdır. İrəvan əhalisi arasında böyük mədəni hadisə kimi yadda qalan bu tamaşa F.b.Köçərlinin yaradıcılıq fəaliyyətində mühüm mədəni hadisə olaraq xatirəyə çevrilir. Ədəbiyyata böyük marağı olan Köçərli İrəvan mahalının yerli ziyalıları ilə birlikdə müxtəlif səhnəciklər, ədəbi məclislər və poeziya gecələri təşkil edirdi. Bu onun pedaqoji fəaliyyətdən əlavə həm də onun görkəmli bir mədəniyyət xadimi kimi fəaliyyətinin göstəricisidir. F.b.Köçərlinin fikrincə müəllim ilk növbədə öz peşəsini ürəkdən sevməklə bərabər, ədalətli və düzgün olmalıdır. Müəllimlərlə şagirdlər arasında həmişə sülh, mehribanlıq, dostluq, etibar və sədaqət olmalıdır.

Firudin bəy Köçərli Azərbaycan dilinin proqramını tərtib edərkən özünün didaktik prinsiplərinə sadiq qalmışdır. O müəllimlərə şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almağı, sadədən mürəkkəbə, asandan çətinə doğru getməyi tələb edirdi. Pedaqoji-psixoloji baxımdan çox incə və mühüm olan bu cəhəti göstərdikdən sonra Köçərli yazırdı: "Məktəbə yenicə gəlmiş uşaqların

bəzi sinif əşyaları ilə məktəbin daxili qaydaları ilə tanışlıq üçün tədris planında məsləhət görüldüyü kimi bir ay deyil, iki-üç gün tamamilə kifayətdir. (10.s.39).

Köçərli bu metodun istifadə edilməsinədə vaxt itkisinə yol verməməyi, vaxtdan səmərəli istifadə etməyi, itirilmiş vaxt hesabına uşağın daha çox şey öyrənməyini nəzərdə tuturdu. Əslində bu daha düzgün idi. Uşağa ilk günlərdən işgüzarlığı, zirəkliyi öyrətmək üçün vaxtdan lazımı qaydada istifadə olunmalıdır. Köçərli ictimai mühüti uşaqların təlim və tərbiyəsinə böyük təsiri olan amillərdən hesab edirdi. Burada ailə üzvlərinin, ən əsası isə ananın xüsusi yerinin olduğu qeyd edilir. Başqa pedaqoqlar kimi Firidun Köçərli də ailə üzvləri dedikdə ata, ana, bacı, qardaş, nənə, baba və başqa yaxınları nəzərdə tutulur, lakin ana birinci yerdə olur. Firidun bəyin fikrincə uşaq istər təlim-tərbiyədə, istərsə də təhsildə ən çox ananın ünsiyyətindən bəhrələnir. Ana əgər savadlı olarsa, buradan son dərəcə böyük nəticə əldə olunar. Buna görə də Köçərli gələcəkdə savadlı nəslin yetişməsində ilk növbədə anaların (qızların) təhsilə cəlb edilməsini daha vacib hesab edirdi.

F.b.Köçərlinin pedaqoji fəaliyyəti tənqidçiliyi ilə birləşirdi ki, bu da xalqın səadəti, xoşbəxt, mədəni gələcəyi uğrunda apardığı ardıcıl mübarizə idi. Sonralar, Qori Seminariyasında Azərbaycan şöbəsi Qazaxa köçəndə (1918) F.b.Köçərli seminariyanın direktoru olur. Bütün səy və bacarığını milli ziyalıların yetişməsinə sərf edir. Xalq şairi S. Vurğun, O. Sarıvəlli və başqaları bu zaman Firidun bəyin tələbələri olmuşlar (5.s.378).

Görkəmli pedaqoq Mehdixan Vəkilov öz xatirəsində qeyd edir ki, F. Köçərli vətənini, xalqını və dilini böyük məhəbbətlə sevən vətənpərvər bir alim idi. Ömrünün axırına kimi övladı olmayan Firidun bəy bütün məhəbbətini, mehr və ülfətini, ümid və arzularını seminariyada oxuyan azərbaycanlı balalarına bağlamışdı (2.s.10).





Firidun bəy Köçərli Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi məsələsində çəkdiyi əziyyətin sonunda nəhayət ki, istəyinə nail ola bilir. Belə ki, 1918-ci ilin yayında məzuniyyətə çıxan Köçərli, rus çarının devrilməsi xəbərini eşidən kimi Tiflisdə yaşayan dostlarının köməyi ilə gecə ikən ömür-gün yoldaşı Badisəba xanımla gizlincə Azərbaycan şöbəsinə məxsus əmlakı (kitabxana, dəftərxana və başqa ləvazimatlar) qatara yükləyərək Qazaxa gətirə bilir. Əvvəldə qeyd etdiyimiz kimi F.b.Köçərlinin arzusu seminariyanı Ağdamda açmaq idi (12.№197). Lakin çar məmurlarının duyuq düşən dəstəsi qatarın dalınca gələrək, onları Böyük Kəsik dayanacağında haqlayır və Salahlı yaxınlığında qatarı saxlayırlar. Bir xeyli danışıqlardan sonra gələnlər və qatar Tiflisə boş qayıdır. Qazax bəylərinin köməkliyi ilə seminariyaya məxsus avadanlıq və ləvazimatlar Salahlıya daşınır. Bu hadisə ilə əlaqədar Firidun bəy qərarını dəyişir və seminariyanı Ağdamda deyil, Qazaxda açmalı olur. 1918-ci ildə hakimiyyətə rəhbərlik edən Azərbaycan Xalq Cümhuriyyətinin tapşırığı ilə F.b.Köçərli Seminariyada direktor kimi fəaliyyətə başlayır və yeni hökumət təhsilin inkişafı üçün seminariyaya 5000 manat vəsait köçürür. Məhz həmin ildə də Seminariyanın Qazaxda müstəqil fəaliyyət göstərməyinin təntənəli açılışı olur. Artıq mətbuat səhifələrində Firidun bəy Köçərlinin və dövrün ziyalı şəxslərinin seminariya haqqında yazıları mətbuatda dərc olunmağa başlayır.

F.b.Köçərli Azərbaycanın tərəqqisi uğrunda apardıqları mübarizənin ən parlaq nümunələrindən biri hesab etdiyi və çox yüksək dəyərləndirdiyi ziyalıların məktəb açmaq təşəbbüsləri olmuşdur. XIX əsrin ikinci yarısından Azərbaycanda xalq maarifi sahəsində mürəkkəb bir inkişaf prosesi gedirdi. Bir tərəfdən çar məmurları məktəb və mədrəsələrin islamizm ruhunda inkişafına yol verməmək üçün bir tərəfədən bu tədris ocaqlarına rus dili daxil etməyi, digər tərəfdən isə rus dilində olan ibtidai xalq

məktəblərinin sayını artırmağı lazım bilirdilər (11.s.270).

XIX əsrin sonlarına yaxın Azərbaycan kəndlərində "savad məktəbi" adlı məktəblər meydana gəlməyə başlayır. Məsələn: Ordubadda "Əxtər"adlı məktəbin fəaliyyətə başlamsı, daha sonra Naxçıvanda "Tərbiyə məktəbi" adlanan məktəbin açılması Naxçıvan ziyalıları üçün böyük hadisə idi. Yeni məktəb hərəkatı Şuşada, Şamaxıda, Gəncədə, Şəkidə, Lənkəranda və sair bölgələrdə fəaliyyətə başladı və açılan bu tipli məktəblər ziyalıların göstərdikləri təşəbbüslərin parlaq nəticəsi olaraq mədəniyyət tariximizə yazıldı. Artıq hərəkətə gəlmiş mütərəqqifikirli ziyalıların irəliyə doğru atdıqları bu addım təqdirəlayiq bir hadisə idi. Bəzi ziyalılar belə məktəblərin fəaliyyət göstərməsi və uşaqların təhsil alması üçün hətta kirayə otaqlar tutur, bəzi hallarda isə imkanı olanlar öz evlərində belə şərait yaratmağa razılıq verirdilər.

Belə məktəblərin sayının tədricən artması təkcə Azərbaycanda deyil, Zaqafqaziyanın Tiflis və İrəvan kimi böyük şəhərlərində də özünü göstərməyə başlamışdı. İrəvan şəhərində yeni üsullu ana dili məktəbinin meydana gəlməsi də bu illərə təsadüf edir (11.s.289).

Firidun bəy Köçərlinin bu məktəblər haqqında yetərincə məlumatı var idi. O bu məktəblərin tədris metodikası ilə maraqlanır, onlardan bəzi nümunələri öyrənirdi. Canı, qanı ilə pedaqoji fəaliyyətə bağlı olan Köçərli sonralar sevdiyi peşəsinin sirlərini sevə-sevə şagird və tələbələrinə öyrədirdi.

Firidun bəy Köçərli seminariyada oxuyan başqa mülkədar və zadəgan övladlarından fərqlənərək yoxsul ailələrdən olan uşaqlarla dostluq edirdi və onları mütərəqqi fikirli pedaqoqlarla yaxınlıq etməyə çağırırdı.

Firidun bəy Köçərli həyatının 35 ildən artıq bir dövrünü pedaqoji fəaliyyətə həsr etmişdi. O, əsl təhsil, maarif fədaisi idi. Dərs dediyi bu illərdə onun əlindən onlarla şagirdlər gəlib-getmişdi. F.b.Köçərli hələ də istədiklərini lazım olan səviyyədə





şagirdlərə öyrədə bilmirdi. Çünki bir tərəfdən o vaxtın ağır çar rejimi, digər tərəfdən ətrafdakı mühit, mövhumat və dindarlığın hökm sürməsi, insanları cəhalətə sürükləyən savadsızlıq. Bütün bunlara qarşı ayrı-ayrılıqda mübarizə aparan Firidun bəy məhz bu səbəbdən təhsildə istədiyi dərs proqramını həyata keçirə bilmirdi. Dərslərin keçirilməsində üzləşdiyi çətinliklərdən biri də kadr çatışmazlığı idi ki, qeyri millətlərin müəllimləri çoxluq təşkil etdiyi halda türk müəllimlərinə böyük ehtiyac duyulurdu. O "Şərqi-Rus" qəzetindəki bir məqaləsində yazır: "Tələbələr türk dilini bilmir, çünki türk dilinə hökumət mültəfit olmur, "xala xətrin qalmasın" deyə həftədə bir-iki dərs, o da aşağı siniflərdə, həm də məcburi deyil.

F.b.Köçərli həmişə müəllimlərin hüquqlarının müdafiə olunmasında fəallıq göstərmiş və onların məvaciblərinin artırılması məsələsini qaldırmışdır. Köçərli əvvəlki illərdə də bu cür halların baş verdiyini qeyd edirdi. O, təhsilin keyfiyyətli olmasında müəllim nüfuzunun olmasını əsas şərt hesab edirdi.

Azərbaycan müəllimlərinin başqa millətlərin müəllimlərindən aşağı maaş alması, təhsil və tədrisin bir çox məsələlərində onlara ögey münasibətin göstərilməsinə Köçərli narazılığını açıq-aşkar bildirirdi. Söz yox ki, başqaları dedikdə Firidun bəy qeyri millətlərdən olan müəllimləri nəzərdə tuturdu. Onun fikrincə müəllimə göstərilən hörmətin müqabilində yalnız təhsilin və tədrisin keyfiyyətində yüksək nəticə əldə oluna bilərdi. Əks təqdirdə müəllim peşəsindən ayrılaraq başqa peşəni seçəcəkdir. Köçərli müəllimlik peşəsinin fədaisi olmağı, bütün çətinliklərə baxmayaraq bu peşəni tələbələrinə sevdirməyə çalışırdı.

İbtidai təhsil özülünü və seminariya təhsilini Firidun bəydən almış bəzi məzunlar sonradan seminariyanı tərk edib müxtəlif qulluqlarda çalışsalar da, Köçərlidən aldıqları savad hər tərəfdən onları qane edirdi. Çünki Firidun bəy şagirdlərə savadın özünü deyil, onu kəsb etmək yollarını öyrədiridi.

Çar hökumətinin iyrənc siyasətlərindən biri də bu idi ki, hansı fənn olursa olsun, rus dilinin qüvvətləndirilməsinə xidmət etmiş olsun. O, hətta şəriət kitablarının da rus dilinə tərcümə olunması tələbini qoyurdu. "Tövrat" və "İncil" erməni və gürcü dillərində olduğu halda "Quran" ərəb dilində idi. Hər ayənin qabağında əvvəl türk dilinə, sonra rus dilinə tərcümə etməyin öhdəsindən gələ bilməyən şagirdlər, ayənin ərəb və türkcəsini bu-raxıb, ruscasını əzbərləyirdilər. Bunun üçün inspektor Smirnov Qədir Əfəndiyə və Firidun bəyə "Tarixi-müqəddəs"in ("Qurani-Kərim"in – P.M.) rus dilində nəşr edilməsini tələb etdi. Kitab nəşr edildikdən sonra Firidun bəyə qarşı hücumlar, təzyiqlər başlandı. Hətta qəzetlərdə belə çoxlu məzəmmətli yazılar dərc edildi. Gəncə müsəlmanları Firidun bəyin məktəbdən uzaqlaşması məsələsini qaldırdılar. Bu çar hökumətinin yürütdüyü siyasətin nəticəsi idi. Baxmayaraq ki, mərhum Qədir Əfəndi sünnilərə, Firidun bəy isə şiələrə dini dərsləri keçirdilər, lakin Firidun bəy bu vəzifəni fanatik molla kimi deyil, zəmanənin tələbinə görə aparırdı. Firidun bəy bu vəzifəni elə icra edirdi ki, şiə və sünni məzhəb ayrılığı düşmənçiliyə çevrilməsin.

Seminariyanın sabiq direktoru Misyoni Miropyev başqa bir yerə köçürülərkən demişdi: "Seminariyada nə şiə məzhəbi qalmış, nə də sünni məzhəbi. Burada bir Köçərli məktəbi var, bir də Əfəndizadə məktəbi... Şiə və sünniliyə təfavüt qoymadığına yenə bir dəlil var ki, idareyi-ruhanilərin ziddinə olaraq, sünni qızı almışdı. Təbii ki, bu da hər iki idarəyə xoş gəlməmişdi"(2.s.22). Bu da Firidun bəy Köçərlinin böyüklüyünü, dahiliyini və müllətinin yolunda əsl müəllim kimi məşəl olaraq yandığının sübutudur.

Çar çinovniklərinin özbaşınalığı müəllimlərə qarşı kəskin şəkil almışdır. Təhsildən xəbəri olan və olmayan bu sahədə çalışaraq, təhsilə aidiyyatı olmayan qayda-qanunlar yaradır, bu da müəllimlərin belə şəraitdə işləmək istəmədikləri üçün işdən





uzaqlaşdırılmasına səbəb olurdu. F.b.Köçərli müəllimlərin işdən uzaqlaşdırılmasının digər səbəbini Piroqov(hərbi-səhra cərrahlığının atası, görkəmli maarif xadimi və pedaqoq, Odessa və Kiyev təlim dairələrinin popeçiteli) kimi "rəhmdil və məşhur pedaqoqların" unudulmasında, Tolstoy və Delyanov kimi "pedaqogika elmindən bisəmər və insaniyyət aləmindən bixəbər" şəxslərin maarif nazirliyinə rəhbərliyində görürdü. O, "Novoye vremya" qəzetinə istinadən yazırdı: "Sabiqdəki maarif nazirlərinin ümdə fikri yaxşı müəllimlər və qabil müdərrislər yetişdirmək olmayıb. Onların fikri və xəyalı soldatlar kimi naçalniklərin, rəislərin hökmünə tabe və əmrinə müti çinovniklər hasilə gətirmək olubdur. Onlardan məşhuru qraf Tolstoy müəllimlər yetirmək üçün cavan tələbələrə soldat kimi təlim verdirib, onların bədənlərindən müəllimlik ruhunu çıxardıb, çinovnik ruhu daxil etməyə nail oldu. Delyanov bu yolda özündən təzə bir şey ixtira edə bilmədisə də Tolstoy qoyduğu pürməşəqqət, sərt və müəllimlik vəzifəsinə müğayir qaydaları mühafizət etməyə cani-dildən çalışdı".Qeyd edək ki, qraf Tolstoy 1866-1880-ci illərdə, onun həmfikri İ.D.Delyanov isə 1882-1898-ci illərdə Rusiyada maarif naziri vəzifələrində çalışıblar. Qraf D.A.Tolstoyun rəhbərliyi dövründə Rusiya təhsilində olan bütün demokratik hüquqi-normativ aktlar ləğv edildi. İ.D.Delyanovun dövrü isə tələbələrin repressiyası ilə yadda qaldı. Universitetlərin muxtariyyəti ləğv edildi. Tələbələrin sərbəstliyi, onların elmi dərnək təşkil etmələri qadağan edildi, müfəttiş vəzifəsi yaradıldı, təhsil haqları qaldırıldı, tələbələrin üzərində nəzarət gücləndirildi (12.№197).

Başqa bir yanaşmada çarizmin ağır siyasəti azərbaycanlıların maarif və mədəni inkişafına məhdudiyyətlər, qadağalar qoyurdusa da digər tərəfdən isə məktəblərin təsis edilməsinə çətinliklə də olsa icazə verir və öz maraqlarını da gizlətmirdilər. Bu rejim müəslman uşaqlarını təhsilə cəlb etməklə yanaşı, onlardan gələcəkdə öz məqsədləri üçün istifadə etmək planını hə-

yata keçirməyi nəzərdə tuturdu. Beləki, onların nəzərində avam olan müsəlman balalarından rus adət-ənənələrini yaymaqda, onları öz tərəflərinə çəkməkdə və onlara hər işdə köməklik göstərməkdə bir alət kimi istifadə edəcəklərini düşünürdülər. Bunları çox gözəl başa düşən Köçərli dərs dediyi tələbələrinə vətənə məhəbbət, torpağa və millətə sevgi hissi aşılayırdı. Duyuq düşən çar məmurları Firidun bəyin çıxış edəcəyi yerlərə öz adamlarını göndərir və daim onu nəzarətdə saxlamağa çalışırdılar.

Dözülməz qayda-qanun çərçivəsində sözsüz ki, müəllimlik peşəsində uzun müddət qalmaq mümkünsüz idi. Odur ki, bəzi tələbələr müəllimlik peşəsindən uzaqlaşaraq başqa-başqa idarələrdə özlərinə iş axtarmalı olurdular. F.b.Köçərli "Müəllimlərimiz və onların halı" adlı məqaləsində yazır: "Universitetin axırıncı kursunda elm təhsil edən dövlətmənd bir ağazadə ilə millətimizin geridə qalmağı barəsində söhbət edirdim.

Əsnayi-göftüğuda ondan soruşdum ki, universiteti qurtardıqdan sonra niyyətin harada qulluq etməkdir? Cavab verdi ki, harada pulu çox versələr, orada. Cavani-məzbur əgər ki, ibtidai-kəlamda vətənə xidmət etməkdən və millətpərəstlikdən dəm vururdu, amma burada öz ürəyinin əsl niyyətini bilaixtiyar izhar elədi. Və filhəqiqə haman cavan əlan Bakı milyonçularının birisinə xidmət eləyir.bəli, qızıl-gümüşün qüvvəyi-cazibəsi müqabilində heç bir əfkari-aliyəmiztab gətirə bilmir. Təəccüb budur ki, hansı bir ziyalı və mədəniyyətli müsəlman qardaşıdindirsən ahi-cigərsuz ilədeyir: "Millət əldən getdi, dinimiz puç oldu, sair tayfalar bizi qoyub irəlilədi.Gərəkdir çalışaq, gərəkdir rahatlığı özümüzə haram edək, milləti oyadaq, onun uğrunda can və maldan keçək, ona tərbiyə verək, elm nuru ilə onu işıqlandıraq" və bu qisim laf-kəfazdan dəm vurub boşboğazlıq edirlər.Amma həqiqətdə heç biri öz şəxsi mənfəətlərini millət xeyrinə fəda etmir. Axırda baxırsan ki, yenə "qara rəiyyət"i öz fəna və pürməlal





halları üzrə buraxıb, özlərini şəhərə salırlar. Qaranlıqda qalanlarımız dəxi kor-koranə bir-birini tapdalaya-tapdalaya zülmət içrə heyran və sərgərdan qalırlar". (8.s.103).

F.b.Köçərli təhsilə qərəzli münasibət göstərənləri çəkinmədən mətbuatda tənqid edərək yazırdı: "Müəllim kadrları yetirən kamil institut və darülmüəllimlərlərin olmaması səbəbindən pedaqogika və başqa elmlərin öyrədilməsməsi, tədris sahələri üzrə peşəkar müəllim hazırlamaqda çətinliklər yaradır". Bir tərəfdən də müəllimlərin hüquqlarının pozulması, təzyiq və təqiblər, sərt qayda-qanunlar peşəkar müəllim hazırlığının keyfiyyətini aşağı salır.

Firidun bəy daha sonra "əgər yuxarıda qeyd edilən səbəblər aradan qaldırlarsa, başqa sahədə çalışanlar da müəllimlik peşəsinə həvəsli olarlar" deyə qeyd edirdi. Köçərli müəllimlərin hər zaman xalq, millət və dövlət tərəfindən dəyərləndirilməsini və mühafizə olunmasını arzulayırdı. Çünki o bir pedaqoq olaraq çox gözəl anlayırdı ki, gələcəyin işıqlı yolu maariflənmədə,elm və təhsildədir, elm və təhsilin yolu isə müəllimlikdədir.

Köçərlinin müəllimlik peşəsi ilə məğul olanlara həmişə tövsiyəsi olmuşdur ki, müəllim gərək ibtidai sinfdən özünə elə hörmət, nüfuz qazanmış olsun ki, şagird uzun illər, hətta bütün ömrü boyu müəllimlərini, özü də ilk müəllimini unuda bilməsin, hər zaman onu xoş xatirələrlə yad etsin. Firidun bəy həmişə əsl müəllimdən söhbət açanda onun xatirəsində əbədiləşən A.O.Çernyayevskinin adını çəkirdi

F.b.Köçərli elmi-pedaqoji fəaliyyəti dövründə maarifçilik ideyalarını yaymaqla məşğul olmuş, eyni zamanda ana dilin qorunması, savadsızlığın ləğv olunması, məktəb yaşlı uşaqların təhsilə cəlb edilməsi, dərsliklərin ana dilində yazılması və dərslərin ana dilində keçirilməsi, yeni üsullu məktəblərin yaradılması, milli müəllim kadrlarının hazırlanması və s. məsələlər uğrunda bir an olsun belə mübarizədən çəkinməyirdi. Onun bu

fikirləri içərisində milli kadrların hazırlanması ideyası xüsusi yer tuturdu.

Görkəmli pedaqoq Firidun bəy kəndlərdə deməkt olar ki, məktəblərin yox dərəcədə olması məsələsinə toxunaraq qeyd edirdi ki, bizim elə kəndlərimiz vardır ki, orada nəinki bir məktəb, heç bir məscid binası yoxdur ki, uşaqlara dərs keçirilsin. Bir tərəfdən kəndlərdə, xüsusilə ucqar kəndlərdə müəllimlik etməyin nə qədər çətin olduğunu, bir tərəfdən uşaqların sayının dörd, beş, ən çox halda səkkiz-on olması, məvacibin azlığı, mövhumatçı mollaların törətdikləri əməllər, bir tərəfdən də çar hökumətinin gərəksiz təqibləri müəllimlərin bu peşədən uzaqlaşmasına səbəb olurdu. Bu hallar daha çox müsəlman məktəblərində xüsusilə özünü büruzə verirdi. Ziyalılar bunun bilərəkdən edildiyini başa düşürdülər.

Firidun bəyin insanlığının və qayğıkeşliyinin nəticəsində ətrafında onu sevən dostlarının və köməkçilərinin sayı durmadan artırdı, Bu dostlar Qafqazın bütün guşələrindən ona əl uzada bilirdilər. Köçərlinin ən gözəl xüsusiyyətlərindən biri də o idi ki, ona gələn heç bir məktubu cavabsız qoymarırdı, dərhal cavab yazıb göndərirdi. O, müəllimi pedaqoji işdə əsas sima hesab edərək onun qarşısına yüksək vəzifələr qoyurdu. Tələbələrindən biri Səməd Səmədov kənddə müəllimlik edərkən F.b.Köçərliyə məktub yazaraq kənd şəraitində işləməyin çətinliklərindən şikayətlənirdi. F.b.Köçərli cavab məktubunda onu bütün əziyyətlərə dözməyə, cəbhəni tərk etməməyə çağıraraq yazırdı: "Qaranlıqda qalanlarımızn halına yanmaq və onları mərifət nuru ilə işıqlandırmaq biz müəllimlərə borcdur" (12.№197).

Azərbaycan oxucuları Firidun bəy Köçərlinin təkcə pedaqoq kimi deyil, eyni zamanda Azərbaycanın görkəmli ədəbiyyatşünası, tənqidçisi, folklorşünası, publisisti və alimi kimi də tanıyırlar. O, topladığı ilk materiallar əsasında əvvəlcə 1895-ci ilin ortalarında "Tatarskiye komedii" adlı silsilə məqalələri çap





etdirir. 1903-cü ilin ikinci yarısında isə "Azərbaycan türklərinin ədəbiyyatı" adlı kitabçası da çapdan çıxır ( 8. s. 11).

Biri-birinin ardınca nəşr olunan əsərlərinin sevincini yaşayan F.b.Köçərli daha da ruhlanaraq daha böyük əsərlər yaratmağı qarşısına məqsəd qoyur.

Onun Azərbaycan ədəbiyyatı tarixinə verdiyi ən böyük hədiyyəsi öz sağlığında 1903-cü ildə Tiflisdə rus dilində nəşr etdirdiyi "Литература адербайджанских тюрков" kitabı böyük rezonans doğurdu. O zamanın türk ziyalılarının əksəriyyətinin rusca savadı olduğundan kitab gözlənilməyən bir məhəbbətlə qarşılandı. Hətta Firidun bəyə gələn məktublarda növbəti dəfə kitabın türkcə nəşr edilməsi təklifləri verilirdi. Omskdan İşməhəmmədov yazırdı: "Sizi inandırıram ki, Rusiyanın müsəlmanları, Sizin bu əsəriniz çıxmayınca, Azərbaycan ədəbiyyatından heç nə bilməzdilər.-Omsk.1903."(2.s.35).

Bir qədər sonra Firidun bəy "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabını nəşrə hazır etdi. Lakin maddi imkansızlıq və çarizmin təzyiqləri bu kitabın nəşrinə mane oldu. Qeyd etdiyim kimi, kitab Firidun bəy Köçərlinin ölümündən 5 il sonra yəni, 1925-ci ildə ədibin həyat yoldaşı Badisəba xanımın səyi və köməkliyi ilə nəşr edildi. Bu kitabın sonrakı illərdəki nəşrlərdə "Azərbaycan tarixi materialları" adı "Azərbaycan ədəbiyyatı" adı ilə əvəz olunmuşdur.

Firidun bəy Köçərlinin Azərbaycan klassikləri haqqında yazdığı əvəzsiz əsəri bu gün də tədqiqatçıların, şair və yazıçıların istinad mənbəyidir. Bu əsərin sayəsində Azərbaycan oxucusu keçmişinin dahilərini tanıya bilir.

Qardaş xalqların öz ədiblərinin xidmətlərini təqdir etmələri, onların yubileylərini bayram şəklində keçirmələri F.b.Köçərlinin çox xoşuna gəlirdisə də o ədəbiyyatımız haqqında olan düşüncələri ilə klassiklərimizin həyat və yaradıcılığı haqqında məlumat toplamağın zamanı çatdığını, hətta gec oldu-

ğunu söyləyirdi. O hətta dahilər haqqında keçirilən yubileyləri xalqın "milli bayramı" adlandırır və Azərbaycanda da belə "milli bayram"ların keçirilməsini arzu edirdi.

Bəlkə də Firidun bəyin ağlına belə gəlməzdi ki, zaman gələcək Azərbaycan xalqı belə "milli bayram"lar sırasında onun da yubileyini keçirəcək və xalq onu ehtiramla yad edəcəkdir.

O dövrdə kitab nəşrinin çox çətinliklərlə üzləşdiyini nəzərə alsaq, Firidun bəyin bu yolda nə qədər əzab-əziyyət çəkdiyini müəyyən edə bilərik. Maraqlısı budur ki, F.b.Köçərli bu əziyyətinin maddiyyat tərəfini qətiyyən düşünməyirdi. Onun bir qeydində oxuyuruq "...Bu zəhmətlərimin (oxu kitablarımın) çap olunmasından mənim niyyətim pul qazanmaq deyil, ancaq ədəbiyyatımıza cüzi bir xidmət etməkdir" deyən təvazökar, vətənpərvər alimin uzun illərdən bəri böyük zəhmət və çətinliklə yazıb, yaratdığı əsərini çap etdirə bilməməsi tərəqqipərvər Azərbaycan ziyalılarını çox düşündürürdü (6.s.26).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 fevral 2013-cü ildə imzaladığı № 2720 sərəncamı əsasən Firidun bəy Köçərlinin 150-illik yubileyi təntənəli qeyd edildi. Bu münasibətlə professor Şamil Vəliyevin redaktorluğu ilə və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin Elmi kitabxana şöbəsinin müdiri Pərixanım Muradovanın dövrü mətbuatdan topladığı materialların əsasında ərsəyə gələn və latın qrafikası ilə nəşr olunan Firidun bəy Köçərlinin "Əsərlər"i kitabı yenidən işıq üzü gördü. Professor Ş.Vəliyevin kitaba yazdığı ön sözdə oxuyuruq: "F.Köçərli yaradıcılığı öz qiymətini 1917-ci il sosialist inqilabından sonra, Azərbaycan sovet ədəbiyyatşünaslığının "mühüm nailiyyətlər" əldə etdiyi bir dövrdə müəyyən qədər almışdır. Alimin qırx ilə yaxın ictimai və pedaqoji fəaliyyəti Azərbaycan ədəbiyyatşünasları tərəfindən geniş şəkildə öyrənilmişdir və bu iş hazırda da davam etdirilir. Heç şübhəsiz ki, onun ədəbi-elmi və





publisistik irsi müasir müstəqilliyin yaratdığı imkanlar hesabına daha dərindən və bir küll halında öyrəniləcək, gələcək nəsillərin intellektual mülkiyyətinə çevriləcəkdir. Çünki, o Azərbaycanda yaradıcılıq zəka səltənətinin ilk carçılarından olub".

Firidun bəy Köçərlinin digər əmək fəaliyyəti kimi pedaqoji fəaliyyəti də çox şaxəli olubdur. Onun istər tələbəlik illərindən, istər İrəvan gimnaziyasındakı fəaliyyətindən, istərsə Qori Müəllimlər Seminariyasındakı fəaliyyəti və istərsə də min-bir əziyyətlə əmələ gətirdiyi Qazax Müəllimlər Seminariyasındakı fəaliyyətinin eynilik təşkil etdiyini görərik.

Görkəmli pedaqoqun bu illər ərzində vətənə, xalqa olan sevgisi nəinki azalmamış, əksinə daha da artmışdı. Onun haqqında yazılmış xatirələrdə bu sözləri oxuyuruq: Vətənpərvər, maarifpərvər, tərəqqipərvər, millətsevər! Bu həqiqətən də belə olmuşdur. Görkəmli pedaqoq, əsl ziyalı Firidun bəy Köçərlinin ən böyük arzusu yuxarıda sadaladıqlarımızın həyata keçirilməsi idi. O, xalqını təhsilli, mədəni, firavan görmək naminə var qüvvəsini bu yola sərf edən alim idi. Mənbəələrə istinadan qeyd etmək olar ki, Firidun bəy 300-dən artıq dərsliklərə düzəlişlər etmiş, əlavə olaraq metodik dəyişikliklər etməklə dərslikləri bir qədər də zənginləşdirmişdir.

Müəllimlik etdiyi vaxtlardan Azərbaycan xalqının klassikləri haqqında materiallar toplamağa başlayan Köçərli gələcək nəsillərin Azərbaycan klassiklərini tanıması üçün bu zəhmət çəkmişdir. O, bir tərəfdən mövcud kitabxana və arxivlərdən istifadə edir, digər tərəfdən ziyalılarla, ayrı-ayrı şeir, kitab həvəskarları ilə əlaqə saxlayır, lazım olan materialları toplayırdı. Belə çətin bir işi öhdəsinə götürən ədibin çəkdiyi zəhmətinin bəhrəsidir ki, bu gün də məktəblərdə və ali təhsil müəssisələrində klassiklərimiz Nizami, Füzuli, Firdovsi, Sədi, M. P. Vaqif, Q. Zakir, S.Ə.Şirvani, Sabir və başqalarını tanıyır və onların haqqında məlumatlar əldə edə bilirlər. Bu Azərbaycan ədəbiy-

yatı tarixində izini qoyan Firidun bəy Köçərlinin və onun timsalında olanlarımızın zəhmətinin nəticəsidir. Belə ziyalılarımız bəzən həyatları bahasına qadağan olunmuş mövzular ətrafında gizlin yolla da olsa tələbələrini maarifləndirməyə çalışmış və onlara kimliklərini tanıtdırmağa səy göstərmişlər.

Övladı olmayan Firidun bəy şagirdlərinə atalıq qayğısı göstərirdi və onlardan məhəbbətini əsirgəmirdi. O, onlara ata qayğısı ilə yanaşmış və onları narahat edən məsələlərin həllinə çalışmışdır. Bu səbəbdən də dərs dediyi tələbələri F.b.Köçərlini ata kimi qəlbən sevmiş və ona hörmət etmişlər. Firidun bəy Köçərli hətta seminariyanı bitirən tələbələrlə mütəmadi əlaqələr saxlayırdı və məktub vasitəsi ilə onlara məsləhətlər verirdi. Onları ölkədə baş verən hadisələrdən kənarda qalmamağı, bu hadisələr barəsində yazıb mətbuatda dərc etdirməyi də tövsiyə edirdi (7.s.369).

Firidun bəy, müəllimin yüksək pedaqoji hazırlığa malik olmasını, uşaq psixologiyasına nüfuz etməsini tələb edirdi və köhnə məktəblər üçün səciyyəvi olan "əti sənin, sümüyü mənim" prinsipini qəti şəkildə rədd edirdi. F.b.Köçərli həmçinin pedaqoji fəaliyyət zamanı ədəbiyyatın, istər Azərbaycan ədəbiyyatının istərsə də başqa xalqların ədəbiyyatının təbliğinə geniş yer verirdi (8.s.6).

Firidun bəy Köçərli xalq arasında "anadangəlmə pedaqoq" adını alması, onun hörmət sahibi olduğunun sübutudur. Köçərliyə el arasında "xalq müəllimi","el atası", "mənəvi ata", "qayğıkeş insan" və s. bu kimi şərəfli adlar verilmişdi.

Mənbəələrdə Firidun bəy Köçərlinin çox gözəl və səliqəli xətti olduğu da qeyd edilir. Elə bu xüsusiyyətinə görə direktorluq son dərəcə bacarıqlı, çalışqan və eyni zamanda ciddi pedqoji hazırlığı olan gənc müəllim Köçərliyə, öz dərslərini aparmaqla bərabər I, II, III siniflərə hüsnxəttdən dərs deməyi də həvalə edir. Deməli Firidun bəy bu qədər bacarığı olmaqla bərabər həm də





gözəll xəttat imiş. Fitri istedadı olan Firidun bəy ona tapşırılan vəzifələrin hamısının öhdəsindən ləyaqətlə gələrək, üzərində böyük məsuliyyət hiss edirdi. Hər işə ciddi yanaşan Köçərlinin yaradıcılığı ilə tanış olduqda sadaladığımız xüsusiyyətləri ilə yanaşı gözəl insani keyfiyyətlərini də aşkar etmək olur, yəni onun həddindən ziyadə həssas və qayğıkeş bir insan, canını uşaqların təhsilinə fəda etmiş əsl müəllim olduğunu görmək olur. Lakin bütün bunlara baxmayaraq, Köçərlinin şəxsi arxivinin məhv olmuş hissəsində daha nələrin olduğundan xəbərsizik. Buradan belə nəticəyə gəlmək olar ki, F.b.Köçərlinin yaradıcılığının hələ də tədqiq olunmayan tərəfləri tədqiqini gözləməkdədir.

Azərbaycan ədəbiyyatı tarixində Firidun bəy Köçərlinin xüsusi yeri olan ədəbiyyat nəzəriyyəçisi və tənqidçisi kimi xalqına hər zaman təmənnasız xidmət göstərməyə hazır olan F.b.Köçərli dövlətdən aldığı məvacibin dəyərindən daha çox çalışırdı. O, gördüyü işin müqabilində təmənna güdmürdü, yetişdirdiyi tələbələrin həyatda özlərinə layiq yerlərdən birini tutduqlarını gördükdə onların sevincini öz sevinci hesab edirdi. Bunu özünün ən ali mükafatı hesab edirdi.

Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin adlarını Azərbaycan təhsili tarixinə "ilk xalq müəllimi" kimi yazdıran 300-ə yaxın məzunu vardır. F.b.Köçərli də Azərbaycan ziyalılarının bütöv bir nəslinin yetişməsində müstəsna rolu olan, mütərəqqi təhsil-tərbiyə ənənələri ilə seçilən, görkəmli rus pedaqoqu K.D.Uşinskinin layihəsi əsasında fəaliyyətə başlayan (1876) Qori Müəllimlər Seminariyasının (1879) məzunudur (12.s.12).

Yüksək mədəniyyətli müəllim-alim F.b.Köçərli bütün həyatı boyu azad cəmiyyət və demokratik dövlət qurmaq arzusunda olmuşdur. Çox təəssüflər olsun ki, dövrünün nadanlığı, cəhaləti və haqsızlığı onun günahsız ölümünə səbəb oldu. Nə yaxşı ki, ailə həyatında onu anlayan, onu hamıdan yaxşı başa

düşən Badisəba xanım kimi sədaqətli ömür-gün yoldaşı olub. İllərlə Firidun bəyin yoxluğu ilə barışmayan, onun qətlə yetirildiyini bilə-bilə Badisəba xanım ömrünün sonuna qədər Firidun bəyin nə zamansa qayıdacağı günü gözləyirdi. Əsl Azərbaycan xanımlarına məxsus xüsusiyyətlərə malik olan Badisəba xanımın Firidun bəyin yaradıcılığında əvəzsiz rolu olubdur.

F.b.Köçərlinin yazdıqlarının ilk oxucusu və məsləhətçisi də məhz Badisəba xanım idi. Öz övladlarının olmasa da həm Firidun bəy Köçərli, həm də Badisəba xanım eyni qaydada valideynlik məhəbbətini Azərbaycan balalarına verməyə çalışmış, uşaqlara mənəvi ata və ana olmuşlar. Onlar həm də Azərbaycan ailələri üçün nümunəvi bir valideyn obrazı da yaratmışlar.

Daşnak-bolşevik əsgərləri tərəfindən 1920-ci ildə faciəli surətdə qətlə yetirilən F.b.Köçərlinin əziz xatirəsinə həsr olunmuş yazılar içərisində Azərbaycanın xalq şairi Mirvarid Dilbazinin "Firidunbəy Köçərliyə" şeiri diqqəti cəlb edir.

*Başına tuşlanan düşmən xəncəri*
*Xalqının qəlbinə tuşlandı sənin.*
*Bu müdhiş ölümün acı xəbəri*
*Sağalmaz dərdidir bizim Vətənin.*

*Sinəmiz ocaqdır, sönmür məşəli,*
*Yandıqca gur yanıb, yandırır bizi...*
*O xəncər vuranın qırusun əli,*
*İllərlə göynətdi ürəyimizi...*

*O müqəddəs qanın tökülən yerdə,*
*Ruhlar da hər zaman səcdəyə gəlir.*
*Dözməyib şair də bunca kədərə,*
*Gündə neçə dəfə dirilir ölür(13.s.7).*





F.b.Köçərlinin zəngin pedaqoji fəaliyyəti haqqında yazılmış əsərlərin hələ də davamı olacaq, Köçərli yaradıcılığının açılmayan tərəfləri hələ də tədqiq olunacaqdır. İnanırıq ki, gözəl insan, istedadlı pedaqoq, bacarıqlı tənqidçi, savadlı publisist, dərin bilici folklorşünas və ədəbiyyatşünas Firidun bəy Köçərlini ədəbiyyatsevərlər heç zaman unutmayacaqdır. Bizdən sonrakı zamanlarda da Azərbaycan ədəbiyyatının səhifələrində Firidun bəy Köçərlinin adı anılacaqdır.

## ƏDƏBİYYAT:


1. Kamal Talıbzadə: "Ədəbi irs və varislər". Bakı. 1974. 536 s.
2. Firidun bəy Köçərlinin şəxsi arxivi. Bakı. 2006. 262.s.
3. Kamran Məmmədov: "Yusif Vəzir Çəmənzəminli", Bakı, 1981. 263 s.
4. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, 1979. 260 s.
5. Mir Cəlal, F.C. Hüseynov: "XX əsr Azərbaycan ədəbiyyatı ". Bakı, 1974.
6. Firidun bəy Köçərli: "Azərbaycan ədəbiyyatı". Bakı, 1978.
7. Ş. Nəzirli: "Qoridən gələn qatar". Bakı, 2011.
8. Firidun bəy Köçərli: "Əsərləri". Bakı , 2013. 494s.
9. Fərhad Cabbarov: "H.Z.A. Tağıyevin qız məktəbinin tarixindən". Bakı. 2011.
10. Respublika Elmi Konfransının materialları: BDU. Bakı.2013.
11. H.Əhmədov: "XIX əsr Azərbaycan məktəbi". Bakı,1985.
12. "Kaspi". 26 noyabr 2014. №197(xüsusi buraxılışla).
13. Ş.Nəzirli: "Arxivlərin sirri açılır". Bakı.1999. 414 s.

## FİRİDUN BƏY KÖÇƏRLİNİN PUBLİSİSTİKASINDA MAARİFÇİLİK VƏ MİLLİLİK DƏYƏRLƏRİ

Mirzə Fətəli Axundovun davamçısı adlandırılan F.b.Köçərli 35 ildən artıq əmək fəaliyyəti dövründə "Hümmət", "İrşad", "Tərəqqi", "İqbal", "Yeni İqbal", "Həyat", "Kaspi", "Qafqaz", "Novoye obozreniye" və s. mətbuat orqanlarında tez-tez müxtəlif məqalələr dərc etdirirdi. Bu mətbu orqanlarla əməkdaşlığı Firidun bəyin oxucular tərəfindən daha yaxşı tanınmasında böyük rolu olubdur. Onun ədəbi fəaliyyətinin əsasını Azərbaycan ədəbiyyatının mənşəyinin dərindən araşdırılması, təhlili və ədəbiyyatımızın tarixinin öyrənilməsi məsələsi təşkil edir. Bütün fəaliyyətini millilik ruhuna kökləyən ədib milli dəyərlərə böyük önəm verirdi. Məlumdur ki, milliliyin bu gün yaşayan, müxtəlif sahələrdə meydana çıxan əlamətlərinin əsası qədim dövrlərdə qoyulmuşdur.

XIX əsr ümumən Azərbaycan mədəniyyəti, eləcə də Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mərhələ təşkil edir. "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi çox zəngin, məhsuldar, rəngarəng, maraqlı və eyni zamanda zidiyyətlidir (F.Qasımzadə). Bu dövrdə Azərbaycan ədəbiyyatı yeni ədəbi növlərlə zənginləşir, yeni formalar qazanır, ədəbiyyat yeni ictimai məzmun alır, lakin ənənə də davam edirdi. XIX əsr poeziyası bir sıra cəhətlərdən ənənə ilə bağlı idi. (16.s.11).

F.b.Köçərlinin milli dəyərlərə söykənərək qələmə aldığı yazılarına nəzər saldıqda, bu yazıların kökündə millət sevgisi, vətən məhəbbəti nə qədər güclü olduğunu görürük. O, çox yaxşı başa düşürdü ki, millilik xüsusiyyətləri keçmişdə olduğu





kimi bu gündə mövcuddur. Lakin milliliyin günün tələbləri ilə uyuşmayan mənfi cəhətləri də vardır. Qeyd edildiyi kimi klassik ədəbiyyatın şah əsərləri milli bədii sərvətə daxildir. Sənətdə millilik və xəlqilik geniş mənada işlədilir. F.b.Köçərli dərc etdirdiyi məqalələrində həmişə milliliyi, xəlqiliyi qorumağa və dəyərləndirməyə çalışırdı.

Publisistikada millilik milli ədəbiyyatdan yararlanmışdır. Azərbaycan mədəniyyəti bu sahədə parlaq nümunələr yaradaraq, xalqın milli irsini bu günə kimi qoruya bilmişdir.

Qori Müəllimlər Seminariyasını bitirərək, əvvəl İrəvan gimnaziyasında, sonra isə Qori Müəllimlər Seminariyasında pedaqoq kimi fəaliyyətə başlayan ədib, millətinin doğma dili olan Azərbaycan dilini qəlbən sevərək, tələbələrinə də bu ruhda tərbiyə verirdi. Köçərlinin fikrincə əsl müəllim üçün bu ən önəmli vəzifə və vətəndaşlıq borcu idi.

Firidun bəy Köçərli bu istək və maraq dairəsində Azərbaycan yazıçılarının əsərlərini rus dilinə çevirir, onların da əsərlərindən Azərbaycan dilinə tərcümələr edərək, dərsliklərə əlavə edirdi. O, "Təlimati-Sokrat" əsərini Azərbaycan dilinə tərcümə edən ilk ədəbiyyatşünas olubdur.

Fərhad Ağazadənin verdiyi məlumata görə F.Köçərli 1892-ci ildə nəşr etdirdiyi "Təlimati-Sokrat" əsərini seminariyada tələbə ikən dilimizə çevirmişdi. "Vətən dili"nin birinci hissəsinə salınmış "Çiçək", "Bənövşə", "Dilənçi" şeirləri bilavasitə Çernyayaevskinin göstərişi və təşviqi ilə tərcümə edilmişdi (19.s.67).

Köçərlinin maddi cəhətdən çəkdiyi çətinliklər üzündən əsərlərinin nəşri ləngiyirdi, lakin bunula belə o ruhdan düşməyirdi. Nəhayət O, 1892-ci ildə Puşkinin məşhur "Balıqçı və balıq" nağılını "Torçu və balıq" adı ilə tərcümə edərək çap edilməsinə nail olur. Daha sonra Lermantovun "Üç xurma ağacı" və M.V.Koltsovun "A kişi niyə yatıbsan?" şeirlərini tərcümə edərək

kitabça şəklində çap etdirə bilir. Onun "Təlimati-Sokrat" əsərinin nəşri yeddi il süründürməçilikdən sonra nəhayət 1892-ci ildə baş tutmuşdur. Bu çətinliklərə rəğmən Firidun bəy Köçərlidə olan vətən eşqi, millilik onu xalqına xidmət etməkdən çəkindirmir. Əskinə olaraq o çətinliyə sinə gərərək "Təlimti-Sokrat"ı Baxçasarayda, "Torçu və balıq"ı İrəvanda, "Üç xurma ağacın"nı və "A kişi niyə yatıbsan?" tərcümələrini bir yerdə kitab halında Şuşada nəşr etdirməyə nail olur. O, bundan başqa L.N.Tolstoyun, A.Seretelinin əsərlərindən də tərcümələr etmiş və M.F.Axundovun "Aldanmış kəvakib" əsərini rus dilinə çevirərək rusdilli oxucuların ixtiyarına vermişdi. Azərbaycan klassiklərinin tanınmasında, onların əsərlərinin toplanmasında böyük zəhmət çəkən Köçərlinin xalqının dəyərli övladlarının başqa millətlər tərəfindən tanınması üçün çalışırdı (1.s.554). F.b.Köçərli milliliyi sevən ziyalı idi. Millətçi-burjua ziyalılarından fərqli olaraq, tərəqqipərvər müəlliflər üçün kitab çap etdirmək çox çətin idi. Ona görə də təəccüblü deyil ki, bu illərin dövrü mətbuatında M.S.Ordubadi, F.Köçərli, M.Hadi, A.Şaiq və başqa yazıçıların nəşriyyat sahəsindəki çətinliklərindən şikayətlərinə tez-tez təsadüf edilirdi.

F.b.Köçərli bütün bu şikayətlərin başlıca səbəbini maarifçilik təbliğatının həyata keçirilməsində olan çətinlikdə və millilik ideyalarının yayılmasına mane olan qüvvələrin təqib və təzyiqlərində görürdü. O, insanlara sərbəstlik, azadlıq verilməsinin mümkünsülüyünü insan hüquqlarının pozulması ilə əlaqələndirirdi.

Maarifpərvər ziyalımız Firidun bəy Köçərli azad insanın öz fikirlərini azad ifadə etməsini məqbul sayırdı. Bu azadlığın əldə edilməsinin ilk yolu isə maariflənməkdə, təhsil almaqda, cəhalətdə qurtulmaqda idi. Çox maraqlıdır ki, o dövrün təhsil görmüş ziyalıları hamısı eyni fikirdə idilər. Onlar kimi Köçərli də daim düşünürdü və çalışırdı ki, hər bir insan təhsilli olsun,





savada yiyələnsin. Doğrudur, müəyyən mövzular ətrafında olan mübahisələrdə bəzən fikir ayrılıqları olurdu, lakin istək, arzu eyni idi. Hər kəs millətin tərəqqisinə çalışır, müxtəlif formalarda maarifçilik ideyaları uğrunda mübarizəyə dəstək verirdilər.

F.b.Köçərli XIX əsrin sonu, XX əsrin əvvəllərində ədəbiyyatşünaslıq sahəsində demək olar ki, ən məhsuldar şəkildə fəaliyyət göstərən yeganə Azərbaycan ziyalısı idi. O, eyni zamanda çox gözəl anlayırdı ki, milli mətbuat orqanın olması millətin tərəqqisi üçün ən vasib vasitələrdən biridir. Xalqın güzəranını, sosial-iqtisadi məsələləri, ölkədə cərəyan edən siyasi hadisələri müxtəlif mətbuat orqanlarında publisistik məqalələri ilə diqqətə çatdıran Köçərli, müasirlərini hərəkətə gətirməyə, millətin xoşbəxtliyi naminə mübarizə aparmağa işarə edirdi. Firidun bəy çox gözəl başa düşürdü ki, publisistika ölkənin müxtəlif yerlərində yaşayan əhalinin həyat şəraitini, iqtisadi, mədəni-maarif sahəsindəki vəziyyəti, orta əsr geriliyini, dini mövhumatın zərərini və s. məsələləri geniş müzakirə obyektinə çevirir, realist ədəbiyyatın yüksəliş yolları haqqında müxtəlif, hətta bir-birinə zidd fikirlər irəli sürürdü. Bu baxımdan H.Zərdabinin Göyçay qəzasından, S.Ə.Şirvaninin Şamaxıdan, Ə.Cavanşirin Qarabağdan, M.Dərbəndinin Dərbənddən, F.Köçərlinin İrəvandan, T.Bayraməlibəyovun Lənkərandan, M.Xəlilovun Naxçıvandan göndərdiyi müxbir məktubları, M. Şahtaxtlının, S.Vəlibəyovun, Eynəli Sultanovun məqalələri çox əhəmiyyətli idi.

F.b.Köçərli özünün yaşadığı dövrdən də çox əvvəllərdə yaşayıb-yaradan klassiklərimizin həyat və yaradıcılıqlarının araşdırılmasında və onların əsərlərinin üzə çıxarılmasında böyük əmək sərf edib. Azərbaycan folklorunun tanınmış tədqiqatçıları sırasında daim Firidun bəyin adına rast gəlinir. O, tək Azərbaycan ədəbiyyatı və folkloru ilə deyil, eyni zamanda başqa-başqa xalqların da ədəbiyyatı, folkloru ilə maraqlanır və onların ədəbiyyatını Azərbaycan ədəbiyyatı ilə müqayisə edir-

di. F.Köçərli ədəbiyyata ictimai hadisə kimi baxır, "Ədəbiyyat millətin ayineyi-həqiqət nümasıdır" -deyirdi. O, həm də "Ədəbiyyatın bünövrəsi və tənyəgahı sözdür" -deyə, ədəbiyyatı söz sənəti hesab edirdi və ona görə də "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərinin başlanğıcında bu haqda ayrıca bəhs açır; "Söz olmasaydı, əlbəttə, ədəbiyyat dəxi olmazdı"-deyir, Firdovsinin, Nizaminin, Füzulinin, Seyid Əzimin, Sabirin söz haqqındakı şeirlərini misal çəkməklə həmin şairlərin sözü necə qiymətləndirdiklərini xatırladır (16.s.272).

1905-ci il rus inqilabının başlanmasından sonra ortaya bir çox məsələlər çıxırdı ki, bu məsələlər də xalqı bir-birinə yaxınlaşdırmağa, həmrəy olmağa sövq edirdi. Mətbuatın bu işdə fəallığı daha gözəçarpan idi. Belə ki, həmin illərin rus inqilabi ideyaları carçısı kimi "Molla Nəsrəddin" jurnalı ölkəyə səs salmışdı. Çar çinovniklərinin, ruhanilərin qəzəbinə tuş gələn jurnalın nəşrinin dayandırılmasına dair söz-söhbət başlamışdı. Bu jurnalı çox bəyənən Firidun bəy millətin dərdinin, ağır vəziyyətinin bu jurnalda işıqlandırılmasına müsbət münasibət bəsləyərək jurnalın müdafiəsiə qalxdı.

Firidun bəy Köçərli yazdığı məqalələrinin əksəriyyətində milli mədəniyyətin, xalq maarifinin inkişaf etdirilməsi yolları öz əksini tapırdı.

Millilik hissini publisistikasında hiss etdirən böyük ədibimiz maarifçilik ideyalarının yayailmasını və sürətləndirilməsini tez-tez mütərəqqi maarifçilərin diqqətinə çatdırırdı. Kitabxanalara, təhsil ocaqlarına, mətbuata və kitab nəşrlərinə güclü tələbat duyulurdu.

Mədəni-maarif ocaqlarının sayı artdıqca yaradıcı ziyalıların onların ətrafında sıx birləşmələri üçün imkan yaranırdı. İqtisadi, ictimai və mədəni dirçəlişlə bağlı olaraq ədəbi fəaliyyətə başlayan yazıçılar yaradıcılıq imkanlarını genişləndirirdilər.

Akademik Həmid Araslının təbirincə desək, Firidun bəy





Köçərli ədəbi irsin öyrənilməsində ömrünü sərf edən fədakar ictimai xdimdir.

XX əsrin əvvəllərində isə Azərbaycan ədəbi dilində elmi üslubun başlıca şərti onun dilinin əvvəlki dövrlərlə müqayisədə olduqca sadələşməsi, kütləvi dərəcədə anlaşıqlı şəklə düşməsidir. Elmi dilin bu keyfiyyətlərini F.Köçərlinin elmi-ədəbiyyatşünaslıq əsərlərində, H.Zərdabinin əkinçiliyə, təbiət və zoologiyanın müxtəlif məsələlərinə, sağlamlıq və gigiyenaya həsr etdiyi müxtəlif əsərlərdə görə bilərik.

Ədəbiyyatşünaslığımızın M.F.Axundovdan gələn professional əsasını möhkəmləndirən F.b.Köçərli eyni zamanda bədii və publisist dil üslubunun təmsilçilərindəndir. Maarifçilik ideyalarının yayılmasında, formalaşmasında, həyata keçirilməsində ən vacib şərtlərdən birinin məhz milli publisistikanın olduğunu qeyd edən Köçərli eyni zamanda da mətbuat vasitəsi ilə dil, nitq, üslub və s. bu kimi işlərin də mümükünlüyünə toxunurdu.

Azərbaycan milli dilinin inkişaf etdirilməsi məsələsi də Köçərlini daim məşğul edirdi. O, məqalələrində tez-tez dil məsələsinə toxunur və onun bu məsələ ətrafında etdiyi çıxışları geniş müzakirəyə səbəb olurdu. Ruslaşdırma siyasəti yürüdüldüyü bir zamanda F.Köçərlinin çıxışları təbii ki, birmənalı qarşılana bilməzdi. Bu səbəbdən baş verən təqib və təzyiqlərdən çəkinməyən Köçərli bu mövzu ilə əlaqədar daha kəskin məqalələr qələmə alırdı. Onun publisistik məqalələri millilik dəyərləri, mövzu aktuallığı və siyasi kəskinliyi ilə seçilirdi.

F.b.Köçərlinin maarifçilik və millilik ideyalarından danışarkən bu ideyaların Azərbaycan ədəbiyyatı və Azərbaycan dili ilə vəhdətinin, bağlılığının olduğunu görürük. Millilik ruhunda yaşayan ədib milli dilinin inkişaf etdirilməsinə xüsusi olaraq yanaşırdı. O, milliliyin önündə dilinin dayandığını qeyd edərək, başqa məsələlərin bu məsələdən sonra gəldiyinə toxunurdu.

Çarizmin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasə-

tinin və onun dayaqlarının-məmur, mülkədar, bəy, xan zülmünün, ruhani istibdadının, ziyalı biganəliyi və rəiyyət passivliyinin tənqidi, milli oyanışa və siyasi fəallığa çağırış, kəndli hüququnun müdafiəsi, qadın azadlığı uğrunda mübarizə, məktəbin həyatla əlaqəsi, maarifin əhalinin maddi və mənəvi tələblərinə uyğunlaşması məsələləri Köçərli publisistikasının ana xəttini təşkil edir. Bütün bunlar 20 əsrin əvvəllərində xalqın milli şüurunun oyanmasında, azadlıq uğrunda mübarizəyə hazırlanmasında böyük rol oynamışdır (18.s.85).

Müntəzəm olaraq müxtəlif mətbu orqanlarda çıxış edən Köçərli Azərbaycan xalqının ictimai-siyasi və sosial həyatında baş verən hadisələri qələmə almaqla, dilimizin tanınması yolunda zəhmət çəkir, Azərbaycan dilinin inkişafı və dilimizin dünya dilləri səviyyəsində görmək arzusu ilə çalışırdı və millilik hissinin qorunması yolunda zəhmət çəkir, var qüvvəsini sərf edirdi. O, müasirlərinə xalqına xidmət göstərməyin ən gözəl yolunu-təmiz Azərbaycan dilində yazmağı və danışmağı məsləhət görürdü.

Akademik Kamal Talıbzadə "Tənqid və tənqidçilər" kitabında görkəmli klassiklərimizdən M.F.Axundov, S.Hüseyn, M.Arif, S.Vurğun, H.Mehdi, M.Rəfili kimi tənqidçi və ədəbiyyatşünaslarla yanaşı F.Köçərlinin adını xüsusi olaraq qeyd edir.

Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi" əsəri ilə Azərbaycan ədəbiyyatında elə bir cığır açdı ki, ondan sonra gələn yazıçılar bu cığırla getməli oldular.

"Azərbaycan ədəbiyyatı tarixi"nin yaranmasında əvəzsiz rolu olan Köçərli bu əsəri yaratmaqla millilik və maarifçilik mövqeyindən çıxış edirdi. O, xalqının dahi sənətkarları haqqında materialları toplamaqla oxuculara məlumat vermiş, əhalinin həm rusdilli həm də Azərbaycan dilində yazıb oxumağı bacaran təbəqəsini nəzərə alaraq, onları bu dahi qələm ustadları ilə tanış etmişdir. O zaman müxtəlif ölkələrdə təhsil alan azərbaycanlıların çox az hissəsi öz dahiləri haqqında məlumata malik idilər. Bunu etməklə Firidun bəy Köçərli ədəbiyyat tariximizdə irəliyə, inkişafa doğru mühüm bir addım atmış oldu.





F.b.Köçərlinin Azərbaycan ədəbiyyatına, Azərbaycan dilinə, həsr edilmiş ayrı-ayrı məqalələrində böyük bir millət sevgisinin dayandığı məlumdur. Bu sevgidən yaranmış dəyərli əsərin bu günki nəsillər üçün qiymətli hədiyyə olduğu məlumdur. Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin tənqidə tuş gəlməsinə baxmayaraq, bu əsər həqiqətən də təqdirəlaiq bir işdir. Bu əsərin hansı əziyyətlər hesabına ərsəyə gəldiyini, sonunda mükafatı repressiya qurbanı olan F.b. Köçərli tərəfindən ilk dəfə qələmə alındığını nəzərə alsaq, həqiqətən bu əsəri Azərbaycan xalqına göstərilən misilsiz xidmətin bəhrəsi və Azərbaycan tarixində əvəzolunmaz iz adlandırmaq olar.

F.Köçərlinin yaşadığı dövrdə dil, ədəbiyyat, tənqid və əlifba problemləri ziyalılarımızı çox narahat edirdi. Qeyd etdiyimiz kimi 1903-cü ildə nəşr olunan "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabı bu cəhətdən elmi nəzəri fikrin oyanmasında güclü təsir göstərdi. Cəmi 54 səhifədən ibarət olan kitabın nəşr olunmasını alqışlayan Əlimərdan bəy Topşubaşov yazırdı: "Əlbəttə, bu kiçicik kitabda bütün Azərbaycan ədəbiyyatını əhatə etmək mümkün deyil, görününr heç müəllif də qarşısında belə bir məqsəd qoymamışdır. Amma nə yazıq ki, bizdə hələ yazıçılarımızın və şairlərimizin həyat və yaradıcılığından bəhs edən ətraflı bir kitab yoxdur. Birdə ki, hardan olsun? Bu vaxta qədər ən tanınmış və sevilən müəlliflərdən M.P.Vaqifin, Q.Zakirin və başqalarının əsərləri çap olunmayıb. Leypsiqdə 60-cı illərdə işıq üzü görmüş, Mirzə Yusif Qarabaği tərəfindən hazırlanmış Azərbaycan şairlərinin seçilmiş əsərləri satışda yoxdur və çoxdan artıq nadir tapılan kitaba çevrilib. Eyni ilə bunları M.F.Axundovun 1859-cu ildə Tiflisdə nəşr olunmuş kitabı barədə də söyləmək olar. Əlbəttə, əsərlərin olmadığı və onların tər-

cümeyi-hallarının yazılmadığı halda Azərbaycan ədəbiyyatının yazılması barədə danışmaq məncə tezdir. Biz bu barədə düşünməliyik"(12.№234).

Topçubaşovun "Nə yaxşı ki, bu əsər yarandı, biz bunu alqışlamalıyıq" deməsi Firidun bəyin əməyinə verilən dəyərdir.

Ə.Topçubaşov M.F.Axundovu Azərbaycan dramaturgiyasının banisi adlandırır, onun sonrakı ədəbi inkişafına təsirindən, tərcümeyi-halından, yeni əlifba uğrundakı mübarizəsindən v. s. danışır, böyük dramaturqun yerlə-yeksan olmuş qəbrini abad etməyə çağırırdı. "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı başqa bir məqaləsində isə Topçubaşov F.Köçərlinin eyni adlı əsərinin çapını müsbət ədəbi hadisə kimi alqışlayır, onu Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasında ilk müvəffəqiyyətli addım sayırdı (17.s.100).

Firidun bəy Köçərli ədəbiyyatı bütünlüklə siyasi meydana yenicə qədəm qoymuş sinfin mənafeyinə xidmət edən bir məfkurə vasitəsinə çevirmək yolunda səy göstəririrdi. O, ədəbiyyatın əsas vəzifəsini təbliğ edilən əsərlərin ideya məzmununda, bu məzmunun dövrün tələblərinə nə dərəcədə cavab verməsində görürdü. Müasirləri içərisində Firidun bəy eyni zamanda ictimai-siyasi xadim kimi də hörmətə malik idi. O, bir pedaqoq olmaqdan əlavə ölkədə cərəyan edən ictimai-siyasi vəziyyətə biganə qalmayaraq narazı mövqeyini bildirirdi.

İllər boyu Firidun bəy Köçərlini xəlqilik, müasirlik, şifahi xalq ədəbiyyatı, novatorluq, təhsil və maarifçilik, qadın azadlığı, uşaq ədəbiyyatı, milli mətbuat və s. bu kimi millilik ideyaları məşğul edirdi. Millətin tərəqqisi naminə fəaliyyət göstərən ədib kitab nəşrinə xüsusi diqqətlə yanaşırdı. Azərbaycanın klassik ədəbiyyatını öyrənmək, onları toplayaraq kitab halına gətirmək və xalqı keçmiş ənənələrlə tanış etmək kimi məsələlər Firidun bəy Köçərli yaradıcılığının əsas prinsiplərindən hesab edilir. Çap olunan əsərlərə tənqidi yanaşan Köçərli, əsərlərdə ən vacib





olan millilik xüsusiyyətlərini nəzərə alırdı.

Firidun bəy Köçərli bir çox müasirləri kimi inqilabi-demokratik fikirləri ilə diqqəti cəlb edir. Hətta bəzi mənbələrdə Köçərlini inqilabi-demokratik publisistikanın ən fəal nümayəndələrindən biri hesab edirlər. Böyük ədibin azadlıq hərəkatındakı mövqeyini xüsusilə qeyd etmək lazımdır.

Publisistikasında milliliyə önəm verən Firidun bəyin işıqlandırdığı mövzular oxucuların böyük marağına səbəb olurdu. Xalqın problemlərini, sosial vəziyyətin ağırlığını, gündəlik həyatda baş verən çətinlikləri yazılarında qələmə alan Köçərli bu səbəbdən çar çinovniklərinin təqiblərinə məruz qalırdı. Çox vaxt çar çinovniklərinin narazılığına səbəb olan məqalələrdə millilik ruhunun təbliği qısqanclıqla qarşılanır, hətta bu cür yazılar siyasiləşdirilirdi. Dil, əlifba, milli mətbuat, milli ədəbiyyat yaratmaq kimi fikirlərə qarşı çıxan çar məmurları min bir bəhanə ilə Azərbaycanın inkişafına mane olmağa çalışırdılar. Lakin, xalqın maariflənməsi, eləcə də azadlığı naminə mübarizəyə qalxan ziyalılar bu bəhanələrə sinə gərərək bəzi fikirlərini, ideyalarını həyata keçirməyə səy göstərirdilər.

Firidun bəy Köçərli fəaliyyəti dövründə istər onunla çiyin-çiyinə, istərsə də ondan qabaq sözün əsl mənasında müəllim kimi çalışan, pedaqoji işə can yandıran, millətinin gələcəyini düşünən müəllimlərə həmişə hörmət və ehtiramla yanaşırdı. O, cəhalət içində boğulan bir ölkədə heç nədən və heç kimdən qorxmayaraq millətinin maariflənməsinə köməklik göstərən insanların zəhmətini yüksək qiymətləndirirdi. N.Nərimanov, C.Məmmədquluzadə, M.Xəlilov, S.Vəlibəyov, M.Qarayev, T.Bayraməlibəyov, S.M.Qənizadə, M.Mahmudbəyov, A.Şaiq, H.Nərimanbəyov, S.S.Axundov və başqaları məhz milli dəyərləri qoruyaraq, belə şəraitdə müəllimlik edən ziyalılardan idilər. "İşıqdan qorxan, millətin ayılmağından əndişə edən mülkədar, bəy və ağaların hər cür müqavimətinə sinə gərib məktəbi atma-

yan" bu qisim pedaqoqları F.Köçərli "ürəyi atəşli müəllimlər" adlandırırdı (15.s.43).

Adları şərəflə çəkilən Azərbaycan ziyalılarının içərisində Ömər Faiq Nemanzadə də ictimai mübarizə meydanında öndə olan şəxsiyyətlərdəndir. Lakin Ömər Faiq uzun zaman tədqiqat obyekti kimi diqqəti cəlb etməmiş, onun bəzi əsərləri səhv olaraq, C.Məmmədquluzadənin felyotonları ilə qarışdırılmış və bəzi yanlışlıqlara yol verilmişdir.

Lakin, Ö.F.Nemanzadə xalq yolunda məşəl yandıranlardan idi. Ö, böyük mütəfəkkir və alim Həsənbəy Zərdabinin köhnə dünyaya qarşı mübarizə üsullarından da istifadə etmiş, "Əkinçi" kimi bir qəzetdə ictimai-siyasi məsələlərdən bəhs olunduğunu nəzərə alaraq, Mirzə Cəlillə birlikdə "Torpaq" adlı həftəlik jurnal çıxarmaq istəmişdir. Lakin çar hökuməti Ömər Faiqin Türkiyədə təhsil almasını bəhanə edərək, belə jurnalın nəşrinə icazə verməmişdir. Əsil səbəb isə onun "Şərqi-rus" da yazdığı zərərli məqalələr və "Dəvət" adlı kitabçası olmuşdur (20.s.63).

Firidun bəy Köçərlinin araşdırmaları zamanı bir çox maraqlı faktlar üzə çıxır. Belə ki, azadlıq hərəkatının meydana gəlməsində müstəsna rolu olan "Molla Nəsrəddin" jurnalının fədakar qələm ustaları içərisində F.Köçərli, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Nəzmi kimi sənətkarlarla yanaşı Ö.F.Nemanzadənin də adı çəkilir. Azərbaycan inqilabi demokratiyasının mübariz orqanı olan "Molla Nəsrəddin" bilavasitə azadlıq hərəkatının yetirməsi olaraq qeyd olunur. Birinci rus inqilabı ideyalarının carçısı olan "Molla Nəsrəddin" məzlum Şərq xalqlarının azadlıq hərəkatına misilsiz xidmətlər göstərmişdi. Firidun bəy Köçərlinin ürəyindən xəbər verən bu jurnal onun ən çox dəyər verdiyi mətbuat orqanı idi. Çar senzurasının, dini fanatizmin, mövhumatın, nadanlıq və cəhalətin məngənəsində sıxılan, xalqı qəflət yuxusundan oyandıran, milləti düşünməyə sövq edən





məqalələrin bu jurnalda yer alması özü bir inqilab idi.

Belə ağır şəraitdə Azərbaycanda maarif və ədəbiyyat meydanına gələnlər də ilk növbədə klassik ədəbiyyat xəzinəsini arayıb-araşdırmağa, oradan müasir tərəqqiyə yardım edən nümunələri tapıb üzə çıxarmağa, xalqın ehtiyaclarını təmin etmək məqsədilə yazıçılıq etməyə, dərsliklər, mütaliə kitabları hazırlamağa maraqlı idilər. Bu mənada 80-cı illərdə başlayan maarif və məktəb hərəkatı realist, demokratik ədəbiyyatın tərəqqisinə təkan oldu, onun dirçəlişi üçün münbit şərait yaratdı. Milli ədəbiyyatı inkişaf etdirmək yolları və istiqamətləri mətbuatda məhz bu vaxtdan müazakirə edilməyə başladı.

Qəzetlərdə dərc olunmuş məqalələrində "milli hissi millət yolunda" paylaşmasında, yazdığı məqalə və məktublarında Azərbaycanın böyük gələcəyinə inanan F.b. Köçərli yaşadıqları dövrün acınacaqlı həyatından tezliklə qurtulacaqlarına və millətinin firavan həyata qovuşacağına inanırdı.

Reallığı sevən Köçərli tənqidi məqalələrində həmişə düzgün və obyektiv mövqedən çıxış edirdi. O, müasirlərin əsərlərində olan qüsurları deməkdən çəkinməyərək, onları tənqid edirdi. Lakin, Köçərli mənbələrdə göstərildiyi kimi tənqiddə qərəzli mövqedən deyil, təmiz, şəffaf və xalqın gələcəyi üçün vacib olan mövqedən yanaşırdı. Məsələn: N.Nərimanovun "Nadanlıq", "Dilin bəlası" əsərlərini "məzmun zəifliyinə, qeyri-təbii sonluq və dil qüsuruna" görə kəskin tənqid edirdi. N.Nərimanov öz tənqidi məqalələrinin birində "Nadir şah" tarixi faciəsinin yaranmasında məhz Köçərlinin tənqidi mülahizəsinin faydalı olduğunu xatırladır(8.s.319).

Görkəmli maarifçi hər gördüyü işində millik ruhu arayır, millətə millətçilik xidməti göstərməyə çalışırdı. Millətini sevməyən, özünü qiymətləndirməyən şəxsin etibarına, inamına şübhə yaranır. Köçərli insanın ilk növbədə öz millətinə dəyər verməyi, onu sevməyi, sonra başqalarını dəyərləndirməyi söy-

ləyirdi. Köçərli millətini, xalqını, Vətənini sevməyən bir kəs özgə millətləri necə sevə bilər? -deyirdi. O, çox danışmağı, xüsusən də yersiz danışmağı sevmirdi. Təmkinli, əsl Azərbaycan bəylərinə məxsus qürurlu, ağır təbiətli olması onun nüfuzuna xələl deyil, əksinə hörmət gətirirdi. Xalq tərəfindən sevilən, xalq müəllimi olan F.b.Köçərlinin bu xüsusiyyətləri barəsində onunla bir seminariyada təhsil alan, çalışan, tələbələri olan şəxslərin xatirələrindən tanış olmaq olur.

Köçərli 1885-ci ildə "Novoye obozreniye" qəzetində çap etdirdiyi "Azərbaycan komediyaları" məqaləsində N.Nərimanovun "Nadanlıq" əsərində müəllim surətinin bir ziyalı kimi zəifliyini, hadisələrin qeyri-təbii inkişafını, əsərin dilini kəskin tənqid etmişdi. Xüsusilə də "Bahadur və Sona" romanını"müvəffəqiyyətsiz qələm təcrübəsi" kimi qiymətləndirmişdir. Bu tənqid əsərin müəllifi N.Nərimanovun özünün qeyd etdiyi kimi gözəl səmərə vermişdir (14."Yeni İqbal". 1916).

Tanınmış ədəbiyyatşünas və pedaqoq Firidun bəy Köçərli "Novoye obozreniye" də bir sıra silsilə məqalələri çap olunmuşdur ki, bunlardan da "Tatar komediyaları", "İslamın tarixindən", "Müsəlmanlarda qadının vəziyyəti və uşaq tərbiyəsi haqqında", "Çernyayevskinin xatirələri" adlı yazılarını göstərmək olar. Bundan başqa Firidun bəyin "Ttiflisski listok"da çıxan "Məhəmməd Şahtaxtinskinin fonetik Şərq əlifbası", "Molla Nəsrəddin", "Vidadi" və digər məqalələri, XIX əsrin sonu və XX əsrin əvvəllərində "Qafqaz"da çap olunan çoxsaylı məktub və yazıları, həmçinin 1903-cü ildə Tiflisdə rus dilində nəşr edilən "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabçası onun Azərbaycan ədəbiyyatı və mədəniyyətinin müxtəlif problemlərini cəsarət və obyektivliklə qaldırdığını göstərirdi.

Azərbaycan tənqidinin tarixini öyrənərkən S.Hüseyn, Ə.Hüseynzadə, Abdulla Sur, Ə.Ağayevlə yanaşı F.Köçərlinin yaradıcılığı haqqında danışmamaq mümkün deyil. Bu şəxslə-





rin hər biri millət üçün çalışmış, səy göstərmiş və hər biri də özünəməxsus irs qoyub getmişdir. Köçərlinin insanlar haqqında fikri həmişə yüksək olmuşdur. O insanlara dəyər verməyi bacarırdı. F.Köçərli "Doğru və salamat fikirli adamların kamalı həmişə aydın, açıq və düzgün olur" söyləmişdir (13.s.12).

XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycanda ədəbiyyat və mətbuat meydanına gələn ziyalıların tərkibi yekrəng deyildir. Bunlar dünyagörüşləri, əqidə və baxışları etibarı ilə müxtəlif qruplara bölünür və bir-birindən kəskin surətdə fərqlənirdisə də bir çox fikirlərinin isə üst-üstə düşdüyü də olurdu.

Böyük nüfuza malik olan alim sabaha ümidlə baxaraq, Azərbaycanın sabahı naminə qədim tarixinin, ədəbiyyatının, adət-ənənələrinin qorunması yolunda mübarizəyə qalxmışdı.

Azərbaycanın görkəmli ədəbiyyatşünası akademiki Kamal Talıbzadənin "Azərbaycan ədəbi tənqidinin tarixi" əsərinin (1984) ikinci hissəsi (1905-1917) məhz Firidun bəy Köçərliyə həsr edilmişdir (17.s.6-8).

K.Talıbzadənin F.Köçərli haqqında yetərincə gözəl fikirləri onun müxtəlif mətbuat orqanlarında nəşr etdiyi məqalələrində göstərilmişdir.

F.Köçərli rus imperiyasının Azərbaycan milli mədəniyyətini boğmağa çalışdığını görür və narahat olurdu. Bu haqsızlıqları görən ədib millətin haqını tələb etməkdən çəkinmirdi. Ona qarşı edilən təqib və təzyiqlər bu səbəbdən istisna deyildi.

K.Talıbzadə "Azərbaycan müəllimi" qəzetindəki məqaləsində 1910-cu ildə F.Köçərlinin pedaqoji fəaliyyətində baş verən çətinliklərə toxunaraq qeyd etmişdir ki, "Çarizmin çinovnikləri Köçərlinin pedaqoji fəaliyyətinin iş müddətinin hesablanması məsələsində onu bərk incitmişlər. Həmən dövr F.Köçərlinin yaradıcılıq fəaliyyətinin demək olar ki, ən qızğın dövrü olubdur.

F.b.Köçərli Azərbaycan şöbəsinin Qori seminariyasının

tərkibindən ayrılaraq, müstəqil bir tədris müəssisəsi kimi fəaliyyət göstərməsinə çalışırdı. Köçərli o illərdə Azərbaycan ədəbiyyatını daha geniş və aydın formada təbliğ edirdi. Bütün ömrünü Azərbaycan ədəbiyyatının araşdırılmasına həsr edən Köçərli "Azərbaycan türklərinin ədəbiyyatı" adlı böyük həcmli əsərini yazmaqla bərabər, dərsliklərin hazırlanması ilə də məşğul olurdu.O, müəllimlərlə sıx əlaqə saxlayaraq, dərsliklərin hazırlanmasında müəllimlərə dəyərli məsləhətlər verirdi (3.№22).

Milli ruhlu ədib, milli dəyərləri qorumaq naminə XIX əsrin sonlarında Azərbaycanın ədəbiyyatı tarixini yaratmaq həvəsilə tədqiqata başlayaraq kəndbəkənd, şəhərbəşəhər dolaşaraq klassilkərimizin həyat və yaradıcılığına aid materiallar toplamağa başlayır. Gedə bilmədiyi yerlərə məktublar göndərərək öz müasirləri olan ziyalılarımızdan bildikləri və eşitdikləri barədə məlumatlar əldə edirdi. Mükəmməl rus təhsili almış F.Köçərli çox müasir dünyagörüşünə malik idi.

Mənbələrdə qeyd olunduğu kimi Köçərli Azərbaycan ədəbiyyatının yaratmağa təşəbbüs etmiş, bunun üçün zəngin material toplamış, xüsusən XVII-XIX əsrlərin ədəbiyyatını müəyyən dərəcədə işıqlandırmağa müvəffəq olmuşdur. O, Azərbaycan ədəbiyyatını öyrənməyə xüsusi maraq göstərirdi. "Tatar komediyaları"(1895), "Azərbaycan şairi Vaqifin həyatına dair(1903), "Ədəbiyyatımıza dair məktub"(1904) kimi məqalələr yazır və habelə, M.F.Axundovun "Aldanmış kəvakib"povestini rus dilinə çevirir". Bundan başqa Azərbaycan tatarlarının ədəbiyyatı"(1903) adlı ayrıca kitabça nəşr etdirir. Rus dilində nəşr olunan "Azərbaycan tatarlarının ədəbiyyatı" əsəri tezliklə oxucuların diqqətini cəlb edir, müəllifin təşəbbüsü hər tərəfdən alqışlanır. F.Köçərli onlarla təbrik məktubu alır. Belə məktublardan birini də Nəriman Nərimanov göndərmişdi. O, Odessada oxuyan azərbaycanlıların arzusunu ifadə edərək yazırdı: "Sizin bu kitabçanız bütün türk tələbələrinin xoşuna gəldi. Tələbələr bilirlər ki,





Sizin daha çox materiallarınız var. Bunları siz türkcə çap etdirmək xəyalındasınız. Ona görə də çox şad oldular və bunun türkcəsini görmək arzusundadırlar (1904).

Bu təbrik və təhriklər F.Köçərlini həmin sahədəki işini davam etdirməyə həvəsləndirir. O, Azərbaycan ədəbiyyatı tarixini daha geniş və müntəzəm şəkildə öyrənməyə, ədəbi nümunələri toplamağa başlayır. Bir müddət sonra "Azərbaycan türklərinin ədəbiyyatı" adlı məşhur əsərini yazıb qurtarır (2.s.485).

Firidun bəy Köçərlinin böyük zəhmət hesabına başa çatdırdığı bu əsəri heç də hər kəs tərəfindən birmənalı qarşılanmadı. Bu əsərə tənqidi yanaşanlarla bərabər böyük dəyər verənlər də oldu. Lakin zaman keçdikcə əsərin Azərbaycan ədəbiyyatı tarixində misilsiz yeri olduğunu anlayanlar onu qiymətləndirməyə başladılar. Çünki, həqiqətən də Azərbaycan klassiklərinin həyat və yaradıcılığını qismən də olsa işıqlandıran görkəmli ədib Firidun bəy Köçərlinin nəşr etdirdiyi bu əsərin Azərbaycan ədəbiyyatı tarixində yeri böyükdür.

Görkəmli maarif xadimi M.Mahmudbəyov 1906-cı ildə "Rəhbər" jurnalının (1906-07) birinci nömrəsində "Azərbaycan türklərinin ədəbiyyatı yoxdur" deyənlərə cavab verərək yazırdı: "Doğrudur ki, Azərbaycan türklərinin Sədisi, Hafizi, Şekspiri... yoxdur. Amma Vaqif, Vidadi, Nəbati, Seyid Şirvani və çox-çox bunlar kimi şairlərimiz var ki, hər bir millət olur-olsun onlarla fəxr edə bilər". 1905-ci il inqilabından sonra ədəbiyyatımızın tərəqqisi yolunda çalışmaq istəyənlərin qarşısında "keçmiş şairlərimizin əsərlərini ehya" etməyi, "məsləklər"ini araşdırmağı təxirəsalınmaz vəzifə kimi qoyan görkəmli xalq müəllimi fürsətdən istifadə edib onun varlığını isbata yetirmək məqsədilə F.Köçərlidən jurnala görkəmli Azərbaycan yazıçıları haqqında oçerklər yazmağı xahiş etmişdi (19.s.7).

Firidun bəy Köçərli 1903-cü ildə rusca nəşr etdirdiyi "Azərbaycan ədəbiyyatı" əsərində müasir ədəbiyyatın yığcam

icmalını verməklə, ustad hesab etdiyi dahilərdən hər zaman öyrənməyə təşəbbüs göstərmişdi.

Görkəmli pedaqoq, tədqiqatçı, dilçi, ədəbiyyatşünas və tənqidçi olan F.b.Köçərli klassikimiz M.F.Axundovu "Milli ədəbiyyatımızın atası, dram yazanlarımızın ustadı-kamili, ədəbiyyatımızın fəxri" hesab edirdi (5.№10).

Maarifçilik ideyalarının yayılmasında məsləkdaşları ilə bir yerdə olan Firidun bəy, dünyagörüşünün formalaşmasında həmfikirləri ilə ünsiyyətin böyük rolu olduğunu qeyd edirdi.

Firidun bəyin milli kökə bağlılığı, yaradıcılıq fəaliyyətinin sırf milli ruhda olması publisistikasında aydın şəkildə özünü büruzə verir.

F.b.Köçərli hətta Vaqif, Vidadi və Zakirin şeirlərinin dili arasında olan oxşar, ümumi cəhətləri tapır, onların üçünün də dilinin sadə və aydınlığından danışır. F.Köçərliyə görə Vidadi sözü açıq deyən, insanpərvər və dostluqda möhkəm bir adam olmuşdur (17.s.540).

Köçərli çox zaman tərif etdiyi yazarların əsərlərinə tənqidi yanaşırdı. Məsələn, A.Şaiqlə dostluq etməsinə baxmayaraq, onun uşaqlar üçün yazdığı əsərlərinin dilini təhlil edərək tənqidi fikirlərini məsləhət formasında da olsa söyləyirdi.

A.Şaiqə "Gələcəkdə yazdığınız nağıl və hekayələri daha da sadələşdirib Osmanlı ibarələrinin əvəzində bizim öz sözlərimizi və tərzi kəlamlarımızı işlətsəniz, uşaqlarımız daha tez başa düşərlər" deyə tövsiyə edirdi. A.Şaiqə yazdığı məktublarının birində F.Köçərli deyir: "Əvvəla dilimiz siz zənn etdiyiniz qədər kasıb və fəqir deyil. Biz dilimizi bilmirik və bunun təqsiri də bizdədir, dilimizdə deyil. Fars və ərəbə meyl rəğbətimiz o qədər çox olubdur ki, öz dilimizdə olan sözləri atıb əvəzində əcnəbi dillərin qəliz ibarələrini və sözlərini götürmüşük.

O, sadə Azərbaycan dilində yazan yazıçı və şairlərdən misal olaraq Vaqif, Zakir, Qüdsi, Salik, Hacı Seyid Əzim, Mirzə





Fətəli, Fəqir Ordubadi, Dəxil və qeyrilərini misal göstərərək, onların qələm və təb sahibi olduqlarını söyləmiş və "Bu sayaq yazıbdır Həsən bəy Məlikov" demişdir. "Əkinçi" qəzetəsinin nömrələri əlinizə düşsə, oxuyub bu mətləbin barəsində bir az fikir eləyin"-deyə məsləhət vermişdir (16.s.283).

Milliliyin və maarifçiliyin bir xüsusiyyəti olaraq Firidun bəy Köçərli daim çalışırdı ki, dilimiz yabançı sözlərdən uzaq olsun, uşaqlar Azərbaycan dilində danışsınlar və dilimiz ədəbi dil səviyyəsinə qalxsın. Doğrudur, Köçərlinin yaşadığı carizm müstəmkəçiliyi dövründə çarizmə itəatkarlıqla xidmət göstərən "bəzi ziyalıları"mız doğma ana dilində danışmağı özləri üçün təhqir sayır, ana dillərini bildikləri inkar edir və hətta bu dili bilmədikləri ilə fəxr etdikləri halda, Köçərli isə əksinə rus dilində təhsil almasına baxmayaraq doğma ana dilində danışmağı özü üçün fəxr sayırdı. Bu cür ziyalılar tez-tez Köçərlinin tənqidinə tuş gəlirdilər.

Maarifçilər ana dilinə həqarətlə baxan, onu "çoban dili" adlandıran hakim siniflərin ideoloqlarına və çarizmin milli müstəmləkə siyasətinə qarşı mübarizə apararaq, millətin birliyi üçün böyük əhəmiyyətə malik olduğunu qeyd edirdilər. Hətta H.Zərdabi, N.Nərimanov və C.Məmmədquluzadə də milli dilin millətin və milli mədəniyyətin inkişafı üçün nə qədər vacib və mühüm vasitə olduğunu göstərirdilər (8.s.24).

F.Köçərlinin ədəbiyyat uğrunda apardığı mübarizə mövqeyi bu baxımdan çox təqdirəlayiqdir. Millətə və xalqa məhəbbətlə xidmət göstərən bir azərbaycanlının, təhsil aldığı Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının rolu da az olmamışdır. Seminariyada təhsil almış Azərbaycanın görkəmli mədəniyyət xadimlərindən Cəlil Məmmədquluzadə, Zülfüqar və Üzeyir Hacıbəyov qardaşları, Süleyman Sani Axundov, Rəşid bəy Əfəndiyev, Müslüm Maqomayev, Soltan Məcid Qənizadə, Fərhad Ağazadə və başqa görkəmli mədəniyyət xadimlərinin

F.Köçərlinin istər pedaqoji, istər ədəbi fəaliyyətində təsiri olmamış deyildir. Göründüyü kimi kəskin tənqid o dövr üçün normal hal idi. Lakin, tənqidi heç də hər kəs yaxşı qəbul etmirdi. Əsl ziyalı olan şəxslər tənqidi fikirlərə hörmətlə yanaşır və tənqiddən nəticə çıxarırdılar. "Kaspi" qəzetində Əli Səbrinin F.b.Köçərli haqqında dediklərindən belə nəticəyə gəlmək olar ki, F.Köçərli müasirləri tərəfindən sevilmiş və hörmətlə qiymətləndirilmişdir. O yazırdı: "Bizim uzun illər gözlədiyimiz və arzu etdiyimiz bir iş nəhayət ki, gerçəkləşdi. F.Köçərli Zaqafqaziya Müəllimlər Seminariyasının tatar şöbəsinə müfəttiş təyin edildi. Biz Firidun bəyi o şöbədən ayrı təsəvvür edə bilmirik. Heç kəs onun əməyinin hədər getdiyini söyləyə bilməz. O bütün həyatını, bilik və savadını bu yolda mübarizə aparmağa həsr etmişdir (11.№221).

Azərbaycanın tanınmış simalarından olan N.Nərimanovun tənqidə olan münasibətinə gəlincə o, tənqidi çox səmimi qarşılayırdı. Nərimanovun tənqidə olan yaxşı münasibəti isə bəzi hallarda həm təəccüblə, həm də qısqanclıqla qarşılanırdı.

Ədəbiyyatçılar arasında böyük nüfuza malik olan F.b.Köçərlinin tənqidi məqalələrə düzgün istiqamət verdiyini görən N.Nərimanov yazırdı: "Düz iyirmi il bundan müqəddəm mən "Nadanlığı" yazıb meydana buraxdım. Məşhur mühərrirlərimizdən biri – Firidun bəy Köçərli "Nadanlığı" rus dilində tənqid etdi, yaramaz bir şey hesab edib yazanının, yəni məni lazımınca çubuqladı. Oxuyan deyirdi: "Nadanlığı" yazan gərək daha əlinə qələm götürməsin. Fəqət onun çubuqlamağı "Nadir şah"ın meydana gəlməsinə səbəb oldu (15.s.6).

Buradan göründüyü kimi F.Köçərlinin bu haqlı tənqidi qeydləri N.Nərimanovu nəinki ruhdan salmış, əksinə onun yeni-yeni əsərləri ərsəyə gətirməsinə və yaradıcılığının yeni üslubda inkişaf etdirməsinə şərait yaratmışdır. F.b.Köçərli N.Nərimanovun müvəffəqiyyətsizliyinin əsas səbəbini onun gəncliyində və təcrübəsizliyində görürdü.





Tənqidçilər bəzi hallarda F.Köçərlinin əsərlərə verdiyi qiymətlərdə hətta ifrat dərəcədə tələbkarlıq olduğunu qeyd edirdilər. Köçərlinin tənqidi heç vaxt qərəzli xarakter daşımayırdı. O, tənqidin xalqın gələcəyinə müsbət təsir göstərəcəyini və daha sanballı əsərlərin meydana çıxaracağına əmin idi.

F.Köçərli 1903-cü ildə yazdığı "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabında N.Nərimanovu ən fəal dövlət xadimi kimi göstərmiş və onun milli ədəbiyyatımızın inkişafında mübarizliyini qeyd etmiş, onun böyük rus dramaturqu N.V.Qoqolun "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə etməsini xüsusilə vurğulamışdır. Baxmayaraq ki, o, N.Nərimanovun əsərlərinə tənqidi fikirlərini söyləyirdi, lakin onun yaradıcılığına xüsusi hörmətlə yanaşırdı. Tək-tək ədəbiyyatçı və yaxud dilçi mütəxəssislər olardı ki, F.Köçərlinin ədəbi-tənqidi fəaliyyətindən bəhrələnməmiş olsunlar və bir cümlə də olsa öz əsərlərində ədibin fikirlərindən istifadə etməsinlər.

İstər inqilabdan əvvəlki və istərsə də sonrakı dövrlərdə F.Köçərlinin Azərbaycan ədəbiyyatı tarixi materiallarının toplanmasına dair məlumatlar dövrü mətbuatda öz əksini tapır, müxtəlif məqalələrdə F.Köçərlinin yaradıcılığından bəhs edilirdi. Tək-tək ədəbiyyatçı, dilçi və tənqidşünas tapılar ki, F.Köçərlinin ədəbi-tənqidi fəaliyyətindən bir cümlə də olsa öz əsərlərində istifadə etməsinlər.

Akademik M.A.Dadaşzadə XIX əsrin sonları XX əsrin əvvəllərində ədəbiyyatşünaslıqda publisistik və tənqidi məqalələrlə çıxış edən F.Köçərlinin yaradıcılığı ilə yaxından tanış olduqdan sonra onu "istedadlı ədəbiyyatşünas" adlandırmışdır. Dil üslubunun tənqid və təhlili haqqında görkəmli qələm sahiblərimiz gözəl sözlər söyləmişlər. Klassiklərimizin danışıq dili ilə ədəbi dilin yaxınlığından bəhs edərkən Azərbaycan dilinin bu cəhətdən, yəni danışıq dili ilə ədəbi dilin biri-birinə yaxınlığını qeyd edirlər. Müxtəlif dövrlərdə yaşayıb, yaratmış ədiblərimizin

hər birinin dil, söz, nitq mədəniyyəti haqqında müxtəlif fikirləri olmuşdur. F.Köçərlinin də fikrincə dil bir xalq, bir millət üçün ən vacib hesab edilən amillərdəndir. Xalq şairi S.Vurğun hələ 1939-cu ildə məqalələrin birində qürurla dili "xalqın müqəddəs dövləti" adlandırıb yazırdı: "Dil xalqın namusu deməkdir, tarixi deməkdir, vicdanı deməkdir. Var olsun bizim gözəl dilimiz, zəngin dilimiz!" (6.s.386).

Söyləninlən bütün dəyərli sözlərdən Firidun bəy Köçərlinin vətəninə, xalqına əsl vətəndaş xidməti göstərdiyi və millətini sevdiyinin şahidi oluruq.

XIX əsrin II yarısında Azərbaycanda tarix elmi sahəsində də müəyyən addımlar atılmışdır. Qarabağ tarixinə həsr olunmuş əsərlərin içərisində Firidun bəyin əsərləri də öz əksini tapmışdır (7.s.255).

Millilik dəyərlərinin yüksək tutan Firidun bəy Köçərli dünya xalqlarının ədəbiyyatına, tarixinə də biganə qalmayırdı. O, əsasən rus klassiklərinin ədəbiyyatından tərcümələr etməklə Azərbaycan oxucularını, Azərbaycan şairlərinin şeirlərindən rus dilinə tərcümələr etməklə rus dilli oxucuları ədəbiyyatımızla tanış etməyə çalışırdı.

O, XX əsrin əvvəllərindən daha geniş ədəbi-ictimai fəaliyyət göstərmiş, Azərbaycan ədəbiyyatı tarixinə aid ilk əsərlərdən olan "Azərbaycan tatarlarının ədəbiyyatı" (rusca, 1903), "Mirzə Fətəli Axundov"(1911) kitabçalarını nəşr etdirmişdir.

1908-ci ildə Firidun bəy "Azərbaycan türk ədəbiyyatı" əsərini bitirdi; bu tədqiqat yalnız Sovet hakimiyyəti illərində "Azərbaycan ədəbiyyatı tarixi materialları" (2 cild, 4 hissə; 1925-1926) adı ilə nəşr olundu. Əsər "Müəllif tərəfindən bir neçə söz" dən, "Başlanğıc" adlı müqəddimədən, XVIII-XIX əsrlər Azərbaycan ədəbiyyatına dair 8 tarixi-coğrafi icmaldan, 128 şairin həyat və yaradıcılığı barədə oçerk və məlumatdan ibarətdir(əldə edilməyən 3-cü cild ehtimal ki, 20 əsr ədəbiyyatına





həsr olunubmuş). Kitabda Azərbaycan dilinin mənşəyi haqqında qeyri-dəqiq hökmlər olsa da, O, Azərbaycan ədəbiyyatı tarixinin inkişafını izləmək, ədəbi prosesla əlaqədə təhlil etmək və fakt zənginliyi baxımından qiymətli mənbədir (1.s.554).

Firidun bəy Köçərlinin geniş publisistik və elmi fəaliyyəti ona tezliklə şöhrət qazandırır. Azərbaycan alimi kimi yavaş-yavaş Zaqafqaziya sərhədlərindən kənarda tanınmağa başlayır; Peterburq, Tehran, İstambul alimlərindən məktublar alır. Onu Tiflis universitetində mühazirələr oxumağa, Tehran progimnaziyasında müəllimlik vəzifəsinə dəvət edirlər, ədəbiyyat və pedaqogikaya dair məktublar yazıb ondan məsləhət istəyirlər. O, bir vətənpərvər kimi xalqının inkişafı üçün qarşısında duran maneələri tənqidə tutur, milli mədəniyyətin, eləcə də ədəbiyyatın tərəqqisi üçün yollar göstərirdi.

1890-cı ilin yanvarında, ümumiyyətlə F.Köçərlini təqib etmək, onun müxtəlif mətbuat orqanlarında dərc etdiyi xəbərləri "yalana" çıxarmağa cəhd göstərməklə məşğul olan Əmirzadə familiyalı birisi redaksiyaya müraciət edib, verilmiş məlumatın səhih olmadığını "isbata" yetirmək istəyirdi. C.Ünsizadə Əmirzadənin məqaləsinə əlavə etdiyi qeyddə F.Köçərlinin həmin əsərlərini şəxsən gördüyünü, müəllifin onları nəşr etmək niyyətində olduğunu bildirir və "təsadüf mane olmasa, yaxınlarda müəllifin onları nəşr edib yayacağını" xəbər verirdi (19.s.60).

Müasir dövrümüzdə dəyərli tənqidçilər və tədqiqatçılar arasında öz dəstixətti ilə seçilən, tənqidçilikdə sözünü demiş akademik Kamal Talıbzadənin yaradıcılığı ilə tanış olduqda onun görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli yaradıcılığından bəhrələndiyini görürük. Bu həqiqətən belədir. K.Talıbzadə Firidun bəy Köçərlini bir pedaqoq, tənqidçi, folklorşünas kimi deyil, eyni zamanda milli ruhlu ziyalı olduğunu da nəzərə çatdırmağa çalışmışdır. O, Firidun bəyin yaradıcılığını işıqlandıran ilk tədqiqatçılardan olmuşdur. Nəhayət bu məqsədyönlü tədqiqat

1960-cı ildə üççildlik "Azərbaycan ədəbiyyatı tarixi"ində "XX əsr ədəbi tənqidi", "F.Köçərli" fəsillərinin nəşri ilə nəticələnmişdi (17.s.6).

F.b.Köçərli yaradıcılıq fəaliyyəti dövründə istər onunla çiyin-çiyinə, istərsə də ondan qabaq sözün əsl mənasında müəllim kimi çalışan, pedaqoji işə ürəkdən can yandıran, millətin gələcəyini düşünən müəllimlərə həmişə hörmət və ehtiramla yanaşmış, onların cəhalət içində boğulan bir ölkədə heç nədən və heç kimdən qorxmayaraq millətin maariflənməsinə köməklik göstərən insanların zəhmətini yüksək qiymətləndirmişdir.

Şərəfli müəllimlik vəzifəsini yerinə yetirmək o zaman son dərəcədə çətin olsa da hər cür məhrumiyyətlərə sinə gərərək xalqı maarifləndirmək yolunda öz səy və bacarığını əsirgəməyən müəllimlərimiz az deyildir. N.Nərimanov, C.Məmmədquluzadə, M.Xəlilov, S.Vəlibəyov, M.Qarayev, T.Bayraməlibəyov, A.Şaiq, H.Nərimanbəyov, S.S.Axundov və başqaları məhz bu cür şərəitdə müəllimlik edirdilər. "İşıqdan qorxan, millətin ayılmağından xof və əndişə edən mülkədar, bəy və ağaların hər cür müqavimətinə sinə gərib məktəbi atmayan" bu qisim pedaqoqları Köçərli "ürəyi atəşli müəllimlər" adlandırırdı (15.s.43).

Firidun bəy Köçərlinin yaradıcılığı bütünlüklə Azərbaycanın təhsilinə, maarifinə, savadına həsr olunmuşdur. Rus dilində təhsil almasına baxmayaraq o, doğma ana dilinə sonsuz məhəbbətini gizlətmirdi və bu dildə danışmaqdan zövq aldığını qeyd edirdi. F.Köçərli dilində sadəlik olan, anlaşıqlı və səlis yazıb-yaradan şairlərə üstünlük verirdi. O, Məhəmməd Füzulinin bu yaradıcılığını səbəbdən yüksək qiymətləndirərək onun haqqında çox gözəl, dəyərli fikirlər söyləmişdir. F.Köçərli yazırdı: "Füzuli...ana dilini artıcaq sevib də, ona rövnəq verməyi baş vəzifələrindən birisi hesab edirmiş". Azərbaycan dilinə rövnəq verən və onu xarü xaşəndən təmizləyib bir göyçək və səfalı çəmənə bənzədən Füzuli olubdur". F.Köçərli "Hədiqətüs-





süədа" əsərinin nəsrlə yazılan hissələrini nəzərdə tutub deyir:"-Bu nəsrdə Füzuli o qədər məharət və fəsahət göstərmiş ki, və əhvali-keyfiyyəti-şühəndanı elə bir gözəl və şirin dil ilə yazmış ki...Bu vaxta kimi füsəhayi-türk və əcəmdən bir kəs belə xoş ibarəli və şirin ləhcəli və gözəl şivəli əsər vücuda gətirməyibdir"(16.s.272).

Milli dəyərlərə söykənən F.b.Köçərli hər bir işində, ədəbi fəaliyyətində, xüsusilə də məqalələrində bunu hiss etdirməyə çalışırdı. Millilik ruhu, millilik hissi və milli dəyərləri qiymətləndirmək, təəssübkeşlik yaradıcılğı dövründə ta ömrünün sonuna qədər bir an da olsa onu tərk etmədi.

Hələ sovet hakimiyyətindən əvvəlki dövrdə də Köçərli və onun müasirləri olan bir çox ədəbiyyatşünaslar Füzuli yaradıcılığının həyatla, xalqla əlaqəsinə daha çox fikir vermiş və Füzuli poeziyasının dərin fəlsəfi məzmunun məktəb və mədrəsələrdə təlim, tərbiyə işindəki rolunu yüksək qiymətləndirmişlər. Füzuli doğma ana dili olan Azərbaycan lirikasını zirvələrə qaldıraraq, Azərbaycan bədii dilinin banisi kimi tanınmışdır. Bu səbəbdən də onu "dünyada ən görkəmli sənətkarlardan biri" adlandırmışlar (2.s.406).

Azərbaycanın ictimai-siyasi və mədəni həyatında 1890-1917-ci illər mədəni hadisələrlə zəngin olan dövr adlandırılır. Çünki, bu dövrdə sinfi mübarizənin kəskinləşməsi, milli azadlıq hərəkatının yeni mərhələyə qədəm qoyması, sosializm ideyalarının fəhlə hərəkatına qovuşması kimi hadisələr gün-gündən daha da geniş vüsət tapırdı. Eyni zamanda bu dövr, (XX əsr) ədəbiyyatın mövzu zənginliyi, məsələlərin dərinliyi, ədəbi mübarizələrin kəskinliyi və bu ideyalar uğrunda aparılan mübarizələr üçün yeni bir mərhələ idi. Artıq XX əsrin əvvəllərində baş verən ziddiyyətləri xarakterizə etmək, müasir cəmiyyətin ictimai-siyasi və tarixi məsələlərini canlandırmaq və mədəni həyatın təbliğinə böyük ehtiyac duyulurdu. Firidun bəy Köçərlini məhz bu

məsələlər uğrunda aparılan mübarizələr və bəzi ziyalıların isə bu məsələlərə binganə qalması narahat edirdi.

Dövrünün ən qabaqcıl maarifçilərindən olan Firidun bəy Köçərli üçün sənət zənginliyi tükənməz mənbə idi. Görkəmli ədib Azərbaycan mənbələri ilə yanaşı, Şərq, rus və Avropa ictimai fəlsəfi və ədəbi fikrinə dair mənbələri də araşdırır, tədqiq edirdi.

Ədəbiyyatın tənqidi istiqaməti məsələsinə Köçərli böyük əhəmiyyət verirdi. Əslində Köçərli haqlı olaraq fikirlərin oyandığı bir dövrdə ictimai tənqidə böyük ehtiyac olduğunu vurğulayırdı. O, tənqidin insan tərbiyəsində rol oynadığını və tənqiddən nəticə çıxarmağın özünü mədəni hadisə kimi qiymətləndirirdi.

Doğrudur ki, Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatının ədəbi fikrinin görkəmli simaları sırasında mühüm yerlərindən birini tutub. Lakin, bu ədəbi mövqeyin əsas məqsədi mahiyyəti ziddiyyətlərin və milli ədəbi-nəzəri keyfiyyətlərin öyrənilməsi və təbliğ edilməsidir.

Ona görə hər bir qələm sahibi olan azərbaycanlı vətəninə və xalqına milli dəyərlərini qorumaqla, yaşatmaqla xidmət göstərməlidir. Ana dilinin burada çox böyük rolu vardır. Çünki hər bir insan öz kökündən bəhrələnərək formalaşır. Bunun üçün də dil əsas rol oynayır. Köçərlinin millətinə, dilinə olan sevgisi sözsüz ki, buradan qaynaqlanmışdır. O, mədəni və ədəbi inkişaf, ümumbəşəri ideya və hissələri almaq üçün bütün bunları insan tərbiyəsinin əsasına daxil etməyi, bu yolla millətin tərəqqisinə yaxınlaşmağın mümkünlüyünü göstərirdi.

F.b.Köçərli, yaradıcılığın elmi cəhətdən zənginliyində rus ədəbiyyatının rolunu yüksəkolduğunu göstərirdi. Eyni zamanda da Azərbaycanın ədəbiyyatına, əlifbasına və dilinə daha çox önəm verməyi, ədəbiyyatımızın inkişaf yolunu izləyən müəlliflərə isə ədəbiyyatın tarixinə, ədəbi hadisələrə, şəxsiyyətlərə, canlı ədəbi qanunauyğunluqlara, özünəməxsus zəngin dünya ha-





disələrinə obyektiv qiymətlər verməyi məsləhət görürdü.

Firidun bəyin publisistikasının əsasında bir çox vacib məsələlərlə bərabər rus ədəbiyyatı və onun ayrı-ayrı şəxsiyyətlərinin yaradıcılığı dayanırdı. Ədib milliyyətindən asılı olmayaraq xalqı, milləti üçün dəyərli əsərlər yaradan və millətini, xalqını dünyada tanıdan yaradıcı insanları əvəzolunmaz şəxsiyyət adlandırırdı..

Azərbaycan klassiklərinin yaradıcılığına müraciət edən Firidun bəy Köçərli dilimiz uğrunda mübarizə apararaq dilin saflığını, səlisliyini qoruyan şairlərin haqqında çox deyib, çox danışmışdı.

O, sadə və aydın qələm ustadlarından M.P.Vaqifi "milli şair" adlandırırdı. F.b.Köçərli M.P.Vaqif haqqında "Bu sadə və rəvan şeirlər ki, mənən dəxi ziyadə məqbul və müstəhsəndir, şairin artıq dərəcədə ana dilinə bağlı olmasına və milli şairliyinə dəlalət edir" deyə fikrini söyləmişdir.

Vaqif şeiriyyətinin dil üslubunun zənginliyi və anlaşıqlı olması, həmçinin xalq tərəfindən sevildiyi üçün "tatar ədəbiyyatınln banilərindən" adlandırılırdı. Vaqif, şeirlərində ərəb, fars sözlərinə müraciət etmədən təmiz Azərbaycan dilində yazırdı. Onun şeirlərində sünilik yox idi, xalqın sosial həyatından bəhs edən məsələləri çox incə, səlis ifadələrlə oxucusuna çatdırırdı.

Firidun bəy Köçərli milli şivədə yazılmış M.F.Axundov, S.Ə.Şirvani, M.V.Vidadi, Q.Zakir, Ə.Nəvai, H.Zərdabi, M.Ə.Sabir, C.Məmmədquluzadə, S.M.Qənizadə və başqaları haqqında da yüksək fikirlər söyləmişdir. Millətin gələcəyi üçün dilin inkişaf etdirilməsini vacib sayan Köçərli, Azərbaycan dilinin ədəbi dilə çevrilməsinə çalışırdı.

Qövsi haqqında isə "Şiveyi-lisanından və üslubi-kəlamından bizim Zaqafqaziya torpağının rayihəsi gəlir" sözlərini söyləmişdir. (16.s.273).

Ərəb əlifbasını Azərbaycan dili üçün nöqsanlı əlifba hesab

edən ədib, yeni əlifba yaratmaq istəyənlərin fikrinə haqq verirdi. O, M.F.Axundovun ərəb əlifbasını islah etmək və dəyişdirmək uğrunda apardığı mübarizəni ön plana çəkərək bu haqda ətraflı danışır və onun bu sahədəki fəaliyyətini yüksək qiymətləndirirdi.

Firidun bəy Köçərli milli ruhla yaşayan ziyalı olduğundan, ilk növbədə dilimizin inkişafına çalışırdı. Bədii ədəbiyyatın beynəlmiləl əhəmiyyətini qeyd edərək Köçərli yazırdı: "Bunların təəllütü cəmi aləmə çatır, bir millətə və taifəyə çatmaz. Bunlar ümumi xəlayiq və insaniyyət müəllimi mürəbbisidirlər, nəinki bir millət ədibi və şairi" "Ədəbiyyatımız haqqında məktubunda müəllif Vaqif və Vidadini, Zakir və S.Ə.Şirvanini də xalq həyatınl, "səmimi-qəlbdən və hissiyyati-həqiqi" ilə qələmə alan şairlərdən sayırdı (9.s.9).

Firidun bəy Köçərlinin arxivində Azərbaycanın görkəmli ziyalılarının, yazıçı və şairlərinin böyük bir siyahısı qorunaraq saxlanılmaqdadır. O, M.Füzuli, Ə.Nəvai, Q.Təbrizi, M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir, S.Ə.Şirvani, M.F.Axundov, H.Zərdabi, M.Ə.Sabir, C.Məmmədquluzadə, S.M.Qənizadə və neçə-neçə belə görkəmli yazıçı, şair və dramaturqların yaradıcılığı haqqında məqlələr yazaraq onları həm alqışlayır, həm də əsərlərində olan qüsurlara görə bu ədiblərin əsərlərinə bəzi tənqidi münasibətini bildirirdi. O, tənqidlə yanaşı tərif deməkdən də çəkinməyirdi.

Ədib çox yaxşı başa düşürdü ki, xalqın psixologiyası, mənəvi varlığı onun dilində öz ifadəsini tapır. F.b.Köçərlinin fikrincə hər bir insan bir neçə dildə danışmağı bacara bilər, bu hətta çox yaxşı haldır, inkişafdır. Lakin başqa dilləri bilməklə yanaşı doğma dilini də qorumaq lazımdır. F.Köçərli Azərbaycan dilini dövrün geniş yayılmış dillərindən hesab edirdi. "Bu dil öz sadəliyi və asanlığı sayəsində hamı tərəfindən asanlıqla öyrənilir və bütün müsəlman Şərqində ən gözəl və ən çox işlənən





bir dildir. İraqi-əcəmin sakinləri Farsistanın, Türküstanın əhalisi olan ermənilər, yunanlar, aysorlar, kürdlər və başqaları bu dildə danışırlar (16.s.280).

Azərbaycanın görkəmli maarifpərvəri F.b.Köçərlinin yaradıcılığının çoxşaxəli və rəngarəng olması, onun Azərbaycanın mədəniyyət tarixinin bir çox sahələrinə xidmət etdiyini göstərir. Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi" əsəri bizə onun tarix, etnoqrafiya, dilçilik, pedaqoji tərəfdən Azərbaycanın tərəqqisinə xidmət göstərdiyini əsaslandırmağa imkan verir. O, Azərbaycanın, eləcə də Zaqafqaziyanın mədəni mühitində görkəmli yerlərdən birini tutan pedaqoq və ictimai xadimi olduğunu əməli fəaliyyətu ilə bir daha sübut etdi.

M.P.Vaqifin əsərlərini tərif edən Köçərli Ə.Hüseynzadənin yazılarını kəskin tənqid atəşinə tuturdu. O, Ə.Hüseynzadə haqqında deyirdi: "O cənabın elm və kamalına sözümüz yoxdur, sadəcə Azərbaycan dilinə çoxlu sayda Osmanlı sözləri gətirdi. Bu səbəbdən də kitablarımızda çox və əziz işlənən sözlər sıradan çıxmağa başladı. Qəzet, kitab və jurnallarda dilimizə yatmayan sözlər və ifadələr yerləşməyə başladı"(16.s.283).

F.Köçərlinin fikrindən belə aydın olur ki, Azərbaycan dilinin şirinliyi, gözəl tələffüz olunması və axıcılığı heç bir millətin dilində yoxdur. Məhz buna görə də bu dilin qədrini bilmək gərəkdir. Publisitikasında milli dəyərlərdən bəhs edən Köçərlininin ən çox müzakirə etdiyi dil məsələsi olub. O, başqa xalqlarda olduğu kimi Azərbaycan dilinin də bir çox şivələrə malik olduğunu, amma dilin kökünün bir olduğunu göstəriridi: "Azərbaycan danışdığı dilin şivəsi çox isə də binası və kökü birdir. Belə ki, hər mahalın xalqı başqa bir şivədə və qeyri ləhcədə danışıb, qonuşur. Hər mahal və məskənin öznüəməxsus istilahları və sözləri vardır. Qarabaq və Qazax əhalisi bir cürə, Şəki xalqı özgə bir cürə, Şirvan, Səlyan, Bakı və Quba adamları başqa bir sayaqda, İrəvan, Naxçıvan, Təbriz, Xoy, Maku vilayətlərinin əhalisi qey-

ri bir şivə ilə danışırlar. Amma bununla belə, bunların cümləsi söylədiyi dil bir dildir və mahalın əhalisi özgə bir Azərbaycan mahalının əhalisi söylədiyi dili açıq anlayıb, onunla hər bir qisim mətalib və məqail barəsində mükalimə edə bilər" (16.s.286). Deməli Azərbaycanın hansı bölgəsində yaşamalarından asılı olmayaraq millətin dili eyni kökdən qaynaqlanır.

Milli müstəmləkə əsarəti şəraitində doğma ana dilinin inkişaf etməsində müxtəlif manelərin yaranmasına baxmayaraq milli ədəbi dil xalqın, geniş kütlələrin qəlbinə yol tapırdı. F.Köçərli yazırdı: "Millətini sevən, onun mənəvi dirçəlişinə çalışan, tərəqqisi yolunda əmək sərf edən ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilimizdən uzaq düşməsinlər, başqalarını təqlid etməsinlər, fikirlərini açıq və sadə dildə yazsınlar, təki onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın. Ancaq bu yolla yazan və oxuyan arasında dostluq, ittifaq və birlik yarana bilər (7.s.255).

Firidun bəyin yaradıcılığında əlifba məsələsi də xüsusi yer tuturdu. O, Azərbaycan dilində əlifbanın olmadığını və ərəb əlifbasının oxunuşunun çox çətin qavranıldığını anlayaraq, Azərbaycanın öz əlifbası olmasını istəyirdi. Olan əlifbalar onu qane etmirdi. Sözsüz ki, söhbət xüsusilə ərəb əlifbasına aid idi. Bunu nəzərə alaraq o, Azərbaycan dili üçün ərəb əlifbasının nə qədər çətin olduğunu və onun yeni əlifba, Azərbaycan əlifbası ilə əvəz edilməsi məsələsini gündəmə gətirmişdir.

Dil və əlifba uğrunda mübarizə aparan F.b.Köçərli M.F.Axundovun bu barədə gördüyü işi yüksək qiymətləndirir, onun əsərlərindən ətraflı danışaraq, bu işi davam etdirməyi məsləkdaşlarına tövsiyə edirdi. O sadə dildə yazılması vacib olan əlifbanı məsləhət görürdü. Məlumdur ki, Azərbaycan dilinin indiyədək dörd əlifbası olmuşdur. Onlardan birincisi ərəb əlifbası 700 illik bir dövrü əhatə edir, ikincisi və dördüncüsü latın qrafikası, üçüncüsü isə kiril qrafikası əsasında olmuşdur. Ərəb





qrafikası əsasında olan Azərbaycan yazısı isə VIII əsrdən XX əsrə qədər olan bir dövrü əhatə edir. Məhz bu əlifbaya qarşı XIX əsrin ortalarından başlayaraq mütərəqqi adamların uzun mübarizəsi və kəskin mübahisələri başlamışdır. Yeni əlifbanın yaranması gündəmdə idi və əlifba problemi bir çox ziyalılarımızı artıq narahat etməyə başlamışdı. Ərəb əlifbasından uzaqlaşmağın yeganə yolunu yeni Azərbaycan əlifbasının yaranmasında görən ziyalılar məhz bu yolda mübarizə aparmağa başladılar.

XIX əsrin sonu, XX əsrin əvvəllərində istər ədəbiyyatda, istərsə də təhsildə yeni cərəyan müşahidə olunurdu. Mütərəqqi mədəniyyət xadimləri fəaliyyətlərini əsasən əyalətlərdəki yerli ziyalıların xalqı maarifləndirməsi yolunda mübarizəyə qoşulmağa səsləyirdilər. Maarif sahəsində kəskin mübarizə gedirdi. Yenilik və köhnəliyin mübarizəsi. "Köhnə fikirli, az şüurlu mollaların əksəriyyəti keçmiş ənənələri və köhnə tipli məktəbləri müdafiə edirdilər, yeni cərəyanların tərəfdarları isə öz əsərlərində Rusiyanın tatar-azərbaycanlı əhalisini təhsilə çağırırdılar (8.s.21). Bu işdə F.b.Köçərlinin fədakarlığı heç də başqa ziyalılarımızın fədakarlığından geri qalmırdı. Ədəbiyyatımızın gələcək nəsillərə çatdırılmasında, əlifbanın yeniləşməsində, xalqın maariflənməsində, qadınların təhsilə cəlb edilməsində bir pedaqoq, tənqidçi və ədəbiyyatşünas kimi Firidun bəy Köçərlinin əməyini xüsusi qeyd etmək lazımdır. Buradan milli dəyərlərin meydana gəlməsi aydın görünürdü.

Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabında klassiklərimizdən M.Füzuli, İ.Nəsimi, M.P.Vaqif, Q.Zakir, M.V.Vidadi, M.F.Axundov və başqa ustadların həyat və yaradıcılığından bəhs edən bölmələrin bir sıra məhdud cəhətlərinə baxmayaraq, keçmiş irsimizin öyrənilməsində bu əsər olduqca dəyərli, eyni zamanda uğurlu cəhddir. Klassik irsin nəcib, demokratik ənənələrini inkişaf etdirmək mədəniyyətimizin, elmimizin vacib şərtlərindəndir. Köçərliyə görə

tənqid bu yolun yaradıcılığının inkişafına müsbət təsir göstərən vasitədir.

Firidun bəy Köçərli ədəbiyyata ictimai hadisə kimi baxır, ədəbiyyatı həyatın həqiqi aynası adlandırır və ədəbiyyatı "söz sənəti" hesab edirdi. Dilin səlisliyinə, saflığına xüsusi diqqətlə yanaşan F.Köçərli sözü yüksək tutur, sözün təsir gücünə inanırdı. O, insanın həyatında dilin rolunun böyük olduğunu görür və insanlar arasında ünsiyyət vasitəsi olan dilin təmiz, ədəbi dil olmasına çalışırdı. Dil özü mənəvi dəyərlərin ən alisi hesab edilirdi.

Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərində dil məsələlərinə xüsusi əhəmiyyət verərək, bədii yaradıcılıqda dilin rolunu qeyd etmiş və bədii əsərin dil xüsusiyyətlərini ədəbi təhlilin tərkib hissəsi kimi qiymətləndirmişdir. O, əsərində İsmayıl bəy Nakamın yaradıcılığında da bunu göstərməyə çalışmışdır.

XIX əsrdə İsmayıl bəy Nakam adlı şairin söz haqqında iri həcmli (110 misradan artıq) şeir yazıb və burada söz haqqında qədimdən gələn və bir sıra elmi və bədii əsərlərdə öz əksini tapan mifologiyanı təkrar edibdir. F.Köçərli Nakamın söz haqqında fikirlərini yüksək qiymətləndirir, onun şeirlərindəki kəlamları "Nakamın ən mövzun kəlamlarındandır" hesab edirdi (16.s.279).

F.b.Köçərli yaradıcılığı dövründə müasir Azərbaycan şair və ədibləri ilə məktub vasitəsi ilə əlaqə yaradır, ədəbi faktların aşkarlananıb toplanması və tərtib edilməsi ilə məşğul olurdu. Azərbaycan ədəbiyyatı tarixini yaratmaq ideyasını qarşısına məqsəd qoyan ədib, nəhayət ki, XVIII-XIX əsrlərin ədəbiyyat tarixini qismən də olsa yaratmağa nail olur.

Böyük marağa səbəb olan bu əsər dövrün müasirləri tərəfindən yüksək qiymətləndirilsə də nöqsanları haqqında da danışanlar oldu. Lakin, bununla belə F.b.Köçərlinin Azərbaycan ədəbiyyatı tarixində xüsusi yeri olan bu əsəri dəyərli əsər olaraq





bu günümüzdə də qiymətini qoruya bilmişdir.

F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsəri haqqında mülahizələrində İ.Qaspirinskinin pantürkist baxışları başqa bir aspektdə meydana çıxdı. Bu vaxta qədər Rusiya müsəlmanlarının dilinin birliyindən danışan Qaspirinski artıq türk-tatar xalqlarının vahid ədəbiyyat tarixini yaratmaq məsələsini irəli sürürdü.

Qaspirinski deyirdi: "Tarixi-ədəbiyyati-türki" müqəddiməsi naminə layiq olan bu risaləyə Qazan və Türküstan müsəlmanlarının meydani-ədəbisində səy və himmətləri görülmüş mövcud ədibləri ilə əsərləri xüsusunda məlumat cəm olunub qoşularsa, müfid bir kitab hasil olmuş olurdu". F.Köçərlini özünə yoldaş edə bilməyən Qaspirinski bu sahədə çalışanlara nümunə təqdim etmək məqsədilə 1906-cı ildə "Tərcüman" qəzetində "Ağ gül dəstəsi və yaxud ədəbiyyatı-cədidə xidmətləri" rubrikası açmış, M.F.Axundovdan sonra türk-tatar xalqları arasında yetişən yazıçıların ən görkəmli nümayəndələri, S.M.Qənizadə, N.Nərimanov, Mərcani, Xeyrulla Əfəndi və s. haqqında bir silsilə oçerk yazıb nəşr etmiş, hətta, Ə.Axundzadə kimi ömrü boyu dini təlimi yayan yazıçını M.F.Axundov ənənələrinin davamçısı kimi təqdim etmişdir (19.s.103).

Bax bu açıqlamanın özündə bir həqiqət ortaya çıxır ki, millətini sevən, ona hər kəsdən yüksək dəyər verən Firidun bəy Köçərli, bəzən müasirləri tərəfindən də qısqanclıqla qarşılanır və tənqidə tuş gəlirdi. Lakin bu o demək deyildir ki, Köçərli bu cür yanaşmalardan sonra ruhdan düşürdü, fəaliyyətini zəiflədirdi, əksinə daha gözəl əsərlərin meydana çıxmasına səy göstərirdi.

XIX əsrin sonu, XX əsrin əvvəlində Rusiya müsəlmanları, o cümlədən azərbaycanlılar arasında maarifçilik hərəkatının qüvvətlənməsi, bədii ədəbiyyatın inkişafı, mədəni hərəkata rəhbərlik edən ziyalılar dəstəsinin ictimai fəaliyyət meydanına gəlməsi hakim dairələri narahat etməyə, onun qarşısını almağa tədbir hazırlamağa məcbur etdi. Maarifçilik Azərbaycanda re-

alist ədəbiyyat uğrunda mübarizələrin genişlənməsinə, tənqidi fikrin inkişafına səmərəli təsir göstərdi.

F.b.Köçərli ədəbiyyatı, xüsusilə də bədii ədəbiyyatı mədəni tərəqqi uğrunda mübarizədə kəskin ideya silahı hesab edirdi. Onun üçün Azərbaycanın milli adət-ənənəsindən bəhs edən, ailə, məişət həyatını olduğu kimi əks etdirən, yaxşı ya pis nə varsa bədii dillə əks olunaraq nəşr edilməsi çox maraq kəsb edən bir hadisə idi. Köçərli çox gözəl anlayırdı kİ, əsrlər ötəcək nəsillər dəyişəcək lakin, yazılan əsərlər qalacaqdır. O, zaman keçmişimizi öyrənmək istəyən gələcək nəsillərin istinad edəcəyi bir mənbənin olması gərəkdir. Bunu üçün sanballı əsərlərin yazılması və həmən əsərlərdə günümüzün əks etdirilməsi vacibdir. Firidun bəy məhz belə düşüncələr əsasında "Azərbaycan türklərinin ədəbiyyatı" kimi əsərin meydana çıxmasına çalışmışdı. Bu əsər bir neçə adla adlandırılsa da kökü, məqsədi eyni idi.

Publisistikasında milli dəyərləri saxlayan Firidun bəy Köçərli xalqın maariflənməsində ədəbiyyatın rolunun çox böyük olduğunu qeyd edirdi. O, ictimai, sosial, iqtisadi və siyasi həyatda maariflənməni əsas şərt olaraq vurğulayır, milli dəyərlərin qorunmasını vacib sayırdı. Hər bir qələm sahibinin milli dəyərlərə söykənərək xalqı maarifləndirmə yolunda çəkdiyi zəhmətlər Köçərliyə görə millətə, vətənə olan məhəbbətin təcəssümü idi.

Maarifçilik ideyalarının yayılmasında böyük əmək sərf edən Firidun bəy tələbələri arasında milli ədəbiyyatı təbliğ edərək məhz "milli dəyərləri qorumağı" tövsiyə edirdi.

Bir sıra maarifçi ziyalılar gənc nəslin milli ruhda tərbiyə olunmasında yardım göstərən, əxlaqi cəhətdən nöqsansız əsərlərin nəşr edilməsi yolunda mübarizə aparırdılar.

Seyid Əzim yaradıcılığına yüksək qiymət verən F.Köçərli 1903-cü ildə nəşr etdiyi "Azərbaycan ədəbiyyatı" əsərində şairin tərbiyəvi əhəmiyyəti olmayan bir sıra əsərlərinin, o cümlədən həcvlərinin nəşrini narahatlıqla qarşılamışdı. Tənqidçi bunların





yayılmasının qarşısını almaq məqsədilə S.Ə.Şirvani əsərlərinin yeni nəşrinin redaktəsini "bu işdən xəbərdar olan və təcrübəli bir adama" tapşırmağı, həcvlərini şairin külliyyatından çıxarmağı arzulayırdı (19.s.118).

Başqa ictimai elmlər sahəsində olduğu kimi ədəbiyyatşünaslıqda da doqmatizm, ehkamçılıq kök salmışdı, ayrı-ayrı hazır müddəaları ədəbiyyatın müxtəlif məsələlərinə mexaniki şəkildə tətbiq etmək bir növ ənənə halını almışdı. Bu isə ədəbiyyat tarixi elminin müstəqil, yeni fikirlərlə zənginləşməsinə mane olur, yeni fikir söyləmək vərdişini zəiflədirdi. Milli ədəbiyyatın yaranmasına zərurətin olduğunu anlayan Firidun bəy bu yolda qələmini sınayaraq, gələcək nəsillər üçün "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı əsəri yaratmağa nail oldu.

Maarifçi yazıçılar milli ədəbiyyatın gələcək inkişafını təmin etmək məqsədilə gənc ədəbi qüvvələrin formalaşmasına, yetişib tərbiyə olunmasına, fəaliyyətlərinin müasir istiqamət almasına xüsusi əhəmiyyət verirdilər. Bu işə Zaqafqaziyada yaşayan qabaqcıl rus ziyalıları da yaxından kömək edirdilər.

1879-cu ildə Qori Müəllimlər Seminariyası yanında Azərbaycan şöbəsinin açılşı münasibəti ilə çıxışında direktor D.D.Semyonov gələcək müəllimlərin qarşısında ana dillərini dərindən öyrənmək, onu daha da zənginləşdirmək, doğma ədəbiyyata yeni əsərlər vermək, bu yolla həm Avropa mədəniyyətini yaymaq, həm də fərdi milli xüsusiyyətlərini tanıtmaq məsələsini qoyurdu: "İnkişaf edin, dilinizi və ədəbiyyatınızı qələminizdən çıxan yeni, ən yaxşı əsərlərlə zənginləşdirin və əmin olun ki, onlara heç kəs toxunmayacaq. Millət öz keçmişini, özünün əxlaqi simasını fərdi xüsusiyyətləri ilə yüksəltməlidir (19.s.66).

Azərbaycanın ədəbi tənqidinin və ədəbiyyatşünaslığının inkişafında F.b.Köçərlinin ədəbi fəaliyyətinin görkəmli dramaturq və tənqidçi M.F.Axundovdan sonra özünəməxsus yeri olmuşdur. O, "Azərbaycan tatarlarının ədəbiyyatı", "Mirzə Fətəli

Axundov", "Balalara hədiyyə", "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitablarının və onlarla maraqlı məqalələrin müəllifi idi. Bütün bunlarla yanaşı o, bir sıra tərcümələr etmiş, dərsliklər hazırlamış və bədii əsərlər yazmışdır. F.b.Köçərlinin yaradıcılığında onun milli adət-ənənələrə xüsusi hörmətlə yanaşdığı da diqqət çəkir. Köçərli rus yazıçılarının əsərlərindən öyrəndiyi maarif, mədəniyyət və tənqidi biliklərini öz millətinin maarif və mədəniyyətinin inkişafında istifadə etməyə çalışırdı. Onun milli duyum hissi və kökümüzə olan milli marağı güclü olduğundan, milli ruhda yazan klassiklərin yazılarına daha çox maraq göstərir, düzgün və dolğun qiymət verməyi bacarırdı. Təsdüfi deyildir ki, professor H.Araslı Köçərlinin Füzuli irsinin öyrənilməsi tarixindən bəhs edərkən onun ictimai mənasını izah edib deyirdi: "Füzulinin ahu-nalələri qarelərə dəxi siyarət edib, onları da özü ilə hüznlü ələmə yandırır. Amma bu yandırmaqda bir feyz, səadət və ülviyyət vardır ki, o atəşə yanan, istər ki, bir də yansın. Bu cansuzluqdan pərvanənin şəm başına dolanıb yanmasına bənzəyir". F.Köçərli Füzuli əsərlərinin tərbiyəvi rolunun təsirini göstərmiş, onu diqqətlə oxumağı tövsiyə etmişdir. "Köçərli Füzulinin əsərlərini düzgün duyur və doğru izah edir" deyə bildirmişdir (4.№9).

Firidun bəy Köçərli ədəbiyyatı dərin məhəbbətlə sevirdi. Hələ kiçik yaşlarından mədrəsə tipli məktəblərdə təhsil alan Köçərli, keçdiyi bütün dərsləri yaxşı oxumaqla yanaşı "Gülüstan" və "Bustan"ı da öyrənir və eyni zamanda "Leyli və Məcnun" poemasını da oxuyurdu. Atası onun üçün lazımı şəraiti yaradırdı. O bütün bu zəhmətlərin müqabilində rus dilini mükəmməl öyrənməyə səy göstərirdi.

Rus ədəbiyyatının təbliğatçısı kimi tanınan Firidun bəy Köçərli Azərbaycanın parlaq gələcəyinə qəlbən inanırdı. Firidun bəy Köçərlinin ədəbi fəaliyyətinin başlanğıcında onun müəllimi olmuş A.O.Çernyayaevskinin əməyinin olduğunu qeyd edən





ədib çox böyük hörmətlə müəllimini yad edərək "Kaspi" qəzetindəki məqalələrindən birində yazırdı: "Azərbaycan bölməsində yaxşı olan hər nə varsa, hamısı A.O.Çernyayevskiyə aiddir"(10.№282).

Firidun bəy Köçərlinin publisistikasında xalqlar dostluğu öndə olan məsələlərdən idi. Azərbaycan xalqının başqa xalqlarla dostluğu tarixini vərəqləyərkən, F.Köçərlinin göstərdiyi nəcib xidmətlər bu tarixin təqdirəlayiq səhifələrindən biri kimi nəzəri cəlb edir. F.Köçərli vətənpərvərlik duyğuları ilə yaşayan, xalqını ürəkdən sevən və bütün ömrünü ona həsr edən bir tənqidçi-vətəndaş idi. O, vətən və vətənpərvərlik məfhumlarını məhdud mənada deyil, çox geniş mənada götürürdü. Köçərli üçün "vətən bir anadan olduğu ev, məhəllə, kənd və şəhər" olmayıb, elə geniş və vüsətli bir ölkədir ki, onun hər bir nöqtəsi övladı üçün əzizdir. Lakin Köçərli öz əziz vətəninin gələcəyini, xoşbəxtliyini və istiqlaliyyətini heç bir vaxt başqa xalqların səadətindən ayırmır, onların birini digərinə qarşı qoymur, əksinə digər xalqlarla mehriban və səmimi dostluq əlaqələrinin inkişaf etdirilməsi uğrunda ardıcıl mübarizə aparırdı (15.s.56).

Firidun bəy Köçərli ayrı-ayrı xalqları əsarət altına almaq, onların istiqlaliyyətini, mədəniyyətini, adət ənənələrini məhv etmək niyyətində olanların amansız düşməni idi. O, təcavüzkar imperialist dövlətlərinin öz hərbi məqsədlərinə nail olmaq üçün qızışdırdıqları müharibələri bəşəriyyət üçün böyük fəlakət adlandırırdı.

Firidun bəy Köçərli dərs dediyi tələbələrini hər tərəfli təlimatlandırmağa çalışır, onları vətənə, yurda, məhəbbət ruhunda maarifləndirir, doğma ana dilinin zənginliyini və gözəlliyini təbliğ edir, eyni zamanda onlara savad, bilik verməklə məşğul olurdu.

F.b.Köçərli seminariyada müəllimlik edərkən onun tələbələrindən biri olan Əli Səbri öz müəllimi haqqında çox yüksək

fikirdə olduğunu gizlətməyirdi. O, müəlliminin onun yaradıcılığında nə qədər müsbət rol oynadığını qiymətləndirərək yazırdı: "Köçərlinin bilavasitə təhriki ilə başqaları kimi mən də rus dilindən əsərlər tərcümə edib, özümdən bəzi şeylər yazmağa başladım. İlk əsərim olan"Şəbi-hicranın" iki nüsxəsi Orucovlar mətbəsindən Qoriyə göndərilmişdir. Həmin gün F.Köçərli mənim alnımdan öpüb, -Sağ ol oğlum! -dedi". Sonralar da Əli Səbri məqalələrində müəllimi Firidun bəy haqqında yazırdı: "Nəhayət ki, bizim çox illər gözlədiyimiz və arzu etdiyimiz gün gəldi. F.Köçərli Zaqafqaziya Müəllimlər Seminariyasının tatar şöbəsinə müfəttiş təyin olundu. Biz tatar şöbəsini Firidun bəysiz təsəvvür edə bilmirdik. Heç kəs inkar edə bilməz ki, əgər F.Köçərli öz enerjisini fasiləsiz olaraq ora sərf etməsəydi, Zaqafqaziya Müəllimlər Seminariyasının tatar şöbəsi indiki kimi olmazdı. Başqa cür müzakirə etmək olmaz, çünki Firidun bəy nəyi bacarırdısa onu da etdi. Firidun bəy xasiyyətinə görə nə qədər qüvvəsi olub, həmişə mübarizə aparıb. Biz Firidun bəyin şöbəyə müfəttiş olunmasını ona görə alqışladıq ki, bu təkcə həqiqətin müdafiəsi deyildi, həm də bizim cəmiyyətin arzularının bir hissəsinin yerinə yetirilməsi idi (11.№221).

Azərbaycanda XIX əsrin ortalarından kapitalist münasibətləri yaranmağa başladığı bir vaxtda, çarizmin siyasəti son həddə gələrək şiddətlənmişdi. Rusiyada baş verən iqtisadi böhrandan yaxa qurtarmaq istəyən rus məmurları Qafqazda qulluq etmək üçün bu bölgəyə axışırdılar. İqtisadi cəhətdən Azərbaycan xalqının da vəziyyəti dözülməz idi. Bir tətəfdən ölkədə gedən siyasi proseslər, bir tərəfdən dolanışığın son dərəcə ağır olması, bir tərəfdən də mövhumatın güclü təsiri aşağı təbəqənin adamlarına daha çox zərər vururdu. Yoxsul təbəqənin əzildiyini görən ziyalılar bununla barışa bilmirdilər.

Tarixən dövrün qabaqcıl ziyalıları millətin gələcəyi üçün çalışaraq onların düşdüyü çətin vəziyyətdən çıxmaqları üçün





yollar axtarıblar. Bu ziyalılardan A.A.Bakıxanov, M.F.Axundov, N.Vəzirov, M.Ş.Vazeh, H.Zərdabi, S.Ə.Şirvani və başqaları xalqı belə ağır vəziyyətdən qurtarmaq, rahat və firavan yaşamaları üçün həmişə səy göstərirdilər. Bu yolda onların davamçıları olan maarifpərvər demokratlar Ü.Hacıbəyov, R.Əfəndiyev, S.M.Qənizadə, S.Vəlibəyov, H.Mahmudbəyov, M.Sidqi, M.Sahtaxtlı və başqaları yeni məktəblər açmaqla, Azərbaycan dilində qəzet və kitabların nəşr edilməsi kimi işlərlə millətə, xalqa köməklik göstərməyə çalışırdılar. Bu maarifpərvər ziyalılarımızın sırasında Firidun bəy Köçərlinin də özünəməxsus yeri var idi. F.b.Köçərli yazılarında həmişə yoxsul təbəqənin adamlarını müdafiə edir, "rəiyyət tayfasına yazmaq, oxumaq nə lazımdır?" kimi sözlərini qəbul etməyirdi. Firidun bəy rəiyyət uşaqlarının xoş gələcəyinə ümid bəsləyirdi. Ziyalılarla birlikdə maarifləndirmə işi aparan Köçərli bu işdə bir qədər laqeyd münasibət göstərənlərə tənqidi fikirlərini söyləməkdən çəkinmirdi.

Firidun bəy Köçərli millətin inkişafının sürətlənməsində ədəbiyyatda yaxşı əsərlərin təsiri olduğunu qeyd edirdi. Bu baxımdan sanballı əsərlərin yaranmasının vaxtı çatdığını və bunun millət, cəmiyyət üçün əvəzsiz rolunun olduğunu söyləyirdi. Köçərli ədəbiyyatla bərabər mətbuatın da inkişafının vacibliyini vurğulayırdı. O mətbuatın qarşısında yüksək vəzifələr qoyur, onlardan cəmiyyətin inkişafı, adamların cəhalətdən qurtarması, azadlığa çıxması, təhsilə cəlb olunması, sağlamlıqlarına diqqət ayırması kimi məsələləri tələb edirdi (14.№95).

Firidun bəy Köçərlinin dövrü təhsil, maarif, ədəbiyyat, dil və s. uğrunda aparılan mübarizələr dövrü idi. Tərəqqipərvər müəlliflər təkcə bu sadaladıqlarımız uğrunda deyil, onlar eyni zamanda kitab nəşrlərinin çətinliyinə qarşı da mübarizə aparırdılar. Şəxsi nəşriyyatları bazara, gəlir mənbəyinə çevirən bir neçə burjua naşirlərini onların əsərlərinin nəinki nəşr edilmədiyinə, hətta onların nəşriyyat sahəsindəki zərərli siyasətini də ifşa et-

məyə çalışırdılar. Bu tərəqqipərvər insanlar nəşr olunmuş kitablarını, xüsusilə də dərs kitablarını mürtəce ideoloqlardan qorumağa çalışırdılar.

90-cı illərdə və birinci rus inqilabı ərəfəsində böyük əksəriyyəti Bakıda toplaşan yaradıcı ziyalılar ayrı-ayrı qəza şəhərlərində fəaliyyət göstərən yazıçılarla yaradıcılıq əlaqələrini genişləndirirlər. Onlar dövrü mətbuatın olmadığı bir şəraitdə məktub vasitəsi ilə əlaqə saxlayır, ədəbi prosesin zəruri və aktual məsələləri haqqında rəy mübadiləsi edir,yeni əsərlərə münasibət bildirirdilər. N.Nərimanov, S.M.Qənizadə və Ə.Cəfərzadənin M.Sidqi, Ə.Haqverdiyevin Q.Şərifzadə vasitəsilə Naxçıvan ədəbi mühiti ilə əlaqəsi, F.Köçərlinin S.M.Qənizadə ilə məktublaşmaları və s. parlaq misaldır (19.s.82).

Azərbaycan dilinə, ədəbiyyatına, mədəniyyətinə xüsusilə gözəl münasibət bəsləyən Firidun bəy hər zaman dilimizi, mədəniyyətimizi müdafiə etməyi düşünürdü. Onun başlıca amalı hər kəsdə dilimizə qarşı məhəbbətin oyanması idi və onu qorumağı xahiş edirdi. Millətin dili və mədəniyyəti uğrunda yorulmadan mübarizə aparan Firidun bəy Köçərlinin əsərlərində onun can yanğısını görmək olur. Tənqidçinin ədəbiyyat tarixinə münasibətini, klassik irsi toplayıb nəşr etdirmək sahəsindəki fəaliyyətini, bu irsdən öz müasirlərinin ehtiyacları üçün istifadə etmək manerasını daha geniş öyrənmək işində onun indiyədək tanış olduğumuz məqalələri ilə birlikdə Köçərlini sonralar bütün elm aləmində məşhur edən böyük əsəri-"Azərbaycan ədəbiyyatı tarixi materialları"nın ciddi rolu vardır (15.s.99).

Firidun bəy Köçərli ictimai xadim olduğu üçün görkəmli şəxslərin, ictimaiyyətlə ünsiyyətdə olan ziyalı xadimlərin, xeyirxah insanların iztirablarını dərindən duyan, insanların bitib-tükənməyən arzularını qiymətləndirməyi bacaran dəyərli bir şəxsiyyət idi. O, vətənpərvərlik duyğusu ilə yaşayan, xalqının, millətinin qədrini bilən və onu dərin məhəbbətlə sevən, bütün





həyatını və yaradıcılığını ancaq vətən, millət yolunda sərf edən ziyalı olmuşdur. O, bütün millətləri azad və bərabər hüquqda görmək istəyirdi. Millətlər arasında olan yersiz ədavəti nifrətlə qarşılayır, millətlər arasında baş verən ayrı-seçkiliyin, davadalaşın sakit yolla həll edilməsinə çalışırdı. Bunun üçün insanların şüurunun inkişaf etdirilməsini, bu yolda da maariflənməni əsas sayırdı.

Firidun bəy Köçərli Azərbaycanın həm iqtisadi inkişafının yüksəlməsini, həm siyasi savadının artmasını, həm mədəniyyət və incəsənətinin sürətlənməsini, maarif, səhiyyə sahəsində ola biləcək tərəqqinin yalnız mədəni inqilabı mübarizədə görürdü. O, bunu yeganə nicat yolu hesab edirdi. Köçərli öz iradəsinin gücü ilə hər cür çətinliklərin öhdəsindən gəlməyə çalışırdı. Çətinliklərlə üzləşən ədib bir neçə il üzərində işlədiyi və toplamış olduğu maraqlı folkor nümunəsi olan "Balalara hədiyyə" adlı kitabını beş il maddi ehtiyac üzündən çap etdirə bilmədiyini qeyd etmişdik. Ümumiyyətlə o dövrdə əsəri yazmaqdan çox onu çap etdirmək, nəşrə vermək çox çətin idi. Qələm sahibləri əksər hallarda ətraf mühitin təzyiqlərindən, maddi vəsaitin olmadığından belə çətinliklərlə üzləşirdilər. Lakin, bütün bunlara baxmayaraq kitabların nəşr edilməsinə nail ola bilirdilər.

F.Köçərli ətrafında cərəyan edən hadisələrə həssas münasibət bəsləməyi yazıçının ümdə keyfiyyəti sayırdı. Sənətkardan "müsəvvir və nəqqaş", "öz zəmanəsinin aynası", əsrin "əks-sədası" olmağı tələb edən tənqidçi haqlı olaraq belə bir qənaətdə idi ki, yazıçı xalq həyatında baş verən hadisələrə vaxtında, ayıq və fəal münasibət bəsləmədikcə öz vətəndaşlıq borcunu yerinə yetirə bilməz. Mənsub olduğu xalqın kədər və sevinci, şad və qəmli günləri həqiqi sənətkarın yaradıcılığında canlı əksini tapmalıdır (19.s.132).

Firidun bəy Köçərli publisitikasında ədəbi həyata münasibətini və millilik hissini əks etdirirdi. O, bir sıra əsərlərin-

də xalqın ağır güzəranından, gündəlik həyatında baş verən hadisələri işıqlandırmağa, bununla da millətin qəflət yuxusundan ayılmasından, cəhalət və nadanlığından bəhs edirdi.

O, İrəvanda işlərkən Məşədi İsmayıl Bəzmi, Mirzə Kazım Mətlə ilə çox faydalı ədəbi söhbətlər etmişdi. Tənqidçinin XX əsrin ilk illərində Şamaxıda "rindanə" həyat sürən M.Ə.Sabir və A.Səhhətə təsir göstərib yeni səpgidə yazmağa həvəsləndirməsinin fərəhli nəticələri daha artıq olmuşdur. Ağalıbəy Naseh vasitəsilə Sabir və Səhhətlə tanış olan Köçərli, onları "pərişan yuxudan bidar" etmiş, yaradıcılıqlarını müasir dövrün tələblərinə doğru istiqamətləndirməyə nail olmuşdu. Eləcə də F.Köçərlinin şair və tərcüməci H.Xan Qaradağiyə məktub göndərib ona roman yazmağı məsləhət görməsi, onun yaradıcılığının yeni keyfiyyət kəsb etməsinə xeyirxah təsir göstərmişdi. Bundan sonra Qaradaği "rus dilindən bir roman... elmi-kütləvi əsərlər tərcümə etmişdir"(19.s.143).

Azərbaycan publisistikası yaranandan bu günə qədər onu inkişaf etdirmək, günün tələblərinə cavab verən mövzularla zənginləşdirmək hər zaman ziyalı, maarifpərvər təbəqənin əsas vəzifəsi olub. Publisistikada qaldırılan məsələlər xüsusilə tənqidi xarakter daşıdıqda daha aktual, maraqlı olur. Beləki, hər bir işdə olan nöqsanların göstərilməsi heç də şəxsi münasibətdən yararlanmamalıdır. Necə ki, Firidun bəy Köçərlinin fəaliyyəti dövründə qeyd olunduğu kimi "tənqid qərəzli olmamamlıdır" sözləri bu günümüzlə də səslənməkdədir.

Azərbaycan ədəbiyyatı öz milli adətlərinə söykənərək, milli ideyaları yaymaqdadır. Xüsusilə də XX əsr Azərbaycan ədəbiyyatı milli bədii janrlarla zəngindir. Publisistika bu janrlardan biri kimi mətbuatın əsas qolu hesab edilir. Firidun bəy Köçərli dövrünün ziyalı publisisti olaraq mətbuatın vəzifələrinin gözəl anlayırdı və ictimai həyatın eybəcərliklərini qələmə alaraq əks etdirməyə çalışırdı. O, ümumi sözlərlə deyil, faktları göstər-





məklə məqalələr dərc etdirirdi. "Müsəlman müəllimlərinin hümməti", "Müəllimlərimiz və onların halı", "Qaranlıqda qalanlarımız", "Məişətimizə dair", "İranın oyanması" və s. bu kimi məqalələrində onun nə demək istədiyi aydındır. Çar çinovniklərinin narazılığına səbəb olan belə yazılarının üzündən Firidun bəyin əsərlərinin nəşri çox zaman ya gecikdirilirdi, ya da nəşrinə icazə verilmirdi.

Firidun bəy Köçərli milli ədavətin gərginləşdiyi bir dövrdə yaradıcılıq fəaliyyəti ilə məşğul olubdur. Baş verən hadisələr birbaşa onun yaradıcılığına təsirsiz ötüşməyirdi. Firidun bəy Köçərli "hürriyyət və ədalət bayrağı altında çalışan", "azadlıq yolunda haqq sözü müzayiqə etməyən" ictimai məzmunlu, xalqın tərəqqisinə, mübarizəsinə, mənəvi zənginləşməsinə xidmət edən milli ədəbiyyat yolunda çalışdığından, "mollanəsrəddinçilər"i dəstəkləyir və bu jurnalın fəaliyyətini dayandırmamasını istəyirdi. Hər zaman çalışmağın həyat üçün vacib olduğunu qeyd edən Köçərli həmçinin bilirdi ki, bu jurnalın qayəsi "çalışmaq, çalışmaq, çalışmaq" idi. Böyük mütəfəkkir olan C.Məmmədquluzadənin qətiyyətli yazılarını zamanın tələbi hesab edən ziyalılar sırasında Köçərli də var idi. Firidun bəy çox yaxşı başa düşürdü ki, "Molla Nəsrəddin" jurnalı ağı qaradan seçməyi bacarır, eyni zamanda müstəsna bir ardıcıllıq və mübarizlik göstərə bilirdi. "Molla Nəsrəddin" sözün əsl mənasında geniş zəhmətkeş kütlələrin mənafeyini müdafiə etdiyi üçün onu "xalq jurnalı" adlandırırdılar. F.b.Köçərli üçün bu jurnal milli jurnal idi. Çünki Azərbaycan xalqının acınacaqlı həyatının, məişətinin, güzəranının, hüquqsuzluğunun və nadanlığının bütün incəliklərini özündə əks etdirən bu jurnal, o dövr üçün həddən ziyadə dəyərli idi.

Firidun bəy Köçərlinin publisistikasında olan millilik dəyərləri daha çox yaradıcılığında müxtəlif movzulara toxunması ilə əlaqədar idi. Ailə-məişət, sosial vəziyyət, təlim-tərbiyə,

uşqların təhsilə cəlb edilməsi, qadın savadsızlığının və azadlığının gündəmə gətirilməsi və s. mövzular onun xalq, millət yolunda atdığı addımların ən vacibi, ən mübarizi hesab edilir.

Firidun bəy Köçərli şair və yazıçılara dövrün irəli sürdüyü yeni məsələlərlə əlaqədar mövzulara müraciət etməyi, habelə belə mövzulara diqqətlə yanaşmağı məsləhət görürdü. Köçərli belə bir qənaətdə idi ki, "ağıl və zor ilə yazılmış kəlam" lar nə qədər mövzu etibari ilə əhəmiyyət kəsb etsə də oxucuya zorla sevdirilə bilməz. Qələm sahibləri olan şairlər yalnız təbii duyğuları tərənnüm edərlərsə, o zaman müvəffəqiyyətli əsərlər yaza bilərlər.

Köçərli Vaqif, Vidadi, Zakir, Seyid Əzim kimi şairlərin yaradıcılıq müvəffəqiyyətlərini təbii hissləri qələmə alıb, onlara "həyat və surət" verə bilmələrində görürdü (19.s.147).

Dövrun ziyalılarının əksəriyyəti ədəbiyyat tarixi, onun nəzəriyyəsi və eyni zamanda publisistika ilə məşğul olurdular. Onlar özlərinin publisistik məqalələrində və bədii əsərlərində ədəbiyyatda bədii yaradıcılıq haqqında da çoxlu fikirlər söyləyir və mülahizələr irəli sürürdülər. Firidun bəy Köçərli mütəfəkkir fikirli ziyalı olduğu üçün özünün ədəbi-tənqidi məqalələrində ədəbiyyat və incəsənətin vəzifələrini şərh edir, onların təlim və tərbiyəvi əhəmiyyətini qeyd edirdi. Azərbaycanda ictimai ideyaların inkişaf etdirilməsi yolunda çalışan Firidun bəyin ən ümdə arzusu xalq demokratik azadlıqların verilməsi idi.

Iyirminci əsrin əvvəlləri Rusiyada xalq azadlıq hərəkatının proletar dövrü "Rədd olsun mütləqiyyət!", "yaşasın azadlıq!" sədaları milyonlarla zəhmətkeşi ayağa qaldırmışdır. Çarizmə, burjaziyaya, mülkədarlara qarşı gedən mübarizəyə fəhlə sinfinin partiyası adlanan bolşeviklər başçılıq edirdilər. Bu mübarizə həm siyasi-ictimai, həm də hərbi və ideoloji xarakter daşıyırdı. Azərbaycan ziyalıları xalq yolunda fəaliyyəti gücləndirmək məqsədi ilə yaradıcılığa üstünlük verirdi. Onlar üçün bu mü-





barizə mütərəqqi sosial-mədəni hərəkat idi. 90-cı illərdə çarizmin müstəmləkə siyasəti və ölkədəki feodal geriliyi nəticəsində Azərbaycanda milli mətbuat orqanı olmasa da, o vaxtın "Kaspi", "Kavkaz", "Novoye obozreniye" kimi qəzetlərində H.Zərdabi, F.Köçərli, M.Şahtaxtinski və başqa müəlliflərin inkişaf etdirdikləri qabaqcıl publisistika bütün tərəqqipərvər gənclik üçün faydalı idi. Firidun bəy Köçərli var qüvvəsi ilə maarifçilik işi aparır, gəncləri vətənpərvərlik ruhunda hazırlayırdı. Bu onun ən mühüm xidmətlərindən biri idi. F.b.Köçərli Qori seminariyasında Şərq mədəniyyəti ilə yanaşı, rus və Qərb mədəniyyətini də öyrənmiş, müəllimlik fəaliyyəti dövründə öyrənib əldə etdiklərini millətin balalarına öyrətməyə çalışmışdı.

Ruhən vətənə bağlı olan Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatı klassiklərinin əksəriyyəti haqqında bir cümlə belə olsa xoş sözlər söyləmişdir. Köçərli çox gözəl anlayırdı ki, zaman gələcək nəsillər bu şəxsiyyətlərin yaradıcılığına müraciət edəcəkdir. Bütün bunları nəzərə alan ədib çox böyük həvəslə Azərbaycanın ədəbiyyatını yaratmaq təşəbbüsündə olur. Ağır təzyiqlərlə üzləşməsinə baxmayaraq, üzərinə götürdüyü məsulliyyəti dərk edən Firidun bəy çətinliklə də olsa Azərbaycanın ədəbiyyat tarixini yarada bilmişdir.

Zəngin və rəngarəng yaradıcılıq irsin malik olan Firidun bəy Köçərli xalq yolunda daim mübarizə əzmi ilə çalışırdı. O, inanırdı ki, gün gələcək Azərbaycan öz müstəqilliyini elan edəcək, Vətən övladları təhsil alacaq və onun arzuladığı həyat Azərbaycan balalarına nəcib olacaq. Bu gün Firidun bəy Köçərlinin arzuları həyata keçmiş və onun Azərbaycan övladları üçün arzuladığı həyat arzulardan doğan günəş kimi işıqlarını ətrafa saçır. Azərbaycanın oğul və qızları da arzu olunan bu firavan günlərini yaşayırlar. Hələ bizdən sonra gələn nəsillər Firidun bəy Köçərli irsinin araşdırmalarının tədqiqatını aparacaq və bəlkə də görkəmli şəxsiyyətin həyat və yaradıcılığının bizə məlum olmayan məlum olmayan səhifələrini açacaqlar.

## ƏDƏBİYYAT


1. ASE-V cild.1979.
2. "Azərbaycan ədəbiyyatı tarixi", I cild.Bakı.1960. 590 s.
3. "Azərbaycan müəllimi" qəzeti. 1958. №22.
4. "Ədəbiyyat və incəsənət" qəzeti, 1958.№9
5. "Ədəbiyyat və incəsənət" qəzeti, 1958. №10.
6. Xəlilov Q: "Tənqidçilik çətin peşədir",Bakı. 1986. 390 s.
7. İsmayılov M: "Azərbaycan tarixi", Bakı. 1992. 261 s.
8. Köçərli F: "Nəriman Nərimanov", Bakı.1965. 340 s.
9. Кочарли Ф: "Литература Азербайджанских татары", Тифлис.1903. стр.54.
10. "Kaspi" qəzeti, 1914. №282.
11. "Kaspi" qəzeti, 1917. №221.
12. "Kaspi" qəzeti, 1903. №234.
13. Məmmədli Q: "N.Nərimanov 1870-1925 həyat və yaradıcılığının salnaməsi, Bakı.1987. 359 s.
14. N.Nərimanov: "Tənqidi-hifz səhhət"("Yeni iqbal" qəz.1916).
15. Nəbiyev B: "Firidun bəy Köçərli", Bakı. 1963. 164 s.
16. Seyidov Y: "Yazıçı və dil", Bakı. 1979. 288 s.
17. Talıbzadə K: "Tənqid və tənqidçilər", Bakı.1989. 490 s.
18. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, II cild,Bakı.2005. 469 s.
19. Məmmədov X: "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər, Bakı 1987. 269 s.
20. F.Vahidov: " Ö.F.Nemanzadə və onun dünyagörüşünün ideya mənbələrinə", Bakı. 1969. "Tarix və fəlsəfə" seriyasından. 99 s.






## FİRİDUN BƏY KÖÇƏRLİ YARADICILIĞINDA UŞAQ ƏDƏBİYYATININ ROLU

Həyatını və yaradıcılığını canı qədər sevdiyi millətinin maariflənməsinə həsr edən F.b.Köçərli, gələcəyimiz olan körpələri səmimi bir məhəbbətlə sevmiş və onlara xüsusi diqqət göstərmişdir. F.b.Köçərlinin ədəbiyyat sahəsində əldə etdiyi ən böyük nailiyyətlərindən biri uşaqlara həsr etdiyi əsərləri olubdur. Onun "Balalara hədiyyə" kitabı və digər əsərləri bunun bariz nümunəsi olaraq ədəbiyyat tariximizə yazılmışdır.

Mənbələrdə qeyd edildiyi kimi Azərbaycanın təhsil, mədəni-maarif və digər sahələrində başlanan canlanma XIX əsrin ortalarından başlayaraq, Azərbaycanın və Zaqafqaziyanın ayrı-ayrı bölgələrinə yayılmışdır.

Bakıda və digər böyük şəhərlərimizdə ibtidai məktəblər açılır və getdikcə bu təhsil ocaqlarının sayı artmaqda davam edirdi. Yeni-yeni məktəblərin açılması, dərsliklərin nəşr edilməsi, kitab, qəzet, jurnalların işıq üzü görməsində F.b.Köçərli də dövrünün müasirləri kimi əlindən gələn köməyi göstərirdi. Köçərli uşaqlar üçün əsərlərin hazırlanması məsələsini gündəmə gətirərək, bu sahənin inkişaf etdirilməsinə müsbət münasibətini bildirirdi. Artıq bu inkişafı tədricən gerçəkləşdirməyə çalışan maarifpərvərlərimiz, kiçik yaşlı uşaqların diqqətdən kənarda qalmaması üçün müəyyən uşaq ədəbiyyatlarının nəşri ilə məşğul olmağa başladılar. Əsərlərdə yer alan nağıl, hekayə, tapmaca, təmsil, şeir və s. nümunələr uşaqlar tərəfindən sevilərək, mənimsənilirdi. Lakin müəyyən səbəblər üzündən, xüsusilə də maliyyə çətinliyindən kitabların nəşrinə bir çox hallarda davam etmək mümkün olmurdu.

Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan dəyərli qələm sahibi Firidun bəy Köçərli, təkcə Azərbaycan oxucuları arasında deyil, eyni zamanda türklər, ruslar və gürcülər arasında da böyük hörmət qazanmışdır.

F.b.Köçərlini "Azərbaycan tənqid və ədəbiyyatşünaslıq elminin ilk peşəkar və görkəmli nümayəndəsi" adlanırırdılar. F.b.Köçərli ictimai fəaliyyətə başladığı ilk gündən şöhrət arxasınca qaçmadan ömrünü millətinin, xalqının maariflənməsinə həsr edərək, dilimizin saflığı uğrunda mübarizəyə qalxmışdı. Vətən və millət üçün yaşamağı hər şeydən üstün tutan ədib bu şüar ilə qələmini gələcək nəsillərin maariflənməsi yolunda çalışdırırdı. O, yalnız Azərbaycanın işıqlı gələcəyi haqqında düşünürdü.

F.Köçərli Qori seminariyasına müəllim təyin olunan gündən bütün imkanlardan istifadə edir. Elm, maarif, mədəniyyət və tərəqqi baxımından geri qalmış Azərbaycan balalarının təlim-tərbiyəsi ilə məşğul olur (2.s.21).

Onun "Azərbaycan ədəbiyyatı" kitabında topladığı materiallar bunun bariz sübutudur. F.b.Köçərlinin əmək fəaliyyətinin əsasında gənclərin təlim-tərbiyəsi, təhsili dayanırdı. O, gələcək nəsil üçün sağlam gənclərin yetişməyini və onların vətənə layiqli övlad olmalarında isə təlimin, təhsilin, eyni zamanda da ədəbiyyatın vacibliyini vurğulayırdı. Yaradıcılığında da uşaq əsərlərinin yazılmasına və dünya ədəbiyyatı nümunələrindən tərcümə edilmiş əsərlərə diqqətlə yanaşan F.b.Köçərlinin özünün ilk tərcümə əsəri A.S.Puşkinin "Balıqçı və balıq nağılı" olub. Ədib bu əsəri 1890-cı ildə tərcümə edərək uşaqların ixtiyarına verdikdən sonra, bir neçə tərcümə əsərlərini Şuşada erməni mətbəsində kitabça halında çap etdirmişdir.

F.b.Köçərli ədəbi irsində uşaq ədəbiyyatı məsələləri xüsusi yer tutur. Uşaq ədəbiyyatına daha çox diqqət ayıran Firidun bəy Köçərli bunun uşaqların tərbiyəsində daha mühüm olduğu-





nu qeyd edirdi. Uşaqlar üçün yazılmış qəhrəmanlıq mövzuları, cəsarətli və qorxmazlıq hekayələrinin çox olması, uşaqların həyatına müsbət təsir göstərən vasitələrdəndir. Hər bir uşaq gələcəkdə özünü qəhrəman görmək arzusunda olur. Belə əsərlərin olması uşaqların düzgün tərbiyə olunmasına birbaşa təsir göstərir. Uşaqlara aid əsərlərin tərbiyədə böyük rolunu qeyd edən Köçərli, əsərlərin sadə, qısa, aydın şəkildə yazılmasına üstünlük verirdi.

F.Köçərli folklorda olduğu kimi uşaq ədəbiyyatını ümumi-bədii ədəbiyyatın tərkib hissəsi hesab edirdi. Mövzu cəhətdən müxtəlif və rəngarəng əsərlər Firidun bəyin diqqətini özünə daha çox çəkirdi. Mütəfəkkir ədibin fikrincə pedaqoji tələblər nöqteyi-nəzərindən uşaq əsərlərində təlim-tərbiyəvi cəhətlər mühüm yer tuturdu. Burada uşaqlar üçün yazılmış şeirlər daha səciyyəvi xarakter daşıyırdı. F.b.Köçərlinin xalqına göstərdiyi xidməti və əmək fəaliyyəti heç də diqqətdən kənarda qalmayıbdır.

Azərbaycan ədəbiyyatı sahəsində müasir dövrümüzün alimlərinin əksəriyyəti F.b.Köçərlinin həyat və yaradıcılığından geniş söhbət açmış və onun Azərbaycan mədəniyyəti qarşısında etdiyi xidmətlərini göstərmişlər. Akademiklədən: Kamal Talıbzadə, Bəkir Nəbiyev, Mir Cəlal Paşayev, Mirzə İbrahimov, Həmid Araslı, M.Arif və başqaları F.b.Köçərlinin yaradıcılığı haqda dəyərli sözlər söyləmişlər. Bu cəhətdən prof. Ə.Ağayevin "Firidunbəy Köçərli və Azərbaycan poeziyası" məqaləsi daha maraqlıdır (2.s.25).

F.b.Köçərli Azərbaycan xalqını keçmiş klassiklərin həyat və yaradıcılığı ilə tanış etməyi gələcək nəsillərin həyatında əhəmiyyət daşıdığını qeyd edirdi. Şərqin dahiləri içərisində Azərbaycanın da güclü, dahi şəxsiyyətlərinin adlarını xalqa çatdırmaqla, onların tanınmasına çalışırdı. O, Azərbaycanın Nizami, Füzulu, Xəqani, Məhsəti, Nəbati, Fələki, Asi, Aşıq Pəri,

Natəvan, Kəminə və başqaları haqqında "Azərbaycan ədəbiyyatı" kitabında məlumat verməklə bərabər, eyni zamanda bu sənətkarların yaradıcılığını işıqlandırmışdı. Nizaminin fars dilində yazmasına baxmayaraq, F.b.Köçərli onu türk şairi hesab edirdi. Lakin dünya miqyasında Nizamiyə ikili münasibət bəslənildiyi üçün Firidun bəy ədəbiyyat tarixini Nizami ilə başalmağı o qədər də münasib hesab etməmişdir (2.s.43).

Firidun bəy Köçərli klassiklərin yaradıcılığının uşaq ədəbiyyatına təsirindən söhbət açır, onların əsərlərinin uşaqların təlim-tərbiyəsində və maraq dünyasında mühüm rol oynadığını qeyd edirdi.

Firidun bəy Köçərliyə görə uşaqlar üçün yazılmış əsərlərin əksəriyyəti nəsihət xarakteri daşımalıdır. Bu səpgidə yazılmış əsərlər dil, stil, həcv, forma cəhətdən ən yaxşı yazılan uşaq əsərləri kimi qiymətləndirilirdi.

Firidun bəy Köçərli dövrünün mütəfəkkir ziyalılarının yaradıcılıqlarına nəzər saldıqda, hər bir qələm sahibinin uşaqlar üçün yazılmış əsərlərində tərbiyə məsələsinin nəzərdə tutulduğunu görmək olur. Mübariz olmaq, elm vasitəsi ilə təbiət sirlərindən xəbərdar olmaq, cəmiyyəti, yoldaşları, kollektivi, xalqı, vətəni sevmək bu əsərlərin əsas mövzularındandır.

Uşaq ədəbiyyatının yaradılması ideyası həmişə maarifpərvərləri narahat etmişdir. Uzun illər bu mövzu ətrafında müzakirə və mübahisələr yaranmışdı. Hörmətli alimimiz Xeyrulla Məmmədovun "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər adlı kitabında oxuyuruq: "80-ci illərdə (1880-ci il nəzərdə tutulur – P.M) ədəbiyyatın inkişafı üsuli-cədid hərəkatı ilə daha artıq bağlı idi. Bu, ədəbi prosesin xarakteri istiqamətinin müəyyənləşməsində əhəmiyyətli rol oynadı. Daha doğrusu, bədii ədəbiyyat xalq maarifi ilə bir məcrada irəliləməyə, özünün başqa vəzifələrini yerinə yetirməklə bərabər, onun tələb və ehtiyaclarını da təmin etməyə başladı. Bununla əlaqədar ilk dəfə uşaq





mütaliəsi məsələləri ədəbi prosesdə ön plana keçdi. Uzun zaman Azərbaycanda təlim-tərbiyə işlərinin fars dilində aparılması, mütaliənin orta əsrlərdən qalma ərəb-fars kitabları ilə məhdudlaşması ana dilində uşaq ədəbiyyatının inkişafına mənfi təsir göstərmişdi".

1905-ci ilə qədər Azərbaycanda əsl uşaq əsərləri demək olar ki, yox dərəcəsində idi. Həm uşaq ədəbiyyatı, həm də mətbuat azadlığı olmadığından ziyalılarımız bu yolda mübarizəyə qalxaraq, məqsədlərinə doğru hərəkətə keçdilər və mətbuat azadlığını qismən də olsa əldə edə bildilər. Bu iş ləng getsə də hər halda başlanğıc görünməkdə idi.

Azərbaycanda maarifçilik ideyalarının artmasına baxmayaraq, gerilik hələ də qalmaqda idi. Özü də bu gerilik təkcə uşaq mətbuatında deyil, eyni zamanda uşaq əsərlərində də özünü göstərir, maarif və məktəb işində isə daha çox hiss edilirdi.

F.b.Köçərli və digər maarif xadimləri, xüsusilə də müəllimlər dərslik və dərs vəsaitləri hazırlayır, təlim-tərbiyə işlərinə qayğı ilə yanaşır, bu sahədə əməli fəaliyyətlərini genişləndirirdilər. Onların müstəsna xidmətlərini yeni üsullu məktəblərin yaradılması uğrunda apardıqları mübarizədə göstərdikləri fəallığa görə qiymətləndirmək olar.

1906-cı ildə görkəmli maarif xadimi Əliskəndər Cəfərzadə "Dəbistan" adlı uşaq jurnalı nəşr etdirməyə müvəffəq olmuşdur. "Dəbistan"nın birinci nömrəsi Bakıda aprel ayında nəşr edildi. 1906-cı ilin aprelindən dekabrınadək "Dəbistan"ın ardıcıl olaraq 17 nömrəsi çapdan çıxır. İctimai təzyiq, mətbəə işçilərinin çatışmaması, maddi böhranlar, abunəçilərin azlığı və digər səbəblər məcmuənin nəşrini çətinləşdirirdi. "Dəbistan"nın məqsədi əsasən gənc nəsli maarifləndirmək, yeni üsullu məktəblərin açılmasına dair məsələləri nəzərə çatdırmaq, Azərbaycan ədəbiyyatı və tarixi ilə uşaqları yaxından tanış etmək və bu ədəbiyyatları yaymaq kimi məsələləri işıqlandırıdı.

Görkəmli ictimai xadim və ədib N.Nərimanov jurnalın çıxması münasibətilə "İrşad" qəzetinin 1906-cı il 9 mart tarixli nömrəsində yazırdı: "Bu vaxtadək kitabsızlıqdan uşaqlarımız zərərli, əqidəni pozan kitablar oxuyub naəlac qalmışlar. "Dəbistan" isə bu tövr kitabların aradan götürülməyinə səbəb olub, zəmanəmizə lazım olan məlumatlar verməyini gözləyirik".

F.b.Köçərlinin əmək fəaliyyəti və ədəbi yaradıcılığı dövrü inqilabi hərəkatın başlandığı, şüurların oyandığı, ümumiyyətlə Şərq xalqlarının qəflət yuxusundan ayıldığı dövrləri əhatə edir. Çünki insanların yeniliyə doğru can atması hər gün, hər saat hiss edilirdi. 1905-ci il nqilabının təsiri ilə artıq Zaqafqaziyada bir çox qəzet və jurnallar nəşr olunurdu. "Şərqi-Rus", "Molla Nəsrəddin" başda olmaqla "Dəbistan", "Rəhbər" kimi uşaq jurnallarının da nəşri başlanmışdı.

Nəşri cəmi iki il davam edən "Dəbistan" jurnalı abunəçilərin azlığı və maliyyə xərclərinin çatışmazlığı üzündən 1908-ci ildə bağlanmaq məcburiyyətində qalır. Bu münasibətlə M.Ə.Sabir "Dəbistan da qapandı" şeirini yazıb jurnala kömək göstərməyən nadanları tənqid edir, öz təəssüfünü bildirirdi. Yeddi beytlik şeirində M.Ə.Sabir "Dəbistan"ın qapanmasını təəssüf hissi ilə belə tərənnüm edir:

*"Meydani-rəqabətdə bizim hümmətimizdən,*
*Dava qapanıb Rüstəmi- dastan da qapandı!*
*"Rəhbər yorulub, yuxuladı"İrşadü-ü-Təkamül"*
*Aslanlara ox dəydi, neystan da qapandı!*
*Ətfali-vətən qoy bağırıb ölsün acından,*
*Yandı analar sinəsi, püstanda qapandı!..*
*Qoy köhnələrin ürəyi gül təki açılsın,*
*Darüzzəfəri-tazəpərəstan da qapandı!*

Jurnalda bir çox müəllim və ziyalılarımızın arzusunu nəzərə alaraq müxtəlif sahələr üzrə bölmələr yaratmışdılar.





Həmin bölmələr bədii ədəbiyyat, tərcümə ədəbiyyatı, təlim-tərbiyə və tərbiyə tarixi, coğrafiya və səyahət, Azərbaycan, fars və rus ədəbiyyatı, şifahi xalq ədəbiyyatı, tarixi hadisələr və digər sahələri əhatə edir, öz səhifələrində bu mövzularda maraqlı yazılar buraxırdı. Şübhəsiz, bu sahələr içərisində uşaqlar üçün yazılmış bədii ədəbiyyat daha geniş yer tuturdu (7.s.91).

Firidun bəy Köçərli uşaq əsərlərinin yaradıcılarına uşaq ədəbiyyatını hazırlayarkən onu öz zövqlərinə görə deyil, uşaqların zövqü, tərbiyəsi xatirinə yazılmasını məsləhət görürdü.

Sözsüz ki, bu cür çağırışlardan, məsləhətlərdən nəticə çıxaran yazıçılarımız uşaq ədəbiyyatını yaratmaqla həm o dövrün gənclərinin maariflənməsində, həm də hal-hazırkı dövrün uşaq ədəbiyyatının inkişaf etməsində birbaşa xidmət göstərməli olmuşlar. Böyük maraqla qarşılanan və yuxarıda adları qeyd olunan üç jurnal zərurətdən doğaraq yarandığını sübut etmişdir. Uşaq ədəbiyyatı yaratmaq artıq vətəndaşlıq borcunu yerinə yetirmək vasitəsinə çevrilməyə başlamışdı. Ziyalılarımızın əksəriyyəti demək olar ki, Şərq mədəniyyəti xəzinəsi nümunələrindən faydalı əsərlərin secilib uşaqlar üçün ədəbiyyata salınmasını zəruri hesab edirdilər. Mədəniyyətimizin vacib sahələrindən olan uşaq ədəbiyyatı maarifpərvərlərimizin ən çox səy göstərdiyi sahələrdən idi. Onlar milli uşaq mətbuatı, milli uşaq şeiri və nəsri, bədii tərcümə sahəsində yorulmadan çalışırdılar.

Azərbaycanın məşhur pedaqoq və ədəbiyyaşünaslarından olan Firidun bəy Köçərli hələ keçən əsrin 90-cı illərində yazaraq məsləhət görmüşdü ki, yeni nəslin tərbiyəsi qeydinə qalan və "təfəkkür sahibi olan yazıçılar" yeniyetmələr üçün, "onların öz həyatını əks etdirən, romanlar, povestlər yazsınlar" və belə romanların, povestlərin qəhrəmanı mütləq öz gözəl, yeni əxlaqi keyfiyyətləri, işıqlı fikirləri, hərəkətləri, işləri, arzuları "köhnə əqidəli müsəlmanlardan seçilən" yeniyetmələr olsun. Alim əlavə edirdi ki, bu çətin, xüsusi istedad, təfəkkür zənginliyi tələb edən

bir iş olsa da, "son dərəcə mühüm" və təxirəsalınmaz vəzifədir. F.Köçərlinin bu çağırışı o zaman cavabsız qalmadı. Əsrin birinci və ikinci onilliklərində Nəriman Nərimanov, Abdulla Şaiq, Yusif Vəzir, Abdulla bəy Divanbəy oğlu, Sübhanverdizadə və b. yazıçılarımız bir neçə belə roman, povest yazdılar. (8.s.104).

Firidun bəy Köçərli ədəbiyyatşünas olaraq uşaq ədəbiyyatı sahəsində ciddi çalışmış, bir sıra hekayələr, tapmacalar və s. qələmə almışdır. Onun uşaqlar üçün yazdığı nağıllar olduqca sadə və uşaq psixologiyasına uyğundur. Firidun bəy uşqalar üçün yazan yazıçılarımızdan bir çox cəhətlərinə görə fərqlənirdi. İlk olaraq onu qeyd etmək lazımdır ki, Firidun bəy Köçərli ilk növbədə müəllim idi.O uşaqların hiss və həyəcanlarını daha gözəl anlayır və bunu rəngarəng şəkildə ifadə etməyi bacarırdı. Məqalələrində olduğu kimi uşaqlar üçün yazmış olduğu hekayə və nağıllarda da dövrün ictimai quruluşundan narazı, şikayətçi olduğunu büruzə verirdisə də bütün bunlar onun mütərəqqi fikirlərinin mahiyyətindən irəli gəlirdi.

Təlim-tərbiyə məqsədi daşıyan uşaq ədəbiyyatının nümunələri (atalar sözləri, məsəllər) "Dəbistan" və "Məktəb" kimi uşaq məcmuələrində və müxtəlif tədris vəsaiti səhifələrində özünə geniş yer tapmışdır (6.s.47).

Azərbaycanda o illərdə üç uşaq jurnalı nəşr olunurdu. 1906-cı ildə "Rəhbər" adlı ikinci bir jurnal nəşrinə başlanıldı. Lakin onun da aqibəti "Dəbistan"ın taleyi kimi oldu. Maddi çətinlik və mətbəənin olmaması üzündən 1907-ci ildə jurnalın nəşri vaxtsız bağlanıldı(1. s. 70).

"Dəbistan" dan sonra fəaliyyətə başlayan "Rəhbər" jurnalı nəşrini cəmi dörd ay davam etdirə bildi Əsasən pedaqoji jurnal olan "Rəhbər"in səhifələrində ədəbi əsərlər də dərc olunurdu. Naşiri və redaktoru dövrünün görkəmli ziyalısı Mahmud Mahmudbəyov olan bu jurnal Qafqazın və Rusiyanın məişətindən, ədəbiyyatından və təlim-tərbiyə işindən bəhs edən aylıq





pedaqoji jurnal idi. "Dəbistan" və "Rəhbər"dən sonra üçüncü, Azərbaycanda demokratik jurnal adlanan "Məktəb" uşaq jurnalının nəşrinə başlanıldı. 1911-ci il noyabrın 29-da "Məktəb" jurnalının ilk nömrəsi çapdan çıxdı. Ayda iki dəfə çıxan "Məktəb" jurnalının naşiri və redaktoru görkəmli maarif xadimi Qafur Rəşad Mirzəzadə və müəllim Əbdürrəhman Əfəndizadə idi.

"Məktəb" jurnalı Azərbaycanda üçüncü demokratik jurnal idi. Onun nəşri uzun mübahisədən sonra mümkün olmuşdur. Bunların içərisində içərisində "Məktəb" jurnalı xeyli uzunömürlü olmuşdur. Çünki sovet hakimiyyəti qurulduqdan sonra, yəni 1921-ci ildə bu jurnal "Qırmızı günəş" məcmuəsi adlandırlmasına baxmayaraq, "Məktəb" jurnalının ənənələrini davam etdirirdi. Redaktoru da vaxtı ilə "Məktəb" jurnalının fəal müxbirlərindən olmuş Ağabəy İsrafilbəyov idi. Yazarları isə Abdulla Şaiq, Cəmo Cəbrayılov, Kərim İsmayılzadə və digərləri idilər. 1922-ci ildə məktəbəqədər birinci Azərbaycan tərbiyə darülmüəllimi tələbələrinin təşəbbüsü ilə Maarif Komissarlığı nəşriyyatında buraxılan təkrar "Rəhbər" və digər uşaq məcmuələri də 1906-1920-ci illərdə nəşr olunmuş "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnallarının ənənələri üzərində yaranmışdır (1.s.13).

Araşdırmalar zamanı müəlliflərin "Məktəb" jurnalı haqqında yazdıqları böyük əhəmiyyət kəsb edir. "Məktəb" gənc nəsli felyeton və kiçik uşaq pyesləri ilə tanış edən ilk jurnal kimi də diqqətəlayiqdir. Bundan başqa jurnallarda əməyin şərəfli iş olduğunu, tüfeyli həyatın xoşagəlməzliyini, zəhməti sevmək kimi nəsihət xarakterli yazılar xüsusi əhəmiyyətə malik əsərlərdir.

Firidun bəy Köçərli həm uşaq ədəbiyyatının, həm də məktəblərin maariflənmənin sürətlə yayılmasında mühüm vasitə olduğunu qeyd edirdi. O, eyni zamanda elmin, təhsilin tərəfdarı olduğunu dəfələrlə söyləyərək onu da nəzərə çatdırırdı ki, var-dövlətə sahib olmaqla xoşbəxtlik mümkün deyil. Yalnız

oxumaqla, elmə yiyələnməklə, həyatı anlamaqla səadət əldə etmək olar. Köçərli nadanlığın, elmsizliyin insanı fəlakətə doğru sürüklədiyini çox gözəl anlayırdı.

Hər üç jurnalın nəşri uşaqlar arasında təlim-tərbiyə işinə xidmət etməklə yanaşı böyüklərin maariflənməsində xeyli iş görmüşdür. Bu jurnallar eyni zamanda qeyd edildiyi kimi Azərbaycan uşaq ədəbiyyatının yaranmasında və inkişaf etməsində mühüm rol oynamışdır.

Firidun bəy Köçərli yaradıcılığında uşaq mətbuatının, eyni zamanda ədəbiyyatının uşaqların tərbiyə işində müsbət cəhətlərin yaranmasına səbəb olduğunu qeyd edirdi. Onun fikrincə mətbu orqanlarının kiçik yaşlardan uşaqlarda xeyirxah əməllərin yaranmasında böyük təsiri ola bilər. Uşaqlara mədəni davranış, etik vərdişlər, işgüzarlıq, humanizm, doğruçuluq və s. müsbət keyfiyyətləri məhz mətbuat vasitəsi ilə aşılamaq daha düzgün olar. Bu ona görədirki, uşaqlar əsərlərdə göstərilən qəhrəmanların yaxşı keyfiyyətlərini götürərək, onlara bənzəməyə çalışırlar.

"Dəbistan"ın aprelin 16-da buraxılan ilk nömrəsində uşaqları məktəb və məktəbdənkənar qiraət materialları ilə təmin etmək üçün kifayət qədər material verilmişdir. Jurnalın səhifələrində Azərbaycan ziyalılarının orijinal şeir və hekayələri çap olunur, eyni zamanda tərcümə ədəbiyyatına geniş yer verilirdi. Uşaq aləminin salnaməsi olan bu jurnallar Azərbaycan uşaq ədəbiyyatının yaranmasında və təşəkkülü işinə ciddi kömək etmişdir.

Firidun bəy Köçərlinin dil üslubuna, sadə, rəvan və aydın yazılara ciddi tənqidi nöqteyi-nəzərdən yanaşdığından onun müasirləri uşaqlar üçün yazdıqlarına son dərəcə diqqətli yanaşmağa çalışırdılar. 1909-cu ildə şair Abbas ağa Qayıbov (Nazir) Tolstoyun "İnsana çoxmu torpaq lazımdır?" hekayəsini şeirlə Azərbaycan dilnə tərcümə etmişdir. Naməlum səbəblərə görə çap olunmayan bu əsərin əlyazması ilə tanış olan F.Köçərlinin





şəhadətinə görə, Abbas ağa Qayıbovun tərcüməsi o qədər açıq və sadə dildə imiş ki, "xırdaca uşaqlar və az savadlı adamlar da onu oxusa başa düşə bilərmişlər"(9.s.192).

Görkəmli ədib dövrünün ən fəal maarifçilərindən idi. Savadlı ədəbiyyatşünas və peşəkar tənqidçi olan Köçərlinin bu sahədə olan xidmətini xüsusi qeyd etmək lazımdır. Həyata çağırış, fəaliyyət və mübarizəyə dəvət Köçərli üçün hər şeydən vacib idi. Beynəlmiləlçilik və xalqlar dostluğu onun əsərlərinin ana xətti idi. O qələmi ilə çarizm siyasətini incəliklə tənqid edərək, qardaşlıq və xalqlar dostluğu ideyalarını yayardı. Bunu Firidun bəyin kiçik yaşlı uşaqlar üçün qələmə aldığı əsərlərində zərifanə şəkildə bəyan edildiyini aydın duymaq olur.

İnqilabdan əvvəl "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları haqqında yeri gəldikcə başqa yazıçı və maarif xadimlərimiz də fikirlər söyləmişlər. F.b.Köçərli "Azərbaycan dövri mətbuatının qısa icmalı" məqaləsində "Əkinçi", "Ziyayi-Qafqaz", "Kəşkül", "Şərqi-Rus", "Həyat", "İrşad" qəzet və jurnallarından danışır və yazır: "Simaları hələ tam müəyyənləşdirilməmiş gənc Azərbaycan jurnalları "Dəbistan", "Rəhbər" və "Füyuzat" haqqında rəyi xüsusi məqaləmizdə verəcəyik. Lakin onun nə "Dəbistan", nə də"Rəhbər" jurnalları haqqında ayrıca məqaləsinə rast gəlməmişik (1.s.17).

Bu jurnallar əsasən gənc və müasir şairlərin əsərlərinə mühüm yer verirdi. Bunula belə hər üç jurnalda klassik ədəbiyyatımızdan da nümunələr olurdu. Jurnallar əxlaqlı, ağıllı və düzgün uşaqlar tərbiyə etməkdə yeni üsul məktəblərinin fəaliyyətini təqdir edirdi. Bundan başqa bu jurnallarda şair və yazıçıların əsərlərini də işıqlanırmaq sahəsində maraqlı yazılar dərc edilirdi.

Yeri gəlmişkən qeyd edək ki, ilk jurnallar, xüsusilə də "Rəhbər" Azərbaycan şairləri haqqında daha çox məlumat verməyə çalışırdı. Vaqif, Vidadi, Zakir, Nəbati kimi və s. şairlər ədəbiyyatımızın inkişafında müəyyən rol oynadıqları halda, on-

ların zəngin yaradıcılığı xalqa çatdırılmamışdı.

Firidun bəy Köçərlinin bu jurnallarda Vaqiflə Vidadinin deyişmələrindən, Ağa Məhəmməd şah Qacarın Şuşa qalasında qətlə yetirilməsindən, Qasım bəy Zakirin şeirlərindən bəhs edən yazıları dərc olunurdu. Həm böyüklərin, həm uşaqların böyük marağına səbəb olan bu əsərlər, eyni zamanda da gənc nəslin klassik irsimizlə tanışlığınını, klassiklərimizin həyat və yaradıcılıqları haqda məlumatlı olmalarını təmin edən məqamlar idi. Firidun bəy Köçərli həm də bir folklorşünas olaraq bunu özünün əsas vəzifələrindən hesab edirdi.

Firidun bəy Köçərli bu ədiblərin həyat və yaradıcılığını, onların Azərbaycan ədəbiyyatı tarixindəki yerini çox düzgün müəyyənləşdirmişdi. Bu Firidun bəy Köçərli yaradıcılığının ən təqdirəlayiq tərəflərindəndir.

Jurnallar yeni məktəblərin fəaliyyətini təqdir edərək, "əti sənin, sümüyü mənim" prinsipini pisləyirdi. Uşaqlar üçün məxsusi yazılmış əsərlərin sürətləndirilməsi, artırılması daha çox gündəmdə olan məsələ idi. Uşaqlara həsr edilmiş hekayə, nağıl və şeirlər onların əqli və əxlaqi tərbiyəsinin inkişafında önəmli vasitə olmaqla, eyni zamanda onların gələcək həyatlarında özlərinin yerlərini tapmasında mühüm amil idi. Böyük rus tənqidçisi N.Dobrolyubov uşaq əsərlərindən bəhs edərkən öyrədirdi ki, "uşaq kitabları uşaqların əqli və əxlaqi inkişafı üçün faydalı olmalıdır. Uşaq jurnalları müəlliflərin fikrincə, əqli, əxlaqi, mənəvi və fiziki tərbiyənin inkişafı paralel aparılmalıdır.

Qeyd edək ki, XX əsrin əvvəllərində ən yaxşı uşaq əsərləri "Dəbistan" və "Məktəb" jurnallarında dərc edilirdi. Bu elə bir dövrü əhatə edirdi ki, sinfi ziddiyyətlər baş alıb gedirdi, fəhlə həyatı mətbuatın əsas mövzularına çevrilmişdi. Fəhlələrin dözülməz həyat şəraitindən bəhs edən mövzular camaat tərəfindən daha maraqla qarşılanırdı. Azərbaycan uşaq jurnallarında dərc olunan fəhlə həyatını əks etdirən hekayələr, məsələn: "Allah





xofy" və "Fəhlə" əsərləri bədii cəhətdən və sənətkarlıq baxımından ən yaxşı əsərlər hesab edilirdi.

Firidun bəy Köçərli uşaqların maraq dünyasını nəzərə alaraq yazılan əsərləri daha çox dəyərləndirirdi. Uşaqların tərbiyəsində mühüm rol oynayan əsərlərin hər şeydən əvvəl sadə xalq dilində yazılmasını, əsərlərdə humanizmin, lirikanın müəyyən dərəcədə rolu olduğunu qeyd edən Köçərli bu cür əsərlərin daha çox yazılmasının tərəfdarı idi. Bu maariflənmənin səyinin nəticəsində meydana gəlmiş bir üsul, bir vasitədir.

Yuxarıda qeyd olunan jurnallar Azərbaycan uşaq ədəbiyyatının yaranmasında və inkişafında mühüm rol oynamışdır. Bu jurnalların səhifələrində məktəb və maarif işinə dair əsərlərə rast gəlmək olurdu. Doğrudur, "Əkinçi", "Ziya", "Kəşkül", "Şərqi-Rus" kimi qəzet və jurnalların səhifələrində məktəb və maarif işindən bəhs edən məqalələr dərc edilsə də, şair və yazıçılar əsasən uşaq jurnalları yarandıqdan sonra daha maraqlı və rəngarəng nümunələr yaratmağa başladılar.

Bu jurnalların fəaliyyət dairəsi genişləndikcə maarifpərvər qadın müəllimləri uşaq əsərləri yazmağa həvəslənirdilər. Şəfiqə xanım Əfəndizadə, Gövhər xanım Şövqi, Asiya xanım Nərimanova və başqaları uşaq əsərləri yazan qabaqcıl müəllimlərdən idi. Qabaqcıl maarifpərvərlərin ədəbi-bədii və elmi əsərləri gənc nəslin təlim-tərbiyəsinə xidmət göstərirdi.

Uşaqların təlim-tərbiyəsində uşaq ədəbiyyatının təsirindən danışarkən, yazılan əsərlərdə onların kiçik yaşlarından müsbət cəhətlərə-namuslu, vicdanlı olmaq kimi keyfiyyətlərə sahib olmaq öyrədilirdi. Namus-vicdanı, şərəfi, əhli-həyanı, ata-ananı, övladı, milləti hər cürə lənətdən saxlamaq deməkdir (1.s.27).

F.b.Köçərli nəzər-diqqətə çatdırmaq istəyirdi ki, maariflənmənin əsas üsulu və bünövrəsi təhsil almaq, mütaliə etməkdir. Buna görə o uşaq ədəbiyyatı ilə məşğul olan müasirlərinə bu ədəbiyyatın sayını və keyfiyyətini artırmağı məsləhət görür,

uşaqlara isə asudə vaxtlarında bu ədəbiyyatlardan istifadə etməyi tövsiyə edirdi. O deyirdi ki, uşaqlara həsr edilmiş əsərlər nə qədər maraqlı olarsa o qədər də uşaqların diqqətini cəlb edər, onların şəxsiyyətlərinin formalaşmasına, təlim-tərbiyəsinə müsbət təsir göstərər. Uşaq ədəbiyyatında yer alan qəhrəmanların uşaqların tərbiyəsində əvəzsiz rolunu qeyd edən maarifçilər, fəaliyyətlərində bu yolda dönüş etməyə üstünlük verirdilər. Köçərlinin bir tənqidşünas kimi yanaşdığı nağıl və hekayələr xüsusilə dil cəhətdən tənqid edilirdi. O, zəif əsərlərin zəif dillə yazılmasına, dilimizə yatmayan ərəb, fars, osmanlı dialektlərinin uşaq əsərlərində yer almasına sərt münasibətini bildirirdi. Bütün bu çətinliklərin müqabilində Firidun bəyin qəlbinə bələd olan, onu yaxından tanıyan dostları onun tənqidi məsləhətlərindən nəticə çıxarır, bir-birindən gözəl əsərlər yaratmağa səy göstəriridilər.

Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli dilimizin saflığı uğrunda mübarizə apararaq uşaq ədəbiyyatının bəzi məsələlərinə toxunur, bu mövzuda məqalələr dərc etdirir və ziyalılarımızı bu mübarizəyə qoşulmağa dəvət edirdi.

F.Köçərli Azərbaycan ədəbiyyatı tarixinin tədqiq edilib öyrənilməsində, dövrünün ədəbi prosesinə dair tənqidi məqalələrdə, xüsusilə uşaqlar üçün hazırlanan dərsliklərdə və uşaq əsərlərində həmişə maarifçilik mövqeyindən yanaşırdı.

Əsrin birinci rübündə bir çox müəllimlər, müxtəlif sənət adamları, qabaqcıl ziyalılar da vətənimizdə maarifin çiçəklənməsi yolunda əllərindən gələni əsirgəməmiş, uşaqlar üçün əsərlər yazmış, dərsliklər yaratmış dövrü mətbuatda bu mövzuda maraqlı yazılar çap etdirmişdilər (7.s.87).

Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatında, xüsusilə də uşaq ədəbiyyatında göstərdiyi zəhməti çox böyük olub. Köçərlinin yaradıcılığının çoxşaxəli və rəngarəngliyi uşaq ədəbiyyatında özünü daha çox biruzə verir. Belə ki, uşaq jurnallarında M.Mahmudbəyov, A.Şaiq, R.Əfəndizadə, Mirzəzadə kimi





yazarlarla birlikdə F.b.Köçərli də fəal iştirak edirdi. Jurnallarda xalq yaradıcılığı nümunələrinin olması bir tərəfdən uşaqların zəngin ədəbiyyat tariximizi öyrənməsinə xidmət edirdisə, digər tərəfdən onların əqli və zehni inkişafına, həyatda insan kimi formalaşmasına xidmət göstərirdi. Bu əsərlərin getdikcə artmasını F.b.Köçərli ədəbiyyatda əsas meyar hesab edirdi.

Firidun bəy Köçərli həmfikirləri və məsləkdaşları olan maarifçilərin bu yolda çəkdikləri zəhmətləri görür, yeri gəldikdə onların müdafiəsinə qalxırdı. O dövrdə M.Ə.Sabir, C.Məmmədquluzadə, A.Səhhət, A.Şaiq, S.S.Axundov və başqaları uşaqlar üçün maraqlı əsərlər yazaraq meydana çıxarırdılar. Bu əsərlər təkcə uşaqların deyil, böyüklərin də maraq dünyasına uyğun gəlirdi. Maarifpərvər yazıçılar təkcə qələmi ilə çalışmırdılar, onlar eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul idilər. Millətin yolunda yorulmadan çalışan F.b.Köçərli müasirləri ilə birlikdə maarifçilik fəaliyyətlərini genişləndirir və maarifçilik ideyalarını əhali arasında yayırdılar.

XX əsrin əvvəllərində, sinfi ziddiyyətlərin kəskinləşdiyi bir dövrdə bolşevik mətbuatının əsas mövzularından biri fəhlə həyatı idi. Fəhlələrin ağır həyatından bəhs edən əsərlərin meydana gəlməsi, bu vəziyyətin geniş kütlələr arasında işıqlandırılaraq yayılması, çar məmurlarının, ümumiyyətlə hökumət orqanlarının yaramaz hərəkətləri ilə gənc nəslin tanış olması o qədər də xoşagələn hadisə kimi qarşılanmırdı. Azərbaycan uşaq jurnallarındakı fəhlə həyatından bəhs edən hekayələr haqqında demək olar ki, bunlar əsasən sənətkarlıq və bədii cəhətdən mükəmməl əsərlər hesab edilirdi. Bunların içərisində "Allah xofu" və "Fəhlə" əsərləri xüsusilə seçilirdi. Ə.Məmmədovun 1977-ci ildə nəşr olunan "Azərbaycan uşaq ədəbiyyatı" kitabında bu haqda yetərincə məlumat verilmişdir.

Azərbaycan uşaq jurnallarında kənd həyatına, ailə və məişətə, kənd və şəhər uşaqlarının fəaliyyətinə dair dərc edilmiş

hekayələr də maraqlıdır.

Uşaq ədəbiyyatına böyük diqqət və səbrlə yanaşan Köçərli bu ədəbiyyatın həyatda hər kəs üçün mühüm əhəmiyyət daşıdığını qeyd edirdi. Firidun bəy Köçərli uşaqlar üçün daha çox onları düşündürən tarixi rəvayətlərin, rəngarəng hekayələrin çox yazılmasını qeyd edirdi. Çünki, dərc olunan maraqlı yazılar uşaqları düşündürməklə yanaşı, böyükləri də düşündürə bilirdi. Övlad valideyn arasında yaranan fikir mübadiləsi, dərc olunan yazıların ailələrdə və eyni zamanda şagirdlərlə müzakirə olunmasını hətta müsbət bir hal kimi maraqlı bir hadisənin mövzusu da hesab etmək olardı.

Ümumiyyətlə, adı çəkilən hər üç jurnalın – "Dəbistan", "Rəhbər", "Məktəb", – Azərbaycan uşaq ədəbiyyatında mühüm yeri vardır. "Azərbaycan ədəbiyyatı tarixi"ndə uşaq ədəbiyyatının yaradıcılıarının əsasən realist yazıcılar olduğu göstərilir. Bu həqiqətən də belə idi. İnqilabdan əvvəl yaradılan uşaq əsərləri bu gündə öz akruallığını saxlayaraq, uşaq ədəbiyyatımızın qızıl fondunda saxlanılmaqdadır. Haqqında danışdığımız görkəmli ədəbiyyatşünas alim Firidun bəy Köçərlinin sevə-sevə qələmə aldığı "Balalara hədiyyə" kitabı da qiymətli əsər kimi həmən qızıl fonda daxil edilmişdir.

Firidun bəy Köçərli vətəninini, xalqını düşünür və öz ölkəsində xalqına qarşı olan hədsiz-hesabsız zülmə, avamlığa, cəhalətə, hüquqsuzluğa dözə bilmirdi. Bütün bu düşüncələri onun içində bir üsyan fırtınası yaradaraq onu mübarizəyə səsləyirdi.

Firidun bəy yaradıcılığı dövründə bütün sahələrdə yeniliklər görməsini istəyirdi. O, bu fikirlərlə bir-birindən maraqlı yazılarla mətbuatda məqalələr dərc etdirir, onu narahat edən məsələləri işıqlandırmağa çalışırdı. Azadlıq aşiqi olan F.b.Köçərli gələcək nəsillər üçün bir nişanə qoymağı, onları keçmişimizlə tanış etməyi qarşısına məqsəd qoyaraq "Azərbaycan ədəbiyyatı tarixi" kimi sanballı əsəri meydana gətirə bilmişdi.





Azərbaycan ədəbiyyatı və eləcə də uşaq ədəbiyyatı tarixində Firidun bəy Köçərlinin xüsusi yeri vardır. O uşaqlar üçün müntəzəm olaraq çalışırdı. Firidun bəy nəinki öz yazılarını, hətta başqa yazıçı və şairlər tərəfindən uşaqlar üçün yazılmış pyesləri, hekayələri, şeir və nağılları izləyir və mövqeyini bildirirdi. Firidun bəy Köçərli müasirlərinə sadə dildə yazmağı və xüsusilə də tərbiyəvi yazılar ərsəyə gətirməyi xahiş edirdi. Bunun üçün folklora müraciət etmək, ata-babalarımızdan gəlmə folklor nümunələrinə istinad etməyin vacibliyini nəzərə çatdırırdı. Söz yox ki, Köçərlinin uşaqlar üçün yazmış olduğu əsərlərinin müvəffəqiyyətli olmasında onun pedaqoji fəaliyyətinin əsas rolu olubdur. Firidun bəy Köçərli müasirləri ilə birlikdə ölkəmizdə baş verən hadisələrin işıqlandırılmasını birbaşa olmasa da başqa dövlətlərdə baş verən iğtişaşları yazmaqla xalqı ayıltmağa və hadisələri Azərbaycanın həyatı ilə uyğunlaşdırıb xalqa çatdırmağa çalışırdılar.

Mütərəqqi fikirli ziyalılarımızla bir cərgədə dayanan Firidun bəy Köçərli Azərbaycan milli uşaq ədəbiyyatının yaranmasında və inkişafında müstəsna rol oynamış və xalq müsbət ideyalar təbliğ etmişdir.

Firidun bəy Köçərli uşaq ədəbiyyatını yaradıcılığında uşaq bədii ədəbiyyatın öz özəllikləri olduğunu qeyd edirdi. Köçərli məktəbi ədəbiyyatın təbliğundə ən gözəl təbliğat üsulu adlandırırdı. O, məkəblərə tələbatın artığını görür və qürur hissi keçirirdi. Çünki, məktəb ortalığa yeni-yeni tələblər çıxaran tədris ocağıdır. Xalqın gələcəyinin təmin edilməsində, onların işıqlı sabaha çıxmasında məktəbin rolu əvəzsizdir.

F.b.Köçərli uşaqlar üçün yazılmış və Azərbaycan dilinə tərcümə edilmiş hekayə və nağılların məktəb dərsliklərində yer almasına da münasibətini bildirmişdir. Rus-ictimai fikir tarixində uşaq yazıçısı kimi tanınmış Tolstoyun ibtidai siniflər üçün tərtib etdiyi (1868-1872) "Yeni əlifba" və dörd qiraət ki-

tabı o dövrdə ən məşhur əsərlərdən hesab edilirdi. Bu kitablar həm sinif, həm də sinifdənkənar qiraət materialı kimi istifadə edilirdi. Uşaqların təlim-tərbiyəsində özünü doğruldan bu kitab şücaət, qorxmazlıq, mərdlik, düzlük, səmimilik kimi meyarlarla yanaşı, uşaqlara əməyə, işgüzarlığa, məktəbə, ailəyə, valideynə məhəbbət və hörmət kimi nəcib xüsusiyyətləri də aşılayırdı. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası tələbələrinin istifadə etdikləri materiallar içərisində də Tolstoyun dərslikləri mühüm yer tuturdu. Firidun bəyin yaxşı tanış olduğu bu dərsliklər həm də tərbiyəvi əhəmiyyətə malik idi. Tolstoyun dərsliklərdə yer almış çoxlu sayda hekayələri müəllimlər və şagirdlər tərəfindən rəğbətlə qarşılanırdı.

F.b.Köçərli dövrünün müasirlərindən olan R. Əfəndiyev Tolstoyun cəmi 7 cümlədən ibarət olan "Yüz yaşında bağban" hekayəsini genişləndirmiş, "Bəsirətül-ətfal"ın yeni nəşrinin ilk səhifəsində çap etdirmişdir. Tolstoyun bu hekayəsi F.Köçərlinin xoşuna gəlmiş, onu əslinə mütabiq halda tərcümə edib, "Vətən dili"nin (I hissə) VI nəşrinə salmışdı. Sonralar bu hekayə müxtəlif dərsliklərdə dəfələrlə çap olunmuşdur(9.s.180). Onu da qeyd etmək lazımdır ki, 1882-1920-ci illər arasında Azərbaycan dilində buraxılmış intidai məktəb dərsliklərində Tolstoyun 60-a qədər uşaq hekayəsi daxil edilmişdir. Lakin, bu hekayələrin bəziləri tərtibçilərin səhvi üzündən səhvən onun adı ilə getməmişdir.

F.b.Köçərli uşaqlar üçün bədii qiraət materiallarına kəskin tələbatın olduğunu qeyd edirdi və dərsdənkənar qiraət materiallarının olmasını vacib sayırdı.

Görkəmli ədəbiyyatşünas olan F.b.Köçərli pedaqoji fəaliyyətini davam etdirməklə yanaşı uşaq ədəbiyyatının inkişaf etməsinə də çox çalışırdı. O ədəbi, pedaqoji və ictimai fəaliyyətini paralel olaraq həyata keçirirdi. Azərbaycan ədəbiyyatının tədrisinə böyük ehtiyac duyan Köçərli uşaqları yaddan çıxarmayaraq, onlar üçün gözəl əsərlər yaratmağın vaxtı çatdığını qeyd





edərək, müsirlərini bu yolda zəhmət çəkməyə çağırırdı.

Maarifçilər bir tərəfdən elm, maarif, mədəniyyət və azadlıq uğrunda mübarizə apararaq, bu mübarizənin kütlələr arasında yayılması və geniş vüsət almasına səy göstərir, eyni zamanda da yaradıcılıqlarında geriliyə, cəhalətə qarşı mübarizə aləti olan əsərlər yaratmağa çalışırdılar. Bütün həyat və yaradıcılıqlarını xalqın, millətin yolunda sərf edən maarifpərvər ziyalı F.b.Köçərli elə bu fikirlə də həm əməli fəaliyyəti, həm də yaradıcılığı ilə mübarizəyə qoşuldu.

Bu ağır şəraitə baxmayaraq, Azərbaycanın maarifpərvər ziyalıları Rusiyanın demokratik görüşlü, tərəqqipərvər ziyalıları ilə əlaqə saxlayır, qabaqcıl rus mədəniyyətini öyrənir, təbliğ edir və ölkədə maarifçilik ideyalarını yaymağa çalışırdılar. Azərbaycan əyalətlərində yeni üsullu məktəb açmaq, bu məktəblər üçün dərsliklər hazırlamaq, milli mətbuat və milli teatr yaratmaq maarifçilərin başlıca məqsədi idi.

Bu ziyalılar içərisində maarifpərvər Cəlal və Səid Ünsizadə qardaşlarının da böyük zəhməti olmuşdur. Cəlal Ünsizadə 1883-cü ildə mətbuat sahəsində müstəqil işə başlayır. O, həm naşiri, həm redaktoru olduğu əvvəl aylıq jurnal və sonradan həftəlik siyasi, ictimai qəzet olan əvvəl "Kəşkül" də şeir, qəzəl,tərcüməli və tərcüməsiz əsərlərə xüsusi yer verirdi. Azərbaycanca materiallarla yanaşı ərəb və fars dillərində də məqalələr verilirdi (12.s.51).

Firidun bəy Köçərli söyləyirdi: "Cəlal Ünsizadənin ədəbiyyat və mətbuat aləminə gəlişi azərbaycanlıların "milli intibahının sübh çağına" təsadüf edir". Cəlal Ünsizadə uşaq ədəbiyyatını tərbiyə işində ən qüdrətli silah hesab edirdi.

Firidun bəy Köçərli müasirlərinin düşüncələrinə və məsləhətlərinə çox hörmətlə yanaşırdı. Fikirləri onunla üst-üstə düşən mütərəqqi fikirli ziyalıları millət yolunda yanan çırağa bənzədirdi. Avropa təlim-tərbiyəsinin Azərbaycan təlim-tər-

biyəsindən çox fərqləndiyini qeyd edən Köçərli, onunla həmfikir olan şəxslərə xüsusi rəğbət bəsləyirdi. Bu mövqeyinə görə Cəlal Ünsizadə də Köçərlinin nəzərində xalqın firavan gələcəyi naminə çalışanlardan biri idi.

"Avropada tərbiyeyi-ətval yolunda qövlən, qələmən və malən" çalışan "süxənvərlərin" işini həmvətənlərinə bir nümunə kimi təqdim edən Cəlal Ünsizadə ziyalıları "əl-ələ verib gözlərimizin nuru övladlarımızın təlim-tərbiyəsi" üçün kitablar hazırlamağa, bu yolla gələcəkdə millətin "səadət" və "istiqbalına" nail olmağa çağırırdı.

Zəmanənin bu vacib məsələsinə etinasız münasibət bəsləyənlər, istedad və qabiliyyətinin gücünü millət balalarının xidmətinə verməyənlər Cəlal Ünsizadənin töhmətinə məruz qalırdılar. Belə hallarda onun məqalələri kəskin bir üslub kəsb edir, millət xadimlərini başqa xalqlardan nümunə götürməyə çağırırdı:

"Ey tərbiyeyi-övlad əmrində ermənilərdən, gürcülərdən... yüz qədəm geridə qalan, elmnən və şərəfnən, ürfən və zürafeyi-islamı nə zaman xabi-qəflətdən bidar edəcəksiniz. Və nə vaxt bizim övladı xoşbəxt eləməyə fitva verəcəksiniz, hümmət edəcəksiniz, qeyrət göstərəcəksiniz" (11.s.91).

F.b.Köçərli C.Ünsizadənin "Kəşkül"də milli uşaq ədəbiyyatı nümunələrinin bu qəzet vasitəsilə yayılmasını həyata keçirdiyi üçün dəyərləndirirdi. O zaman gənc yazarlardan olan Firidun bəy Köçərli, Səfərəlibəy Vəlibəyov, Şərifbəy Mirzəyev, Sultan Məcid Qənizadə və başqalarının uşaq ədəbiyyatı yaratmaq təşəbbüsü bir redaktor olaraq həmişə C.Ünsizadənin diqqət mərkəzində olmuşdur. F.b.Köçərlinin bir çox məqalələri məhz "Kəşkül" də dərc edilmişdir.

1889-cu ildə Cəlal Ünsizadə seminariyanın dörd məzununun uşaq ədəbiyyatı sahəsində xidmətlərinə xüsusi məqalə həsr etmişdi. Naşir S.Vəlibəyov, F.Köçərli, Zöhrabzadə və





Ş.Mirzəyevin ilk qələm təcrübələrini alqışlayır, uşaq ədəbiyyatı sahəsində xidmətlərini təqdir edir, nəşriyyat imkanının məhdudluğu, senzor maneələri üzündən əsərlərinin geniş kütlənin malı ola bimməməsini təəssüf hissi ilə qeyd edirdi.

"Bizim darülmüəllimin demək olar Qori müəllimin məktəbində ikmali təhsil edib çıxanlardan əlinə müəllif və mütərcimlik qələmi götürənlər imdi bilaziyad və nöqsan dörd kişi oldu ki, bu çaryadan biri də Qarabağda Zöhrabzadə idi ki, təlimi-ətfal üçün yazdığı kitabın üzünü ona-buna ərz elədi, bədhayna sənduq və məhfuzəsinə atdı. İkincisi də İrəvanda Firidunbəy idi ki, o da "Sokrat" və "Bokrat"nam tərcüməsini senzor qələminin altına qədər təqdim eləyib səvan nüsxəsinə bir qırmızı çəkdirdi" (11.s.92).

Uşaq ədəbiyyatının inkişafına yardım məqsədilə tərcümələr edən və bu yolla uşaq ədəbiyyatını daha da zənginləşdirməyin tərəfdarı olan ziyalılar artıq bu sahədə qələmlərini sınayırdılar. Belə ziyalıların içərisində Firidun bəy Köçərlinin də adı vardır.

C.Ünsizadə yeni uşaq ədəbiyyatının yaradıcıları ilə o qədər sıx əlaqə saxlayırmış ki, hətta onların yaradıcılıq işlərinin taleyi ilə maraqlanırdı.

1889-cu ilin 20 oktyabrında İrəvandan "Kəşkül"ə göndərilmiş bir məktubda Firidunbəy Köçərlinin "Lisani-madərzadəni tövsif niyyətilə bəzi asari-məfidə talif və tərcümə" etdiyi, o cümlədən "Yer ilə göy", "Zəmanə oğlu", "Təzə və köhnə müsəlmanlar" əsəri haqqında məlumat verilirdi.

Ümumiyyətlə, F.b.Köçərlini təqib etmək, onun məqalələrinin başqa mətbuat orqanlarında çap edilmədiyini yalana çıxarmaq məqsədi güdənlər, necə deyərlər"sapı özümüzdən olan baltalar" sonunda milləti, xalqı sevən və vicdanının səsinə qulaq asanlar tərəfindən layiqli cavablarını alırdılar. Belə adamlara cavab verənlərdən biri də C.Ünsizadə idi. O, F.b.Köçərlinin əsər-

lərinin şəxsən gördüyünü bildirərək yazırdı: "Əz asari türkiyə F.İravani" "Yer ilə göy", "Təzə müsəlmanlar", "Anama məktub" və "Tərcümeyi-hal Sokrat" və qeyri hara dideəm. Və hətta bəzi əzanha əgər mütəsadüf mane nəbaşəd mümkün əst ənqərib əz tərəfi müəllif müntəb gərdidə bemərəz istifadeyi-əamə vəze mişəvət. Anvəqt F. İrəvani ra məasar türkiyə əş xidməti sahib məktub ərz və təqdim xahim nəmud, vəli ta an zaman xali əz faydeyi-ümumi nabaşəd" (11.s.93) .

Firidun bəy Köçərli uşaqların nəinki Şərq ədəbiyyatından, hətta Qərb ədəbiyyatının nümunələrindən bəhrələnməyini istəyirdi. O da müasirləri kimi, düşünürdü ki, Qərb ictimai fikrin formalaşmasında, Şərq hikməti isə uşaqların mənəvi inkişafında vacibdir.

Xalqın maariflənməsi uğrunda mübarizəyə qoşulan ziyalılar üçün görülən işlərlə yanaşı dərsliklərin hazırlanması, məktəb proqramlarının tərtib edilməsi günün aktual mövzularından idi. Maariflənmə sahəsində mübarizəyə qoşulan ziyalıların sayı durmadan artırdı. Bir qrup ziyalı uşaqlar üçün Qərb ədəbiyyatına müraciət etməyi, başqa bir qrup ziyalı isə yalnız Şərq ədəbiyyatından əsərlərin tərcümə edilməsini səsləndirirdi. Firidun Köçərlinin bu sahədə mövqeyi bəlli idi. O bütün dillərə hörmətlə yanaşmağı, dünya ədəbiyyatına, eləcə də rus, gürcü və digər xalqların ədəbiyyatına müraciət etməyi məsləhət bilirdi. Firidun bəy dünya hadisələrindən xəbərdar olmağın, hər bir xalqın mətbuatı, ədəbiyyatı və folkloru ilə tanışlığın kimsəyə ziyan gətirmədiyini söyləyir və həm də bunun üçün çoxlu mütaliə etməyin tərəfdarı kimi çıxış edirdi. Bu sahədə məktəbin böyük rolu olduğunu qeyd edən Köçərli yeni tipli məktəblərin yaradılmasına da müsbət münasibət bəsləyirdi.

Yeni məktəblərin sayı artdıqca milli dərsliklərə ehtiyac da artırdı. Yeni üsullu milli məktəblər üçün dərsliklərin yaranması bir tərəfdən yeni nəslin təhsil və tərbiyəsi məqsədini güdürdüsə,





digər tərəfdən Azərbaycan uşaq ədəbiyyatının toplanıb nəşr olunmasına zəmin yaradırdı. XIX əsr realist maarifçi ədəbiyyatın möhkəm kökü üstündə şaxələnən Azərbaycan uşaq ədəbiyyatı əlvan, məzmunlu və canlı olması ilə seçilir.

Əsrin ikinci yarısında S.Ə.Şirvaninin yaradıcılığı ilə Azərbaycan uşaq ədəbiyyatı yeni mərhələyə daxil oldu. Böyük realist-maarifçi tərbiyəvi lirik şeirləri, mənzum və mənsur hekayələri, nəsihətamiz təmsilləri, ən başlıcası, satirik məzmunlu əsərləri ilə əsrin ruhundan doğan yeni məfkurəli uşaq ədəbiyyatının əsasını qoydu. Bu bir çox maarif xadimlərinin uşaq ədəbiyyatı yaratmaq təşəbbüslərini artırdı. Ümumiyyətlə nəzərə almaq lazımdır ki, XIX əsr realist maarifçi ədəbiyyatın əsasında yaradılmış Azərbaycan uşaq ədəbiyyatı məzmun və cəhətcə canlı olması ilə seçilir. Uşaq ədəbiyyatının zənginləşməsində, tərəqqisində tərcümə əsərlərinin böyük rolu olmuşdur. F.b.Köçərli dövrünün müasirləri kimi rus klassiklərinin əsərlərinə müraciət etməsi bu tərəqqinin inkişafa doğru addımladığının sübutudur.

Birinci rus inqilabından sonra Azərbaycan, Avropa, Şərq və Rusiya arasında sürətlə inkişafa başlayan ictimai-siyasi əlaqələr ədəbiyyatda da öz əksini tapırdı. Bu dövrdə Azərbaycanda nəşr olunan bolşevik və demokratik mətbuat orqanları Şərq, rus və Avropa ədəbiyyatının müsbət ideyalarını alqışlayır və onu təbliğ etməyi vacib bilirdilər. Bu işə "Dəbistan", "Rəhbər" və "Məktəb" demokratik mövqedən yanaşırdı. Jurnalların müəllifləri başqa xalqların ədəbiyyatından təlim-tərbiyə, uşaq və gənclərin həyatı ilə bağlı olan qabaqcıl ruhlu şeir və hekayələri seçib işləyirdilər (1.s.88).

Firidun bəy Köçərli "Dəbistan"ın nəşrindən bir qədər əvvəl Puşkinin "Torçu və balıq" və A.P.Çexovun "At familyası" adlı əsərlərini artıq Azərbaycan dilinə tərcümə etmişdi. F.b.Köçərlinin tərcüməsi ilə A.S.Puşkinin "Torçu və balıq nağılı" (Yerevan, 1892), M.Y.Lermantovun "Üç xurma ağacı" və A.V.Koltsovun

"A kişi, niyə yatmısan?" şeirləri başqa müəlliflərin tərcümə etdikləri yazıları ilə birlikdə kitabça şəklində çapdan çıxmışdır.

1905-ci il inqilabı qeyd olunduğu kimi milli şüurun oyanmasına, elm, maarif və mədəniyyətin çiçəklənməsinə təkan verdi. Bir-birinin ardınca maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradılmağa başladı. Milli dilin, milli ədəbiyyatın tədris olunduğu məktəblərin, xüsusilə qız məktəblərinin sayı durmadan artırdı. Belə bir xeyirxah və nəcib işə maarifçi-demokrat yazıçılar, ictimai xadimlər və mətbuat ətrafında toplaşan tərəqqipərvər ziyalılar və müəllimlər yaxından kömək edir, əllərindən gələni əsirgəmirdilər.

Uşaq jurnallarının nəşr edilməsi artıq dövrün tələbi idi. Bu jurnalların müəlliflərinin fikrincə xalqın səadət yolunun bağlanmasının qarşısını yalnız elmin, maarifin tərəqqisi və inkişafı ilə almaq mümkündür. Jurnal bu sözləri açıq söyləməsə də bəzi əsərlərin ideyasından bunu hiss etmək olurdu. Uşaq jurnalları klassik Azərbaycan ədəbiyyatı nümunələrini dərc edib xalq çatdırmağı günün vacib məsələlərindən biri sayırdı. "Dəbistan" və "Rəhbər" jurnalı belə bir xeyirxah iş üçün görkəmli ədəbiyyatşünas F.b.Köçərlinin köməyinə arxalanırdı.

Vidadi, Vaqif və Zakirin "Durnalar" şeirləri haqqında düzgün fikri də ilk dəfə F.Köçərli söyləmişdir. O, hər üç şairin "Durnalar" şeirini müqayisəli şəkildə təhlil edir, onların əsas xüsusiyyətlərini aydınlaşdırır. Təqdirəlayiq haldır ki, Vaqifin, Vidadinin və Zakirin oxucu kütləsinə o vaxta qədər az məlum olan bu şeirlərini ilk dəfə "Rəhbər" jurnalı buraxmışdır. F.Köçərli bu münasibətlə yazırdı: "Molla Vəli Vidadinin , Molla Pənah Vaqifin və Qasım bəy Zakirin göy üzündə qatarlaşıb oxuya-oxuya uçan durnalara xitabən yazdığı mürəbbeatı möhtərəm "Rəhbər" səhifələrinə təqdim etməklə belə məlum edirəm ki, bu əsərlər nə Adolf Berjenin Leypsiqdə çap olunan məcmuəsinə və nə də Yusif Qarabağinin kitabçasına daxil olmayıb, nüdrətən tapılan əsərlərdir"(1.s.134).





Görkəmli maarifpərvər Firidun bəy Köçərli uşaq ədəbiyyatı yaradıcılığı ilə məşğul olarkən, Azərbaycanın dahi klassiklərinin əsərlərinə müraciət etməyi və onların əsərlərindən kiçik parçaları uşaqlar üçün jurnal və kitablara daxil etməyi vacib hesab edirdi.

Jurnallarda görkəmli maarif və mədəniyyət xadimlərindən S.M.Qənizadə, Abdulla Sur, Haşımbəy Vəzirov, Məhəmməd Qarayev, İsmayılbəy Qaspirinski, müəllim Naci, H.Mahmudbəyov, Ə.Hüseynzadə haqqında da məlumat verilmişdir. "Sultan Məcid Qənizadə" adlı məqaləni F. Köçərli yazıçının maarif sahəsindəki fəaliyyətinin 25 illiyi münasibətilə yazmışdır. F.Köçərli "Məktəb" oxucuları üçün məşhur Azərbaycan şairi S.M.Qənizadənin babası Ağa Məsih Şirvanidən kiçik bir nəsihəti misal gətirir.

*A oğul, ittihati-millət eylə,*
*Səy eylə, qeyrət eylə, hümmət eylə.*
*Pədərin ismi Murtuza əlidir,*
*Fatma madərindir, əsmət eylə(1.s.142).*

Firidun bəy Köçərli klassiklərimizin həyat və yaradıcılığına bir çox məqalələr həsr edərək, gələcək nəslin onlar haqqında məlumatlı olması üçün çalışırdı. Bu siyahıda Azərbaycan ədəbiyyatının tanınmış simalarından olan Ə.Nəbati də vardır. F.Köçərlinin "Ədəbiyyatımıza dair" seriyasından Seyid Əbülqasim Nəbatiyə həsr edilmiş məqaləsi "Rəhbər"in ilk nömrəsində buraxılmışdır. Bu məqaləsində F.Köçərli Nəbatinin həyat və yaradıcılığını, onun ədəbiyyat tarixindəki yerini də düzgün olaraq müəyyənləşdirmişdir. Uşaqların maraq dünyasının rəngarəngliyinə, genişlənməsinə xidmət edən yazıçıların və onların əsərlərinin ədəbiyyatda vacibliyini F.b.Köçərli əsas faktor olduğunu göstəririd.

Azərbaycan milli uşaq ədəbiyyatının yaranmasında "Dəbistan", "Rəhbər". Və "Məktəb" jurnallarının müstəsna rolu olmuşdur. Bu jurnalların səhifələrində şeir, hekayə, pyes, felyeton, povest, oçerk, məqalə və xalq ədəbiyyatı nümunələri verilməklə müsbət ideyalar təbliğ edilirdi. Bu jurnallar Azərbaycan uşaq ədəbiyyatı tarixində, tərcümə və mətbuat tarixində müəyyən əhəmiyyət daşıyan nümunələrdəndir.

O dövrdə həm ədəbi, həm də ictimai-siyasi fəaliyyət göstərən ziyalılarımızdan F.b.Köçərli, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, R.Əfəndiyev, Ə.Haqverdiyev, S.S.Axundov, Ü.Hacıbəyov, A.Şaiq, A.Səhhət, S.M.Qənizadə, M.Mahmudbəyov kimi müəllim və yazıçıların fəaliyyət dairəsi daha geniş və çoxcəhətli idi. Onlar bədii yaradıcılıqla yanaşı müəllimlik edir, dərslik, dərs vəsaitləri və proqramlar hazırlayır, dövrü mətbuatda fəal iştirak edir, teatr tamaşaları hazırlayır, aktyor və rejissor kimi də işləyir, maarif, mədəniyyət və incəsənətin bütün sahələrində böyük fədakarlıq göstərirdilər. Bu dövrdə müəllimləri düşündürən vacib məsələlərdən biri də yeni üsullu məktəblərin artması və yeni tələblər səviyyəsində şagirdlər üçün dərsliklərin yaradılması idi. Bu da şübhəsiz, yeni məzmunlu uşaq ədəbiyyatının yaradılmasına zəmin yaradırdı.

Azərbaycan uşaq jurnalları ayrı-ayrı şəxsiyyətlərin əsərlərindəki ibarəli sözlərlə də oxucuları tanış edirdi. Dahi şəxsiyyətlərin nəsihət xarakteri daşıyan sözləri uşaqların təlim-tərbiyəsində mühüm rol oynayan vasitələrdəndir. Məsələn: "Elm adamları ilə həmsöhbət olmağa çalışın", "Pozğun könüllü adamlar adamın yaxşılığını görə bilməzlər, eyiblərini arayıb tapmağa çalışarlar" və s. bu kimi sözlər bu qəbildən olan məsəslllərdəndir. Atalar sözlərini də burada misal göstərmək olar. Folklor nümunəsi olan atalar sözləri insanı düşündürən, onu gələcəyə hazırlayan, vətəni, yurdu, insanları sevməyi öyrədən məsələlərdir.

Bundan başqa Firidun bəy Köçərli uşaq mətbuatı, uşaq ədəbiyyatı, dərslik və bədii kitabların nəşr edilməsində fəal-





lıq göstərən ziyalılarımızı bu sahədə daha da mübariz olmağa, xalqın tərəqqisi uğrunda çalışmağa həvəsləndirirdi.

Azərbaycan müəllimlərinin birinci (1906) qurultayında maarif xadimləri ilə yanaşı qabaqcıl ziyalılar da iştirak edirdilər. Qurultayda təkmilləşmiş əlifbanın tətbiqi, səsli dərs üsuluna keçilməsi, əyani vəsaitdən geniş istifadə, milli ədəbiyyatın və dilin əsas fənlərlə eyni hüquqa malik olması, yeni dərsliklərin hazırlanması və başqa məsələlər müzakirə olundu.

Qurultayın gedişinə istiqamət verən və tərəqqipərvər müəllimləri bir cəbhədə birləşdirən N.Nərimanov ümumiyyətlə yeni üsullu məktəb şəbəkələrinin genişləndirilməsi üçün qızğın fəaliyyət göstərirdi. N.Nərimanov hələ 1899-cu ildə "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" kitabını yazmış və S.M.Qənizadə ilə birlikdə "Sovqat" adlı şəkilli uşaq jurnalı və "Məktəb" adlı elmi-pedaqoji məzmunlu aylıq jurnal dərc etmək təşəbbüsünü irəli sürmüşdür.Bu təqdirəlayiq işlərdə Firidun bəy Köçərlinin özünəməxsus fəaliyyəti olmuşdur (7.s.82).

Maarifpərvər müəllimlər üstünlüyü daha çox dərslik və dərs vəsaitlərinin hazırlanmasına verirdilər. Dərs vəsaitlərinin hazırlanmasının çətin bir iş olduğunu qeyd edən ziyalılar bunun təlim-tərbiyə işinə müsbət təsir edəcəyini anladıqları üçün öz ədəbi və ictimai fəaliyyətlərini məhz bu istiqamətə yönəldirdilər. Firidun bəy Köçərli də bir çox müasirləri kimi bu fikrləri dəstəkləyərək ciddi addımlar atılması vaxtının çoxdan çatdığını söyləyirdi. Köçərli ədəbi-bədii yaradıcılığın pedaqoji fikirlər ilə bağlılığını, sıx vəhdət təşkil etdiyini söyləyir və tədris olunacaq əsərlərə ciddiliklə yanaşılmasını nəzərə çatdırırdı.

XX əsr uşaq ədəbiyyatının zənginləşməsində və yayılmasında görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin xüsusi xidməti olmuşdur. O şifahi xalq ədəbiyyatının ən yaxşı nümunələrindən toplayıb hazırlanmış "Balalara hədiyyə" (1912) adlı dərs vəsaitini yeni pedaqoji prinsiplər əsasında tərtib etmişdir.

Qeyd edildiyi kimi Azərbaycanda uşaq ədəbiyyatının, uşaq folklorunun yaranması, toplanması və nəşrə başlaması XIX əsrin əvvəllərindən başlamışdır. Uşaq ədəbiyyatının əsas qolu şifahi xalq ədəbiyyatından gəlmədir. Yəni uşaq ədəbiyyatı folklor nümunələrindən alınmış əsərlərin əsasında hazırlanmışdır. O dövrdə artıq bütün Avropa ölkələrində uşaq folkloru, uşaq ədəbiyyatı yayılmışdır. Uşaq folklorunun toplanması, nəşri və öyrənilməsi işinə İngiltərə və Almaniyada XIX əsrin 2-ci yarısından başlanmışdır. XİX əsrin 40-60-cı illərindən Rusiyada uşaq folkloruna aid bir sıra nümunələrin, həmçinin məqalələrin çap edilməsinə başlanmışdır. Azərbaycanda uşaq folklorunun toplanması və nəşri işi XIX əsrin əvvəllərindən başlamış olsa da inkişaf dövrü XX əsrə düşür.

Uşaq ədəbiyyatının yaradıcılarından olan F.b.Köçərli hələ gənc yaşlarından açıq dünyagörüşünə, müasir fikrə malik idi. Onun fikirləri bir çox hallarda birmənalı qarşılanmayırdı. Ağır dövrdə yaşayıb-yaradan Köçərli, yaradıcılığında yeni fikirlər irəli sürməklə yanaşı, eyni zamanda da həyatın nəbzini tutmağa çalışırdı.

Mənbəələrdə qeyd olunur ki, uşaq folkloru və ümumilikdə uşaq ədəbiyyatı çox uzun bir inkişaf yolu keçmişdir. Bu ədəbiyyatın kökündə və sonradan inkişaf edərək bu günümüzə gəlib çatmasında əsasən nənələrin, anaların və dayələrin xüsusi zəhməti, səyi olmuşdur. Uşaq ədəbiyyatında öz əksini tapmış tapmacalar, nağıllar, laylalar, sayaçı sözlər, məsəllər və. s. nümunələr nənələlərin vasitəsi ilə ağızdan-ağıza ötürülərək günümüzə gəlib çıxmışdır. Uşaqların zövqünü oxşayan, onların gələcək həyatda formalaşmasında, təlim-tərbiyəsində uşaq ədəbiyyatın həqiqi mənada böyük rolu vardır. Bu gün orta məktəb dərsliklərində yer almış bu cür folklor nümunələri nənələrdən bizə gəlib çatan mirasdır.

Azərbaycanda uşaq ədəbiyyatının inkişafı XX əsrdən başlasa da dahi Nizami Gəncəvidən ta Q.Zakirə qədər yaranmış





ədəbiyyatımızda uşaq ədəbiyyatının bir sıra klassik nümunələrinə rast gəlmək olur. Bu səbəbdən də Azərbaycan uşaq folklorunun tarixinin çox qədimlərə aid olduğu üzə çıxır. Ona görə də maarifpərvər xadimlər bədii söz sənətinə, xüsusən də folklor materiallarına xüsusi maraq göstərir, bu folklor nümunələrinin təbliğ olunmasına, dərsliklərdə istifadə edilməsinə çalışırdılar.

Çünki şifahi xalq ədəbiyyatı xalqın özü tərəfindən öz doğma dilində yaradılmışdır. Bu ədəbiyyat həm də xalqın milli xüsusiyyətlərini, adət-ənənəsini, psixologiyasını, arzu və istəyini, kədər və sevincini şirin, rəvan bir dil ilə ifadə edirdi (7.s.61).

Uşaq ədəbiyyatı hazırlamaq çətin olduğu qədər həm də çox məsuliyyətli bir iş olduğu üçün F.b.Köçərli bu işlə məşğul olan şair və yazıçılara diqqətli olmağın vacibliyini qeyd edirdi. Uşağın gələcək təlim-tərbiyəsində bu ədəbiyyatın rolunun əvəzsiz olduğunu bilən Köçərli körpələrin ruhunu oxşayan, onların anlaya biləcəyi dildə yazmağı tövsiyə edirdi. Bütün bu tələblərə cavab verən uşaq ədəbiyyatı illər ötsə də yaddaşlarda yaşaya bilir.

Tərbiyənin insan taleyində çox vacib olduğunu, insanın gələcəyini müəyyənləşdirməsində həlledici rol oynadığını qeyd edən Köçərli dövrün tanınmış və gənc yazarlarına uşaqların iç dünyasına uyğun əsərlər yaratmağı tövsiyə edirdi. O, uşaqlar üçün istər şeir, hekayə, nağıl və istərsə də başqa janrlarda yazılmış əsərlərin uşaqları düşündürməsini, onların zövqünə uyğun olmasını və sırf uşaqlara xidmət göstərən əsərlər yaradılmasını istəyirdi.

F.b.Köçərli Azərbaycan ədəbiyyatı tarixinin yaradıcısı kimi uşaqlara məxsus bədii ədəbiyyatın yaranmasına və onun tədrisinə böyük ehtiyac duyulduğunu çox gözəl başa düşürdü. Uşaqların fantastik xəyal dünyasını daha da işıqlandırmaq məqsədilə belə ədəbiyyatın yaranması vacib idi.

Böyük maarifpərvər, istedadlı pedaqoq Firidun bəy Köçərlinin uşaq mətbuatı və uşaq ədəbiyyatının yaradılmasında,

həmçinin inkişaf etdirilməsində məqsədi məktəblilərin bilik səviyyəsinin daha da təkmilləşməsi, dünyagörüşlərinin artması və mükəmməl savada yiyələnməsi idi. O çox gözəl başa düşürdü ki, inkişaf üçün yalnız məktəbdə oxumaq yetməz, mətbuatın səhifələrində olan maraqlı yazıların və yeni-yeni əsərlərin mütaliə edilməsi ilə insan təkmilləşə bilər. Bunun üçün uşaq ədəbiyyatının yaradılmasına böyük tələbat var idi. Yazarların bu yolda əmək sərf etmələrinin vaxtı yetişmişdi. Bir-birinin ardınca həm tərcümə əsərlərinin, həm də milli əsərlərin meydana gəlməsi dövrün ən vacib məsələlərindən birinə çevrilmişdir. Bu yolda qələmlərini sınayan ədiblər əsərlərinin milli ruhda olmasına daha çox önəm verirdilər.

F.b.Köçərli, A.Səhhət, A.Şaiq, H.Mahmudbəyov, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir və digər yazarlarımızın yaratdıqları uşaq əsərləri bu gün də öz aktuallığını saxlamaqdadır. Uşaq ədəbiyyatının yaradılmasında atılan addımlar istər şeirdə, istərsə də nəsrdə olsun uğurlu gələcəyə atılan addımlar hesab edilə bilər. Gələcək gənc nəslin bədii zövqünün formalaşmasında və bilik səviyyəsinin zənginləşməsində uşaq mətbuatı və ədəbiyyatı böyük rola malik idi.

Lakin bir tənqidşünas olaraq Firidun bəy bu ədəbiyyatların hazırlanmasında, yazılışında və nəşrində yol verilən qüsurları çəkinmədən tənqid edərək, hər kəsə uşaqlar üçün asan, sadə dildə yazmağı məsləhət görürdü. Əslində uşaqlar üçün yazmağın, onların zövqünü oxşamağın, onların dilini tapmağın nə qədər çətin olduğunu Firidun bəy başa düşürdü. O bilirdi ki, uşaq ədəbiyyatının başlıca vəzifəsi uşaqları cəmiyyət üçün hazırlamaqla bərabər, eyni zamanda gənc nəsli tərbiyə etmək yolunda ən əsas vasitədir. Uşaq ədəbiyyatı bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrətməli, onları bu sərvətin əsl varisi kimi tərbiyə etməlidir. Firidun bəy Köçərli uşaqlar üçün yazılmış dərsliklərin nöqsanlarını tənqid etməklə yanaşı





rus şairlərindən Puşkinin ədəbi irsini misal gətirərək göstərirdi ki, açıq, sadə, mənzum hekayələr, nağıllar yazması ona əbədi şöhrət və ad qazandırmışdır. Bu da Puşkinin doğma ana dilini və xalqının adət-ənənələrini yaxşı bilməsindən irəli gəlmişdir.

F.b.Köçərli təəssüflə qeyd edirdi ki, Puşkin səpgisində uşaqlara nağıl yazan şairlərimiz olmayıbdır (2.s.15).

F.Köçərli təəssüflə qeyd edirdi ki, Qasım bəy Zakirin uşaqlar üçün yazılmış əsərlərinin dili qəlizdir. Yazarlarımıza çox böyük hörmət bəsləyən Firidun bəy onları incitməmək şərtilə onlardan uşaqlar üçün dilimizə yatmayan qəliz sözləri işlətməməyi məsləhət görürdü. Firidun bəyin yaxın dostlarından olan A. Şaiq tərəfindən dərslikdə Qasım bəy Zakirin "Tülkü və Qurd" hekayəsi verilmişdir. Hekayə belə başlayırdı:

*Bir rubahi-kühənsala gedirdi,*
*Qismət üçün seyri-aləm edirdi.*

Bu haqda Köçərli belə qeyd etmişdir ki, bu misralarda bəzi sözləri dəyişdirib sadələşdirmək olardı. Məsələn:

*Bir dəfə bir qoca tülkü gedirdi,*
*Qismət üçün seyri-aləm edirdi.*

-kimi sadə sözlərlə əvəz etmək olardı.

Görkəmli ədəbiyyatşünas F.Köçərli Q.Zakirin poetik yaradıcılığını yüksək qiymətləndirir, onun sənəti haqqında yazır: "Zakirin hər qism əşar və kəlamı mövcuddur: qəzəliyyat, mürəbbəat, müxəmməsat, şeiri-müstəzad, tərkibbənd, tərcibənd və sairə. Fars dilini mükəmməl surətdə bilirmiş və bu dildə bir çox abdar şeir və qəzəlləri vardır. Türki (azərbaycanca) qəzəlləir var ki, Füzuliyə bərabərdir. Müxəmməs və qafiyələri Vaqifinkindən əskik deyil" (7.s.67).

F.Köçərli sonralar A.Şaiqin məsləhət üçün ona göndərdiyi "Bahar xanım" adlı birpərdəlik mənzum pyesini çox bəyəndiyini, hətta Üzeyir bəylə danışaraq bu pyesi operetta şəklində işləməyi məsləhət görmüşdü. Bu cür səmimi yazışmalardan bəlli olur ki, həqəqətən də F.b.Köçərli xalqını sevdiyi üçün, onlara gözəl əsərlər yazılmasını arzuladığı üçün bəzən dostlarını da tənqid edirdi. Sözsüz ki, bu tənqidlər qərəzli deyil, dostluq, qardaşlıq xarakteri daşıyırdı. Dostları olan şair və yazıçılar Firidun bəyin belə tənqidindən incimirdilər, əksinə yeni-yeni gözəl əsərlər meydana çıxarmağa çalışırdılar. F.Köçərlinin uşaq ədəbiyyatına olan böyük həvəsi onun yeni yaradıcı fikirlərinin ortaya çıxmasına səbəb olurdu.

F.b.Köçərli uşağın yaş xüsusiyyətini, uşağın qavrama dərəcəsini, zövqünü, bilik səviyyəsini nəzərə almaqla yazmağı məsləhət görürdü. Uşaq dünyasına daxil olmaq, uşağı sevmək azdır, təlim-tərbiyə mövzusuna aid edilən yazılarla uşağın diqqəti cəlb etmək, onu həyata hazırlamaq və uşaqları duymaq gərəkdir. Qəlbən həssas olan uşaqlar üçün son dərəcə diqqətli olmaq və onların maraq dairəsini bilmək gərəkdir. Uşaq yazıçısı bu xüsusiyyətləri nəzərə almadan yaza bilməz.

Bundan başqa F.b.Köçərli ədəbiyyatda dil məsələsinə toxunaraq, dilimizin qəlizləşdirilməsində, xalq tərəfindən çətin anlaşılmasında bizim öz dilimizi yaxşı bilməməyimizi əsas göstərirdi. Kiçik yaşlı uşaqlar üçün yazılmış əsərlər sadə, rəvan, aydın olmalıdır. Yorucu əsərlər uşağı mətləbdən uşaqlaşdırar, məzmun yaddan çıxar. F.Köçərli Azərbaycan ədəbiyyatı tarixinin tədqiq edilib öyrənilməsində, dövrünün ədəbi prosesinə dair tənqidi məqalələrdə, xüsusilə uşaqlar üçün hazırlanan dərsliklərdə və uşaq əsərlərində həmişə maarifçilik mövqeyindən çıxış etmişdir.

Köçərli fars, ərəb, osmanlı şivəsinə meyl etməyimizin nəticəsində dilimizi qüsurlu hala gətirməyin günahını yalnız





özümüzdə görürdü. Onun tənqid etdiyi yazıçı və şairlərin çoxu F.b.Köçərlinin dostluq etdiyi insanlar idilər. Lakin, bu insanlar Firidun bəy tərəfindən qərəzli tənqid olunmadıqlarını bilirdilər və haqlı tənqidi qəbul edərək incimirdilər. Əksinə ədibə haqq qazandırırdılar.

Onlar həm uşaqlar üçün dərsliklərin hazırlanmasında, həm uşaq ədəbiyyatlarının yazılmasında, həm də uşaq jurnal və məcmuələrinin nəşr edilməsində üzləşdikləri çətinliklərə baxmayaraq, mübarizə aparır və məqsədlərinə nail olana qədər geri çəkilməyirdilər.

Belə maarifpərvər ziyalıların əksəriyyəti pedaqoji fəaliyyətlə məşğul olan müəllim təbəqəsi idi. "Uşaqların dilini, xasiyyətin müəllimi daha gözəl bilir" fikri ilə çalışan pedaqoqlar kiçik balaları sevindirərək bir-birindən maraqlı əsərlər üzə çıxarırdılar. Onlar mütəmadi olaraq uşaqlar üçün əsərlər yazır, dövrü mətbuatda maraqlı yazılar çap etdirirdilər. Onlardan ilk olaraq Firidun bəy Köçərlini, daha sonra olmaqla Ş.Əfəndizadə, Ə.A.Münzib, A.Ağabəyli, B.Mürşüd, C.Əsgərzadə, Ə.Cəfərzadə və F.Ağazadəni misal göstərə bilərik.

Azərbaycanın maarifpərvər ziyalıları yeni məktəblər açmaq, dərslik və kitablar, qəzet və jurnallar buraxmaq uğrunda əllərindən gələni əsirgəmirdilər. 1881-ci ildə A.O.Çernyayevski tək, 1888-ci ildə isə Səfərəlibəy Vəlibəyovla birlikdə "Vətən dili" dərsliyini buraxdı. Bundan sonra S.Vəlibəyovun "Qüdrəti-xuda" (1888), İ.Qaspirinskinin "Xaceyi-Səbyan" (1889), R.Əfəndizadənin "Uşaq bağçası" (1898), "Bəsirətül-ətfal" (1901) kimi dərslik və məcmuələri çap olundu. "Uşaq çeşməyi" (A.Şaiq, 1907), "Gülşəni-ədəbiyyat" (A.Şaiq, 1910), "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" (N.Nərimanov, 1907), "İkinci kitab" (A.Ə.Məhəmmədzadə, A.Ə.Mollazadə, 1910), "Ana dili" (Mirzə Qəmərlinski, Nərimanbəyov, Şaxtaxtlı, Rəcəbov, M.Qazıyev, Cəfərbəyov, Mirzə Ələsgər, Mirzə

Abdulla oğlu, 1908), "Birinci il müsəvvər türk əlifbası və ilk qiraət" (M.Mahmudbəyov, 1907), "İkinci il" (S. Əbdürrəhmanbəyov, M.Mahmudbəyov, S.Axundzadə, F.Ağazadə, A.Talıbzadə və A.Əfəndizadə, 1908), "Yeni məktəb (A.S.Mehdizadə, M. Mahmudbəyov, 1909), "Gülzar" (A. Şaiq, 1912), və s. əsərlər Azərbaycan pedaqoji fikir tarixində mühüm rol oynamaqla, uşaqların yaşına və bilik səviyyəsinə uyğun ilk dərsliklər idi. Adlarını çəkdiyimiz dərsliklərin bəzisi məşhur rus pedaqoqu K.D.Uşinskinin təlimi və onun dərslikləri əsasında tərtib edilirdi. (1.s.4).

F.b.Köçərli bu dərsliklərin yaranmasını alqışlayır, dirçəlməkdə olan gənc nəslin inkişafında, ana dilinin yaxşı öyrənilməsində onların böyük rolu olacağına inanırdı. Azərbaycan uşaq jurnallarının ayrı-ayrı yazıçı və şair, maarif xadimi, alim, səyyah və tarixçilər haqqında buraxdığı tərcümeyi-hal xarakterli məqalə və oçerklər mövzu dairəsinin genişliyi və aktuallığı ilə diqqətəlayidir.

F.b.Köçərli ədəbi irsinə nəzər yetirdikdə onun Azərbaycan xalq ədəbiyyatının müxtəlif sahələri ilə yanaşı, uşaq ədəbiyyatı və uşaq folkloru daha mühüm rol oynadığını görürük. Maarif və mədəniyyətin çiçəklənməsi, gənc nəslin təlim-tərbiyəsində çox böyük rolu olan uşaq ədəbiyyatı artıq özünün inkişaf pilləsinə qədəm qoymuşdur. Bu XX əsrin birinci onilliyinə təsadüf etsə də, bu sahədə A.Şaiq, H.Mahmudbəyov, N.Nərimanov, C. Məmməsquluzadə, M.Ə.Sabir və digər yazıçı və şairlər zəngin, dəyərli əsərlər yaratmağa səy göstərirdilər. Uşaq ədəbiyyatının yaranması haqqında bir sıra fikirlər söylənilsə də XX əsr Azərbaycan uşaq ədəbiyyatının yaranmasını məhz Köçərlinin adı ilə bağlayırlar.

F.b.Köçərli rus tənqidçisi Belinskinin sözlərinə istinadən qeyd edirdi ki, uşaq ədəbiyyatı o dərəcədə oxunaqlı yazılmalıdır ki, o böyüklərin də marağına səbəb olsun, onları da məşğul edə





bilsin və uşaqlar da böyüklərin sevdikləri roman, hekayə qədər uşaq ədəbiyyatını sevsinlər.

Firidun bəy Köçərli dil uğrunda apardığı mübarizədə yalnız uşaq ədəbiyyatının təkmilləşməsinin deyil, həm də ibtidai dərsliklərinin sadə dildə yazılması tələbi ilə çıxışlar edirdi. O, öz müasirlərinə gözəl ədəbiyyat bilicisi Qoqoaşvili, Uşinski kimi istedadlı müəlliflərin tərtib etdiyi kitablardan istifadə etməklə, Azərbaycan ibtidai məktəbləri üçün dərsliklər hazırlanmaqlarını məsləhət görürdü.

Uşaqlar üçün yazılmış əsərlərdə dilimizə yad olan ərəb, fars sözlərinin daxil edilməsini tamamilə qəbul etməyən Köçərli gələcəkdə bunun dilimizin itirilməsinə gətirib çıxaracağını qeyd edirdi. F.b.Köçərli həm məzmunsuz, həmdə qəliz, anlaşılmaz islahatları Azərbaycan dili üçün səciyyəvi hal hesab etmirdi (2.s.148).

Dil məsələsinin uşaq ədəbiyyatında böyük rolu var idi. Dövrünün ən mühüm problemlərindən olan dil məsələsinin uşaq ədəbiyyatında geniş müzakirəsinə və yer almasına Firidun bəy Köçərli tərəfdar deyildi.

F.Köçərli ədəbi irsində uşaq ədəbiyyatı xüsusi yer tutmuşdu. Firidun bəy folklorda olduğu kimi uşaq ədəbiyyatını ümumi ədəbiyyatın ayrılmaz, tərkib hissəsi hesab edirdi. O, uşaq ədəbiyyatının onların təlim-tərbiyəsində, təhsilində, ümumiyyətlə hər bir sahədə əhəmiyyət daşıdığını qeyd edirdi. Köçərli hətta uşaqların hüsnxəttində, danışıq tərzində onlar üçün yazılmış əsərlərin xüsusi rolu olduğunu söyləyirdi. Bu səbəbdən uşaq ədəbiyyatının işıqlandırılmasında, yayılmasında ziyalılı maarifpərvərlərin üzərinə daha artıq məsuliyyət düşüdüyünü "Balalara hədiyyə" əsərini meydana gətirməklə əsaslandırırdı.

F.b.Köçərlinin uşaqlar üçün yazılmış, böyük tərbiyəvi əhəmiyyətə malik əsərlər haqqında söylədiyi yüksək fikirlər, bəzi gənc yazarları həvəsləndirir, onları daha gözəl əsərlər ya-

ratmağa ruhlandırıdı.

Bütün söylənilənlərə rəğmən Köçərli ədəbiyyata elmi cəhətdən yanaşmağı məqbul sayırdı.

Bu da bir faktdır ki, F.Köçərliyə qədər XX əsrdə uşaq ədəbiyyatı haqqında bir sıra elmi-nəzəri fikir yaransa da, bu sahədə sistemli tədqiqat onun adı ilə bağlıdır (2.s.156).

Firidun bəy Köçərliyə görə, xalqının tərəqqisinə xidmət etmək istəyən hər bir Azərbaycan vətəndaşı ilk növbədə özünü deyil, ictimaiyyəti düşünməli, xalqının inkişafına mane olan geriliyə qarşı mübarizə aparmalıdır.

F.Köçərli bütün varlığı ilə xalqa bağlı olan, ömrünü xalq maarifinin inkişafına sərf edən, yenicə həyata qədəm qoyub, dil açan Azərbaycan uşaqlarının tərəqqisi naminə çalışan və gənclər üçün "Tülkü və Çaq-çaq bəy", "Allah xofu", "Qurban bayramı" kimi dərin məzmunlu bədii əsərlər, yeni tipli məktəblər üçün dərsliklər yazan, dərs vəsaitləri yaradan, proqramlar tərtib edən S.M.Qənizadənin fəaliyyətini də yüksək qiymətləndirir. Yazıçının bədii əsərlərində dil və üslubun təmizliyi və aydınlığını da başqaları üçün nümunə göstərir (2.s.169).

F.b.Köçərli şifahi xalq ədəbiyyatını yazılı ədəbiyyatın bünövrəsi hesab edirdi. O, uşaqların təlim-tərbiyəsində folklorun mühüm amil olduğunu dəfələrlə qeyd edərək, folklora olan yüksək münasibətini hər kəsə aşılamağa çalışırdı. Firidun bəyin sevə-sevə qələmə aldığı "Balalara hədiyyə" adlı kitabı gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rol oynamışdır. Çünki, bu yığcam kitabda yer almış hikmətli sözlər və nağıllarda əks olunan ağıl, zəka, təmkin, mərdlik, qorxmazlıq, hünər, cəsarət gənc nəsldə özlərini bu qəhrəmanlara oxşatmaq meylini oyandırmışdır.

Kitabın əvvəlində "Müəllifin ifadeyi-məram"ında bu haqda belə deyilir:"O millət ki, öz tarixini, dolanacağını, vətənini və dilini sevir, bu qisim əsərləri kəmali-şövq və diqqətlə cəm





edib ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsini onları öyrətmək ilə başlayır"(13.s.143).

F.Köçərlinin qələmindən çıxan bir çox məqalələr və bədii əsərlər uşaqlara doğma ədəbiyyatı sevdirmək, onları ümüumxalq dilinin zənginlikləri ilə tanış etmək ruhunda yazılmışdır. Puşkin yaradıcılığından tərcümə etdiyi "Torçu və balıq" adlı kitabı Köçərlinin uşaq ədəbiyyatına olan qayğıkeş münasibətinin təzahürüdir..

Azərbaycan maarifinin inkişafı sahəsində böyük xidməti olan S.M.Qənizadə ürək dostu olan Firidun bəy Köçərlinin "Torçu və balıq" adlı tərcüməsinin kitabça şəklində çıxmasına çox sevinmiş və müsbət rəyini bildirmişdir. (2.s.170).

F.b.Köçərlinin "Balalara hədiyyə" kitabı maarifçilər tərəfindən müsbət hadisə kimi qarşılanmışdır. S.Hüseyn yazırdı: "Balalara hədiyyə" kitabı cocuqların ruhuna azuqə verdiyi kimi, böyüklərimizin də cocuqluğunu və ondakı yaşayışını xatirinə gətirərərək onlarda keçmişinə və millətinə qarşı bir istək və məhəbbət duyğusu oyadır".

Vətənin təbiətini, füsunkar mənzərəsini gözəl tərənnüm edən ədib, oxucusuna sanki bir vətənpərvərlik hissi aşılayır. Gələcək nəsllərin mübariz, cəsur, işgüzar olmasını gənclərə öyrədir. Firidun bəy Köçərli uşaqlar üçün yazmaq elə böyüklər üçün yazmaq deməkdir, bəlkə də ondan da bir qədər çətindir. Çünki, böyüklər hardasa bir qədər qəliz sözləri anlaya bildikləri halda, uşaqlar üçün bu anlaşılmaz ola bilər. Bu səbəbdən Köçərli bir tənqidşünas olaraq uşaqlar üçün yazılmış əsərlərə daha məsuliyyətlə yanaşmağı, əsərlərin daha sadə və aydın dildə yazılmasını tələb edirdi. Bu əsərlərin daha effektli olmasında folklor janrının böyük əhəmiyyəti vardır. Şifahi ədəbiyyatın motivləri əsasında meydana gələn əsərlər uşaqların zehni inkişafına kömək edir, onları düşündürür və əsərin daha oxunaqlı və yadda qalmasına səbəb olur.

F.Köçərlinin "Balalara hədiyyə" kitabı həcmcə kiçik olsa da çox böyük ideyaları, fikirləri, perspektivləri özündə əks etdirmişdir.

"Balalara hədiyyə" kitabının məziyyətlərindən bəhs edərkən qeyd etmək lazımdır ki, bu əsər uzun müddət Azərbaycan məktəblərində bir dərslik kimi istifadə edilmişdir (2.s.180).

Dövrü mətbuatın, dərsliklərin məhdud olduğu bir vaxtda uşaq ədəbiyyatı demək olar ki, ümumiyyətlə yox dərəcəsində idi. Köçərli uşaq ədəbiyyatı yaradıcılığı ilə bu boşluğu doldurmağa çalışırdı. Qeyd etdiyimiz kimi Azərbaycan uşaq ədəbiyyatı uzun əsrlərdən üzü bəri xalq folklor nümunələrindən, xalq ədəbiyyatından bəhrələnərək yaranmışdır. Şifahi xalq ədəbiyyatımızın inciləri olan nağıllar, dastanlar, tapmacalar, yanıltmaclar, bilməcələr, təmsillər və s. əsasında uşaq ədəbiyyatı meydana gəlmişdir. Bunun inkişaf dövrü sonrakı əsrləri əhatə edir.

Azərbaycan uşaq ədəbiyyatının zənginliyi, unudulmayaraq bu günümüzə qədər gəlməsi klassiklərimizin, eləcə də Firidun bəy Köçərlinin gərgin zəhmətinin nəticəsidir. Onun əmək fəaliyyətinin rəngarəngliyi bu sahədə də özünü doğrultmuş və uşaq ədəbiyyatına olan xüsusi marağı dövründəki müasirlərininin də diqqətini cəlb etmişdir. Firidun bəy ədəbiyyatın bütün sahələrinə toxunurdu. Həm tənqidi nöqteyi nəzərdən, həm yaradıcılığı cəhətdən.

Firidun bəy Köçərli yaradıcılığını araşdırarkən tədqiqatçılar tərəfindən onun folkorun, uşaq ədəbiyyatının ilkin yaradıcısı kimi qələmə verildiyini görürük. Lakin Köçərli bütün bu söylənilənlərlə yanaşı, həm də uşaq tərcümə ədəbiyyatının ilkin yaradıcılarından biri kimi Azərbaycan ədəbiyyatı tarixinə düşmüşdür. Onun açdığı cığır bir çox maarifçi ziyalılarımızın yolunda çıraq olmuş, söz sənətkarlarının ilham mənbəyinə çevrilmişdir. Dövrün mədəni inkişafında, maarifçilik ideyalarının yayılmasında, tərcüməçilik işində Firidun Köçərlinin xidməti





bir örnək, bir sıçrayış idi.

Azərbaycan xalqının etnoqrafiyasına, şifahi ədəbiyyatının bəzi janr və növlərinə-atalar sözləri, bayatılar, tapmacalar, nağıllar, dastanlar, nəğmələr, laylalar, uşaq oyun nəğmələri və s. material nümunələri daxildir. Bu nümunələrin toplanmasında F.Köçərli də diqqətəlayiq işlər görmüşdür.

F.b.Köçərlinin yaradıcılığında uşaqlar üçün yazılmış və beş il işıq üzü görməyən, nəhayət 1912-ci ildə çap olunan "Balalara hədiyyə" adlı kitabı XX əsr Azərbaycan uşaq ədəbiyyatının ən böyük uğurlarından sayılır.

F.Köçərli uşaqlar üçün yazılmış "Balalara hədiyyə" adlı kitabının müqəddiməsində öz ürək sözlərini bu cür ifadə etmişdir: "Keçmişdə şan və qüvvət sahibi olan türk milləti öz məişətinə, ayin və adətinə dair yaratdığı qisim-qisim nəql və hekayələr, gözəl mənzumə və əviyyatlar, hikmətamiz məsəllər (atalar sözləri), nazik mənalı müəmma və tapmacalar, balaların qəlbini açan düzgülər və yanıltmacla, heyvanat qisminə məxsus sayaçı sözlər mürури əyyəmlə xatirələrdən çıxıbdır və bu halda unudulmaqdadır. O millət ki, öz tarixini, dolanacağını, vətənini və dilini sevir, bu qisim əsərləri kamal-şövq və diqqətlə cəm edib qiymətli sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsini onları öyrətməklə başlayır. Bu barədə qonşularımız daha irəli gediblər. Türk millətinin əsrlərcə yaradıb vücuda gətirdiyi nağıl və hekayələri və xoşlarına gəldiyi məsəlləri özlərinə məxsus edib"erməni nəql və məsəlləri" adı ilə başqalarına elam edirlər. Amma biz onların qədrini bilmirik və itib batmağına əsla etina etmirik, hər işdə qəflətdə qafil olduğumuz kimi bu məsələlər dəxi böyük səhv və qəflətimiz zahir olur"(2.s.157).

Maarifçilik ideyaları yayan və bu yolda əzmlə mübarizə aparan ziyalılarımız çox gözəl anlayırdılar ki, maarifçiliyin əsas yollarından biri də uşaq ədəbiyyatının inkişaf etdirilməsi və balacaları elə kiçik ikən maariflənməyə sövq etməkdir. XX əsr

ədəbiyyatının uşaq ədəbiyyatı ilə bağlılığını məhz bu səbəbdən daha gözəçarpan, daha mükəmməl hesab etmək olar.

XX əsr Azərbaycan ədəbiyyatında F.Köçərli yaradıcılığı ilə sanki yeni dövr, yeni mərhələ başlanmışdır. Bu dövrü Azərbaycan ədəbiyyatınıda uşaq ədəbiyyatı dövrü də adlandıra bilərik. F.Köçərli bir folklorşünas olaraq uşaq folkloru və uşaq ədəbiyyatını ümumi ədəbiyyatın ayrılmaz hissəsi hesab edirdi. Yazarlarımızın əksəriyyətinin məhz bu dövrdə orijinal əsərləri ilə meydana çıxması bunu bir daha təsdiq edir.

Maarifçilik tərəfdarları olan M.F.Axundov, N.Vəzirov, H.Zərdabi, Ü.Hacıbəyov, M.T.Sidqi, S.M.Qənizadə, S.Ə.Şirvani, A.Şaiq, A.Səhhət, M.Ə.Sabir və başqaları maarifi yaymaq uğrunda uşaq mətbuatının, uşaq ədəbiyyatının və uşaq folklorunun çox böyük rolu olduğunu təsdiq edir və bu yolda gərgin mübarizə aparırdılar. Bu cəhətdən Firidun bəy Köçərlinin və onun müasirlərindən Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Süleyman Sani Axundov, Tağı Şahbazi və Abbas Səhhətin uşaq ədəbiyyatı yaradıcılığı daha mükəmməl, daha sadə idi. Uşaq ədəbiyyatının bir gözəlliyi də onda idi ki, o təkcə uşaqların deyil böyüklərin də maraq dairəsinə uyğun gəlirdi. Biri-birindən maraqlı təmsillərin, şeirlərin, nağılların, atalar sözlərinin, zərb məsəllərin və tapmacaların böyük kütlə tərəfindən sevilərək oxunması maariflənmədə ən güclü vasitə metodu idi. Məsələn Firidun bəy Köçərlinin "Balalara hədiyyə" adlı kitabındakı "Layla" adlı şeirində oxuyuruq:

*Layla dedim ucadan,*
*Ünüm çıxdı bacadan*
*Səni tanrı saxlasın,*
*Çiçəkdən, qızılcadan.*
*Balam layla, a layla!*
*Gülüm layla, a layla!*





*Layla beşiyim layla,*
*Evim, eşiyim layla.*
*Sən yat yuxun alginən,*
*Çəkim keşiyin layla!*
*Balam layla, a layla!*
*Gülüm layla, a layla!*

və yaxud,

*Mən aşiqəm balasın,*
*Laçın verməz balasın.*
*Mən balamı istərəm,*
*Balam istər balasın.*

Sadə, aydın dildə yazılmış bu dörd misralıq şeirdə valideynin uşağa olan sevgisi, məhəbbəti qeyd edilmişdir. Bu səpgidə yazılan şeirlər təkcə oxumaq xatirinə yazılmış şeirlər deyildir. Bu şeirlər həm uşaq psixologiyasına təsir göstərən, uşaq dünyasına uyğun olan şeirlərdir və eyni zamanda da uşaqların təlim-tərbiyəsində mühüm yer tutur. "Balalara hədiyyə" həqiqi məna daşıyır. Bu kitabda öz əskini tapan nağıllar, tapmacalar, sayaçı sözlər, məsəllər və şeirlər adına uyğun olaraq o qədər təbii, inanadırıcı və maraqlı idi ki, nəinki uşaqlar, hətta böyüklər də onu maraqla oxuyurdular. "Xoruz və padşah", "Qarı və pişik", "Çoban", "Qurd", "Nazikbənazik-Tazikbətazik", "Tülkü və üzüm", "Buğda, arpa və darı", "Pıspısa xanım və Siçan bəy", "Şəngülüm, Şüngülüm və Məngülüm", "Göyçək Fatmanın nağılı" və s. onlarla belə maraqlı əsərlər uşaqları güldürməklə bərabər, eyni zamanda onları düşündürən, tərbiyələndirən bir vasitədir. Belə nağılların əksəriyyətində anaya, torpağa, ümumiyyətlə insanlığa və hər bir canlıya bəslənən məhəbbət hiss olunur.

Uşaqların zehni inkişafına kömək edən folklor nümunə-

lərinin "Balalara hədiyyə" adlı əsərdə yer alması təqdirəlayiqdir. Bəzi heyvanların dili ilə verilmiş humanizmlik, mübarizlik, vətən, ana-övlad məhəbbəti, zəhmətkeşlik uşaqları əyləndirməklə bərabər, düşündürücü və güclü tərbiyə vasitəsi hesab edilə bilər. Kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuş əsərlərdən əlavə olaraq, bir qədər böyük, gənc nəslin yaşına uyğun olan məsəllərin, sayaçı və atalar sözlərinin bu kitaba daxil edilməsi də estetik tərbiyənin ən gözəl nümunəsidir. Məsələn: "Ata olmayan ata qədrini bilməz", "Can versən qardaşa ver, min il getsə yad olmaz", "Keçmə namərd körpüsündən, qoy aparsın sel səni", "Ağac bəsləginən barın yeyəsən", "Bivəfa dilbərdən sənə yar olmaz", "İgid odur tənə oxun atmasın, halal mayasına haram qatmasın", "Köpək qaya kölgəsində yatar, elə bilər öz kölgəsidir" və s. bu kimi məsəllərin gənclərin tərbiyəsində böyük rolu vardır.

Onu da qeyd etmək lazımdır ki, F.b.Köçərlinin "Balalara hədiyyə" kitabı bir çox nümunəvi cəhətlərinə görə uzun müddət Azərbaycan məktəblərində dərslik kimi istifadə edilmişdir. Bu kitab öz dövründə müsbət bir hadisə olaraq qiymətləndirilmiş və şagirdlərin diqqətini özünə cəlb etməklə, ədəbiyyatçıların da marağına səbəb olmuşdur. Çox təəssüfləndirici haldır ki, müasir dövrümüzdə belə əsərlər demək olar ki, yox dərəcəsindədir, halbuki belə əsərlərə hər bir dövrdə ehtiyac vardır.

Azərbaycan ədəbiyyatının görkəmli qələm sahiblərindən olan Seyid Hüseyn F.Köçərlinin bu kitabı haqqında öz mülahizələrinin belə qeyd edərək yazırdı: "Balalara hədiyyə" kitabı cocuqların ruhuna azuqə verdiyi kimi, böyüklərimizin də cocuqluğunu və ondakı yaşayışını xatirinə gətirərək, onlarda keçmişinə və millətinə qarşı bir istək və məhəbbət duyğusu ayıldır. Bu kimi hədiyyələr nəşr edilsə idi, millətimizə və dilimizə böyük bir xidmət etmiş olurdu. Zira balalarımız arasında söylənən və işlənən məsəl və tapmacalardan, nəğmə və düzgülərdən bir çoxu





xatirimizdən fəramuş olmuş türk sözləri öyrənərdik və əvəzində qollandığımız əcnəbi sözlərini dilimizdən kənar edərdik.

Möhtərəm Firidunbəy Köçərli cənabları bizdən ötrü kəndi "Hədiyyə"si ilə böyük bir cığır açdı. Ümid edirik ki, başqaları da o cığır ilə gedərlər" (2.s.181).

F.b.Köçərli Azərbaycan ədəbiyyatın bütün sahələrində fəaliyyət göstərmişdir. O, Azərbaycan ədəbiyyatn tarixində uşaq ədəbiyyatının tərcüməçisi kimi də tanınaraq şöhrət qazanıbdır.

Ədəbiyyatımızın gələcəyini, onun inkişafında realizmə daha çox meyl etməsində görən ədib həmişə yüksək ideyalı realist əsərlərlə zəngin olan rus xalqının ədəbiyyatından öyrənir, onların Puşkin, Lermantov və Çexov kimi ölməz sənətkarlarını Azərbaycan oxucusuna tanıtmaq üçün səy göstərirdi. Onun rus ədəbiyyatından etdiyi tərcümələr rus-Azərbaycan tarixi üçün dəyərli mənbəə hesab edilir. Köçərli bütün fəaliyyəti dövründə rus dili və ədəbiyyatının Azərbaycanda humanist, xeyixah təbliğatçısı olub. Xalqlar arasında dostluğun, qardaşlığın yaranmasına, bu dostluğun qardaşlığa çevrilməsinə var qüvvəsi ilə çalışan ədibin fikrincə bizə yaxın olan xalqlarla, xüsusən də rus xalqı ilə dostluğun ən əsas cəhətlərindən biri onların dillərini öyrənmək idi. Firidun bəy rus dilinin, eyni zamanda rus xalqının tarixinin, ədəbiyyatının öyrənilməsinin gələcəkdə daha çox lazım olduğunu, bunun üçün dil vasitəsi ilə yaxınlaşmanın vacibliyini anlayırdı.

Köçərlinin rus ədəbiyyatından etdiyi bədii tərcümələr onun ədəbi fəaliyyətinin ilkin dövrlərinə aid idi. A.S.Puşkin, M.J.Lermantov, A.V.Koltsov və A.P.Çexovdan etdiyi tərcümələr onun yüksək zövqə malik olduğunu göstərir.

A.S.Puşkinin "Balıqçı və balıq nağılı", A.J. Lermantovun "Üç xurma", A.V. Koltsovun "A kişi, niyə yatıbsan?" şeirləri, A.P.Çexovun "At familyası" hekayəsi onun ədəbi fəaliyyətinin ilk tərcümə məhsuludur. F.Köçərli tərcümə edərkən əsərin gözəl

bədii keyfiyyətini saxlamağa, mətndən kənara çıxmamağa çalışaraq buna müvəffəq olmuşdur.

Azərbaycan ədəbiyyatında müxtəlif dövlərdə yəni, istər inqilabdan əvvəl və sonra, istərsə də sovetlər dövründə uşaq ədəbiyyatı ilə məşğul olan xeyli sayda yazıçı və şairlərimiz olmuşdur. Bu yazıçı və şairlər zaman-zaman dünya ədəbiyyatından tərcümələr edərək, uşaq ədəbiyyatını zənginləşdirmişlər.

Lakin, qeyd edildiyi kimi, uşaqların yaş həddinə uyğun olan, onlar üçün yazılmış əsərlər bu gün ədəbiyyatımızda demək olar ki, yox dərəcəsindədir. Bu da haradasa keçmişmizin, tariximizin, adət-ənənələrimizin və folklorumuzun tədricən unudulmasına gətirib çıxara bilər.

XX əsrdə Azərbaycan uşaq ədəbiyyatı istər ideya cəhətdən, istərsə də üslub cəhətdən coşqun bir inkişaf dövrünə qədəm qoymuşdur. Bu dövr həm də Azərbaycan ədəbiyyatı tarixində bədii tərcümələr tərəfindən daha zəngin bir dövr hesab edilir. Firidun bəy Köçərlinin bu sahədə də mədəni və nümunəvi xidməti olmuşdur. Köçərli çox gözəl anlayırdı ki, tərcümə işi xalqlar arasına körpü salan, onların mədəni əlaqələrinin genişlənməsinə, ədəbiyyatın inkişafına kömək edən amillərdəndir. Onun müxtəlif sahələrdə olan elmi-nəzəri fikirləri, eləcə də dilimizin saflığı uğrunda apardığı mübarizəsi Azərbaycan uşaq ədəbiyyatının inkişafında çox böyük təsiri olmuşdur. Məhz bu səbəbdən F.b.Köçərli "Balalara hədiyyə" adlı əsərini bu prinsip əsasında yazaraq, kitabda folklora və folklor nümunələri əsasında yazılmış əsərlərə üstünlük vermişdir.

Çətinliklə ərsəyə gələn bu əsər 1907-ci ildə tamamlanmasına baxmayaraq, nəşrini 1912-ci ildə başa çatdırmışdır. Bəzi müəlliflər bu kitabın ilk dəfə Bakıda Orucov qardaşları mətbəəsində çap olunduğunu göstərmişlər. Lakin əslində kitab Orucov qardaşları mərbəəsində deyil, 1912-ci ilin may ayında İsabəy Aşurbəylinin "Kaspi" mətbəəsində çap olunmuşdur. 102 səhifəlik "Balalara hədiyyə" kitabı iki hissədən ibarət olub, 75 kiçik həcmli didaktiki əsərləri özündə cəmləşdirmişdi. Müəllif yaş səviyyəsinə müvafiq olaraq birinci hissəyə 49, ikinci hissəyə 26 didaktik mənzum parça, nağıl, hekayə, tapmaca, atmaca, sayaçı sözlər və başqa təlim-tərbiyə üçün zəruri olan mətnlər salmışdır (2.s.172).





Qabaqcıl ziyalı F.b.Köçərlinin yaradıcılıq yolunun bir hissəsini əhatə edən uşaq ədəbiyyatı pedaqoji tələblər nöqteyi-nəzərindən daha diqqətəlayiqdir. Çünki uşaq ədəbiyyatı nəsihət xarakterli yazılardan ibarət olur. Bu da öz növbəsində uşaqlarda ən vacib olan vətənə sevgini, böyüyə hörməti, kiçiyə rəğbəti,-valideynə məhəbbəti, dostluğa sədaqəti öyrədir. Ümumiyyətlə o dövrün uşaq ədəbiyyatı ilə məşğul olan yazıçı və şairlərimiz uşaqlarımızda əsasən vətənpərvərlik hissinin gücləndirmək sahəsində daha çox əsərlər yaratmağa çalışmışdılar. Məsələn Abbas Səhhətin "Vətənim" şeiri də bu cəhətdən həm maraqlı, həm də səciyyəvidir. Şairin,

*Könlümün sevgili, məhbubu mənim,*
*Vətənimdir, vətənimdir, vətənim!*
*Vətənim verir mənə nanü-nəmək,*
*Vətəni bunca unutmaq nə demək?*

söyləməsi uşaqlarda vətən sevgisinin könüldə nə kimi yer aldığının sübutudur.

Bundan başqa F.b.Köçərlinin təkcə "Balalara hədiyyə" adlı kitabını misal göstərmək yetər. Kitabda yer alan mövzular o qədər sadə, o qədər aydın təsvir olunmuşdur ki, digər uşaq yazıçılarından fərqli olaraq F.b.Köçərli uşaqların hiss və həyəcanı ifadə edə bilmişdir. Ədibin özünün qeyd etdiyi kimi: "Zənnimcə bu məcmuəni hər kəs oxusa, böyük ya kiçik, onun qəlbi açılıb xəndan olacaqdır, balalar şad olacaq bu səbəbə ki, onda dərc olu-

nan əsərlərin cümləsi onların dünyasındandır. Böyük adamların ürəklərinin açılmağına səbəb bu olacaqdır ki, onlar mütaliə əsasında öz uşaqlıq vaxtlarını ixtiyarsız xatırlarına götürəcəklər. Bu isə, yəni qəlbi şad etmək, özlüyündə bir xidmətdir (3.s.355).

Ədibin uşaq əsərləri mövzu cəhətdən çox müxtəlif və rəngarəngdir. F.b. Köçərlinin əsas məqsədi uşaqları əməyə alışdırmaq, onlara həyatda düzgün yol göstərmək, təlim-tərbiyədə onları düzgün istiqamətə yönəltməkdir.

XX əsr Azərbaycan ədəbiyyatında yeniliklər müasir yazıçıların diqqətini çox cəlb edirdi. Yeniliyin əsas səbəblərindən biri rus və Avropa, eləcə də Şərq ədəbiyyatının dərindən öyrənilərək mənimsənilməsi idi. Get-gedə güclənməkdə olan bu meyl bir neçə sualı da meydana çıxarırdı. Daha çox hansı yolla getməli, hansı ölkənin ədəbiyyatına meyl göstərməli?

Rus realizminəmi, türk romantizminəmi, yoxsa getdikcə Azərbaycanda daha çox yayılmağa başlayan Avropa ədəbiyyatınamı? Bu suallar artdıqca ziyalıları düşündürməyə başlayırdı. Dövrünün tanınmış qələm sahibi olan Abbas Səhhət ilk məqaləsinə belə bir sualla başlamışdı: "Təzə şeir necə olmalıdır?"(4.s. VI).

Yeniliyin burulğanı bir çox yazarları sıradan çıxardı. Fırtınaların təzyiqinə tab gətirə bilməyənlər xalqa, cəmiyyətə heç bir fayda vermədiklərini görüb tədricən ədəbiyyat səhnəsindən çəkilməli oldular. Onlarla nasir və şairin adları, təxəllüsləri getdikcə azalmağa başladı. Bir neçə adamlar məhşur olaraq öz adlarını qoruyub saxlaya bildi. Bu məşhurların içərisində Firidun bəy Köçərlinin də adı var idi. Gözəl qələm sahibi olan Firidun bəy həyatın nəbzini tutmağı bacaran, insanların sosial-həyat tərzini dərindən anlayaraq və cəmiyyəti narahat edən məsələləri qəlbi ilə hiss edərək mətbuatda işıqlandırmağı bacarırdı.

F.b.Köçərli bütün ömrünü pedaqoji fəaliyyətlə bərabər balaların təlim-tərbiyəsinə və savadlanmasına sərf etmişdir.





Köçərli eyni zamanda pedaqoji, ədəbiyyatşünaslıq, folklorşünaslıqla, publisistika və tərcümə işi ilə məşğul olurdu. Onun uşaq ədəbiyyatı yaradıcılığı bu cəhətdən daha çox maraqlı idi. Köçərli balacaların diqqətdən kənarda qalmaması üçün onların zövqünə, uşaq dünyasına uyğun kitabların, jurnalların və müxtəlif məcmuələrin nəşr olumasını vacib sayırdı. Azadlığı insan üçün hər şeydən uca tutan ədibimiz, bu azadlığı təkcə öz milləti, xalqı üçün deyil, bütün millətlər üçün arzu edirdi. Bu səbəbdən də balalarımızın firavanlığı uğrunda çalışır, onların gələcəkdə təhsilli, savadlı olması yolunda səy göstərirdi. Firidun bəyin fikrincə uşağı lap kiçik yaşlarından real həyatda baş verənlərlə məlumatlandırmaq, onlara həyatın çətinliklərinin nədən törəndiyini anlatmaq və eyni zamanda xoşbəxt gələcəyə nail olmaq üçün oxumağın mütləq vacibliyini dərk etdirmək idi.

F.b.Köçərli gənc nəsli düzgün tərbiyə etmək, onda vətənə, xalqa, ana dilinə məhəbbət duyğuları oyatmaq üçün uşaqları hələ kiçik yaşlarından şüfahi ədəbiyyat nümunələri ilə tanış etməyi ilkin tərbiyə üsullarından sayır və bunu valideynlərə məsləhət görürdü. Nahaq deyil ki, o, çap etdirdiyi şifahi xalq ədəbiyyatı nümunələri kitabına bu baxımdan çox mənalı olan "Balalara hədiyyə" adı vermişdir (5.s.47).

Qədim soyumuza, kökümüzə söykənən folklorumuzun bir qolu olan uşaq ədəbiyyatı öz zənginliyi ilə Azərbaycan ədəbiyyatın ən görkəmli yerlərindən birini tutmuşdur. Uşaq ədəbiyyatı Azərbaycan xalqının canına, qanına hopmuş qəzəl, dastan, şeir, mahnı qədər önəmlidir. Hər bir azərbaycanlı evindəki körpəsinə bir layla, oxşama, nazlama, şeir kimi elementlərdən birini də olsa oxumaması körpəsini əzizləmədən böyütməsi inanılmazdır. Bu da ədəbiyyatımızın zənginliyinin, əsrlərdən keçib gəldiyinin sübutudur. Bu yolda uşaq mətbuatının rolu əvəzsiz olubdur. Uşaq ədəbiyyatı uşaq mətbuatı ilə vəhdət təşkil edir. Əgər uşaq ədəbiyyatı yaranmışdırsa, onu yayan, xalqa çatdıran mətbuat orqanı

olmasaydı, bəlkə də bu dövrə çatan nümunələrin çoxu aralıqda itib bata bilərdi.

1905-ci il inqilabı Azərbaycanda ictimai-siyasi və mədəni həyatı canlandırdı: maarif, məktəb və mətbuat xalqın tələbatına çevrildi, inqilabi-demokratik mətbuat yarandı. "Molla Nəsrəddin" jurnalından sonra "Zənbur", "Kəlniyyət", "Babayi-Əmir", "Məzəli", "Tuti", "Bəhlul", "Lək-lək" kimi satirik jurnallar meydana çıxdı. Bunlar uşaq mətbuatının yaranmasına səbəb oldu. Əsrin əvvəllərindən nəşrə başlayan "Dəbistan" (1906-1908). "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1920) məcmuələri ilk uşaq mətbuatı kimi milli uşaq ədəbiyyatının inkişafına geniş yol açdı. Dövrün qabaqcıl ziyalıları-yazıçılar, müəllimlər və tərcüməçilər bu janrlarda yaxından çıxış etməyə başladılar. Bu dövrdə M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, S.S.Axundov kimi ədəbiyyatın qüdrətli yaradıcıları yetişdi. Onlar öz ictimai-ədəbi və pedaqoji fəaliyyətləri ilə yanaşı, XX əsr Azərbaycan uşaq ədəbiyyatını yaratdılar. (7.s.90).

Uşaq aləminin salnaməsi olan bu jurnallar fəaliyyəti ərzində Azərbaycan uşaq ədəbiyyatının yaranmasına və təşəkkül işinə ciddi kömək etmişdir. Firidun bəy Köçərli uşaq şəxsiyyətinin formalaşmasında və inkişafında ictimai mühitin, ailə həyatının təsirini əks etdirən hekayələrin böyük təsirini qeyd edirdi.

Azərbaycan uşaq ədəbiyyatının yaranması və inkişaf etməsi zəngin təcrübəsi olan ədiblər tərəfindən başlamışdı. Bu nəsilə F.b.Köçərli ilə birlikdə C. Məmmədquluzadə, Ə.Haqverdiyev, S.S.Axundov, A.Şaiq, T.Şahbazi, C.Cabbarlı, S. Hüseyn, A.Səhhət və başqaları daxil idi.

Əgər uşaq mətbuatı və ədəbiyyatında, orta məktəb dərsliklərində M.Mahmudbəyov, Ə.Cəfərzadə, Q.Rəşad, A.Səhhət, F.Ağazadə, M.Ə.Sabir, F.Köçərli, S.S.Axundov, A.Şaiq, S.M.Qənizadə və başqalarının gənc nəslin layiqli vətəndaş kimi yetişdirilməsi qayğısı ilə didaktik ruhlu, milli duyğulu vətənpər-





vərlik və xeyirxahlıq, qayğıkeşlik və humanizm və s. hisslər ilə aşılanmış şeir, hekayə, səhnə əsəri, elmi və publisistik məqalələri çap edilirdisə, "Dirilik", "İqbal", Yeni İqbal", "Qurtuluş, "Açıq söz", "Bəsirət" və s. jurnal və qəzetlərdə milli diriliyə, mübariz dünyagörüşə yiyələnməyin yolları araşdırıldı. Bu mətbuat orqanlarında M.Ə.Rəsulzadə, N.Yusifbəyli, S.Hüseyn, Ö.F.Nemanzadə, A.Şaiq, A.Səhhət, H.Cavid, Ü.Hacıbəyli, A.Şur, M.Hadi, A.Divanbəyoğlu, Y.V.Çəmənzəminli, M.B.Məhəmmədzadə, F.Köçərli, Ə.Müznib və başqaları dünyada baş verən ictimai-tarixi və siyasi proseslərə, ölkədaxili milli-mədəni məsələlərə türk ruhlu, islam əxlaqlı, müasir dünyabaxışlı, bədii-elmi və publisistik əsərlər çap etdirir, xalqın milli azadlıq duyğusunun, istiqlal arzularının, xoşbəxt gələcək haqqındakı romantik qanadlı düşüncələrinin canlandırılmasına, onların vahid məqsəd ətrafında səfərbər olmalarına çalışırdılar. Bu müəlliflərdən N.Nərimanov, və Ö.F.Nemanzadənin publisistikası siyasi və inqilabi məzmunu, M.Ə.Rəsulzadə, N.Yusifbəyli, Y.V.Çəmənzəminli və başqalarının ədəbi, elmi və publisistik əsərləri milli düşüncə, istiqlal ruhu, təhlil və mühakimə tutumu, F.Köçərli, S.Hüseyn, A.Şaiq və başaqalarının əsərləri xoşbəxt gələcəyə ümid və inamın romantik vüsəti ilə diqqəti cəlb edirdi. Onların ictimai-ədəbi və publisistik fəaliyyətləri xalqın milli mənlik şüurunun formalaşdırılmasına yönəldilmişdi (10.s.155).

Firidun bəy Köçərli bir sənətkar olaraq dövrünün ictimai, ədəbi və mədəni-maarif tədbirlərindən kənarda qala bilməzdi. O, bir tərəfdən uşaq ədəbiyyatı və uşaq mətbuatı uğrunda mübarizə aparır, digər tərəfdən isə uşaqlar üçün yazdığı kiçik həcmli əsərləri jurnallarda dərc etdirirdi. O xalqın gələcəyini yeni nəslin təlim-tərbiyəsində və gələcək nəslin savadlanmasında görürdü. Bu yolda M.Ə.Sabirin yaradıcılığı böyük əhəmiyyət kəsb edir. Onun bir-birindən maraqlı uşaq şeirləri bu gündə dərsliklərdə yer almaqdadır. M.Ə.Sabirin "Uşaq və buz" şeirindəki sadəlik, rəvanlıq bu şeirin yadda qalmasına şərait yaratmışdır:

*Dərsə gedən bir uşaq,*
*Çıxdı buz üstə qoçaq.*
*Sürüşdü birdən birə,*
*Dəydi üz üstə yerə.*
*Uşaq durub neylədi?*
*Buza belə söylədi:*
*"Sən nə yamansan a buz?*
*Adam yıxansan a buz.*
*Az qalıb ömrün sənin,*
*Yaz gələr artar qəmin,*
*Əriyib suya dönərsən,*
*Axıb çaya gedərsən.*

F.b.Köçərli bu kiçik şeir parçasında olduğu kimi uşaq ədəbiyyatını yüksək bədii ifadə xüsusiyyətlərinə görə dərin mənalı və düşündürücü olmasını qeyd edirdi. Təbii ki, belə sadə yazılmış bir şeir parçasını uşaq yaxşı qavrayar, mənimsəyər və sevər. Köçərli bu şeirdə həmçinin uşqların zövqünü hiss edərək əsərin yazılmasını da nəzərə çatdırırdı. Firidun bəy Köçərli hər bir azərbaycanlını öz doğma dilinə hörmətlə yanaşmağa dəvət edirdi. O, hər zaman dil mövzusunda gənclərə tövsiyə edərək "dilə hörmət anaya hörmətdir, anaya hörmət vətənə, xalqa hörmət deməkdir" deyə söyləyirdi . Köçərli doğma ana dilini çox sevirdi. O, öz dilini bütün dillərdən üstün hesab edirdi, lakin bəziləri tərəfindən dilimizə olan hörmətsizliyin günahını yenə də özümüzdə görürdü. Köçərli hər zaman dil mövzusunda olan mübahisələrdə "əgər mən öz dilimə hörmət etməsəm, kimsə mənim dilimə hörmət etməz, həqarət edər" deyə təkrar-təkrar söyləyirdi.

Təbiətən milli ruhlu olan Köçərli tələbələrinə yalnız vətəni, torpağı, yurdu sevərək özünü tanıtdırmağı bacarmağı və bütün bunların müqabilində isə mütləq təhsilli olmağı öyrədirdi.

Firidun bəy Köçərli ədəbiyyatımıza pedaqoq, publisist,





folklorşünas olmaqdan əlavə, həm də Azərbaycanın mədəniyyət və ictimai fikir tarixində qabaqcıl maarif xadimi və yeni uşaq ədəbiyyatının yaradıcısı kimi daxil olmuşdur. O, ədəbi fəaliyyəti ilə yanaşı ictimai-mədəni işlərdə, xalqın maariflənməsi yolunda ciddi səy göstərirdi. Firidun bəy Köçərli həmçinin novatorluğu ilə diqqəti cəlb edirdi. Müasir düşüncələri, dünyaya açıq gözlə baxması onun daxilindən gələn bir xüsusiyyət idi və əsl ziyalı olduğundan xəbər verirdi.

Ümumi ədəbiyyatın inkişafına mane olan mənfi təsirlər şübhəsiz uşaq ədəbiyyatına da öz təsirini göstərirdi. Lakin belə manelər güclü qələm sahiblərini öz yolundan döndərə və onlara mane ola bilmirdi. Uşaq ədəbiyyatında lirizm daha çox hiss edilir.

Uşaq ədəbiyyatı ilə məşğul olan ədiblər həm yaşadıqları dövrün abı-havasını, həm də uşaq qəlbinin incəliyini nəzərə alaraq həlim, həzin, məzəli, kövrək cümlələrə daha çox üstünlük verirdilər. Həm də uşaq ədəbiyyatının əsas üstünlüyü ondadır ki, bu janr uşaqları ədəbiyyata, kitaba, təhsilə cəlb edə bilir. Maraqlı yazılmış nağıllar, hekayələr, şeirlər və başqa janrlar uşaqlarda duyğuları oyadır, onların maraq dünyasına toxunur və beləliklə də uşaqlar daha məzmunlu, daha oxunaqlı yazıların olmasını gözləyirlər. Bu da öz növbəsində həm uşaqların kitaba olan həvəsini artırır, həm də onların tərbiyəsinə müsbət təsir göstərir.

Azərbaycan uşaq ədəbiyyatını gözəl əsərləri ilə daha da zənginləşdirən Firidun bəy Köçərli və onun müasirləri gənc nəslin taleyində ümid çırağı yandıran, onları gələcəyə yaxşı mənada bir insan olaraq hazırlayn əsl millət sevən ziyalılar idilər. F.b.Köçərlini başqa müasirlərindən bir qədər fərqləndirən cəhət bəlkə də onun öz övladının olmaması ilə əlaqədar olaraq, övlad məhəbbətini bir ata kimi millətin uşaqlarına verməsinə və ömrünü onlara daha çox bağlamasına görə idi. F.b. Köçərli uşaq ədəbiyyatında müstəsna rolu olan ziyalılarımızdandır.

Azərbaycan uşaq ədəbiyyatının əsas yaradıcılarından biri olan F.Köçərlinin əmək fəaliyyəti haqqında yetərincə məlumat verilsə də, onun yaradıcılığının öyrənilməyən tərəfləri hələ də vardır. Zəngin ədəbi bir yol keçən alimin yaradıcılığının araşdırılması davam etməkdədir.

## ƏDƏBİYYAT:


1. Ə. Məmmədov: Azərbaycan uşaq ədəbiyyatı". Bakı, 1977, 161 s.
2. İ. Bəktaşi: "Firidunbəy Köçərlinin yaradıcılıq yolu". Bakı, 1986. 183.s.
3. Firidun bəy Köçərli: "Əsərləri", Bakı,2013. 493 s.
4. Abbas Səhhət. Əsərləri. I cild, Bakı, 1975. 314 s.
5. Firidun bəy Köçərli: "Azərbaycan ədəbiyyatı". I cild. Bakı, 1978. 596 s.
6. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VI kitab, Bakı. 1981; 180 s.
7. Q. Namazov: Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1984. 332 s.
8. M.Cəfər: "Həmişə bizimlə". Bakı,1980. 362 s.
9. Azərbaycan ədəbiyyatı məsələləri. Bakı. 1964. 347 s.
10. Alxan Bayramoğlu: "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki". Bakı,2013. 200 s.
11. Elmi əsərlərin "Dil və ədəbiyyat" seriyası, Bakı.1973. №6.
12. Azərbaycanda dövrü mətbuat. Bakı. 1965. 177 s.
13. Ə.Qarabağlı: "Azərbaycan ədəbiyyatının tədrisi metodikası", Bakı.1968. 350 s.






## FİRİDUN BƏY KÖÇƏRLİNİN İCTİMAİ-SİYASİ HƏYAT BAXIŞLARI

Ağır çar dövründə yaşamış Azərbaycanın görkəmli alimi F.b.Köçərlinin çoxcəhətli ədəbi fəaliyyəti ilə bərabər ictimai-siyasi fəaliyyəti də həmişə diqqət mərkəzində olubdur.

Firidun bəy Köçərlinin yaradıcılığını nəzərdən keçirərkən, onun əsərlərində millilik ilə beynəlmiləliyin vəhdət təşkil etdiyini, millətinə görə insanlar arasında fərq qoymadığını, dostluğu, qardaşlığı yüksək dəyərləndirdiyini görmək mümkündür.

Məlumdur ki, Firidun bəy Köçərli böyük dramaturq M.F.Axundovdan sonra Azərbaycan ədəbiyyatı tarixinə tənqidşünas kimi daxil olub. Onun yaşadığı dövr inqilabi şüurun oyandığı bir zamanı əhatə edir. F.b.Köçərlinin bir vətəndaş olaraq ölkəsində cərəyan edən ictimai-siyasi proseslərdən kənarda qala bilməməyi onun qarşısında bir çox çətinliklər yaradırdı.

Firidun bəy Köçərli müasirlərinə və tələbələrinə milləti sevməyi, onu qorumağı və hamını bu yolda birgə mübarizə aparmasına çalışırdı.

Zaman keçdikcə ictimai-iqtisadi, siyasi amillərin təsiri altında xalq və millət anlayışları müəyyən keyfiyyət fərqinə uğrayır. Hər xalqın həyatında baş verən tarixi təbəddülat çox vaxt xüsusi xarakter daşıdığından millət məfhumu ilə bağlı bir çox problemin mücərrəd mühakimələrlə izahını, milli dillərin, milli ədəbiyyatların yaranması haqqındakı nəzəriyyəni ümumi məcraya salmaq, bu barədə mütləq müddəa irəli sürmək təhriflərlə nəticələnir(1.s.13). Bu isə xalqların hakimiyyət dairələri haqqındakı ciddi narazılıqlarına gətirib çıxarırdı. Belə narazılıqlar da yeni quruluşun meydana gəlməsinə zəmin yaradırdı .

XIX əsrin sonları XX əsrin əvvəllərində də baş verən ictimai-siyasi narazılıqlar geniş vüsət taparaq, çarizmin süqutuna səbəb oldu. Əslində bu təbiidir və eyni zamanda da dövrün tələbidir. İnsan yeknəsəklikdən doyduğu zaman yeniliklər meydana gəlir.

Mütləqiyyət əleyhinə ayağa qalxan zəhmətkeş kütlələrin haqsızlığa qarşı apardıqları mübarizə insanların ictimai-siyasi şüurunun oyanmasında başlanan yeni mərhələ hesab edilə bilər. Bütünlüklə Rusiyanı bürümüş çar hökumətinə qarşı narazılıq dalğası Azərbaycan xalqınının da həyatında silinməz izlər qoydu. Ziyalı təbəqənin bu yolda zəhmətkeş kütlələrə cığır açması, onları öz hüquqları üçün mübarizəyə səsləməsi artıq siyasi hərəkatın başlanğıcı idi. Azərbaycanın mütərəqqi fikirli ziyalıları yaranmış bu fürsətdən istifadə etməyi, ölkənin çar müstəmləkəsindən xilası yollarını düşünürdülər. Hər kəs xalq üçün, millət üçün bir iş görməyi sanki qarşısına məqsəd qoymuşdu.

Qori Müəllimlər Seminariyasının ən nüfuzlu müəllimlərindən olan və əmək fəaliyyətinin qırx ilə yaxın bir dövrünü məhz pedaqoji fəaliyyətə sərf edən F.b.Köçərli belə ziyalılardan idi. O, tələbələrini atalıq qayğısı ilə sevirdi və onların ictimai-siyasi həyatda müəyyən bir mövqeyə çatmağı üçün çalışırdı. Köçərli dilimizə hörmət etməyi, Azərbaycan dilinin başqa dillərdən heç də geri qalmadığını öyrədərək bir millət, bir xalq üçün bunun vacib olduğunu başa salırdı. Lakin onun belə fikirləri təbii ki, yuxarı dairələrdə müzakirə obyektinə çevrilərək siyasiləşdirilirdi.

Xalqının elm və mədəniyyətcə irəli getməsinə çalışan Firidun bəy Köçərli xalqı ayıltmağı, onlara həyatda düzgün yol göstərməyi nəinki öznün hər bir qələm sahibinin vətəndaşlıq borcu hesab edirdi. O təkcə ictimai-siyasi məsələlərə deyil, ədəbiyyata da belə bir tələb və meyarla yanaşırdı.

Çar üsul-idarəsi hökmranlığından cana doymuş xalqlar





inqilabi hərəkatın gücləndirilməsi yolunda gizlin iş aparmağa başlamışdılar. Bu səbəbdən Köçərli və onun kimi ziyalılar daim diqqət mərkəzində olurdu. Qeyd edildiyi kimi xalqının tərəqqisi və azadlığı uğrunda atdığı cəsarətli addımlar Köçərlini çətinliklər qarşısında qoyurdu.

F.b.Köçərlinin siyasi fəaliyyətinə gəldikdə isə inqilabi hərəkatın başladığı ərəfədə Azərbaycanda müxtəlif partiyalar fəaliyyət göstərirdi ki, bunlardan da ən nüfuzlusu onun üzvü olduğu "Müsavat" partiyası idi. Köçərlinin Azərbaycanın maariflənməsində, tərəqqisində gördüyü işlər, Azərbaycanı və azərbaycanlıları sevməyən qüvvələri qıcıqlandırır və hökumət məmurları yanında onun əleyhinə fikir yaradırdılar. Firidun bəyin xalq arasındakı hörmətini görən bəzi qüvvələr onu "Müsavat" partiyasının fəal üzvü olduğu və əhali arasında millətçilik toxumu səpdiyi iddiasıyla həbs edərək, həyatına son qoydular.

Hər bir işində, əmək fəaliyyətinə milliliyə xidmət göstərən Firidun bəy Köçərlini sevməyən qüvvələr onun əleyhinə təsdiqi olmayan materiallar toplamaqla məşğul idilər. Qazax İnqilab Komitəsinin əməkdaşları bu materiallarda Köçərlinin guya Qazax uyezdində əksinqilabi fikirlər yaydığını, xalq arasına millətçilik toxumu yaydığını göstərirdilər. Firidun bəy haqqında toplanmış sənədlər Qazax İnqilab Komitəsi tərəfindən Gəncə Fövqəladə Komissarlığına göndərilir. Sənəddə qeyd olunur: "Qazaxın sabiq general-qubernatoru A.Xoyski tərəfindən güclü dəstək alan Firidun bəy Köçərli ona həvalə olunmuş Qazax Müəllimlər Seminariyasının müəllimi və tərbiyəçisi olmasını unudaraq, agentləri və ixtiyarında olan müəllimlərə pul verməklə Qazax uyezdində ermənilərə qarşı vərəqələr yaymış, yıxılmış "Müsavat" hökumətini bərpa etmək üçün çirkin əməllərə əl atmış və bu ilin aprelində məlum erməni-tatar münaqişəsini yaratmışdır... (23.s.21).

Firidun bəy Köçərli azad, firavan həyatı xalqına layiq gör-

məyənlərə, xalqını savadsız, kölə vəziyyətnə salanlara mənfi münasibət bəsləyirdi.

Ömürgün yoldaşı Badisəba xanım Firidun bəy Köçərlinin gözəl insan, nüfuzlu müəllim olduğunu bildiyi üçün onun həbsdən azad olunacağına inanırdı. Safqəlbli Badisəba xanım düşünmürdü ki, Firidun bəyi günahsız yerə güllələyə bilərlər. Omrünün sonuna qədər o, Firidun bəyin qayıdacağı ümid ilə yaşadı.

Firidun bəy Köçərlinin yaradıclığının ən parlaq səhifələrindən biri onun həyata ictimai-siyasi baxışlarının genişliyi, müasirliyi və məntiqliyi olmuşdur. Ömrünün çox hissəsini xalqının maarif və mədəniyyətinin tərəqqisinə həsr edən ədib, öz zəmanəsinin yeni ideyaları həyata keçirən və ən səmərəli fəaliyyət göstərən alimi kimi tanınmışdır.

Millətin maariflənməsində mətbuatın rolu Firidun bəy üçün olduqca böyük əhəmiyyət daşıyırdı. Xüsusilə də milli mətbuat orqanının yaranmasına artıq ehtiyac duyulurdu.

Azərbaycan ziyalıları xalqa, vətənə ən böyük xidməti, ictimai-siyasi tərəqqini milli mətbuat orqanını yaratmaqda görürdülər. Azərbaycanın maarif və mədəniyyətinin inkişaf etməsinə, təhsil ocaqlarının açılmasına heç də maraqlı olmayan çar məmurları əksinə bir çox hallarda bunun qarşısını hər vəchlə almağa çalışırdılar.

Firidun bəy Köçərli xalqın ictimai-siyasi və mədəni-elmi tərəqqisində ana dilində mətbuatın rolunu və əhəmiyyətindən bəhs edir, bu məsələləri tezi-tez gündəmə gətirirdi. O, milli mətbuat, milli məktəb, milli ədəbi dil, milli ədəbiyyat və s. uğrunda aparılan mübarizənin yeni bir tarixi şəraitdə cərəyan etdiyini qeyd edirdi. XX əsrin əvvəllərində Tiflisdə Azərbaycan dilində nəşr olunan ilk siyasi və ictimai qəzet "Şərqi-Rus" qəzeti idi.

Mənbələrə istinadən qeyd etmək olar ki, F.b.Köçərlinin ictimai-siyasi quruluş haqqında fikirləri köhnə cəmiyyətin ya-





ramazlıqları tənqidlə, bu cəmiyyətin törətdiyi rəzalət və üfunəti, ictimai bərabərsizliyi, milli zülmü göstərən səhnələrlə bir yerdə, bir-birindən ayrılmaz şəkildə verilir. Köçərli məqalələrində oxucularına çatdırmaq istəyir ki, indiyə qədər mövcud olan və daima qabaqcıl adamlar tərəfindən tənqid olunan köhnə cəmiyyət, onun qanun-qaydaları nadanlıq və cəhalətdən əmələ gəlmişdir. Zülm və təcavüzlə dolu olan bu cəmiyyətdən xilas olmaq üçün isə birinci növbədə nadanlıqdan, cəhalətdən uzaqlaşmaq, mədəni xalqların getdiyi işıqlı bir yola çıxmaq lazım idi. Köçərli göstərirdi ki, ən geridə qalmış ölkə hesab edilən İranda belə inqilab olmuşdur, oradan "bomba" sədası eşidilir, "zabastovka" xəbəri çıxır; osmanlılar Əbdülhəmid kimi müstəbidi devirirlər, ancaq biz yenə də eyni vəziyyətdə qalmışıq.

İctimai-siyasi və mədəni həyatdakı irtica ilə yanaşı, iqtisadi sahədə yaranmış böhran xalq kütlələrinin vəziyyətini daha dözülməz hala salmışdı. İstehsalın azalması, inhisarların zorakılığı, kəndlərdə vergilərin getdikcə artması, təbii fəlakətlər və qıtlıq Azərbaycan zəhmətkeşlərinin çara, burjua-mülkədar quruluşuna nifrətini günü-gündən şiddətləndirirdi. Lakin bu qədər çətinliklərə baxmayaraq, Azərbaycanın yaradıcıları olan filosoflar, alimlər, incəsənət ustaları və yazıçılar mədəni-maarif ideyaları yaymaqla xalqa xidmət göstərirdilər.

Çar hökuməti məktəblərdə ana dilinin tədrisinə nəinki əhəmiyyət vermir, müxtəlif yollarla bunun qarşısını almağa çalışır və məktəb proqramında ana dilinə axırıncı yerlərdən birini verirdilər. Bu laqeydlik yerli məktəblərdə daha dözülməz hala çatmışdı. Bütün bunların siyasi xarakter daşıdığını başa düşən bir çox ziyalılarımız nə yolla olursa olsun bunun qarşısını almağa, ana dilinin tədrisini daha da təkmilləşfirməyə səy göstərirdilər. Firidun bəy Köçərli də millətin taleyini düşünən ziyalı idi. Yaradıcılığını məhz xalqının maariflənməsinə həsr edən Köçərli buna görə milli mətbuatın olmasına daha çox dəyər verirdi.

Firidun bəy Köçərli, C.Məmmədquluzadə, M.Ə.Sabir, N. Nərimanov, Ü, Hacıbəyov və başqaları XIX əsr maarifçilərinin işini davam etdirərək, təbiət və cəmiyyətin bir çox mühüm məslələrini kütlələr üçün anlaşıqlı bir dillə izah edirdilər. Eyni zamanda bu görkəmli şəxsiyyətlər azadlıq əldə etmək üçün burjua-mülkədar cəmiyyətdəki ədalətsizliyə, çarizmin xırda xalqlara qarşı zülmünə müqavimət göstərmək yolunda ictimai-siyasi məsələlər haqqında elmi bilikləri yaymaqla məşğul idilər.

Firidun bəy Köçərli həm dövrünün mütərəqqi fikirli müasirləri və ondan əvvəl yaşayıb yaratmış klassiklərin yaradıcılığına nəzər saldıqda əksər fikirlərin eyni çür olduğunu görür və açıq aşkar razılığını bildirirdi. Xalq üçün çalışan ziyalılarımızı dəyərləndirən ədib, güclü mübarizəni xalqın birliyində görürdü. Hətta Azərbaycan kilassilkərinin əsərlərində (Xəqani, Vaqif və başqaları) feodalizm zülmünə, əsarətinə və ictimai ədalətsizliə qarşı irəli sürülən fikirlər, onun əqidəsinə və ictimai-siyasi baxışlarına uyğun gəlir və yaradıcılığına da təsir göstərirdi. Təbii ki, həm də bu təsirlər Rusiyada baş verən ictimai-siyasi fikirlərin qüvvətlənməsi ilə Köçərlinin dünyagörüşündə dönüş əmələ gətirirdi. Dövrünün zorakılığına qarşı biganə qala bilməyən Firidun bəy, öz həmfikirlərinə müraciətində xalqının müdafiəsi üçün qəddar cəmiyyəti məhv etmək yolunda mübarizəyə səsləyirdi. O, bunun nə qədər çətin olduğunu anlasa da millətinin mənafeyi naminə qoşulduğu bu mübarizədən çəkinməyirdi.

Qeyd edildiyi kimi Firidun bəy ictimai-siyasi baxışlarına, fikirlərinə görə təqib olunurdu. Lakin bu qədər sıxışdırılmasına rəğmən o həbs olunarkən izahatında bütün bunları təkzib edir və ona qarşı sürülən ittihamlarda özünü müqəssir hesab etmirdi.

Firidun bəy Köçərlidən bizə zəngin və eyni zamanda maraqlı ədəbi irs qalmışdır. Onun yaradıcılığı bir sıra tarixi-siyasi hadisələrin baş verdiyi zamana təsadüf etdiyi üçün, o illər Köçərlinin həyatında dərin izlər buraxmışdı.





Köçərli bu tipli yazılarla xalqı iranlılar və osmanlılar kimi hərəkət etməyə çağırırdı. Tükiyə və İran inqilablarını alqışlayan ədib istismarçılara qarşı mübarizəyə başlamağı təbliğ edirdi.

Belə çağırışlara mane olmağa çalışan çar məmurları isə hər cür cəza növləri tətbiq edərək insanları qorxutmaq, susdurmaq istəyirdilər.

XIX əsrin axırı, XX əsrin əvvəlində Azərbaycanda mətbuat və nəşriyyat işləri çox ağır vəziyyətdə idi. Ana dilində ədəbiyyatların nəşri üçün nəinki əlverişli şərait, heç xüsusi mətbəələr yox idi. Azadlıq hərəkatının proletar dövrü başlandığı zaman Azərbaycan ziyalıları mətbuata olan ehtiyacın artdığını görərək, ana dilində qəzet, jurnal və kitabların yaranmasının artıq zamanı gəldiyini vurğulayırdılar.

Lakin bütün bu maneələrə baxmayaraq Rusiyada başlanan inqilabi hərəkatın güclənməsi iqtisadi, siyasi vəziyyətin ağırlaşmasına, Zaqafqaziyada hakimiyyətin Azərbaycan müsavatçıları, gürcü menşevikləri və erməni daşnaklarının əlinə keçməsinə səbəb oldu. Ölkədə hərcmərclik yarandı. İnqilabi qüvvələrin yaydıqları siyasi intibahnamələrin, siyasi xarakterli yazıların və ədəbiyyatların artması müşahidə olunurdu. Zaqafqaziya Rusiyadakı inqilabi hərəkatın əsas ocaqlarından birinə çevrilmişdi. Azərbaycan bu inqilabi prosesdə daha fəal hərəkət göstərirdi. İldən-ilə güclənən inqilabi hərəkat özünün pik nöqtəsinə yaxınlaşmaqda idi. Siyasi-ictimai hərəkatın yaratdığı qarışıqlıq bütün sahələrdə olduğu kimi təhsildə də təsirsiz ötüşmədi.

1917-18-ci tədris illərinin sonuna yaxın artıq Qori Müəllimlər Seminariyası nüfuzunu itirməyə başladı. Həmən bu gərginlikdən istifadə edən F.b.Köçərli ilk növbədə illərlə arzusunda olduğu Azərbaycanda Müəllimlər Seminariyasını yaratmaq istəyini reallaşdıraraq, Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsinə nail olur. O dövr üçün bunu Azərbaycanın qələbəsi hesab etmək olardı. Firidun

bəy Köçərlinin ictimai-siyasi baxışlarının həyat motivi azadlığın, firavanlığın, təhsilin rəhni idi. O, sadə, zəhmətkeş adamlara çox böyük rəğbət bəsləmişdir. Firidun bəy Köçərlinin ictimai-siyasi fikirləri ilə pedaqoji fəaliyyəti, maarifçilik ideyaları bir-birini tamamlayırdı.

Xalqı maarifləndirmək və savadlandırmaq problemi heç zaman göydəndüşmə bir şey olmayıbdır, əksinə həyatın özünün irəli sürdüyü və həllini gözlədiyi çox ciddi problemlərdən biri hesab edilir.

F.b.Köçərli ədəbi fəaliyyətə 1885-ci ildən başlasa da, onun yaradıcılığının ən məhsuldar dövrü XX əsrin əvvəllərinə və xüsusilə də 1905-ci il inqilabından sonrakı illərə, yəni ictimai-şüurun oyanmağa başladığı və bununla yanaşı ictimai-siyasi vəziyyətin dəyişilməyə doğru getdiyi bir dövrə təsadüf edir.

Varlanmaq ehtirası və kapital rəqabətinin gücləndiyi mühitdə şəxsi mənafe millət içərisində ittifaq deyil, parçalanmağa, nifaqa daha çox meydan açırdı. Buna görə də bəzi siniflərin, təbəqələrin dünyagörüşü ilə əlaqədar yaranmış atalar sözü və məsəllər daha çox təkrar olunurdu və bu ikisi daha çox dəbdə idi. Qabaqcıl ziyalılar öz publisistik yazılarında belə misalları tez-tez xatırladır və xalqın gözünü bu yolla açmağa çalışırdılar.

Firidun bəy Köçərli o zaman yazmışdı: "Atalardan qalma ittihad və ittifaqa məxsus gözəl məsəllər unudulub, nifaq və ixtilafa mənsub olanları: "El üçün ağlayan gözsüz qalar", "Məndən ötdü yoldaşıma dəydi, guya ki, saman çuvalına dəydi", - kimiləri dərguş olubdur və müsəlman qardaşlar onların məzmununca yek-digərləri ilə rəftar etməkdədirlər. Bu minval üzrə bizlər öz dairəmizdən kənara çıxmayıb, bir-birimizə tələ qurub, şəxsi mənfəətimiz üçün bir-birimizin ayağımızı çəkməkdə, bir-birimizə quyu qazmaqda ikən qeyri millətlər gəlib bizi...keçib gediblər" (1. s.88).

Firidun bəy Köçərli millətin qeydinə qalan, dövrünün





daim yanan, alovlanan çırağı idi. O gənc yaşlarından ictimai-siyasi həyat baxışlarına və düşüncələri görə başqa müasirlərindən seçilirdi.

Qori Seminariyasının Müəllimləri arasında hələ keçən əsrin 80-cı illərində bəzi inqilabçı ziyalılar fəaliyyət göstəririlər. Bu müəllimlər yeri gəldikcə tələbələrlə açıq söhbətlər edir, onlarda burjua-mülkədar quruluşuna qarşı mübarizə əhval-ruhiyyəsi oyatmağa çalışırdılar. F.Ağazadə (Şərqli) Köçərlinin hələ seminarist ikən gürcü inqilabçılarından Aleksandr Kipiani ilə yaxın əlaqədə olduğunu göstərir. O, başqa bəy balalarından fərqli olaraq, Köçərlinin yoxsullarla həmişə mehriban dostluq münasibətinin bəslədiyini də bilavasitə A.Kipianinin təsirilə əlaqələndirirdi. F.Ağazadənin yazdığından məlum olur ki, A.Kipiani inqilabi fəaliyyəti üstündə çar hökuməti tərəfindən Sibirə sürgün edilir və orada bir ayağını şaxta aparır. O, Qafqaza qayıtdıqdan sonra Qori Müəllimlər Seminariyasına müəllim təyin edilir. Lakin A.Kipiani burada da öz təbliğatçılıq fəaliyyətini dayandırmır. Kipiani rus, azərbaycanlı və erməni tələbələri arasında böyük nüfuza malik idi. Dərsdənkənar vaxtlarda A.Kipiani inandığı tələbələri öz evinə çağırır, inqilabi məzmunlu kitabça və qəzetlərlə onları tanış edirdi. "Tələbələr, o cümlədən də Köçərli aldığı kitabları aparıb dağ təpəsində bulunan köhnə bir qələnin xərabəsində gizlincə oxuyur və yüksək düşüncələrə dalırdılar... Sonra Kipianini yenə də tutdular və yol xərci üçün tələbələr tərəfindən toplanmış vəsaiti də ona vermədilər... Köçərlinin bəyzadələrin quru lovğalığından xilas olub, rəiyyətə yanaşmasında, onun dərdlərinə çarə aramasında A.Kipianinin də rolu vardır"(6. s.20).

Xalqlar arasında yaranan əlbir mübarizədən qorxan çarizm Zaqafqaziya xalqları arasına qarışıqlıq salmaqla, fikri hakimiyyətdən uzaqlaşdırmağa çalışırdı. F.b.Köçərli qəzet səhifələrində xalqlar dostluğundan, beynəlmiləlçilik ruhundan ya-

zılmış məqalələr dərc etdirməklə insanlara bir çağırış edir, onları birliyə səsləyirdi. Sinfi ziddiyyətlərin əsl mahiyyətini bilmədiyinə, dünyagörüşündəki məhdud cəhətlətə və yaradıcılığındakı bəzi ziddiyyətlərə baxmayaraq, Köçərli bütün fəaliyyəti boyu həmişə zülmə və istismara qarşı çıxaraq, yoxsul xalq kütlələrinin mənafeyini müdafiə etmiş, xalq rifahının, maarif və mədəniyyətinin yorulmaz mücahidlərindən olmuşdur. Firidun bəy Köçərli müasirlərindən fikir, ideya, məslək sahibi olmaqla bərabər xalqın, cəmiyyətin mənəvi və mədəni inkişafına kömək etmələrini təvəqqe edirdi. Eyni zamanda xalqın gələcək inkişaf yolunu işıqlandırmaq uğrunda aparılan mübarizədə cəmiyyətin nöqsanlarını görüb aradan qaldırmağa səsləyirdi.

Əslində Firidun bəy Köçərlinin əmək fəaliyyətində siyasi motivlər var idi. O dərs dediyi tələbələrdə millətinə qarşı məhəbbət, sevgi oyandırmaqla, çar hökumətinin xalqımıza qarşı olan münasibətini də anladırdı. Firidun bəyi sevməyən, çar məmurları üçün çalışanlar bunu bir qədər də şişirdərək, müəyyən orqanlara çatdırırdılar. Dünya ədəbiyyatı ilə maraqlanan və mütəmadi onları mütaliə edən Köçərli dünyada baş verən hadisələrdən xəbərdar olduğu kimi ətrafındakı insanların da xəbərdar olmasına səy göstərirdi.

Köçərlinin yaradıcılığı ilə tanış olduqda bir çox Avropa yazıçılarının əsərlərində imperializm şəraitində yaşayan insanları aciz, zavallı, bacarıqsız adamlar kimi təsəvvür etdiklərini, belə insanların gücünə, ağlına inanmadıqlarını görmək olur. Lakin, özü belə düşünmürdü. O bilirdi ki, əgər insanı maarifləndirmək mümkündürsə, deməli onun ağlı, düşüncəsi özünü göstərə bilər. Bunun üçün güclü iradə və səbr gərəkdir.

Firidun bəy Köçərlinin həyat və yaradıcılığı ağır dövrə təsadüf etsə də maraqlı olub. Bəzi faktlar təsdiq edir ki, o Qori Müəllimlər Seminariyasında müəllimlik etdiyi illərdə həqiqətən gürcü inqilabçıları ilə yaxınlıq edirmiş. 1906-cı ildə bolşevik qəzeti olan "Dəvət"də çıxış etməsi zəhmətkeşləri xalqlar arasına ədavət salan "üçüncü bir düşmən", "şeytana" qarşı əlbir mübarizəyə çağırması da göstərir ki, o dövrünün inqilabi ideyalarına biganə olmamışdır. Onun bolşevik mətbuatında iştirakı, heç şübhəsiz, fəhlə hərəkatına rəğbətindən irəli gəlmişdir(18. s.489).





F.b.Köçərli əmək fəaliyyəti ilə məşğul olduğu vaxtlardan mübariz düşüncəsi, siyasi fəallığı və iradəsi ilə fərqlənibdir. Siyasi proseslərə biganə qala bilməyən maarifpərvər pedaqoq ürəyinin hökmü ilə 1917-ci ildə "Müsavat" partiyasına daxil olur və ən fəal üzvü kimi işə başlayır.

Zaqafqaziyada hakimiyyətin Azərbaycan müsavatçıları, gürcü menşevikləri və erməni daşnaklarının əlinə keçməsi ilə əlaqədar ölkədə hərc-mərclik güclənmişdi. Hər bir zamanda mənfur düşmənlərimizin xeyrinə olan belə qarışıqlıqlarda ən çox zərər çəkən Azərbaycan və azərbaycanlı əhali olurdu. Öz mənafeləri və torpaq zəbt etmək iddialarını gerçəkləşdirmək üçün düşmənlərimiz çirkin niyyətlərini həyata keçirmək üçün vətənpərvər, millətsevər ziyalılarımızı bir-bir aradan çıxarmağa və onların qətlə yetirilməsinə səbəb olurdular.

Milli məhdudiyyət nə olduğunu bilməyən, onun hər cür təzahürlərinə qarşı amansız mübarizə aparan, M.F.Axundovla başlanan Azərbaycan realist ədəbiyyatını, eləcə də sənətini zamanın vacib ictimai-siyasi ideayalarının ifadəsinə çevirən ziyalılarımız içərisində F.b.Köçərlinin xüsusi yeri var idi. O, xalqlar arasında dostluq əlaqələrinin yaranması üçün ictimai-ədəbi münasibətlərin genişlənməsinə, millətçilik toxumu səpənlər isə bu münasibətlərin korlanmasına çalışırdılar.

1901-1902-ci illərdə Bakı və Azərbaycanın digər qəzalarında sənaye böhranı ilə əlaqədar kütləvi tətil və narazılıqlar başlamışdı. Kapitalist istismarı əleyhinə mübarizəyə qalxanların sıraları genişlənirdi. Çarizmə qarşı yönəldilmiş ümumi narazılıq, tətil və nümayişlər cəmiyyətin başqa təbəqələrini, o

cümlədən ziyalıları da hərəkətə gətirmişdi. Xalqın güzaranını yaxşılaşdırmaq haqqında düşünən Azərbaycan ziyalıları daha da fəallaşırdılar. Çarizim hakimiyyət çevrilişi təhlükəsindən qorxaraq müəyyən vaxtlarda mədəni-milli tələbatlarla hesablaşmaq məcburiyyətində qalırdı. Bu vəziyyətdən istifadə edən ziyalılarımız haqq səslərini qaldıraraq kütlələri haqlarını tələb etməyə səsləyirdilər. F.b.Köçərlinin həyatında baş verən mübarizlik daha da coşaraq xalqının, millətinin cəhalətdən oyanmasına, tələblərlə çıxış etməsinə şərait yaratmışdı. Hətta Rusiyadakı hadisələri, siyasi vəziyyəti diqqətlə izləyən Firidun bəy Köçərli yaranmış ictimai-siyasi vəziyyətdən Azərbaycanın gələcəyi naminə arzularını reallaşdırmaq üçün əlverişli zamanın yetişdiyini düşünürdü. Geniş biliyə,açıq zəkaya, ictimai-siyasi dünyagörüşünə, böyük təcrübəyə malik olan ədib üçün bu şərait çətin olsa da, bacarığını göstərməyə zəmin yaranmışdı.

İctimai-siyasi fəaliyyəti F.b.Köçərlinin tənqidi görüşlərinin inkişafına müsbət təsir göstərirdi. XX əsrin əvvəllərində, xüsusən, 1905-1907-ci illərdə başlanan yeni tarixi dövrdə Azərbaycanın ictimai-iqtisadi şəraiti kimi, ədəbiyyatı, ədəbi hadisələri, ədəbi mübarizələri də çox mürəkkəb idi. Baxmayaraq ki, çarizm Azərbaycanda hərbi-müstəmləkə üsul-idarəsi yaratmışdı, lakin mövzu zənginliyi imkan verirdi ki, millətin problemlərini işıqlandırmağı bacarasan. Bu şəraitdən incəliklə istifadə edən ədib, nə qədər ehtiyatla hərəkət edirdisə də çar məmurlarının nəzarətindən yayına bilmirdi.

Çar məmurları yerli ziyalıları başqalarına nisbətən daha çox sıxışdırırdı. Azacıq azadlıq tələbi ilə çıxış edən ziyalılar "siyasi-cəhətcə etibarsız" elan edilərək böyük və dözülməz məhrumiyyətlərə düçar edilirdilər. Azərbaycanın mütərəqqi ideyalı ziyalılarının çoxu hökumət orqanları tərəfindən ciddi surətdə təqib olunaraq, hər cür hüquqlardan məhrum edilir və bir parça çörəyə möhtac qalırdı. (19.s.24).





XIX əsrin ikinci yarısındakı Azərbaycan maarifçilərinin etik görüşlərini doğuran ictimai-iqtisadi və siyasi şərait belə idi. Firidun bəy Köçərli də bu cür şəraitdə fəaliyyət göstərir və nəyin bahasına olursa-olsun xalqa xidmət etməyə çalışırdı.

Azərbaycanda hökm sürən cəhalət, avamlıq, zülmət və özbaşınalığa dözə bilməyən, problemlərdən yazan və söz açan ziyalılarımızın əksəriyyəti o dövrdə adları "qara dəftər"ə düşən ziyalılar idilər. Köçərli də belə ziyalıların sırasında idi.

Maarifçi fikirlilər təkcə elm, mədəni-maarif məsələlərini deyil, eyni zamanda ictimai-siyasi məsələləri də ədəbiyyata gətirirdi. Müstəmləkəçiliyə qarşı etiraz motivləri ədəbiyyatda işıqlandırılırdı.

Firidun bəy Köçərlinin yazıları da birmənalı qarşılanmayırdı. Bəzi insanlar öz mənafeləri xatirinə bu məqalələri siyasiləşdirərək Köçərli haqqında müəyyən fikir formalaşdırmağa nail olurdular. Lakin bu cür təqiblər Köçərlini fikirlərindən uzaqlaşdıra bilmirdi. F.b.Köçərli pedaqoji sahədə olduğu kimi, siyasi şüurca da çox inkişaf etmişdi.

Firidun bəyin yaşadığı və ədəbi fəaliyyəti dövründə Qafqaz komitəsinin tərəfindən panislamizm adı altında "müsəlman hərəkatı" adlandırılan məsələ ortaya atılmışdı. Çünki çarizm rus olmayan xalqları əsarət və itaətdə saxlamaq, baş verə biləcək hər hansı oyabnma prosesinin qarşısını almaq üçün müxtəlif bəhanələrdən istifadə edirdi. Həmən bu üsullardan biri də "müsəlman hərəkatı" adlandırılaraq ona qarşı aparılan mübarizə məsələsi idi. İnsanları həbs etmək, sürgünə göndərmək və daim qorxu altında saxlamaq üçün belə üsullardan istifadə edilirdi. Belə üsullardan Azərbaycana və onun müsəlman əhalisinə qarşı daha sərt formada istifadə olunurdu. Bu da sözsüz ki, hakim dairələrə qarşı əvvəl gizlin, daha sonra isə açıq mübarizəyə çevrilməyə başladı.

Bütün bu çətinliklərə baxmayaraq, XIX əsrin ikinci yarı-

sında Azərbaycanın ictimai-siyasi həyatında irəliləmələr özünü göstərirdi. Lakin bu dövr ziyalıları içərisində elə adamlar yetişmişdi ki, onlar öz mütərəqqi dünyagörüşləri ilə Azərbaycanda hökm sürən cəhalət, avamlıq, zülmət və özbaşınalığa dözə bilmirdilər. Firidun bəy məhz belə ziyalılardan idi. Tənqidi fikirlərini açıq söyləyən, heç nədən çəkinməyən F.b.Köçərli Azərbaycanın əleyhinə hesab etdiyi hər hansı mənfi hərəkətlərə qarşı qələmi ilə kəskin cavab verməyi bacarırdı. Hər tərəfdən azərbaycanlıların kökünün, soyunun, adət-ənənəsinin və dilinin unutdurulmasına qarşı aparılan təbliğat, milli siyasət vətənpərvər ziyalı kimi F.b.Köçərlini narahat etməyə bilməzdi. O, ölkədə baş verən ictimai-siyasi hadisələrə dini-idealist mövqelərdən yanaşırdı. Bu da bilavasitə onun dünya görüşündəki ziddiyyətlərlə əlaqədar idi.

Firidun bəy haqqın, ədalətin carçısı idi. O dilindən, dinindən, cinsindən, milli mənsubiyyətindən asılı olmayaraq insanların təhqir olunmasına, alçaldılmasına, hüquqlarının tapdalanmasına göz yuma bilmirdi, hər bir fərdin sərbəst, azad yaşamaq ixtiyarı olduğunu anlatmağa çalışırdı. O, azadlıq, müstəqillik fədaisi idi. Xalqının azadlığı üçün daim çalışan, təbliğat aparan, bu cür fikirlərini səsləndirən ədibin başı bu üzdən çox əziyyətlər, əzablar çəkirdi. Məsələn, F.b.Köçərli ruslar tərəfindən müxtəlif xalqların (azərbaycanlılar da daxil olmaqla) zorla ruslaşdırılmasına, bu xalqlara rus dilinin zorla tətbiq etdirilməsinə qarşı öz narazılığını bildirir və daim belə işlərə etirazını göstəriridi. Etirazını çox zaman açıq-aşkar bildirən Firidun bəyin məhz bu səbəbdən çıxışları siyasiləşdirilərək təqib və təzyiqlərlə üzləşirdi.

F.b.Köçərlinin məqalələri içərisində "Qaranlıqda qalanlarımız" adlı yazısı öz dəsti-xəttinə görə maraq doğurur. O dövrün sosial həyatının nə qədər ağır durumda olduğunu görən və özü də o həyatı yaşayan ədib bu yazılarında millətin vəziyyətindən, onlara qarşı olan laqeyd münasibətdən əmələ gələn şikayətini yazılarında göstərirdi. Çarizm dövründə belə açıq yazılarla çıxış etməyin nə qədər çətin olduğunu bilərəkdən F.b.Köçərli qəti şəkildə deyirdi: "Bu laqeyd münasibətin, millətin torpağın altında olan köklərinin diqqətdən kənarda olmasının acı nəticəsi kimi cəhalət qaranlığının gündən-günə qatılaşdığı, tənəzzülün saatdan-saata dərinləşdiyi, millətin yüz il boyu zamanın çağırışlarına cavab verə, dəyişə bilmədiyi göstərilirdi. Problemi dərinləşdirən isə bu idi ki, "...bu millətin ərzində sair əqvam və millət kəmali-sürətlə irəli gedib, bizi geridə qoyublar (16. s.33).

Ədib qaranlıqda qalan millətinin işığa çıxmasında mütləq savadlanmanı, maarifl ənməni və təhsili önə çəkərək əsasən bu yolda mübarizə aparırdı. Onun fikrincə ziyalılarımız bunun üçün daha çox iş görməli, müxtəlif yazılarla mətbuatda çıxışlar etməli idilər.

F.b.Köçərlinin yaradıcılığını araşdırarkən belə qənaətə gəlmək olur ki, görkəmli tənqidşünas birinci növbədə Azərbaycan ədəbiyyatında nəsr və nəzmlə məşğul olan bəzi ziyalı təbəqələrimizi yuxarıda qeyd etdiyim kimi tənqid atəşinə tutmaqla, başqalarına sanki xəbərdarlıq edirdi.

"Müsavat" partiyasının fəal üzvlərindən olan, həyatda baş verən bütün sosial, ictimai, siyasi proseslərə münasibətini bildirən F.b.Köçərlini, o dövrün siyasi vəziyyətindən istifadə edənlər onu gözdən salmağa və "millətçi" damğası vurmaqla ləkələmək üçün hər vasitəyə əl atırdılar. Məlumdur ki, bu işlərin başında ilk növbədə azərbaycanlıları heç zaman sevməyən, onları gözü götürməyən və özünə daim düşmən hesab edənlər dururdu.

1917-ci ildə siyasi proseslərə qoşularaq, "Müsavat" partiyasına daxil olan Firidun bəy Köçərli, 1918-ci ilin mayın 28-də Azərbaycan Milli Şurasının üzvü seçilir və "İstiqlal" bəyannaməsi"ni imzalayanlardan biri olur. Lakin seminariyadakı

fəaliyyətinə üstünlük verən Firidun bəy Parlamentdə iştirak etməkdən imtina edir.

1919-cu il fevralın 1-də "Müsavat"ın Mərkəzi Komitəsi səyyar bürosunun təşəbbüsü ilə Qazaxda partiyanın şöbəsi təşkil edilərkən F.b.Köçərli onun sədri seçilmişdir. 1919-cu ildə zəhmətkeş əhali, xüsusilə kəndlilər və qadın cəmiyyəti general-qubernator Əmirxan Xoyskinin vəzifədən çıxarılmasına etiraz edərkən Köçərli "Müsavat" partiyası təşkilatı adından xüsusi bəyanat vermiş, qəzanın əmin-amanlığı, əhalinin rifahı naminə general-qubernatorun geri qaytarılması tələbini irəli sürmüşdür (15.s.85).

F.b.Köçərlinin bu fikirlərinin fövqündə yalnız millət, xalq, vətən sevgisi dururdu.

F.Köçərlinin gələcək haqqında sağlam bir romantikası vardı. O bəzən üzünü sinfə tutaraq, uşaqlara yanıqlı bir səslə deyərdi ki, sizə baxarkən mən Azərbaycan xalqının xoşbəxt nəslini görürəm... Oxuyun, balalarım, xalqımızın nicat yollarında ona dayaq durun! (14.s. 267).

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya ilə birləşməsi, Azərbaycan xalqının bütün tarixi müqəddəratında olduğu kimi, ölkənin mədəni həyatında da çox mühüm, mütərəqqi hadisələrin başlanğıcı oldu. Bu eyni zamanda mətbuata, kitab mədəniyyətinə də aid idi. Azərbaycanın kitab mədəniyyətinin təşəkkül tapmasında bir sıra sənətkarlarımızla yanaşı görkəmli ədəbiyyatşünas, təcrübəli müəllim və geniş biliyə sahib olan Firidun bəy Köçərlinin də çox böyük rolu olubdur.

F.b.Köçərli elmin başqa sahələri ilə yanaşı kitab mədəniyyətinə dair nəzəri və təcrübi biliyini artırmaq üçün bu sahəyə aid mövcud ədəbiyyatı, xüsusilə Komenski, Lokk, Russo, Pestolotsi, Disterviç, Uşinski, Piroqov kimi sənətkarların zəngin irsini öyrənməyə daha çox səy göstərmişdir (10.s.50). Bundan başqa F.b.Köçərli başqa xalqların yazıçılarının bir çox əsərlə-





rini Azərbaycan dilinə tərcümə etməklə geniş oxucu kütləsinin marağını nəzərə alırdı. Çəkdiyi zəhmətinin müqabilində vətənpərvər insan heç bir maddiyyat güdmədən bütün qüvvəsini bu yola sərf edirdi. O gördüyü işindən zövq alırdı. F.b.Köçərli hətta məktublarının birində ürək yanğısı ilə "bu qədər bilsəniz ki, bu zəhmətlərin çap olunmasında mənim niyyətim pul qazanmaq deyil, ancaq ədəbiyyatımıza cüzi bir xidmət etməkdir" deyə bunu qeyd etmişdir (10. s.54).

F.b.Köçərlinin rus dilində təhsil alması, bu dili mükəmməl bilməsi çox hallarda ona fikrini istədiyi formada izah edərək oxuculara çatdırılmasında, rus dilli mətbuatda dəyərli yazılarla çıxış etməsində kömək olurdu.

35 ildən artıq bir müddətdə, fasilə vermədən pedaqoji fəaliyyətlə məşğul olan Köçərlinin dərs dediyi tələbələrə tədris etdiyi savad, bilik, tərbiyə, məktəb nizam-intizamı onun həyatında baş verə biləcək siyasi proseslərdə birbaşa təsirini göstərirdi. O, tələbələrə vətən, yurd, ana dili sevgisini, milləti, torpağı sevməyi öyrədirdi. Onun tələbələri də qarşılıqlı olaraq müəllimlərini bir ata məhəbbət ilə sevmiş, onun tövsiyələrini bir qayda olaraq yaddaşlarına köçürmüşdülər.

Firidun bəy uzun-uzadı danışmağı sevmirdi. O qısa, açıq, aydın, şirin və kəskin danışıqlı adam idi. Onun qısa danışığında da dərin mənalar var idi (14.s.277).

O, Axundovun davamçısı kimi meydana çıxaraq xalqın savadlanması işini asanlaşdırmaq üçün yeni əlifbanın dəyişdirilməsi zərurətini irəli sürmüşdür. 1902-ci ildə həmin məsələ ilə əlaqədar olaraq Köçərli yenə mətbuatda çıxış edərək "Tiflisski listok" qəzetinin 113-cü sayında M.Şahtaxtinskinin yeni əlifba haqqında tənqidi mülahizələrini yazmışdı.

F.b.Köçərli dövrünün ən sayılıb, seçilən müəllimlərindən, ziyalılarından biri idi və tədris işlərində böyük müvəffəqiyyətlər qazanmış, istedadını göstərmişdir. O demək olar ki, peşəkar

müəllimliyinə görə 1886-cı ildən başlayaraq hər il mükafat alırdı. Hətta 1892-ci ilin 20 aprelində 1887-ci ilin 7 noyabrından hesab edilmək şərti ilə ona "Kollejski sekretar" rütbəsi verilmişdir (17.s.4).

Azərbaycanın ictimai və siyasi həyatında yaradıcı fikirləri olduğuna görə F.b.Köçərlinin hətta yenilikçi ədəbiyyatşünas da adlandırmaq olar. Bu görkəmli alim klassik irsi tədqiq etməklə yanaşı, qədim əlyazmaların tapılaraq üzə çıxarılması, həm də çap olunmuş əsərlərin toplaması ilə ciddi məşğul olurdu. O, ilk növbədə klassik əsərlərə müraciət edərək onların həyat və yaradıcılıqlarını öyrənməyi vacib sayırdı. Maddiyyatı deyil mənəviyyatı daha üstün tutan F.b.Köçərli A. Şaiqə yazmış olduğu məktublarının birində: "Təvəqqe edirəm ki, "Gülzar" dan on iki cild lütf edib göndərəsiniz...Pulunuzu tezliklə göndərərəm" deyə müraciət edən F.b.Köçərlinin çoxcəhətli yaradıcılığa malik bir alim olduğunu, mədəniyyəti yüksək qiymətləndirdiyini bir daha görürük (10. s.55).

Firidun bəy saf, təmiz, düz niyyətli insan idi. Bu xüsusiyyətlərinə görə müasirləri olan dostları onun xətrini həmişə əziz tutur, onu hörmətlə xatırlayırdılar. Köçərli ilə yaxın dost olan Abdulla Şaiq "Xatirələrim" kitabında yazırdı: "Köhnə müəllimlərimizdən olan ədəbiyyatşünas F.Köçərli zəmanəsinin ən savadlı, mədəni, alicənab ziyalılarından biri idi. Biz onunla ilk dəfə qiyabi tanış olmuş, lakin uzun müddət məktublaşmışıq. F.Köçərlinin mənə yazdığı məktublar o qədər mənalı, səmimi hisslərlə dolu olardı ki, ondan məktub aldığım günlər mənim üçün toy-bayrama çevrilərdi. F.Köçərli öz məktublarında təkcə mənim və ailəmizin əhvalını soruşmaqla kifayətlənməz, eyni zamanda poçta ilə göndərdiyim yeni əsərlərimi təhlil edər, onların müvəffəqiyyət və nöqsanlarını göstərər, nədən və necə yazmaq haqqında öz mülahizələrini bildirər, Azərbaycan, rus və Avropa yazıçılarının əsərlərindən gətirdiyi nümunələrlə fikirlərini daha





möhkəm əsaslandırardı. Bu cür məktublarında o yeri gəldikcə öz zəmanəsindən şikayətlənərdi". Qori şəhərindən yazdığı məktublarının birində F.Köçərli ürək ağrısı ilə bildirirdi ki, vəziyyət heç də ürək açan deyil. Ağzımızı açıb iki kəlmə söz danışmağa izn vermirlər. Belə çətin dövrdə yaşamaqlarına baxmayaraq, Köçərli gözəl gələcəyə inanırdı. O, zamanın gənc yazıçılarını fəaliyyət göstərməyə, xalqın gözünün açıb onu əsrlərin cəhalət qaranlığından xilas etmək üçün yazmağa, həm də yaxşı yazmağa çağırırdı.

F.b.Köçərlinin həyata ictimai-siyasi baxışları çox fərqli idi. O, insanların hüquqlarının tapdalanmasına biganə qala bilmirdi, xüsusilə də qadınların hüquqlarını müdafiə edərək onların azadlığa çıxmasına çalışırdı. Bütün həyatını və yaradıcılığını xalqın maariflənməsi yoluna həsr edən Firidun bəy bu fikrindən bir an da olsa geri çəkilmirdi, əksinə kütlələr arasında daim maariflənmə işi aparırdı.

Qeyd olunduğu kimi görkəmli alimin yaradıcılıq fəaliyyəti çox mürəkkəb tarixi ədəbi bir şəraitə təsadüf edibdir. O, bir siyasətçi kimi də ölkədə baş verən proseslərdən kənarda qala bilməyirdi. İnsanların sosial vəziyyətindən tutmuş, ölkədəki ictimai-siyasi proseslərə qədər hər bir iş onun maraq dairəsinə aid idi.

1905-ci ildən sonra Rusiyanın ictimai-siyasi həyatında baş verən hadisələr F.b.Köçərlinin ictimai-siyasi görüşlərinin inkişafına müsbət təsir göstərmişdir. Onun ədəbi-tənqidi görüşləri ictimai-siyasi görüşləri ilə əlaqədar idi. F.b.Köçərli insanları bədbinliyə aparan, fanatizmin burulğanında çapalayan, hər şeydə qəzavü-qədərə inanan insanları həyata bağlamağa, yaşamaq uğrunda azadlıq mübarizəsinə qoşulmağa çağırırdı. Ədib "Usta Zeynal" hekayəsində Usta Zeynalın hər bir şeyi Allahın adı ilə bağlamasını, inşallahsız heç bir işi görməyin mümkün olmadığını, tələsməyin və həyəcanın yersiz olduğunu göstərməklə həya-

tın fəlsəfi mənasını düzgün qiymətləndirməyi anlatmağa çalışmışdı. Usta Zeynalın tənbəl təbiətini, onun ətalətini tənqid edən Köçərli insanlara yaşamaq üçün çalışmağı, mübarizə aparmağı məsləhət görür və əsərlərində bu cür fikirləri söyləməklə sanki ürəyinin ağrı-acısını çıxarırdı. Ədəbiyyat cəbhəsində fəallıq göstərməyən şair və yazıçıları tənqid edərək onları xalqa xidmət göstərməyə çağırırdı.

1909-cu ildə çap etdirdiyi bir məqaləsində Köçərli deyirdi: "Həqiqi şair öz əsr və zəmanəsinin gərək ayinəsi olsun, ənvai-vətəni ağlamaq zamanı ağlatsın, güldürmək zamanı güldürsün".

F.b.Köçərlinin ədəbi-tənqidi fikirləri ədəbiyyatdakı işi ilə bitmirdi. O, tənqidi ictimai-siyasi həyat baxışlarında cəmləşdirərək xalqa çatdırır və xalqı zülmə müqavimət göstərməyə səsləyirdi. Onun ictimai-siyasi, ədəbi görüşlərinin əhatə dairəsi məqalələrində irəli sürdüyü məsələlərlə məhdudlaşmırdı. O, tələbələrini demoktatik ruhda tərbiyələndirməklə bərabər onların gözlərini açır, onları gələcəkdə vətən üçün layiqli olmağa hazırlayırdı. Köçərli ədəbiyyatda realizminin ilk mərhələsinə aid xüsusiyyətləri işıqlandıraraq, bu ədəbi məktəbin Azərbaycanda tarixi mövqeyini müəyyənləşdirirdi. Bu işdə də Köçərli M.F.Axundov realizmini əsas götürdü.

Vətənə, torpağa canı ilə bağlı olan Firidun bəy Köçərli daim mübarizə hissi ilə yaşamış, millətinin azadlığı üçün canını belə təhlükədə qoymaqdan çəkinməmişdir. Köçərlinin ürəyində Azərbaycan boyda Azərbaycanın məhəbbəti yaşayırdı. O, xalq içərisində yetərincə nüfuza, hörmətə malik idi. Köçərli həmişə bu hörməti qorumağa çalışmışdır.

Firidun bəy Köçərli hətta həbs olunduğu vaxtlarda belə təmkinini pozmadan, ümidinin itirmədən vüqarlı, qürurlu olmuşdur. Həbsi zamanı ona hörmət bəsləyənlərdən Firidun bəyə təklif olunmuşdur ki, "Siz Köçərli deyil başqa bir soyadla özünüzü tanıdın ki, sizin Köçərli olduğunuzu bilməsinlər, çünki güllələnmək ehtimalınız var. Lakin Firidun bəy Köçərli sərt şəkildə "Mən müəllim ola-ola şagirdlərə düzlükdən bəhs edirəm, indi özüm yalan danışmalıyam" deyə qəti etirazını bildirmişdi. Sənədlərdən götürülmüş bu sitatlar bir çox müəlliflərin əsərlərində qeyd edilibdir. Bu bir cümlə də nə qədər iradənin, vicdanın, düzlüyün olduğunu görməmək mümkün deyil. Əsil pedaqoq olan Köçərli ölüm ayağında belə özünü müdafiə üçün yalan danışmaq istəmir. Məhz bu cür xüsusiyyətlərinə görə belə insanlara xalq tərəfindən dahi şəxsiyyət adı verilibdir.





Firidun bəy çarizmin qəddar müstəmləkəçilik siyasətinə və milli təzyiqlərinə baxmayaraq, dövrünün ziyalıları içərisində və elmi dairələrdə Azərbaycan haqqında olan yüksək fikirlərinin açıq söyləyə bilirdi. Bu cür fikirlər söyləməsi sonunda onu sevməyənlərin əlinə fürsət verərək, Köçərlinin güdaza getməsi ilə nəticələnir.

F.b.Köçərli çox gözəl anlayırdı ki, insanın həyatında və onun müqəddəratının həll olunmasında sosial çətinliklərlə yanaşı, savadsızlığının olması ən mənfi faktorlardan biridir. O hər bir azərbaycanlı gəncin təhsilə yiyələnməyinin də əsas meyar olaraq insanın özünü bir insan kimi tanıtmasında, öz hüquqlarını bilməsində görürdü. Siyasi arenada mübariz fəaliyyət göstərən Firidun bəy Köçərlinin çəkdiyi zəhmət demək olar ki, heç də boşuna getməmişdir. Çəkdiyi zəhmətinin müqabilində bu gün Azərbaycan ədəbiyyatında ən görkəmli şəxsiyyətlərin sırasında F.b.Köçərlinin adı vardır.

F.b.Köçərli publisistikasında özünüdərk meyli güclü olubdur. Bəlkə də bu səbəbdən o başqa xalqların ədəbiyyat tarixini dərindən öyrənməyə səy göstərir və sonra onların ədəbiyyatı tarixlərini Azərbaycan ədəbiyyatı tarixi ilə müqayisə etməyə çalışırdı.

Gənc yaşlarından rus dilinə mükəmməl yiyələnmiş

F.b.Köçərli eyni zamanda ərəb-fars dillərini də gözəl bilirdi. O, bu dilləri mükəmməl bilməsi nəticəsində Quranı çox gözəl mənimsəmişdi. F.Köçərlini dininə olan hörmətininə görə müəyyən dairələr "dindar" kimi qiymətləndirərək, ona şəriət dərslərini keçməsini tapşırdılar. Sonradan Firidun bəyə hətta şeyxülislam vəzifəsi təklif olunur. Lakin müəllimliyi bütün vəzifələrdən yüksəkdə tutan Köçərli ona təklif olunan şeyxülislam vəzifəsini icra etməkdən imtina edir. O, bir daha sübut etməyə çalışırdı ki, dininə olan hörməti onun heç də dindar olmağı demək deyildir.

Qeyd olunduğu kimi F.b.Köçərlinin ictimai-siyasi fəaliyyətində onun bir şəxsiyyət kimi mövqeyi fərqli olub. Köçərlinin övladı olmadığı halda o millətinin balalarını öz övladı hesab edərək onlara ürəkdən can yandırır, gənclərin həyatda düzgün yol seçmələrinə səy göstərirdi. Bu da onun həm şagirdləri tərəfindən, həm də xalq tərəfindən sevilməyinə səbəb olurdu. Firidun bəy sözün həqiqi mənasında əsl müəllim, müəllimlər müəllimi idi.

Maraqlı həyat yolu keçmiş, rəngarəng yaradıcılıqla məşğul olmuş Köçərlinin yüksək mədəniyyəti, gözəl dil qabiliyyəti olubdur. Firidun bəy Köçərli apardığı araşdırmalarında təkcə sözü, dili deyil, eyni zamanda topladığı əsərlərdə həmən yazıçı və şairlərin yaşadıqları dövrün sosial, ictimai və siyasi həyat tərzini də öyrənirdi. F.b.Köçərli bəlkə də hər kəsə Azərbaycanın necə istedadlı şair və yazıçılarının olduğunu göstərməyə çalışmış və ən zəngin dillərdən olan Azərbaycan dilinin dünya dilləri ilə bir hüquqda olmasını arzulamışdır. F.Köçərli xalqı dilimizi qorumağa səsləyirdi.

Firidun bəy XII-XX əsrlərdə yaşayıb yaratmış Azərbaycan ədəbiyyatının inciləri hesab edilən klassiklərimizdən 130 dahi sənətkarın həyatı və yaradıcılığı haqqında maraqlı məlumatlar toplayaraq ədəbiyyata çox dəyərli töhfə vermişdir. Bu şairlərin əsərlərində sadə dil üslubunun gözəlliyini, işlədilən ifadələrin nə





qədər kəsərli mahiyyət daşıdığını və dövrün iztirablarını şeirlərin dili ilə anlamaq mümkündür.

Buna görə də o bir hayqırtı, bir çağırış ilə milləti dilimizin qorunmasına səsləyirdi. M. Füzulidən başlayaraq sözün nə qədər böyük hikmət sahibi olduğunu dərk edən F.b.Köçərli A.Şaiq, A.Səhhət, Q.Zakir, M.Ə.Sabir və başqalarının əsərlərində sözün dəyərini tapmağa, onun sirrini açmağa çalışmışdır. Bu Köçərlinin publisistikasında ən çox yer verdiyi və vacib hesab etdiyi məsələlərdən biri, bəlkə də birincisi bu idi. Sözün həm siyasi, həm də ictimai həyatda böyük rol oynadığı məlumdur. Hələ XV-XVI əsrlərdə yaşayıb yaratmış görkəmli Azərbaycan sərkərdəsi Şah İsmayıl Xətainin:

*"Söz var kəsdirər başı,*
*Söz var kəsər savaşı".*

–misralarında şair sözün gücünün, qüvvətinin və qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərməyə çalışıb. Tariximizin bünövrəsi demək olar ki, sözün əsasında qoyulmuşdur. İctimai-siyasi həyatımızda sözün böyük əhəmiyyət kəsb etdiyini bilirik. İctimai-siyasi həyatda sözün nə qədər qüdrətli olduğunu bir daha baş verən inqilabi hərəkatlardan görmək olur.

Araşdırmalar zamanı aydın olur ki, F.b.Köçərlinin yaradıcılıq fəaliyyətində bəhrələnməyində Azərbaycan ədəbiyyatının böyük dramaturqu və filosofu M. F. Axundovun əsərlərinin də müəyyən mənada təsiri olubdur. Köçərli M.F.Axundovun nə qədər vətənpərvər olduğunu, millətinin maariflənməsi yolunda çalışdığını, cəhalətə, nadanlığa qarşı mübarizə apardığını gözəl anlayırdı. Bu səbəbdən onun əsərlərini yüksək dəyərləndirən, onun fəlsəfi fikirlərinə daim istinad edən Köçərlinin istər ictimai, istərsə də siyasi həyat baxışlarının formalaşmasında görkəmli dramaturq və filosofun əsərlərinin rolu vardır. F.Köçərli millə-

tini millət kimi görmək arzusu ilə yaşayırdı. Azərbaycanlı balalarının maariflənməsi üçün məktəblərin açılması məsələsi onun ən böyük arzularından idi. F.b.Köçərli, çox çətinliklə də olsa nəhayət Qori Müəllimlər Seminariyasının filialı olaraq Qazax Müəllimlər Seminariyasının açılmasına icazə ala bilir. Lakin, Rusiyada, eləcə də ölkəmizdə siyasi vəziyyətin çətinləşməsi Köçərlinin çoxdankı arzusuna çatmasına şərait yaradır. O, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsinə nail olur. Qazax Müəllimlər Seminariyasının açılmasında və fəaliyyət göstərməsində Köçərlinin nə qədər əmək sərf etdiyini bilirik.

F.b.Köçərli hələ gənc yaşlarından Yerevan gimnaziyasında müəllimlik etdiyi vaxtlarda təhsil verdiyi tələbələrinə ancaq və ancaq Vətəni, torpağı, doğma ana dilini sevməyi öyrədirdi. O, başqa xalqlarla dostluq əlaqələrinin yaradılmasının tərəfdarı idi. Bir çox ölkələrlə belə dostluqların yaradılmasının Azərbaycana gec və ya tez çox böyük xeyir gətirəcəyini F.b.Köçərli gözəl başa düşürdü. Lakin, ilk növbədə öz dilimizə hörmətlə yanaşmağı, sonra başqa dilləri öyrənməyi başa salırdı. O, məişətimizə dair ürək yanğısı ilə yazdığı məqalələri, ədəbiyyat nəzəriyyəsi və tarixinə aid tədqiqləri ilə Azərbaycanda ictimai fikrimizin inkişafına müsbət təsir göstərə bilibdir.

Görkəmli ədəbiyyatşünasın məqalələrini nəzərdən keçirdikdə onun eyni zamanda beynəlmiləlçiliyin tərəfdarı olduğunu görürük. "Millətçi " adı ilə damğalanan bir şəxsin beynəlmiləlçi olduğu bir qədər maraqlı görünür. Əgər o beynəlmiləlçidirsə necə millətçi ola bilər və yaxud əksinə millətçidirsə necə beynəlmiləlçi ola bilər? Məlumdur ki, minbir bəhanə uydurularaq ki, Azərbaycanın zaman-zaman məhv edilən ziyalılarımız kimi F.b.Köçərlinin də aradan götürülməsi və "Millətçi" damğası ilə damğalanması Azərbaycanın sayılıb-seçilən ziyalılarını gözü götürməyənlər üçün bu bir bəhanə idi. Onun hər bir çıxışını bu





səbəbdən siyasiləşdirməyə çalışan qüvvələr onun millətsevərliyindən istifadə edərək əleyhinə çalışmağı bacardılar.

F.b.Köçərli əslən öz mənəviyyatını rus inqilabçı demokratlarının ruhunda tərbiyə etmiş və ölkəsini, xalqını sevən hər bir vətəndaş kimi mümkün olduqca əməyini Azərbaycanın zəhmətkeş xalqının xeyrinə sərf etmişdir. Bütün bunlara görə də Köçərlinin istər Qoqol, Puşkin və Tolstoy kimi rusların, istərsə Mirzə Fətəli Axundov, Qasımbəy Zakir, Hacı Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir kimi azərbaycanlıların və istərsə də knyaz Çavçavadze və Akaki Sereteli kimi gürcülərin şair və ədiblərinə öz tədqiqatlarında geniş yer verməsi təsadüfü deyildir. O, məfkurəcə bir olduğu bu adamlara Azərbaycanın tarixini, adət-ənənələrini, ədəbiyyatını, onun klassiklərini tanıtmağa və onların da yaradıcılığını öz qələmi ilə hər kəsə tanıtmağa, bu məfkurəni insanlara aşılamaq üçün ömrü boyu yorulmadan çalışmışdır. F.b.Köçərli qeyri millətin yazıçı, şair, ədəbiyyatşünasları ilə möhkəm dostluq əlaqələri yaratmağı da məhz bu cəhətdən istəyirdi. O, öz yaradıcılığında bəzi şairləri milli ruhda yazdıqlarına görə yüksək ad olaraq "milli şair" adlandırırdı. Bu söz xətrinə deyilmiş kəlam deyildir.

F.b.Köçərli əsl vətənpərvər idi. O bunu heç gizlətməyirdi. Hər an açıq-aydın xalqının qeydinə qaldığını hiss etdirirdi. F.b.Köçərli həyatını azərbaycanlı balalarının oxumasına sərf edərək məktəbi, şagirdləri ona təklif edilən bütün vəzifələrdən üstün tuturdu. Onun deputatlığa irəli sürülmüş namizədliyi "ya deputatlıq, ya məktəb " şərtləri əsasında həyata keçirildiyindən o namizədliyini rədd edərək məktəbi üstün tutmuşdu. F.b.Köçərli pedaqoji fəaliyyəti təklif edilən bütün yüksək vəzifələrdən uca hesab edirdi. Bu cür imtinalar bir daha onu təsdiq edir ki, Köçərli həqiqi mənada millət, xalq, təhsil, maarif fədaisi olubdur və eyni zamanda da F.b.Köçərlinin ictimai-siyasi həyat baxışlarının dahiyanə formalaşdığını və millətinin gələcəyinə xidmət etmək

istədiyini göstərirdi. Azərbaycan xalqının tərəqqipəvər, istedadlı oğlu Firidun bəy Köçərli doğma mədəniyyətimizin inkişafı yolunda irəliləmək üçün azadlıq silahına sarılaraq fədakarlıqla çalışırdı.

Hər bir xalqın həyatında, məişətində bir çox adət-ənənələr vardır ki, bu adət və ənənələr o xalqlar tərəfindən artıq qanuniləşərək, hətta bir qismi inqilabi mahiyyət daşıyır. İnsanlar arasında mehriban qonşuluq münasibətləri yaradan, dostluq və ünsiyyət tellərini möhkəmləndirən, humanizmə xidmət edən adət və ənənələri həmişə yaşatmaq və inkişaf etdirmək kimi cəhətlər F.b.Köçərlinin xasiyyətinə xas olan cəhətlərdən idi.

XIX əsrdən başlayaraq qonşu və dost xalqlar arasındakı iqtisadi, mədəni əlaqə daha böyük vüsət qazanmış və yeni istiqanmətdə inkişaf etmişdir. Bütün ruslara qarşı inamsızlıq toxumunu səpən çarizmin milli siyasəti nəticəsində hətta qabaqcıl, demokratik rus mədəniyyəti və ədəbiyyatının özü, rolu və əhəmiyyətinin etiraf edilməsinə baxmayaraq əzilən xalqların çox nümayəndəsinin gözündən düşmüşdü.

Azərbaycanın qabaqcıl mədəniyyət xadimlərinin, yazıçı və şairlərinin bəzi məqalələrində, bədii əsərlərində bu fikrin əks-sədasını, yəni "özlərinin daxilindəki ziddiyyətləri" aydın görmək olur. Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin, Firidun bəy Köçərlinin, Nəriman Nərimanovun, Abdulla Şaiqin publisistikasında, şeir və hekayələrində rus çarizminin Azərbaycanda yürütdüyü müstəmləkəçilik siyasətinə açıq gözlə baxan vətənpərvərlərin xalqı ayıltmaq səylərinə dair faktlarla tez-tez rastlaşırıq(1. s.170)

XIX əsrin sonlarına doğru "Kəşkül", "Qafqaz", "Kaspi" səhifələrində irəli sürülən milli kimlik, "Zaqafqaziya müsəlmanlarını neçə adlandırmalı?" və s. bu kimi məsələlərə "Nədən bu hala qaldıq?", vəziyyətdən çıxmaq üçün "Bizə hansı elmlər lazımdır?" sualları ətrafında düzgün axtarışlar, vətəndaşlıq ehtiraslı, dərin təəssüb duyğulu polemikalar aparılır, xalq hələlik "milli dirilik", mədəni, mənəvi "hüquq üstə ədavət etməyə" (M.Ə.Sabir) səfərlər olunurdu. Bu sosial-mədəni, ideya-əxlaqi, mənəvi-psixoloji proseslərin getdikcə sistemli və sürəkli şəkil almasında Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əlimərdan bəy Topçubaşov, Haşım bəy Vəzirov, Məhəmməd ağa Şahtaxtlı, Əhməd bəy Ağayev, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Məhəmməd Tağı Sidqi, Sultan Məcid Qənizadə, Axund Əliturab Axundov, Fəqir Ordubadi və b. fəal iştirak edirdilər. Həmin ədəbi-ictimai fikir və hərəkat axarına sonralar Ömər Faiq Nemanzadə, Əlibəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Abbas Səhhət, Mirzə Ələkbər Sabir, Axund Yusif Talıbzadə, Abdulla Şaiq, Hüseyn Cavid, Abdulla bəy Divanbəyoğlu, Firidun bəy Köçərli, Məhəmmədəmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Üzeyir bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Mahmud bəy Mahmudbəyov, Ələbbas Müznib, Mirzə Məhəmməd Axundov, Süleyman Sani Axundov, Mirzəbala Məhəmmədzadə, Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Qurbanəli Şərifzadə, Məşədi Həbib Zeynalov, Əli Razi Şamçızadə, seyid Hüseyn, Abdulla Sur və başqalarından ibarət yeni və mübariz əhval-ruhiyyəli, mütərəqqi baxışlı, istiqlal amallı ədəbi qüvvələr də qoşuldu(20. s.115).

F.b.Köçərli inqilabi-demokratik fikirlərini, düşüncələrini əsərlərində incə ehyamlarla nəzərə çatdırması hər şeydən əvvəl dünyaya hayqırtı, həyata çağırış, fəaliyyət və mübarizəyə dəvət idi. Bunun üçün də o yaradıcılığından göründüyü kimi ictimai və siyasi həyat baxışlarındakı mövqeyinin oxucular tərəfindən asan başa düşülməsi yolunda çalışırdı. Hər kəsi öz hüquqlarını müdafiə etmək üçün hazırlamaq, o dövr üçün elə də asan deyildir. Bu mübarizədə ən güclü təbliğat vasitəsi insanları qəzet almağa, mətbuatdan gündəlik xəbərləri oxumağa və ümumiliklə ədəbiyyatdan istifadəyə cəlb etmək idi. F.b.Köçərlinin müa-

sirlərinin əksəriyyəti onun kimi düşünür və bu yolda mübarizə aparırdılar. H. Zərdabi ədəbiyyatı "yuxuda olan qardaşlarımızı ayıltmaq üçün böyük bir alət" hesab edirdi. F.b.Köçərli isə dövrün yazıçılarını "öz səsini millətin səsinə qoşub... təsirli kalamı ilə onu qəflətdən bidar etməyə, tərəqqi və maarif səmtinə cürət və cəsarət ilə dəvət etməyə" çağırırdı(3.s.122).

F.b.Köçərlinin Azərbaycanın böyük alimi H.b.Zərdabinin yaradıcılığına da xüsusi hörməti olub. Beləki, əsl ziyalı olan Zərdabinin elmi, savadı, maarifpərvər ideyaları sanki Firidun bəyin ürəyindən xəbər verirdi. Azərbaycanın o zamankı tarixi inkişaf səviyyəsində ən təsirli, ən münasib tərbiyəvi vasitələrdən biri mətbu söz idi. Zərdabinin "Rusiyada əvvəlinci Azərbaycan qəzeti" məqaləsində oxuyuruq: "Hər kəsi çağırıram-gəlmir, göstərirəm-görmür, deyirəm-qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də. Ələlxüsus doğru söz(...). Belədə qəzet çıxarmaqdan savayı bir qeyri əlac yoxdur" Bir az: "Heç olmaz ki, doğru söz olan yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar(...). Sonra düşmənin düşmənliyi, dostun doğruluğu və dost göstərən doğru yolun doğru olması aşkar olar"(21.s.253).

Köçərli millətin nadanlığını, cəhalətini qələmi ilə gözəl izah edən Zərdabinin yaradıcılığını məhz bu cəhətdən təqdirəlayiq hesab edirdi.

"Əkinçi" ənənələrini yaşatmaq və inkişaf etdirmək yolunda F.Köçərli daha ardıcıl çalışmışdır. Əsərlərində Zərdabi və onun qəzetini dönə-dönə yad edən alim 1906-cı ildə belə bir fikir irəli sürürdü ki, "Əkinçi"nin gözəl sözləri və nəfli məlumatı indi də öz əhəmiyyətini itirməmişdir", onlar "müəyyən bir sistem halına salınıb Azərbaycan dilində nəşr edilən dövrü jurnallarda çap olunarsa, çox faydalı olar"(21.s.269).





F.b.Köçərlinin ədəbi fəaliyyət dövrünü mövhumatın güclü hökm sürdüyü cəhətdən çox ağır bir dövr hesab etmək olar. İnsanların sosial durumunun ağırlığı və savadsızlığı bir tərəfdən, digər tərəfdən dini fanatizmin və cəhalətin tüğyan etməsi ilə bir vaxtda qəzetə abunə olmağın, yaxud gündəlik qəzet almağın istər maddiyyat tərəfdən, istərsə də dini tərəfdən nə qədər çətin olduğunu anlamaq olur. Lakin bütün bu maneələrə baxmayaraq, F.b.Köçərli bir çox ziyalılarımızla birlikdə bu işin öhdəsindən gəlməyə səy göstərirdilər.

XX əsrin əvvəlləri Azərbaycan tarixinin ən mürəkkəb və ictimai-siyasi hadisələrlə zəngin dövrlərindən biridir. Xalqın mədəni inkişafı, savadlanması haqqında fikirləşmək belə istəməyən çar hökuməti və yerli istismarçılar mədəniyyət sahəsindəki mütərəqqi təşəbbüslərin qarşısını alır, zəhmətkeşləri cəhalət məngənəsində saxlamağa çalışırdılar(21.s.8).

Çar hökumətinin maarif sahəsindəki mürtəce siyasətinə baxmayaraq, Qafqazda yaşayan qabaqcıl pedaqoji xadimlər, o cümlədən azərbaycanlılar Qori şəhərində açılmış seminariyada təhsil alırdılar. Onlar "Zaqafqaziya Müəllimlər Seminariyası" adı ilə məşhur olan bu məktəbdə təhsil və təlim keçdikdən sonra xalqına xidmət göstərmək üçün vətənlərinə dönərək maarifçilik ideyalarını yayırdılar. Seminariyada əsasən varlı və ruhani uşaqları təhsil alırdı. 1879-cu ildə bu tədris ocağında azərbaycanlı balaları üçün "Tatar şöbəsi" adlanan yeni bir şöbə açılır, F.b.Köçərli də məhz həmin ildə o şöbəyə qəbul edilir. Seminariyada oxuduğu vaxtlardan Köçərli dünyada baş verən proseslərlə maraqlanır, mütaliə edir, eyni zamanda cərəyan edən hadisələr fonunda xalqına qarşı edilən ədalətsizliyi və haqsızlığı görürdü. Elə o zamanlardan balaca Firidunun qəlbində xalqına olan sevgi, məhəbbət coşur və o vətənə xidmət etməyin ən

gərəkli, dəyərli yollarını arayır.

1905-1907-ci illər inqilabi dövründə və ondan sonra Azərbaycan mədəniyyətinin bir çox sahələri sürəkli inkişaf yoluna düşdü. İnqilab xalq kütlələrinin maarifə, mədəniyyətə, incəsənətə maraq və meylini əvvəlkinə görə qat-qat qüvvətləndirmişdi.

F.b.Köçərli Azərbaycanın şair və yazıçılarına həsr etdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" və "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərlərində klassiklərimiz haqqında çox geniş olmasa da, məlumat verməyi özünün vətəndaşlıq borcu hesab edirdi. Bu əsərlərin nəşr olunmasında müəyyən çətinliklərin yaranmasına baxmayaraq, o ruhdan düşmədi. Nəhayət 1903-cü ildə min bir əziyyətlə "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabını Tiflisdə nəşr etdirə bildi. Lakin ondan sonra 1905-ci ildə ərsəyə gələn "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabının nəşrinə yaranan qadağa, kitabın işıq üzü görməsinə mane oldu. Yalnız 20 ildən sonra yəni, 1925-ci ildə F.b.Köçərlinin həyat yoldaşı Badi Səba xanım tərəfindən kitabın nəşri reallaşdı. Artıq o zaman F.b.Köçərli həyatda yox idi. F.b.Köçərlinin bu əsəri ziyalılar tərəfindən yüksək qiymətləndirildi. Bəzi tənqidi fikirlər söylənilsə də bu əsər Azərbaycan ədəbiyyatı üçün çox dəyərli əsər hesab edilirdi. O, bu əsəri ilə Azərbaycanın istedadlı şair və yazıçılarının olduğunu və Azərbaycanın necə bir mədəniyyətə malik olduğunu göstərmək istəmişdi. Bunu Qərb mədəniyyətini Şərq xalqlarının yaratdıqları mədəniyyətdən ölçülməz dərəcədə, qat-qat üstün, ali mədəniyyət hesab edənlərə və Qərb mədəniyyətini nümunəvi, Şərq mədəniyyətini isə geri qalmış mədəniyyət kimi göstərməyə çalışanlara, F.b.Köçərlinin layiqli cavabı kimi qiymətləndirmək olar. Bu həm də də keçmiş irsimizin öyrənilməsində qiymətli mənbə olaraq tariximizə yazıldı.

Savadsızlığın aradan qaldırılması uğrunda var qüvvələrini sərf edən maarifpərvərlər müxtəlif yollar arayır, axtarırdı.





Zaman yetişmişdi. Artıq Azərbaycanda qəzet, kitab və jurnal nəşrinə böyük ehtiyac duyulurdu. Qafqaz müsəlmanlarının maarifinin qüvvətlənməyinə Rusiya hökuməti hər vasitə ilə mane olmağa çalışırdı. Lakin ölkədə gedən proseslərdən narahat olan çarizim öz siyasətini bir qədər yumuşaltmaq məcburiyyətində qalır. Əgər XIX əsrin sonlarında o, azlıqda qalan qalan xalqların ziyalılarına " qəzet oxumaq xalqın nəyinə gərəkdir", "qoy qara camaat gedib öz mal-qarasını otarsın"- deyə bilirdisə, indi XX əsrin əvvəlində artıq zamanə dəyişmiş, ucqarlarda mənəvi tələbat da artmışdı.Cəmiyyətin tərəqqisində, onun irəli getməsində mətbuatın rolunun vacibliyi uğrunda mübarizə aparan ziyalılarımız nəhayət milli mətbuatlarını yarada bildi. Bu maneəni dəf etmək ilk olaraq Məhəmməd ağa Şahtaxtlıya nəsib oldu(2 .s. 52).

1903-cü il martın 30-da xalqımızın ictimai-siyasi həyatında və mədəniyyət tarixində daha bir əlamətdar hadisə baş verdi: həmin gün Azərbaycan ziyalılarının çoxdan bəri həsrətlə gözlədikləri əsrin ilk milli mətbuat nümunəsi yaradıldı. "Şərqi-Rus" qəzeti işıq üzü gördü. Qəzetin müdiri və baş mühərriri 25 ildən çox jurnalistlik sahəsində fəaliyyət göstərmiş naxçıvanlı Məhəmmədağa Şahtaxtlı idi. "Şərqi-Rus" qəzetinin ilk nömrəsinin nəşri təkcə Qafqazda deyil, bütün Rusiya müsəlmanları arasında və hətta İsveçrə, Fransa, Bolqarıstan, İran və sair ölkələrdə də əks-səda verdi(2. s 59).

Bu qəzetdə M. Şahtaxtlının, C. Məmmədquluzadənin, M. Ə. Sabirin, F. Köçərlinin və başqalarının məqalə, hekayə, şeir, resenziya və tərcümələri çap olunurdu.

F.b.Köçərli "Azərbaycan dövrü mətbuatının qısa icmalı"nda ("Zaqafqaziya" qəzeti, 1906, №2) göstərirdi ki,"bu qəzetin meydana gəlməsi yalnız Zaqafqaziyadakı azərbaycanlıları deyil, hətta bütün Rusiya müsəlmanlarını sevindirirdi (2.s.61).

Azərbaycan maarifçiləri qəzetdə fəal iştirak edərək, başqa qələm sahiblərinin ictimai fikir tarixində açdıqları cığırı daha da

genişləndirirdilər. Firidun bəy Köçərli zəhmətkeş kütlələrin mənafeyi keşiyində duran, imtiyazlı siniflərin zülmkarlığını, qəddarlığını və onların insanpərvərlikdən uzaq olmalarını müxtəlif mövzularda qələmə alaraq ifşa etməyə çalışırdı.

F. Köçərli "Təbriknamələr" adlı məqaləsində haqlı olaraq göstərirdi ki, bu qəzetin cəmiyyət içərisində pərəstişkarları minlərlədir, lakin bunların arasında xanlardan, ağalardan, bəylərdən bir nəfər də olsun yoxdur(2. s.70).

Elə buna görədir ki, "Şərqi-Rus"u sevməyən, onun yenilikçi olmasından, cəmiyyətdə islahatlara çağrışından "ürkən" xanlar, bəylər, burjua mühərrirləri fanatik dindarlarla əl-ələ verərək, qəzet üzərində yürüş təşkil etməyə başladılar.

Bu dövrdə qəzet nəşrinin müşküllüyündən bəhs edən F.Köçərli xalq kütlələrində qəzet oxumaq ehtiyacı hələ yaranmadığı üçün onların bu işə laqeydliklərini qeyd edirdi. O, həm də başa düşürdü ki, millətinin çoxluq təşkil edən zəhmətkeş, yoxsul təbəqəsinin daha önəmli ehtiyacları var: yaşamaq, acından ölməmək. Belə olan şəraitdə bu çətinliyi anlamaq mümkündür. Çünki Rusiyanın özündə də vəziyyət ağır idi.

Firidun bəy Köçərli "Şərqi Rus"un fəal müxbirlərindən idi. O qəzetin səhifələrində elm, mədəniyyət,ədəbiyyat və bir sıra başqa-başqa sahələrə aid yazılarla çıxış edirdi. 1903-cü il aprelin 29-da "Tiflisski listok" qəzetində "Ф.Кочарлински" imzası ilə maraqlı bir məqalə dərc edildi. Firidun bəy həmin yazısında Tiflisdə "Şərqi-Rus"nəşri haqqında böyük sevinclə məlumat verir, qəzetdə dərc olunan məqalələr barəsində öz fikrini bildiridi.

Təbiidir ki, bu məqalə "Şərqi-Rus"qəzetinin naşiri və baş mühərriri M.Şahtaxtlının diqqətini cəlb etməyə bilməzdi. Qeyd etməliyik ki, Firidun bəy elə həmin qəzetdə bir il əvvəl M.Şahtaxtlının yeni əlifbası barəsində böyük bir məqalə ilə çıxış etmişdi.

Ertəsi gün, aprelin 30-da M.Şahtaxtlı "İdarədən" rubrikası





ilə "Şərqi-Rus"da belə bir məlumat verdi: "dünən "Tiflisski listok" qəzetində Qori seminariyası müəllimlərindən cənab Firidun bəy Köçərlinskinin qəzetimizdə dərc olunan əsərlər xüsusunda bir yazısı basılmışdır. Yazının ruhu olduqca xeyirxahanədir. Təşəkkür olunur. Firidun bəy "Şərqi-Rus" da yazı yazmağı vəd etmişdi. Heç əsəri çıxmayıb"(2. s.144).

Bundan sonra biz "Şərqi-Rus" qəzeti səhifələrində F.b. Köçərlinin açıq və gizli imzalarla aktual mövzularda dərc olunan yazılarına rast gəlirik. Bu da təbiidir. Zəmanəsinin böyük qələm sahiblərindən biri olan F.b.Köçərli "Şərqi-Rus" qəzetindən kənarda qala bilməzdi...

"Şərqi Rus" qəzetinin dinə münasibəti məsələsinə gəldikdə, ruhanilərin bu qəzetdə elmin, maarifin əhəmiyyəti haqqında çıxışlarını F.b.Köçərli müsbət hal hesab edirdi. Onun fikrincə böyük nüfuz sahibi olan belə şəxsiyyətlərin qəzetdə elmin, biliyin əhəmiyyətindən bəhs etmələri "Şərqi Rus" un maarifçilik mövqeyinə nəinki xələl gətirmir, hətta bəzi cəhətdən qəzetin inkişafına xidmət edir. Bu qəzetin nəşrə başlaması F.b.Köçərlini həqiqət ürəkdən sevindirmişdir. Həm də artıq zəmanə dəyişməkdə idi. Nəinki mərkəzdə, hətta ucqarlarda da mənəvi tələbat artmışdı.

Rusiyanın ictimai-siyasi həyatında baş verən dəyişiklik Azərbaycanda da özünün göstərməyə başlayır. Artıq fikir azadlığı az da olsa hiss edilirdi. Sosial həyata yönəlmiş etiraz dalğaları yavaş-yavaş özünü göstərməyə başlayırdı. Qabaqcıl ziyalılarımız bunu müsbət hal kimi dəyərləndirirdilər. Lakin bu qədər maariflənmə işi aparılsa da hələ istənilən nəticəni əldə etmək olmurdu.

F.b.Köçərli xalq kütlələrinin qəzet oxumaq ehtiyacının tam olaraq yaranmadığını və onların ictimai məsələlərə laqeyd münasibətdə olduqlarını kədərlə qeyd edirdi.

F.b.Köçərli ziddiyyətli bir yaradıcılıq yolu keçmişdir.

Maarifçi-demokratlara məxsus məhdudiyyətlər, ziddiyyətlər onun əsərləri üçün də xarakterikdir. Ancaq bu ziddiyyətlərə baxmayaraq, Köçərli XX əsr Azərbaycan ədəbi həyatında elə bir mövqe tutur ki, onu dərindən öyrənmədən həmin dövrün ədəbi-tənqidi fikrini tədqiq etmək, bu sahədə dürüst nəticələrə gəlmək çox çətindir (11.s.401).

Firidun bəy Köçərlinin həyat və yaradıcılığına diqqətlə yanaşdıqda onun siyasi fəaliyyətinin motivlərini görmək mümkündür. Əlifbanın dəyişdirilməsi, dilimizin saflaşdırılması, mövhumatın aradan qaldırılması, qadınların təhsilə cəlb edilməsi və onlara azadlıq verilməsi, uşaqlar üçün xüsusi ədəbiyyatların hazırlanması, milli mətbuatın yaranması yolunda mübarizəsi, Azərbaycan xalqının müstəqilliyi uğrunda şagird və tələbələr arasında təbliğat aparması onun bir siyasətçi keyfiyyətini ortaya çıxarır.

Çarizmin məngənəsində sıxılan Azərbaycan xalqının savadsızlıq, nadanlıq, insan hüquqlarının tapdalanması kimi məsələlərini gündəmə gətirmək kiçik müstəmləkə dövlət olan Azərbaycan üçün elə də asan deyildi. F.b.Köçərli və onun simasında Azərbaycan xalqının işıqlı gələcəyi naminə həyatlarını təhlükə altında qoyan ziyalılarımız çəkinmədən bu yolda çalışırdılar. Bu mübarizədə onların əksəriyyəti siyasi düşmən kimi qətlə yetirilibdir, lakin tarix onların xidmətlərini Azərbaycan xalqının yaddaşına yazıbdır. Firidun bəy Köçərli də siyasi fikirlərinə görə daim təqib olunub, izlənilib və sonunda qətlə yetirilibdir.

F.b.Köçərli ədəbi-tənqidi və ictimai-siyasi görüşlərini yaymaq üçün mətbuatdan daha geniş şəkildə istifadə edirdi (11. s. 408). Onun ədəbi fəaliyyəti bu cəhətdən çox əhəmiyyətli və qiymətlidir. F.b.Köçərli 60-cı illərdən sonrakı dövrü Azərbaycan ədəbiyyatında ən məhsuldar dövr adlandırırdı. Həmin dövrdə o maarif sahəsində əldə edilən nailiyyətlərdən, yeni dərsliklərin meydana çıxmasından, tərcümə ədəbiyyatının isə son dərəcə in-





kişaf etməsindən bəhs edirdi.

Mütərəqqi ziyalılar Firidun bəyin ədəbiyyat, mətbuat haqqında söylədiklərini əsas gətirərək və fikirlərindəki məna dərinliyini, uzaqgörənliyini bəyənərək onunla həmfikir olduqlarını qeyd edirdilər.

Azərbaycan ədəbiyyatı tarixində yetərincə tanınan simalardan Seyid Hüseyn ədəbiyyatın həyata, həqiqətə münasibəti məsələsinə öz sələfləri M.F.Axundov, H.Zərdabi kimi yanaşırdı, müasiri F.Köçərlinin bu barədəki fikirlərini ədəbi təcrübəyə tətbiq edib, daha geniş şəkildə yayırdı. Hətta bir çox məsələlərdə S.Hüseyn onun fikirlərinin Firidun Köçərlinin fikirləri ilə yaxın olduğunu da qeyd edirdi (3.s.89).

Köçərli həyatın xarakterik cəhətlərini ədəbiyyatda əks etdirməyi bir vəzifə olaraq qarşıya qoyduqda, milli xüsusiyyətləri də nəzərdən qaçırmamağa çalışırdı.

F.b.Köçərlinin dünyagörüşündəki, ictimai-siyasi baxışlarındakı reallıq, qətilik, saflıq ona həyatı dərindən dərk etməyə imkan verirdi. O ölkədə gedən prosesləri görür və bu səbəbdən də övladlarımıza kiçik yaşlarından vətənə bağlılığı təbliğ etməyi düşünürdü. Köçərli çox gözəl anlayırdı ki, bu bir günün, iki günün işi deyildir. Burada möhkəm iradə, səbr lazımdır ki, milləti bu çətinlikdən xilas etmək mümkün olsun. Bunun üçünsə ilk növbədə əsərlərin yaranmasına, milli mətbuatın olmasına böyük ehtiyac var idi. Firidun bəy var qüvvəsinin bu yolda sərf edirdi. Nə yaxşı ki, F.b.Köçərlinin çəkdiyi əziyyət, gördüyü zəhmətli işi diqqətdən kənarda qalmamışdır.

F.b.Köçərlinin dərc etdirdiyi hər bir məqaləsi eyni dərəcədə maraq doğururdu və Azərbaycan ədəbiyyatının ictimai və siyasi həyatında diqqət çəkirdi. O, yazılarının siyasətləşdirilməsinə yol vermədən, istədiyini çox incəliklə xalqa çatdırmağa çalışırdı. F.b.Köçərlinin əsərlərinin maraqla oxunmasının başlıca səbəblərindən biri də bu idi.

F.b.Köçərli dövrünün qabaqcıl tədqiqatçılarından idi. O, həyatda baş verən ictimai-siyasi hadisələri diqqətlə izləyir, müntəzəm məktublaşdığı dostlarına bu hadisələr barəsində onu narahat edən məsələlərdən yeni xəbərlər çatdırır və onlara xalqın tərəqqisinə kömək edə biləcək əsərlər yazmağı tövsiyə edirdi. Geniş xalq kütləsini təhsilə cəlb etməyin, bu məqsədlə yeni məktəblərin açılmasına səy göstərməyin, məktəblərdə dərs demək üçün müəllim kadrlarının hazırlanmasının təşkil edilməsi və dayanmadan ideyalar uğrunda mübarizəni davam etdirməyin özü elə inqilab demək idi. Bu məsələlər çar çinovniklərinin narahatçılığına səbəb olan əsas məsələlərdən biri idi. Çar məmurları və onların əlaltıları belə fikirlərinə görə F. Köçərli daim nəzarət altında saxlayırdı. Onun millətin azadlığı üçün qaldırdığı məsələlər, ideyalar çox vaxt öz həllini ya tapmayırdı, ya da əks halda vaxtı həddindən çox uzadılırdı. Köçərlinin qaldırdığı bu məsələlərin içərisində yeni əlifbaya keçilməsi günün ən aktual məsələlərdən biri idi. Onun ana dilinin təkmilləşdirilməsi haqqında fikirləri, bu dilin məktəblərdə tədris olunması və ana dilimizə hörmətlə yanaşılması məsələsi müasirləri tərəfindən rəğbətlə qarşılansa da çar məmurları tərəfindən qəbul edilməyərək mübahisələrə səbəb olurdu.

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya ilə birləşməsi, Azərbaycan xalqının bütün tarixi müqəddəratında olduğu kimi, ölkənin mədəni həyatında da çox mühüm, mütərəqqi hadisələrin başlanğıcı oldu. Bu söz eyni zamanda, mətbuata, kitab mədəniyyətinə də aiddir. Lakin mətbuatın özünəməxsus çətinlikləri və eniş-yoxuşu vardı. Çarizmin qəddar müstəmləkəçilik siyasətinə və milli təzyiqinə baxmayaraq keçən əsrin otuzuncu illərindən etibarən bir tərəfdən Azərbaycanın özündə yerli qabaqcıl ziyalılar mühitində, digər tərəfdən də Rusiyada, elmi və hərbi dairələrdə, tərəqqipərvər alimlər, zabitlər və dövlət xadimləri içərisində Azərbaycan haqqında kitablar yazıb çap etdirmək





təşəbbüsləri çoxalırdı (21.s.45).

F.b.Köçərlinin adının N. Nərimanov, Ü. Hacıbəyov, Ə. Haqverdiyev, M. Ə. Sabir S. M. Qənizadə, Ö. F. Nemanzadə və başqa tanınmış qələm sahibləri ilə bir sırada çəkilməsi, onun yazılarında olan söz bolluğunun və dil sadəliyinin olması ilə əlaqədardır. Hətta C. Məmmədquluzadə "Tövhid" adlı felyetonunda bu simaların adlarını xüsusi qeyd edərək, onların yazılarının xalq tərəfindən asan mənimsədildiyini yazmışdır (7.s.207).

F.b.Köçərli başa düşürdü ki, insanın həyatında ədəbiyyatın rolunun vacibliyi danılmazdır. Hər bir xalqın kimliyini öyrənmək istəyirsənsə onun ədəbiyyatını bilmək kifayət edir. Çünki, ədəbiyyatı yazan hər kəs öz kökündən qaynaqlanaraq yaradıcı adama çevrilir.

Dahi Hüseyn Cavidin: "Əgər bir millətin fəlsəfə və ədəbiyyat kitabları həssas, xəyalpərvər, laübalı qələmlərlə yazılmışsa, şübhə yox ki, o millət, o nəsil cərəyana qapılıb da həp o yolda hərəkət edər və mümkün deyil, axıntıya qarşı bir dürlü kürək çəkəməz" və yaxud "ən faydalı düşüncələr fəlsəfə və ədəbiyyat vasitəsi ilə əldə edilə bilər"(9. s. 61) kəlamı burada yerinə düşür.

Qeyd edildiyi kimi F.b.Köçərli Azərbaycan ədəbiyyatının bütün sahələrinə maraq göstərirdi. Onun rus dilindən Azərbaycan dilinə və yaxud Azərbaycan dilindən rus dilinə tərcümə etdiyi hekayələr, nağıllar Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynayıbdır. O, qədim əlyazmaların tapılmasında və folklor nümunələrinin toplanması sahəsində də səylə fəaliyyət göstərirdi.

Qeyd etdiyimiz kimi F.b.Köçərlinin Azərbaycanda gedən istər ictimai, istər siyasi proseslərə marağı böyük idi. O əlifbada islahatçılığı qəbul etmirdi, islahatçılıqla kifayətlənən təşəbbüskarları kəskin tənqid edirdi.

Əsrin əvvəllərində M. Şahtaxtlı da islahatçılar mövqeyində dayanmışdı. Onun 1902-ci ildə müzakirəyə verdiyi "Fonetik

Şərq əlifbası" yazılışı və forması ilə ərəb əlifbasından çox da fərqlənmirdi. Bu əlifba da qəliz və yöndəmsizdi, oxunması çətin idi. M.Şahtaxtlı süni şəkildə ərəb əlifbasinın sayını 49-a çatdırmışdı. Buna görə də F.Köçərli onun "Fonetik Şərq əlifbası"nı bəyənməmiş, ciddi etirazla qarşılamışdı. O, bir çox məqaləsində ərəb əlifbasını anlaşılmaz, azərbaycanlılar üçün yabançı hesab edirdi. F.b.Köçərli yazırdı: "Bütün müsəlmanlar tərəfindən qəbul edilmiş ərəb əlifbası müsəlman dünyasında tərəqqiyə ciddi surətdə maneçilik törədir və əsaslı dəyişikliyə ehtiyacı vardır. Lakin bütün məsələ köhnə, əsrlərlə işlənən əlifbanı ləğv edib, onun əvəzinə daha əlverişli və daha mükəmməl əlifba təqdim etməkdir"(12.s.84). Əldə olan qəliz oxunuşlu əlifba ilə savadsız ölkənin irəli getməsini, inkişaf etməsini mümkünsüz hesab edən Köçərli həm yazılışı, həm oxunuşu sadə olan, asan başa düşülən yeni əlifbanın ərsəyə gətirilməsini təklif edirdi.

İctimai və siyasi həyata baxışlarının düzgün, düşüncələrinin kəskin olması Köçərlinin yaradıcılığında özünü aşkar büruzə verir. F.b.Köçərli qəzet səhifələrində kənar müşahidəçi, yaxud passiv seyrçi kimi çıxış etmirdi, o hadisələrin, mübahisələrin gedişinə fəal şəkildə, cəsarətlə müdaxilə edirdi. Fəhlələrin sosial durumu, onların acınacaqlı həyat şəraiti, bir parça çörək pulu qazanmaq üçün hər an ölümlə üz-üzə dayanmaları, onu ən çox düşündürən məsələlərdən idi. Xüsusilə də Bakı neftçilərinin dözülməz həyat şəraiti onu çox narahat edirdi( 13.s.22). Köçərlinin içərisində coşan-daşan vətən sevgisi onu hər bir işə can yandırmağa sövq edirdi. O, dövrünün yazıçılarını "öz səsini millətin səsinə qoşub təsirli kəlamı ilə onu qəflətdən bidar etməyə, tərəqqi və maarif səmtinə cürət və cəsarət ilə dəvət etməyə" çağırırdı.

Firidun bəy Köçərlinin neft sənayesi haqqında yazdığı məqalələri onu mahir öçerk ustası kimi də nəzərdə canlandırmışdır.

XX əsrin əvvəllərində mətbuatda ədəbiyyatşünaslığa





həvəsin artması və bu sahədə yazılan məqalələrin ümumi nəzəri səviyyəsinin yüksəlməsi ilk növbədə F.b.Köçərlinin yaradıcılıq fəaliyyəti ilə əlaqədardır. Onun dərin məntiqli, dövrün qabaqcıl elmi nailiyyətlərinə əsaslanan əsərləri Azərbaycan ədəbiyyat tarixinin inkişafında irəliyə doğru mühüm bir addım oldu. Şərqşünas alim A.Krımski Azərbaycan ədəbiyyatının son dövründən danışarkən, şübhəsiz ki, F.b.Köçərlinin "Azərbaycan ədəbiyyatı" kitabına əsaslanmışdır. Köçərli həm də gözəl folklorşünas idi.

F.b.Köçərli Azərbaycanın demək olar ki, bütün bölgələri ilə əlaqə yaradaraq, materiallar toplayırdı. Onun bu sahədə Şamaxıda gördüyü işlərin və Şamaxı şairlərinin inkişafına göstərdiyi təsirin və böyük rolunun olduğunu xüsusi qeyd etmək lazımdır. A.Səhhətlə və M.Ə.Sabirlə dostluq edən ədib, onlarla tez-tez məktublaşır, onların yaradıcılığı ilə maraqlanırdı. F.b.Köçərlinin müsbət təsiri A. Səhhətin ona yazdığı cavab məktubundan aydın görünməkdədir (4).

*Bir pərişan yuxudan sən bizi bidar etdin,*
*Doğru, düz yolda çalışmaqlığa vadar etdin.*

F.b.Köçərli yaxın Şərqdə, o cümlədən Azərbaycanda ictimai fikrin oyanmasında çox mühüm iş görmüş "Molla Nəsrəddin" jurnalının fəaliyyətini dəyərləndirirdi. 1905-ci il inqilabından sonra F.b.Köçərli yeni yaradıcılıq yoluna düşür, inqilabi mövqe tutan"Molla Nəsrəddin" ədəbi cəbhəsinə keçir. Maraqlı burasıdır ki, onun sənət, ədəbiyyat, ana dili, qadın azadlığına dair fikirləri ilə C.Məmmədquluzadının, həmçinin başqa görkəmli mollanəsrəddinçilərin əsərləri arasında qırılmaz əlaqə var.O, "Molla Nəsrəddin"i əsl xalq jurnalı, həqiqət carçısı hesab edir, C.Məmmədquluzadə, M.Ə.Sabir yaradıcılığını təqdir edərək onlarla bir cəbhədə qələm çalırdı (5. s.378). Azərbaycanın

cəhalətdən oyanmasında bu jurnalın rolu olduqca böyük olub. Ümumiyyətlə F.b.Köçərli C. Məmmədquluzadənin əsərlərində həqiqi realizm üslubunu görür və yüksək qiymətləndirirdi. Qabaqcıl rus və dünya elminə dərindən yiyələnməsi, zamanın aparıcı təfəkkür tərzi, nəhayət, öz xalqının mövcud dözülməz vəziyyəti Firidun bəyi söz meydanına, mətbuat və həqiqət meydanına çıxarmışdı. Hələ ilk yaradıcılıq illərindən o, cəmiyyətin həmçinin sənət və ədəbiyyatın mütərəqqi və xalq üçün xeyirli meyillərini təqdir və təbliğ edirdi.

Firidun bəy Köçərlinin tutduğu yol aydın idi. Ürəyi vətən, millət eşqi ilə döyünən vətənpərvər alim xalqının elm və mədəniyyətcə başqa xalqlardan geri qaldığını gördükcə hiddətlənir və hisslərini cilovlaya bilmirdi. Çox vaxt kəskin çıxışları elmi mübahisələr ətrafında olurdu. Məlumdur ki, Köçərli haqqında əsas araşdırmalar sovet dönəmində aparıldığı üçün onun siyasi fəaliyyəti kölgədə qalmış və ancaq ədəbi fəaliyyəti işıqlandırılmışdır. Lakin bu gün müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan dövlətində Firidun bəy Köçərli və onun timsalında fəaliyyət göstərən bütün görkəmli şəxsiyyətlərimizin istər siyasi, istərsə də ədəbi fəaliyyətindən söz açmaq olur. Bu səbəbdən də Köçərlinin siyasi fəaliyyətini işıqlandırmaq bizlərin vəzifə borcudur. Araşdırmalar zamanı görürük ki, çarizm dövründə Firidun bəyin siyasi hərəkata qoşularaq xalqının, millətinin xoşbəxt gələcəyi, firavanlığı, tərəqqisi uğrunda apardığı mübarizəsi onun ömrünə son qoyubdur. Ədəbiyyat vurğunu olan ədib onu narahat edən məsələləri qərəzsiz, düzgün və ehtiyatla xalqa çatdırmağa çalışırdı. Amma nə qədər ehtiyatla hərəkət edirdisə də zamanın tələbinə, hökmünə qalib gəlmək mümkünsüz olurdu, ətrafında kölgə tək fırlanan bəzi xəyanətkar insanlardan qaçmaq olmur.

F.b.Köçərli ədəbiyyata ən çox tənqidi tərəfdən yanaşırdı. Sözsüz ki, tənqidçi olaraq bu onun peşəsi idi. O, Azərbaycan





klassikasını, ədəbiyyatını və tarixini çox sevdiyindən narazı qaldığı yazılara iradını bildirirdi. Lakin O, kimsəni incitmək xatirinə deyil, ədəbiyyata xidmət məqsədilə bu tənqidi ədalətli və qərəzsiz edirdi. Bu cəhətinə görə Köçərli böyük hörmət sahibinə çevrilmiş, yüksək nüfuz qazanmışdır. M. F. Axundovun bir qeydində deyildiyi kimi "Tənqidçi nəzakətli olmalıdır "(8.s.61).

Firiudin bəy Köçərli də öz müasirləri kimi sənətin yalnız sənət üçün deyil, həyat üçün vacibliyini söyləyirdi. Belə ki, yüksək səviyyədə yazılan əsərlər bəşəriyyətə yalnız sənət inciləri-ni deyil, bununla bərabər həyatı da təlim etməlidir. Bu zaman Köçərli təbii olaraq ədəbiyyatın ictimai-siyasi təsir gücünə malik olduğunu, onun xalq tərəfindən lazımınca dərk ediləcəyini, eləcə də ədəbiyyatın ictimai həyatda rolunu yüksək qiymətləndirirdi.

Firidun bəy Köçərli insanların xoşbəxtliyinin təməlini elmdə, maarifdə, mədəniyyərdə olduğunu bilirdi. Onun həyata ictimai-siyasi baxışları müasirliyə söykənirdi. O, millətin milli istiqlaliyyətini əldə etməsinin başlanğıcını məktəblərin açılmasında , elm ocaqlarının yaradılmasında görürdü.

F.b.Köçərlinin Azərbaycan ədəbiyyatı üçün ən böyük töhfəsi onun min bir əziyyətlə arayıb-toplayaraq, nəşrə hazırladığı "Azərbaycan ədəbiyyatı materialları" monoqrafiyası oldu. XII əsrdən tutmuş XIX əsrə qədər Azərbaycanın 700 illik ədəbiyyatını toplayıb tədqiq etmək əsərin müəllifindən böyük yaradıcılıq cəsarəti istəyirdi(6.s.153). Bu kitab F.b.Köçərlinin ictimai - siyasi həyata baxışlarının sanki açarıdır. Müxtəlif dövrlərdə yaşamış və yaratmış şairlərimiz haqqında Azərbaycanın görkəmli ədəbiyyatşünasının topladığı bu qiymətli materiallar bu gün də öz dəyərini saxlayaraq, yüksək qiymətləndirilir. Bütün qeyd olunan faktlar bir daha onu göstərir ki, Azərbaycan ədəbiyyatı tarixinin bu günümüzə gəlib çıxmasında F.b.Köçərlinin böyük əməyi olubdur.

F.b.Köçərli elə bir dövrdə fəaliyyət göstərirdi ki, cəmiyyə-

tin bəzi mühüm, ictimai, siyasi, sosial və tarixi məsələlərini canlandırmağa böyük ehtiyac duyulurdu. Bu dövrdə Azərbaycanda həm siyasi- ictimai, həm iqtisadi və mədəni çevrilişlərlə dolu mürəkkəb bir vəziyyət yaranmışdır.

Görkəmli alim F.b.Köçərlinin ictimai-siyasi və ədəbi fəaliyyəti çox zəngin və əhatəli olubdur. Onun həqiqət çarcısı olan əsərləri, eyni zamanda mənalı, bədii tənqidi XX əsrin ictimai fikir tarixində ən zəngin xəzinə kimi Azərbaycan xalqının mübarizə və mədəniyyət tarixinə daxil olmuşdur.

F.b.Köçərlinin siyasi fəaliyyətindən danışarkən isə 1920-ci ilin mayında Qazax kommunistləri Firidun bəy Köçərlini və digər "Müsavat" funksionerlərini "xalqa xəyanətdə", "milli nifaq törətməkdə", "torpaq və mülk zəbt etməkdə", general-qubernator Ə. Xoyskinin etibarlı şəxsləri olmaqla ittiham etdilər. Təbii ki, bunlar bəhanə idi.

Ədib Qazax İnqilab Komitəsinin Gəncə Fövqəladə Komitəsinə təqdimatına əsasən, həbs olunmuş, 20-ci diviziyanın 7-ci xüsusi bölməsinin xüsusi şöbəsində şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan güllələnməsi haqqında qərar çıxarılmışdır. Qərar 7-ci bölmənin rəisi Liberman və fövqəladə komissar Həmid Sultanov tərəfindən təsdiq edilmiş, hökm yerinə yetirilmişdir(15.s.85).

Firidun bəy Köçərli həmişə açıq fikirlərinə görə təqib olunmuş, daim nəzarətdə saxlanılmışdır. Qazax mahalında ictimai-siyasi vəziyyət düşmənlərimiz tərəfindən qəflətən dəyişdiyi üçün, Gəncə, Zaqatala, Muğan, Göyçay və Qarabağda yeni hökumətə qarşı üsyanların başlayacağı xəbəri yayıldı. Əksinqilabin baş verəcəyindən ehtiyat edən yerli inqilab komitələri bəzi tədbirləri görməyə başladılar. Qazax İnqilab Komitəsi bu vəziyyətdən istifadə edərək öz məkrli planını həyata keçirmək üçün birinci Azərbaycanın vətənpərvər ziyalılarını hədəfə götürdü. Firidun bəy Köçərli də həmən hədəfin qurbanına çevrildi. Artıq o zaman





Firidun bəy Qori Müəllimlər Seminariyasının tatar şöbəsinin Qazaxa köçürülməsinə nail olmuşdu.

Qazax İnqilab komitəsinin sədri Muxtar Hacıyevdən gizli, iş görən imperiya nökəri, erməni qulduru Firidun bəyi də şərləyərək, şübhəli adamlar sırasına daxil edib, başqa repressiya qurbanları ilə birlikdə Gəncəyə türməyə yola saldı. Bu mühüm, acı xəbər ertəsi gün bütün şəhərə yayıldı. Bütün seminariyanın tələbələri, müəllimləri ayağa qalxdı. Gəncə əhalisi üsyan qaldıraraq izdihama, geniş şəkildə, iri dəstələrlə bədnam inqilab komitəsinə gəlir, qocaman maarif fədaisinin azad edilməsini, dərhal azadlığa buraxılmasını tələb edirlər. Lakin artıq gec idi. Firidun bəy Gəncəyə gətirilən günün axşamı orada qiyam başlamışdı(22).

Gəncəyə, Hərbi tribunalın "xüsusi şöbəsi"nəin sərəncamı ilə gətirilən Firidun bəy Köçərlinin çox hörmətli şəxs olduğunu nəzərə alan və camaatı duyuq salmamaqdan ötrü onu dindirmədən guya sərbəst buraxmışdılar. Bu sərbəstlik əslində süni xarakter daşıyırdı. Qiyam başladığı üçün onu buraxmayırlar. Firidun bəyi Gəncə çayı sahilində qırmızı kərpicli bir məktəb binasında saxlayırlar. Axşam isə düşmənlər Köçərlini aldadaraq Gəncə çayının sahilinə gətirərək, orada güllələyirlər. Böyük ədib, maarifpərvər, pedaqoq və alim Firidun bəy Köçərli repressiya qurbanı olmuşdur.

F.b.Köçərliyə görə, ədəbiyyat hər millətin inkişaf səviyyəsini, "qüdrət və cəlalını" göstərən tarixi vəsiqə, xalqı yaşadan vasitədir. Ana dilində ədəbiyyatı olmayan xalqlar mədəniyyətli millətlərin nüfuzu altına düşüb, onlarla qaynayıb-qarışıb, milli varlıqlarını qeyb ediblər.

F.b.Köçərlinin həyat və yaradıcılığında siyasi fəaliyyətinin araşdırılması sovet hakimiyyəti dövrünə düşdüyündən bu məsələyə bir qədər səthi yanaşılıbdır. Lakin Azərbaycanın müstəqilliyinin bərpasından sonra Köçərlinin siyasi fəaliyyəti-

nin araşdırılması və onun hansı formada, kimlər tərəfindən qətlə yetirilməsi haqqında açıq məlumat əldə edilmişdir. Oxucuların nəzərinə bir daha çatdırmaq istərdik ki, Firidun bəy Köçərli və onun timsalında Azərbaycanın qətlə yetirilmiş bütün ziyalıları ölməyib, onlar şəhiddirlər. Belə ziyalılarımız nəinki, insanların qəlbində yaşayır, habelə onların adları Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olunubdur.

Bir əsr öncə qətlə yetirilən Firidun bəy Köçərlinin qəlbində qalan, ruhunda yaşayan arzuları bu gün gerçəkləşərək həyata keçməkdədir. Uğrunda mübarizə apardığı mədəni-maarif məsələləri, arzuladığı təhsil sistemi, təhsil ocaqları bu gün Azərbaycana və onun övladlarına xidmət etməkdədir. Deməli, gözəl pedaqoq, əsl müəllim, istedadlı folklorşünas, tənqidçi alim Firidun bəy Köçərlinin əməyi hədər getməyibdir.

## ƏDƏBİYYAT:

1. Qasım Qasımzadə: " Ədəbiyyatda millilik və beynəlmiləllik" Bakı, 1982. 273 s.
2. Şövqü Novruzov: "Şərqi-Rusun" çağırışı. Bakı, 1988. 159 s.
3. Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, 1964, 347 s.
4. M. Arif; C. Xəndan: "XX əsr ədəbiyyatı". Bakı, 1946. 94 s.
5. Mir Cəlal; F. C. Hüseynov: "XX əsr Azərbaycan ədəbiyyatı". Bakı, 1974. 390 s.
6. B. Nəbiyev: "Firidun Köçərli". Bakı, 1963.164 s.
7. N. Axundov: " Azərbaycan satira jurnalları". Bakı, 1968. 207 s.
8. M. Arif: "Ədəbi-tənqidi məqalələr". Bakı, 1968. 253 s.
9. K. Əliyev: " XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri ". Bakı, 1985. s. 61.





10. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası. Bakı, 1973. № 2, 76 s.
11. K. Talıbzadə: "XX əsr Azərbaycan tənqidi". Bakı, 1966, 539 s.
12. A. Hacıyev: "Tiflis ədəbi mühiti" . Bakı, 1980. 183.s.
13. A. H. Feyzullayeva: "Maarif carçıları". Bakı, 1988. 101 s.
14. Firidun bəy Köçərlinin şəxsi arxivi kitabı. Bakı, 2006, 280 s.
15. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası . Bakı, 2005.II cild.
16. Respublika Elmi Konfransının materialları. BDU. 2013. 262 s.
17. "Azərbaycan müəllimi" qəzeti. 1958. 30 mart. №22.
18. "Azərbaycan ədəbiyyatı tarixi", II cild. Bakı, 1964. 905 s.
19. Z.Göyüşov: "Azərbaycan maarifçilərinin etik görüşləri",Bakı, 1960. 212 s.
20. A. Bayramoğlu: "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki", Bakı, 2013. 199 s.
21. Ə. Mirəhmədov: "Azərbaycan ədəbiyyatına dair tədqiqlər", Bakı.1983. 363 s.
22. "Aktual" qəzeti. 2009.11 noyabr,№27.
23. Veydəddin Pirəliyev: "Firidun bəy Köçərlinin publisistikası", Bakı.2010, 335 s.

## FİRİDUN BƏY KÖÇƏRLİNİN ANA DİLİNİN SAFLIĞI UĞRUNDA MÜBARİZƏSİ

1863-cü ildə yanvar ayının 26-da Şuşada dünyaya göz açan F. Köçərli hələ kiçik yaşlarından doğma ana dilini sevməyə başlamışdır. O zaman Şuşa şəhərində tanınmış şairlərin təşəbbüsü ilə tez-tez şeir məclisləri təşkil olunurdu. Köçərlinin atası Əhmədağa kişi balaca Firidunu özü ilə belə məclislərə aparırdı. Uşaq vaxtlarından bu cür məclislərdə olan Firidun bəy də elə o zamanlardan da ədəbiyyata həvəs oyanmışdı.

Görkəmli alim Firidun bəy Köçərlinin atası Əhmədağa kişi Şuşanın ortabab bəylərindən idi. Bir çox Şuşa bəyləri kimi, Əhmədağa kişi də savadlı bir şəxs hesab olunurdu. Mənbələrdə qeyd edildiyi kimi dörd bacının yeganə qardaşı olan F.b.Köçərli ailənin ən sevimli övladı idi. Bacıları Böyükxanım, Quba, Afərin və Sultan idi. Atası Firidun bəyi savadlı, ziyalı görmək arzusunda olduğundan, onun təhsil almasına qarşı müsbət münasibət göstərmişdir.

Fars dilini gözəl bilən və fars şairi Firdovsinin "Şahnamə"sini əzbərdən gözəl nitqlə söyləyən Əhmədağa kişi şairlər arasında böyük nüfuza sahib idi. O, Şərq poeziyasının mahir bilicilərindən hesab edilir və eyni zamanda Azərbaycan ədəbiyyatı nümunələrini də gözəl bilirdi. Əhmədağa yüksək səslə gözəl şeir demək qabiliyyətinə malik idi. Ona görə o dövrün tanınan və sayılan adamları içərisində Əhmədağanı tez-tez görmək olurdu.

Belə şeir məclislərindən biri də 1864-cü ildə Şuşada geniş yayılmış və ən güclü şeir məclisi hesab edilən "Məclisi-üns" o dövrün tanınmış şairlərindən olan Mirzə Rəhim Fənanın təşəbbüsü ilə Hacı Abbas Agahın evində təşkil edilmişdi. 1872-ci ildən





etibarən isə görkəmli şairə Xurşudbanu Natavan(1830-1897) bu məclisi hamiliyə götürmüş, məclis bir qədər də məşhurlaşaraq üzvlərinin sayı 30-a qalxmış, şöhrəti daha da artaraq ətraf bölgələrə də yayılmışdı. Belə məclislərə tez-tez atası ilə gedən balaca Firidun də məhz o zamanlardan Azərbaycan dilinə və ədəbiyyatına məhəbbət oyanmışdı. Bu məhəbbətlə də ədib, gənc yaşlarından başlayaraq Azərbaycanın klassik ədəbiyyat nümunələrini toplamağa maraq göstərmiş, klassik qələm ustadlarının irsini dərindən öyrənməyə çalışmışdır.

Mükəmməl təhsilə yiyələn F.b.Köçərli hələ tələbəlik illərindən başlayaraq mətbuatda tez-tez məqalələr dərc etdirirdi. Yaradıcılıq fəaliiətinə həvəslə başlayan Köçərli, klassik şairlərinin həyat və yaradıcılığını dərindən öyrənmək üçün araşdırılmalar aparır, materiallar toplayırdı. F.b. Köçərli gördüyü bütün bu işlərlə yanaşı dilimizin qorunub saxlanması məsələsini də gündəmə gətirərək bu mövzu ətrafında ciddi müzakirələr aparırdı.

Çarizm dövrünün qayda qanunları bir çox ölkələr də olduğu kimi Azərbaycanda da hökm sürürdü və burada dil məsələsi bir növ siyasi səciyyə daşıyırdı. Bu səbəbdən çarizm bu ölkəni öz müstəmləkəsi altında saxlamaq üçün müəyyən qanunlar tətbiq edərək, həmən qanunların həyata keçməsinə çalışırdı. Hətta kiçik bir müsəlman dövləti kimi onun dilinin və dininin təbliğinə qadağalar qoyulurdu. Belə məsələlərə narazı münasibətini bildirən Firidun bəy mətbuat orqanlarında dolayı yolla da olsa fikrini çatdırmağa çalışırdı. Bu Azərbaycanı sevməyən qüvvələrin əlinə müəyyən fürsəti verir və maarifpərvər ziyalılarımıza qarşı təqib və təzyiqlərinə yol açırdı. Bu cür ciddi nəzarət olunan ziyalı təbəqənin nümayəndələrindən biri olan F.b.Köçərli heç bir qadağaya məhəl qoymadan ağıllı, təmkinli və mədəni halda təbliğatını aparırdı.

Məlumdur ki, dil ünsiyyət vasitəsi olmaqdan əlavə, həm də mədəniyyətdir. Azərbaycan xalqı əsrlər boyu hər cür istila-

çılara qarşı öz istiqlaliyyəti, mədəniyyəti və dili uğrunda mübarizə aparmışdır. Hər zaman xalqımızın yaratdığı mədəniyyətdə insanpərvərliyə doğru güclü meyl olub. Bu kimi fikirlər Firidun bəy Köçərlini və onun timsalında ayrı-ayrı ziyalılarımızın xalq və millət uğrunda mübarizə aparmasına səbəb olmuşdur.

Azərbaycanda baş verən siyasi proseslər hər sahəyə təsir göstərdiyi kimi təhsil, tədris və dil məsələsinə də təsir göstərmişdi. Belə ki, çarizmin tərəfindən Azərbaycan dilinin sıxışdırılması, onun inkişaf etdirilməsinə göstərilən münasibətlər özünü aydın büruzə verirdi. Azərbaycanın ziyalı təbəqəsinin əksər nümayəndələri millətin doğma dilinə olan bu laqeyd münasibəti görür və narahatlıq keçirirdilər.

Azərbaycanda dil məsələsinin siyasi səciyyə daşıması bir azərbaycanlı kimi F.b. Köçərlini narahat edirdi. O çox gözəl anlayırdı ki, dil məsələsi ona görə siyasi səciyyə daşıyırdı ki, bəzən Azərbaycan xalqı müstəqil bir xalq kimi, dili isə müstəqil bir dil kimi inkar edilirdi. Xalqın özünü "qövm", "tayfa" hesab edənlər, dilini də "şivə", "Qafqaz şivəsi" adlandırır, "sənin ayrıca milli lisanın yoxdur"- deyə onu öz milli zəminəsindən ayırmaq istəyirdilər. Müxtəlif siyasi təmayül və əqidələrə mənsub olanlar Azərbaycan dilini osmanlılaşdırmağa, farslaşdırmağa və yaxud ruslaşdırmağa çalışırdılar. Onların bir qismi Azərbaycanın islam aləmindən uzaqlaşdırmamaq üçün ərəb-fars təsirini gücləndirməyi təklif edir, başqa qrupu tərəddüdsüz osmanlılarla birləşməyi, vahid bir dildə-osmanlı dilində danışıb yazmağı irəli sürür, bir hissəsi də ruslaşmağa can atırdı(9.s.300).

Azərbaycan klassik ədəbiyyatının ilk tədqiqatçılarından olan Firidun bəy Köçərlinin ana dili uğrunda apardığı mübarizə onun müasirlərini də ayağa qaldırmışdır. Doğrudur o dövrün əksər ziyalıları həmişə ədəbi dilin olmasının və inkişaf etdirilməsinin tərəfdarı olmuşdular, lakin tək əldən səs çıxmadığı kimi onların ayrı-ayrılıqda qaldırdıqları məsələ elə məsələ olaraq da





qalırdı. Köçərli ana dili haqında həmişə milli qürur hissi ilə danışırdı.

Firidun bəy Köçərli dil məsələsi ilə yanaşı Azərbaycanın yeni əlifbasının yaranmasına, yeni əlifbada dərsliklərin yaranmasına da müsbət yanaşırdı.

Məlumdur ki, Şərqdə yeni əlifba yaratmaq sahəsində ilk mübarizə M.F.Axundovun adı ilə bağlıdır. Sonralar müxtəlif vaxtlarda Mirzə Melküm xan, Mirzə Rza və başqaları bu işə girişmiş, özlərinin yeni əlifba sistemlərini yaratmışlar. Lakin bu mübarizlər sırasında Məhəmməd ağanın bənzərsiz və çox geniş yaradıcılığı bu vaxtadək haqsız olaraq, layiqincə işıqlandırılmadığı kimi, yeni əlifba uğrunda onun çox böyük fəaliyyəti də əsasən qaranlıq qalmışdır(25.s.23).

Köçərlinin isə israrla tez-tez bu mövzuya müraciət etməsi artıq öz bəhrəsini göstərməyə başlayırdı. Bir-birinin ardınca mətbuatda dərc olunan məqalələr ziyalılarımızın bu mövzu ətrafında düşündüklərini və bu məsələni müdafiə etdiklərini göstərirdi. Dil insanın həyatında çox şey deməkdir. Həyatda ən gözəl ünsiyyət vasitəsi olan dil sözsüz ki, kökdən, soydan qaynaqlanmışdır. Hər bir xalqın danışıq tərzinin müxtəlif formada təşəkkül tapması onun kökünün göstəricisi, soyunun kimliyidir.

Firidun bəy Köçərlinin əsərlərindən onun gözəl bir dilçi olduğu, Azərbaycan dilinin xüsusiyyətlərini, dil tədrisi metodukasını mükəmməl bildiyini görmək olur.

Milli dəyərlərimizə önəm verən F.b.Köçərli dilimizin kökünə, onun saflığına, düzgün tələffüzünə, ədəbi dil kimi inkişafına ciddi yanaşırdı. Köçərli millətinin dilinin qorunmasını hər şeydən vacib hesab edirdi. Onun üçün dil məfkurəsi qarşıda duran bütün məsələlərdən öndə idi. Ədib hesab edirdi ki, millətin dili olarsa onun hər şeyi olar. Bunun üçün dil uğrunda mübarizəyə qalxan Köçərli bütün bunları düşünərək müasirlərinin də bu yoldan geri çəkilməməyini arzulayırdı. O,ilk növbədə mil-

lətinin millət kimi tanınması üçün ana dilimizin gözəlliyini üzə çıxarmağa çalışırdı. Firidun bəyin möhtəşəm arzularından biri bu idi ki, onun əsrarəngiz torpağı, gözəl milləti başqa xalqlar tərəfindən tanınsın, sevilsin və hörmətlə anılsın. Bu yolda bir ziyalı olaraq dil məsələsi öz həllini çətin tapan məsələ kimi qarşıda dururdu.

F. Köçərli rus pedaqoqu Uşinskinin sözlərini nümunə gətirirdi: "Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan ölüb, itməz amma dilini alsan, fot olar və ondan bir nişan qalmaz". A.Şaiq eyni fikirləri başqa bir şəkildə ifadə edirdi: "Yaşamaq məramində olan hər bir qövm, yalnız mükəmməl ədəbi dilə malik olmaq sayəsində yaşaya bilər. Lisanı mükəmməl surətdə islah olmuş bir qövmün milliyyətini, qövmiyyətini nə zaman və nə də heç bir silah məhv etməyə qadir olmaz! Ziraki, mükəmməl bir dil zəmanəmizdəki dəhşətli silahların ən qüvvətlisi və ən dəhşətlisidir. "Şəlalə" jurnalının dil siyasətini ifşa edən, "M" imzalı bir məqalədə belə deyilirdi: "Ədəbi dilə malik olmayan qövm, müstəqil qövm surətində çox yaşamaz, yaşasa da eyni cəhalətdə keçinəcək, ya eyni rəzalətdə... Müstəqil qövm surətində yaşamaq üçün qövmün öz ədəbi dili olmalıdır. Ü.Hacıbəyovun bu barədə fikri belə idi: "...hər bir millətin bütün milliyyəti ilə bəqasına baş səbəb onun dilidir və dilinin tərəqqisidir"(9.s.302).

Dahilərin hər birini narahat edən dil məsələsi onların yaradıcılığının əsas mövzusu olmaqdan əlavə həm də dil və onun tərəqqi uğrunda mübarizədə bu cəhətdən onları birləşdirirdi.

Bir tənqidçi kimi "Dil məsələsi" aktual məsələ olaraq Köçərlini və onun dövrünün ziyalılarını ən çox narahat edən məsələ idi. Firidun bəy dil məsələsinə heç vaxt biganə qalmamışdır. O, Azərbaycan dilinin kökünü, tarixini öyrənərək inkişaf etdirməyi müasirlərinə məsləhət görür və eyni zamanda da dilə ehtiyatla yanaşmağı tövsiyə edirdi. F.b.Köçərli dilin inkişaf et-





dirilməsini, onun başqa dillərdən geridə qalmaması üçün dilin üzərində işləməyi vacib bilirdi. Doğrudur dilimizə mənfi münasibətdə olan ziyalılarımız da olmuşdur. Firidun bəy onların lazımınca cavabları verər və hətta bəzi hallarda mübahisələr edərdi. O açıqca yazırdı ki: "Dünyada hər şey gün-gündən inkişaf tapdığı surətdə, dili bir halda saxlamaq olmaz. Dilə də lazımdır tərəqqi vermək". Lakin Köçərli dilin şivəsinin pozulmasının böyük fəsad törədə bilcəyini də qeyd edirdi.

Dil uğrunda mübarizədə iki mühüm cəbhə qarşı-qarşıya durmuşdur, "Molla Nəsrəddin"çilər və "Füyuzat"çılar. F.b.Köçərli "Molla Nəsrəddin"çilərlə bir sırada dayanmışdı. Köçərli bilirdi ki, C. Məmmədquluzadə də onun kimi Azərbaycan ədəbi dilinin xəlqiliyi uğrunda mübarizə aparırdı. C.Məmmədquluzadə Ə.Hüseynzadəni və onun dil siyasətini müdafiə edən mühərrirləri, yazıçıları ədəbi dil məsələlərinin həllində zərərli mövqe tutduqlarını sərt bəyan edirdi. Məlumdur ki, mollanəsrəddinçilər azərbaycançılığın real təmsilçiləri idilər. Bu jurnalın xalqı istiqlala qovuşdurmaq məsələsində strateji məqsədi var idi. Firidun bəy onların bu mövqeyini ürəkdən bəyənir və bu jurnala qarşı göstərilən mənfi münasibəti tənqid edirdi.

F.b.Köçərli mətbuat səhifələrindəki məqalələrində ədəbiyyatşünaslığa təkcə tənqidi nöqteyi-nəzərdən yanaşmayırdı, o yazıçıların əsərlərinə müsbət münasibətini də bildirirdi. Necə deyərlər, yaxşıya yaxşı, pisə pis deyirdi. Lakin, onu çox gözəl anlayan dostları bu tənqidlərdən də incimirdilər, əksinə özləri üçün nəticə çıxarırdılar. Çünki, bu tənqid heç vaxt qərəzli olmayıbdır.

Demokratik fikirli mübarizlərin ədəbi dil məsələsinə münasibətləri səbəbsiz deyildi. Əsrin əvvəllərindən başlayaraq, dil məsələsi Azərbaycanda ictimai-siyasi və mədəni həyatın bir çox müxtəlif sahələrini özündə cəmləşdirən bir amilə çevrilmişdi. Siyasətdən danışanlar da, iqtisadiyyatdan bəhs edənlər də, mə-

dəniyyətdən yazanlar da bu məsələyə toxunmadan keçinə bilmirdilər. XX əsrin əvvəllərində Azərbaycanda ədəbi dilin inkişafı məsələsi qaldırıldıqda ziddiyyətli fikirlər ortaya çıxmışdır. İctimai-siyasi vəziyyətin gərgin olması, baş verən hadisələrin tez-tez dəyişməsi ədəbi dilə öz təsirini göstərməyə başlamışdır. Milli oyanış, özünüdərk ədəbi dilin xarakterinə müəyyən demokratizm, millilik gətirmişdir(11. s.388).

Firidun bəy dil məsələsini gündəmə gətirməklə Azərbaycanın mədəni həyatında baş verə biləcək tərəqqini düşünərək, gənclərimiz, eləcə də qadınlarımız arasında maariflənmənin, təhsilin, savadlanmağın, azadlığın birbaşa bununla bağlılığını sübut etməyə çalışırdı. Köçərli Azərbaycan dilinin zəngin, zərif dil olduğunu və bu dilin heç də başqa xalqların dilindən geri qalmadığını qeyd edir, lakin bəzi hallarda dilimizə qarşı olunan hücumlarla rastlaşmalı olurdu.

Burjua ideoloqu Əlibəy Hüseynzadə açıq-açığına yazırdı: "...bizim ana dilimiz çox dar və kasıb dildir. Bəzi mətləbi onda yetirmək mümkün deyil". Bu mülahizəni bəhanə edərək, o, elə bir dildə yazırdı ki, onu özündən və yan-yörəsində əyləşən bir neçə"əhli-qələmdən" başqa heç kəs başa düşmürdü. Bu "əhli-qələm"lər əsas etibarı ilə Türkiyədən gəlmə olub, xalq dili ilə ədəbi dil arasında uçurum yaratmağa çalışır, ədəbiyyatı, mətbuatı ancaq yuxarı siniflərə məxsus bir "nemət" hesab edirdilər. Burjua mətbuatının ən fəal orqanları olan "Həyat" qəzetində, "Füyuzat" və "Şəlalə" jurnallarında bu "nəzəriyyədən" bəhs edən yazılara çox tez-tez təsadüf etmək olurdu.(9.s.301).

Əlibəyin fikrincə Sabir, Səhhət, Haqverdiyev və Şaiqin əsərləri o qədər də dolğun deyildir.O, bu əsərlərin dilini o qədər də bəyənmir və buradakı xəlqilik ona yabançı görünür. Onun sözlərinə görə demokratların "dili xəlqiləşdirmək" fikri yanlışdır. "Heç zaman heç bir millətin ədəbiyyatı, lisani-ədəbisi tamamilə çoban, əkinçi lisanı olmamışdır" fikri hətta "Füyuzat"ın





səhifələrində də yer almışdır. Ə. Hüseynzadə yazılarında "yerli müəlliflərin" dilini tənqid edirdi. Demokratik fikirli yazarlar həmişə ədəbi dilin sadəliyini, onun həm leksik, həm qramatik cəhətdən xalq dilinə yaxın olmağının vacibliyini əsas gətirərək, dilimizi müdafiə edir və bu fikrə qarşı çıxanları isə kəskin tənqid edirdilər.

Tənqidçi-alim F.b.Köçərli dil və üslubca çox mürəkkəb olan osmanlı şairlərinin yaradıcılığına dərsliklərdə geniş yer verilməsini düzgün hesab etmirdi. O, Azərbaycanın M. Füzuli, M. P. Vaqif, M. Ə. Sabir və doğma dilimizdə yazan başqa şairləri olduğu halda, dilimizə yatmayan sözlərlə dərsliklərin nəşrini pisləyirdi.

Füzuli irsinə rəğbətlə yanaşan Köçərli onu "türk dünyasın böyük şairi" adlandırır və Füzuli dilinin zənginliyini, aydınlığını və doğma dildə yazmasını xüsusilə qeyd edirdi. Görkəmli tənqidçi Seyid Hüseyn də Köçərli kimi Füzuli yaradıcılığını yüksək qiymətləndirərək dahi şairi "Azərbaycan şairlərinin babası" adlandırırdı. Hətta onun türk (Azərbaycan-P.M) ədəbiyyatı tarixində "sarsılmaz bir mövqe" qazandığını yazırdı.

Bütün yaradıcılığı boyu Azərbaycan dilinin inkişafına çalışan F.b.Köçərli ədəbi dilimizin mövqeyinə düzgün yanaşmağı tövsiyə edirdi. Ədəbi dilimizin təkamülü məsələlərinə ardıcıl baxışı ilə fərqlənən tənqidçi klassik poeziyaya obyektiv-tarixilik meyarı ilə yanaşmağa çalışır, M. Füzulinin ədəbi-tarixi mövqeyini düzgün müəyyənləşdirərək yazırdı: "Onun olduqca böyük və sarsılmaz bir mövqeyi var. İndi bizdə hər kəs Füzuli olmaq istəyir, onun əşarına nəzirələr yazır və yaxud Füzuliyanə qəzəllər inşad edir...Füzuli şeirləri zamanına görə qiymətlidir. İndiki üslub, indiki ədəbiyyat Füzuliyə nəzərən daha irəlidədir. Lakin, təcrib və təşviq qəbilindən olan yazılar və mütaliələr bu həqiqəti kölgədə buraxmış, ortada bir çox qeyri-təbii hallar meydangir olmuşdur"(14.s. 95. I hissə).

F.b.Köçərli sənətkarlardan nəzərdə tutduqları ali fikir və müqəddəs hissləri xoşa gələn, yeni və cazibəli formada qələmə almağı tələb edirdi. O, bu fikirdə idi ki, indiki halda Azərbaycan həyatı mövzu və materiallar baxımından zəngindir. Xalqın həyatında olan bəlaları, ictimai qəbahətləri, sosial ədalərsizliyi sadə dildə qələmə almaqla bütün təbəqələrdən olan insanların düşünməsinə və hər kəsin öz səhvlərini görməsinə şərait yaratmaq lazımdır.

Dilimizin qorunmasına, səlisliyinə, düzgünlüyünə riayyət edən qələm sahibləri Köçərlinin nəzərində millətin ən mütərəqqi şəxsiyyətlər idilər. Bu cəhətdən o araşdırmalar apardığı klassiklərimizin hər birinin haqqında dəyərli fikirlər söyləməyi özünün vətəndaşlıq borcu hesab edirdi. Füzulini "Azərbaycan dilində yazan ən böyük və qüdrətli sənətkar hesab edən və türk şairlərinin babası" adlandıran Köçərli, M.P.Vaqifi də "ədəbiyyatımızın banisi" adlandırırdı. Köçərli yazırdı: "Vaqifin milli ədəbiyyatımıza xidməti bu olubdur ki, Türkiyə və İranzəmin şüərasına müqəllidlik etməyibdir, bəlkə onun üçün asan və təbii yol açıbdır ki, ondan sonra gələn şairlər ona peyrəvilik edib bir çox gözəl əsərlər meydana gətiribdir. Bu cəhətcə Molla Pənah Vaqifin Qafqaziyada vücudə gələn ədəbiyyatın babası və ustadı adlanmağa haqqı vardır(14. s. 112.II hissə).

Bildiyimiz kimi XIX əsrin ikinci yarısı Azərbaycanda milli mətbuatın meydana çıxması kimi böyük bir hadisənin təməlinin qoyulması əsri olmuşdur. 1875-ci ildə maarifçi demokrat H. b. Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti nəinki Azərbaycanda eləcə də qonşu dövlətlərdə və yaxın Şərqdə əks-səda doğurmuşdu. Lakin qəzetin nəşri müəyyən səbəblər üzündən 1877-ci ildə dayandırıldı. Sonra, yəni 1880-ci ildə nəşrə başlayan "Ziya"("Ziyayi-Qafqasiyyə") və " Kəşkül"ün də aqibəti "Əkinçi" qəzetinin aqibəti kimi oldu. Hər üç qəzet və jurnalın çar çinovniklərinin təqibləri nəticəsində bağlanmasına





baxmayaraq, insanlarda sanki yeni bir fikir, bir ideya meydana gəldi. O dövrün ziyalılarının nəinki narazılığına, hətta kədərinə səbəb olan bu hadisə başqa-başqa qəzet və jurnalların nəşr olunması üçün müəyyən yolların axtarılmasına şərait yaratdı. İki-üç il fəaliyyət göstərən bu mətbuat orqanları bağlanana qədər yəni, XX əsrin əvvəllərinədək Azərbaycan dilində heç bir jurnal və ya qəzetin nəşrinə təsadüf edilməmişdir. Bu səbəbdəndir ki, böyük pedaqoq və ədəbiyyatşünas F. Köçərli mətbuatımızın tarixində əmələ gəlmiş boşluğu ürək ağrısı ilə qeyd edərək yazırdı: "Axırıncı qəzetənin ki "Kəşkül" dən ibarət ola, zavalından on il gəlib keçdi və bu müddətin ərzində biz ruznaməsiz qaldıq"(1. s. 183).

Qonşu dövlətlərdə öz doğma dillərində onlarla mətbuat orqanları olduğu halda, bizim ölkəmizdə öz dilimizdə mətbuat orqanının olmasına ya icazə verilmirdi, ya da icazə verildikdən az sonra bir bəhanə ilə onların nəşrləri dayandırılırdı. Bu cəmiyyətin maariflənməsinə birbaşa mənfi təsir edən səbəblərdən idi. Dilimizə qarşı edilən hücumlar açıq-aşkar məlum idi. Milli mətbuatın nəşr olunmasına şəraitin yaradılmamasının əsas səbəblərindən birinin millətin özünü dərk etməsi və ayılması idi. Bunu gözəl başa düşən çar məmurları, milli oyanışın baş verə biləcəyindən çəkinərək, minbir bəhanə ilə milli mətbuatın, milli məktəblərin, milli nəşrlərin olmasının qarşısına sədd çəkirdilər. Camaatın avamlığından, nadanlığından istifadə edən çarizmin ciddi qayda-qanunlarının ən başlıca səbəbi məhz elə bu idi. Belə bir ağır şəraitdə ziyalı təbəqələrin "düşmən dəyirmanına su tökən əsərlər"ini meydana çıxarması Firidun bəyi çox narahat edirdi. O, çox gözəl anlayırdı ki, çarizmin ən çox qorxduğu avam camaatın savadlanması, maariflənməsi və oyanması idi. Odur ki, Köçərli ilk növbədə, ziyalıları millətin savadlanması uğurunda mübarizəyə səsləyirdi. Bu da o dövr üçün bir növ üsyana çağırış kimi səslənirdi. Çıxışlarının siyasiləşdirilməsi məhz

bu cür söhbətlərin qabardılmasından qaynaqlanırdı.

Çarizmin qadağalarına baxmayaraq seminariyada təhsil alan azərbaycanlı tələbələrin sayı artmaq üzrə idi. Görkəmli ədəbiyyatşünas Əziz Şərif yazırdı: "Çar Rusiyasında heç bir təhsil ocağı Qori Müəllimlər Seminariyası qədər Azərbaycan mədəniyyət xadimi verməyib". Bu həqiqətən belə olub. Qori Müəllimlər Seminariyası fəaliyyət göstərdiyi 42 il ərzində 250 azərbaycanlı müəllim hazırlamışdır ki, bu məzunlar arasında Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Firidun bəy Köçərli, Əhməd Seyidov, Səfərəlibəy Vəlibəyov, Teymur bəy Bayraməlibəyov, Fərhad Ağazadə, Əli Səbri, Səməd Vurğun, Soltan Məcid Qənizadə. Süleyman Sani Axundov, Nəriman Nərimanöv, Cəlil Məmməsquluzadə, Rəşid bəy Əfəndiyev və başqa görkəmli şəxsiyyətlər məhz bu seminariyanın tələbələri idilər.

Firidun bəy Köçərli İrəvan gimnaziyasına təyin olunduğu vaxtlarda İrəvanda təhsilin inkişafı yüksək səviyyədə idi. Yaxın və orta Şərq ölkələrində əsas danışıq dili olan Azərbaycan dili gimnaziyanın bütün şagirdləri üçün məcburi fənn hesab edilirdi. İrəvan gimnaziyasında 10 il müəllimlik edən Firidun bəy 1895-ci ildə Qori Müəllimlər Seminariyasına dəyişdirilir. Daha sonra isə 1910-cu ildə onu seminariyanın Azərbaycan bölməsinin müdiri vəzifəsinə təyin edirlər.

Firidun bəy Köçərli təhsil maarifi fədaisi idi. Onun Azərbaycan mədəniyyətinin maarifçilik sahəsində gördüyü işlər danılmazdır. O Azərbaycan maarifinin günəşi olaraq parlaq şölələrini gələn nəsillərin yolunda daim çıraq kimi yandırmışdır. Bu sönməz çırağın ətrafında yüzlərlə oğul və qızlarımız Köçərli ənənəsini davam etdirməkdədirlər.

Firidun bəy Köçərli xalqın şüurunu, zehnini kütləşdirən, onu mütiliyə təhrik edən adamların, habelə insanı cəhalətə doğru sürükləyən, cəmiyyətdən uzaqlaşdıran əsərləri ən sərt formada tənqid edən tənqidçi idi. Xalqını elm və mədəniyyətcə başqala-





rından geridə görəndə Firidun bəyin qəlbi alovlanır, hiddətlənidi. Odur ki, xalqı ayıtmağı, həyatda ona düzgün yol göstərməyi hər bir ziyalının, qələm sahibinin vətəndaşlıq borcu sayırdı. O, ədəbiyyata da belə tələb və meyarla yanaşırdı. Üzünü vətəndaşlarına tutub yanıqlı bir ürəklə, sadə bir dillə deyirdi:

"Ey qardaşlar, həyatın qədrini biliniz...ayılınız, hərəkət ediniz, qapı-bacalarınızı açınız, evinizə işıq düşsün, üfunətli və ağır havası dəyişilsin. Gözlərinizin tozunu silib diqqət ilə ətrafa baxınız, hər kəs işləyir, çalışır, həyatdan nəfbərdar olur"(12. s.380).

Bu hər şeydən əvvəl cəhalətdən oyanışa, nadanlığa son qoymağa, həyata çağırışa, fəaliyyət və mübarizəyə dəvət idi.

XIX əsrin sonlarından başlayaraq XX əsrin 20-ci illərinə qədər ədəbi dil uğrunda mübarizə mürəkkəb inkişaf yolu keçmişdir. F.b.Köçərlinin yaşadığı dövrün elə bir ədəbi və ictimai hadisəsi olmamışdır ki, Köçərli ona öz münasibətini bildirməsin. O, bir tənqidşünas olaraq ən çox tənqidi fikirlərini bildirirdi. Firidun bəy dil məsələsinə xüsusi diqqət yetirirdi. O bilirdi ki, insanların qəlbinə yol tapmağın ən gözəl vasitəsi dildir. Firidun bəy bədii əsərlərin insanın duyğularınının oyanmasına səbəb kimi bədii dilin olmasını göstərirdi. Köçərliyə görə də həqiqi yazıçı geniş dünyagörüşünə, bol söz ehtiyatına malik olmalı, əsərlərində sadə, anlaqlı dili ilə oxucuya təsir etməyi bacarmalıdır. Bu cür yazılmış əsərlər insanların tərbiyəsinə təsir edə biləcək bir vasitədir. O hər bir millətlərdə olduğu kimi azərbaycanlıların da öz dillərinə hörmətlə yanaşmalarını və dilləri uğurunda mübarizə etməyini arzulayırdı. Başqa xalqaların öz dilinə olan münasibətini görən ədib bu millətlərin yazıçı və şairlərini yüksək qiymətləndirirdi. Demokrat yazıçıların fikrincə milləti yaşadan əsas onun dilidir. Ürəyindən xəbər verən bu sözləri Köçərli təkrar-təkrar öz çıxışlarında qeyd edirdi.

F.b.Köçərlinin "Ana dili"(1913) məqaləsi yazıldığı dövr

çox böyük əhəmiyyətə malik idi. Bu o zaman idi ki, türk mühərriri Səbribəyzadə Xalid Xürrəm "Şəlalə" jurnalında ("Şəlalə" jurnalının redaktoru-P.M) qəliz bir dildə əsərlər çap etdirməklə Azərbaycan dilini korlayırdı. Bu dil nə ərəbcə, nə farsca, nə türkcə idi. Bütün mollanəsrəddinçilər, xüsusilə, C.Məmməqdquluzadə ilə Əli Nəzmi belə jurnal və mühərrirlərə qarşı amansız mübarizə edirdilər. F.b.Köçərli bu sahədə də ideyaca onlarla birləşirdi(12.s.385).

F.b.Köçərliyə görə ana dilinə hörmət ilk növbədə ailədən başlayır. Əgər uşağa körpə yaşlarından doğma dilini sevməyi öyrədilərsə sözsüz ki, onda bu dilə qarşı sevgi həmişə olacaqdır. F.b.Köçərli bunun üçün ailə tərbiyəsinə böyük əhəmiyyət verirdi. Köçərlinin dil haqqında apardığı mübarizəyə qoşulanlar içərisində Ö. F. Nemanzadə də var idi. O, öz fikirlərini ümumiləşdirərək, Azərbaycan dilində qarşılığı olan ərəb və fars sözlərindən imtina etməyi lazım bilir, fars-ərəb sözlərinin Azərbaycan dilinə daxil olmasını qeyri-təbii hadisə hesab edirdi. Azərbaycan dilinin zəngin söz ehtiyatına, gözəl, zərif xüsusiyyətlərə malik bir dil olduğunu qeyd edirdi. Ö.F.Nemanzadə fikirlərini ümumiləşdirərək göstərirdi ki, Azərbaycan dilində qarışığı olan ərəb və fars sözlərindən imtina etmək lazımdır. Biz, ərəblərin, farsların sözləri ilə bərabər sərf və nəhv qaydalarını da bədbəxtcəsinə qəbul etmişik. Aldığımız sözləri özümüzə mal edib, onları öz sərfimizə tabe etməliyik"(9.s.305).

F.Köçərli hər bir şairin öz millətinin dili ilə yazmasını və danışmasını söyləyirdi. O eyni zamanda qeyd edirdi ki, anamızı sevdiyimiz qədər onun dilini də sevməli və hörmət etməliyik.

O, Azərbaycan şeiriyyətini, Azərbaycan dilini korlayanlara qarşı düşmən idi. Köçərli bir tənqidçi kimi öz qələm dostlarından xahiş edirdi ki, sadə, aydın, anlaşıqlı yazsınlar. Dildə əllaməlik etmək yaramaz, bu cür yazılar oxucu ilə müəllif arasında anlaşılmazlıq yaradır. "Ana dili" məqaləsini "Molla Nəsrəddin"





jurnalında çap etdirən ədibin dilindəki müllilik və sadəlik jurnal tərəfindən müdafiə olunmuş, burjua-pantürkist mühərrirlərindən-Əli bəy Hüseynzadə və Xalid Xürrəm Səbribəyzadənin milli mətbuatda dərc olunan qəliz ibarəli yazıları isə kəskin tənqid edilmişdir.

Firidun bəy Köçərlinin ana dilimiz haqqında söylədiyi fikirləri bu gün də öz aktuallığını saxlamaqdadır. Köçərli dildə sadəliyi, sünilik etməməyi, fikrin oxucuya aydın çatdırılmasını əsas gətirərək yazırdı: "Bizim yəqinimizdir ki, dili dolaşıq şəxsin fikri də dolaşıqdır. İbarəpərdazlıq fikrin boşluğuna və bir dərəcədə yoxluğuna dəlalət eləyir, doğru və səlamət fikirli adamların kəlamı həmişə aydın, açıq və düzgün olur. Ancaq səfsəfilərin və müxtəllif şüur kəslərin sözləri başsız və binasız olur ki, onları anlamaq qeyri-mümkündür" (12.s.386).

Dil məsələsi probleminin həlli məsələsində, dilimizin tərəqqiyə doğru inkişafı məsələsində Firidun bəyin irəli sürdüyü fikirləri ilə müasirlərinin əksəriyyətinin fikirləri eyni olduğu üçün onlar tərəfindən bu məsələ dəstəklənərək müdafiə olunurdu. Belə insanların sırasında Ü.Hacıbəyov, N.Nərimanov, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, N.Vəzirov, H.Zərdabi, Ö. F.Nemanzadə və başqa görkəmli şəxslər var idi.

F.b.Köçərli Nəcəfbəy Vəzirovun pyeslərinin dilinin sadə, anlaşıqlı və obrazlı olmasını və adi həyat həqiqətləri ilə təbii, sağlam yumor ünsürləri üstünlük təşkil etməsini qeyd edirdi.

Azərbaycan dramaturqlarının əsərlərini tənqidi səpgidə təhlil edən F.b. Köçərli "Tatar komediyaları"məqaləsində N.Vəzirovun pyeslərinin dilinin gözəlliyini və obrazlılığını xüsusi nəzərə çapdırırdı( 21.s.43).

Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutmuş bu şəxslərin hər biri azərbaycançılıq uğrunda mübarizə apararaq, dilimizin qorunmasına çalışmışdılar. Firidun bəyin müasirləri olan dəyərli insanların hər biri Azərbaycanın tərəqqisi naminə çalışır-

dılar. Baxmayaraq ki, bəziləri ilə siyasi düşüncələri müxtəlif olsa da dil məsələsində yekdil fikirdə idilər. Firidun bəy vətən dilinin, doğma ana dilinin qorunmasında fəallıq göstərən bu insanların əməyini dəyərləndirərək onlar haqqında yüksək fikirlərini söyləyirdi.

XX əsr Azərbaycan mədəniyyət tarixində görkəmli yer tutmuş şəxslər arasında Y.V.Çəmənzəminlinin də böyük xidmətləri olubdur. O, zaman hələ gənc yazıçı olan Y.V.Çəmənzəminli dilimizin bərbad hala düşməsində Əlibəy Hüseynzadəni və onunla həmfikir olanları xalqımızın tərəqqisinə zərbə vuranlar adlandırırdı. Y.V. Çəmənzəminli yazırdı: "Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində də belə gözəl və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındandır, gərək onlar toplansın, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, öyrənə bilsin. Əsl dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içində danışılmaqdadır"(11.s.393).

Milli ədəbi dilin təşəkkülündə demokratik cəbhənin nümayəndələri xalq dilinə əsaslanmağı qanuni və əsas hesab edərək elmi əsaslarla sübut etməyə çalışırdılar, buna əks olan qüvvələr isə ədəbi dil normasının müəyyənləşməsində, xalq dilinə müraciətin qəti əleyhinə gedir, ədəbi dillə ana dilinin təmasının heç bir elmi əsası olmadığını sübut etməyə çalışırdılar. F.b.Köçərli isə bir pedaqoq, dilçi, folklorşünas olaraq sübut etməyə çalışırdı ki, ədəbi dilimizin təmizliyi, zənginliyi, zərifliyi məhz xalq dilinə bağlılığındadır. Kökdən gələn dilin mənşəyini bilmədən, onu öyrənmədən hansı ədəbi dildən danışmaq olar.

Mənbələrə istinadən bilirik ki, XX əsrin ilk dövrləri Azərbaycan ədəbi dili üçün çox ziddiyyətli və mübahisəli dövr olmuşdur. Siyasi proseslərin tez-tez dəyişməsi, ictimai həyatın ağırlaşması, baş verən hadisələrin qarışıqlığı ədəbi dilin inkişafına mənfi təsirini göstərməyə bilməzdi. Milli dillərə qarşı çarizm





tərəfindən edilən hücumlar, Azərbaycan dilinin də sıxışdırılmasına səbəb olurdu. Lakin bütün bu çətinliklərin içində millətdə bir oyanış, özünüdərk və millilik baş qaldırmış və dillə bağlı mübahisələr artdığı üçün maarifpərvər ziyalılar arasında dil uğrunda mübarizə başlamışdır. Bu mübahisələrin əsasında ədəbi dil məsələsi dururdu.

Dilin yaradıcısı xalq olduğu, xalq məxsus olması məlumdur, lakin dilin inkişaf mərhələsi keçməsi də vacibdir. Ədəbi dilin inkişaf etdirilməsində isə əsas faktor dilimizin qaynaqlarına, kökünə məsuliyyətlə yanaşmağı və hörmət göstərilməsi lazımdır. Əgər biz öz ana dilimizə hörmət etməruksə, kimsə bizim dilimizi bəyənməz, etinasızlıq göstərər. Dil məsələsində H.Zərdabinin "Əkinçi" qəzetinin nəşrini yüksək qiymətləndirən F.b. Köçərli milli mətbuatın xalq dilində olmasını alqışlayırdı.

"Əkinçi" qəzeti türk-Azərbaycan dili probleminə ciddi əhəmiyyət verir və onun təkmilləşdirilməsi məsələlərinin təbliğinə kifayət qədər yer verirdi. Sübutlar gətirməyə ehtiyac yoxdur ki, "Əkinçi" sadə, anlaşıqlı xalq dilində nəşr olunurdu (11. s.317).

1906-1910-cu illər arasında "Füyuzatçı" adlanan mühərrirlər, başda Ə.Hüseynzadə olmaqla, qəribə bir "dil siyasəti" ilə ortalığa çıxdılar. Ə.Hüseynzadə mürtəce görüşlərlə bağlı olaraq ərəb, fars və türk sistemli dillərin qarışığından elə bir "dil" icad etmək haqqında xəyal bəsləmişdi ki, bu "dili" bütün müsəlman Şərqi başa düşsün və işlətsin(13.s.92).

Əslində Ə. Hüseynzadə özünün qəribə "dil siyasətində" heç də Azərbaycanın milli mənafeyinə ziyan vurmaq fikrində deyildi. Ə. Hüseynzadə rus, fars, ərəb və bir-iki Qərb dillərini və ədəbiyyatını yaxşı bilən ziyalılardan idi. O da Firidun bəy Köçərli kimi vətənini sevən, millətinə dəyər verən Azərbaycan vətəndaşı kimi bəlkə də xalqın gələcəyi, birliyi, möhkəmliyi naminə nə isə bir yenilik yaratmaq məqsədi ilə belə bir fikri irəli

sürmüşdü. Lakin, o dövrün savadsızlığı, cəhaləti belə bir fikrin ortaya çıxarılması ilə daha da çətin vəziyyətə düşmək iqtidarında olduğundan ziyalılar arasında fikir ayrılığına gətirib çıxarmışdı. Ə.Hüseynzadə bu məğlubiyyətin qanunauyğun olduğunu sonralar etiraf etmişsə də onun bir neçə illik "dil siyasəti" onunla ideya əlaqəsi olmayan bəzi gənc yazıçılara müvəqqəti də olsa mənfi təsir göstərdi.

1909-cu ildə Əli bəy Hüseynzadənin təşəbbüsü ilə "Tərəqqi" qəzetində dil və əlifba problemi ilə bağlı müzakirə açılmış, opponentləri onun ümumtürk ədəbi dilinə münasibətdə irəli sürdüyü konsepsiyanı qəbul etməmiş, ona qarşı çıxmışdılar. Bunlar arasında ən geniş yayılanı Firidun bəy Köçərlinin fikri idi.Firidun bəy Əlibəy Hüseynzadənin ədəbi dil məsələsində tutduğu mövqeyə etiraz edərək yazmışdı:"Kaş o alicənab İstanbulda oturub bizim bu şumbəxt Qafqaza təşrif gətirməyə idi"(11.s.395).

F.b.Köçərli Ə.Hüseynzadəyə bir ziyalı kimi nə qədər böyük hörmət və dostluq münasibəti bəsləyirdisə də "dil siyasəti" məsələsində onun fikirləri ilə razılaşmayaraq, kəskin tənqidi mövqedə dayanırdı. O dövrdə Azərbaycan dili əksər ziyalılarımız tərəfindən türk dili adlandırılırdı. Bunu nəzərdən keçirdiyimiz yazılarda görürük. Məsələn, N.Nərimanov yazırdı: " Qoy türk dilinə qarşı bəhanə ilə çıxanlar bilsinlər ki, Azərbaycan hər şeydən keçsə də dilindən keçməz", Y.V.Çəmənzəminli "Azərbaycan məktəblərində dərslər türk dilində keçirilməlidir", C.Məmmədquluzadə isə xalq müraciət edərək " Ey mənim türk qardaşlarım, mən sizə türkcə müraciət edirəm. Xatırlayın ki, analarınız sizə beşik başında türk dilində layla çalırdı" və s. yazılarda Azərbaycan dilinin türk dili kimi təqdim olunmasında təbii ki, Azərbaycan türkcəsindən danışıldığını bildirir. Belə misallar ədəbiyyatımızda yetərincədir.

XX əsrin əvvəllərindən başalyaraq, dil məsələsi





Azərbaycanda ictimai-siyasi və mədəni həyatın müxtəlif sahələrinin diqqətini özünə cəlb edirdi. Dil məsələsində maarifçilərlə inqilabçı demokratların fikirlərində birləşən cəhətlər aydın nəzərə çarpırdı. Hər iki cərəyanın nümayəndələri ümumi xalq dilinə əsaslanan dil uğrunda mübarizə aparır, onu yad təsirlərdən qoruyur, öz zəminindən təcrid olunmamasına ciddi səy göstərirdilər. XX əsrin ictimai-siyasi, bədii fikir tarixində maarifçilərlə inqilabçı demokratların dostluq, yaradıcılıq əlaqələri bir də bu cəhətdən diqqəti cəlb edir(1. s. 76).

Firidun Köçərlinin yaradıcılığında sadə xalq dili uğrunda mübarizə, bədii ədəbiyyat və mətbuat dilini mümkün qədər ümumxalq dilinə yaxınlaşdırmaq məsələsi ön planda idi. Dil məsələsi Köçərlini bütün əmək fəaliyyəti dövründə məşğul etmiş və o, bir an belə olsa dilə laqeyd münasibət bəsləməmişdir. Firidun bəyin fikrincə dil mədəniyyətin elə bir forması, elə bir toxunulmaz sərvətidir ki, dilə şəxsi prinsipial tərəfdən yanaşmaq olmaz. Dil mədəniyyətin bir forması olduğu kimi, həm də millətin kimliyidir. Azərbaycanın diliin zənginliyi bir daha onu göstərir ki, bu dil öz kökündən, sistemindən ayrılmayan dillərdəndir. Dil uğrunda mübarizənin əsas yollarından birini və hətta ən vacibini Köçərli mətbuat yolunu hesab edirdi. O, dil uğrunda maariflənmədə ən güclü təbliğat vasitəsi kimi məhz mətbuatı görürdü.

Sivilizasiyanın ümumi mənzərəsində hər bir xalqın yeri və mövqeyi onun məktəb və kitabxanalarının, əlyazma və çap kitablarının, yazıçı və alimlərinin təkcə sayı və sanbalı ilə deyil, şüur, bilik, əqidə və yaradıcı qüvvə ilə göstərdiyi səmərəli təsirlə ölçülür. Bu sahədə XIX əsrdə Azərbaycanda vəziyyət necə idi?

Akademik Mirzə İbrahimovun qənaətinə görə "Azərbaycan xalqının tarixində XIX əsr dönüş əsridir. Bu əsrdə Azərbaycan xalqının həyatı və tarixinin yeni səhifəsi açılmış oldu" (8.s.345).

Dünyanın digər ölkələrində olduğu kimi Azərbaycan-

da da kitab nəşrinə diqqət artmaqda idi. Bu da öz növbəsində Azərbaycanda təhsilin, səhiyyənin, elmin inkişaf etməsi ilə yanaşı maariflənmənin, eyni zamanda da dilin inkişafına kömək göstərən əsas amillər idi. Azərbaycan dilində qəzet, jurnal və kitabların çətinliklə də olsa işıq üzü görməsi artıq inkişafın başlanğıcından xəbər verirdi.

Tədqiqatlardan görünür ki, bu əsrdə elm, mədəniyyət, ədəbiyyat və digər sahələrin tərəqqisində onlarca Azərbaycan ziyalıları kimi Azərbaycanın görkəmli publisisti, ədəbiyyatşünası, pedaqoqu və tənqidçisi Firidun bəy Köçərli də yaxından iştirak etmişdir.

1905-ci il inqilabından sonra əmələ gələn ictimai-siyasi vəziyyət, ədəbi canlanma, Azərbaycanda yaranan qəzet, mətbuat, maarif və mədəniyyət ocaqları milli nəşrin inkişafı uğrunda çalışan xadimlərimiz üçün gözəl şərait yaratdı. Tərcümə işi də günün vacib məsələlərinə çevrildi. Sokrat, Əflatun, Ərəstün kimi yunan filosofları, Firdovsi, Sədi, Ş.Mərcani kimi Şərq ədəbiyyatı dühaları, Stivenson, Kolumb, Səqüt, Edisson, Vaşinqton, M.Lomonosov, Lafonten, Lamartin, J.J.Russo, D.Didro, V.Hüqo, Şekspir, C.Svift, A.S.Puşkin, İ.A.Krılov, L,N.Tolstoy, A.P.Çexov, N.V.Qoqol, İ.S.Turgenev və başqa xadimlərin elm, mədəniyyət və ədəbiyyata aid görüşləri, bədii əsərləri Azərbaycan mətbuatının səhifələrinə gəldi. Azərbaycan yazıçılarının yaradıcılıq təcrübəsini artırdı. Bu yazıçıların bir çoxu təkcə əsərləri ilə deyil, həm də öz millətlərinin dili uğrunda apardıqları mübarizələri ilə yadda qalmışlar. Belə ki, F.b.Köçərli belə dahilərin yaradıcılığı ilə yaxından tanış olduğu üçün, Azərbaycan dilini saflığı, səlisliyi və anlaqlı olması uğrunda apardığı mübarizədə bu yazarların yaradıcılığına istinad edirdi.

Bütövlükdə Azərbaycan nəsri XX əsrin əvvəllərində özünün yeni inkişaf mərhələsinə çatdı, yeni janrlarla, forma və şəkillərlə, süjet və obrazlarla zənginləşdi, dil, üslub və sənətkarlıq





baxımından kamilləşdi. Bu nailiyyət bədii nəsrin qədim abidələrdən, yazılı və şifahi ədəbiyyatdan başlayaraq dil və üslub, ideya və mövzu, süjet və kompazisiya, obraz və xarakter baxımından təkmilləşməsi və inkişafı sayəsində olmuşdur (1.s.67).

Dil insan həyatında ən mühüm ünsiyyət vasitəsidir. Dil və dil üslubu ədəbiyyatın ayrılmaz hissəsi hesab edilir. Ədəbiyyat xalqın həyat tərzinin əsas tərəflərindəndir. Lakin bu yolun düz olan tərəfini saxlamaq üçün ilk növbədə dilimizin inkişaf edərək təkmilləşməsinə və qorunmasına fikir vermək vacib idi. F.b.Köçərli dili millətin millət kimi tanınmasında əsas vasitə hesab edirdi.

Əsrin əvvəlindən başlayaraq Azərbaycanın ictimai və siyasi həyatında dil məsələsi əsas məsələlərdən biri oldu. Bəzi hallarda maarifçilərlə inqilabçı demokratların fikirlərində nəzərə çarpacaq cəhətlər olurdu. Lakin hər iki cərəyanın nümayəndələri ümumi xalq dilinə əsaslanan dil uğrunda mübarizə aparır, onu yad təsirlərdən qorumağa səy göstərirdilər.

Maarifpərvər və vətənpərvər olan F.b.Köçərli, həm də beynəlmiləlçi idi. O, xalqlar arasında mehribançılığın və dostluğun tərəfdarı idi. Lakin o bu dostluğun heç bir millətin adət-ənənələrinə, dilinə, dininə toxunulmadan olmasını arzu edirdi. Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparan beynəlmiləlçi alim, eyni zamanda həm də yenilikçi idi. O, başqa xalqların ədəbiyyatlarından tərcümələr etməklə, Azərbaycan ədəbiyyatının da başqa xalqlar tərəfindən tanınması üçün və əsərlərimizin həmən xalqların dilinə çevirməyini vacib hesab edirdi. Yüksək biliyə, savada malik olan və mükəmməl rus dilinə yiyələnən Firidun bəy çox gözəl anlayırdı ki, milləti millət kimi yaşadan onun dilidir, mədəniyyətidir. Azərbaycan dili öz kökündən ayrılmayan dildir. Dili yaşatdıran isə millətin ədibləri, şairləridir. Azərbaycan ədəbi-bədii dilinə ərəb, fars dilindən keçən, dilimizə tamamilə yad olan sözlərin daxil edilməsinə

baxmayaraq, dilimiz bu günə qədər öz kökünü qoruya bilmişdir. Ədəbi-bədii dilimizin zənginləşməsi və xəlqiləşməsində yeni ədəbi janrların da böyük təsiri olmuşdur.

XIX əsrin ikinci yarısından başlayaraq realist dramaturgiya, realist nəsr, mətbuat dilinin ("Əkinçi" qəzeti) əsaslanması və əsrimizin ilk iki onilliyində təkmilləşməsi, siyasi publisistikanın, humanitar və dəqiq elmlərin özünəməxsus üslubunun müasir ruhda formalaşması, şeirin siyasi, ictimai lirika, mənzum dram, poema kimi ədəbi növlərlə əlvanlaşması ədəbi-bədii dilimizdə yenilik yaratdı. Ədəbi-bədii dil məsələsində bu düzgün yolu tutanlar xalqa bağlı olan maarifçi realistlər və inqilabçı demokrat yazıçılar idi.

F. Köçərli əsərlərinin birində yazırdı ki, həqiqi şair "öz millətinin dili ilə danışmalıdır". Yəni elə bir dil ilə yazmalıdır ki, onu xalqın bütün təbəqələri anlasın, başa düşsün, ondan eyni dərəcədə zövq alsın. Tənqidçinin fikrincə "dil nə qədər açıq, sadə və güşad olsa, bir o qədər göyçək və məqbul olar"(9. s. 308).

Azərbaycan dilinin inkişaf etdirilməsinə və təkmilləşdirilməsinə çalışan ziyalılarımızdan biri Cəlil Məmmədquluzadə idi ki, o da Azərbaycan ədəbi dilinin xəlqiliyi uğrunda mübarizə aparırdı. Bunu o, ədəbiyyatda xəlqiliyin əsas cəhətlərindən biri hesab edirdi. Dildə xəlqiliyi ədib ana dilinə böyük ehtiram bəsləməkdə, onun bütün zənginliklərini, gözəlliklərini meydana çıxarmaqda, bu məziyyətlərdən bacardıqca geniş istifadə etməkdə görürdü. O göstərirdi ki, ədəbi dil ilə yazıçının, mətbuatın dili ilə xalq dili arasında , "avam camaatın" dili arasında uçurum olmamalıdır. Ədəbi dil klassiklər tərəfindən cilalanmış, işlənmiş ümumxalq dili əsasında inkişaf etməlidir.

F.b.Köçərlinin ədəbiyyatşünaslıq sahəsindəki yaradıcılığında başqa xalqların ədəbi nailiyyətlərini öyrənmək və təbliğ etmək çox mühüm yer tuturdu. O, dərk edirdi ki, böyük ədəbiyyat yaratmaq istəyən xalq bəşəri nailiyyətlərdən kənarda xə-





bərsiz qala bilməz. Bu məqsədlə də Köçərli bir çox xalqların ədəbiyyatı ilə yaxından maraqlanır və onları yaymağa tələsirdi. Rus klassiklərindən etdiyi bədii tərcümə əsərləri sanki onun düşündüklərini tamamlyırdı.

F.b.Köçərlinin mətbuatda dərc etdirdiyi məqalələrinində xalqa müraciət edirmiş kimi gündəlik həyati hadisələri, problemləri işıqlandırmaqla, onları cəhalət yuxusundan oyanmağa səsləyirdi. Köçərlinin müasirləri olan və onunla bir fikirdə olan yazıçı və mühərrirlər Köçərlini dil məsələsində müdafiə edərək, səslərini onun səsinə qoşurdular. Azərbaycan ədəbiyyatının inkişafını gələcək nəsillərin tərəqqisi ilə birlikdə görən ədib bu yolda zəhmət çəkməli olurdu. Əhalinin çox hissəsinin savadsız olması, hüquqlqrını bilməməsi çox zaman maariflənmə işinə öz mənfi təsir göstərirdi. Firidun bəy ilk növbədə Azərbaycan gəncləri arasında güclü təbliğata, maariflənməyə ehtiyac olduğunu anlayırdı.Xalqın azadlığı naminə ziyalıların birlikdə mübarizə aparması məqsədəuyğun sayılmalıdır. Necə ki, Əhməd bəy Ağaoğlu deyirdi: "Biliksiz və səysiz azadlıq tam sayılmaz. Belə azadlıq şikəst azadlıqdır"(18.s.24).

"Ədəbi dil klassiklər tərəfindən cilalanmış, işlənmiş ümumxalq dili əsasında inkişaf etməlidir". Bu fikirlərini Cəlil Məmmədquluzadə müxtəlif münasibətlərlə demiş və bunlar dil məsələlərinə münasibətdə onun əsas çıxış nöqtəsi olmuşdur (9. s. 312).

F.b.Köçərli C.Məmmədquluzadənin fikirlərinin onun fikirləri ilə üst-üstə düşdüyünü görürdü və bir daha başqa müasirlərinə dilin qorunması baxımından çağırış edirdi. Dil mədəniyyətin bir forması olduğundan F. Köçərli Azərbaycan dilinin yüksək mədəniyyətə malik, axıcı, səlis bir dil olduğunu və Şərq xalqları mədəniyyətində Azərbaycan mədəniyyətinin, xüsusilə də dilinin özünəməxsus gözəlliyini dünya xalqlarına çatdırmaq üçün səy göstərirdi. Dil üslubuna xüsusi diqqət yetirən F. Köçərli

Azərbaycanın bir çox klassik şairlərini bu cəhətdən çox yüksək qiymətləndirirdi. O, M.V.Vidadinin, M.P.Vaqifin, Q.b.Zakirin, S.Ə.Şirvaninin, A.Şaiqin, M.Ə.Sabirin əsərlərində dilin qorunmasının nəzərə çarpacaq dərəcədə səlis, saf işləndiyini diqqətə çatdırırdı. Məsələn Vaqifi "milli şair " adlandıran ədib onun şeirlərinin sadə və axıcı olduğunu qeyd etməklə yanaşı asan başa düşüldüyünü də əsas gətirirdi. Q. b. Zakirin isə qoşmalarından bəhs edərkən, F. Köçərli onu Şuşa şairlərinin içərisində ən birinci və görkəmli yeri məhz Zakirin tutduğuna qeyd edirdi (2. s. 140).

Firidun bəy Köçərli Seyid Əzim Şirvaninin dərrakəli rəftarını, ağıllı məsləhətlərini təhlil edərək, bu qənaətə gəlmişdir ki, Şirvani maarifçiliyin tərəfdarı, elm və təhsilin vacibliyini anlayan şəxsiyyətdir. Çünki Seyid Əzim dövrünün müasir elmini ilahiyyata qarşı qoyur və qabaqcıl elmə üstünlük verirdi. Eyni zamanda "Əkinçi" qəzetini doğma Azərbaycan dilində dərc olunduğuna görə, belə cəsarətlə müdafiə edirdi. O yazırdı ki, hər bir xalq öz dilinin xarakterink xüsusiyyətlərini daha yaxşı bilir, lakin təssüflər olsun ki, biz öz dilimizi yaxşı bilmirik. Xalqın inkişafında doğma ana dilinin böyük rolu olduğunu bilən Seyid Əzim Azərbaycan dilini dərindən öyrənməyi tövsiyə edirdi. Millətçi olmadığından Seyid Əzim Azərbaycan dilini hər hansı başqa bir dilə qarşı qoymamışdır(19. s. 138).

F.b.Köçərli kimi S.Ə.Şirvani də yeniliyin, tərəqqinin tərəfdarı olmuşdur. S.Ə.Şirvani pedaqoji fəaliyyəti dövründə din əleyhinə, köhnəliyə qarşı, savadsızlığa, cəhalətə qarşı apardığı mübarizəsini onun yazdığı şeirlərindən və söylədiyi fikirlərindən görmək olur. Sözsüz ki, eyni fikirli insanların bir-birini daha yaxşı anlamaları belə insanları bir-birinə daha tez yaxınlaşdırır. Bu səbəbdən də S.Ə.Şirvaninin gözəl fikirləri Firidun bəyin ürəyincə idi. Çünki, Seyid Əzim Şirvani də elm, maarif, mədəniyyət və dil uğrunda qızğın mübarizə aparmışdır. O, Azərbaycan dilini öyrənməklə bərabər rus dilini də öyrənməyi vacib bilirdi.





70-ci illərdə, Seyid Əzim yeni dərslik yaradılması sahəsində səylə çalışıbdır. Şairi bu işə sövq edən Azərbaycan dilində dərs kitablarının olmaması idi. Buna görə də hələ Zərdabiyə 1876-cı il tarixli məktubundan da göründüyü kimi, o, Azərbaycan dilində kitab hazırlamaq fikrinə düşmüş və bu işə həmən ildən çox əvvəl başlamışdır. F.Köçərlinin qeyd etdiyi kimi, "...Seyid nəzmən və nəsrən türkcə(azərbaycanca-P.M.) xoşməzmun və ibrətamiz nağıl və hekayələr tərtib edib, öz şagirdlərinə oxudardı". F.Köçərlinin yazdığına görə Seyid Əzimin tərtib etdiyi oxu kitabı üç dəftərdən ibarət olmuşdur. Burada şairin əxlaq və tərbiyəyə aid mənzumələri ilə bərabər bir sıra satirik şeirləri də toplanmışdır.

Seyid Əzim hazırladığı dərs kitabını sonralar A.O.Çernyayevskiyə göndərmişdir. Çernyayevski də həmin dərsliyin materiallarından özünün hazırladığı "Vətən dili" adlı kitabında istifadə etmişdir. F.Köçərli yazır: "Mərhumun( S.Əzimi nəzərdə tutur) tərtib etdiyi kitabçadan bir nüsxəsi ki, dəsti-xətti ilə yazılmışdır, sabiqdə müsəlman inspektoru olan mütəvəffa Çernyayevskiyə göndərilmişdir. Həmin hekayələrdən bir neçəsini Çernyayevski öz "Vətən dili" nam kitabına salmışdır (23.s.27).

Seyid Əzim Şirvani elmin inkişafına mane olan ruhaniliyi kəskin tənqid etdiyinə görə, satqın ruhanilər tərəfindən də qətlə yetirilmişdir. Millətinin maariflənməsi yolunda canından keçən belə şəxsiyyətləri Firidun bəy Köçərli lazımınca qiymətləndirməyi bacarırdı.

Ümumiyyətlə Firidun bəy Köçərlinin yaradıcılığını araşdırdıqda onun Azərbaycan ədəbiyyatında anlaşıqlı və zəngin bədii dil üslubunda yazan şairlərimizdən ilk növbədə Vaqifin, Vidadinin, Q.Zakirin və S.Ə. Şirvaninin adına daha tez-tez rast gəlmək olur. Özünün qeyd etdiyi kimi onların qələmindən çıxan hər söz və ifadəni oxucu üçün "can riştəsi ilə və ürək qanı ilə təhrir, tənzim" olduğunu göstərir.

Vaqif və Vidadi əşari ruha qida, əqlə qüvvət, fikir və xəyala hərəkət və vüsət verən" əsərlər sayırdı(10.s. 142). Həqiqətən də Vaqifin bədii dilinin həyatiliyi, təsvir və ifadələrinin axıcılığı, sadəliyi onun dilinin xəlqiliyi ilə bağlıdır. Azərbaycanın klassik poeziyasının sevilməsində bu ustad sənətkarların dilinin böyük rolu olubdur.

M. P. Vaqifin dil və üslubunun gözəlliyini, aydın və rəvanlığını, ifadə və xüsusiyyətlərini xalqa bağlılığından irəli gəldiyini bilən ədib, "Azərbaycan ədəbiyyatı" adlı məqaləsində yüksək dəyərləndirmişdir. Mənbələrdən məlumdur ki, inqilabdan əvvəlki vaqifşünaslığın vəziyyətindəki dönüş məhz F.b.Köçərlinin adı ilə bağlıdır.

XX əsrin əvvəllərində mətbuatda ədəbiyyatşünaslığa həvəsin artması və bu sahədə yazılan məqalələrin ümumi nəzəri səviyyəsinin yüksəlməsi ilk növbədə F. Köçərlinin fəaliyyəti ilə əlaqədardır. Onun dərin məntiqli əsərləri Azərbaycan ədəbiyyat tarixinin inkişafında irəliyə doğru atılmış mühüm bir addım oldu.

1903-cü ildə F.b.Köçərli rus dilində Tiflisdə nəşr etdirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı əsərində Vaqif lirikasının incəliklərindən, səmimiliyindən bəhs edərək onun yaradıcılığını çox yüksək qiymətləndirmişdir. Hətta onu az qala "Azərbaycan şeiriyyətinin banisi" kimi qələmə vermişdir.

F.b.Köçərli Qasım bəy Zakirin poeziyasına da çox böyük dəyər vermişdir. Dil məsələsinə ciddi yanaşan ədib, sadə dil üslubundan istifadə edən sənətkarların yaradıcılığını xüsusi olaraq dəyərləndirirdi. F.b.Köçərli Q. b. Zakiri "məişətimizin düzgüzü" adlandırmışdır(3.s.67).

Zakirin dil üslubunun sadəliyi və şirinliyi Azərbaycan poeziyasında bir çox yaradıcı insanların nəzər-diqqətini cəlb etmiş və məhz Zakir kimi yazmaq üsulundan istifadə etməyə səy göstərmişlər. Zakirin dilinin xüsusiyyətləri onun qoşmalarında





cəm olunmuşdur.

Bu cəhətdən F.b.Köçərlinin 1913-cü ildə qələmə aldığı "Ana dili" məqaləsi çox böyük əhəmiyyətə malik idi. Köçərli dil məsələsinə çox ciddi yanaşır və dilin inkişafının ləngiməsində lüğətin yoxsulluğunun, xalqların geridə qalmasının və tayfaların dilindəki bəsitliyin aradan qalxmamağı ilə bağlayırdı.

Seminariyada təhsil almış azərbaycanlı tələbələr Azərbaycan dilinin tədris edilməsində A.O. Çernyayevskinin xidmətlərini xüsusi olaraq qeyd edirdilər. Onun tələbələr üçün tərtib etdiyi "Vətən dili" dərsliyi nəinki mərkəzdə yerləşən məktəblərdə, habelə mərkəzdən uzaqda yerləşən məktəblərdə də tədris olunurdu. "Vətən dili" dərsliyinə Azərbaycanın qədim zərb məsələlərindən, tapmaca, nağıl, atalar sözlərindən və Azərbaycan ədiblərinin əsərlərindən parçalar daxil edilmişdir. F.b.Köçərlinin "Darı və buğda" əsəri də bu dərsliyə salınmışdır.

Xalqımızın maarif işığını yandıran böyük ziyalı F.b.Köçərli sonralar yazırdı ki, seminariyada biz azərbaycanlılar əldə etdiyimiz uğurlara görə Çernyayaevskiyə borcluyuq. Bütün varlığıyla azərbaycanlılara dərin məhəbbət bəsləyən Çernyayevski, onların təhsilli olması üçün əlindən gələni əsirgəməyirdi.

F.Köçərli bu səbəbdən dərsliklər üzərində həmişə səylə çalışırdı və proqramların tərtibinə xüsusi diqqət yetirirdi. İlk ibtidai əlifba kitabı 1882-ci ildə çap olunmuş "Vətən dili" dərsliyi hesab olunur. Bu qiraət kitabı Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində dərs deyən A.O.Çernyayevski tərəfindən tərtib olunmuşdur. "Vətən dili" azərbaycanlı oxucular üçün gözəl bir hədiyyə idi. Çünki, ana dilində dərsliklər demək olar ki, yox dərəcəsində idi. O dövrdə Azərbaycan dilində dərsliklərin olmamasından bəhs edən görkəmli maarifpərvər H.Zərdabi yazmışdı: "Məktəblərdə şagirdlər ağlaşırlar ki, oxumaq üçün kitablarımız yoxdur(4.s.51).

Seminariyanı bitirdiyi zaman Firidun bəy Köçərli artıq bir

neçə əsərin müəllifi idi. Yunan filosofu sokratın həyat və əxlaqi görüşlərinə həsr olunmuş "Təlimati-Sokrat" əsərini də təxminən bu illərdə tərcümə edib qurtarmışdı. Professor Z. Göyüşov F.Köçərlinin tərcüməçilik fəaliyyətindən bəhs edərək yazırdı: "Təlimatı-Sokrat əsərinin tərcüməsi F.Köçərlinin Azərbaycan mədəniyyəti qarşısında etdiyi xidmətlərindən biri hesab olunmalıdır"(4. s.550).

İrəvan gimnaziyasında çalışdığı illərdə F.b.Köçərli maarif məsələlərinə dair məqalələr yazır, Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türki" adlı dərslik tərtib edir, "Təlimati-Sokrat"(1891) adlı fəlsəfi əsərin nəşrinə nail olur, bədii tərcümə ilə məşğul olub Puşkindən, Lermantovdan, Tolstoydan, Koltsovdan tərcümələr edirdi.

Qeyd olunduğu kimi F.b.Köçərli yunan filosofu Sokratın "Təlimati-Sokrat" əsərinin tərcümə etdikdən bir qədər sonra Saleh bəy Zöhrabbəyovla birlikdə "Təlimati-lisani-türki" dərsliyini tərtib etmişdir.

Əslində Köçərli elə onun ruhuna yaxın olan, onu cəlb edən, düşündürən əsərlərin tərcüməsinə çox fikir verirdi. Yəni, o tərcümə xatirinə bu işlə məşğul olmurdu. F.b.Köçərlinin tərcümə etdiyi əsərlərin məğzində cəmiyyətin iztirabları, məişət qayğıları, xalqın xalq kimi tanınması, azadlıq və s. məsələlər dururdu. Bu kimi fikirlərlə yaradıcılığını davam etdirən ədib dil məsələsinə də bu səbəbdən israrla yanaşırdı.

1885-ci ildə seminariyanı bitirən Köçərli həmin ilin iyun ayında İrəvan gimnaziyasına Azərbaycan dili və şəriət müəllimi təyin olunur. O vaxtdan etibarən Köçərli, qədim Azərbaycan ədəbiyyatını xüsusi zövq və həvəslə öyrənir. Bu işdə yerli ziyalılardan Mirzə Məhəmməd Qəmərli ona yaxından kömək edir. Firidun bəy ilk tərcümələrinə də məhz burada çalışdığı müddətdən başlayır. 1887-ci ildə O, mürəbbi müavini vəzifəsinə irəli çəkilir.





Ana dilinə sonsuz məhəbbəti olan Firidun bəyin çıxışlarında, məqalələrində, söhbətlərində ən baş mövzu ana dilinin inkişaf etdirilməsi və məktəblərdə ana dilində dərslərin keçirilməsi idi. O, təmiz ana dilində yazılmış kitabların çox mütaliə edilməsini, bunun dilin püxtələşməsində və inkişafında böyük rolu olduğunu söyləyirdi.

Firidun bəy Köçərli irsinin araşdırılmasında onun Azərbaycan millətinə maarif işığı gətirdiyinin, maarif çırağını şövqlə yandırdığının və özünün də millətinin yolunda çıraq kimi yandığının şahidi oluruq. Dilinə hörmət etməyi bacaran və hər kəsə də dilinə hörmətlə yanaşmağı tələb edən Köçərli üçün dil məsələsi hər şeydən öndə idi. O, "dil varsa ana var, ana varsa vətən var, vətən varsa millət var" kimi sözlərli şüar edərək gənclərə təbliğ edirdi.

Firidun bəy Köçərli yazılmış əsərlərin dil cəhətinə, dil üslubuna ciddi fikir verirdi. Əsərlərin insan tərbiyyəsində böyük əhəmiyyətə malik olduğunu qeyd edən ədib, yazılmış əsərlərə diqqətlə yanaşmalı, milli xüsusiyyətləri nəzərə almağı və azərbaycanlılara xas olan əsərləri yaratmağı tövsiyə edirdi. O, mövzu bəsitliyinə qaçmamağı, sanballı, yadda qalan əsərlərin yaradılmasını istəyirdi.

Dil üslubu cəhətdən F.b.Köçərli M.V.Vidadi və M.P.Vaqifin yaradıcılığını yüksək dəyərləndirmişdi. Məlumdur ki, ədəbiyyatımızın XVIII əsr lirikasının zirvəsində M. V. Vidadi və M. P. Vaqif dayanır. F. Köçərli sonradan onlar haqqında materialları əsas əsərinə daxil etmişdir(7.s.38).

Doğma dilinin vurğunu olan F.b.Köçərli başqa xalqların əsərlərindən tərcümələr edərkən o qədər anlayışlı, sadə Azərbaycan sözlərindən istifadə edirdi ki, oxucular onu gözəl anlaya bilsin. O hər kəlmənin və cümlənin üzərində düşünərək əsərin mənasını əsas götürür və formal təcrübədən uzaq qaçırdı. F. Köçərli rus dilində təhsil almasına baxmayaraq, Azərbaycan

poeziyasının, Azərbaycan ədəbiyyatının və Azərbaycan dilinin vurğunu idi. Tərcüməni xalqlar arasında ədəbi ünsiyyət forması hesab edən ədib, Azərbaycan dilindən rus dilinə tərcümələri etdikdə bu vasitəni əsas fikir olaraq göstərirdi. Görkəmli ədibin Azərbaycan dilinə üstünlük verməsi onun öz doğma dilinə olan sevgisindən irəli gəlirdi. Köçərli bilirdi ki, həqiqətən də Azərbaycan dili öz rəvalığına və səlisliyinə görə bir çox dillərdən seçilir. O, zərif və axıcı ifadə tərzi olan Azərbaycan dilinin başqa millətlərin ədibləri tərəfindən sevilərək üstünlük verməsini, Lermantovun, L.Tolstoyun, Qorkinin, Krılovun, Seretelinin, Lomauri və başqalarının Azərbaycan dilinə böyük maraqları olduğunu bilirdi.

Zəngin ədəbi dili olan Azərbaycan dilini çox zaman musiqili dil kimi anladırlar. Bu söz xatirinə deyilmiş tərif deyildir. Həqiqətən də Azərbaycan dili dünya dilləri içərisində özünəməxsusluğu ilə fərqlənir. F.b.Köçərli və onun müasirləri bu dilin zənginliyini, saflığını əsas gətirərək onun başqa xalqların dilinə qarışmasına, leksikonuna yabançı sözlərin daxil olmasına qarşı narazılıqlarını bildirirdilər. F.b.Köçərlinin fikrincə yenilikçi və yaxud müasirlik heç də dilin dəyişdirilməsi demək deyil, əksinə dilin daha gözəl formada səslənməsinin inkişaf etdirilməsidir. Köçərli bu ideyanın Azərbaycanın bütün bölgələrində tətbiq edilməsinə və dilimizin elmi-ədəbi dil olaraq tanınmasına çalışırdı.

Firidun bəy Köçərli dövrünün ziyalılarının dil uğrunda mübarizəsinin və onların dil haqqındakı fikirlərinin ədəbiyyatımızdakı ümumi mövqeyi ilə vəhdət təşkil etdiyini qeyd edirdi.

Görkəmli yazarlarımızdan Yusif Seyidovun "Yazıçı və dil" kitabında oxuyuruq: "...bir millət özünü tanımayınca, hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bunların da meydana gəlməsi və tərqqisi bizim üçün hürriyyətə bağlıdır. Bu hürriyyət isə, tamamilə olmasa da, 1905-ci ildən cüzi verilibdir". "1905-ci ilədək məktəblərdə ana dili yox idi, demək olar. Zatən gimnaziya və realnilərin proqramlarında ana dili heç yox idi... İndi isə, yəni 1905-ci ildən bəri nəinki şəriət və hətta ana dili bu məktəblərdə oxunur"(s.134).





Firidun bəy Köçərli ardıcılları olan ziyalı dəstəsinin maarifçilik ideyalarını təbliğ etdiyini və dilin ictimai həyatdakı rolunu düzgün qiymətləndirirdi.

Orta məktəblərdə ana dilinin tədrisi söz yox ki, ziyalılarımızın dil uğrunda apardıqları mübarizənin nəticəsi idi. Köçərlinin ədəbi dilə münasibəti çox müsbət olub. O, ədəbi dili xalq dili adlandırırdı. Yəni xalq, camaaat hansı dildə danışırsa o dili daha tez qavrayır, daha asan başa düşür. Bu səbəbdən də bu dili təkmilləşdirmək, bu dildə danışıb, yazmaq gərəkdir.

F.b.Köçərlinin mütəfəkkir M.F.Axundov yaradıcılığını xüsusi olaraq dəyərləndirməyi onunla əlaqədar idi ki, Axundov ana dili ilə bağlı mövzudan söz açmaq istədikdə, ilk olaraq ərəb əlifbasından uzaqlaşmağı, köhnə əlifbanı islah etməyi, əvəzində isə yeni əlifbanı yaratmağın zamanı gəldiyini söyləyirdi.

C.Məmmədquluzadə də Azərbaycan dilinin inkişaf etməsi və onu ərəbiləşdirməkdən xilas edə biləcək yeganə ölkənin Qafqaz olduğunu, Azərbaycan ədəbiyyatının böyük klassiklərinin, müasir dövrün yazıçı və mühərrirlərinin bu dili inkişaf etdirərək ümumxalq dili etməsini söyləyərək, Ə. Haqverdiyev, N. Nərimanov, M. Ə. Sabir, Ü. Hacıbəyov, Ö. F. Nemanzadə, S. M. Qənizadə, R. Əfəndizadə, Abbasağa Qayıbov ilə yanaşı Firidun bəy Köçərlinin də adını xüsusi olaraq qeyd etmişdir.

Görkəmli ədəbiyyatşünas və dilçi alim F.b.Köçərli məhz dil məsələsinə sırf bu aspektdən yanaşdığı üçün, ciddi şəkildə bəzi ziyalılarla elmi mübahisələr etməli olurdu.

F.b.Köçərlini təhsil, dil, fikir, mətbuat azadlığı kimi ictimai-siyasi məsələlər həmişə narahat edirdi. Köçərli dil siyasə-

ti məsələsini həmişə müdafiə edirdi. Azərbaycan ədəbi dilinin düzgün istiqamətdə inkişaf etdirilməsində Köçərlinin çox böyük rolu vardır.Mənbələrə istinadaən demək olar ki, dil uğrunda mübarizə aparan ziyalıların əksəriyyətini yazıçılar təşkil edirdi. Bu bəlkə də onların yaradıcılıqlarının ədəbiyyatla bağlılığından irəli gəlirdi. Onlar bütün mədəni problemlərin həlli ilə maraqlanır, bu problemlərin həlli yollarını axtarır və onların həyata keçməsinə çalışırdılar. Artıq dərc edilən məqalələrin üslub cəhətdən formalaşması gözə çarpacaq dərəcədə dəyişirdi. Mətbuatın dili, ədəbiyyatın dili və ümumi dil bir-birindən fərqlənirdi. Mübahisələr və ziddiyyətlər daha çox ədəbi dil məsələsi ətrafında olurdu.

F.b.Köçərli dilimizə xələl gətirən, qəliz ibarələrlə ədəbiyyat meydanında cövlan edən qələm sahiblərini başa bəla adlandırırdı. O, öz ana dilini kamil bilən, onu sevə-sevə tərənnüm edən şair və nasirlərimizi sadə, xalq dilində yazıb-yaratmağa sövq edirdi. Necə ki, rus realistlərinin yazdığı hər bir kəlamı "rus əkinçisi, rus dehqanı" oxuyub asanlıqla başa düşmüşlər. Köçərli dil məsələsini dövrü mətbuatın qarşısında duran əsas vəzifələrdən hesab edirdi.

Tarixi mənbələrdən məlum olduğu kimi lüğətlərin, elmi və bədii əsərlərin doğma ana dilində olması məhz XIII əsr ədəbiyyatının ən böyük nailiyyətlərindən hesab edilir. Əvvəlki əsrlərdə olduğu kimi bu dövrdə də Azərbaycan Şərqin ən mühüm mədəni mərkəzlərindən biri olaraq qalmaqda idi. Bu dövrdə yaşayıb yaradan müəlliflər ərəb, fars dilləri ilə yanaşı Azərbaycan dilində də əsərlər yazıb yaradırdılar. "İzzəddin Zəncani (? - ?), Zülfüqar Şirvani(1190-1245), Nəsrəddin Tusi(1201-1274), Əvhədi Marağayi (1275-1338), İzzəddin Həsənoğlu(? -1260) və başqaları məhz bu qəbildən olan müəlliflərdir"(8.s.197).

XIX əsrin sonlarından başlayaraq, Azərbaycan dilinin inkişafında irəliləyiş hiss edilməyə başlayır. Ana dilində dərsliklərin çapı genişlənirdi. Bu dərsliklərdə ərəb əlifbasının Azərbaycan





dilinə uyğunlaşdırılmış, nisbətən sadə variantları verilirdi. XX əsrdə isə dil məsələsi daha çox elmi tədqiqat xarakteri daşımağa başladı.

Dil ünsiyyət vasitəsi olmaqdan əlavə, həm bir mədəniyyətdir. Bunun nəticəsi idi ki, XX əsr Azərbaycan mədəniyyəti üfüqlərində bir şimşək çaxdı. Bu, şimşək 1906-cı ilin aprel ayında nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının birinci nömrəsi oldu. Köçərlinin böyük dəstək verdiyi bu jurnal az zaman içərisində böyük marağa səbəb oldu.

Köçərli haqlı olaraq qeyd edirdi ki, Azərbaycan ədəbi dilini yaranmasında, inkişafında və kamilləşməsində görkəmli yazıçılarımızın böyük rolu olubdur. Ədəbi dilin formalaşmasında xalq yaradıcılıq nümunələri və eləcə də sadə, gözəl yazılmış əsərlər əhəmiyyət daşıyır. O, M.Füzulinin Azərbaycan dilində yazılmış əsərlərini misal gətirərərək, bu dilin tükənməz imkanlara malik olduğunu göstərirdi. Xalqın daxilindən gələn fikirləri onun özünün danışdığı doğma ana dili qədər heç nəylə ifadə etmək mümkün deyil. Çünki, bu fikirlər təkcə dillə bağlı deyil, həm də xalqın ruhu ilə əlaqədardır.

F.b.Köçərli ədəbiyyata dərindən bələd olduğu üçün klassiklərin dilimizə olan münasibətini daha çox dəyərləndirirdi. Köçərlinin yaradıcılığını araşdırdıqda onun ən çox klassiklərimizə, folklorumuza və xüsusilə də ana dilimizə istinad etdiyini görürük. O ana dilini sevdiyi qədər torpağına və vətəninə də bağlı idi. Əgər onda bu sevgi olmasaydı, sözsüz ki, belə tədqiqatlarla da məşğul ola bilməzdi. Bu səbəbdən F.Köçərlini böyük dilçi alim, hətta "ana dilinin aşiqi" adlandırmaq olar. Bəzi məqalələrində o, dilə səthi yanaşan, onu kökümüzdən uzaqlaşdırmaq istəyənləri kəskin tənqid etməkdən çəkinməyirdi. "Hər bir xalqın dili onun mənəvi sərvəti olduğu kimi, Azərbaycan dili də onun mənəvi sərvətidir" deyən ədib, dilimizin əsrlərdən bəri canımıza və qanımıza hoparaq həyat tərzimizə çevrildiyini an-

latmağa çalışırdı.

F.b. Köçərli "hər bir xalqın dili gözəldir və başqa dillərin öyrənilməsi yaxşıdır, hətta vacibdir, lakin bu heç də o demək deyildir ki, mən öz dilimi dəyişərək başqa dillərdən gələn sözləri dilimə qarışdırmalıyam" deyərək bunun qətiyyən yolverilməzliyini mətbuatda dəfələrlə qeyd edirdi. Təcrübəli müəllim olan Köçərli dilin mədəni həyatımızdakı rolunu düzgün başa düşürdü. O seminariyada dərs dediyi tələbələrinə dilin mədəniyyətin əsas qollarından biri və həyatımızın ayrılmaz bir parçası olduğunu anladırdı. F.b.Köçərli dilimizə qiymət verməyimizi və bu dilin başqa xalqlar tərəfindən də hörmətlə qarşılanması üçün ilk növbədə özümüzün dilimizə hörmətlə yanaşmalı olmağımızdan bəhs edir və bu dilimizə olan sevgini tələbələrinə də öyrətməyə çalışırdı.

Köçərli həyatımızda ən önəmli vasitə olan kitabın rolunun istər ana dilimizin inkişaf etdirilməsində, istərsə də ədəbi dilin mədəni tərəqqiyə yüksəlməsində əvəzolunmazlığını qeyd edirdi. Millətin savadlı olmasının başlıca səbəblərindən biri onun kitabla ünsiyyətinin olmasındadır. Firidun bəy kitab nəşrinin sürətləndirilməsi sahəsində imkanlı ziyalıların köməyindən istifadə olunmasını müsbət qarşılayaraq, hətta onların bunu vətəndaşlıq borcu hesab edirdi. Millətinin gələcəyinə ümidlə baxan Köçərli əlindən gələni bu yolda əsirgəmirdi. Sadəcə vətəni, xalqı, onun dilini, sevmək lazımdır ki, heç bir bəhanə gətirmədən bu işi həyata keçirə biləsən. Çünki tarixi araşdırmalarda hər cür çətin dövrlərdə kitabların nəşr olunması işi həyata keçirilmişdir. Məsələn götürək XVIII əsri. XVIII əsrdə Azərbaycan müharibələr meydanına çevrilsə də, kitabçılıq işi sahəsində az iş görülməmişdi. Bu dövrdə elm, poeziya, nəsr, dilçilik, lüğətçilik, təzkirəçilik, şifahi xalq ədəbiyyatı və s. əlaqədar sahələrdə xeyli əsərlər yaradılmışdır(8. s.332).

Müasirləri tərəfindən "Canlı ensiklopediya" kimi çox





yüksək qiymətləndirilən F.b.Köçərli elmin başqa sahələrinə də diqqətlə yanaşırdı. Dilimizin öyrənilməsi ilə bərabər klassiklərimizin həyat və ədəbi yaradıcılığına, qədim və zəngin folklorumuza, kitab mədəniyyətinə, dinə və başqa bu kimi məsələlərə də diqqətlə yanaşırdı. Hətta sosial-məişət məsələləri belə F.b.Köçərlini narahat edirdi və yeri düşdükdə belə məsələlərə öz münasibətini bildirirdi. Çünki o, bütün bunların bir-biri ilə birbaşa əlaqəsi olduğunu anlayırdı.

F. Köçərli elmin başqa sahələrilə yanaşı kitab mədəniyyətinə dair nəzəri və təcrübi biliyini artırmaq üçün bu sahəyə dair mövcud ədəbiyyatı, xüsusilə Komenski, Lokk, Russo, Pestalotsi, disterviç, Uşinski, Piroqov kimi sənətkarların zəngin irsini öyrənməyə daha çox səy göstərmişdir(4.s.50).

F.b. Köçərli dilin saflığı uğrunda apardığı mübarizədə bu sənətkarların əsərlərinin də rolu olacağına inanırdı. Bu əsərlərlə tanışlığı gələcəkdə Köçərlinin öz əsərlərinin nəşri tərtibində istifadə etməsi ehtimalını doğurur.

Azərbaycanın şairlərinə xüsusi hörmətlə yanaşan F.b. Köçərli onların bəzilərinin şeirlərində olan dil probleminінə toxunaraq hər dəfə bir qədər sadə, anlaşıqlı dildə yazmalarını onlardan xahiş edirdi. Bu şairlərin əksəriyyəti Firidun bəyin dostları idi. O, M. Ə. Sabir, A. Şaiq, A. Səhhət və qeyriləri ilə tez-tez məktublaşırdı, hətta Sabirin hər bir eybəcərliklərin bədii üsulla qələmə alınmasını xalqımız üçün əvəzolunmaz nemət, tükənməz sərvət hesab edirdi.

Sabir yaradıcılığında tənqidçinin diqqətini cəlb edən nə idi? Hər şeydən əvvəl böyük şairin şeir dili, üslubu və məfkurəsi idi. F.b.Köçərliyə görə Sabir dildə də, üslubda da, cəsarətdə də, obyektivlikdə də realist idi. Sabir öz dövrünün, mənsub olduğu xalqın, əsrin mürəkkəb ümumi vəziyyətini xarakterizə edən sənətkar idi. Onun dilində təzə sözlər, təzə fikirlər eşitmək istəyən F. Köçərli Sabiri və onun qələmindən çıxan hər bir bədii

ümumiləşmədə incə mətləblərin ustalıqla verilməsini xalqımız üçün, gələcək nəsil üçün tükənməz bir nemət sayırdı. Az vaxtda xalqı, vətəni üçün çox iş görən Sabiri F.Köçərli haqlı olaraq yüksək qiymətləndirir, əsl xalq şairi hesab edirdi(10. s.146).

Köçərli Sabir haqqında yazdığı məqaləsində Sabiri ən xoşbəxt şairlərdən hesab edir, onu əsrimizin "Ağlar-güləyəni" adlandırırdı. Sabir şeirlərinin sadə ana dilində olması, onun tez qavranılmasına və əzbərlənməsinə səbəb olurdu. Sabir şeiriyyətində zəhmətkeş kütlələrin arzularının əks olunduğunu görən Firidun bəy belə şeirlərin heç zaman unudulmayacağını və daim seviləcəyini qeyd edirdi.

Mənbələrə istinadən qeyd etmək olar ki, F.b.Köçərli dilin mədəni inkişafı üçün daim çalışırdı. O, təlim-tərbiyə işində dilin, kitabın, təhsilin ən vacib faktor olduğunu və Azərbaycanın gələcəyi olan gənc nəsillərin məhz belə ruhda böyüməsini arzu edirdi. F. Köçərlinin ən çox diqqət ayırdığı sahələrdən biri balalarımız üçün hazırlanan dərsliklərin keyfiyyətli və maraqlı olması idi. O, kiçik yaşlı uşaqlar üçün ancaq onların anlaya biləcəkləri dildə dərsliklərin olmasını vacib hesab edirdi. Bünövrəsi ibtidai sinifdən qoyulan balalarımızın ilk dərsliklərdən aldıqları biliklər onların gələcək həyatlarının inkişaf etməyində əsas mənbə hesab edilirdi.

XX əsrin birinci rübü Azərbaycan ictimai fikir tarixində yeni mərhələdir. Tarixən qısa olsa da, bu dövr özünün mürəkkəbliyi, ziddiyyətli və təlatümlü olması ilə seçilir. Ədəbiyyatşünaslıq sahəsində çalışan F.b.Köçərli, M. M. Tərbiyət, A. Sur, Y.V.Çəmənzəminli kimi müəlliflər ədəbiyyat tarixinə aid yeni-yeni əsərlər yazaraq, nəşr etdirirdilər.

1903-cü ildə F.Köçərlinin "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabı çapdan çıxır. Mətbuatda müsbət rəy alan bu əsər Köçərlini daha da həvəsləndirir və o çox cildli ədəbiyyat tarixini yazmağa başlayır. Uzun tədqiqatdan sonra Firidun bəy





"Azərbaycan türklərinin ədəbiyyatı" adlı əsərini meydan çıxarır. Zəngin və yeni faktlarla yazılmış bu əsər Azərbaycan ədəbiyyatı tarixi haqqında ilk dolğun əsər olaraq şöhrət tapır. Köçərli Azərbaycan dilinin təkmilləşməsi, inkişaf etdirilməsi və ədəbi dilə çevrilməsi üçün apardığı mübarizədə başa çatdırdığı bu əsərinin də böyük təsiri olmuşdur. Kitabda dahi klassiklərimizin yaradıcılıq nümunələrini misal gətirən Köçərli, dilimizə yatmayan yabançı sözlərin ədəbiyyatımıza daxil olmasının əleyhinə çıxır və kitabda göstərilən müəlliflərin nə qədər təmiz, saf Azərbaycan dilində yazdıqlarını nəzər çatdırırdı. Köçərli Azərbaycan dilini korlayan, onu xalqdan uzaq salan yazıçı və mühərrirlərə qarşı yorulmadan mübarizə aparmış və bunu çox mühüm, ictimai-siyasi və ədəbi məsələ hesab etmişdir.

1905-ci il inqilabı milli şüurun oyanmasına, elm, maarif və mədəniyyətin inkişafına təkan verdi. Azərbaycanda bir-birinin ardınca maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradıldı. Milli dilin, milli ədəbiyyatın tədris olunduğu məktəblərin, xüsusilə qız məktəblərinin sayı artdı(5.s.81). Bu dövrdə də F.Köçərlinin Azərbaycan ədəbiyyatının tarixi ilə məşğul olması daha müntəzəm və ciddi şəkil alır. O, Azərbaycan ədəbiyyatının geniş tarixini yaratmaq işini davam etdirir və daha çox material toplamaq üçün müasirləri ilə mütəmadi əlaqə saxlamağa çalışırdı. "Azərbaycan türklərinin ədəbiyyatı" əsəri o dövr üçün yazılmış ilk böyük həcmli, qiymətli bir əsər idi. Kitabın müqəddiməsində Azərbaycan yazılı ədəbiyyatının yaranması və təsirləndiyi mənbələr, Azərbaycan dili, Füzuli məktəbi və s. haqqında maraqlı fikirlər verilmişdir(17. s.503).

Firidun bəy gənc yazarlara dilimizin qorunmasında "Molla Nəsrəddin" jurnalının yolu ilə getmələrini məsləhət verir və bunu üçün "Əkinçi" kimi bir ruznaməyə ehtiyac olduğunu söyləyirdi.

F.b.Köçərlinin qazandığı nüfuz və hörmət mürtəcelər i na-

rahat etməyə başlayır və gənc müəllimə qarşı ardı-arası kəsilməyən müqavimətlər və təzyiqlər artır. Bu səbəbdən də onun "Təlimati-Sokrat" kitabı yeddi il nəşr oluna bilmir, nəşr olunmuş kitablarına isə olmayan böhtanlar atılır. Hətta Molla Cavad kimi ruhanilər onun kitablarının oxunmasını qadağan etdirir(9.s.403).

F.b.Köçərli bütün həyatı və yaradıcılığı dövründə həmişə hörmət və nüfuz sahibi olmuşdur. O, təkcə müasirləri deyil, eyni zamanda geniş əhali arasında, çalışdığı müəllim kollektivində və tələbələri arasında yetərincə nüfuza malik olan şəxslərdən idi. F. Köçərlinin ədəbi nüfuzundan bəhs edərək müasiri Fərhad Ağazadə yazırdı: "Demək olar ki, Firidunbəyin təsiri ilə tərbiyələnmiş bir çox kimsələr meydana çıxdı... Bunlardan elələri vardır ki, Firidunbəyin dələləti ilə mahir yazıçılar olmuş və bəziləri də onun göstərdiyi cığırı tutub özlərinə məslək qərar vermişlər... Bəli Firidunbəy yazıçı idi, dəyərli qələm sahibi idi. Onun qələminə yalnız türklər deyil, ruslar, gürcülər belə böyük hörmətlər göstərirdilər. Çünki rusca da onun çox dəyərli məqalələri çap edilirdi. Odur ki, Qafqaz mühərrirləri arasında məşhur olduğu kimi, Moskva, Peterburq (sovetlər dönəmində Leninqrad (indi isə Sankt Peterburq –P.M) şəhərlərində də məşhur idi. Məktubların arasında bir çox dəvətnamələr var. Yeni bir qəzet meydana ilk qədəmini atdığı halda Firidunbəydən məqalə istərdi və o da bu dəvəti diqqətsiz buraxmazdı. Hərgah bu gün Firidunbəyin türkcə və rusca çap edilmiş məqalələrini siyahıya alsaq, həmin siyahı 15-20 səhifəlik yer tutur (9.s.409).

F.b.Köçərli əməkdaşlıq etdiyi mətbu orqanlarda cəhaləti, nadanlığı pisləyir, elm, təhsil, savad arxasınca getməyi tövsiyə edirdi. O, çox gözəl anlayırdı ki, milləti millət edən onun dilidir, dil isə mənəvi dəyərlərin ən başlıca meyarıdır.

F.b. Köçərli bütün bunların əsas səbəbi kimi yenə savadsızlığı göstərirdi. O daxilən sarsılsa da bunu büruzə verməməyə çalışırdı. F.b.Köçərli sonralar da Azərbaycanda savadsızlığın





ləğvinə qarşı aparılan mübarizədə həmişə öndə olmuşdur.

Qızların təhsil almasına xüsusi tələbkarlıqla yanaşan F.b.Köçərli bu yolda əlindən gələn köməyi əsirgəməyərək, ilk növbədə qızların təhsilə cəlb olunmasına və maariflənməsinə çalışırdı. Onun fikrincə təhsilli ana gələcəyə təhsilli övlad verən və övladına millətini, dilini, vətənini sevməyi öyrədən demək idi. Bu əslində belədir. Çünki övlad əsasən ana ilə ünsiyyətdə olduğu üçün, ana onu lazım olan səmtə yönəldə bilir. Görkəmli maarifpərvər olan F.b.Köçərli bu xeyirxah işdə tək deyildi. Belə bir xeyirxah və nəcib işə maarifçi-demokrat yazıçılar, ictimai xadimlər və mətbuat ətrafında toplaşan tərəqqipərvər ziyalılar və müəllimlər yaxından kömək edir, əllərindən gələni əsirgəməyirdilər. N. Nərimanov, C. Məmmədquluzadə, M. Ə. Sabir, R. Əfəndiyev, Ə Haqverdiyev, Ü. Hacıbəyov, A. Şaiq, A. Səhhət, S. M. Qənizadə, M. Mahmudbəyov kimi onlarla müəllimlər və yazıçılar bu işdə yaxından iştirak edirdilər. F.b.Köçərli də bu ziyalıların sırasında idi. O həm dərs deyir, həm dərsliklər və dərs vəsaitlərinin proqramlarını hazırlayır, eyni zamanda da dövrü mətbuatda fəaliyyət göstərirdi.

F.b.Köçərlini ancaq və ancaq yeni üsullu məktəblərin açılması məsələsi düşündürürdü. Yeni dərsliklərin yaradılmasında yaxından iştirak edən ədibin bu sahədə rolu çox böyükdür. Uşaq ədəbiyyatının zənginləşməsində və yayılmasında da görkəmli alimin xüsusi xidmətləri olmuşdur. O şifahi xalq ədəbiyyatının ən yaxşı nümunələrindən toplanıb hazırlanmış "Balalara hədiyyə"(1912) adlı dərs vəsaitini yeni pedaqoji prinsiplər əsasında tərtib etmişdir ki, bu da ziyalılar tərəfindən rəğbətlə qarşılanmışdır.

İbtidai təlim prosesində şagirdlərin ana dilində oxuyub, yazmaları, onların nitqlərinin inkişaf etdirilməsi məsələsi bir pedaqoq kimi Firidun bəyi daha çox maraqlandırırdı. O ana dilini bütün biliklərin açarı adlandırırdı. Rus pedaqolarının yaradıcılı-

ğı ilə yaxından tanış olan Köçərli onların təlim-təhsil prosesində irəli sürdükləri dəyərli fikirləri azərbaycanlı balalarının da təhsil sistemində istifadə olunmasını istəyirdi. O, görkəmli rus pedaqoqu Uşinskinin təlim metodikasından istifadə etməyi vacib sayırdı. Çünki, Uşinski də ana dili dərslərində izahlı oxunu məsləhət görürdü, bütün anlayışların ana dilindən başladığını qeyd edirdi. Uşinskiyə görə də ana dilində bütün xalq və onun vətəni canlanmış olur. Milliyyətindən asılı olmayaraq bu cür geniş dünyagörüşü olan ziyalılardan öyrənməyi və onların gözəl ideyalarını tətbiq etməyi Köçərli hava, su qədər gərəkli hesab edirdi.

Azərbaycan dilinin və ədəbiyyaının inkişaf etdirilməsi məsələsində Köçərlinin irəli sürdüyü fikirlər tədricən öz həllini tapmağa başladı. F.b.Köçərli Azərbaycan uşaq ədəbiyyatının inkişaf etdirilməsində ana dilini böyük rolu olacağını söyləyərək, bir sıra məsələlərindən bəhs edən məqalələr vasitəsi ilə dostlarına və ayrı-ayrı yazıçılara məktublar yazaraq, onları uşaq ədəbiyyatının inkişaf etdirilməsində ilk növbədə dilinin saflığı uğrunda mübarizə aparmağa çağırırdı.

Firidun bəy böyük mütəfəkkir filosof M.F.Axundovun yaradıcılığına verdiyi qiymət əsasən onun dil üslubunun saflığına, xəlqiliyinə görə olmasında idi. F.b.Köçərli bu cəhətə daha ciddi əhəmiyyət verir və Axundovun dilini müasirlərinə göstərərək, onları belə üslubda yazmağa dəvət edirdi. Axundovu Azərbaycan realizm məktəbinin banisi adlandıran Köçərli, böyük dramaturqun ədəbi irsindən bir meyar kimi istifadə edirdi.

O zaman mütərəqqi ziyalılar tərəfindən rəğbətlə qarşılanan "Ana dili" məqaləsində F.b.Köçərli yazırdı: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir... Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir". Ana dilinin saflığını həm tarixi dəlillər, həm də müasir həyati misallarla müdafiə edən tənqidçi qələm dostlarına, yazıçılara,





müəllimlərə çoxlu məktublar yazır, onlara əsərlərində ərəb, fars ibarələrindən uzaqlaşmağı məsləhət görürdü. (5.s.86).

Dilçi alim olan F.b.Köçərli ana dilinin qorunmasında uşaqlarla təbliğatın aparılmasını ən vacib məsələ hesab edirdi. Ədib gənc nəslin tərbiyəsində əxlaqi məsələlərə həmişə ictimai və mədəni inkişaf baxımından yanaşırdı. Kiçik yaşlarından hər bir uşaqda doğma dilinə məhəbbət oyatmaq, onları vətənə və xalqa məhəbbət ruhunda böyütmək, mədəni vərdişləri, müsbət əxlaq normalarını onlara aşılamağın lazım olduğunu vurğulayır, eyni zamanda bu dili qorumağ tövsiyə edirdi. Belə olan təqdir də hər bir fərd öz dilinə hörmətlə yanaşaraq onu qoruyacaqdır. Bax bu idi F.b.Köçərlinin ən ümdə arzusu, ən nəcib istəyi.

F.b.Köçərlinin yaradıcılığında xüsusi mövqe tutan "Molla Nəsrəddin" jurnalı ilə onun arasında qırılmaz tellər var idi. Maraqlı burasıdır ki, onun sənət, ədəbiyyat, ana dili, qadın azadlığına dair fikirləri bu jurnalda öz əksini tapırdı. O, "Molla Nəsrəddin"i əsl xalq jurnalı, həqiqət carçısı hesab edirdi (12.s.378).

F.b.Köçərli Azərbaycan dilin üslubuna, öyrənilməsinə, eləcə də inkişaf etməsində çox ciddi yanaşırdı. 1905-ci il inqilabından sonra başqa xalqlar kimi Azərbaycan xalqı da öz dilinin, mədəniyyətinin inkişafı və saflığı uğrunda inamla mübarizəyə başlayır. F.Köçərli də bu intibahı yüksək qiymətləndirərək yazırdı: "Dövri-intibahdan sonra türklərdə də başqa millətlərdə olduğu kimi bir hiss-milli, bir vicdani-milli doğub böyüməkdədir. Türklər də damarlarında əsl bir qanın axdığını duydular və xalis dillərinə rövnəq vermək fikrinə düşdülər və onu əcnəbi kəlmələrdən, əcnəbi tərkiblərindən, türk ruhilə əsal saziş etmiyən dəbdəbəli, gurultulu və biməzmun ibarələrdən qurtarıban ona öz rəngini, sifətini və sadəliyini qaytarmaq qəsdinə düşdülər. Milli dilin tərəfdarları gündən-günə artıb çoxalmaqdadırlar və onların himmətilə...milli cəridələr təb və nəşr olunmaqdadır"(10.s.40).

Daha sonra F. Köçərli görkəmli maarifçi xadim, Azərbaycan mətbuatının yaradıcısı Həsənbəy Zərdabi ilə pantürkist-panislamist Əlibəy Hüseynzadənin dil məsələlərinə fərqli baxışlarını izah edərkən göstərirdi ki, mərhum Həsənbəy həmişə Əlibəy Hüseynzadə ilə dil üstə "cəng-cidalda" olub, öz "Əkinçi"sini ona dəlil gətirirdi ki, ən çətin fənni və elmi məsələləri açıq və sadə dildə yazmaq mümkündür.

"Əkinçi"nin ənənələrini yaşatmaq və inkişaf etdirmək sahəsində F.Köçərli daha ardıcıl çalışırdı. Doxsanıncı illərdən başlayaraq ədəbiyyatşünas alim öz dövrünün ictimai-ədəbi fikrindən danışarkən "Əkinçi" və Zərdabini dönə-dönə yad edir, "ağır bir şəraitdə işləyən" bu qəzetin xidmətlərini vətənpərvərlik nümunəsi kimi qiymətləndirir, "canını millət yolunda fəda" etmiş "Əkinçi" redaktoruna tükənməz ehtiramını bildirirdi.

F.Köçərli bu fikirdə idi ki, "Əkinçi"nin gözəl sözləri və nəfli məlumatı indi də öz əhəmiyyətini itirməmişdir, onlar müəyyən bir sistem halına salınıb Azərbaycan dilində nəşr edilən dövri jurnallarda çap olunarsa, çox faydalı olar". Qəzetin dil sahəsindəki fəaliyyətinin parlaq nəticələrini xüsusi qeyd edən Köçərli bu barədə "Əkinçi"ni XX əsrin əvvəlində çıxan Azərbaycan dövri mətbuatına nümunə göstərirdi. O, H.Zərdabinin Ə.Hüseynzadə ilə dil üstündə mübahisə və mübarizəsini xatırladaraq hətta yazırdı ki, "dilimizi saxlamaq üçün "Əkinçi" kimi ruznamə çıxarmaq lazımdır".

1913-cü ildə öz jurnalında Köçərlinin "Ana dili" məqaləsini çap etməklə Məmmədquluzadə dil sahəsində "Əkinçi" ənənələrinə sadiq qaldığını və bu məsələdə Zərdabi, Köçərli və Haqverdiyevlə tam həmrəy olduğunu bir daha göstərmişdi(22.s.123).

F. Köçərli hətta Azərbaycan ədəbiyyatının və mətbuatının "bilicilərindən" fərqli olaraq Azərbaycan dilini, sadə xalq danışığını çox gözəl bilən, xalq məsələlərini yerli-yerində işlədən və





ona hörmət edən mərhum Çernyayevskinin fəaliyyətini yüksək qiymətləndirir və onu bu "millət vəkilləri" üçün nümunə göstərirdi(10.s.147).

Ana dilini həm tarixi dəlillərlə, həm də müasir həyati misallarla müdafiə edən tənqidçi qələm dostlarına, yazıçılara, müəllimlərə çoxlu məktublar yazır, onlara əsərlərində ərəb, fars ibarələrindən uzaqlaşmağı məsləhət görürdü. A. Şaiqə göndərdiyi bir məktubunda F.b.Köçərli ədəbi dilin mənbələri və inkişaf yolları, onun bu gün hələ kifayət qədər öyrənilmədiyi haqqında qiymətli fikirlər söyləmişdir: "Biz dilimizi bilmirik və bunun da təqsiri bizdədir, dilimizdə deyil. Fars və ərəbə meyl və rəğbətimiz o qədər olubdur ki, öz dilimizdə olan sözləri atıb əvəzinə əcnəbi dillərin qəliz ibarələrini götürmüşük. Bizim qəzetlərdə çap olunan məqalələr, teleqram, hətta elanlar o qədər dolaşıq və çətin dildə yazılır ki, oxuyanlar başa düşməyir və başa düşmədikləri halda qəzetə oxumaqdan rəğbətləri kəsilir"(5.s.86).

F.b.Köçərli bəzi hallarda dövrünün qabaqcıl, maarifpərvər ziyalıları ilə söhbətlərində öz fikrini izah edir və dilinin qorunması uğrunda yerli mübahisədən çəkinməyirdi. Bu çox vaxt bəzi insanların xoşuna getmədiyindən onun dediklərini hətta siyasətləşdirmə həddinə qədər gətirirdilər və haqqında mənfi rəy yaranmasına nail olurdular. Lakin vətənpərvər ədibi heç bir şey fikrindən daşındıra bilməyirdi.

F.Köçərlinin yaşadığı dövr çarizmin hökm sürdüyü ağır bir dövrə təsadüf etdiyi üçün bir tərəfdən savadsızlıq, digər tərəfdən ağır sosial durum Azərbaycanda çətin vəziyyətin yaranmasına səbəb olmuşdur. Belə olan vəziyyətdə qəzet, kitab, jurnal nəşr etdirmək və yaxud savadsızlığın aradan götürülməsi üçün məktəblərin açılmasını tələb etmək ağlagəlməz bir iş idi. Hər kəs sabaha necə çıxacağı ümidi ilə yaşayırdı. Lakin maarifpərvər və vətənpərvər ziyalılarımız bu cür çətin şəraitdə həm məktəblərin açılmasına, həm mətbuat orqanlarının nəşrinə əziyyətlə də olsa

nail ola bilirdilər. F.b.Köçərli məhz belə ziyalılardan idi.

XX əsr Azərbaycan romantizminin görkəmli nümayəndələrindən olan F.b.Köçərli müasirlərindən M. Hadi, H.Cavid, A. Səhhət, gənc C.Cabbarlı, A. Divanbəyoğlu, Ə. Cavad müxtəlif şəraitdə yaşayıb yaratsalar da, bir vətəndaş kimi yeni nəslin sabahına münasibətləri, baxışları eyni idi. Bu insanların hər biri Azərbaycan övladlarının gələcəyi üçün təhsilin, savadın, maarifin, məktəbin vacibliyini anlayaraq qələmləri ilə kəskin mübarizə aparır və eyni mövqedən çıxış edirdilər. Məsələn, M. Hadi, məktəbi təbliğ edən əsərlərində yeni üsullu məktəblərdən, orada təhsil alan şagirdlərin həyatından sevinc və fərəh hissi ilə danışırdı. O, şeirlərində mütərəqqi ideyaları təbliğ edərək, cəhalət və avamlıq dünyasına qarşı məktəbin rolunu yüksək dəyərləndirirdi. Eyni düşüncələrlə çıxış edən görkəmli pedaqoq F.b. Köçərli gənclərin təlim və tərbiyəsində məktəbin misilsiz rolunu qiymətləndirərək ana dilində dərsliklərin olmasına böyük ehtiyac duyulduğunu vurğulayırdı. Lakin, ilk növbədə dilimizə qarşı olan hücumları dəf etmək üçün çalışan Köçərli, bütün bunların bir-biri ilə əlaqəli olduğunu nəzərə çatdırırdı. Milli məfkurənin oyandığı bir zamanda bu məsələnin qaldırılması vacib olduğu qədər də çətin idi. Yeni fikirlərin meydan gəlməsi sözsüz ki, sosial vəziyyətdə dəyişiklik yaradacağı kimi, ədəbiyyatdan, mədəniyyətdən də təsirsiz ötüşməyəcəkdir. Bütün bunları nəzərə alan Firidun bəy dil məsələsini gündəmdə saxlyır, hər çıxışında Azərbaycan dilinin qorunması məsələsini qaldırırdı.

Ümumiyyətlə, dil məsələsi demək olar ki, o dövrün ən mühüm məsələlərindən birinə çevrilmişdir. F.b.Köçərlinin yaradıcılığında dil məsələsinin bu qədər önəmli olması heç də təsadüfi deyildir. Çünki bu dilin inkişaf etməsinə çalışanlarla bərabər, bu dilin aradan çıxmasına rəvac verənlər də var idi. Məlumdur ki, bu o dövrdə Azərbaycan dilinə qarşı edilər hücumların və pantürkizm-panislamizm kimi şovinist fikirlərin artdığı bir şəraitin tələbi idi. Təsadüfi deyildir ki, dil məsələsi üzərində ardıcıl mübarizə aparan "Molla Nəsrəddin" jurnalının redaktoru, böyük demokrat Cəlil Məmmədquluzadə də Firidun bəy Köçərli ilə eyni fikirdə idi. O da öz doğma dilinə ögey münasibət bəsləyənlərin bu məsələdə savadının azlığını misal göstərirdi.





Cəlil Məmmədquluzadə də Firidun bəy kimi ana dilinə, vətəninə, torpağına rəğbət bəsləyən ziyalılardan olub. 1902-ci ildə Məmmədquluzadəni "Kaspi" səhifəsinə gətirib çıxaran, görünür həmin rəğbət hissiindən irəli gəlib. Lakin, bu da yeganə səbəb deyildi. Burada əsas məsələ dil məsələsi idi.

On ildən artıqdır ki, azərbaycanlılar ana dilində qəzetdən məhrum idilər. Azadlıq hərəkatının yüksəlişi ilə əlaqədar olaraq, bu zaman bir çox Azərbaycan ziyalıları doğma mətbuata böyük ehtiyac olduğunu görüb, bir-birinin ardınca qəzet və jurnal icazəsi almağa təşəbbüs etmişdilər.Amma ucqarlarda qəddar müstəmləkəçilik və milli ayrı-seçkilik,təzyiq siyasəti yeridən çar hökuməti, imperiyanın digər yerlərində olduğu kimi, Azərbaycanda da milli mətbuatın inkişafına aman vermirdi(22.s.126).

Nəhayət ki, dil məsələsinin gündəm də olmasına nail olan ziyalılarımız, dil mövzusunda mətbuatda çıxışlarını artıraraq, mübarizələrini gücləndirdilər.

F.b.Köçərli Azərbaycan dilini korlayanlara qarşı həmişə mübarizədə "molla nəsrəddin"çilərlə eyni cəbhədə dayanmışdı. Gözəl, səlis və zəngin Azərbaycan dilinin mübarizəsində onların irəli sürdükləri ideyaları müdafiə edirdi. Milli mənsubiyyətini yüksək tutan ədib, milli dilinin müdafiəsini hər şeydən uca tuturdu. O, dil uğrunda apardığı mübarizədə yorulmadan çalışırdı. F.b.Köçərli millətinin cəhalətdə qalmağının, elmsizliyinin, savadsızlığının əsas səbəblərindən ən vacibi dililmizin özümüzə qaytarmağın, bu yolda əsaslı dönüş yaratmağın zamanı çatdığını, millətin maariflənməyə çox böyük ehtiyacı olduğunu söyləyirdi.

Köçərli belə bir inadkarlıqla Azərbaycan dilini fars, ərəb söz və ibarələrlə ağırlaşdırmağa çalışanları tənqid edirdi. O ədəbi dil ilə oxucu arasında sıxı əlaqə yaratmaq üçün onu mütləq sadələşdirmək, xalqa yaxınlaşdırmaq lazımdır. Buna görə də tənqidçi məqaləsini aşağıdakı çağırışla bitirirdi: "Millətini sevən, onun mənəvi diriliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən şairlərimizdən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, meymunluqdan əl çəksinlər, fikirlərini açıq və sadədildə yazsınlar-ta ki, onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın. Ancaq bu yolla yazan və oxuyanın arasında dostluq, ittifaq və birlik əmələ gələ bilər"(14.s.123. II hissə).

Köçərli həmişə müasir yazıçıları əsərlərində cəmiyyət üçün vacib olan məsələləri işıqlandırmağa dəvət edir, buna ciddi yanaşmağı onlara tövsiyə edirdi. Firidun bəyin fikrincə yazılarda reallıqa daha çox üstünlük verilməlidir. İnsan yaşadığı dövrün reallıqlarını daha tez anlayır və daha tez qavrayır. Bu cəhətdən də həyat təsviri sənətlə əlaqəli olmalıdır. Burada yazıçının xalq dili əsas rol oynayır.

Azərbaycan dilində yeni mətbuat orqanlarının meydana gəlməsi, nəşriyyat şirkətlərinin yaradılmasına F.b.Köçərli böyük ümid bəsləyirdi. Eyni zamanda bu ümid mühərrirliyə və tənqidə sönməz bir həvəs bəsləyən alimin ədəbi fəaliyyətinin genişlənməsinə, öz oxucuları ilə sıx əlaqə yaratmasına imkan verirdi. Artıq, Köçərlinin imzaları mətbuat səhifələrində tez-tez görünməyə başlayır.

Dövrünün elə məşhur maarif xadimi, elə yazıçısı yoxdur ki, Köçərli onunla yazışmasın, onunla məktublaşmasın. O, öz ədəbi fikirlərini dostlarına çatdırmaq və öz mülahizələrini yaymaq üçün yollar arayırdı. Başqa müasirləri kimi Köçərli də bəzi mətləbləri mətbuata çıxara və dərdlərini açıq söyləyə bilmədiyindən məktub vasitəsi ilə dostlarına yazır, məsləhətlər verir və məsləhətlər alırdı.





O 1912-ci ildə A. Şaiqə yazdığı məktubunda deyirdi: "Bizim bu əsri-şumda ağzını açıb iki kəlmə söz danışmağa da izn vermirlər...Görək bir vaxt olar, bizim də ağzımız açılar, dərdlərimizi açıq söyləyərik"(9.s.407).

Ədibin "Ana dili" adlı məqaləsi 1913-cü ildə nəşr olunmuşdur. Dilin tədrisi ilə bağlı F.b.Köçərli maraqlı bir müqayisə aparmışdı. Gürcü maarifçisi Yakov Semyonoviç Qoqebaşvilinin xatirəsinə həsr etdiyi məqalədə maraqlı bir mətləbə toxunurdu. Firidun bəy Qoqebaşvilinin öz xalqının maariflənməsi, ana dilinin tədrisi sahəsində fəaliyyətini yüksək qiymətləndirərək mövzunu Azərbaycanın təhsil problemlərinin üzərinə gətirdi: "Mərhum Qoqebaşvili xalq məktəblərində ana dilinin tədrisinə böyük əhəmiyyət vermiş və onu müdafiə etmək üçün bir sıra ciddi və əməli səciyyə daşıyan məqalə və kitabçalar yazmışdır. Qoqebaşvilinin kitablarının yerli əhali arasında on və yüz min nüsxələrlə yayılması da bununla izah olunur. Bu dərsliklər uşaq təbiətinin və dilinin sadəliyini çox az nəzərə alan Azərbaycan ibtidai məktəbləri üçün kitab tərtib edənlərə təqlid etməyə diqqətəlayiq nümunə ola bilər (11.s.34).

F.b.Köçərlinin yaradıcılığında və mətbuatda dərc olunan məqalələrində vətəninə, millətinə, onun adət ənənələrinə olan məhəbbətini görürük. Köçərlinin doğma dilinə məhəbbəti bu məhəbbətdən yaranmışdır. O, Azərbaycan dilinin dünya dillərindən heç də geri qalmadığını və zəngin olduğu qədər çox qədim olduğunu sübut etməyə çalışırdı. Azərbaycan dili bu dildə danışanların tarixi ilə daima əlaqədar olmuş və onların cəmiyyət quruluşlarında baş vermiş hər cür dəyişikliyi özünəməxsus bir halda əks etdirmişdir(6.s.16).

Azərbaycan ədəbi dilinin saflığı uğrunda mübarizə Köçərlinin realizm və demokratizm uğrunda apardığı mübarizənin bir hissəsini təşkil edirdi. Hələ ilk əsərlərində Vaqif,

Zakir, M.F.Axundovun "sadə, aydın xalq dilində" yazmalarını onların ən gözəl yaradıcılıq məziyyətlərindən biri kimi qiymətləndirən tənqidçi, sonralar bu məsələni öz ədəbi yaradıcılığının mərkəzi məsələlərindən biri hesab etmişdi. O realist yazıçının ən başlıca xüsusiyyətlərindən birini onun təmiz, saf xalq dilində yazmasında görürdü. Odur ki, XX əsrin əvvəllərində ədəbi və bədii dil məsələləri ətrafında ciddi mübahisələr getdiyi zaman, tənqidçinin özü dediyi kimi,"dil məsələsi məhəlli-müzakirəyə qoyulub, onun üstündə məclislərdə, qəzetə sütunlarında və jurnallarda bəhs olunduğu" vaxt Köçərli "Molla Nəsrəddin" jurnalı səhifələrində "Ana dili" məqaləsini çap etdirir və mübahisələrə düzgün istiqamət verir. Bu hökmlər Azərbaycan dilinin inkişafını öz zəmanəsindən, öz kökündən ayırıb, ona yanlış bir istiqamət verməyə çalışanlara qarşı aydın bir cavab idi. Köçərli "hər millətin özünə məxsus dili vardır, yazıçılar, mühərrirlər də bu dildə yazıb-yaratmalıdırlar" sözlərini hər çıxışında təkrarlayırdı..

Yusif Vəzir Çəmənzəminli "Dil məsələsi" məqaləsində ana dilinə, Azərbaycan dilinə məhəbbətinin ifadəsi olaraq "Molla Nəsrəddin" jurnalının mövqeyini və demokratik görüşlü müəllimi F.Köçərlinin mövqeyini müdafiə etmişdi(24.s.64).

Azərbaycan ədəbiyyatında maarifçi demokratlar cərəyanına məxsus məhdudiyyətlər Köçərlinin ədəbi görüşlərində aydın şəkildə özünü göstərirdi. O ədəbiyyatın ictimai səciyyə daşıdığını təsdiq edirdi. Köçərli ədəbiyyatı müasir həyat hadisələri ilə əks etdirməyə çağırırdı. Köçərli sənəti, sözü,dili "allah-taalanın vergisi" hesab edirdi.

Köçərli, bir tərəfdən M.P.Vaqif, Q.Zakir, N.Vəzirov, C. Məmmədquluzadə və M.Ə.Sabiri dövrün ən qabaqcıl ədəbi simaları kimi təqdir edir, proletar hərəkatının tərənnümçüsü M. Qorkini "Əllərində məşəl rusların məişətinə daxil olub, onun hər səmtinə və hər küncünə işıq salan" dahi rus ədiblərindən sayır, digər tərəfdən XX əsrin Qüdsi, Əlibəy Hüseynzadə kimi mürtə-





ce şair və mühərrirlərini dövrün "ən yaxşı ədəbi qüvvələri" adlandırır, burjua jurnalisti Ə.Ağayevin dini kitablarının nəşrini alqışlayırdı.(9.s.433).

Çünki Köçərli çox yaxşı başa düşürdü ki, Ə.Ağayev də onun kimi Azərbaycanın tərəqqisi naminə onun qadın azadlığı, qadın təhsili, dilinin qorunmasını arzu edir və ilk olaraq da əlifbasının islah olunması istəyir. Bütün bunları nəzərə alan Firidun bəy Ə.Ağayevin yazılarının bu yolda fəaliyyət göstərdiyini bilirdi.

Ə.Ağayevin əlifba məsələsinə münasibətini hələ 1901-ci ildə açıq-aydın göstərmişdi: "müsəlmanların qurtulması, onların mənəvi, maddi, hətta siyasi yüksəlişi yalnız iki məsələnin çözümünə bağlıdır:qadın məsələsi və əlifbanın islahı.Qadın problemi və əlifba budur islm aləminin iki həqiqi düşməni, onun bu vaxta qədər müalicə olunmayan iki xəstəliyi, hansılar ki, bu aləmi yavaş-yavaş məhvə doğru aparır"(20. s.142).

XX əsrin ilk illərində, 1905-ci ildən sonra ədəbiyyatda dil problemi ən çox müzakirə olunan məsələlərdən idi. O dövrün demokratik yazıçı və publisistləri bu mövzunu mətbuatda işıqlandırılmasına səy göstərirdilər. Dil uğrunda mübarizə aparan ziyalılarımız müxtəlif mətbuat orqanlarında istifadə etdilkəri "ana dili", "türk dili", "vətən dili", " Azərbaycan türkcəsi"kimi sözlərini işlətsələr də yalnız Azərbaycan dilini nəzərdə tuturdular.

Köçərli çox doğru olaraq XIX əsrin 40-cı illərindən Azərbaycan ədəbiyyatında yeni bir ədəbi mərhələnin başlandığını qeyd edirdi. O, bu mərhələni Q.Zakirin və M.F.Axundovun adı ilə bağlayaraq yazır: "40-cı illərdən başlayaraq, Azərbaycan şairlərinin əsərlərində əvvəlki erotik ifrat sentimental keyfiyyətlərdən xeyli fərqlənən yeni bir cərəyan müşahidə olunur. Bu yeni cərəyanın ən görkəmli nümayəndəsi "Zakir" təxəllüsü ilə yazan Xınzırıstanlı Qasımbəy idi...yeni cərəyana xidmət edənlər

içərisində Zakirlə birlikdə ...məşhur dramaturq M.F.Axundov da var idi. Köçərli bu şairlərin əsərlərini "həqiqət carçısı" adlandırırdı və bu əsərlərin xalqın dilinə, ruhuna yaxın olduğunu qeyd edirdi.

Köçərli həyatı doğru-dürüst əks etdirməyi, ondakı qüsurları cəsarətlə tənqidə tutmağı, insan xarakterlərinin təsvirinə geniş yer verməyi "yeni cərəyanın"- başqa sözlə realizm ədəbi məktəbinin ən səciyyəvi əlamətləri hesab edirdi(9.s.436).

Əslində dil uğrunda mübarizə aparan ziyalılarımızın əksəriyyətinin fikirləri üst-üstə düşürdü. Çarizmin ağır rejimi hər kəsə bəlli idi. Azərbaycan dilinin sıradan bir dil olduğunu sübut etməyə çalışan və azərbaycanlıları isə kiçik etnik qrup kimi təbliğ etməyə səy göstərən, bu səbəbdən də dilimizin sıxışdırılaraq aradan çıxarılmasına çalışan qüvvələr var idi ki, onlar bunu yaşadıqları dövrün tələbi kimi qələmə vermək istəyirdilər. Lakin Köçərli və onun simasında millətinə, vətəninə bağlı olan şəxsiyyətlər çarizmin dil siyasəti aydın başa düşürdülər.

Firidun bəy çox gözəl anlayırdı ki, çarizm təkcə azərbaycanlıları deyil, Rusiya ərazisindəki bütün milli dilləri bir bəhanə ilə tədricən sıxışdırıb aradan çıxarmaq siyasətini yürüdürdü. Belə olan vəziyyətdə bəzi müasirlərinin dil məsələsinə laqeyd münasibəti ilə Köçərli heç cür barışa bilmirdi.

Demokratlar dili milləti yaşadan əsas əlamətlərdən hesab edir və bu fikri təkrar-təkrar yazırdılar. Onlar ədəbi dili xalq kütlələrinin anlaya biləcəyi şəklə salmağı, dili sadələşdirməyi, onu yad təsirlərdən qorumağı məsləhət görürdülər. Köçərli bu fikirdə olan insanların düşüncə və əqidələrini dəstəkləyirdi. M. Mahmudbəyov deyirdi: "Özgə dillərin qanunları üzrə düzəlmiş dil də yoxdur. Bu, təbiətin ziddi olan şeydir. Təbiətin ziddi olan şey də çox yaşamaz!"(9.s.306). Bu həqiqətən də bir qanun misalındadır.





Abdulla Şaiq "Dilimiz və ədəbiyyatımız" adlı məqaləsində Azərbaycan ədəbi dilini doğru istiqamətdə inkişaf etdirmək üçün şifahi xalq ədəbiyyatından geniş şəkildə istifadə etməyə çağırırdı. Bunun üçün F.b.Köçərlinin "Balalara hədiyyə" əsərini oxumağı tövsiyə edirdi. Dil uğrunda mübarizəyə qalxan ziyalılarımız mətbuat oranlarında açıq mübarizə aparırdılar. Firidun bəyin dil məsələlərinə bu qədər ciddi yanaşması təsadüfi xarakter daşımayırdı. O, gələcək üçün bəslədiyi ideyalarının gerçəkləşməsi naminə xalqının dilinə hörmət etməsini arzulayırdı. Millətinin başqa millətlədən geridə qalmaması üçün ilk növbədə doğma ana dilini unutmamağı vacib hesab edirdi.

F.b.Köçərli müasirləri olan bəzi yazıçılara dilin sadəliyinə ciddi yanaşmağı məsləhət görərək, onlara "Molla Nəsrəddin" jurnalının yolu ilə getməyi tövsiyə edirdi. O hətta dilimizi qoruyub saxlamaq üçün "Əkinçi" kimi bir mətbuat orqnını çıxarmağın lazım olduğunu vurğulayırdı. Köçərli ana dilinə yüksək dəyər verərək dili millətin mənəvi dirəyi adlandırırdı. Ədiblərimizi və şairlərimizi doğma ana dilindən uzaqlaşmamağa səsləyirdi. Firidun bəy dilimizin tam öyrənilməməsinin günahını özümüzdə görürdü və daha sonra bizim öz dilimizi yetərincə bilməməyimizi səbəb göstərirdi. Bundan başqa Köçərli qeyd edirdi ki, bizim qeyri millətlərin dilinə meyl göstərməyimiz və yabançı sözləri dilimizə gətirməyimiz sonunda öz dilimizdən uzaq düşməyimizə səbəb olur. Həyatla sənətin əlaqəsi problemindən danışarkən, bir tərəfdən materialist estetikanın bəzi müddəalarını irəli sürür, digər tərəfdən: "həyat allah-taalanın ətiyəsidir" tezisindən çıxış edərək sənəti, sözü, dili "allah-talanın vergisi" hesab edirdi.

F.b.Köçərli Azərbaycan ədəbi dilinin inkişafı məsələsində geri çəkilmədən ciddi mübarizə aparırdı. Onunla həmfikir olan müasirləri camaatın başa düşmədiyi, anlamadığı bir dildə

yazanları xalqın inkişafına mane olduqlarını, öz şəxsi mənfelərini xalqın mənafeyindən yüksək tutduqlarını iddia edirdilər və Azərbaycan dilinin zəngin söz ehtiyatına, incə, lətafətli və axıcı olmağına görə onu dünya dilləri içərisində ən gözəl dillərdən hesab edirdilər. Köçərlinin dil haqqında fikirləri bir çox mərhələlər keçərək, nəhayət ki, XX əsrin onuncu illərində inkişafa doğru irəliləməyə başlayır.

Köçərlinin narahat edən bu idi ki, XX əsrdə ortaya çıxan bir qrup yazıçı və mühərrir bu ənənəni pozur, "dilimizəxələl gətirir", "qəliz ibarələr atına minib ədəbiyyat meydanında cövlan" edirdılər.(17.s. 497)

Dil ünsiyyət vasitəsi olaraq insan fəaliyyətinin bütün sahələrində ona lazımdır. Azərbaycan dili tarixini gözəl bilən F.b.Köçərli Azərbaycan ədəbiyyatının tarixi haqqında materialları toplamağı qarşısına məqsəd qoymaqla, klassik yazıçıların qəzəllərində Azərbaycan dilinin zənginliyini və qədimliyini göstərməyə çalışmışdır.

Öz dövrünün dilçi alimi hesab edilən dahi klassikimiz Məhəmməd Füzulinin(1496-1556) yaradıcılığına məxsusi rəğbət bəsləyən F.b.Köçərli onu nəinki özü üçün, bütün Azərbaycan xalqı üçün örnək hesab edirdi. M.Füzuli bir qəlb şairi kimi şöhrət qazanmış, onun qəzəllərində məhəbbətin doğurduğu müxtəlif ruhi hallar, sevinc və kədərlər, nəcib və ülvi duyğular öz ifadəsini tapmışdır. Füzuli yaradıcılığında insanın insana məhəbbəti ilahi səviyyəyə, ilahi eşq fəlsəfi-estetik mərələyə qaldırıldı(16.s.60).

M. Füzuli kamil bir şəxsiyyət olaraq dövrünün fəlsəfəsini, elmini və dilini mükəmməl bilirdi. M.Füzuli Azərbaycan şeirinin dilini elə bir hörmətli mövqeyə qaldırmışdır ki, ondan sonra gələn şairlər bu dildə yazmağı şərəf hesab edirdilər. Füzuli üç dildə: Azərbaycan, fars və ərəb dillərində mükəmməl yazırdı. Lakin Azərbaycan ədəbiyyatı üçün Füzulinin ən böyük əhəmiyyəti öz ana dilində yüksək sənət əsərləri yaratmasıdır(15.s.20). F.b.Köçərli Azərbaycan klassikləri haqqında araşdırmalar aparırkən dahi Füzulinin milli xüsusiyyətlərini üzə çıxararaq, ona dərin məhəbbət və hörmət bəsləmişdir. Bu xüsusiyyətlərinə görə Füzuli əsrlərdən bəri bütün dövrlərdə həm sevilib və həm də yetərincə tədqiq olunub.





Poetik dil tarixinə tənqidi yanaşan A. Sur Füzuli dühasının milli poeziyada yeni istiqamət yaratdığını deyir, şairin ərəb, fars və doğma dildən istifadə məharətini nümunə göstərirdi. Şairin bu üç xalqın tarixi keçmişi, dil incəlikləri və ədəbi-mədəni fikrinə müstəqil elmi baxışını yüksək qiymətləndirən A.Sur "zəmzəmi-ərəb ilə gülabi-farsın imtizasından həzinəngiz, riqqətəfşan bir fəvvareyi-ğəram-alud fışqırmağa başladı ki, "Şeyx-üş-şüəra" gənc Füzuli iştə o fəvvareyi-ədəbiyyə idi" deyərək fikrini əsaslandırmağa çalışır, eyni zamanda həmin ədəbiyyat fəvvarəsinin tükənməz mənbəyi olan ana dilinin əhəmiyyətini xüsusi qeyd edirdi.

Füzili haqqında yazan F. Köçərli, S. Hüseyn, A. Şaiq, Ə.Əkbərov, Ə. Fəhmi, M. Vaizadə, müəllim Abbasqulu və digər müəlliflər də A.Surun fikrini təsdiq edərkən onun "türkcə(Azərbaycan-Ş.V) dediyi şeirlərinin misli" olmadığını, "şeirlərin gözəl olduğu üçün sonra gələn şairlərdən çoxu ona təqlid yazdı"ğını deyirdilər(14.s.99. I hissə).

F.b. Köçərlinin M. Füzuli yaradıcılığına bəslədiyi ülvü sevgisi onun, Azərbaycan ədəbi dilinin klassik şeir qolunu-klassik şeir üslubunu yüksək zirvəyə qaldırmaq kimi şərəfli bir işi öhdəsinə götürməsinə və F.b.Köçərlinin Füzuli yaradıcılığına müraciət etməsinə səbəb olmuşdur. Köçərlinin sözlərinə görə böyük ədiblərin yazısı həmişə belə açıq və sadə olur. Mirzə Fətəli Axundovun, Qasım bəy Zakirin, Həsən bəy Məlikzadənin asari-qələmiyyələri bizim qovlümüzə şahiddir. Rus şüəra ədib-

lərindən ən məşhurları: Puşkin, Nekrasov, Turgenyev, Tolstoy və Çexov öz əsərlərini belə açıq sadə və rəvan dildə yazıblar" deyən müəllif dərsliklərlə yanaşı bədii əsərlərin sadə bir dildə yazılmasını lazım bilirdi(4.s.54).

Klassik türkdilli şeirin ilk mərhələsi farsdilli şeirin geniş vüsət tapmış dövrünə yəni, XIV-XV əsrlərə təsadüf etmişdir. Bu dövr elə bir dövr idi ki, əruz vəznində yazılmış əsərlər daha çox üstünlük təşkil edirdi. Bu vəzndə yazılmış əsərlər az zaman içərisində yüksək, ali şeir səviyyəsinə yiyələnmək kimi sanki qanuniləşmişdir.

F.b.Köçərlinin bu cür klassik əsərlərə müraciət etməsi onun ədəbiyyat tariximizi dərindən öyrənmək marağını üzə çıxarmışdır. Firidun bəy Köçərli haqqlı olaraq dilin insan həyatında əsas faktor olduğunu, millətin bir millət kimi tanınmasında dilin mühüm vasitə olduğunu və millətə verilən qiymətin onun dilinə etdiyi hörməti ilə bağlılığını sübut etməyə çalışmışdır. Daim xalq üçün çalışan, millət üçün zəhmət çəkən görkəmli ədəbiyyatşünas alimin və onun müasirlərinin onilliklər öncəsi qaldırdıqları və uğrunda mübarizə apardıqları dil məsələsi bu günün də aktual məsələsi olaraq gündəmdədir. Bu gün müasir ədəbiyyatımızın səhifələrində Firidun bəy Köçərlinin arzuladığı ədəbi dil təşəkkül taparaq inkişaf etməkdədir.

Firidun bəy Köçərlinin yaradıcılığının hər bir səhifəsində onun ədəbiyyata olan vurğunluğu, dilimizə olan sevgisi hiss olunur. Zamanında F.b.Köçərli və onun timsalında olan ziyalılarımızın zəhməti sayəsində bu gün Azərbaycan dili qorunaraq, müstəqil dövlət dili kimi tərəqqiyə çatmışdır. Köçərli yaşadığı mühitin elə bir sahəsi yox idi ki, onunla maraqlanmasın və onun diqqətindən kənarda qalsın. Vətən, millət mücahidi olan Azərbaycan ədəbiyyatının görkəmli ədibi və tənqidşünas alimi Firidun bəy Köçərli elə bu sevgisi ilə də əbədiyyətə qovuşmuşdur.





## ƏDƏBİYYAT:


1. "XX əsr Azərbaycan ədəbiyyatı məsələləri" . Bakı, 1979. 260 s.
2. "Qasım bəy Zakir". Bakı, 1985.
3. F. S. Qasımzadə: "XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqlər" Bakı, 1960.
4. "Kitabxanaşünaslıq və biblioqrafiya seriyası",. № 2. Bakı, 1973. 76.s.
5. Q. Namazov: "Azərbaycan uşaq ədəbiyyatı". Bakı, 1984. 332. s.
6. Ə. Dəmirçizadə: "Azərbaycan dilinin tarixi". I hissə. Bakı, 1979.
7. Ə. Dadaşzadə: "XVIII əsr Azərbaycan lirikası", Bakı, 1980.
8. İ. Zəkiyev: "Azərbaycan kitabının inkişaf yolu ". Bakı, 2000. 388.s.
9. K.Talıbzadə: "XX əsr Azərbaycan tənqidi". Bakı, 1966, 536.s.
10. İ.Bektaşi: "Firidunbəy Köçərlinin yaradıcılıq yolu". Bakı, 1986. 183.s.
11. Respublika Elmi Konfransının materialları. Bakı, 2013, 262.s.
12. Mir Cəlal; F.C.Hüseynov: "XX əsr Azərbaycan ədəbiyyatı",Bakı.1974. 390.s.
13. Məmməd Cəfər: "Həmişə bizimlə". Bakı,1980. 361.s.
14. Ş.Vəliyev: Azərbaycan ədəbiyyatı və mətbuatından araşdırmalar". II hissə, Bakı, 2011. 542.s.
15. M.Arif: "Azərbaycan xalqının ədəbiyyatı". Bakı, 1958.83.s.
16. A.Bayramoğlu: "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki". Bakı, 2013.199.s.

17. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1960. II cild.906.s.

18. "Kaspi" qəzeti. 2014. №179. 30 oktyabr.

19. Ə.Seyidov: "Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən".Bakı,1958. 309.s.

20..Osmanqızı: "Əhmədbəy Ağaoğlunun publisistikası". Bakı, 2012. 402.s.

21. A.H.Feyzullayeva: "Maarif carçıları". Bakı, 1988. 100.s.

22. Ə. Mirəhmədov: Azərbaycan Molla Nəsrəddini", Bakı.1980. 430.s.

23. S.Hüseynov : "Seyid Əzim Şirvaninin yaradıcılıq yolu", Bakı.1977. 218 s.

24. K.Məmmədov: "Yusif Vəzir Çəmənzəminli", Bakı.1981. 263 s.
















QAZAX
SEMINARIYASI
1918-1959
VƏ FƏALİYYƏT
GÖSTƏRMİŞDİR







# FİRİDUN BƏY KÖÇƏRLİ VƏ AZƏRBAYCAN FOLKLORU

Azərbaycan xalqının ədəbiyyat tarixi bütün xalqlarda olduğu kimi şifahi xalq ədəbiyyatından başlanır. Məlumdur ki, şifahi ədəbiyyat xalq hikmətindən və xalq yaradıcılığından yaranmışdır. Xalq ədəbiyyatının müxtəlif sahələri vardır ki, onlardan biri də folklor janrıdır. Folklor janrı qədər xalq içərisində yayılmış ikinci bir ədəbi janr demək olar ki, yoxdur. Çünki folklor janrında laylaların, oxşamaların, bayatıların, atalar sözlərinin, nağıl və tapmacaların mühüm yer alması bunun əyani sübutudur. Bədii söz sənətinin bu sahəsinə müxtəlif zamanlarda xalq ədəbiyyatı, el ədəbiyyatı, ağız ədəbiyyatı və nəhayət folklor deyilmişdir. Folklorun müxtəlif növlərinin, janrlarının tədqiqi ilə məşğul olan elmə də folkloristika, yaxud folklorşünaslıq deyilir(1.s.5).

Azərbaycan ədəbiyyatında folklor janrı ilə məşğul olan alimlərdən biri də görkəmli ədəbiyyatşünas və tənqidçi Firidun bəy Köçərli olmuşdur. F.b.Köçərlini Azərbaycan ədəbiyyatının ilk folklorşünası da adlandırırlar(1.s.49).

M. F. Axundov yaradıcılığından bəhrələnən F.b.Köçərli öz yaradıcılığının bir hissəsini məhz folklorşünaslığa həsr etmişdir. O, Azərbaycanın adət-ənənələrinə, xüsusilə də folkloruna çox ciddi yanaşırdı. Folklorşünaslıqla məşğul olan alimin yaradıcılığını izləyərkən, onun folklora yaxın olan qədim adət-ənənələrə toxunan tərcümə əsərlərinin olduğunu görürük.

Azərbaycan xalqının əsrlərdən bəri yaratdığı zəngin folklor nümunələri ağızdan-ağıza, nəsildən-nəslə keçərək bu günümüzə qədər gəlib çıxmış və hafizələrdə yaşamışdır. Azərbaycanın

şifahi xalq ədəbiyyatında dastanlar, nağıllar, tapmacalar, atalar sözlər, lətifələr, qoşmalar, bayatılar və s. olmuşdur ki, bu da folklorun bir qolu adlanır. Şifahi xalq ədəbiyyatının əsas janrlarından sayılan folklor janrı çox qədim və zəngin olduğu qədər həm də Azərbaycanın ədəbiyyat tarixinin öyrənilməsində ən mühüm bazadır. Xalqın maddi sərvəti olan şifahi xalq ədəbiyyatı Azərbaycanın ədəbiyyatı tarixinin bu gün də yaşanmasında əsas mənbədir. Xalq təkcə maddi sərvətlərin yaradıcısı və qurucusu deyil, eləcə də mənəvi sərvətlərin yaradıcısıdır(5.s.9).

Akademik Bəkir Nəbiyevin F.b.Köçərlinin həyat və yaradıcılığına həsr etdiyi monoqrafiyasında görkəmli alimin həyatı, yaradıcılığı və əmək fəaliyyəti haqqında çox geniş və ətraflı məlumat verilmişdir. Bu kitabda F.b.Köçərlinin "Materiallar" adlı kitabından sitatlar gətirilmiş və Köçərlinin folklorla bağlı yaradıcılığından bəhs edilmişdir. Azərbaycan folklorşünaslığındakı mövqeyindən danışan akademik B. Nəbiyev F.b.Köçərlinin işini yüksək dəyərləndirmişdir. O "el ədəbiyyatı" adlandırdığı bu qisim ədəbiyyatdan bəhs edərkən folkloru nəzərdə tutmuşdur(2.s.117).

Folklor mənşəyi və tarixi etibarı ilə bütün janrlardan daha qədim janr hesab olunur. Folklor geniş xalq kütlələrinin şifahi yaradıcılığının məhsuludur. Məlumdur ki, folklor hələ yazının olmadığı zamanlarda, ibtidai cəmiyyət dövründə kollektiv əməyin məhsulu olaraq, əməkçi xalqın öz istək və arzularının özü yaratdığı sənət nümunəsi kimi meydana çıxmışdır. Buna görə də "folklor" sözü geniş məna kəsb edərək, şifahi xalq yaradıcılığının bütün sahələrini əhatə edir. Şifahi xalq ədəbiyyatı adlandırılan folklor əsrlər keçdikcə yazılı ədəbiyyata təsir edərək, bu günümüzə qədər gələ bilmişdir. Görkəmli ədəbiyyatşünas alim Firidun bəy Köçərli yaradıcılığının bir hissəsini folklor araşdırmalarına həsr edərək, Azərbaycanın klassikləri haqqında, eyni zamanda uşaq folklorunun toplanmasına həsr etmişdir. Əbəs





yerə deyildir ki, Firidun bəyi Azərbaycan ədəbiyyatının folklorşünası da adlandırırdılar.

F.b.Köçərlinin Azərbaycan ədəbiyyatına göstərdiyi misilsiz xidmətlərindən biri onun "Azərbaycan ədəbiyyatı tarixi" əsəri olubdur. Ədəbiyyatşünaslarımızın əsas istinad mənbəyi olan bu əsər gec nəşr edilsə də, mədəniyyət tariximizin ən dəyərli əsəri hesab edilir.

1925-ci ildə nəşr olunmuş "Azərbaycan ədəbiyyatı tarixi"-nin "Bir iki söz" adlı müqəddiməsində belə bir əsərin indiyə kimi çap olunmaması maarif və mədəniyyətimiz üçün böyük nöqsan sayılırdı. Həm də bu nöqsanın aradan qaldırılması üçün illər uzunu böyük zəhmət çəkən Firidunbəy Köçərlinin xidmətləri xüsusilə qeyd edilirdi.(11.s.18).

"Azərbaycan ədəbiyyatı tarixi" əsəri nəinki ədəbiyyatşünaslığın, eləcə də etnoqrafiyamızın diqqət mərkəzində duran əsərdir.

Təsadüfi deyildir ki, klassiklərin yaradıcılığını birbaşa folklorla əlaqələndirirlər. Çünki klassikamızın özü başdan-ayağa folklor nümunələrindən ibarətdir. Dahi şairlərin əsərlərinin dildən-dilə düşməsi, bu günümüzə gəlib çatması folklorun məlum olmayan cəhətlərinin üzə çıxmasında böyük əhəmiyyət kəsb edir.

Yer üzündə şifahi ədəbiyyatı olmayan heç bir xalq yoxdur. Məlum olduğu üzrə, folklor hələ yazının olmadığı zamanlar, ibtidai cəmiyyət dövründə kollektiv əməyin məhsulu kimi meydana çıxmışdır.

Ədəbiyyatımızın inkişafında böyük zəhməti olan Firidun bəy Köçərli əsl ədəbiyyatşünas alim idi. O, pedaqoji fəaliyyəti ilə bərabər qədim janr hesab edilən folklorun araşdırılmasında, ana dilinin saflığı və ədəbi dilə çevrilməsi uğrunda aparılan mübarizədə, xalqın maariflənməsi və təhsilə cəlb edilməsində çox böyük işlər görmüşdür. "Folklor" sözü geniş mənada xalq yara-

dıcılığının məhsuludur. Məlumdur ki, bu sözün hərfi tərcüməsi xalq müdrikliyi, xalq hikməti, xalq bilicisi deməkdir.

Bizim Azərbaycan xalqının da çox zəngin ədəbi, bədii irsi vardır. F.b.Köçərli ağızdan-ağıza ötürülən və xalq ədəbiyyatı, el ədəbiyyatı, şifahi ədəbiyyat və nəhayət folklor adlandırılan bu janrın üzə çıxarılmasında çox böyük zəhmət çəkmişdir. Bu milli sərvətin itib-batmaması üçün çəkilən zəhmət isə daha dəyərli hesab edilir.

Çox qədim zamanlarda ayrı-ayrı adamlar tərəfindən yaradılan şifahi xalq ədəbiyyatını dəqiq və sabit mətn kimi qəbul etmək olmur. Çünki, müəllifi məlum olmayan bu nümunələr əsrlər, illər keçdikcə müxtəlif əlavələrlə, yeniləşmələrlə dövrümüzə gəlib çıxıbdır. Hər şeydən əvvəl folklor söz sənətidir. Firidun bəy Köçərlini bəlkə də folklor araşdırmaları ilə məşğul olmasına onun ədəbiyyatda sözə, dilə önəm verməsi səbəb olubdur.

Akademik M.Arif yazır ki, "Herodot, Strabon, Arian, Ptolemey kimi yunan və roma alimləri qədim Azərbaycanın dövlət quruluşu, şəhərləri, iqtisadiyyatı, bu ölkədə yaşayan xalqların dilləri, mədəniyyətləri, əfsanələri və nağılları haqqında qiymətli məlumatlar verirlər"..Həsənoğlu qəzəlinin bir dildə yazıldığını, dilinin isə çox məhsuldar və dərin köklərə malik dil olduğunu söyləyən müəllif qeyd edir ki, "xalq ərəb və fars dilləri ilə yanaşı nəğmə, nağıl, bayatı, atalar sözü kimi şifahi xalq yaradıcılığı növlərinin bədii ifadə vasitəsi olan Azərbaycan dilindən də istifadə edirdi ki, bununla da yazılı ədəbiyyata keçmək üçün zəmin hazırlanırdı".

Folklorun müxtəlif nümunələri vardır ki, onlar da əsasən müxtəlif dövrlərdə yaşayan insanların əhval-ruhiyyəsini, əməkçi kütlələrin vəziyyətini, həsrət, vüsal, faciə kimi insanın həyatında rol oynayan anların sinədən gələrək beyinlərə həkk edilmiş bayatı, oxşama, atalar sözləri və s. nümunələridir. Sadə və yığcam dili olan bayatılar, laylalar insan ruhuna yaxın ahənglə səslənir.





Məsələn:

*Əzizim sarayından,*
*Xan gəlir sarayından.*
*Gündə bir kərpic düşür,*
*Ömrümün sarayından.*

və yaxud

*Əziziyəm gül əllər,*
*Ağ biləklər, gül əllər.*
*Dəryaca ağlın olsa,*
*Yoxsul olsan gülələr.*

–kimi bayatı nümunələrində o qədər dərin mənalı sözlər vardır ki, bu cür misraları oxuyarkən onun açıqlamasında keçmiş həyatdan olan şikayət və narazılıqları, yaxud əksinə sevinc və fəhəhi anlamaq olur.

F.b. Köçərlinin folklora münasibəti məsələsindən bəhs edərkən bir cəhəti xüsusi qeyd etmək lazımdır. Belə ki, o, folklora münasibətdə yalnız ayrı-ayrı janrların mahiyyətini, funksiyasını göstərmək, onların ifadə formalarını qeyd etməklə kifayətlənməmişdir. Eyni zamanda, folklor nümunələrinin janr xüsusiyyətləri, növləri və ifadə formaları haqqında da maraqlı fikirlər söyləmişdir. Məsələn, nağıllardan bəhs edərək onların nəzm və nəsrlə yarandığını, fantastik, əfsanəvi formalara malik olduğunu, bu tipli əsərlərin təmsillərlə yaxından səsləşdiyini göstərmiş, əsasən düzgün nəticələrə gəlmişdir(12.s.3).

Azərbaycan ədəbiyyatı ilə yaxından məşğul olan F.b.Köçərli, ədəbi fəaliyyətə əsasən tənqidçi kimi başlamış, lakin ədəbiyyata vurğunluğu onun Azərbaycanın folklor janrına müraciət etməsinə gətirib çıxarmışdır. Köçərlinin folkloru də-

rin məhəbbətlə sevməsi onun qeyri millətlərin folklorunu da öyrənməyinə maraq oyatmışdır. Firidun bəy Köçərli üçün folklor nə demək idi? Köçərlinin folklorun dərinliklərinə varmaqda məqsədi nə olmuşdur?

F.b. Köçərlinin tədqiqatı ilə məşğul olan alimlərin əsərlərinə nəzər yetirdikdə Köçərli yaradıcılığının bütün sahələri haqqında geniş məlumat əldə etmək mümkündür. Ən maraqlısı budur ki, Köçərlinin məşğul oduğu sahələrin heç birində onun səthi fəaliyyətini görmək olmur. O, gördüyü işə vicdanla yanaşaraq can yandırır, millətin xeyrinə, gələcəyi naminə gördüyü işi həyata keçirməyə çalışırdı. Firidun bəy bu səbəbdən də Azərbaycan xalqının soyu, kökü olan folklorunu araşdırılaraq toplanmasında belə həvəslə çalışmış və yüksək nailiyyət əldə etmişdir. Nahaq deməmişlər ki, "keçmişini bilməyənin gələcəyi olmaz". Folklora bu tərəfdən yanaşan görkəmli alim sübut etməyə çalışırdı ki, biz çox qədim xalqlardanıq, bizim keçmişimiz var, hətta ilk yaranan xalqlarıq, bu da bizim kökümüzün göstəricisidir..

F.b.Köçərlinin ədəbi fəaliyyətə başlaması ilə sanki Azərbaycan ədəbiyyatının tənqidi tarixində yeni bir dövr başlamışdır. Köçərlinin yaradıcılığını araşdırarkən, onun kökümüzə çox bağlı olduğu, bu səbəbdən Azərbaycan ədəbiyyatının hər bir sahəsinə maraq göstərdiyi məlum olur. Etnoqrafik araşdırmalar Köçərlinin yaradıcılığının mərkəzində dayanır.

Görkəmli ədibin araşdırmalarına qədər Azərbaycan klassiklərinin əsərlərinin tədqiqi ilə demək olar ki, məşğul olunmayıb. İlk olaraq F.b.Köçərli klassiklərin əsərlərinə istinad edir, onların həyat və yaradıcılığının araşdırır və onların bir çoxu haqqında ayrıca məqalələr dərc etdirir. Bu onun dahi sənətkarlara verdiyi dəyərli qiymətinin təzahürüdür. Mənbələrə istinadən demək olur ki, F.b.Köçərlinin yaradıcılığı geniş sahəli olmuşdur. O, bədiilik, sənətin mənbəyi kimi məsələlərin izahında bəzən





ziddiyyətli, birtərəfli fikirlər də yürüdür, bəzən sənətin mənbəyi hesab edilən həyatı arxa plana çəkərək, hissiyyata üstünlük verirdi.

Firidun bəy Köçərli izah etməyə çalışırdı ki, folklor hər şeydən qabaq söz sənətidir. Folklorla yazılı ədəbiyyat arasında onları bir-birindən ayıran gəti bir hüdud yoxdur. Onların bir-birinə təsiri qarşılıqlıdır.Lakin folklorun daha qədim olduğu aydındır. Firidun bəy və onun müasirləri folklorun araşdırılaraq toplanmasında, Azərbaycanın və azərbaycanlıların daha qədim ölkə, olduğunu göstərməyə çalışırdılar. Tədricən ağızda söylənilən sözlərin dildən-dilə düşərək folklora çevrilməsi bunu təsdiqləyən vasitələrdəndir.

F.b.Köçərli ədəbiyyat tarixini yaratmaq işinə çox ciddi yanaşmış, tələb olunan bir sıra prinsiplərə doğru əməl etmişdir. Onun bu mövqeyinə tənqidi yanaşanlar da olurdu. Bəzi yazarlar onun "Azərbaycan türklərinin ədəbiyyatı" adlı əsərini ədəbiyyat tarixi kimi zəif və nöqsanlı yazıldığını irad tuturdular və Azərbaycan ədəbiyyatının bütöv bir şəkildə, xronoloji qaydada ardıcıllıqla verilmədiyini qeyd edirdilər. Hətta, "Azərbaycan türklərinin ədəbiyyatı" adlı kitabını "material" adlandıranlar, sonralar böyük səhvə yol verdiklərini başa düşmüşdülər.

Köçərli Vaqif, Vidadi, Zakir, Seyid Əzim kimi şairlərin yaradıcılıq müvəffəqiyyətini təbii hissləri qələmə alıb, onlara "həyat və surət verə" bilmələrində görürdü(3.s.147).

F.b.Köçərlinin yaradıcılığı ilə əlaqədar fikir söyləyən ədəbiyyatşünaslar içərisində professor Mir Cəlal xüsusi fərqlənirdi. Onun tezislərindən bu böyük alimi dərindən duyduğu açıq hiss olunur. Doğrudur Mir Cəlal F.Köçərli haqqında az yazmışdır, amma onun ədəbiyyatımız tarixindəki xidmətlərini düzgün qiymətləndirmişdir. O "Azərbaycanda ədəbi məktəblər"(1905-1907) adlı doktorluq dissertasiyasında yazır ki, "Firidunbəyin əsərləri keçmiş məcmuələrdən fərqli olaraq, bi-

rinci dəfə ədəbi təhlili, yalnız ədəbiyyatı öyrənmək deyil, həm də qiymət təşəbbüsünü irəli sürən əsərdir... Müəllifin alimliyi, ədəbiyyatşünaslıq istedadı, ədəbi zövqü, sənətə olan münasibəti də əsasən burada özünü göstərir(11.s.24).

Firidun bəy Köçərlinin şifahi xalq ədəbiyyatının toplanması ilə məşğul olması onun zəngin ədəbi irsimizə olan dərin marağından irəli gəlmişdir. Doğrudur Köçərlidən başqa bir çox ədiblərimiz olmuşdur ki, Azərbaycan şifahi xalq ədəbiyyatının nümunələri ilə məşğul olmuş, bu nümunələrin toplanarq üzə çıxarılmasında əmək sərf etmişdilər. Lakin, şifahi xalq ədəbiyyatının elə nümunələri vardır ki, onların toplanılıb üzə çıxarılması məhz F.b.Köçərlinin adı ilə bağlıdır. Həm də Köçərlinin mövzu dairəsi geniş idi. O, klassik irsi öyrənməklə yanaşı, öz müasirlərinin yaradıcılığını da tədqiq etməyə imkan tapırdı.

F.b.Köçərli hər bir şeydə milliliyi qorumağa, onu dəyərləndirməyə qiymət verdiyi üçün folkorun janrının nümunələrini də milliliyin əsas qolu hesab edirdi. Azərbaycan xalqının maariflənməsində və savadsızlığın ləğv edilməsində milli dilin, milli məktəbin, milli mətbuatın, milli ədəbiyyatın çöx böyük rolu olduğunu qeyd edən alim, milli folklorumuzun millətin təlim-tərbiyəsində əsas olduğunu qeyd edirdi. Ayrı-ayrı tədqiqatçıların Köçərli haqqında yazdıqları əsərlərində də, eyni zamanda F.b.Köçərlinin özünün folklor araşdırmalarında da milliliyin önəmli olduğunu görmək olur. Ümumiyyətlə Köçərli yaradıcılığının nə qədər dərin, geniş məzmunlu, əhatəli və maraqlı olduğu öz təsdiqini tapmışdır. Onun xalq ədəbiyyatının mahiyyəti, ictimai məzmunu və janr xüsusiyyətləri bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Azərbaycanın digər maarifçiləri kimi F.b.Köçərli tərcümə ədəbiyyatına da xüsusi diqqət yetirirdi. O, eyni zamanda şifahi xalq yaradıcılığının təbliğini və öyrənilməsini mühüm əhəmiyyətli vəzifələrdən sayır, topladığı folklor nümunələrini çap et-





dirərək oxucuların istifadəsinə verməyə çalışırdı.

F.b.Köçərlinin fikrincə ağızdan-ağıza ötürülmüş bu janr nəsilbənəsil atadan oğula, oğuldan nəvəyə keçməklə yayıla və yaşaya bilər. Lakin, onun şifahi xalq ədəbiyyatından bəhs edərkən yazılı ədəbiyyat haqqında yazdığı fikirləri tədqiqatçılar tərəfindən birmənalı qarşılanmımışdır. F.b.Köçərli yazırdı: "Bəzi qövm və tayfalar əfvahi ədəbiyyatdan səva özgə bir asar-əlamət zahir etməyib, öz nəql-hekayətləri və milli nəğmələri və məsələləri ilə bir müddət dünyada ömr edib sonradan binişan puç və zay olub gediblər.Amma o qövm və millətlər ki, xilqət və təbiətlərində qabiliyyət töxmi və hünər mayəsi vardırümuri-məişətdə qeyrilərə səbət ediblər-onlar bir əfvahi ədəbiyyatlarına və ağızlarda söylənən nəql və hekayələrinə iktifa etməyib qələmi ədəbiyyata, yəni fikir və hisslərini qələm ilə yazmağa məşğul olublar(12.s.36). Tədqiqatçılar bunu Köçərli üçün səhv deyil, xırda qüsur hesab edirdilər. Bu kiçik qüsurlara baxmayaraq, F.b.Köçərli "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin müqəddiməsində qeyd olunduğu kimi ədəbiyyatın ümumi problemlərinə düzgün mövqedən yanaşırdı.

F.b.Köçərli folklor araşdırmaları ilə məşğul olan bir çox yazıçılarla əlaqə yaradaraq, onların əsərlərini oxuyar və özünün ya müsbət, ya da tənqidi fikrini bildirərdi. Azərbaycan xalqının şifahi ədəbiyyat xəzinəsində ta qədimdən başlayaraq xalqımızın zəngin həyat təcrübəsini, geniş dünyagörüşünün, məşğul olduqları əmək fəaliyyəti sahələrini əks etdirən bir çox nümunələr bu günümüzə qədər gəlmiş və azərbaycanlıların kökünün, mənşəyinin kimliyini bizə açmağa şərait yaratmışdır.

Əbəs yerə deyildir ki, şifahi ədəbiyyatı "söz sənətinin mənbəyi" adlandırırlar. Folklor hər bir xalqın öz keçmişinin öyrənilməsinin açarıdır. Folklorun 4-5 misralıq nümunələrindən-bayatılardan, atalar sözlərindən, sayaçı sözlərdən, nəğmələrdən, nağıllardan, laylalardan,oxşamalardan və. s. nisgili, ah-naləni, sevinci, fərəhi, qəhrəmanlıq haqqında olan fikirləri,

hicranı, vüsalı öyrənmək olur. Azərbaycan folklorunun öyrənilməsində zaman-zaman yorulmadan zəhmət çəkən maarifpərvər və vətənpərvər alimlərimizin əməyi təqdirəlayiqdir.

Azərbaycan ədəbiyyatşünaslığında özünə məxsus yer tutmuş görkəmli alim F.b.Köçərli gözəl pedaqoq olduğu kimi gözəl də folklorşünas idi. Köçərli istər dilçilikdə, istər pedaqoji sahədə, istər publisistikada təkcə Azərbaycan klassikası ilə fəaliyyətini məhdudlaşdırmırdı, o, eyni zamanda Şərq və Qərb klassikasını da öyrənməyə çalışır, Şərq və Qərbin ədəbi-tənqidi və nəzəri-estetik fikrinin inkişafında geniş məlumata sahib olurdu. Dünya ədəbiyyatına müraciəti və çoxlu mütaliə etməsi onun bilik əhatəsini genişləndirməklə bərabər, dünyagörüşünün də artmasına səbəb olmuşdur. F.b.Köçərli son dərəcə mədəni, müasir fikirli, azad düşüncəli və açıq dünyagörüşünə malik olan bir ziyalı idi. Yeniliyi hər zaman dəyərləndirən F.b. Köçərli kökümüzdən ayrılmamaq şərtilə müasirliyi qəbul edirdi. O, həm klassik şair və yazıçıların əsərlərini kitab halında nəşr etdirməklə, həm uşaq ədəbiyyatını yaratmaqla, həm minbir zəhmətlə folklorumuzu toplayıb üzə çıxarmaqla, eyni zamanda da vicdanlı pedaqoq olmaqla milli mədəniyyətimizə misilsiz xidmət göstərmişdir. F.b.Köçərlinin "Azərbaycan ədəbiyyatı" tarixi əsəri klassik sənətkarlar haqqında yazılmış ən qiymətli elmi-tədqiqat əsəri kimi daha dəyərlidir. Tədqiqatçıların istinad etdikləri bu əsər, yüzlərlə tədqiqat işinə kömək göstərən bir mənbədir. Yəni, Azərbaycan ədəbiyyatından bizə məlum olmayan və bizim tanımadığımız bir çox sənətkarlar haqqında məlumat əldə etmək üçün bu əsər olduqca qiymətlidir. F.b.Köçərli qədim dünya mədəniyyəti, ədəbiyyatı haqqında xalqa, xüsusilə də gənc nəslə müəyyən qədər məlumat vermək məqsədi ilə belə çətin bir işi öhdəsinə götürür. Müəyyən çətinliklər üzündən O, 1903-cü ildə "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabını çap etdirə bilmişdir. Azərbaycanın ədəbiyyat tarixini yaratmaq meyli, ilk təzahür forması və ilk təşəbbüs məhz Firidun bəy Köçərli tərəfindən





göstərildiyi üçün, bu onun əlbəttə ki, müvəffəqiyyəti idi. Məhz bu həvəs onun folklor janrına olan həvəsini artırmışdır. Şifahi ədəbiyyata göstərdiyi marağın nəticəsində o, bir-birindən gözəl əsərlər meydana gətirmiş və uşaq folkorunun inkişaf etməsinə təkan vermişdir. Xalq ədəbiyyatının bir sıra nümunələrin də yer aldığı "Azərbaycan tatarlarının ədəbiyyatı" əsəri bu cəhətdən daha səciyyəvi xarakter daşıyır. Əsərdə irəli sürülən fikirlər F.b.Köçərlinin şifahi xalq ədəbiyyatında apardığı araşdırmalar zamanı meydana çıxan mövzu və suallar ətrafında yaranmışdır.

Firidun bəy xalqı, xüsusilə də ziyalıları folklorumuzun nümunələrini toplayıb geniş xalq kütlələrinə çatdırmağa çağırırdı. Köçərlinin qənaətincə folklor düzgün toplanılıb dünya miqyasında sınaqdan çıxmış məlum elmi prinsiplərlə yazıya alınmadıqda, onun barəsində konkret fikir formalaşa bilmir. Köçərliyə görə Azərbaycan folklorşünaslığının təşəkkül prosesi iki istiqamətdə: folklorun toplanması, nəşri və tədqiqi ilə bağlı idi.

F.b.Köçərlinin 1903-cü ildə Tiflisdə rus dilində çap olunmuş "Azərbaycan ədəbiyyatı" kitabı bu cəhətdən xüsusilə səciyyəvi xarakter daşıyır. Çünki bu kitab Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasında ilk təşəbbüs, atılan ilk addım idi. Şifahi xalq ədəbiyyatı tarixinin öyrənilməsində ədəbi janrları içərisində folklorun əhəmiyyətinin daha çox olduğu burada öz əksini tapmışdır. Kitabda təkcə Azərbaycan yazıçıları deyil, eyni zamanda başqa xalqların şair və yazıçılarının əsərlərindən nümunələr yer almış və onların öz əsərlərində zəngin Azərbaycan folklor nümunələrindən istifadə etdikləri qeyd olunmuşdur. Məsələn: A.O.Çernyayevski balacalar üçün yazdığı "Vətən dili" kitabına Azərbaycan folklor nümunələrindən daxil etmişdir. Belə yaradıcı insanlardan dərs alan M. S. Seyidov, M.Qəmərlinski, M.Mahmudbəyov, A.S.Mehdizadə, A.Şaiq, F.Köçərli də öz dərsliklərinə xeyli folklor materialları daxil edirdilər. Uşaq ədəbiyyatının yaranmasında folkorun misilsiz rolu vardır.

F.b.Köçərli uşaq folkloruna xüsusi tələbkarlıqla yanaşırdı.

Həmişə Azərbaycanın yazarlarına dil üslubunun qəlizliyini irad tutan ədib, bunu uşaqlar üçün yazılmış nağıllarda, hekayələrdə olmasının ümumiyyətlə mümkünsüzlüyünü söyləyirdi. Bu səbəbdən uşaqlar üçün yazılmış folklor nümunələrinin sadəliyinin, anlaşılan olmasının vacibliyi ədibin ən çox müraciət etdiyi məsələlərdən idi. Azərbaycan folklorşünaslarının toplanmış olduğu folklor nümunələri içərisində uşaq folklor nümunələrinə çox rast gəlmək olur. Həmin nümunələrin toplanaraq bu günümüzə yetişməyində Teymurbəy Bayraməlibəyov, Sultan Məcid Qəniyev, M. Mahmudbəyov, Mir Haşım Vəzirov, İsmayıl Əfəndiyev kimi maarifçilərlə yanaşı Firidun bəy Köçərlinin də çox böyük əməyi olubdur. F.b.Köçərlinin təkcə 1912-ci ildə çap etdirdiyi "Balalara hədiyyə" kitabını qeyd etmək kifayətdir. Bu kiçik həcmli kitab ədibin yaradıcılığında ən təqdirəlayiqdir.

Görkəmli tədqiqatçı-alim F.b.Köçərli folklor materialı seçərkən həm onların ideya məzmununa, həm də bədii dəyərinə ciddi fikir verirdi. Qədim xalq ədəbiyyatının folklor nümunələri ilə dərindən maraqlanması, yeri gəldikcə onların da araşdırılmasına ciddi maraq göstərməsi onun əsl dilçi olduğunu bir daha təsdiqləyir. O əsrlər boyu xalqın yaratmış olduğu şifahi xalq ədəbiyyatı nümunələrini təhlil etmək üçün xalqının dilinin tarixini mükəmməl bilməyi tövsiyə edirdi. Xalqın dili dedikdə F.b. Köçərli sözsüz ki, folklor janrının bütün nümunələrini nəzərdə tuturdu. Kökümüzün, tariximizin, qədim adət-ənənələrimizin özəyi hesab etdiyi folklor janrının xalqın ruhuna, yaxın olduğunu bilirdi. Ona görə də folklorun açıqlamasını anlamaq üçün xalqın dilini bilməyin vacib olduğunu vurğulayırdı. F.b.Köçərli bu cəhətdən ədəbiyyatçılar içərisində öz dəstixəttinə görə seçilmiş ədəbiyyatşünas hesab edilirdi. Köçərli pedaqoji əmək fəaliyyəti ilə paralel şəkildə həm folklorşünaslıqla, həm də publisistika ilə məşğul idi. Bu qədər enerji, bu qədər qüvvə sərf edən ədib, yorulmayırdu, əksinə gördüyü işindən zövq alırdı.

F.b.Köçərli bütün ömrü boyu demək olar ki, xalq ədəbiyyatı nümunələrini yığıb toplamaqla məşğul olmuşdur. Köçərli gözəl anlayırdı ki, şifahi söz sənəti xalqın mənəvi qüdrətini, ictimai-siyasi, tarixi hadisələrə münasibətinin dolğun və bədii biçimdə əks etdirən zəngin irsdir. Xalq, el, şifahi ədəbiyyat janrı adlandırılan bu janr xalqın etnogenezini öyrənmək baxımından çox maraqlıdır.





Folklorun dini-əxlaqi görüşlərdə də böyük rolu olmuşdur. Folklorun inkişaf etdirilməsini birbaşa adət-ənənələrin davamı hesab etmək olar.

Firidun bəy Köçərli bir pedaqoq olaraq zəngin irsə malik olan Azərbaycan folklor nümunələrini toplamaqla həm Azərbaycan ədəbiyyatının klassiklərini xalqa tanıtdırır, həm də dərs dediyi şagird və tələbələrində bu qədim irsə maraq oyandırırdı. Bəlkə də Köçərlinin yaşadığı dövrün mühiti bunu tələb edirdi.

H.Zərdabi, S.Ə.Şirvani, S.S.Axundov, A.Şaiq, M.Ə.Sabir, A.Səhhət, R.Əfəndiyev və F.Köçərli kimi görkəmli şəxsiyyətlərin ədəbi-pedaqoji fəaliyyətinə diqqət etsək görərik ki, bunların hamısının tərbiyə xarakteri daşıyan əsər və məqalələrinin əsasında məhz xalqdan seçilib götürülən folklor materialları qoyulmuşdur(1.s.53).

Şifahi xalq yaradıcılığı Azərbaycanın şair və yazıçılarının, həmçinin digər görkəmli sənətkarların yaradıcılıq mənbəyi olubdur. Kiçik yaşlı uşaqların dərsliklərinə salınmış nağıl, tapmaca, atalar sözləri, hekayələr və s. ibtidai sinif dərsliklərində dəfələrlə təkrar edilmişdir.

Azərbaycan ədəbiyyatından danışarkən xalq ədəbiyyatını-folkoru xüsusi qeyd etmək lazımdır. Folklor, bəzən dilin çox qədim bu gün itmiş, məhv olmuş sözlərinin izlərini saxlamış olur. Dilin tarixindəki izləri müəyyənləşdirmək üçün folklor çox zəngin bir xəzinə hesab edilir. Firidun bəy qeyd edirdi ki, dilin tarixini öyrənərkən bir mənbə kimi ondan düzgün istifadə etmək lazımdır. Dili mükəmməl bilməyin xalq ədəbiyyatının incəliklə-

rinə qədər gedərək, folklor janr nümunələrinin açılmasında çox böyük köməyi vardır. F.b.Köçərli bu qaydalara lazımınca əməl edir və folklorun məhz incəliklərini açmağa çalışırdı. Köçərli yaradıcılıqla məşğul olduğu zamanda dil məsələsini qaldırarkən və dil uğrunda mübarizə edərkən şifahi xalq ədəbiyyatımızın öyrənilməsində bunun vacib amil olduğunu anlayırdı. F.b.Köçərli onu da gözəl anlayırdı ki, xalq yaradıcılığının daha da inkişaf etməsində folklor nümunələrinin toplanılmasının və nəşr edilməsinin böyük rolu vardır.

Firidun bəy Köçərli ədəbiyyatı elm aləminə çoxdan məlum olan qayda əsasında yazılı və şifahi deyə iki hissəyə ayırırdı, folklor haqqında öz mülahizələrini söyləyirdi. Alimə görə el ədəbiyyatı "Ağızda söylənən, nəql hekayətlərdən, cürbəcür milli nəğmələrdən, aşıq sözlərindən, məsəllərdən, tapmacalardan, yanıltmaclardan, ağıçı sözlərindən, bayatılardan ibarətdir.

Köçərlinin folklor, xüsusilə onun janrları haqqında bu fikri elmi mənası və mahiyyəti etibarı ilə özündən əvvəl bəzi əsərlərdə ötəri rast gəldiyimiz mülahizələrdən əsaslı surətdə fərqlənir və müasir dövrdə bu məsələ ilə əlaqədar deyilmiş elmi müddəalarla yaxından səsləşməkdədir. Onun klassik ədəbiyyat, xüsusilə də xalq ədəbiyyatı haqqındakı nəzəri müddəaları küll halında folklorşünaslıq elmi sahəsində indi də dəyərini saxlayır.

Folklorşünaslıq sahəsində nəzəri ədəbiyyatın kifayət qədər olmadığı bir vaxtda xalq yaradıcılığının məzmunu, mənası, dərin, hikmətamiz xüsusiyyətləri haqqında fikir söyləmək, düzgün nəticələrə gəlmək təqdirəlayiqdir. F. Köçərlinin xalq ədəbiyyatı haqqındakı bir çox mülahizələri ümumi mahiyyət etibarı ilə böyük proletar yazıçısı M.Qorkinin fikirləri ilə yaxından səsləşir. Xüsusilə, M.Qorkinin "Folklor öz xüsusi yolu ilə tarixə yoldaşlıq edir", "folkloru bilmədən əməkçi kütlələrin tarixini öyrənmək olmaz", "folklora bədbinlik yabançıdır" və s. kimi hökmləri ilə F.Köçərlinin qənaətləri arasında bir yaxınlıq vardır. O, şifahi xalq ədəbiyyatının həyatiliyindən, nikbin, humanist mahiyyətin-





dən danışarkən yazırdı: Nağıllarda "haqq batilə, doğru yalana qalib gəlir və nağılların çoxu şadlıq ilə qurtarır. Yar eşqində böyük zəhmət və məşəqqətlər çəkən şahzadəyə qırx gün, qırx gecə toy olunur və nəql söyləyən nəqlini gülüş yüzülə qurtarıb deyir: "O yedi, yerə keçdi, siz də yeyin, dövrə keçin"(11.s.33).

Azərbaycan yazıçı və publisistlərinin böyük əksəriyyəti Firidun bəy Köçərli olmaqla, o cümlədən Eynəli Sultanov, Məmmədağa Şahtaxtinski, S.Hüseyn və başqaları xalqın mənəviyyat xəzinəsi olan şifahi xalq ədəbiyyatına böyük əhəmiyyət verir, bayatıları, atalar sözlərini, zərb-məsəlləri və.s. diqqət və səbrlə toplayırdılar. Milli mətbuatımızın banisi H.Zərdabi də həmişə folklor nümunələrini başqa dillərə çevirib yığmağı tövsiyə edirdi.

F.b.Köçərli çox qədimlərdən gələn folklor nümunələrində təsərrüfatımızın, yaşayış tərzimizin, məşğuliyyətimizin hansı formada olduğunu bizə açıq-aydın göstərir. Bu nümunələrin birbaşa həyatımızla bağlılığını, kökümüzün və soyumuzun haradan gəldiyini, onların həyat tərzini, hətta sosial durumunu, cəmiyyətimizin necə formalaşdığını bizə çatdırmışdır.

F.Köçərli yazırdı: "Sinədən toxunan nəğmələr də millət özünə ariz olan ğəm və qüssəni və yainki şadlıq və fərəhi və filcümlə onun qəlbini ləbaləb edən növbənöv hissləri uca avaz ilə oxuyub öz dəruni halətini və batini aləmini cümləyə izhar edir və bu minval ilə sinəsini ənduh və məlaldan xilas edib ğəm ilə şadlığına ğeyriləri də şərik eliyir"(11.s.34).

F.Köçərli öz müasirlərinə folklor nümunələrindən bəhs edərkən xalqın dünyagörüşünü təyin etmək, arzu və istəklərini öyrənmək, müxtəlif dövrlərdə insanların yaşayış tərzini, həyatını, məişətini,təssərrüfatını və məşğuliyyətini daha dərindən bilmək üçün folklorun sözlərinə düzgün yanaşmağı və eyni zamanda kökümüzdən qaynaqlanan bu nümunələrin açıqlamasında diqqətli olmağı söyləyirdi. Köçərli sayaçı sözlərdə vəsf olunan ev heyvanlarının əzizlənməsini, hətta qoyuna "nənəm" deyə

müraciət etmənin bu cəhətini xüsusi olaraq nəzərə çatdırırdı.

Məlumdur ki, F.b.Köçərli Azərbaycan folklorunun həm toplayıcısı, həm də tədqiqatçısı idi. Azərbaycanın şifahi xalq ədəbiyyatında istifadə olunan nağılları, bayatıları, laylaları, qoşmaları, atalar sözlərini və sair folklor nümunələrini nəzərdən keçirdikdə, onların bir qisminin hələ çox qədim zamanlarda yarandığını, əsrlər keçdikcə müxtəlif dəyişikliklərə uğrayıb formalaşdığını, mükəmməl bədii və tərbiyəvi ədəbiyyat nümunəsinə çevrildiyini ehtimal etmək olar. Ədəbiyyatla ciddi məşğul olmuş şair və yazıçılar da folklorun uşaqların tərbiyəsində mühüm rol oynadığını təsdiq edirdilər.

Azərbaycan ədəbiyyatında öz dəsti-xətti olan S.Hüseyn bu xeyirxah və nəcib işdə ən uğurlu əsərlərdən biri hesab etdiyi F.b.Köçərlinin " Balalara hədiyyə" adlı kitabını misal göstərir. Bu kitab folklorşünaslıq tariximizdə həqiqətən də F.b.Köçərliyə müəyyən mövqe qazandırmışdır. O folklora etinasız yanaşanlara müraciət edərək deyirdi: "amma biz onların qədrini bilmirik və itib-batmağına əsla etina etmirik". Firidun bəy Köçərli xalq ədəbiyyatını xalqın sərmayəsi adlandırırdı, folklorun təlim-tərbiyə üçün əhəmiyyətini ilk plana çəkirdi(1.s.54).

Tarixdən məlumdur ki, dünyanın bütün söz sənətkarları öz yaradıcılıqlarında folklordan istifadə etmiş və şifahi xalq ədəbiyyatının nümunələri bu gün ki, ədəbiyyatımızda da öz aktuallığını saxlamaqdadır. Azərbaycanın klassik yazıçıları da tarixən folklordan istifadə etməklə yaratdıqları qəhrəmanlar haqqında xalq ədəbiyyatına biri-birindən gözəl nümunələr bəxş etmişlər. Folklordan danışarkən ona aid olan laylaları, bayatıları, oxşamaları, sayaçı sözləri, nağılları, tapmaca və atalar sözlərinin bir-birindən ayırmaq, fərqləndirmək hansının o birindən üstün olduğunu söyləmək olmur. Yəni bu janrın nümunələrinin hər birisi bizim qanımıza, canımıza hopmuş, ruhumuzu sarmışdır. Köçərli Azərbaycan şifahi xalq ədəbiyyatının mütəlifliyinə, zənginliyinə vurğunluğunu gizlətməyərək, şifahi xalq ədəbiyyatının





nümunələri içərisində xalqın həyatının mənasını görür və bu nümunələri tezliklə toplayıb çap etdirməyə, xalq arasında yaymağa çalışırdı.

H.b.Zərdabi, F.b.Köçərli, E. Sultanov, S. Ağamalıoğlu, H.Minasazov, M.Mahmudbəyov, M.V.Qəmərlinski, T.Bayraməlibəyov, M. Şahtaxtlı, "Qafqaz" qəzetinin əməkdaşlarından E.Janner, A.D.Yerisov, İ.L.Seqal Azərbaycan folklor materialları toplayır, onu haqqında fikir söyləyirdilər. E.Janner müxtəlif mətbuat orqanlarında "Şahinin yuxusu", "Qız qalası" və "Leyli" əfsanələrini, "Ulduz şah", "Yusif və Züleyxa" nağıllarını, A.D Yerisov isə 164 "Molla Nəsrəddin" lətifəsi çap etdirmişdi. İ. Seqal "Yelizavetpol şəhərinin keçmişi və indisi" məqaləsində Azərbaycan xalqının həyatsevərliyindən, adət və ənənənsindən, şairanə həyat tərzindən, şifahi xalq yaradıcılığından səmimiyyətlə danışırdı. Batumidə buraxılan "Volna" jurnalı da tez-tez Azərbaycandan yazır, şifahi ədəbiyyatın təbliği ilə məşğul olurdu(12.s.60).

Bir çox yaradıcı əməkdaşlardan fərqli olaraq, F.Köçərli Azərbaycan şifahi xalq yaradıcılığına daha qayğı və ehtiyatla yanaşır, dost və tanışları ilə əlaqə saxlayıb dastan, nağıl, bayatı, lətifə və məsəllərimizi həvəslə toplayırdı. O, fəaliyyətinin müəyyən bir hissəsini məhz bu işə, xalq yaradıcılığının öyrənilməsi işinə həsr etmişdir.

Azərbaycan folklorunun geniş yayılmış növlərindən biri də sayaçı sözləridir. Sayaçı sözlərinin toplanılmasında və nəşr olunmasında da F.b.Köçərlinin böyük zəhməti olubdur. Sayaçı sözlərində ev heyvanları çox incə, gözəl şəkildə vəsf edilmişdir. Folklorun lirik növü hesab edilən sayaçı sözləri ən geniş yayılmış və ən çox istifadə olunan folklor nümunələrindəndir. Folklorun qeyd etdiyimiz kimi çoxlu nümunələri vardır ki, bu gün ki, həyatımızda bu nümunələrin demək olar ki,hamısından istifadə olunur.

Azərbaycan folklorşünaslığında aşıq yaradıcılığı geniş

yayılmış folklor nümunəsidir. Folklorun başqa nümunələri kimi aşıq yaradıcılığının da bu günümüzə gəlib çatmasında əlbəttə ki, F.b.Köçərlinin və onun timsalında onlarla ədəbiyyatşünas və folklorşünas alimlərimizin zəhməti danılmazdır. Mənbələrdə Köçərlinin şəxsi arxivində külli miqdarda aşıq şeirlərinin, dastan parçalarının olduğu qeyd edilir. F.Köçərli kimdən, nədən yazırsa yazsın fərqi yoxdur, demokratik fikirlərinə sadiq qalır, realisr ədəbiyyatın carçısı kimi çıxış edirdi. Köçərli realist sənət və ədəbiyyatdan yazan, onun nailiyyətlərini aramsız təbliğ edən tədqiqatçılar sırasında xüsusi yer tuturdu.

Müasir dövrümüzdə aşıqların məclislərdə dastan söyləmələri bir daha göstərir ki, əsrlərdən süzülüb gəlmiş bu ənənə bu gün də folklorumuzun nümunəsi olaraq yaşamaqdadır. Şifahi xalq ədəbiyyatı millətin kökündür, soyudur, tarixidir. Köçərlinin yaradıcılığında önəmli yerlərdən birini tutmuş aşıq folklor sənəti olmuşdur ki, F.b.Köçərli Qarabağ aşıqlarından adı Kərbəlayi Səfi olan Valehin yaradıcılığı ətrafında maraqlı araşdırma aparmışdır. Misal olaraq "Valehin nəğmələri" adlı yazısını göstərə bilərik. Məsələn F.b.Köçərlinin qələmə aldığı "Valehin nəğmələri" adlı yazısının xalqdan topladığı folklor materialları əsasında ərsəyə gəldiyinin, aşıq Valehin məhz Azərbaycan xalqına mənsub olduğunu, başqa xalqlar tərəfindən mənimsənilməsinə qarşı aparılan bir mübarizənin, bir döyüşün olması idi. F.b.Köçərli apardığı araşdırmalarında sübut etməyə çalışırdı ki, Aşıq Valehin mahnılarının ruhu, kökü sırf Azərbaycan xalqının ruhuna köklənmiş, bu xalqın kökündən qaynaqlanmışdır, yəni Valeh köklü Azərbaycan sənətkarıdır.

F.b.Köçərli Valeh haqqında ətraflı məlumat verərək yazır ki, aşığın Qarabağ xanlığının tarixinə aid "bir mənzulatı var ki, mətəəssüf, ələ gətirə bilmədik. Onun övladı Aşıq Abbasqulu bizə söz vermişdi ki, Kərbəlayi Səfinin tamam əşari əsarını bizə göndərsin, vəli əhdinə vəfa etmədi. Adı çəkilən məcmuənin 1910-cu il, 41-ci buraxılışında "F.B.Köçərlinski" imzası ilə





"Sayaçı" mahnısı və "Valehin nəğmələri" mahnı mətnləri oxuculara təqdim edilir, rus oxucuları üçün onların sətri tərcüməsi verilir. "Valehin nəğməsi" adlı ikinci hissədə məqalənin müəllifi insanın dünyaya gəldiyi ilk gündən o biri dünyaya köçənə qədərki həyat mərhələlərindən bəhs edən nəğməni və bunun ruscaya sətri tərcüməsini oxuculara təqdim edir ". SMOMPK məcmuəsinin 41-ci buraxılışında isə Firidun bəy Köçərli Aşıq Valehin "Vücudnamə"sini əsl adı ilə çap etmişdir(12.s.6).

Folklor çox şaxəli bir janrdır. Sadaladıqlarımdan əlavə qeyd etmək olar ki, aşıq musiqisi, etnoqrafiya, xalq sənəti yaradıcılığı, xalq musiqisi də folklor janrına aid edilir. Yaşı bilinməyən əsrlərdən keçib gəlmiş folklorun həyatımızda çox mühüm rolu vardır. Folklor həm də birlik, ünsiyyət, adət-ənənə deməkdir. Əsrlərdən süzülüb gələn folklorun həyatımızla mütəmadi əlaqəsinin olduğu və hər kəlmədə, hər sözdə folklordan nümunələr gətirilməsi bunun bariz nümunəsidir. Atalar sözləri, nağıllar, tapmacalar, məsəllər, laylalar həyatımızda gündəlik müraciət etdiyimiz folklorumuzun gözəl nümunələrindəndir. Folklorda hər şey aydın, sadə dildə ifadə olunmuşdur. Məsələn, bir bayatıya nəzər salaq:

*Bala dadı bal dadı,*
*Bala adam aldadı.*
*Şirini şirin olur,*
*Acısı da bal dadı.*

Övlad haqqında deyilmiş bu dörd misralıq şeir parçasında nələr yoxdur? Elə bil bu bayatı böyük bir hadisənin, əsərin nüvəsidir, özəyidir, cövhəridir(12.s.13).

Görkəmli folklorşünas alim F.b.Köçərli folklor nümunələrini işləyərkən bu faktları nəzərə alırdı.

F.b.Köçərlinin fikrincə də folklor nümunələri xüsusilə

uşaqlarımızın tərbiyəsinə yaxşı mənada təsir göstərən amillərdəndir. Çünki hər bir uşaq eşitdiyi əsərin qəhrəmanına bənzəmək istəyində olur.

Bir çox müasirləri kimi Firidun bəy də millətinin yolunda çəkdiyi zəhmətində uşaqların təhsil almalarını, bilikli, savadlı olmasını əsas sayırdı. Köçərlinin yaşadığı dövrün cəhalət dövrü olduğunu nəzərə alsaq, onun çəkdiyi əziyyətin ikiqat ağırlığını hiss etmiş olarıq. Lakin bütün bunlara baxmayaraq Köçərli millətin işıqlı gələcəyinə çox inanırdı və o inanırdı ki, onun min-bir əzab-əziyyətlə başa gətirdiyi kitablar, topladığı dəyərli materiallar vaxt gələcək Azərbaycan ədəbiyyatının inciləri hesab ediləcəkdir. Bu artıq belədir.

F.b.Köçərli folklorumuzun dəyərini, qiymətini oxucuya var qüvvəsi ilə çatdırmağa çalışırdı. Şifahi xalq ədəbiyyatı sadə və insanların asan başa düşəcəyi bir nümunədir. Qəliz cümlə və ibarələrdən uzaq olmağı məsləhət görən F.b.Köçərli ədəbi yaradıcılıqla məşğul olanlara tənqidi yanaşmasının bir səbəbinidə məhz Azərbaycan sözlərinə yabançı sözlərin gətirilməsində görür və tənqid atəşinə tuturdu. Köçərli təmiz Azərbaycan sözləri ilə yazmağın vacibliyini hətta tələb edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan folklorşünaslığında dövrün hadisələri ilə bağlı bir sıra özünəməxsus yeni keyfiyyətlər meydana çıxır. Bu ondan ibarətdir ki, folklor yalnız ədəbiyyatla deyil, o zamanın pedaqoji fikirləri ilə də sıx bağlıdır. Maarifpərvər ziyalılarımız pedaqoji fikirlərini yaymaq məqsədi ilə məhz folklordan istifadə edirdilər. Sanki zamanın tələbi olan bu yanaşma ziyalılarımız tərəfindən o dövrdə daha qabarıq nəzərə çatdırılırdı. H. Zərdabi, S. Ə. Şirvani, S. S. Axundov, A. Şaiq, M. Ə. Sabir, A. Səhhət, R. Əfəndiyev, F. Köçərli və bir çox görkəmli şəxslər bu qəbildən olan ziyalılardır.

Qeyd edildiyi kimi F.b.Köçərlinin xalq yaradıcılığı ilə bağlı olan əsərləri içərisində ədəbiyyatşünaslar tərəfindən yüksək dəyərləndirilən əsərlər içərisində F.b.Köçərlinin "Balalara hədiyyə" kitabı mühüm yer tutur. Ümumiyyətlə, F. Köçərlinin təkcə uşaq ədəbiyyatı deyil, eyni zamanda xalq ədəbiyyatının müxtəlif janrları barədə çox maraqlı, nəzəri fikirləri olubdur.





Azərbaycanda lətifə janrının da çox qədim tarixi vardır. Lətifələr müxtəlif zamanlarda müxtəlif insanların adı ilə əlaqələndirilibdir. Azərbaycanda lətifələr ən çox iki nəfərin Bəhlul Danəndə və Molla Nəsrəddinin adı ilə bağlayırlar. Molla Nəsrəddinin adı ilə bağlı olan lətifələr dünyanın müxtəlif xalqları içərisində ta qədim zamanlardan yayılıb yaşamaqdadır. F.b.Köçərli Azərbaycanda "Molla Nəsrəddin" kimi jurnalın yaranmasına ehtiyac olduğunu bilirdi və "Molla Nəsrəddin" jurnalının nəşrinə çox sevinirdi. Çünki "Molla Nəsrəddin" təkcə Azərbaycanda deyil, bütün Şərqdə səs salmışdı. Bu barədə o yazırdı: "Şərq xalqları, xüsusilə də azərbaycanlılar, öz danışıqlarını məsəllər, atalar sözləri və Şərqin müdrik məzhəkəçisi olan Molla Nəsrəddinin lətifələri ilə bəzəməyi sevirlər".

F.b.Köçərli Molla Nəsrəddinin müdrikliyinin və hazırcavablığının rəngarəng lətifələr ilə söylənməsinə və az bir zamanda bunun bütün Şərqdə yayılmasını düzgün hesab edirdi. O, belə folklor nümunələrinin insanların tərbiyəsində, savadlanmasında mühüm vasitə hesab edirdi və bu yoldan da istifadə edərək xalqı maariflənməyə çağırırdı.

F.b.Köçərli şifahi xalq ədəbiyyatını xalqın dili hesab etdiyindən, bu nümunələrin itib batmamağı üçün toplanmasını məqbul sayırdı. Bu gün Azərbaycan xalqının ən çox sevdiyi lətifələri məhz Molla Nəsrəddinin adı ilə bağlıdır. F.b.Köçərli "Molla Nəsrəddin" jurnalının üstün cəhətlərindən biri kimi göstərirdi ki, bu jurnal həqiqətən də artıq köhnəlmiş olan adət-ənənələrimizi, hansı ki, xalqın mənafeyinə, həyatına mənfi təsir göstərir o halları gülüş yolu ilə aradan qaldırmağa səy göstərən, insanları cəhalət yuxusundan oyandırmağa səsləyən jurnaldır. Xalqın mə-

nafeyinə xidmət göstərən hər bir əsər, kitab, jurnal və s. dəyərləndirilməlidir.

"Molla Nəsrəddin" nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir.belə nöqsanlar və mövhumat isə bir neçə əsr qaranlıq və cəhalət içərisində yatıb qalmış bizim cəmiyyətimizdə o qədər çoxalmış və o qədər dərin kök salmışdır ki, tənqidə onların hansından başlamağı təyin etmək çətindir. (4.s.419).

Qeyd etdik ki, F.b.Köçərli Azərbaycanın mədəniyyət tarixində böyük rol oynamış bir şəxsiyyətdir. Zəngin dünyagörüşünə və hərtərəfli ədəbi fəaliyyətə malik olan Köçərlinin 1903-cü ildə min bir əziyyətlə ərsəyə gətirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı kitabı dediklərimizin bariz nümunəsidir.

Millətçi-burjua ziyalılarından fərqli olaraq, tərəqqipərvər müəlliflər üçün kitab çap etdirmək çox çətin idi. Ona görə təəccüblü deyil ki, bu illərin dövrü mətbuatında M.S.Ordubadi, F.Köçərli, M.Hadi, A.Şaiq və başqa yazıçıların nəşriyyat sahəsindəki çətinliklərdən şikayətlərinə tez-tez təsadüf edilirdi. "Zaqafqazskoye obozreniye" qəzeti yazırdı ki, "məşhur müsəlman ədəbiyyatşünası F.Köçərli Azərbaycan tatarlarının ədəbiyyatına dair irihəcmli əsərini yazıb qurtarmışdır...Ancaq buna təəssüf edirik ki, cənab Köçərlinin əlində vəsait olmadığı üçün bu çox qiymətli əsərin nəşri bəlkə də uzun müddətə təxirə salınacaqdır". Qəzet səhv etmirdi: F. Köçərlinin kitabı ancaq sovet dövründə çap oluna bilmişdi. Halbuki, müəllif özü qeyd edirdi ki, bu kitabı çap etdirməkdə "məqsədim pul qazanmaq deyil, xalqımıza, ədəbiyyat və mədəniyyətimizə kömək etməkdir"(14.s.66).

F.b.Köçərli bu kitabda ədəbiyyatımızın tarixini bütünlüklə əks etdirə bilməsə də, müəyyən mənada dəyərli məlumat verə bilmişdir. Azərbaycanın klassiklərindən görkəmli şair M. P. Vaqiflə başlayan bu kitab bir çox şair və yazıçıların həyat və





yaradıcılığını özündə əks etdirir. Kitabda M. P. Vaqiflə Q. b. Zakirin qoşmaları, rədifləri haqqında müxtəsər məlumat verilmişdir.

Böyük maarifpərvər F.b.Köçərli böyük həvəslə folklor nümunələrini toplayaraq təbliğ edirdi. O dövrdə Azərbaycanın dilinə edilən hücumlar olduğu kimi Azərbaycanın folkloruna da hücumlar olunurdu. Folklorun bəzi insanlar tərəfindən güclü tənqid atəşinə tutulmasına baxmayaraq, Köçərli geri çəkilmədən bu işi davam etdirirdi. Folklorumuza etinasız münasibət bəsləyən o dövrün bəzi insanları, görkəmli və yetərincə nüfuz sahibi olan ziyalıları yazılan dərslikləri və dərsliklərdə yer alan folklor nümunələrini cəfəngiyat adlandıraraq, bu folklor janrının insanları geriyə çəkdiklərini sübut etməyə çalışırdılar. Onlar insanlara Avropaya üz tutmağı, onlardan öyrənməyi və kor-koranə onları yamsılamağı tövsiyə edirdilər. Lakin ataların gözəl bir deyimi var: "Keçmişini bilməyənin gələcəyi ola bilməz". Əgər mən öz tariximi, ədəbiyyatımı bir az da olsa bilmirəmsə onda mən necə qələm sahibi ola bilərəm?- söyləyən F.b.Köçərli öz yaradıcılığına məhz bu cəhətdən yanaşırdı.

F.b.Köçərli Azərbaycanda nəşr olunan qəzetlərin demək olar ki, çoxu ilə əməkdaşlıq edirdi. O həm rus dilində, həm də Azərbaycan dilində məqalələr yazır və qəzetlərdə dərc etdirirdi.

Folklor xalqların şifahi poetik yaradıcılığıdır. Azərbaycan folklorunun tarixi onu yaradan xalqın özü qədər qədimdir. Bütün xalqlarda olduğu kimi, Azərbaycanda da xalq ədəbiyyatını öyrənən elm sonralar yaranıb inkişaf etmişdir.

F.b.Köçərli ədəbiyyatda yeniliyin tərəfdarı olduğu məlum idi. Lakin bu yeniliyin keçmişi unutmamaq şərti ilə müasirləşdirməyin, yeni formada xalqa çatdırılmasının əleyhinə deyildi. O, yeni şeirin yolunu təbii hissləri tərənnüm etməkdə və xalq həyatının şeirdə təsvir olunmasında görürdü. Tənqidçi bu əqidədə idi ki, "ağıl və zor ilə yazılmış kəlam nə qədər mövzun

və müsəlsəl" olsa da, oxuculara təsir edə bilməz. Onun fikrincə istər şair, istərsə də yazıçı yalnız təbii duyğuları təsvir etdikdə müvəffəqiyyət qazana bilər. F.Köçərli ətrafda cərəyan edən hadisələrə həssas münasibət bəsləməyi yazıçının ümdə keyfiyyəti sayırdı.(3.s.146).

Keçmişlə yeniliyin arasında bir bağlılığın olduğunu yaxşı anlayan tənqidçi, bu hisslərdən uzaq olanlara da bunu anlatmağa çalışırdı. Ədibin bu fikirlərindən onu başa düşmək olur ki, qələm sahibləri xüsusilə duyğusal olurlar. Bu cür insanlar istər keçmişdə, istərsə də yeni dünyada olan hadisələri hissiyyatsız qələmə ala bilməzlər. Əgər onlar hər hansı bir hadisəni yaxşı mənada bir ürək yanğısı ilə, bir coşqunluqla işıqlandırırlarsa deməli onların haradasa xalqa, millətə bağlılıqları olur. Bu da keçmişə nəzər salmağı və keçmişi unutmamağı onlara xatırladır.

F.b.Köçərlinin keçmişə bağlılığı uşaq yaşlarından əmələ gəlmişdir. Şuşada yaşadıqları vaxtlarda atası ilə tez-tez şairlərin şeir məclislərinə gedən F.b.Köçərli, bir uşaq marağı ilə bu məclislərdə ustadlardan çox şeylər öyrənmiş və bu da onun gələcəkdə görkəmli şəxsiyyət kimi yetişməsində mühüm rol oynamışdır.

Ədəbiyyat tarixinin şifahi xalq yaradıcılığından başladığını dərk edən bilən ədib, şifahi xalq ədəbiyyatını xalqın sərmayəsi adlandırırdı. Azərbaycan xalqının hər sahədə olan problemləri onun diqqətindən kənarda qalmayırdı. F. Köçərlinin yaradıcılığına nəzər saldıqda onun folklora, ümumiyyətlə ədəbiyyata olan münasibətini o dövrün ictimai-siyasi hadisələri ilə əlaqələndirmək də olar. Bəlkə də Azərbaycana olan təqib və təzyiqlər, dilimizin sıxışdırılması, dinimizə qarşı olan soyuq münasibətlər və sairə bu kimi məsələlər görkəmli ədəbiyyatşünasın ədəbiyyat tariximizi yaratmasına və folklorun toplanmasına müraciət etməsinə səbəb olmuşdur.

O xalq ədəbiyyatının nağıl janrına da toxunaraq "Nağıllarda həqiqət halı ilə xəyalət aləmi, doğru ilə yalan, mümkün ilə qeyri





mümkün elə bir məharətlə bir-biri ilə calışır ki, əqli-insan heyrətdə qalır" deyə söyləmişdir(1.s.56).

Hər şeydən əvvəl biz F.b.Köçərlidən xalq ədəbiyyatının toplayıcısı kimi danışmalıyıq. Baxmayaraq ki, Köçərli yaradıcılığının əsas hissəsini pedaqoji fəaliyyətə həsr etmişdir, lakin, o eyni zamanda Azərbaycan ədəbiyyatı tarixi ilə də məşğul olmuş, yaradıcılığının bir hissəsini də maarifə, təhsilə, Azərbaycan dilinin inkişafına, Azərbaycan kökünə, soyuna söykənən folkloruna həsr etmişdir. O hətta insanların həyatında baş verən ictimai, siyasi və sosial məsələlərə də biganə qala bilmirdi. Sözsüz ki, F.b.Köçərlinin Azərbaycan folklor nümunələrini toplamasının əsas səbəblərindən biri, bəlkə də birincisi onun vətəninə, xalqına olan sevgisi olmuşdur ki, xalqının tarixi arada itib-batmasın. O, ədəbiyyat tariximizə dair geniş miqyasda materiallar toplayaraq sistemə salmış və elmi nəzəri-tənqidi fikirlərini də söyləmişdir. F.b.Köçərlinin toplamış olduğu materiallar, folklor nümunələri müxtəlif mətbuat səhifələrində tez-tez dərc olunurdu.

F.b.Köçərli şifahi xalq yaradıcılığını təkcə azərbaycanlı oxucular arasında deyil, rus oxucuları arasında da geniş təbliğ edirdi. O, rus mətbuatının səhifələrində Azərbaycan folklorunu, tarixi etnoqrafiyasını, mədəniyyətini, çoxəsrlik mənəvi irsini təbliğ edən yazılarla çıxışlar edirdi. Rus oxucularını Azərbaycanın tarixi mədəni irsi ilə tanış etmək Firidun bəy Köçərliyə xüsusi zövq verirdi. Köçərlinin məqsədi rus oxucularına Azərbaycan kimi qədim bir ölkənin olduğunu, bu ölkənin necə bir mədəniyyətə malik olduğunu göstərmək idi.

Firidun bəy Köçərli zəngin xalq irsinin toplanmasında böyük səbr, diqqət və dözüm nümayiş etdirdi. O, Azərbaycan folklorunda xalqının zəngin irsini, müdrikliyini, təfəkkürünü göstərməyə çalışırdı.

Böyük alim F.b.Köçərli folkloru cəmiyyətdə insanların tərbiyəsi, savadlanması üçün əsas vasitə hesab edirdi. Bu

sahədə H.Zərdabi, E.Sultanov, S.Ağamalıoğlu, H.Minasazov, M.V.Qəmərlinski, T.Bayraməlibəyov, M.Şahtaxtlı R.Əfəndiyev, A.Şaiq, S.Qənizadə, S.Mümtaz, A.Səhhət, M.Mahmudbəyov, H.Zeynallı, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli ilə birlikdə F. Köçərlinin də adını xüsusi qeyd etmək lazımdır. Bu ədiblər istər rus və dünya xalqlarının ədəbiyyatından, istərsə də Azərbaycan şifahi ədəbiyyatından nümunələrin toplanmasında, tərcümə edilməsində çox böyük işlər görüblər. Hətta dünya şöhrətli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli xalq musiqisi əsasında yazdığı əsərlərinin meydana gəlməsində uşaq yazıçılarının folklordan istifadə etdiyi ədəbiyyatlarının da bir təsirinin və əlaqəsinin olduğunu qeyd edirdi. Canımıza və qanımıza hopmuş qədim adət-ənənələrdən, oxunan laylalardan, söylənilən nağıllardan və bayatılardan, xalq mahnılarından, şeir və qəzəllərdən bəhrələnərək yazıb yaradan yazıçılarımız, şair və bəstəkarlarımız bu gün də folklorumuza söykənərək gələcək nəsillər üçün bir iz qoymaqda davam edirlər.

Ədəbiyyat kitablarında folklor haqqında məlumatların olması, onlara geniş yer verilməsi bu janrın hələ də yaşadığından xəbər verir. Ağır bir zəhmətin nəticəsi olaraq 1908-ci ildə F.b.Köçərli topladığı materialları "Şifahi xalq yaradıcılığı" adı altında çap etdirməyə təşəbbüs göstərmiş,. lakin maddi imkansızlıq üzündən istəyinə nail ola bilməmişdir. "Zaqafqazskoye obozreniye" qəzetinin əməkdaşları qəzet vasitəsi ilə bu materialların toplanmasın yüksək qiymətləndirərək, imkanlı və mənsəb sahiblərini F.b.Köçərlinin kitabının nəşr edilməsinə köməklik göstərməyə çağırırdı. F.b.Köçərlinin bu zəhmətini yetərincə dəyərləndirən müasirləri ona kömək etməyi özlərinə vətəndaşlıq borcu hesab edirdilər.

F.b.Köçərli Azərbaycan şifahi xalq ədəbiyyatına qayğı ilə yanaşır, dost tanışlarla əlaqə saxlayıb dastan, nağıl, bayatı, lətifə və məsəllərimizi həvəslə toplayırdı. O, fəaliyyətinin çox





hissəsini bu işə, xalq yaradıcılığının öyrənilməsinə həsr etmişdir(10.s.61). Uşaqlar üçün xüsusilə gözəl əsərlərin yaradılmasını, bu əsərlərin dərsliklərdə yer almasını diqqətə çatdıran Köçərli özü də bu nümunələr əsasında gözəl nağıllar və hekayələr yazırdı. Onun uşaqlar üçün yaratdıqlarının yüz əlli ilə qədər vaxt keçməsinə baxmyarq, bu gün də maraqla istifadə olunur.

F.b.Köçərli körpə balalar üçün oxunan laylaları xüsusilə qeyd edirdi. O, Analarımızın beşik başında körpələrə layla çalarkən

*Laylay dedim yatasan,*
*Qızılgülə batasan.*
*Qızıl gülün içində,*
*Şirin yuxu tapasan*

dəməsini və yaxud körpəni oxşayarkən

*Balama qurban inəklər,*
*Balam nə vaxt iməklər?*

*Balama qurban ilanlar,*
*Balam nə vaxt dil anlar?*

*Balama qurban alçalar,*
*Balam nə vaxt əl çalar?*

–demələri nə qədər sadə, şirin, ruhu oxşayan bir deyimdir. Bu cür maraqlı misallar Azərbaycan folklorunda yüzlərlədir.

XX əsrin əvvəllərində Azərbaycanda folklorşünaslıq xeyli inkişaf etməyə başlayır. Bəzi xalqlar tərəfindən Azərbaycan xalq ədəbiyyatının nümunələrinin folklorumuzun əsasını təşkil edən bayatı, nağıl, tapmaca, layla, lətifə, atalar sözləri və s. janrların

başqa xalqlar tərəfindən mənimsənilməsinə baxmayaraq, yenə də xalq tərəfindən mühafizə olunaraq bizə gəlib çatanları oldu. Lakin F.b.Köçərli və onun kimi folklorşünasların zaman-zaman qoruyaraq əsərlərində bizlərə ötürdükləri folklor nümunələrinin məhz Azərbaycan folklor nümunəsi olduğu sübut edilmişdir.

Folklorumuzun bir qolu da atalar sözləridir ki, əsrlərdən süzülərək bu günümüzə gəlmiş, hətta bu günki həyatımızda mütəmadi istifadə edilir. Bu bir daha onu göstərir ki, Azərbaycan xalqının mənəvi sərvəti olan folklor canımıza, qanımız hopmuş və babalardan bizlərə miras qalıbdır.

Firidun bəy Köçərlinin folklor nümunələrinə istinad etməsi, bu nümunələrdən ən çox istifadə edilən formaca qısa məzmunca bitkin olan atalar sözlərində dərin bir mənanın olduğunu, insanın həyatında mühüm rol oynadığını, ən başlıcası isə nəsihət, məsləhət vasitəsi kimi bu günümüzdə də akrualdır. Atalar sözlərində həqiqətən də xalqımızın keçmişini əks etdirən, onların həyatını, məişətini nəsillərə diktə edən ağıl və hisslərin məhsulu vardır. Məsələn: "İşləməyən dişləməz", "Qurd ağacı içindən yeyər", "Hirsli başda ağıl olmaz", "Biri od olanda, biri su olsun gərək", "Halva-halva deməklə ağız şirin olmur", "Nə əkərsən, onu da biçərsən", "Qızını döyməyən dizini döyər", "Uşaqsız ev suyu sovrulmuş dəyirman kimidir", "Əl əli yuyar, əl də üzü", "Kasıba oğul olunca, dövlətliyə qul ol", "Söyüd ağacı bar verməz", ""Aslanın erkəyi, dişisi olmaz", Ot kökü üstə bitər" və yaxud "nə tökərsən aşına, o da çıxar qaşığına" kimi sözlərə diqqətlə yanaşdıqda bu sözlərdə nə qədər dərin, fəlsəfi məna olduğunu aydın görmək olur.

F.b.Köçərlinin tədqiqatlarından görünür ki, atalar sözləri və məsəllər hər bir xalqın əxlaqi, adət-ənənəsi, məişəti, təssərrüfatı, yaşayışı, əməyi və s. ilə bağli görüşlərindən yaranmışdır. Hər söylənilən atalar sözlərinin sətiraltı açıqlaması vardır ki, bu da ailə zəminində yaranmış məsəllərlə, qəhrəmanlıq, igidlik, yaşayış tərzi, məhəbbət, ayrılıq, vüsal, təsərrüfat və yaxud ovçuluqla bağlı olan münasibətlərlə bağlı olaraq əmələ gəlmişdir. Atalar sözlərinin həm də tərbiyəvi rolu vardır. Məsələn: "İşləməyən dişləməz" misalından aydın görünür ki, tənbəl adam işləməzsə çörək qazana bilməz. Və yaxud "Qurddan qorxan, ova getməz" dedikdə əgər ova gedirsənsə hər cür maneə ilə rastlaşa bilərsən, əks təqdirdə ova getmə kimi anlayışlar insanlarda düşünmək kimi fikrini ortaya çıxarır. Həm Azərbaycan, həm də başqa xalqların atalar sözləri və məsəlləri kitablarında "Hikmətli sözlər", "ibrətli sözlər", "qanadlı sözlər", "qızıl sözlər" kimi ifadələrə tez-tez təsadüf olunur. Dərin ağlın məhsulu olan bu nümunələrin heç biri o birisini təkrarlamır. Ümumiyyətlə atalar sözləri bitmiş bir fikri ifadə edir.





Firidun bəy Azərbaycan folklorunun həm itib batmaması üçün zəhmət çəkərək onu toplamış, həm də Azərbaycan folklorunun tərbiyəvi cəhətinin olduğunu nəzərə çatdırmağa çalışmışdır. Firidun bəy həm də bir pedaqoq nöqteyi-nəzərindən, folklorumuzun yaradıcılıq nümunələrindən dərsliklərə salınmasının gələcək övladlarımızın təlim-tərbiyəsinə birbaşa təsir göstərəcəyində böyük rol oynayacağını qeyd edirdi.

Firidun bəy Köçərli onu da qeyd edirdi ki, atalar sözü və məsəllərin dili o qədər sadə, obrazlı, aydındır ki, onun çox zaman şərhinə ehtiyac olmur. Məsələn: "İlanın ağına da lənət, qarasına da" ifadəsində əgər söhbət ilandan gedirsə, özü də zəhərli ilandan onun nə ağı, nə qarası, ilan ilandır. Bu misaldan bir daha folklorun nə qədər güclü təsirə malik olduğunu, hətta insanı düşündürdüyünün anlamına gəlmək olur. Folklorun qolları çoxdur, genişdir. Azərbaycan folkloru isə daha zəngin, daha maraqlıdır. Azərbaycan folklorunun məişətimizə aid olan nümaunələri bu cəhətdən daha rəngarəngdir.

Azərbaycanın ən yadda qalan folklor nümunələrindən biri də milli bayramımız olan "Novruz bayramı "dır ki, onu xüsu-

silə qeyd etmək lazımdır. Bu bayramda keçirilən tədbirlər bütünlükdə folklorumuzun çox qədim tarixini özündə əks etdirir. Zaman-zaman folklorun bu nümunəsi də başqa nümunələri kimi formaca dəyişilmişdirsə də məzmunca eyni qalmışdır. Müasir günümüzdə Novruz bayramı münasibəti ilə hazırlanmış səhnəciklər, oyunlar, deyişmələr əsrlərdən üzü bəri süzülüb gəlmişdir. Burada istifadə edilən atalar sözləri, bayatılar, zərb məsəllər, tapmacalar, yanıltmaclar və s. Azərbaycanın məişət və mədəniyyət tarixini öyrənməyə imkan yaradan vasitələrindəndir.

Folklor birbaşa mədəniyyət, soy-kök, nəsil-nəcabət deməkdir. Folklor nümunələrini diqqətlə araşdırdıqda Azərbaycanın tarixini, mədəniyyətini, sosial-məişətini öyrənmək mümkündür. Folklor ədəbiyyatın inkişafına kömək edən əsas mənbələrdən sayılır. Tarixən Vətəni, torpağı, ailəni qoruyan qəhrəmanlar haqqında müxtəlif əfsanələr, rəvayətlər meydana gəlmişdir ki, həmən əfsanələrin çoxunu xalq öz sevimli qəhrəmanlarına həsr edərək, müxtəlif mahnılar, şeirlər, nağıllar və s. yaratmışlar. Görkəmli ədib bütün bunları nəzərə alaraq, əsərlərində folklor nümunələrindən bol-bol istifadə etmişdir. F.b.Köçərli Azərbaycanın folklorunu qorumaqla Azərbaycanın tarixini, qədimliyini və mədəniyyətini qorumağa çalışırdı.

F.b.Köçərli hər şeydən əvvəl savadlı, yüksək mədəniyyətə malik, rus dilini mükəmməl bilən ziyalı və məşhur ədəbiyyat tarixçisi idi. O, ilk dəfə ədəbiyyat tariximizə dair geniş miqyasda materiallar toplayıb sistemə salmış və elmi nəzəri-tənqidi fikirlər söyləmişdir. Bu iş ilə əlaqədar eyni zamanda ədib xalq ədəbiyyatını da toplamış, çap etdirmişdir(1.s.57). Bütün məşhur ədəbiyyat tarixçiləri kimi F.b.Köçərli də ədəbiyyat tarixinin məhz şifahi xalq yaradıcılığından başlandığını bilirdi.

Qeyd edildiyi kimi F.b.Köçərlinin yaradıcılığı çoxşaxəli, rəngarəng olmuşdur. O folklorşünas olmaqdan əlavə ədəbiyyatşünas, şəriət bilicisi, tənqidçi, publisist, dilçi, tərcüməçi, siyasətçi və ən nəhayəti gözəl pedaqoq idi. Doğrudur, alimin həyat və yaradıcılığını araşdırdıqda məlum olur ki, o ömrünün çox hissəsini pedaqoji fəaliyyətə sərf etmişdir, lakin, bu heç də onun ədəbiyyatşünas kimi fəaliyyətinə mane olmayıbdır. F.b.Köçərli uşaqların təlim, tərbiyəsi və tədrisi ilə məşğul olmaqdan zövq alırdı, övladlarımızın savadlanması uğrunda apardığı mübarizəni həyatında ən vacib mübarizə sayırdı. Pedaqoji fəaliyyətlə məşğul olan ədib bir tərəfdən müxtəlif məsələlər barədə aktual mövzulara toxunaraq məqalələr dərc etdirir, digər tərəfdən isə tərcümə işi məşğul olurdu. Unudulmaqda olan folklor nümunələrinin toplanıb ərsəyə gəlməsində gərgin əmək sərf edən F.b.Köçərli gördüyü bu xeyirxah işləri özünün vətəndaşlıq borcu edirdi. O, həqiqi mənada əsl vətənpərvər idi. Millətinin gələcəyi üçün zəhmət çəkən ədib bu yazılarının gələcək nəsillər üçün bir ədəbiyyat tarixinin mənbəyi olacağına əmin idi.





F.b.Köçərli öz dövrünün zəruri problemləri ilə yaxından maraqlanırdı. Zəngin ədəbi-bədii irsə malik olan Firidun bəy Köçərlinin yorulmaq bilmədən çalışması onun bitib-tükənməyən arzularının davamı idi.

Azərbaycan ədəbiyyatında öz dəstixətti ilə seçilən F.b.Köçərlinin "Azərbaycan tatarlarının ədəbiyyatı" kimi bir əsəri meydana çıxarması, xüsusilə onun yaşadığı dövr üçün möhtəşəm olan bu əsər bu gün də müasir həyatımızda və ədəbiyyatımızın inkişafında möhtəşəmliyini qoruyaraq saxlamaqdadır. Bu əsərin az vaxt ərzində böyük marağa səbəb olduğunu görən və bundan fərəh hissi keçirən F.b.Köçərli daha sanballı və daha geniş məzmunlu kitab hazırlamaq qərarına gəlir və bunun üçün əlində olan materialları saf-çürük etməyə başlayır.

Bu məqsədlə axtarışlar aparan müəllif bir çox əlavə məlumat və ədəbiyyat əldə etmiş, nəticədə "Azərbaycan ədəbiyyatı tarixi" kimi iki cild, üç hissədən ibarət sanballı əsər yaratmışdır(11.s.8).

F.b.Köçərli cəmiyyətdə olan ziddiyyətləri görən və dərk edən sənətkar idi. O şifahi və yazılı ədəbiyyatın fərqini belə izah edirdi: "Yazılı ədəbiyyatın mənbəsi, müəllifi məlumdur. Şifahi ədəbiyyatın isə müəllifi məlum deyil. Ağızdan ağıza keçərək gəlib bizə çatan bu folklor nümunələrinin müəllifinin kimliyi məlum olmadığı üçün bunlar el arasında xalq nağılları, xalq dastanı, xalq bayatısı, xalq mahnısı, lətifələr və s. adlanır. Bəzi mənbələrdə haqlı olaraq bu folklor nümunələri "el ədəbiyyatı" adlandırılır. Folklor nümunələrinin itib sıradan çıxması, həmçinin başqa xalqlar tərəfindən mənimsənilməsi üzündən onların toplanmasını vacib bilən Köçərli, ağır zəhmət tələb edən bu işin öhdəsindən gəlməyə çalışırdı. Təmiz Azərbaycan dilində olan materialların işlənməsində diqqətli olan F.b.Köçərli məhz Azərbaycan sözlərini qorumağa çalışırdı. Buna görə o yabançı sözlərin folklor nümunələrinə qatılmasını istəmirdi. Ağızdan ağıza ötürülmüş bu nümunələrdə mütləq müəyyən əlavələr, ləhcələr, şivələr qatılmış olurdu. F.b.Köçərli Azərbaycanın hər bir bölgəsindən əldə etdiyi folklor nümunələrə diqqətlə yanaşır, dəqiq araşdırmalar aparırdı. O bir cəhəti də xüsusi olaraq qeyd edirdi ki, hər bir yaşanan zamanın öz dövrünə uyğun zövqü olur. Hər hansı bir mənfi və yaxud müsbət cəhəti nəzm və nəsr formasında xalqa çatdırmaq mümkündür. Hətta xalqı belə əsərlər vasitəsi ilə maarifləndirmək, həyatda cərəyan edən hadisələrdən xəbərdar etmək olar. Şair və yazıçıların da o dövrə uyğun hadisələri qələmə almaları bu cəhətdən təbiidir. Amma keçmişi unutmadan, dəyərlərə söykənmədən keçinmək olmaz. Buna görə fəaliyyətinin uzun bir hissəsisni folklorun toplanmasına həsr edən Köçərli, folklor nümunələri keçmişin canlı səhifəsi adlandırırdı. F.b.Köçərli folklorun geniş əhatəli olduğunu bildiyi üçün folklorun nağıl, atalar sözləri, laylalar, bayatılar və s. janrlarına diqqətlə yanaşırdı.

Azərbaycan folklorunda Köçərlinin ən çox diqqət ayırdığı





məqam, toplanmış nümunələrin Azərbaycana məxsusluğunu, məişətimizdən qaynaqlandığını ayırd etmək idi. Çünki, şifahi söz sənəti yazılı ədəbiyyatdan fərqli olaraq xalqın mənəvi qüdrətini, ictimai-siyasi, tarixi hadisələrə münasibətini dolğun və bədii biçimdə əks etdirən zəngin irsdir.

F.Köçərlinin xalq ədəbiyyatının mahiyyəti, ictimai məzmunu və janr xüsusiyyətləri haqqındakı fikirləri indi də öz elmi əhəmiyyətini itirməyibdir.

Xalq ədəbiyyatının yazılı ədəbiyyatdan fərqi onun hafizələrdə yaşayaraq nəsildən-nəslə keçməsidir. Bu müasir folklorşünaslıqda mühüm cəhətlərdən biri kimi qeyd olunur. Folklorun bir xüsusiyyəti F.Köçərlinin kitaba yazdığı müqəddimədə göstərilmişdir. "Əfvahi ədəbiyyatda nəql və hekayələri tərtib edən və nəğmələri düzən müəyyən bir şəxs olmayıb, bunları yaradan və yoxdan var edən millət özü olur. Bunları ağızlarda söyləmək ilə ümumxalq arasında yayılıb intişar tapır və nəsilbənəsil atadan oğula və oğuldan nəvəyə keçməkdə olur(11.s.36).

F.b.Köçərliyə görə folklorun epik janrları ilə bərabər mahnı janrları da vardır ki, bu janrda insanların başqa aləmi, başqa hiss-düşüncələri öz ifadəsini tapmışdır. Onun fikrincə sinədən oxunan nəğmələrdə millət özünə aid olan qəm və qüssəni, yaxud şadlıq və fərəhi ilə qeyrilərini bu hisslərinə şərik edir. Həqiqətən də bu cür mülahizələrdən F.b.Köçərlinin folklorun xüsusiyyətlərini, incəliklərini dərindən duyduğunun, hiss etdiyinin, bu nümunələrlə qəlbən yaşadığının şahidi oluruq. O, ədəbiyyata seyirci münasibət bəsləmirdi və təkcə folklor nümunələrini toplayıb yığmaqla işini bitmiş hesab etməyirdi. Firidun bəy bu nümunələrin həm yaşadığı dövr üçün, həm də ondan sonra gələcək nəsillər üçün nə qədər önəmli olduğunu bilirdi.

Görkəmli ədəbiyyatşünas alim "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin yazılmasında bu cəhətə üstünlük verirdi.

F.b.Köçərli bu cəhəti teatr üçün yazılmış tamaşalara da aid edirdi. O "Azərbaycan ədəbiyyatı" əsərində dramaturgiyanın inkişafında teatrın rolundan söhbət açaraq yazırdı: "Bizim yaşadığımız zəmanədə dramatik əsərlər Azərbaycan yazıçılarının zövqlərinə daha uyğun gəlmişdir. Bu, başlıca olaraq belə bir vəziyyətlə izah olunur ki, ədəbi əsərlərin bu növündə cəmiyyətdəki nöqsanları və qüsurları daha dolğun və aydın şəkildə göstərmək və həmən əsərləri səhnədə tamaşaya qoymaqla kütlənin diqqətini bu nöqsanlara və qüsurlara cəlb etmək mümkündür"(5.s.146).

F.b.Köçərli folklorun bütün nümunələri üzrə araşdırmalar aparırdı. Köçərli folkloru bir bulaq timsalında görürdü. Bulaqdan su axdığı kimi, folklorun bitib tükənməyən məsəlləri, sözləri, ifadələri var idi.

F.b.Köçərlinin xalq ədəbiyyatının nağıl janrına aid fikirləri xüsusilə maraqlıdır. O, bu janrda xəyalət ilə həqiqətin, mümkün ilə qeyri mümkünün, doğru ilə yalanın biri birinə calaşmasından yaranan hadisələrdə insan ağlının heyrətləndiyini, yəni insanın fantaziyasının nə qədər güclü olduğunu söyləməklə nağıllara dərindən bələd olduğunu nəzərə çatdırmağa çalışmışdır. Nağıllarımızda oddan, alovdan keçən, ölümdən belə qorxmayan, dağlar yaran, ən vəhşi heyvanlarla vuruşaraq onlara qalib gələn əfsanəvi qəhrəmanları və yaxud heyvanat aləminin ağıla gəlməz əcaib divləri, quşları haqqında yaranmış fantaziyaları F.b.Köçərli çox yüksək qiymətləndirirdi. Bu nağıllar nəinki uşaqların hətta böyüklərin də marağına səbəb olaraq həvəslə izlənilirdi.

F.b.Köçərli folklor nümunələrinin növləri və ifadə formaları haqqında dəyərli fikirləri vardir. Məsələn, nağıllardan bəhs edərkən onların nəzm və nəsrin vəhdətindən yarandığını, fantastik, əfsanəvi formalara malik olduğunu, bu tipli əsərlərin təmsillərlə yaxınlığını göstərərək, düzgün nəticələr əldə edirdi.





Köçərli xalq ədəbiyyatının yazılı ədəbiyyatdan fərqini onun hafizələrə həkk olunduğunu, ağızdan-ağıza ötürüldüyünü, məhz bu səbəbdən də "el ədəbiyyatı" adlandırıldığını qeyd edirdi.

XX əsrin əvvəlləri elə bir zaman idi ki, Azərbaycanın mədəni həyatında şifahi xalq yaradıcılığına güclü meyl yaranmışdır. Bu dövr həm də A. Şaiq və A. Səhhətin hörmətlə danışdıqları F.b.Köçərlinin "Balalara hədiyyə" və H. Zərdabinin "Kəşkülinigəm" kitablarının əks-sədası dövrü idi (6.s.78). Lakin bütün bu təriflərlə bərabər, əsərlər həm də tənqid hədəfinə çevrilmişdir.

F.b.Köçərli XX əsrin əvvəllərində Azərbaycanda yaşanan ağır, gərgin, ictimai-siyasi və ədəbi mübarizələr dövründə folklora qarşı olan hücumları görür və onu inkar edənləri tənqid atəşinə tutmaqdan çəkinməyirdi. Tənqidi inkar edən insanlar Azərbaycanın təkcə folkloruna deyil eyni zamanda dilinə, ədəbiyyatına, mədəniyyətinə qarşı da çıxırdılar. Onlar Azərbaycan xalqının əsrlər boyu yaratdığı mənəvi sərvətləri heç cürə qəbul etməyərək bu mənəvi sərvətləri gözdən salmaqla, hətta bu işlə məşğul olmağın özünü geriliyə addım hesab edir, yazıçılarımızın və pedaqoqlarımızın bu mövzuda yazdıqları dərslikləri isə cəfəngiyyat adlandırırdılar. Xalq ədəbiyyatının nəzəriyyəçisi olan F.b.Köçərli isə əksinə olaraq bu işlə məşğul olan alimlərin ağır zəhmət tələb edən əməyinə dəyər verərək, onların əsərlərinin Azərbaycan xalqının ədəbiyyatı tarixinin öyrənilməsində vacib olduğunu sübut etməyə çalışırdı.

1908-ci ildə folklor sahəsindəki tədqiqlərini başa çatdıran ədib, topladığı materiallarının "Şifahi xalq yaradıcılığı " adı altında çap etdirmək qərarına gəlir. Lakin maddi imkansızlıq ucbatından bu arzusunu reallaşdıra bilmir. Bu işdə ona kömək etməyə çalışan "Zaqafqazskoye obozreniye" qəzetinin əməkdaşları qəzet vasitəsi ilə mənsəb sahibi olan imkanlı adamları Firidun bəyə köməklik göstərməyə dəvət edir.

Atalar sözü və məsəllər Füzuli misralarını da rövnəqləndirmişdir. Şairin düşüncə dəryası "söz almazı", "məna gövhəri" ilə cilalanmışdır."Gül xarsız olmaz", "Od olub yandırır, su olub öldürür", "El ağzını tutmaq olmaz", "Dərdə dözən səbrlə kama çatar", "Mən dönmərəm bu yoldan ölüm olsa, qan olsa", kimi onlarca misra atalar sözü və məsəl kimi Füzuli dühasında cilalanıb yenidən xalqa qaytarılmışdır.

Atalar sözü və məsəllər Xətai, X.Təbrizi, M.P.Vaqif, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, N.Vəzirov, R.Əfəndiyev, F.Köçərli, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, H.Cavid, S.Vurğun və digər görkəmli sənətkarların yaradıcılıq mənbəyi olmuşdur. Bu sənətkarlar sözsüz ki, yaradıcılıqlarında folklor nümunələrindən bəhrələnərək bir-birindən gözəl əsərlər yarada bildilər.

Azərbaycan tatarlarının ədəbiyyatı" və istərsə də "Azərbaycan ədəbiyyatının tarixi materialları" əsərləri F.b.Köçərlinin ağır zəhmətinin məhsulu olaraq aktuallığını saxlamaqdadır. Azərbaycanın folklorunun öyrənilməsində, klassiklərimizin həyat və yaradıcılıqlarının, eləcə də əsərlərinin tədqiq olunmasında bu əsərin çox böyük rolu vardır. Hər yerdə qeyd edildiyi kimi, məlumdur ki, şifahi söz sənəti xalqın mənəvi qüdrətini, ictimai-siyasi, tarixi hadisələrə münasibətini dolğun və bədii biçimdə əks etdirən zəngin irsdir. Bu irsi qoruyaraq gələcək nəsillərə ötürülməsi məsuliyyəti birbaşa ziyalıların üzərinə düşdüyü üçün, F.Köçərlinin bu əməyi təqdirəlayiqdir. Şifahi söz ədəbiyyatı, xalq ədəbiyyatı, el ədəbiyyatı adlandırılan folklor janrını bu günki, ədəbiyyatımızın da incisi hesab etmək olar.

Görkəmli ədib F.b.Köçərli ədəbiyyatı şifahi və yazılı ədəbiyyat olaraq iki qismə bölürdü. Bunun bir qismi ağızdan ağıza ötürülən "el ədəbiyyatı", o biri qisim isə yazı ilə hasil olan ədəbiyyat adlanırdı.

F.b.Köçərli müəllifi məlum olan ədəbiyyatı yazıçının





icazəsi olmadan heç kəsin dəyişdirməyə ixtiyarının çatmadığını, "el ədəbiyyatı"nın isə ağızdan ağıza ötürülərək və müəyyən dövrlərdə bəzi adamlar tərəfindən əlavələr edilərək günümüzə qədər gələn ədəbiyyat olduğunu anlatmağa çalışırdı. Həmişə olduğu kimi o dövrdə də Azərbaycan xalqının keçmişini, qədimliyini göstərən xalq ədəbiyyatımızın bəzi xalqlar tərəfindən mənimsənilməsinə çalışanlar var idi. F.b.Köçərli Azərbaycan xalqının nə qədər istedadlı, bacarıqlı, müdrik və şairanə təbiətli olduğunu bildiyi üçün bu nümunələrin Azərbaycan xalqından gəldiyini, məhz bu xalqa aid olduğunu sübut etməyə çalışırdı.

Azərbaycanın şifahi xalq ədəbiyyatına nəzər saldıqda görürük ki, Azərbaycan ədəbiyyatında önəmli yerlərdən birini də atalar sözləri tutur. Çünki, atalar sözündə və məsəllərində çox dərin, ictimai məzmun, fəlsəfi məna, işıqlı idrak qüdrəti vardır(5.s.76).

Atalar sözləri və zərb məsəllər xalq tərəfindən yaradılır, ona görə də milli-özünəməxsus xarakter daşıyır. F.b.Köçərli şifahi xalq ədəbiyyatını dərk edərək, bu ədəbiyyatı "xalqın qəlbinin səsi" adlandırırdı. Həqiqətən də folklorda xalqın səsi və əsrlərdən gələn əks-sədası vardır.

Folklor təkcə bayatılardan. laylalardan, oxşamalardan, atmacalardan, ibarət deyildir. Folklorumuza aid olan onlarla nümunələr vardır ki, müasir ədəbiyyatımızda da onlardan istifadə olunur.

Qədim köklərə malik olan Azərbaycan folkloru bu gün də öz aktuallığını saxlamaqdadır. 5 min ilə yaxın tarixi olan "Novruz" bayramı bu cəhətdən bizim üçün daha maraqlıdır. Bu bayramda təşkil olunan tamaşalar, göstərilən oyunlar, keçirilən yarışlar bunun köklərinin çox qədim olduğundan xəbər verir və Azərbaycanın xalqının özünün nə qədər qədim xalq olduğunu bir daha göstərir. Belə ki, hər il qeyd olunan Novruz bayramında

təşkil edilmiş tamaşalarda oxunan nəğmələr, söylənilən nağıllar, göstərilən kiçik səhnəciklər və s. sırf Azərbaycan xalqının həyat nümunələrindəndir. Torpağın oyanmasına, ruzi-bərəkətin bolluğuna işarə edilən səmənin göyərdilməsində də Azərbaycan xalqının folklorundan istifadə olunmuşdur. Məsələn:

*Səməni saxla məni,*
*İldə göyərdərəm səni*

Bu kimi folklor nümunələri Azərbaycan ədəbiyyatının tarixində yetərincədir. Azərbaycanın folkloru onun dili kimi sadə, maraqlı və cəlbedicidir. Hər il səbirsizliklə gözlənilən bu bayram demək olar ki, bütün müsəlman ölkələrində, orta Asiyada və Şərq ölkələrində qeyd edilir. Dərin kökləri olan Novruz bayramı bütünlüklə folklor nümunəsidir. Bu bayramda adət-ənənələrin geniş yer alması onun da xalq tərəfindən bu günə qədər qorunmasına gətirib çıxarmışdır. Azərbaycanın görkəmli folklorşünas alimi Firidun bəy Köçərli qədim folklor nümunələrini toplamaqla Azərbaycan ədəbiyyatına çox böyük və dəyərli töhfə vermişdir. Xalqının qədim tarixini, mədəniyyətini öyrənərək gələcək nəsillərə tanıtdırmaq, gənclərdə vətənpərvərlik hissi oyatmaq, müasirlərini maarifçilik uğrunda mübarizəyə cəlb etmək, vətənə vicdanla xidmət göstərmək əsl insani borcdur. Məhz bu xidmətlərinə görə Firidun bəy Köçərlinin adı Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixində əbədiləşmişdir.

Şifahi xalq ədəbiyyatı adlandırılan folklor janrı müasir ədəbiyyatımızın formalaşmasında müstəsna rol oynamaqdadır. İstər teatr tamaşalarında, istər kinofilmlərin çəkilişində, istər hər hansı bir tədbirin hazırlanmasında folklor nümunələri olan atalar sözləri, nağıllar, bayatılar, tapmacalar və s. növlərindən geniş istifadə olunur.





Bu nəcib işdə nəinki Firidun bəy Köçərli, eləcə də onun simasında bir çox dəyərli folklorşünaslarımız olubdur ki, onların hər birinin yaradıcılığı tədqiqatçı alimlər tərəfindən ayrı-ayrılıqda öyrənilərək hələ də tədqiq olunmaqdadır.

**ƏDƏBİYYAT:**

1. İ. Babayev; P. Əfəndiyev: "Azərbaycan şifahi xalq ədəbiyyatı". Bakı, 1970.
2. B. Nəbiyev: " Firidun bəy Köçərli". Bakı, 1963. 163.s.
3. X. Məmmədov: "Əkinçidən Molla Nəsrəddinə qədər". Bakı, 1987. 269.s.
4. K. Talıbzadə: " XX əsr Azərbaycan tənqidi". Bakı, 1966. 536 s.
5. A. Nəcəfov: "Ölkəmizdə mədəniyyətlərin inkişafı və yaxınlaşmasında keçmiş irsin rolu ". Bakı. 1964.
6. K. Əliyev: "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri". Bakı, 1985.
7. A. Hacıyev: " Tiflis ədəbi mühiti". Bakı, 1980. 182.s.
8. A. H. Feyzullayeva: "Maarif carçıları ".Bakı, 1988.
9. Ə. Saləddin: "Sabir və folklor". Bakı, 1969.
10. Respublika elmi konfransının materialları. BDU. Bakı, 2013. 262.s.
11. İ. Bəktaşi: "Firidunbəy Köçərlinin yaradıcılıq yolu". Bakı,1986. 184 s.
12. "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər". VI.Bakı, 1981.
13. Ə.Qarabağlı: "Azərbaycan ədəbiyyatının tədrisi metodikası.Bakı, 1968.350 s.
14. Ə.Mirəhmədov: "Azərbaycan ədəbiyyatına dair tədqiqlər", Bakı. 1983. 363 s.

## FİRİDUN BƏY KÖÇƏRLİNİN YARADICILIĞINDA DİNƏ MÜNASİBƏT

F.b.Köçərli hələ gənc yaşlarından mübariz ruhlu, azad düşüncəli, sərbəst fikirli idi. Bu səbəbdən var qüvvəsini gənclərin savadlanmasına, təhsilə cəlb olunmasına və biliklərinin artmasına sərf edirdi.

F.b.Köçərlinin 9 yaşı olanda atası Əhmədağa kişi onu o zaman Şuşada sayılıb-seçilən müdərrislərindən Mirzə Kərim Münşizadənin məktəbinə qoyur. Burada Firidun bütün köhnə tipli məktəb və mədrəsələrdə ənənəvi olduğu kimi Quranın ayələrini, çərəkə və cüzləri, öyrənir, "Gülüstan" və "Bustan"ı, "Leyli və Məcnun" dastanını oxuyur. Rus dilinin nə qədər vacib olduğunu anlayan və bu dili bilənlərin bəy və çar məmurlarının yanında böyük nüfuza malik olduğunu görən Əhmədağa kişi oğluna rusca təhsil vermək qərarına gəlir və bu məqsədlə oğlunun rus dilində təhsil almasına çalışır.

Tarixi hadisələr və gözəl ənənələrlə zəngin olan Şuşa şəhərində F.Köçərlinin doğulduğu illərdə müəyyən bir oyanma və canlanma özünü göstərirdi(8.s.12).

XIX əsrin yetmişinci illərində çar hökumətinin siyasəti nəticəsində kəndli kütlələrinin narazılığının artması, artıq kəndlərdə sinfi mübarizənin genişlənməsi təsiri altında Azərbaycan da təhkimçilik hüququnu ləğv etməyə, bir sıra inzibati-məhkəmə islahatları keçirməyə məcbur olur. Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında baş verən irəliləmələr zəminində milli mədəniyyət yeniləşməyə doğru gedirdi. Bu bütün sahələrdə olduğu kimi təhsil sahəsinə də təsir etməyə başlamışdı.

Bir sıra ölkələrlə müqayisədə Azərbaycanda təhsilin inkişafına, xüsusilə də müsəlmanların savadlanmasına laqeyd münasibət göstərən çar hökuməti qarşısında qaldırılan məsələlər, bəzi hallarda müsbət həllini tapa bilirdi. Geriliyə, cəhalətə qarşı mübarizə, islam dinin və əxlaqının tənqidi ictimai fikrin mühüm cəhəti kimi özünü göstərməyə başlamışdı. Rusiyada və başqa yerlərdə təhsil almış Azərbaycan ziyalılar ciddi siyasi-maarif təbliğatı apararaq, hər sahədə xalqı maarifləndirməyə çalışırdı. Bu maariflənmədə əsas hədəf ərəb əlifbasının islah edilməsi və yeni asan əlifbanın yaranması idi. Ərəb əlifbasından qurtulmaq və yeni əlifbanın yaranması uğrunda mübarizə bayrağını ilk dəfə qaldıranlardan biri M. F. Axundov olmuşdir ki, onun davamçısı adlandırılan F.b.Köçərli bu fikri müdafiə edənlərdən biri idi. Lakin Firidun bəy onlar kimi islam dinini kəskin tənqid etmirdi. O, savadsız, avam əhalinin əsrlərdən bəri inandığı dinin insanlara yanlış anladıldığını, dinimizin əxlaqi cəhətdən tərbiyəvi din olmasını və elmli olmaqla bunu daha dərindən dərk etməyin mümkünlüyünü başa salmağa çalışırdı.

Çar hökuməti kəndlilərin, fəhlələrin təhsili və mədəni inkişafı üçün heç bir şərait yaratmırdı, əksinə onların milli şüurunun oyanmasına mane olurdu. Bu yolda din pərdəsi altında fəaliyyət göstərənlərdən istifadə etmək çar məmurlarına sərf edirdi. Hakim siniflər fəhlələri cəhalət içərisində saxlamağa, onların şüurlarını dini təbliğatla kütləşdirməyə çalışırdılar. Hətta çar hökuməti rus olmayan xalqlara, xüsusilə də azərbaycanlılara alçaq bir irq nəzərilə baxır, onlara qarşı kin və nifrət oyadırdılar. Milli və ictimai zülmün Azərbaycanda ən ağır nəticələrindən biri xalq kütlələrinin mədəni səviyyəsinin çox aşağı olması idi. Ölkədə bütün təlim-tərbiyə , ailə-kəbin, mədəni-məişət işləri ruhanilərin əlində idi. Mollalar məscidlərə və məhəlli məscid cəmiyyətlərinə başçılıq edir, allaha ibadəti, dini ayin və mərasimləri yola verir, doğum, ölüm, evlənmək və boşanmaq hallarını qeydə alırdılar.

Çarizm müsəlman ruhanilərinə münasibətində ikibaşlı siyasət yeridirdi. O, bir tərəfdən ruhanilərin xalqa olan təsirini azaltmağa, ictimai və mülki işlərə onların qarışacağını məhdudlaşdırmağa , digər tərəfdən isə kütlələr içərisində onların nüfuz və təsirindən öz ictimai dayağını möhkəmləndirmək üçün istifadə etməyə çalışırdı(1.s.14).

Firidun bəy Köçərli rus dilində təhsil almağına baxmayaraq, Quranı oxumuş və daha sonra islam ehkamlarının incəlikləri ilə maraqlanmışdır. O, bir ziyalı kimi islam dininin heç də başqa dinlərdən geri qalmadığını, insanları cəhalətə doğru aparmadığını görür, əksinə bu dinin çox tərbiyəvi əhəmiyyət daşıdığını qeyd edirdi.

Firidun bəy Köçərli maarifçilik ideyalarının carçısı kimi tanınmaqla yanaşı, dini məsələlər mövzusunda söhbətlər aparır, islamın təhsilə heç bir maneçiliyi olmadığını anlatmağa çalışırdı. O çox gözəl anlayırdı ki, islam dinini öz məqsədləri üçün istifadə edən mövhumatçı dindarlar, camaatın avamlığından və savadsızlığından istifadə edir, onlarda təhsilə qarşı nifrət oyadır, insanların gözünün açılmasına qəsdən mane olurdular.

Müsəlman ruhanilərinin mollaxanalardan apardıqları "təhsil" qətiyyən gənclərin savadlanmasına xidmət etmirdi. Ruhanilərin özlərinin təhsilinə və mənəviyyatına gəldikdə isə onların böyük əksəriyyəti az savadlı idi. Azərbaycanda dünyəvi təhsil məktəbləri demək olar ki, yox dərəcəsindəydi. Bununla belə məscidlərin yanındakı mollaxana və mədrəsələrin sayı gün-gündən durmadan artırdı.

F.b.Köçərli "Məişətimizə dair" başlıqlı məqaləsində "Yarımçıqlarımız" adı ilə yazısında haqlı olaraq qeyd edirdi ki, "Heç bir tayfa və millətin içində bir o qədər yarımçıq yoxdur nə qədər ki, bizim müsəlmanların içində var. Hər sinfə və hər dairəyə əl aparsaq, yarımçıqların ədədini hesaba gəlməyən bir halda görərik. Əyan və əşrəfdən tutmuş füqəra və ədnalarımızadan, xanımlarımızın, bəylərimizin, tüccar və sənətkarlarımızın, mədrəs və müəllimlərimizin və sair məshəbdarlarımızın əksəri yarımçıq adamlardandır və bizim tənəzzülümüzün baş səbəblərindən birisi də bu yarımçıqlardır"(2.s.458).





Firidun bəy Köçərli də dövrün ziyalı maarifpərvərləri xalqa xidmət etmək üçün insanların gözünü açmağa, onları təhsilə, savada yiyələnməyə və ölkədə baş verən qanunsuzluqlara qarşı çıxmağa dəvət edirdi. Köçərli bütün bu məslələrin baş vermə səbəblərini elmsizlikdə görürdü. O, ilk növbədə məktəblərin sayının artmasını, uşaqların təhsilə cəlb edilməsini və bu sahədə qarşıda hələ daha çox işlərin dayandığını qeyd edirdi.

Dini fanatizmin tüğyan etdiyi bir vaxtda məktəbə şagird toplamaq ən ağır işlərdən hesab edilirdi. Çünki, xaçpərəstləri kafir adlandıran mövhumatçı mollalar kütlələr arasında elə bir abı-hava yaratmışdılar ki, məktəbə gedən müsəlman uşaqlarına pis nəzərlə baxılır, onları islam dinin düşməni kimi qəbul edirdilər. Öz məqsədləri üçün bu cür provokasiyalardan istifadə edənlər, avam kütlələri qızışdıraraq uşaqlarını məktəblərə buraxmamağa çağırırdılar. Bu işdə azərbaycanlı müəllimlərin üzərinə daha çətin vəzifə düşürdü. Onlar valideynlərə söhbətlər aparır, uşaqlarının mütləq təhsilli olmalarının vacibliyini başa salır, valideynlərin öz hüquqlarını bilmələri və gələcəkdə rahat həyat yaşamaqları üçün övladlarının elmli, bilikli olmalarını anlatmağa çalışırdılar. Ruhanilərin təhsil ocağı adlandırdıqları mollaxanalar isə əslində dünyadan təcrid olunmuş bir həyatı xatırladırdı.

Mollaxana və mədrəsələr sözün əsl mənasında maarif ocaqları deyildi, onlarda dünyəvi elmlər tədris edilmirdi, tədris edildikdə də onların bütün məzmunu islam ehkamına mütabiqləşdirilirdi. Bunun nəticəsində dünyəvi elmlər ilahiyyatın sadəcə ayrı-ayrı sahələrinə çevrilirdi, ilahiyyatda hökm sürən prinsiplər onlara da tətbiq edilirdi. Tədris prosesi orta əsrlərdən qalma sxolastik-əzbərləmə üsulu ilə (səs metodu ilə) aparılır-

dı. Mollaxanalarda və mədrəsələrdə ağır cismani cəza( uşaqların ayaqlarını falaqqaya salıb döymək) tətbiq edilirdi. Bütün bunların nəticəsində uşaq mollaxanada on il oxusa da əməlli təlim-tərbiyə ala bilmirdi, əksinə, zehni kütləşərdi, əxlaqi pozulardı(1.s.17).

Bunun mahiyyətini başa düşən Azərbaycan maarifçiləri xalqı bu bəladan uzaqlaşdırmağın yollarını arayırdılar. Ziyalılar arasında fikir ayrılıqları olsa da onların hər biri millətin, xalqın azadlığı naminə çalışırdılar. Bu işin ən çətin tərəfi isə dindarların avam kütlələrin nadanlığından istifadə etməsi və onların maariflənməsinə mane olmaları idi. Ziyalıların qarşısında daha ağır bir məsələ dururdu ki, bu da dindarlarla aparılacaq mübarizə məsələsi idi.

Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da kapitalist münasibətlərinin inkişafı zəhmətkeşlərin ən vəhşi, ən barbar istismarı şəraitində gedirdi. Mövcud şəraitdən istifadə edən mövhumatçı dindarlar xalqı öz tabeçiliklərində saxlamaq üçün maarifpərvər ziyalılara qarşı hücuma keçərək, xalqı onlara qarşı qaldırmaq üçün iş aparırdılar.

Maarifpərvər və mütəfəkkir insanlar dindarların əksinə olaraq dini təbliğatın yanlış aparılmasına etidraz edir, islamın qayda-qanunlarının heç də belə olmadığını, dinimizdə insanların savadlanmasının dinə zərəri olmadığını izah etməyə çalışırdılar.

Firidun bəy Köçərli də öz növbəsində əsl ziyalı olaraq təmkinini qorumağa və bu vəziyyətin daha kəskin forma almasına imkan verməmək üçün ziyalıları səfərbər olmağa çağırırdı. O, din xadimləri ilə söhbətlər aparır, onlara bu vəziyyətin xalqa heç bir xeyir gətirməyəcəyini izah edirdi. Azərbaycanda elmin və mədəniyyətin inkişafına mane olan ruhani dairələrinin qəzəbinə səbəb olan bu mübarizə, çox zaman ziyalılarımızın həyatı bahasına başa gəlirdi. Lakin, xalqı, milləti, vətəni canlarından çox sevən maarifpərvərlər bu mübarizədən geri çəkilməyirdilər.





Firidun bəy Köçərli müasirləri ilə birlikdə insanın düşüncələrini korlayan, arzularını alt-üst edən, dini mövhumatı tənqid atəşinə tutan yazıların dərc edilməsinə müsbət münasibət bildirsə də, islamı tənqid edənlərə və onların qəzetlərdə dərc edilən məqalələrinə qarşı birmənalı mövqedən çıxış etmirdi. O, çox gözəl başa düşürdü ki, islamı korlayanlar ölkələrin çoxunda hakim ictimai qüvvələrə, hökumət əhlinə xidmət edən və xalqa, rəiyyətə düşmən mövqe tutan, beyinləri, ağılları, iradələri kütləşdirən, tərəqqi və təkamülün qarşısını alan mürtəce qüvvələrdir.

Bu cəhətdən mübariz mövqe tutan "Əkinçi" qəzetinin mühərrirləri zəhmətkeş kütlələrin, rəiyyətin qul halına salınmasına səbəb olan, tərəqqi, təkamül, elm və maarifin düşmənləri olub, hökumət əhlinə nökərçilik edən və islamı korlayanları mürtəce ruhanilər və ruhani cildinə girmiş cahil adamlar adlandırırdılar.

Ziyalılarımızın əksəriyyəti kimi F.b.Köçərli də dini mövhumata, ruhanilərə qarşı aparılan mübarizənin olduqca çətin, mürəkkəb və ciddi bir iş olduğunu başa düşür, olduqca ehtiyatlı davranmağa çalışırdı.

Dövrünün başqa mütərəqqi fikirli ziyalıları kimi xalqın maariflənməsini, mədəni yüksəlişinin düşünən ədib, bu yolda ancaq və ancaq milli mətbuatın tərəqqisinin sürətləndirilməsini vacib sayırdı. Bu yolda çəkdiyi zəhmətini isə özünün müqəddəs vətəndaşlıq borcu hesab edirdi. Xalqını elm və mədəniyyətcə başqalarından geridə görəndə Firidun bəyin qəlbi alovlanır, hiddətlənirdi. Köçərli, xalqı cəhalət yuxusundan ayıltmağa, həyatda onlara düzgün yol göstərməyə, təhsili, savadlı olmaqları üçün hər bir ziyalının, qələm sahibinin bu yolda fəaliyyət göstərməsinə çalışırdı.

F.b.Köçərli ədəbiyyata belə bir tələb və meyarla yanaşırdı. O, vətəndaşlarını ayılmağa, hərəkət etməyə çağırır, rəmzi məna daşıyan bu sözlərlə öz məqaləsinə yekun vururdu:"Ey qardaşlar,

həyatın qədrini biliniz...ayılınız, hərəkət ediniz, qapı-bacalarınızı açınız, evinizə işıq düşsün, üfunətli və ağır havası dəyişilsin. Gözlərinizin tozunu silib diqqət ilə ətrafa baxınız, hər kəs işləyir, çalışır, həyatdan nəfbərdar olur"(8.s.72).

Mütərəqqi fikirli ziyalılar mollaxana və mədrəsələrdə hökm sürən köhnə təlim-tərbiyə üsulunu tənqid edir, rus və Avropa məktəb sisteminə keçməyi tələb edirdilər. Yeni məktəb uğrunda mübarizənin gedişində Azərbaycanın bir çox şəhərlərində "üsuli-cədid" (yeni üsulla işləyən məktəblər) meydana çıxır. Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsün Nəvvab, Naxçıvanda və Ordubadda Məhəmmədtağı Sidqi belə məktəblər açmışdılar. Eyni zamanda Moskvada təhsil almış Həsən bəy Zərdabi, Nəcəfbəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Qori Müəllimlər Seminariyasında təhsil almış Rəşidbəy Əfəndiyev, Həbibbəy Mahmudbəyov, Mahmudbəy Mahmudbəyov, Sultanməcid Qənizadə, Teymurbəy Bayraməlibəyov, Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Firidun bəy Köçərli Nəriman Nərimanov kimi qabaqcıl müəllimlər, yazıçılar və publisistlər dünyəvi təhsil məktəbləri açmaq uğrunda mübarizə bayrağını ucaltdılar. Gənc nəslin qısa müddətdə savad almasına mane olan ərəb əlifbasını latın əlifbası ilə əvəz etmək uğrunda mübarizə başlandı. Bu mübarizəyə M.F. Axundov və onun davamçıları başçılıq edirdi(1. s. 23).

Qeyd edildiyi kimi Firidun bəy Köçərli azadlıqsevən ziyalı idi. O, xalqını xoşbəxt görmək istəyirdi. Necə ki, Azərbaycanın görkəmli şairi Mirzə Şəfi Vazeh şeirlərinin birində demişdir ki, "mən bütün dünyanı həbsdən qurtarmaq və bütün bəşəriyyəti xoşbəxt etmək istərdim". Azərbaycanlı olaraq bu şəxsiyyətlərin hər birinin apardıqları azadlıq mübarizəsi vətənin xoşbəxt gələcəyi naminə idi.

Maarif ideyalarının ölkədə yayılması və güclənməsi ilk növbədə bədii ədəbiyyatda özünü büruzə verirdi. Biri-birindən





dəyərli əsərlərin meydana gəlməsində yazıçılarımızın böyük əməyi olubdur. Bu əsərlərdə din pərdəsi altında avam camaatın aldadılaraq yoldan çıxarılmasından, öz hüquqlarını bilməyən savadsız əhalinin gözlərinin açılmasından, qadınların əsarət altında əzilməkdən xilas olmasından və s. məsələlərdən bəhs edən əsərləri yazan yazıçılar söz yox ki, dindarlar tərəfindən təzyiq və təqiblərə məruz qalırdılar. Lakin, o dövrün ziyalıları bütün bunları bilərək nəzərə alırdılar ki, bu yoldan geri çəkilmək millətin məhvə getməyi deməkdir.

Firidun bəy Köçərlinin dinə münasibətinə gəldikdə o müasirlərinin fikirlərini götür-qoy edərək öz fikrini söyləyirdi. Köçərli ilə bir dövrdə yaşamış görkəmli publisist Əhməd bəy Ağayev bu mövzuda daha kəskin çıxışlar edirdi. Onun mollaların kəmsavadlılığına eyham vuran məqalələrinə "Kaspi"nin və başqa mətbuat orqanlarının səhifələrində rast gəlinir: "...к сожелению большинство наших духовников совершенно не подготовлины для этого и в мечетях вместо заботы о неотложных нуждах общины, они занимаются лишь мистификацией массы, занимая их головы разными схоластическими, никогда не разрешимыми, нелепыми по форме, нижтожными и пустыми по содержанию и нечего не говорящими ни уму, ни сердцу вопросами"(3.s.25).

Azərbaycan maarifçilərinin əxlaqi baxışları öz məntiqi və daxili məzmunu etibarilə islam dininin axirət dünyası haqqındakı ehkamına qarşı yönəldilmişdir. Onlar insanı real həyat uğrunda mübarizəyə çığırırdılar. Bu maarifçilərimizin əxlaqi görüşlərinin ən mütərəqqi cəhətlərindən biri, bəlkə də birincisi idi

Firidun bəy Köçərlinin "Həyat dəvət" adlı məqaləsi maarifçilərimizin əxlaqi baxışlarının bu xüsusiyyətini daha bariz surətdə ifadə edir. Həmin məqlədə maarifçi islam ruhanilərinin kəskin tənqid atəşinə tutaraq yazırdı: "Dünya beş gündür, beşi də qara". Möhtərəm üləma, vaizlərimizin məscidlərdə və

məclislərdə camaata xitabən söylədikləri sözlər və nitqlər əksər ovqat bu qisim vəz və nəsihətlərdən ibarət olduğu cümləyə məlumdur". F.Köçərli açıq surətdə bildirmişdir ki, müsəlmanları bu cür axirət dünyası haqqında xülyalarla əyləndirmək məhz ruhanilərin özləri üçün mənfəətlidir(5.s.75).

Azərbaycanda o dövrdə maarifçilik uğrunda aparılan mübarizənin ən mühüm amillərindən biri dövrü mətbuat olubdur.

1875-ci ildən başlayaraq ayrı-ayrı illərə aid olan "Əkinçi", "Ziya", "Ziyayi Qafqaziyə", "Kəşkül", "Kaspi", "Bakinskiye izvestiya", "Baku" və s. burjua mətbuat orqanları nəşr olunurdu. Bu burjua mətbu orqanlarının nəşr olunması artıq günün tələbi idi. Get-gedə sayı artan bu mətbuat orqanları ilə yanaşı millətçi burjua orqanları da nəşr olunurdu. Bir tərəfdən qatı mürtəce, pantürkist, panislamist, cəhalət və mövhumat yayan yazılar dərc edilir, digər tərəfdən maarifçi ziyalılar öz əsərləri ilə çıxışlar edirdilər. F.b.Köçərli də yaradıcılığı dövründə bir çox ziyalılarımız kimi bu mətbuat orqanlarında mütəmadi olaraq məqalələr dərc etdirir və savadsızlığa, təhsilə, maarifə çağırış edirdi.

Firidun bəy Köçərlinin xalqı üçün gördüyü ən dəyərli xidmətlərindən biri onun seminariyada azərbaycanlı balalarına dərs dediyi müddətdə onlara savad verməkdən əlavə, onları vətən, millət üçün dəyərli övladlar yetişdirməyi olub. 1895-ci idə Qafqaz təhsil idarəsi popeçitelinin 30 oktyabr qərarı ilə F.b.Köçərlini Qori Müəllimlər Seminariyasına şəriət və Azərbaycan dili müəllimi olaraq işə qəbul edilməsi, Firidun bəyin həyatında ən çox arzusunda olduğu işlərindən biri idi.

Azərbaycanda maarifçiliyin ilkin, həm də klassik qolunu demokratik cərəyan təşkil edirdi ki, bura M.F.Axundov, H.b.Zərdabi, S.Ə.Şirvani, N.B.Vəzirov, Ə.Haqverdiyev, M.Şahtaxtlı, S.Mehmandarov və b. daxil idilər. Demokratik cərəyanın nümayəndələri əql ilə iman, elm ilə din arasında qalxan mübahisəni qəti olaraq birincilərin xeyrinə həll etməyə, bu vaxtadək





dinin səlahiyyətində olan məsələləri elmi tənqid sizgəcindən keçirməyə səy göstərirdilər. Lakin onların özlərinin də fəlsəfi-siyasi mövqeləri eyni olmamışdır. M.F.Axundov, S.Mehmandarov, M.Şahtaxtlı feodal-dini məfkurəni tənqid etməkdə mübariz materializm və ateizm mövqeyinə yüksəldiyi halda, H.Zərdabi, S.Ə.Şirvani, N.B.Vəzirov, Ə.Haqverdiyev cahil və nadan din xadimlərini, islam dinini mürtəce ayin və mərasimlərini, irrasional ehkamlarını ifşa etməkdən irəli getməmişlər.

Maarifçilik hərəkatının inkişafında sonrakı və daha qüdrətli addımı inqilabi-demokratizm atdı. Bu cərəyana C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Qəmküsar, Ə.Faiq, Ü.Hacıbəyov, M.S.Ordubadi, Ə.Nəzmi, M.Ə.Möcüz və b. daxil idilər. Onlar burjua-demokratik inqilabının tələblərini müdafiə edir, islam dinini tənqid etməkdə müəyyən müstəsnalarla materializm və ateizm mövqeyində dururdular.

Üçüncü liberal-burjua cərəyanı adlanan bu cərəyana M.Mahmudbəyov, F.b.Köçərli, E.Sultanov, S.M.Qənizadə, R.Əfəndiyev, M.Hadi, M.T.Sidqi və b. daxil idilər. Bu cərəyanın nümayəndələri dini, cəhaləti, xurafatı deizm, hətta idealizm mövqeyindən tənqid edirdilər, həyat və məişəti elmə və əqlə uyğun qurmağı tələb edirdilər. Onlar elmin nəfinə olaraq dini aradan qaldırmaqdan daha çox elmlə, dini biliklə iman arasında saziş yaratmağa çalışırdılar (1.s.34).

Azərbaycanda maarifçilik ideyaları genişləndikcə və insanların savadlanmağa doğru meyllənməsi artdıqca onlara qarşı və onlara yol göstərənlərə qarşı təzyiqlər və təqiblər də artmağa başlayırdı. Bəzi maarifçilər hətta maarifin kütlələr arasında yayılması nəticəsində bütün dinlərin , o cümlədən islam dininin də aradan qalxacağına əmin idilər.

Müsəlman ruhaniləri Quranı və şəriəti özünə bayraq edərək, ən kobud və ən iyrənc vasitələrlə xalqı avamlıqda, cəhalətdə saxlamağa cəhd edirdilər. Onlar istismarçı siniflərin

himayəsi altında islam dinin əxlaqi ehkamlarını geniş təbliğ edərək, xalq kütlələrinin elmə, maarifə yiyələnməsi işinə hər vasitə ilə mane olur, xalqın mənəvi əsarətini əbədiləşdirməyə can atırdılar(6.s.63).

Firidun bəy Köçərli "adamların əmal və əqvalında kizb və böhtan əvəzinə doğruçuluq və düzlük işlənməsini, insanlar arasında daim "həqşünaslıq... qeyrət, hümmət, şərm, həya, etibar və etiqadın hökm sürməsini qızğın arzu etmişdir(5.s.116).

M.F.Axundov, F.Köçərli, M.Şahtaxtlı, R.Əfəndiyev, S.Ağamalıoğlu və b. göstərirdilər ki, Quranın ərəb əlifbası ilə və ərəb dilində yazılması faktı heç də bu əlifbanın və dilin müqəddəsliyinə dəlalət etmir. Əksinə, din gətirən hər bir xalq bu dini öz dilində və öz əlifbasında icra etmişdir. Ərəb əlifbası islamın bizə qoyduğu ən mürtəce mirasdır. Müsəlman ruhaniləri isə ərəb dilinin və əlifbasının "əzəli", "fitri" olmasını iddia etməklə Şərq ölkələrində elmin və maarifin inkişaf tapmasına mane olmaq istəyirlər. İş o yerə çatmışdır ki, müsəlman ruhaniləri anadan yenicə doğulmuş bir uşaq ayrıca bir otaqda saxlansa, allahın ona ərəb dilində dil açdıracağını söyləyirlər(1.s.52).

Müsəlman ruhaniləri Quranı və şəriəti özünə bayraq edərək, ən kobud və ən iyrənc vasitələrlə xalqı cəhalətdə caxlamağa çalışırdılar. Ruhanilər hər cür yeniliyə qarşı idilər. Onlar bu yolda mübarizə aparanları və onlara qoşulanları min bir vasitə ilə ləkələməyə və camaatın gözündən salmağa səy göstərirdilər. Lakin, F.b.Köçərli, Əhməd bəy Ağaoğlu və mütərəqqi fikirli insanlar ruhanilərin səhv təbliğatına qarşı çıxaraq Quran və şəriət qanunları haqqında insanlara düzgün və geniş məlumat verir, onları belə mövhumatçılara uymamağa çağırırdılar. Çox ağır bir prosess olan bu təbliğat bəzən onları dindarlarla qarşı-qarşıya qoyurdu.

Firidun bəy Köçərli xalqın maariflənməsinə mane olan ruhanilərin apardıqları siyasəti bəyənməsə də onlarla qarşı-qarşıya





dayanmaq istəmirdi. O, tələbələrinə şəriət dərsi keçməklə bərabər onlara Quranda yazılanları ziyalıcasına açıqlayaraq, islamın heç də insanları geriyə sürükləmədiyini anladırdı. Köçərlinin məqsədi insanları dini məhdudiyyətlərdən azad etmək, onlara şəxsiyyətin mənəvi cəhətdən sərbəst inkişafına şərait yaratmaqdan ibarət idi.

Firidun bəy gözəl anlayırdı ki, hər kəs əgər təhsilli olarsa, oxuduğu Quranın ayələrinin açıqlanmasını dərk edərsə, o zaman Quranda yazılanları daha düzgün və dəqiq anlayaraq kamilləşər. Quranı diqqətlə oxumağı məsləhət görən Köçərli onun mahiyyətini açmağa, onu izah etməyə çalışır, eyni zamanda dini əxlaqın insan tərbiyəsində böyük rolu olduğunu izah və təbliğ edirdi.

Əhali arasında böyük nüfuza malik olan Firidun bəy Köçərli 1907-ci ildə şeyxülislamlıq mənsəbinə dəvət olunur. Müəllimlik peşəsini bütün vəzifələrdən yüksək hesab edən F.b.Köçərli şeyxülsilamlıq vəzifəsindən imtina edir. O tələbələrə dərs deməyi, onları maarifləndirməyi, gələcək üçün gözəl kadrlar yetirməyin arzusunda olduğunu bildirərək bu vəzifəyə getmək istəmir. Təbii ki, Köçərlinin bu istəyi də birmənalı qarşılanmasa da o müəllimlik peşəsini davam etdirmək istəyində olduğunu bildirir.

Mənbələrə istinad edərkən dinin zərəli və xeyirli tərəflərinin bir çox maarifçilər tərəfindən tənqid edildiyini görmək olur. A.Bakıxanov, M F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, S.Mehmandarov, C.Məmməqduluzadə islam dinində olan boşluqları zərərli tərəf kimi kəskin tənqid edən ziyalılardan idilər. Lakin F.B.Köçərli, T.Bayraməlibəyov, Ə.Ağaoğlu və başqaları islam dininin tərbiyəvi din olduğunu, insanları etikaya, əxlaqa dəvət etdiyini və bu dinin heç də başqa dinlərdən geri qalmadığını sübut etməyə çalışan ziyalılar idi. Onlar mövhumatçı mollaların avam kütlələrin nadanlığından öz məqsədləri üçün istifadə etdiklərinə qarşı çıxırdılar.

Firidun bəy Köçərli dövrün mövhumatçı dindarları tərəfindən "başı şapkalı" adlandırılsa da o buna məhəl qoymadan maarifçilik təbliğatını aparırdı. Hətta o dövrdə

H.M.Zərdabi böyük bir təəssüf və hiddətlə qeyd edirdi ki, "əgər bir elm sahibi öz kefi istədiyi təki bizim içimizdə rəftar edə əvamünnas onu dinc qoymaz. Məsələn, çəkmə geyməkdə bir günah yoxdur və hər kəs fikir eləsə görür ki, çəkmə geyməklə insan müsəlmanlıqdan çıxmaz. Amma bir şəxs ki, namərbut başmaq yerinə çəkmə geyəndə şüəralər onu həcv edir, mollalar ona mənbərdən lənət oxuyur, əvamünnas ona salam vermir, xülasə hamı onu kafir hesab edib incidir(6. s.64).

Məktəblərdə dünyəvi elmlərin tədrisin genişlənməsi mürtəce ruhani dairələrinin narahat edirdi. 1906-cı ildə özünü "xeyirxahi millət" adlandıran Bakı Axundu Abuturab "Həyat" qəzetinin səhifələrində "Bizə hansı elmlər lazımdır?" məqaləsi ilə çıxış edərək", məktəblərin şəriət elmindən tamamilə xali" olmasından, məktəbə gedən uşaqların əvvəlinci gündən müsəlmanlıqdan uzaqlaşmasından" şikayətlənir. Axundun fikrincə başqa elmlərin öyrənilməsi insanın əsl müsəlman və həqiqi insan olması demək deyildir. Bunun üçün mütləq vacibdir ki, Quranı, şəriəti və ilahiyyatı öyrənərək mənimsəməlisən. F.b.Köçərlinin bu münasibətlə yazdığı bir məqaləsində Axundun fikirlərini tənqid edərək onu "məhdud fanatik baxış" adlandırmışdır. O, qeyd edirdi ki, Allahın insana bəxş etdiyi ən yüksək nemət onun ağlıdır, azadlıq ruhudur, bunun sayəsində insan təbiətə hakim olur. Müsəlman xalqlarının bu acınacaqlı vəziyyətə ruhani rəhbərləri salmışdır. Müsəlman ruhaniləri islam ehkamının əsl mənasını qəsdən pərdələməkdə, ümumiyyətlə riyakarlıqda fariseyləri ötüb keçmişlər. F.b.Köçərli məktəblərdə islam dininin əsaslarının tədris edilməsini heç də rədd etmirdi. Onun fikrincə "Quran şübhəsiz əqli durğunluq tələb etmir. Əksinə, o dönə-dönə tərəqqi və daima təkmilləşməyi göstərir(1. s. 68).





Azərbaycan ziyalıları avam kütləni başa salmağa çalışırdılar ki, islamdan qabaq da Ərəbistanda çoxlu qəbilə dinləri olubdur, çoxallahlılıq bu qəbilələr arasında qanlı toqquşmalara səbəb olduğu üçün, eramızın VII əsrinin əvvəlində ərəb qəbilələri vahid dövlət halında birləşməyə meyl göstərməyə başlayırlar. Lakin bütpərəstlik bu birləşməyə mane olurdu. Məhəmməd peyğəmbərin təkallahlılıq ideyası ilə ortaya çıxması və sadə bir formada "Allah birdir, Məhəmməd onun rəsuludur" deməsi çox ağır nəticələrə səbəb olsa da sonunda qalib gələ bildi. Birlik, mehribanlıq, qarşılıqlı hörmət, etika, elm tələb edən islam dini onun mahiyyətini başa düşməyənlərin əlinə fürsət verməklə, maarifçi ziyalıların da əlinə avam xalq kütlələrinin içərisində elmi və maarifi yaymağa fürsətini verdi. Maarifpərvərlər dinin heç də elmə düşmən olmadığını qeyd edərək avam kütlələrə bunu anlatmağa çalışırdılar.

Azərbaycanda və Şərq ölkələrində əsrlərdən bəri davam edən cəhalət və nadanlığı "islam əlifbasının çətinliyi üzündən əmələ gəlmiş savadsızlıq və elmsizliklə" izah edirdilər. Azərbaycanın özünün yeni, sadə və mükəmməl əlifbasının yaradılması ideyasını müdafiə edən maarifpərvərlər bu yolda fəaliyyətə başladılar.

Deyilənlərdən görünür ki, Azərbaycan maarifçiləri öz əsərlərində elm ilə dinin əksliyini, bunların bir-biri ilə barışmaz mübarizəsini bütün aydınlığı ilə vermişlər. Lakin bunu da nəzər almaq lazımdır ki, dini fanatizmin hökm sürdüyü tarixi şəraitdə onlar islam dinin elmə və maarifə qəti düşmən olduğunu bəzi taktiki mülahizələrə görə açıq deyə bilmirdilər. Elmin və maarifin əhəmiyyətini avam kütlələrə başa salmaq üçün onlar, əksinə, bəzən Quranın ayələrinə və peyğəmbərin hədislərinə əsaslanırdılar. Bu hal özünü H. b. Zərdabinin, F.b.Köçərlinin və N. Nərimanovun mətbuatdakı çıxışlarında xüsusilə aydın göstərir. Məsələn, N.Nərimanov 1906-cı ildə "Həyat" qəzetində dərc et-

dirdiyi bir məqaləsində deyirdi: "Ey şəriət və Quranın ehkamlarından bixəbər qalanlar! Dünya elmlərindən müsəlman balalarını mərhum etməyiniz! İslam əqli və təbii bir dindir, heç bir elmdən qorxmaz , çünki elm özü təbiət aləmindən alınmış bir meyvədir"(1.s.71).

Buradan belə nəticəyə gəlmək olur ki, N.Nərimanov da F.b.Köçərli kimi islamın dini ehkamlarına rəğbətlə yanaşmaqla və dininə hörmət etməklə yanaşı elmi, təhsili də yüksək dəyərləndirirdi. N.Nərimanov savadsızlığa qarşı mübarizəyə qoşulan fəallardan idi. Baxmayaraq ki, Nərimaov tez-tez məscidlərə gedir, ruhanilərlə görüşür, onların söhbətlərinə qulaq asırdı, lakin o da bir ziyalı olaraq, Azərbaycanın gələcəyini dini fanatizmdən uzaq tutmağı arzulayırdı.

Mənbələrdə rast gəldiyimiz məqalələrdə maarifçilərimizin "cəhad-qəzavət"in müsəlman xalqlarını inkişafi tərəqqidən yüz illərlə geriyə qoyduğunun və şəriətin mütərəqqi inkişafa ciddi surətdə mane olduğunu qeyd etdiklərinin şahidi oluruq.

Görkəmli ədəbiyyatşünas alim F.b.Köçərli dövrünün ziyalı şəxsiyyəti olaraq özünə zəhmətkeş xalq kütlələrini mənəvi cəhətcə azad etməyi, onları din, cəhalət və mövhumatın pəncəsindən xilas etməyi borc özünə bilirdi. O, bunun yeganə yolunu maarif və mədəniyyətin yayılmasında, insanlar arasında güclü təbliğatın aparılmasında, hətta sivil qayda da onları bu cəhalətdən uzaqlaşdırmaqda olduğunu bilirdi. F.b.Köçərli azadlıq sevən ziyalı idi. O, həyatın mənasını düzgün anlamağı, yaşamaqdan zövq almağı, mümkün qədər kədərdən, qəmdən uzaq olmağı və həmçinin dünyadan xəbərdar olmaq üçün kitab, qəzet oxumağı məsləhət görürdü. Lakin, o dövrün dini qayda-qanunları və xurafatçı dindarlar bu cür tərəqqiyə mane olur, öz məqsədlərini həyata keçirmək üçün insanları daim qorxu altında saxlayırdı.

Firidun bəy Köçərli Azərbaycan maarifçisi olaraq islam dinin deyil, islam dinindən öz mənafeyi üçün istifadə edən din-





darları tənqid edir, zülmət və cəhalət dumanında boğulan həmvətənlərininin qəzəb və ədavət hisslərini öz üzərlərinə çevirməməyi və xalqı özlərindən uzaqlaşdırmamağı dolayı yollarla onlara anlatmağa çalışırdı. Əgər Firidun bəy Köçərlinin yaşadığı dövrün ağır şəraiti nəzərə alınarsa, maarifçilərimizin dini-feodal əxlaqın son dərəcə tutarlı tənqidi onların Azərbaycan xalqı qarşısında tarixi xidməti şübhəsiz ki, çox böyük hesab edilməlidir.

Azərbaycan maarifçiləri tərəfindən dini əxlaqın tənqidindən başlıca məqsəd insanları dini məhdudiyyətdən azad etmək, "onun azad nəfəs almasına şərait yaratmaq və şəxsiyyətin mənəvi cəhətdən sərbəst inkişafını təmin etməkdən ibarət idi(6.s.65).

Cəhalətə, nadanlığa qarşı aparılan mübarizə həmişə ziyalıların diqqət mərkəzində olubdur. M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani və başqaları bu yolda daim mücadilə etmiş və haqsızlıqlarla üzləşsələr də məqsədlərindən dönməmişlər.

H.M.Zərdabi başqa millətlərə, onların adətlərinə bu cür dözülməz münasibətin geniş təbliği nəticəsində Azərbaycanda o vaxtlar necə müdhiş vəziyyətin yarandığına dair çoxlu misallar gətirib göstərirdi ki, hətta gimnaziyaya getmək, ruslarla, ermənilərlə və başqa millətlərlə bir yerdə oxumaq, başqa millətlər kimi paltar geymək və ya hərəkət etmək müsəlmanlıqdan çıxmaq hesab edilirdi(6.s.79).

Dinin zərərli tərəflərini işıqlandıran məqalələrin nəşr edilməsində H. Zərdabinin "Əkinçi" qəzeti Azərbaycan milli mətbuatının tarixində mühüm yer tutmuşdur. Xalqın mədəni səviyyəsini yüksəltmək, onu maarifləndirmək məqsədilə bu qəzet dəyərli təklif və tövsiyələr verirdi.

"Əkinçi" ənənələrini yaşatmaq və inkişaf etdirmək yolunda F.Köçərli daha ardıcıl çalışmışdır. Əsərlərində Zərdabi və onun qəzetini dönə-dönə yad edən alim 1906-cı ildə belə bir doğru fikir irəli sürürdü ki, "Əkinçi"nin gözəl sözləri və nəfli məlumatı indi də öz əhəmiyyətini itirməmişdir, onlar "müəyyən

bir sistem halına salınıb Azərbaycan dilində nəşr edilən dövrü jurnallarda çap olunarsa, çox faydalı olar"(12.s.269).

Firidun bəy Köçərli də özünəməxsus fəaliyyəti ilə ziyalıların yolunu davam etdirərək daim mübarizə aparmışdır. O dini mübarizəni də elə formada aparırdı ki, ruhani dairələrinin və onların ətrafında birləşən geniş xalq kütlələrinin maarifçilərin üzərinə qalxmasının qarşısını ala bilsn.

Araşdırmalarda görürük ki, Azərbaycan maarifçiləri tərəfindən aparılan dini tənqidetmə ruhani dairələrin ciddi narazılığına səbəb olurdu. Xalqın əksər hissəsi ruhani dairələrinin təsiri altında olduğundan bu tənqiqetmənin nə ilə nəticələnəcəyini anlamaq olur. M.F.Axundovun, S.Mehmandarovun, Y.V.Çəmənzəminlinin, C.Məmmədquluzadənin bu mövzuda yazılmış məqalələri xalq tərəfindən birmənalı qarşılanmadığından böyük rezonans yaradırdı. Bunu nəzərə alan F.b.Köçərli və T.Bayraməlibəyov bu fikirlərə qarşı etirazlarını qəzet vasitəsi ilə bildirmişlər. Köçərli göstərirdi ki, S.Mehmandarov heç bir əsası olmadan Məhəmməd peyğəmbərin Mədinəyə köçdükdən sonra dini dinc təbliğat və inandırmaq yolu ilə deyil, qılınc zoruna yaymaqda təqsirləndirirdi. Lakin F.b.Köçərlinin fikrinə görə peyğəmbər istər Məkkədə, istər Mədinədə və istərsə də başqa yerdə olarkən insanları ancaq bir-birinə məhəbbətli olmağa, qardaşlığa, dostluğa çağırırdı. Xüms, zəkat, oruc, fitrə kimi xalis əxlaqi əhəmiyyəti olan qərarları o məhz Mədinə də elan etmişdir.

Quranın məzmununa gəldikdə isə F. Köçərli qeyd edirdi ki, Quran "müsəlmanların nə mənəvi, nə də maddi inkişafına qətiyyən mane olmur. Onda elə ayələr yoxdur ki, biliksizliyin bilikdən üstün olduğunun müsəlmanlara sübut etsin, hər hansı bir dildə oxumağı, ya namuslu , maarifçi adam olmağı onlara qadağan etsin. İnsanlara kobud münasibət, dözməzlik, inamsızlıq və başqa qeyri-əxlaqi, qeyri-insani ideyaları da Quran təbliğ etmir. Əksinə, onda çox-çox gözəl ideyalar, əbədi yeni həqiqətlər,





ruhun tələblərini ödəməklə bərabər səhhəti qorumağa və cürbəcür gigenik şərtlərə riayət etməyə kömək edən qərar və qaydalar vardır. T, Bayraməlibəyov kimi F.Köçərli də yalnız bununla razılaşırdı ki, əgər Quranda öz dövrünü keçirmiş yerlər varsa, bu ancaq mülkü cəmiyyət quruculuğuna aid ayələrdir. O yazmışdı: "Əgər Quranın müsəlmanların məişət tərəfinə və mülkü qanunlarına aid bəzi yerləri bizim zəmanəmizdə tətbiq edilə bilmirsə, bu zamanın qarşısıalınmaz gedişindən hökmən asılı olaraq dəyişilmiş şəraitlə izah edilir (1. s. 83).

F.b.Köçərlinin fikrincə həm islam dini və həm də Quran müsəlmanlara heç də pis vərdişləri aşılamır. Əksinə onları qeyri-insanı keyfiyyətlərdən uzaq olmağı, insanlarla dinindən, irqindən asılı olmayaraq gözəl münasibətlər qurmağı öyrədir. İslamın insanların həyatında ən çox tərbiyəvi rol oynadığını qeyd edən F.Köçərli sadəcə onu anlatmağa çalışırdı ki insanların nadanlığında, cəhalətdə yaşamağında günah dinin deyil, bu dindən mənafeləri üçün məqsəd güdən xurafatçıların günahı vardır. Avam kütlələrə dini səhv təbliğ edən "elm"li ruhanilər bu işdə məsuliyyət daşıyırlar. Hətta F.b.Köçərli aşura mərasimini Quranla və Məhəmməd peyğəmbərlə heç bir əlaqəsinin olmadığını da qeyd edirdi.

Dini əxlaqla dünyəvi əxlaqın insan həyatının mənasını bir-birinə tamamilə əks şəkildə anladığını F.Köçərli "Həyata dəvət" adlı əsərində göstərmişdir. İslam əxlaqına görə, bu dünya həyatının mənası mömininin özünü axirət dünyası üçün hazırlamaq, oranın nemət və zövqlərini qazanmaq imiş. F.Köçərliyə görə, axirət dünyasınamı, ya da bu dünyayamı çağırış dini və dünyəvi əxlaqda həyatın mənasını şərtləndirən başlıca amildir(1.s.129).

F. Köçərli belə çıxışları ilə dinin güclü olduğu və dini fanatizmin tüğyan etdiyi bir vaxtda insanların qüruruna toxunmamağa, onlarla birlikdə həyatın nəbzini tutmağa çalışırdı. Hər

işin zamanı gəldiyi kimi bunun da bir zamanı gələcəkdir ki, insanlar maariflənərək dünyanı dərk edə biləcəklər. Görkəmli ədib F.b.Köçərli buna çox inanırdı. Ədəbiyyata həvəsin artdığı, milli mətbuat orqanlarının nəşr edildiyi bir vaxtda bu kimi mövzularda çıxış etmək bir tərəfdən asan, bir tərəfdən isə olduqca çətin və məsuliyyətli idi. Maarifçilərin əksəriyyəti dini deyil, mövhumatı və xurafatı tənqid edirdilər. Onların sadə zəhmətkeşlər arasında xurafata qarşı mübarizə aparırdılar.

Dini movzularla bağlı çıxışlarında görkəmli maarifpərvər Firidun bəy Köçərli həmişə ehtiyatla davranmışdı. O çox gözəl anlayırdı ki, insanların canına, qanına hopmuş dini inancların, ehkamların, ümumiyyətlə mövhumatın zərərli tərəflərini az zaman içərisində təbliğat apamaqla xalqa başa salmaq mümkün deyildir, əksinə onların heysiyyətinə toxunmamaqla bu işi mübarizə apararaq elmli, təhsilli nəsil yetişdirməklə etmək olar.

Firidun bəy Köçərli millətin avam zümrəsinin vəziyyətini ürək ağrısı ilə düşünərək, azərbaycanlılarla avropalıların arasında hər cəhətcə olan fərqi "Həyata dəvət" əsərində işıqlandıraraq yazırdı: "Müsəlman aləminə nəzər yetirdikdə, onun fəna halı ilə avropalıların dolanacağını tutuşdururkən əqli insan heyrətdə qalır. Dövlət, sərvət, mərifət, kamal, hünər, bilik, bacarıq, rahət güzəran avropalılarda; fəqr, zəlalət, yoxsulluq, cəhalət, avamlıq, hünərsizlik, narahatlıq, icz, əsarət və kəsalət aləmi-islamda. Bunlar gözün dikiblər axirətə, beş günlük ömrü bir tövr keçirib, darü bəqaya vasil olmağa, onlar çalışırlar ki, dünya zindəganlıqlarını rahat etməyə və mürəffəhal ilə dolanmağa, özləri üçün dövlət və hörmət qazanmağa. Bunlar fəlakət və qəflətdə, onlar ciddiyyət səadətdə; bunlar ölü, onlar diri! Avropalıların bu fəaliyyət, ciddiyyət və səadəti onların müsəlmanlardan artıq dərəcədə qabil və müstəid olmaqlarından deyil, məhz ondan naşıdır ki, onlar həyatın qədrini bilib, ondan müstəfid olurlar. Müsəlmanlar isə həyata meyl etməyib, məmatın fikrindədirlər(2.s.273).





Maarifçilər xurafata və mövhumata qarşı dünyanın elmi mənzərəsini, təbiət və cəmiyyətdəki təbii səbəbiyyəti və zərurəti irəli sürürlər.Onlar məktəblərdə dünyanın elmi mənzərəsindən dərs keçilməsinin əleyhinə çıxan, orada şəriət ehkamının əzbərlənməsini tələb edən cəhalətpərəstləri onların öz riyakar dilləri ilə ifşa edirlər. Bu mübarizə dindarların xoşuna gəlmədiyi üçün onlar avam camaatın nadanlığından istifadə etməklə, ziyalılara qarşı müxtəlif üsullara əl atır, onları əhalinin gözündən salmağa çalışırdılar. Maarifçilər mövhumatçı dindarların tərəfindən törədilən bəzən gizli, bəzən də aşikar hücumlara məruz qalırdılar.

XX əsrin əvvəllərində Azərbaycan mətbuatında mövhumatın tənqidi geniş vüsət almışdı. Hətta bəzi yazıçılar bu məsələyə aid publisist və bədii əsərlər həsr edirdilər.

Azərbaycanda təbii-elmi materializmin görkəmli nümayəndəsi olan H.Zərdabi həmişə və hər yerdə təbiətşünaslığın nailiyyətlərini mövhumata və xürafata qarşı qoymuşdu. O öz əsərlərində təbiətdə baş verən bütün hadisələri maddi səbəblərlə izah etməklə hər cür möcüzəni, kəşf-kəraməti rədd edirdi. O yazmışdı ki: " harada cahillik varsa, orada da möcüzələr olur.

Mövhumatçı dindarlardan avam camaatı qorumaq üçün səy göstərir, onları sehrbazlardan, cadugərlərdən, türkəçarəçilərdən uzaq tutmağa çalışırdılar. T.b.Bayraməlibəyov, M.T.Sidqi də F.b.Köçərli kimi dövrünün yaramaz dindarlarını tənqid etməkdən çəkinməyirdilər. H.b.Zərdabi türkəçarələrlə mübarizə etmək üçün nəinki xalqın özünü maarifləndirməyi, habelə həmin şarlatanlara qarşı inzibati tədbirlər görməyi tələb edirdi (1.s.171)...

F.b.Köçərli liberal mövqedən mübarizə aparan ziyalı olubdur. O xalq arasında cəhalət, avamlıq və fanatizm yayan mollaların əleyhinə kəskin çıxışlar edir və onları tez-tez mətbuatda tənqid edirdi. O bir pedaqoq kimi dərs dediyi şagirdlərə şəriət dərsləri keçməsinə baxmayaraq, onları cəhalətdən, fanatizmdən uzaq olmağa, yalançı mollaların apardıqları təbliğata uymamağa çağırırdı. Görkəmli pedaqoq, alim F.b.Köçərli tanınmış zi-

yalılarla bu mövzuda söhbətlər aparарkən onları yorulmadan bu yolda çalışmağa ruhlandırırdı. Məktəbi bitirib işləməyə gedən tələbələrə millətin yolunda işıq kimi yanmağı, boş danışmaqdansa xalq maarifi yolunda çalışmağı tövsiyə edirdi.

F.Köçərli sübut etməyə çalışırdı ki, bəzilərinin tənqid etdiyi kimi islam heç də mənasız, boş əmr və qadağalardan ibarət deyildir. İslamın tərbiyəvi, insanın inkişafına mane olmayan, böyüyə hörmət, kiçiyə məhəbbət, qadına, anaya şəfqət hissi aşılayan bir din olduğunu və bütün bunların Quranda öz əksini tapdığını göstərməyə və bir də Quranı oxuyub dərindən dərk etməyi anlatmağa çalışırdı. F.b.Köçərlinin dinlə əlaqədar yazılarına nəzər saldıqda bu görkəmli şəxsiyyətin hər zaman islam dininin müdafiə mövqeyində olduğunu görürük. O, hər bir çıxışında qeyd edirdi ki, mən də köləliyin, dini fanatizmin əleyhinəyəm, lakin dini dərk edərək qəbul etdikdə bunun heç bir tərəqqiyə mane olmadığı mümkündür. Heç bir iş kor-koranə olmamalıdır.

Azərbaycan maarifçilərindən M.T.Sidqi də F.b.Köçərli kimi ruhanilərin nalayiq hərəkətlərini onların nadanlığı və nəfslərinin azğınlığı ilə izah edirdi. O da dövrünün dələduz mollalarını ifşa edən məqalələr yazmaqdan çəkinməyirdi.

Azərbaycan maarifçiləri tərəfindən ruhaniliyin tənqid edilməsi dindarların gözündə həmin ictimai zümrənin nüfuzdan düşməsində böyük rol oynamışdır. Bu da öz növbəsində ruhanilərin təsiri altından kütlələrin çıxması işini xeyli asanlaşdırırdı. Müsəlman məişətinin geriliyini, ictimai inkişafın tələblərinə uyğun gəlmədiyini F.Köçərli xüsusi olaraq təhlil edirdi. O "Məişətimizə dair" başlığı ilə yazdığı məqalələrində göstərirdi ki, müsəlman məişəti "bəşəriyyət karvanının qatarından üzülmüş yorunuq dəvə kimi bir yerdə qalıb, uzun dəhrləri xabi-qəflətdə keçirir". F.Köçərliyə görə müsəlmanların ictimai həyatının geridə qalmasının başlıca səbəbi "camaatı təşkil edən hər bir sinfin öz darca və qaranlıq dairəsində güzəran etməsidir", "Hər bir firqənin öz xüsusi kar-barının, nəf və səlahının və dolanacağının dalınca" getməsidir", "riyasət və hörmət iddiasında olan ruhani ataların və alicənab ağaların hirsi, qərəzi, tamahı və kütbeyinliyidir". Durğunluq keçirən müsəlman məişətini təzələməyin və dəyişdirməyin başlıca vasitəsini Azərbaycan maarifçisi elmdə, maarifdə, tərbiyədə görürdü. F.Köçərli yazmışdı: "... Mərəzlərimiz çox isə də, onların ümdəsi və mühliki cəhalət və nadanlıqdır, onun doğru və həqiqi müalicəsi elm və tərbiyədir. Ona binaən hal-hazırda hər şeydən artıq ehtiyacımız elm və ədəbdir, mərifət və kamaldır ki, bunları təhsil etməmiş məişətimizi qayda və nizama salmayacağıq".

F.Köçərli bir maarifçi kimi, qabaqcıl ziyalıları xalq maarifi uğrunda daha mübariz olmağa və əzmlə çalışmağa səsləyirdi. Köçərli məqalələrində zülmə sinə gərməyi və xoşbəxt həyata qovuşmağı əldə etmək üçün elmə və təhsilə doğru irəliləməyi yazırdı. O, hər çıxışında təkrar-təkrar Quran və şəriətin müsəlman xalqlarının həyatının dəyişilməsinə və inkişaf etməsinə mane olmadığını vurğulayırdı.

İslamın tənqidi və tərifi haqqında ən böyük fikirlər səsləndirən o dövrün ən qabaqcıl ziyalısı olan Əhməd bəy Ağayev bu haqda daha sərt mövqedən çıxış edərək, Avropa mətbuatının islam haqqında yazdıqlarının səhv olduğunu göstərirdi. Ə.Ağayev müsəlman və xristian xalqlarının bir-birinə yaxınlaşmasına mane olan səbəbi islam dinində deyil, səlib yürüşləri zamanından başlanan "Ənənəvi düşmənçilikdə" görürdü. Panislamist Əhmədbəy Ağayev müsəlmanlara "öz nicatını" Quran vasitəsi ilə və Quranda axtarmağı məsləhət görürdü. O yazmışdı: "... Müsəlmanların dirçəlməsi və tərəqqisi ümumiyyətlə mümkündürsə, bu hökmən müsəlmanlar arasında yeganə fəal qüvvə olan din vasitəsi ilə olmalıdır". Panislamist Məmməd əmin Rəsulzadə deyirdi ki, müsəlman xalqlarına ictimai-iqtisadi və mədəni gerilikdən yeganə çıxış yolunu islam dini göstərir, buna görə də müsəlmanlar hansı partiyaya mənsub olur-olsunlar, islam dinin əsaslarını rəhbər tutmalıdırlar, çünki bu dindən kənarda onları

assimilyasiya, fəlakət gözləyir"(1. s. 218).

Ə.Ağayev ilə S.Mehmandarovun "Tərəqqi və islam" mövzusuna dair mülahizələri qüvvətli bir əks-səda oyadıb az sonra mətbutda qələm münaqişəsinə səbəb oldu. Amma ədalət naminə demək lazımdır ki, mübahisədə iştirak edənlərdən T.Bayraməlibəyov, F.Köçərli və E.Sultanov öz məqalələrində daha çox dini mövhumat, ayin və mərasimlərdən, şəbih, onun mənşəyi, mahiyyəti və zərərindən bəhs edir, müsəlman ruhanilərinin cəmiyyətdəki rolundan narazılıqlarını bildirirdilər və S.Mehmandarovun məqalələrindəki ifşa kəsəri, onun belə demək mümkünsə, "yarımçıq ateizmi"nin özü də qələm yoldaşlarından çoxunda yox idi.

Firidun bəy Köçərli də öz həmfikiri T.Bayraməlibəyov kimi xalq arasında cəhalət, avamlıq və fanatizmi yayan mollalar əleyhinə kəskin çıxışlar edirdi. O, 1886-cı ildə "Tərcüman" qəzetinə göndərdiyi bir məktubunda göstərirdi ki, İrəvan üləmaları o qədər cahil və nadandırlar ki, naşiri sünni olduğu üçün həmin qəzeti oxumağı qadağan edirlər və bu korlar başa düşmürlər ki, mədəniyyət naminə hətta xristian Qərbindən də kitab, qəzet almaq olar. Başqa bir məqaləsində F.Köçərli şəriətdən dərs deməsinə baxmayaraq mollalara nifrət etdiyini, onların əksəriyyətinin bədəməl və tamahkar olduğunu qeyd edərək yazmışdı: "Təkcə şəriət müəllimi olduğum üçün ruhanilərimizin bütün xasiyyət və qüsurlarını mənə də şamil etmək caiz deyil. Əslində mən bəlkə də mollalara yaxından bələd olduğum üçün, bu "müqəddəs ataların" bəd əməllərini və tamahkarlığını daha yaxşı öyrənə bilmişəm. Elə buna görə də onlara daha çox nifrətim var və beləlıərinə həmişə düşmən olmuşam (1.s.185).

Azərbaycan maarifçiləri tərəfindən islam dininin ictimai rolunun tənqid edilməsi dinin mənəvi əsarətindən avam kütlələrin azad edilməsinə, çarizmin və yerli burjaziyanın mənafeyini güdən məscidin və başqa dini idarələrin sinfi mahiyyətinnin aydınlaşdırılmasına kömək etmişdir. Bu tənqid kütlələrin öz





nicatlarını islamda axtarmaq kimi xəyallardan uzaqlaşmasında mühüm rol oynamışdır. Avam xalqın hər işi dinlə bağlaması təbii ki, dini ruhanilərin işinə yarayırdı, buna görə onlar xalqı təhsildən yayındırmağa və elmdən uzaq tutmağa çalışırdılar. Maarifpərvərlərlə fikirləri üst-üstə düşməyən mövhumatçılar ziyalıları xalqın gözündən salmaqan, onların hörmətinə xələl gətirməkdən, hətta onları hədələməkdən belə çəkinməyirdilər.

F.b.Köçərli isə yetərincə nüfuza malik olduğundan bu hörməti sayəsində onlarla dil tapmağa çalışır və eyni zamanda əsl ziyalı olaraq əhali arasında maarifləndirmə işini də aparırdı.

Bu nöqteyi-nəzərdən F.Köçərlinin mövqeyi daha qəribə idi. "Müsəlmanların əsrlərdən bəri giriftar olduqları ətalət və geriliyin" səbəblərini əsasən ruhani atalarda görən görkəmli maarifpərvər "Çağrılmamış qonaqlar" məqaləsində onların yeni, müasir səviyyədə savadlanması haqqında təkliflər irəli sürürdü. Onun fikrincə hökumət "kütlələrin əxlaqi və zehni inkişafında əsas işi" görməli olan müsəlman ruhanilərinə qayğını artırmalı, bu zümrənin "maddi vəziyyətini yaxşılaşdırmalı", "görüş dairəsinin genişlənməsi" üçün yeni "ruhani məktəblər" açmalıdır (11.s.38).

F.b.Köçərlinin yaradıcılığı qeyd etdiyimiz kimi rəngarəng və geniş əhatəli olmuşdur. O pedaqoji fəaliyyətindən əlavə olaraq eyni zamanda həm də ədəbiyyatşünas, tənqidçi, publisist, folklorşünas kimi fəaliyyət göstərmişdir. Köçərlinin dinə münasibətinə gəldikdə o yaradıcılığı dövründə həmişə öz dininə hörmət etmiş və başqa xalqların dininə də dəyər vermişdir. Köçərli ilahiyyat bilicisi olduğundan seminariyada azərbaycanlılara şəriət keçməklə bərabər dərsi düzgün tədris edir, şagirdlərə Quranı dərindən öyrənməyi anladırdı. Dindən istifadə edən dindarlar ən iyrənc hadisələri, insanın yaşadığı müsibətləri, başlarına bilməməkdən gələn fəlakətləri din adı ilə bağlayaraq avam camaatı həm qazanc məqsədilə, həm də öz iradələrinə tabe etmək üçün aldadaraq məqsədlərini həyata keçirirdilər. F.b.Köçərli belə

mövhumatçılara qarşı kəskin mübarizə aparır, xalqı oyanmağa, dələduz mollalara aldanmamağa səsləyirdi.

Müsəlman məişətinin geriliyini, ictimai inkişafın tələblərinə uyğun gəlmədiyini F.Köçərli xüsusi olaraq təhlil etmişdir. O "Məişətimizə dair" başlığı ilə yazdığı məqalələrində göstərirdi ki, müsəlman məişəti "bəşəriyyət karvanının qatarından üzülmüş yorunuq dəvə kimi bir yerdə qalıb, uzun dəhrləri xabi-qəflətdə keçirir.

F.Köçərliyə görə müsəlmanların ictimai həyatının geridə qalmasının başlıca səbəbi "camaatı təşkil edən hər bir sinfin öz darca və qaranlıq dairəsində güzəran etməsidir". Hər bir firqənin öz xüsusi kar-barının, nəf və səlahının və dolanacağının dalınca" getməsidir, "riyasət və hörmət iddiasında olan ruhani atalaların və alicənab ağaların hirsi, qərəzi, tamahı və kütbeyinliyidir. Durğunluq keçirən müsəlman məişətini təzələməyin və dəyişdirməyin başlıca vasitəsini Azərbaycan maarifçisi elmdə, maarifdə, tərbiyədə görürdü. F.Köçərli yazmışdı: "...Mərəzlərimiz çox isə də, onların ümdəsi və mühliki cəhalət və nadanlıqdır. Onun doğru və həqiqi müalicəsi elm və tərbiyədir. Ona binaən hal-hazırda hər şeydən artıq ehtiyacımız elm və ədəbdir, mərifət və kəmaldır ki, bunları təhsil etməmiş məişətimizi qayda və nizama salmayacağıq"(1.s.197).

Azərbaycan maarifçiləri xalqa xidməti özlərinin ən yüksək vəzifəsi hesab edərək, bunsuz heç bir xoşbəxtlik düşünməmişlər. Onların etikasında ən yüksək səadət xalqın səadətidir və ən yüksək əxlaqi vəzifə xalqın səadəti uğrunda mübarizə aparmaqdır. Maarifçi ziyalılara görə ən əxlaqlı adam məhz xalqın səadəti uğrunda var qüvvəsi ilə çalışan adamdır.

F.Köçərli bir maarifçi kimi, qabaqcıl ziyalıları məyus olmamağa, xalq maarifi yolunda dayanmadan çalışmağa çağırırdı. O islam dini ilə bağlı olan köhnə adət-ənənələri, məişəti ciddi tənqid etsə də islam dininə çox ali bir hisslə hörmət edirdi. F.Köçərli heç də bəzilərinin dediyi kimi islamı çürük və ma-





nasız əmr və qadağalar sistemi hesab etmirdi, əksinə o islamı tənqid edənlərə deyirdi: "İslam əsla müsəlmanların nə mənəvi, nə də maddi inkişafına mane olmur". Əksinə islamı dərindən dərk edərkən, onun nə qədər tərbiyəvi xarakter daşıdığını görmək olur.

F.b. Köçərlinin islam dininin müsəlmanların ictimai və sosial həyatında rolu məsələsindən bəhs edən yazılar dövrü mətbuatda öz əksini tapmışdır. F.b.Köçərli də bu cür yazılarla dövrü mətbuatda fəal və tez-tez çıxış edirdi. Keçən əsrin doxsanıncı illərində dövrü mətbuatın səhifələrində islam dininin ictimai həyatdakı rolu mövzusunda qızğın müzakirələr aparılırdı. Mübahisələrdə Azərbaycan maarifçilərindən islama qarşı ən kəskin çıxışlar edən S.Mehmandarov, islamı müdafiə edənlərdən isə T.Bayraməlibəyov, Ə.Ağayev və F.Köçərli iştirak edirdi. M.Şahtaxtlı da fəal mövqedə çıxışlar edirdi. F.b.Köçərli "İslamın tarixindən" sərlövhəli məqalələrini dərc etdirərək, orta əsrlərdə Firdovsi, Hafiz, Rumi, Sədi, cami, Füzuli kimi böyük sənətkarların meydana çıxmasından belə nətcəyə gəlirdi ki, islam dini ictimai və mədəni tərəqqinin yolunu kəsmir. Onun fikrincə islam dinində ictimai tərəqqiyə mane olan bir şey varsa, o da məişətə və vətəndaşlıq cəmiyyətinə aid mülki qanunlardır.

F.Köçərli deyirdi ki, müsəlmanların həyat və məişəti onları təşəbbüssüz, cürətsiz, zəlil və xar etmişdir. Bu keyfiyyət sanki "həmişə qorxu altında ömürlərini çürüdən, dilsiz,ağızsız, fəqir və yazıq anaların südü ilə" onların qanına işləmişdir.F.Köçərli yazmışdır: "Bilmək gərəkdir ki, ünas əhlinin elm və mərifətsizlik ucundan bu qədər dalda qalmaları, bu qədər biixtiyar, avam və sadədil olmaqları məhz bir özlərinə və kişilərinə zərər yetirmir, bəlkə də bunlardan da artıq onun ziyanı və sədəməsi övlada və körpə balalara toxunur".

Beləliklə, F. Köçərli islam dini ilə bağlı olan, insanı cəhalətə sürükləyən, inkişafına mane olan bütün köhnə adət-ənənələri ciddi tənqid edir və onların aradan qaldırılmasını tələb edirdi. O

belə hesab edirdi ki, müsəlman həyatında lazımsız qadağalar və əmrlər gərəksizdir. Bu sistemi aradan qaldırılması üçün ziyalılarımızın birgə mübarizəsi lazımdır. Köçərli sübut etməyə çalışırdı ki, islam heç də mənasız əmrlər və qadağalar sistemi deyildir. Quran və şəriət heç də müsəlman xalqlarının həyat və məişətinin dəyişdirilməsinə və inkişaf etməsinə mane olmur.

"İslam ictimai tərəqqiyə buxov olmuşdur, müsəlman ölkələrində boğuq bir atmosfera yaranmışdır"-söyləyən S.Mehmandarovun əksinə olaraq F. Köçərli deyirdi ki, islam "əsla müsəlmanların nə mənəvi, nə də maddi inkişafına mane olmur", onun məişətə aid tələblərindən dəyişilmiş şəraitə uyğun gəlməyənlərini islah etmək kifayətdir(1.s.198).

F.b.Köçərli savad, təhsil aldıqdan sonra millətinə xidmət etməyən bəzi gənclərə irad tutaraq millətə xidmət etməyə dəvət edirdi. Onun "Qaranlıqda qalanlarımız" sərlövhəli yazısında deyildiyi kimi: "Elm və maarif kəsb edənlərimizin ümdə arzusu özlərini şəhərə salıb, isticə və mənfəətli qulluq tapmaqdır. Kəndlərimizdə əcəlsiz, dərmansız və müalicəsiz ölənlərin həddi hesabı yoxdur, nə əczaxana, nə mərizxana və nə elmi həkim və cərrah gözə dəymir. Ətfali-müslimin tərbiyəsiz, elmsiz qalıb ataları və babaları kimi dünyadan bixəbər, vəhşət və zülmət içrə zindəganlıq edirlər. Üləmalarımız və vaizlərimiz şəhər zindəganlığını kəndlərdə avam dehqanlarla müaşirət etməyə tərcih və təfəvvüq qılıb, öz nəf və xeyirlərinə və əmi-asayişlərinə xələl yetirməzlər...cavan müəllimlərin əksəri ki, darülmüəllimində kəsbi-maarif ediblər, bir sənədən artıq kənddə qalıb müəllimlik etməzlər və qaranlıqda qalan qardaşlarını ziyalandırıb, gözlərini açmağı özlərinə borc bilməyib, yüz cürə vasitələrlə onların içindən çıxıb qaçmağı və özlərini şəhərə salmağı böyük hünər bilirlər (2. s. 103).

Firidun bəy Köçərli bütün bu hadisələrin içərisində yaşadığı üçün onu sarsıdan həyat səhnələrini daha aydın görür və bunu xalqa çatdırmağa çalışırdı. O, sübut etmək istəyirdi ki,





"əgər islam dinində ictimai tərəqqiyə maneə olan bir şey varsa, o da məişətə və vətəndaşlıq cəmiyyətinə aid mülki qanunlardır".

F.b.Köçərli də T. Bayraməlibəyov kimi mollanın mövhumatından azad edilmiş və müasirləşdirilmiş bir dinin müsəlman xalqlarının ictimai həyatında müsbət rol oynayacağına inanırdı. O, ictimai inkişafın irəli sürdüyü qadın azadlığı, xalqlar dostluğu, dünyavi elmlərin tədris edilməsi problemlərini əsl dinə, Qurana zidd olmadığını sübut etməyə çalışırdı. F.Köçərli bu nəzərdən islam dinin ictimai tərəqqiyə xidmət göstərə biləcəyini qeyd edərək yazmışdı: "...həqiqətdə dinimiz hüsni-məişətimiz üçün yaranmışdır və hüsni-məişətimiz...nicat və səadətimiz dini-mübinimiz olan qanuna əməl etməklə, şeiri-şərif açdığı yol ilə getməkdə bəhamə gələcəkdir"(1.s.215).

İslam dini ilə bağlı olan məişət qaydaları bədii əsərlərdə tənqid hədəfinə çevrilmişdi. Qadın hüquqsuzluğu, çoxarvadlılıq, kiçik yaşlı qızların qoca kişilərə zorla ərə verilməsi və s. bu kimi nadanlıqdan irəli gələn hadisələr M.S.Ordubadi, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminlinin bədii əsərlərinin ana xəttini təşkil edirdi. Firidun bəy Köçərli müasir fikirli ziyalı olduğundan bütün bunların aradan qaldırılması uğrunda var qüvvəsini sərf edirdi. Müsəlman Şərqində əsrlərlə hakim feodal məfkurəsinin əsasını təşkil edən və bir çox möminlərin əlində alətə çevrilən islam dinindən, bir çox hallarda da onlar özləri üçün müdafiə vasitə kimi istifadə edirdilər.

İslam və onun dəyərlərinə dair mövzular həmişə ziyalılarımızın açıq müzakirə obyektinə çevrilərək, diqqət mərkəzində olubdur. Təsadüfi deyil ki, o dövrün mütərəqqi ziyalıları siyasi mənsubiyyətindən asılı olmayaraq hər biri millətin, xalqın azad yaşaması, təhsilli olması üçün çalışmış və bu yolda qarşılaşdıqları çətin vəziyyətlərdən qorxmayaraq geriyə addım atmayıblar. Görkəmli publisist Ə Ağayevin bu mövzuya həsr edilmiş silsilə yazıları hələ o illərdə "Kaspi" qəzetinin səhifələrində dərc olunmuşdur. Publisistin yazdığı kimi, XIX əsrin ortalarından Qərbin

elmi dairələrində islam dininə münasibət xeyli dəyişir. İslamın mahiyyətini dərindən öyrənən alimlər meydana gəlir. Təkcə islam deyil, bütün Şərq dünyasını araşdıran elmi istiqamət-oriyentalistika öz təşəkkülünü tapır. Elmi dairələrdə islam dini ilə bağlı fərqli fikirlər yer alır. Ümumiyyətlə dinlərin birliyi və yer üzündə hamının Allah övladı olduğu fikrini Ə Ağayev birbaşa, yaxud dolayısıyla bu qəbil məqalələrində dönə-dönə vurğulayır (3. s. 82).

Hələ kiçik yaşlarından ədəbiyyata, klassiklərimizin yaradıcılığına olan marağı onun bir ədəbiyyatşünas kimi püxtələşməsində və sonunda da Azərbaycanın ədəbiyyat tarixində silinməz izini qoymaqda mühüm rol oynayıb. Firidun bəy Köçərli xalq yolunda özünü şəhid edən ziyalı olduğundan, onun vətənə, millətə, xalqa olan sevgisi bədxahların nəzərində onu qorxunc bir varlığa çevirdi və axırda da qətlinə səbəb oldu. Firidun bəy Köçərliyə görə vətənə, xalqa məhəbbət təmənnasız olmalıdır. Xalq üçün aparılan mübarizə insan ömrünün ən şərəfli mübarizəsidir. Onun fikrincə əgər yaşadığın dövr sənin dəyərini bilməyirsə, gələcək nəsillər mütləq sənin qiymətini verəcəkdir. Bunun üçün xalq yolunda yaxşı ad qoyub getmək lazımdır.

Firidun bəy Köçərlinin böyüyüb boya-başa çatdığı ailəsində öyrəndiyi ərəb, fars, türk dilləri, sonradan isə rus dilinə mükəmməl yiyələnməyi onun gələcəkdə bu dillərdə savadının təkmilləşməsinə səbəb oldu. F.b.Köçərli xalq arasında yetərincə nüfuz və hörmət sahibi idi. Onun seminariyada türk dili və şəriət dərsləri keçməsi xalqın ona olan rəğbətini bir qədər də artırmışdı.

Firidun bəyin müəllimlik peşəsinə vurğunluğu bütün ədəbiyyat araşdırıcılarının tədqiqatlarında yer alıbdır.

1907-ci ildə Firidun bəyə şeyxülislamlıq vəzifəsi təklif edildikdə o bu vəzifədən marağı olmadığı üçün imtina edir və müəllimlik peşəsini davam etdirməyi qərara alır. Köçərli dindarları, mollaları tez-tez tənqid atəşinə tutduğundan özünün molla





şəklinə salmaq fikrindən uzaq idi(4. s. 24).

Yeniliyi sevən Firidun bəyin əksinə olaraq, ruhanilər yeniliyin əksinə idilər. Onlar hər cür yeniliyə qarşı mübarizə apararaq, bu sahədə təşəbbüs göstərənləri hər vasitə ilə ləkələməyə və xalqın gözündə alçaltmağa çalışırdılar. Onlar xalqı daim avamlıqda saxlamağa can atdıqlarından hər yeni təşəbbüsü, maarifçilik sahəsində atılan hər yeni addımı böyük vahimə ilə qarşılayırdılar. "Dünya beş gündür, beşi də qara" ifadəsi ilə Firidun bəy heç vəchlə razılaşmayırdı. Yəni "nə edirsən et onsuz da axırı ölümdür" ifadəsi ədibin fikrinə görə çox gülüncdür. Əgər lap bu beş günlük dünyadırsa, bu beş günü ahu-zarla keçirməyi, çalışmamaqla başa vurmağı və heç bir işə yaramaqla yaşamağı Firidun bəy əsla qəbul etməyirdi. Ölümü Allahın əmri kimi qəbul edərək onu ləyaqətlə yaşamağı, xalq üçün, millət üçün bir iş görməyi düşünürdü(2. s. 272).

Azərbaycan maarifçilərindən E.Sultanov F.Köçərli kimi islam dininin cəmiyyət həyatından tamamilə aradan qaldırılmasının əleyhinə idi. Onların hər ikisi bu dini kütlələrin tarixi dönüş nöqtələrində hələ də nicat və təsəlli tapdığı bir mənəvi qida hesab edirdilər.

F.b.Köçərli dövrünün bir çox ziyalılarından fərqli olaraq islamın heç də insan əxlaqında mənfi rol oynaması fikri ilə razılaşmayırdı. Bu barədə olan söhbətlərdə o həmişə islam dininin müdafiəsinə qalxaraq sübut etməyə çalışırdı ki, şəxsiyyətin formalaşmasında xarici mühitin və ailədə tərbiyənin rolu əsasdır. Köçərli yazırdı: "Tərbiyə amillərinin ən mühümlərindən birisi də ailə tərbiyəsidir, ailədə, ailə arasında uşaq öz bilik və xəsaili-mənəviyyəsinin əsasını alır. Burada onun qəlbinə bəyənilmiş xasiyyətlərin, yaxud qəbahətlərin toxumları saçılır, ailədə hökmfərma olan mənəvi məfkurələr(ideal) yavaş-yavaş onun qəlbinə yer edir. Uşaq bilaixtiyar hökmfərma olan mənəviyyata alışır və ailədəki saf qəlbinə ailənin mənəviyyatı əks salır"(5. s. 11)

F.b.Köçərlinin fikrincə axirət dünyasına ümid bağlamağın

insanlarda mütilik, qorxaqlıq, acizlik əxlaqı aşıladığını dönə-dönə qeyd edərkən bunu cəmiyyətdəki ümumi azadlıq mübarizəsi ilə əlaqələndirmişdir(5. s. 76). Ədib "adamların əmal və əqvalında kizb və böhtan əvəzinə doğruçuluq və düzlük" işlənməsini, insanlar arasında daim "həqşünasıq... qeyrət, hümmət, şərm, həya, etibar və etiqad"ın hökm sürməsini qızğın arzu etmişdir(5. s. 116).

Firidun bəy çoxlarının tədbirçisi, məsləhətçisi, yolgöstəricisi olduğundan, hər kəsin ürəyində bir dərdi olsaydı qabaqca Firidun bəyə yazardı. Buna yazılmış məktublarda nələr görünmür. Gah Tumanovdan dəvətnamə alır ki, Tiflisə gəlib camaat darülfünunda leksiyalar oxusun(1908), gah İstanbul məktəbləri müfəttişi Əhməd bəy Ağayevdən məktub alır ki, müəllim institutların və seminariyaların quruluşu haqqında bildiyi əsərləri ona nişan versin(1909), gah Tehran progimnaziasına, gah Tiflisdəki İran məktəbinə İran konsulu müəllim istəyir" və s. və ilaxır bu tipli məktublarla Firidun bəyə müraciətlər olurdu (4. s. 32).

Uzun müddət öz məcrasından, əsl qiymətindən qəsdən uzaq salınmış islam və islami dəyərlər, əslində millətin, xalqın birləşməsinə və inkişafına təkan verən faktorlar sırasında olmuşdur. Bu dövrdə çar Rusiyası tabeliyində olan müsəlmanların islama məhəbbətindən, islami dəyərlərin təbliğindən ehtiyat etmişdir. Ona görə də öz xalqına, millətinə bağlı olan H. b. Zərdabi, F.b.Köçərli, Ə. b. Hüseynzadə, Ö. F. Nemanzadə, C. Məmmədquluzadə, N. Nərimanov, M. Ə. Rəsulzadə kimi publisistlər öz əsərlərində islamın elmi şərhini verməyə cəhd etmişlər(3.s.76).

XIX əsrin ortalarından Qərbin elmi dairələrində islam dininə münasibət xeyli dəyişir. İslamın mahiyyətini dərindən öyrənən alimlər meydana gəlir. Təkcə islam deyil, bütün Şərq dünyasını araşdıran elmi istiqamət-oriyentalistika öz təşəkkülünü tapır. Elmi dairələrdə islam dini ilə bağlı fərqli fikirlər yer alır. Ümumiyyətlə, dinlərin birliyi və yer üzündə hamının Allah





övladı olduğunu ziyalılar gözəl anlayırdı. Lakin islama qarşı müstəmləkəçi dövlətlərin düşünülmüş mübarizəsi Azərbaycan ziyalılarının da narahat edirdi. Bu ziyalı insanlar müstəmləkəçi dövlətlərin Şərq dünyasının inkişafında yaratdığı maneələri tənqid etməklə yanaşı, öz xalqının, millətinin nadanlığını, cəhalət yuxusundan oyana bilməməyini də tənqid edirdilər.

Azərbaycan maarifçilərinin dini baxışları müxtəlif olsa da fikirlərinin əsası millətin avamlıqdan xilas olması, nadanlıqdan uzaqlaşması idi. Bu mövzuda bütün ziyalılarımızın demək olar ki, hər birinin islami dəyərlərin zərəri və yaxud xeyri haqqında yazıları onların yaradıcılığında yer almışdır.

S.Ə.Şirvanı özünün bir sıra qəzəllərində müsəlman ruhanilərini "insan iradəsini qəfəsdə" saxladıqları üçün kəskin tənqid etmişdir. O yazırdı ki, insanı "başqa bir aləmlə bihuş etmək" onun "iradəsini kəməndləmək" ən böyük qəddarlıqdır. S.Ə.Şirvani öz həmvətənlərinə müraciət edərək onları mənəvi köləlikdən azad olmağa çağırırdı:

*İmamə ixtiyarın vermə, hərgiz uyma təkbirə,*
*Özün kim faili-muxtarsan, biixtiyar olma...*
*Cəhənnəm fikrini salma xəyalə, düşmə təşvişə,*
*Yanıb nari-qəmə duzəx odundan əşkbar olma(6. s. 70).*

F.b. Köçərli dindarları və mövhumati tənqid nöqteyi-nəzərindən "Molla Nəsrəddin" jurnalına böyük dəyər verirdi. Ümumiyyətlə o dövrün demokrat fikirli ziyalıları "Molla Nəsrəddin" jurnalını və onun irəli sürdüyü ideyaları müdafiə edirdilər. Bütün müsəlman aləmini cənginə almış nadanlığa və cəhalətə, elmsizlik və avamlığa qarşı mübarizə aparan bir mətbuat nümunəsi kimi qiymətləndirilirdi. "Nə üçün jurnal bu məsələlərə xüsusi diqqət yetirirdi? Nədən bu neçə milyon ca-

maat bir cüzi heyətin əlində əsir və aciz olub? Deyə sual verən Ömər Faiq cavabında yazırdı: "ondan ötrü ki, camaatın çoxu bielm və xəbərsizdir... adət etdiyi həqiranə məişətini, boynuna vurulan zülm boyunduruğunu allah tərəfindən təqdir olunmuş zənn edir. Qəflət... zalimlərə kömək edir, ittihad və ittifaqa mane olur. Zalımlar da camaatın məhz qəflət və cəhaləti səbəbi ilə murdar pəncələrini, kəskin dişlərini fədakarani-hürriyyətin qəlblərinə qədər batırıb açdıqları istibdad meydanında istədikləri təki oynayırlar"(10. s. 245).

Mütəfəkkir şəxsiyyət olan Firidun bəy Köçərli də öz növbəsində "Molla Nəsrəddin" jfəaliyyətindəki mühüm cəhətləri vaxtında görüb göstərə bilmişdi. O, belə hesab edirdi ki, "Molla Nəsrəddin" jurnalı xalqı oyatmağı bacaran, onları yeni fəaliyyətə, insanı geriyə sürükləyən, vaxtı keçmiş adətlərini aradan qaldırmağa və bir sözlə yeni dünya qurmağa sövq edə bilən jurnaldır. Köçərli onu da qeyd edirdi ki, biz öz varlığımızı yaşatmaq, tarixlə ayaqlaşmaq üçün dəyişən dünya reallıqlarından geri qalmamalıyıq. Dünyaya hökm edən avropalılar hansı dəyər və meyarlarla yaşayırlarsa, biz də həmən ölçüləri qəbul etməli, onlardan bəhrələnməliyik. "Dövlət, sərvət, mərifət, kamal, hünər, bilik, bacarıq, rahət güzəran avropalılarda; fəqr, zəlalət, yoxsulluq, cəhalət, avamlıq, hünərsizlik, narahatlıq, icz, əsarət və kəsalət aləmi-islamda. Bunlar gözün dikiblər axirətə, beş günlük ömrü bir tövr keçirib, darü-bəqaya vasil olmağa, onlar çalışırlar dünya zindəganlıqlarını rahat etməyə və mürəffəhal ilə dolanmağa, özləri üçün dövlət və hörmət qazanmağa. Bunlar fəlakət və qəflətdə , onlar ciddiyyət və səadətdə: bunlar ölü, onlar diri"(7. s. 31).

F.b.Köçərli vətənpərvərlik duyğuları ilə yaşayan, xalqını ürəkdən sevən və bütün ömrünü millətinin maariflənməsinə, təhsilinə həsr etmiş bir vətəndaş idi. O, vətən və vətənpərvər-





lik məfhumlarını məhdud mənada deyil, çox geniş mənada götürürdü. Köçərli həmişə fanatizmdən uzaq olubdur. Onun xalq arasında fanatizm, cəhalət və avamlıq yayan mollalar kəskin çıxışları həmişə maraqlı olmuşdur. Məqalələrinin birində ədib yazırdı: "Təkcə şəriət müəllimi olduğum üçün ruhanilərimizin bütün xasiyyət və qüsurlarını mənə də şamil etmək caiz deyil. Əslində mən, bəlkə də mollalara yaxından bələd olduğum üçün, müqəddəs ataların "bəd əməllərini və tamahkarlıqlarını daha yaxşı öyrənə bilmişəm. Elə ona görə də onlara daha çox nifrətim var və belələrinə həmişə düşmən olmuşam"(8. s. 53).

Azərbaycan maarifçiləri islam ilahiyyatçılarının ehkamlarına qarşı mübarizə apararaq iradə azadlığını irəli sürərək, bunda israr edirdilər ki, əxlaq məsələlərində insanın iradə azadlığı onun nəzəri səviyyəsindən, onun intellektual inkişafından asılıdır. Məsələn, Azərbaycanda dini mövhumatın hökm sürdüyü vaxtda gimnaziyaya getmək, gimnaziyada erməni, rus və başqa millətlərlə bir yerdə oxumaq, forma geyinmək, başmaq əvəzinə ayaqqabı geymək ən pis iş hesab edilərdi. Bu səbəbdən də maarif və mədəniyyətin inkişafına var qüvvələri ilə mane olmaq istəyən mövhumatçı dindarlar avam insanlarla din adından müxtəlif təsiredici söhbətlər aparır, onları daima qorxu altında saxlamağa çalışırdılar. Sadə, avam və nadan insanların fikrinə ruhanilərin təsiri daha güclü olurdu. Bunun üçün ziyalılarımızda səbir, təmkin, ləyaqət, nüfuz önəmli idi ki, onların qarşısında danışmağı bacarsınlar və dindarları öz üzlərinə qaldırmasınlar. F.b.Köçərli belə nüfuz sahiblərindən idi.

Firidun bəy Köçərlinin maarif yolunda açdığı cığır bir çox insanların həyatına işıq salmış, onları maarif nuruna qərb etmişdir. Maarifçi ziyalılarımızın, bədii söz ustalarımızın ilham mənbəyi olan F.b.Köçərli yaradıcılığı bu gündə ədəbiyyatsevərlərin diqqət mərkəzindədir. Bu dahi şəxsiyyətin yaradıcılığı ilə

yaxından tanış olduqca onun fəaliyyətinin öyrənilməyən tərəfləri üzə çıxır. F.Köçərlinin yaradıcılığına hər hansı bir tərəfindən yanaşsan orada nə isə yeni bir fikirlə rastlaşmalı olursan. Xalqı maarifləndirmək, onlara savad vermək o zaman çətin problemlərdən olsa da Firidun bəy bu çətinliklə mübarizədən yorulmurdu. Onun fikrincə müəllim aldığı təhsillə kifayətlənməməlidir, o öz savad və biliyini artırmaq üçün səylə çalışmalıdır. O zaman milləti yaşadığı cəhalətdən qurtarmaq mümkündür.

"XX əsr Azərbaycan ədəbiyyatı məsələləri" kitabında qeyd edilmişdir ki, F.b. Köçərli elm və maarifin insanın mənəvi inkişafında müsbət təsirini göstərməklə bərabər, qeyd edir ki, "elmsizlikdən və avamlıqdan müsəlmanların ürəyinə qorxu bərk sirişt edibdir. Cəhl və nadanlıq onları cürətsiz, hünərsiz və bir növ üftadə, xar və zəlil edibdir".

F.Köçərli "qorxuya ümdə səbəb bilməməzlik, elmsizlik və avamlıqdır"-deyib xalqı elmə, maarifə çağırmaqla bərabər, öz mənliyini müdafiə etməyi, cəsarətli, hünərli olmağı da tövsiyyə edirdi(9. s. 71).

Bu dövr maarifçiləri əsasən nadanlıq və cəhalətin ictimai tərəqqinin inkişafına böyük maneçilik törətdiyini səbəb sayırdılar. Onlar bu fikirdə idilər ki, geriliyin və cəhalətin aradan qaldırılmasında ən kəsərli vasitə publisistikanın inkişaf etdirilməsidir. Xalqı gerilikdən qurtarmağın yolu yalnız azadlıqdadır. Azadlığı əldə etməyin yolu isə maariflənmədə və savadlanmadadır. Bunun üçün mübarizə aparan ziyalılarımız belə qənaətdə idilər ki, insanların azadlıqdan məhrum olmalarının başlıca səbəbi köhnə feodal əxlaqından, köhnə adətlərdən qurtula bilməmələrindədir.

F.b. Köçərli XX əsr Azərbaycan ədəbiyyatı tarixində silinməz iz buraxaraq, ədəbi tənqid tarixində şərəfli mövqeyə sahib olmuşdur. XX əsr Azərbaycan ədəbiyyatının inkişaf etməsində,





ədəbiyyat yolunun işıqlandırılmasında və bu yolda əldə edilmiş nailiyyətlərdə görkəmli şəxsiyyət F.b. Köçərlinin böyük əməyi olmuşdur.

## ƏDƏBİYYAT:


1. Ə. Həsənov: "Azərbaycan maarifçiləri tərəfindən islamın tənqidi". Bakı; 1983. 223 s.
2. F.b.Köçərli: Əsərləri. Bakı. 2013. 493 s.
3. L. Osmanqızı: Əhmədbəy Ağaoğlunun publisistikası. Bakı; 2012. 402 s.
4. Firidun Bəy Köçərlinin şəxsi arxivi, Bakı; 2006. 279 s.
5. Z. Göyüşov: "Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri". Bakı; 1964. 190 s.
6. Z. Göyüşov: "Azərbaycan maarifçilərinin etik görüşləri, Bakı. 1960. 212 s.
7. BDU. Respublika Elmi Konfransının Materialları. Bakı. 2013. 262 s.
8. B. Nəbiyev: Firidun bəy Köçərli. Bakı. 1963. 162. s.
9. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, 1979. 259 səh.
10. K. Talıbzadə: "Ədəbi irs və varislər. Bakı, 1974, 317 səh.
11. Ə.Mirəhmədov: "Azərbaycan Molla Nəsrəddini", Bakı.1980. 430 s.
12. Ə.Mirəhmədov: "Azərbaycan ədəbiyyatına dair tədqiqlər". Bakı, 1983. 363 s.

## FİRİDUN BƏY KÖÇƏRLİNİN YARADICILIĞINDA QADINA AİLƏDƏ VƏ CƏMİYYƏTDƏ MÜNASİBƏT

Azərbaycan maarifçilərinin əsərlərində haqqında geniş bəhs edilən əxlaq məsələlərindən biri də ailəyə, qadına münasibət, valideynlik və övladlıq münasibətləri məsələsidir. Onların bu barədəki fikirlərinin təhlili göstərir ki, milli mədəniyyətimizin bu görkəmli nümayəndələri tərbiyə və tərəqqi işində ailəyə çox böyük diqqət vermiş və onun möhkəmləndirilməsi cəmiyyətin mütərəqqi inkişafı üçün zəruri hesab etmişlər(7.s.167).

Qadın hüquqsuzluğunun, qadın köləliyinin və qadın əsarətinin aradan qaldırılması uğrunda illərlə mübarizə aparan maarifpərvər ziyalılarımız daim qadınların azadlığa çıxarılması və təhsilə cəlb edilməsi yolunda cəsarətli addımlar atıblar.

Bu maarifpərvər ziyalılardan biri də Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən biri də Firidun bəy Köçərli olub.

Azərbaycanın mədəniyyət və ədəbiyyat tarixində görkəmli yeri olan tanınmış pedaqoq, publisist və ədəbiyyatşünas Firidun bəy Köçərlinin elmə, savada, təhsilə, biliyə olan həvəsi xalqın savadlanması uğrunda apardığı mübarizəsindən aydın görünür. F.b.Köçərli qadın azadlığı uğrunda da eyni mübarizəni aparırdı. O maariflənmə, təhsil dedikdə təkcə oğlanların deyil, eyni zanmanda qızların da təhsilini, azadlığını nəzərdə tuturdu. Bu səbəbdən o, qadın azadlığı problemlərini öz səhifələrində işıqlandıran jurnalların işini qiymətləndirərək təqdirəlayiq hesab edirdi.

Azərbaycan ziyalıları zaman-zaman qadınların savadlanması, təhsilə, biliyə yiyələnməsi üçün mübarizə apararaq, bunun cəmiyyətimizə nə kimi xeyri ola biləcəyini geniş xalq kütlələrinə anlatmağa çalışırdılar.





Firidun bəy Köçərli Azərbaycanda hökm sürən cəhalətə, nadanlığa ümumiyyətlə, Şərqin eybəcərliklərindən uzaq olmağa çağırış edən ziyalılardan idi. O, daim qadın azadlığı və maarifi məsələləri ilə əlaqədar çıxışında xürafatın, mövhumatın əsiri olan cəmiyyəti kəskin tənqid edirdi.

F.b.Köçərlinin mükəmməl təhsilə yiyələnməyi onun gözünü açmış, həyatı ona dərk etdirmişdir. O, dövrünün əzab-əziyyətini, xüsusən də qadınlara qarşı olan ədalətsizliyi gördüyü üçün kişilərlə bərabər qadınların da təhsil almaqlarına çalışırdı. Hətta o, öz həyat yoldaşı Badisəba xanımla fərdi məşğul olaraq, ona yazıb, oxumağı öyrətmiş, onun maarifçi bir şəxsiyyət kimi yetişməsində böyük zəhmət çəkmişdir. Badisəba xanım da onun zəhmətinə biganə qalmayaraq, Azərbaycan tarixində ziyalı qadınlar sırasına yüksəlməyi bacardı. Badisəba xanım hətta 1918-ci ildə öz xərci hesabına Qazaxda "Yetim və qaçqın uşaqlar evi" açdırmağa nail olur.. Uzun illər Şəkidə "Uşaq evi"nin müdiri vəzifəsində çalışan Badisəba xanımın vəfatından ta bu günə qədər həmən "Uşaq evi" onun adı ilə tanınır. Bu faktı Azərbaycanda qadın maarifinin, qadın təhsilinin və ən başlıcası qadın azadlığının təzahürü hesab etmək olar.

Millərsevərliyi ilə fərqlənən F.b.Köçərli bir maarifpərvər olaraq, qadın hüquqsuzluğuna, qadın savadsızlığına etiraz əlaməti kimi öz ömür-gün yoldaşına təhsil verməklə, başqalarına da təsir göstərməyə çalışırdı. Köçərli qadınları sözün əsl mənasında azad etməyin yolunu təkcə təhsildə deyil, eyni zamanda onların ictimai əməyə cəlb edilməsində görürdü. Bunun üçün qadınlar arasında maariflənmənin yayılmasına ciddi fikir verməyi lazım bilirdi.

XIX əsrdə Azərbaycanda istedadlı romantik şairlərin ye-

tişməsi ilə əlaqədar bir qədər köhnə üslub adlanan mərsiyə, qəzəl yazan şairlərin də meydanı genişlənməyə başladı. Hər yazar özünə yeni bir üsul taparaq insanlar arasında şöhrət qazanmaq istəyirdi. Belə insanların sırasında qadınların da xüsusi yeri var idi. Doğrudur, Azərbaycanın ta qədimlərdən üzü bəri istedadlı qadın və qızları ədəbiyyat tarixində yer almışdır. Lakin bizim elə qadınlarımız olubdur ki, onların nə adları, nə yazıları gəlib bu günümüzə çatmayıbdır.

F.b.Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində bir neçə qadın şairlərimiz haqqında materiallar toplayaq, qadınların bacarığını, istedadını nəzərə çatdırmaqla, cəhalət girdabında çabalayan xalqın oyanmasına, nadanlıqdan azad olmağının mümkünlüyünü də anlatmağa çalışırdı. Köçərli çox gözəl anlayırdı ki, təhsili yalnız mollaxanalarda almaqla bu cəhalətdən qurtulmaq mümükün deyildir.

Molla məktəblərində təhsil alanlar ilk növbədə Şərq ədəbiyyatı ilə tanış olurdu, xüsusən də ərəb-fars ədəbiyyatından götürüb, götürürdülər. Azərbaycan dilində ədəbiyyat olmadığından və təhsilin ərəb-fars dilində keçirildiyindən kitabların əksəriyyəti də o dildə olurdu. Bu və digər səbəblərdən Azərbaycan oxucusunun əksər hissəsi dünyadan bixəbər olur və Azərbaycanın istedadlı şəxsiyyətləri haqqında heç bir məlumata sahib ola bilmirdilər. F.b.Köçərlinin bu yolda atdığı addım çox uğurlu olur. O, Azərbaycan ədəbiyyatı tarixində ilk olaraq "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı əsəri meydana gətirir, daha sonra isə iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabını işləyib hazırlayır.

Azərbaycanın dahi klassiklərinin həyat və yaradıcılığından bəhs edən bu əsər bir də ondan ötrü daha dəyərli idi ki, əsərdə kişi şairlərlə bərabər qadın şairələrin də adlarına rast çəkilir. Baxmayaraq ki, qadın şairələrin bir neçəsinin adı çəkilir, lakin bu yenə Azərbaycan ədəbiyyatında bir tapıntıdır. Mənbələrdə qeyd





edildiyi kimi, Köçərliyə qədər bu işlə kimsə məşğul olmadığından Azərbaycan ədəbiyyatında bir məlumatsızlıq var idi, məhz Köçərli belə bir məsuliyyətli öz üzərinə götürərək Azərbaycan ədəbiyyatında son dərəcə qiymətli və zəngin irs qoymağı bacardı. O illərlə kənbəkənd gəzərək, dostların və tanışlarının köməkliyi ilə axtarıb-arayaraq topladığı materialların əsasında nəhayət sanballı bir əsəri meydana çıxara bilir.

F.b.Köçərliyə çox yaxşı məlumdur ki, Azərbaycan qadınları əsrlər boyu vəhşicəsinə istismar edilib, hüquqları tapdalanıb, ağlasığmaz işgəncələrə məruz qalıb və son dərəcə məşəqqətli həyat sürübdür. Köçərliyə görə Azərbaycan qadının taleyi, həyatı onun büründüyü çadrası kimi həmişə qara olubdur.

Cəhalət və nadanlıq girdabında boğulan Azərbaycan qadını, (Şərq qadınları da daxildir)heç bir hüquqa malik olmayıbdır. Halbuki, bütün dünya müsəlmanlarının baş kitabı olan "Qurani-Kərim" də qadının atası, əri, qardaşı və oğlu tərəfindən mühafizə olunmasına, hüquqlarının tapdalanmasına yol verməməkdən bəhs edilir. Bunun tam əksi olaraq, mövhumatçı dindarlar savadsız əhalinin nadanlığından istifadə etməklə, öz məqsədləri üçün qanuna sığmayan qaydalar yaradırdılar. Bu da qadınların hər bir hüquqdan məhrum olmasına gətirib çıxarırdı. Vəziyyət o dərəcədə acınacaqlı idi ki, tibbi nəzarət olmadığından əhali arasında, xüsusilə də qadınlar və uşaqlar arasında xəstəliklər yayılır, ölənlərin sayı günü-gündən artırdı. Avam, cahil ana və atalar balalarının şəfa tapması üçün mollalara, cadugərlərə, falçılara müraciət etməli olurdular. Heç bir hüququ olmayan savadsız ana hətta balasının ölümündə belə özünü günahkar sayırdı. Əslində o, günahkarın kim olduğunu belə anlaya bilmirdi. Çünki əsrlər boyu Azərbaycan qadınına atası, qardaşı və əri tərəfindən qul nəzərində baxılırdı, onu insan yerinə belə qoymurdular.

Dövrün mütərəqqi ictimaiyyətinin nümayəndələri qadın təhsilinin genişləndirilməsi və Azərbaycan qadınlarının ictimai

həyata cəlb olunmasına çalışır və bu yolda fəal iştirak edirdilər.

F.Cabbarovun "H.Z.A.Tağıyevin qız məktəbinin tarixindən" adlı əsərində qadın təhsili haqqında Azərbaycanın bir çox maarifpərvər ziyalılarının maraqlı fikirləri olmuşdur. Pedaqoq və publisist Firidun bəy Köçərli qadın təhsili haqqında yazırdı: "yalnız təhsil müsəlman qadınına ailəni dolandıran, tərbiyəçi və evdar xanım kimi layiqli yer tutmağa imkan verə bilər". Publisist və ictimai xadim Məmmədağa Şahtaxtinski isə deyirdi: "Qadın təhsili...elementar ümumtəhsil bilikləri verər və islam dünyasını əsaslı sosial xəstəlikdən xilas edər, çünki qadınlar qapalı həyat sürürlər. Bu həyatda fiziki və əqli sağlamlıq üçün zəruri olan hərəkətlərin, sərbəstliyin olmamağı onları ərköyün və aciz, arıq, qanı aşağı və cansız edir. Özlərinin bu çatışmamazlıqlarını, əlbəttə ki, analar irsən nəinki qızlarına, hətta oğlanlarına da keçirirlər".

Firidun bəy onu da qeyd edirdi ki, qadın təkcə uşaqların anası deyil, eyni zamanda ərinin dostu, yoldaşı olmalıdır. Qarşılıqlı hörmət olan ailədə hər iki ər və arvad bir-birilərini qorumalı, müdafiə etməlidirlər, hətta buna borcludurlar. Cahil insanlar bu anlayışı qəbul etmədikləri üçün ailədə vəziyyətin gün-gündən daha da ağırlaşmasına gətirib çıxarırdı. Lakin, bütün zamanlarda çətinliklər içərisində yaşamlarına baxmayaraq bizim elə mübariz qadınlarımız olubdur ki, onlar həyat mübarizəsində heç də kişilərdən geridə qalmayaraq ailələrini qorumağı bacarıblar.

Qadın azadlığı məsələsi artıq gündəmdə olan məsələ kimi hamını düşündürməyə başlamışdır. Azərbaycanda qadın azadlığı məsələsi ətrafında başlanan və çox geniş, kütləvi bir şəkil alan hərəkata rəhbərlik edənlərdən biri də Firidun bəyin müasirlərindən olan ədəbiyyat tənqidçisi Seyid Hüseyn idi. Onun redaktoru olduğu "İqbal" qəzeti bəzi məsələlərin həllində mürtəce millətçi mövqe tutmasına baxmayaraq "təsəttüri-nisvan" haqqında gedən mübahisələrdə qabaqcıl mövqe tutur, mollanəsrəddinçilər





ilə birlikdə şəlaləçiləri, qadın azadlığı əleyhdarlarını amansız şəkildə tənqid edirdi(3.s.98).

Azərbaycan ziyalıları təkcə dünyəvi müsəlman qız məktəblərinin açılması məsələsini qaldırmır, eyni zamanda bu istiqamətdə müəyyən addımlar da atırdılar. Bu yolda aparılan mübarizə azərbaycanlı qızlar üçün dünyavi məktəbin yaradılması ideyası meydana gəldi və onu Azərbaycan xalqının böyük oğlu Hacı Zeynal Abdin Tağıyev gerçəkləşdirdi.

Azərbaycan qadınlarının təhsilə nail olmalarında mütərəqqi fikirli ziyalıların əməyi öz bəhrəsini verməyə başladı. 1901-ci ildə Bakıda təntənəli surətdə fəaliyyətə başlayan ilk qız məktəbinin ilk buraxılışı da 1906-cı ildə elə təntənəli də oldu. Qadınların təhsillə bağlı nailiyyətlərini, onların müxtəlif sahələr üzrə mütəxəssis kimi yetişmələrini maarifpərvərlərin bu yolda əldə etdiyi uğurları hesab etmək olar. Cəhalət və nadanlıqdan qurtarmağın yolunu təhsildə görən, maarifpərvər ziyalıların göstərdikləri düzgün yol əhalinin müəyyən hissəsinin gözünü açmış və onlar artıq təhsilin inkişafına açıq gözlə baxmağa başlamışdı. Müasirlərimizin fikrincə qadınların təhsili ona görə vacibdir ki, onlar gələcəyə təhsilli, savadlı övladlar hazırlasınlar, milləti gerilikdən, nadanlıqdan uzaqlaşdırsınlar. Burada sözsüz ki, qadının, ananın rolu böyükdür.

Maarifçilərimizin bu fikirləri öz dolğun ifadəsini F.Köçərlinin "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" adlı məqaləsində tapmışdır. M.F.Axundov və H. Zərdabinin bu barədəki fikirlərini təkid və qətiyyətlə davam etdirən F.Köçərli müsəlman Şərqindəki geriliyin başlıca səbəblərindən birini məhz qadına qul münasibəti bəslənməsində görürdü. O yazırdı: "Necəki, falic azarına mübtəla olan bir bədənin məriz və illətli hissəsi salamat olan hissəsinə kömək əvəzinə ağırlıq və əziyyət yetirir, habelə aləmi-islamda da müsəlmanların bir nisfi ki, ibarət ola ixtiyarsız, elm və tərbiyəsiz biçarə arvadlardan, nisfi

digərinə böyük həml olub, onların tərəqqi etməyinə, müsəlmanlar arasında hər üç surətdə qul və kəniz halında gün keçirən və ömrünü zay edən arvad tayfası olur. Anadan kəniz doğulur, ərə getdikcə ərinə kənizlik edir və həmişə ərinə və yoldaşına "ər" və "yoldaş" deməyib "sahibim" deyir. Axırda da tərbiyəsiz övladına ana olmayıb, kəniz olur"(7.s.168).

Firidun bəy Köçərli hər hansı bir mövzu ətrafında müzakirələrə qoşulsaydı, mütləq Şərqlə Qərbin həyat tərzinin müqayisəsi məsələsinə toxunurdu. Onun fikrincə Şərqi geriyə çəkən ən əsas cəhətlərdən biri güclü mövhumatın hökm sürməsidir. Mövhumat dindar fanatların hökmü ilə geniş vüsət alaraq təhsilə, maarifə, azadlığa mane olurdu. Qadınların işgəncələrə məruz qalmasının da başında islami dəyərlərin düzgün təbliğ edilmədiyi, Quranda yazılanların yanlış formada xalqa, avam kütlələrə çatdırılması idi.

Firidun bəy çox gözəl başa düşürdü ki, Şərq qadınlarının arasında (azərbaycanlı qadınlar da daxildir-P.M) avam, müti xasiyyətli qadınlar çoxluq təşkil edirdilərsə də, diribaş bacarıqlı, ötkəm qadınları da az deyildi. Sadəcə zamanın tələbinə uyğun olaraq onlar susmağa məcbur edilirdilər. Öz hüquqlarını bilməyən qadınların qarşısında azadlıq, hürriyyət, təhsil, maarif kimi məsələlərin qaldırılması o qədər də asan iş deyildi.

Firidun bəy Köçərli Şərq qadınlarının son dərəcə əxlaqlı, həyalı və ədəbli olduğunu da nəzərdə tutaraq, belə yüksək keyfiyyətlərə malik olan qadınların eyni zamanda da təhsilli, elmli olmasının millətə, xalqa, ailəyə və gələcək nəslə nə qədər gözəl, firavan həyat bəxş edə biləcəyini qeyd edirdi. Firidun bəy Köçərli gündəlik həyatda gözləri qarşısında baş verən ağır, keşməkeşli həyatın qadınlar üçün daha acınacaqlı olduğunu gördüyündən Şərq qadınının məşəqqətdən qurtularaq rahat həyata qovuşacağı günü arzu edirdi.

Görkəmli ədib Azərbaycan həyatının bir sıra səciyyəvi ha-





disələrinin, məişətdə nəzərə çarpan köhnəlik qalıqlarının aradan qaldırılması uğrunda mübarizəyə qalxmaqda qətiyyət göstərirdi. O, qadınların ilk növbədə çadra əsarətindən azad olunmasına, daha sonra mədəni və siyasi səviyyəsinin yülsəldilməsinə, savadsızlığın ləğvi uğrunda mübarizənin aparılmasına çalışırdı. Köçərli böyük iradəyə malik olan qadınlarımıza dəyər verərək, anlayırdı ki, Azərbaycan qadınları tezliklə köləlik zəncirini qıracaq və yeni həyata qovuşacaqdır. O, Azərbaycan qadınlarının zülmətdən işıqlı sabaha çıxacağına inanırdı.

Böyük inqilabçı-demokrat N.Q.Çernışevski özünün "Nə etməli?" əsərində yazmışdı: "Təbiət qadına böyük zəka və idrak bəxş etmişdir. Lakin müasir cəmiyyətdə bu qüvvə inkar edilir. Əgər cəmiyyət onu rədd etməyib, bu qüvvədən istifadə etmiş olsa idi, onda insan cəmiyyəti on qat sürətlə inkişaf edərdi(16.s.5).

Azərbaycan qadınları inqilabi mübarizədə də iştirak edirdilər. Qadın azadlığı uğrunda mübarizə XIX əsrin sonları XX əsrin əvvəllərindən başlasa da tam qadın azadlığının həqiqi tarixi Böyük Oktyabr sosialist inqilabından sonra geniş vüsət tapmağa başladı. Atılan tərəqqipərvər addımlar, yeni ədəbi qüvvələrin meydana gəlməsi, ölkədə baş verən inqilabi-siyasi hadisələr qadınları daha da fəal olmağa ruhlandırırdı.

Azərbaycan xalqı qadını, ananı Vətənlə eyniləşdirib. Ulu tanrıdan sonra ikinci yaradıcı ana hesab edilir. İslam sivilizasiyanın müqəddəs kitabı Qurani-Kərimdə qadın, onun hüquqları, ana müqəddəsliyi geniş əks olunub. Hələ cümhuriyyətin yaranmasındasn xeyli əvvəl, 1898-ci ildə Əhməd bəy Ağaoğlu "Kaspi" qəzetində çap olunmuş "İslam və qadın" adlı məqaləsində yazırdı: "Quran böyük və nəcib işi gördü; o, Asiya məkanında qadını ucaltdı, ona bütün Şərqdə misli görünməmiş və eşidilməmiş hüquqları bəxş etdi, onu matronadan zövcəyə və anaya çevirdi"(18.s.72).

Azərbaycan qadınlarını 1918-ci ildə müsəlman Şərqində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründə kişilərlə bərabər hüquq və bərabər imkanlar əldə etdi. Bəzi tarixçilər qadın azadlığı uğrunda əldə olunan nailiyyətin Azərbaycanda sovet dönəmində deyil ondan qabaq, yəni cümhuriyyət dövründə əldə olunduğunu yazırlar. Əslində bu doğrudur. Lakin bura da bir həqiqət ondan ibarətdir ki, cümhuriyyət dövründə qaldırılan məsələ məhz Oktyabr inqilabından sonra uğur qazanaraq geniş vüsət tapdı. Əvvələ, Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ilə Oktyabr İnqilabının qurduğu hökumət arasında elə də uzun fasilə olmayıbdır. Azərbaycan ziyalılarının parlamentdə qaldırdıqları qadın azadlığı və onların kişilərlə bərabər seçkilərdə iştirak etməsi məsələsi Oktyabr inqilabından sonra tam şəkildə əldə edilsə də, bunun əsas səbəbkarı Cümhuriyyət hökuməti olubdur. Azərbaycan Cümhuriyyət dövründə qadınlara azadlıq verilməsi məsələsini qaldıraraq müdafiə edən ziyalılarımıza bu gün də qadınlarımız borcludurlar.

Hər zaman M.F.Axundovu özününə müəllim, onun ideyalarını isə məktəb hesab dən F.b.Köçərli, Axundovun qadınlar haqqında irəli sürdüyü fikirləri ilə razılaşırdı. Məlumdur ki, qadınların təhsilə, əməyə cəlb edilməsində mübariz mövqe tutan dahi dramaturqumuz M.F.Axundov bu məsələdə bir qədər ateist nöqteyi-nəzərindən çıxış edirdi. Heç də birmənalı qarşılanmayan bu fikirlər böyük səs-küyə səbəb olurdusa da, fəlsəfi fikirləri, təhsil, məktəb haqqındakı tənqidi çıxışları müasirləri tərəfindən yüksək dəyərləndirilirdi. Firidun bəy də bunu ziyalıcasına qəbul edərək öz mövqeyinə uyğun bu ideyanın davamçısı kimi maarifçilik təbliğini aparırdı.

F.Köçərli də M.F.Axundov kimi belə əqidədə idi ki, qadınların kölə vəziyyəti nəinki qadınların özlərinə, habelə kişilərə daha artıq ziyan vurur. F.Köçərli o zaman feodal və burjua ailələrindəki pozğunluğun bir səbəbini də mədəni səviyyə cəhətincə





qadınların kişilərdən geridə qalmasında görürdü. O, böyük təəssüf hissi ilə yazırdı: "Ər ilə arvad arasında olan əlaqəyə diqqət yetirdikdə görürük ki, bunların mabeynində təfavütü-əql, fəhm və idrak daha da artıq dərəcədədir. Bu təfavütdən nəşət edən fənalıq və nifaq məişətimizi pozğun edib, dolanacağımızı nizam və qaydadan salır və bu yolda o qədər faciələr və ürəkyandırıcı müsibətlər vüquə gəlir ki, onları dil ilə söyləmək və qələmlə yazıb başa yetirmək olmaz. Ər və övrət...bir bədənin iki şaqqası və müvafiq hissəsi olduqlarına görə bunların arasında olan yekdillik, ülfət, məhəbbət və mənəvi qərabət gərəkdir heç kəsin mabeynində mülahizə olunmasın və lakin, məəttəəssüf müsəlmanlar arasında hər bir ailənin xoşbəxtliyinə səbəb olan bu iki hissə, yəni ər və arvad əksəriyyətən biri-birnə müvafiq gəlmir".

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, F.Köçərli kişilərin öz arvadlarına xəyanətini də ər-arvad arasındakı mənəvi uyğunsuzluqla izah etməyə çalışmışdır. O yazırdı: "Bizim müsəlmanlar içində, xüsusən elm və kamal təhsin edənlər arasında çoxları elm və tərbiyəsiz müsəlman arvadlarlına meyl və rəğbət göstərməyib, özləri üçün naməşru yol ilə ruslardan, nemslərdən və yəhudilərdən yoldaş və həmsər axtarırlar. Bizim anladığımıza görə, özgə sayaq da ola bilməz(7.s169).

Artıq qadınlar arasında maariflənmə işi hiss ediləcək dərəcədə öz bəhrəsini verməyə başlamışdı.

Azadlıq uğrunda mübarizə aparan Azərbaycan qadınları cəhalətin hökm sürdüyü bir vaxtda, 1911-ci ildə özlərinin ilk mətbu orqanlarını yaratdılar. Onun adını "İşıq" qoydular. "İşıq" qəzetinin (bəzi mənbələrdə jurnal və məcmuə kimi də qeyd olunur) üz qabığında qolları geniş açılmış, körpəsini üfüqdə parlayan günəşə doğru aparan qara çadralı bir qadın təsvir olunurdu. Həmin şəkil dərin rəmzi məna daşıyırdı. Jurnal qadınları və gələcək nəsli maarif və mədəniyyət işığına çağırırdı(6.s.23).

Qadın azadlığı məsələsi dövrün tələbinə çevrilmiş, XIX

əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın bütün mütərəqqi qüvvələrinin məşğul olduğu əsas problemi, həmçinin fəaliyyətlərinin çıxış nöqtəsi oldu. Qadın qəzeti (jurnalı) olan "İşıq"ın işıq üzü görməsi cəmiyyətdə bir partlayış yaratdı. Qəzetin redaktoru dövrünün ziyalı xanımı olan Xədicə xanım Əlibəyova, naşiri isə ixtisasca hüquqşünas olan həyat yoldaşı Mustafa bəy Əlibəyov idi. Maliyə işlərini isə H.Z.Tağıyevin həyat yoldaşı Sona xanım Tağıyeva həyata keçirirdi. Bir qəzetin nəşrində iki qadının zəhmət çəkməsi özü bir yenilik, bir irəliləyiş idi. Qadınların ailə məişətindən, onların problemlərindən bəhs edən bu qəzet nəinki Azərbaycanda, bütün Şərqdə böyük rezonans doğurmuşdu. O dövrdə belə bir qəzetin işıq üzü görməsi özü bir günah, bir qəbahət hesab edilirdi. Bu mətbu orqanında onlarla qadın imzalarına rast gəlmək olurdu. Azərbaycan ziddiyyətli döyüş meydanını xatırladırdı. Azərbaycanın maarifpərvər qadınları sırasında öz azadlıqları uğrunda mübarizə aparmaq üçün Məryəm Bayraməlibəyov, Firuzə Ağayeva-Qayıbova, Fərəmuş Paşayeva, Yaqut Ağayeva, Bəyim Seyidova, Qəmər Ağayeva, Yaqut Babaxanova-Atayeva və onlarla başqa qadınlar da mübarizəyə qoşulurdular. Bu qadınların hər biri sonralar özlərinin seçdikləri sahələrdə dövrünün tanınmış, ziyalı xanımları sırasına çıxdılar.

Qadın azadlığı məsələsi ictimai-siyasi hadisə kimi Azərbaycan mətbuatında yerini tutdu. Nəşr edilən mətbuat orqanlarında ara-sıra olsa da qadın azadlığı məsələlərinə toxunulurdu. Lakin sırf qadın qəzeti olan "İşıq"ın nəşrinin baş tutması böyük bir hadisəyə çevrildi. Bu qəzetdə qadınların problemlərinə toxunulur, onları ailədə və məişətdə narahat edən məsələlər öz əksini tapırdı. Burada bir daha qadın azadlığına, dəyər verən insanların açıqfikirliyi, müasir dünya görüşünə malik olduqları diqqəti cəlb edir. F.b.Köçərli mətbuatda tanınan Azərbaycan qadınlarının imzalarını maarifçiliyin uğurlu addımı hesab edirdi.





F.b.Köçərli qadınların ictimai əməyə cəlb edilməsində hər zaman müsbət mövqedən çıxış edirdi. O,qadınlar arasında başlanan maarifçilik işinin bəhrəsini get-gedə görürdü.

Firidun bəy Köçərli bilirdi ki, Azərbaycanın milli xadimləri qadın azadlığının tərəfdarı idilər. Bir tərəfdən müstəmləkə zülmü, bir tərəfdən qatı mövhumatçılıq, bir tərəfdən elmsizlik qadınların azadlığına mane olan səbəblərdən idi. Onlar qadınların azad olunmasında ortalığa çıxan məsələlərdə dinin rolunu inkar etmirdilər. Artıq bu məsələ mətbuat orqanlarında işıqlandırılırdı. İlk növbədə yatmış Şərqi oyatmağa çalışanlar bunun yollarını arayıb, axtarırdılar.

Firidun bəy Köçərli, N.Nərimanov, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli, H.Minasazov və başqaları dəfələrlə bu mövzuya müraciət edənlərdən idi. Y.V.Çəmənzəminli evində olan "evində olan üç bacı" sı haqqında yazdığı məqalədə ürək ağrısı ilə qeyd edirdi ki, bacılarımı nə qədər qorumağa çalışsam da günlərin birində kiçik bacımı qaçırtdılar. Bu köhnə, eyni zamanda hardasa vəhşi adətə etiraz səsini qaldıranlardan biri də yazıçı-publisist H.Minasazov olmuşdu. O, erkən nigahların əlehinə bunları yazırdı: "Bu qız uşağına qarşı zorakılıq kimi qiymətləndirilməli və qanunla qadağan olunmalıdır...Birdəfəlik başa düşməliyik ki, insan təbiətinə qarşı edilən hər bir zorakılıq, onun iradəsini sındırır və bu bir bəla kimi yol verilməzdir..."(9.s.96).

Qadın azadlığı məsələsinin gündəmə gəlməsini böyük səs-küylə qarşılayan ruhanilər, müsəlman qadınlarının azadlığa çıxmasına qəti etiraz edərək mütərəqqi ziyalılara qarşı hücumlara başlayırdılar. Maarifpərvərlər Şərq qadınları ilə Avropa qadınlarının fərqli xüsusiyyətlərindən söhbət açaraq, onların harada oxumasından və yaşamasından asılı olmayaraq abır-həyalarını qorumalarını xüsusi qeyd edirdilər. Onlar hətta "Gərək kor olasan ki, Avropasayağı geyinmiş Azərbaycan xanımının bənzərsiz gözəlliyini görməyəsən" deyirdilər. Mütərəqqi fikir-

li ziyalılar Şərq qadınına məxsus özəlliyi Avropa biliyi, Avropa dünyagörüşylə birləşdirəndə Azərbaycan qadını daha da gözəl olur..."Şərq Avropa çərçivəsində" deyə Azərbaycan qadınına yüksək dəyər verirdilər.

Firidun bəy Köçərli bu mübarizənin fəal üzvlərindən idi. Məhz bu səbəbdən də qadınların maariflənməsinə ciddi yanaşmağı məsləhət görürdü. O, ağzından süd iyi gələn, oyuncaqlardan ayrılmayan körpə qızcığazın ərə verilməsi faktını cəmiyyət üçün faciə adlandırırdı.

Din pərdəsi altında öz xəyallarını gerçəkləşdirməyə çalışan dindar mövhumatçılar isə qız uşağının erkən ailə qurmasının mümkünlüyünü, qızların üzüaçıq gəzməsinin qadağan olduğunun Qurandan gəldiyini sübut etməyə çalışdıqları halda, C.Məmmədquluzadə "Erməni və müsəlman övrətləri" adlanan felyetonunda çadranın müsəlman qadınlarının geyimində mütləq olmadığının və bunun Quranda göstərilmədiyini yazırdı. Müzakirə obyektinə çevrilmiş "qadın azadlığı" məsələsi artıq hər kəsi bu haqda düşünməyə vadar edirdi.

1918-ci ilin 10 dekabr tarixində fraksiyaların bəyannamələrinin parlamentdə təntənəli şəkildə dinlənildiyi zaman sosialist fraksiyasının üzvü olan Əkbər ağa Şeyxülislamovun simasında hökumətçilər bəyan etdilər ki, "Millətin yarısını təşkil edən qadınlar kölə vəziyyətindədirlər. Onlar da insandırlar və biz bunu görməliyik(gurultulu alqışlar). Elə həmin iclasda təkrarən kürsüyə çıxan Ə.Şeyxülislamov belə bir təkliflə çıxış etdi: "Qadın məsələsinə dair bir şeyi söyləməyi də unutdum: qanun qəbul etməliyik ki, kişi bir qadından artıq özünə arvad götürmək hüququna malik olmasın(18.s.76).

Mütərəqqi fikirli maarifpərvərlər bu təklifi böyük təntənə ilə qarşıladılar. Hər birinin ürəyindən xəbər verən bu təklif qadın azadlığının, qadın təhsilinin və eləcə də ailə, övlad təlim-tərbiyəsinin başlanğıcından xəbər verirdi. Əsrlərlə Şərq qadın-





larının qara çadraya bürünərək dünya işığına həsrət qaldığını, nə zamansa azadlığa çıxacağını gözləyən, qadınların istismar zəncirindən azad olunmasını arzu edən F.b.Köçərli əsl ziyalı mövqeyindən çıxış edərək dövrünün müasirlərini bu amal uğrunda mübarizədən geri çəkilməməyə səsləyirdi.

Firidun bəy Köçərli yaşadığı dövrün ağır iztirablarının qadına şamil olduğunu gördüyündən, qadına cəmiyyətdə və ailədə bəslənilən sərt münasibəti birmənalı qarşılamadığından qadın azadlığı məsələsini tez-tez gündəmə gətirirdi. Köçərli qadının köhnə cəmiyyətin buxovlarından, zülm və əsarətdən tezliklə azad olmağının yolunu birmənalı şəkildə inkişaf və tərəqqidə görürdü. O, qadınların cəhalətdən qurtularaq elmin yüksək zirvəsinə, köləlikdən dövlət və ictimai xadimliyə qədər yüksəlməsini istəyirdi.

Qadınların əsrlər boyu işgəncələrə məruz qalaraq cəmiyyətdə və məişətdə insan yerinə qoyulmaması müsəlman ölkələrində daha çox hiss olunurdu. Təəssüflər olsun ki, savadsız cəmiyyətin sakinləri qadının, ailənin nə qədər müqəddəs olduğunu anlamadan, ona dəyər vermədən ailəyə laqeyd münasibət bəsləyirdilər. Böyük rus pedaqoqu A.S.Makarenko demişdir: "Ailə çox gözəl bir aləmdir. Bu aləm insanın həyatına dərin məna və məzmun gətirir"(16.s.36).

Sözsüz ki, böyük mütəfəkkir alim Köçərlinin müasir düşüncələrində bir çox pedaqoq və dahi şəxsiyyətlərin yaradıcılığı ilə tanışlığın təsiri olmamış deyildir. Dünya ədəbiyyatından mütaliə edən Köçərli hər bir xalqın adət-ənənələrinə dəyər verərək, öz xalqının da milli dəyərlərini qorumaq şərti ilə tərəqqiyə ucalmasını, millətini azad görmək eşqi ilə yaşayırdı. O qadınlarımızın azadlıq nemətindən dadmasını istəyirdi.

F.b.Köçərlinin elmə, təhsilə, maarifə və savadsızlığa qarşı mübarizəsi içində qaynayırdı. O, xüsusilə vacib olan bir şeyi vurğulayaraq: "Savadlı qadın, savadlı övlad deməkdir" şüarı

ilə tez-tez çıxışlar edirdi. Bu bir cümlədə çox böyük fəlsəfi və ibrətamiz hikmət, düşündürücü fikir vardır. Təbii ki, savadlı ana ilk növbədə hüquqlarını tanıyacaq, sonra hüquqlarını qorumağa çalışacaq və azad olmağa səy göstərəcəkdir. Daha sonra isə o cəmiyyətə savadlı, layiqli övlad yetişdirməyi özünün vətəndaşlıq borclu hesab edəcək, savadlı övlad da bu ənənəni davam etdirərək, azadlığının uğrunda mübarizə aparacaq və onu qorumağa çalışacaqdır. Bu bütünlükdə cəmiyyətdə dəyişikliyin, yeniliyin yaranması deməkdir. Belə olan təqdirdə ölkənin inkişaf etməsi sürətlənər, Azərbaycan cəmiyyəti firavan həyata qovuşa bilər. Bir-biri ilə bağlılıq təşkil edən azadlıq mübarizəsində birlik, vəhdət lazım idi. Atalar demişdir: "Tək əldən səs çıxmaz". Yeganə çıxış yolu isə yalnız və yalnız millətin maariflənməsində və təhsilə cəlb edilməsində idi. Bu işin sürətli həyata keçməsinə çalışan Köçərli və onun müasirləri çətinliklərlə rastlaşsalar da geriyə addım atmaq fikrində deyildilər.

1918-1920-ci illərdə və ondan bir qədər də əvvəl cəmiyyətdə bir çox maarifpərvər qadınlar olubdur ki, bu qadınlar öz sözlərini deməyi bacarırdılar. Onlar nəinki azadlıq mübarizəsinə qoşulur, hətta yeni-yeni fikirlər irəli sürürdülər. Milli məktəblərin açılması, qadın xeyriyyə cəmiyyətlərinin yaradılması, bu məktəb və cəmiyyətlərdə qadınların çalışması bunun bariz nümunəsi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri olmuş və Fətəli xan Xoyskidən sonra hökumətə başçılıq etmiş Nəsibbəy Yusifbəyovun həyat yoldaşı Eynülhəyat xanım ilk milli qız gimnaziyasında dərs demiş, maarif nazirliyində inspektor uşləmişdir. Bundan başqa Sank-Peterburqda təhsil almış ilk azərbaycanlı qızı Səlimə Yaqubova, Mədinə Qasımbəyli, Şəfiqə Əfəndizadə, Xədicə Ağayeva, Xədicə Qayıbova, Cavahir Rəfibəyova, Həcər Şeyxzamanova, Məryəm Bayraməlibəyova, Gövhər Şövqiyyə, Bülbül Kazımova, Firuzə Ağayeva, Yaqut





Ağayeva, Sara Vəzirova, Badi Səba xanım Köçərli, Səidə Şeyxzadə, Rəhilə Hacıbababəyova, Hənifə Məlikova, Zərrintac Şaxtaxtinskaya, Nabat Nərimanova, Sürəyya Bəylərbəyova, Mina Aslanova, Nigar Aslanova və onlarla belə maarifpərvər qadınlarımız Azərbaycanın müxtəlif bölgələrində fəaliyyətə başladılar. Bu qadınların hər biri əsasən pedaqoji və mədəniyyət sahələrində çalışaraq, Azərbaycan mədəniyyətinə xidmət göstərməyə başladılar.

XIX əsrin ortalarından başlayaraq Rusiyada qadın azadlığı məsələsi mübariz bir məsələ kimi cəmiyyətin qabaqcıl demokratik dairələri tərəfindən irəli sürülmüşdür. Rusiyanın böyük mütəfəkkir və inqilabçı demokratlarından Çernışevski, Gertsen, Belinski, Dobrolyubov, Pisaryev və başqaları qadın azadlığı uğrunda mübarizəni xalqın ümumi azadlığı məsələsinin ayrılmaz hissəsi hesab edirdilər. Qadın azadlığı uğrunda aparılan mübarizə hərəkatının dalğaları Azərbaycanda da öz təsirini göstərməyə başladı. Qadın azadlığı mübarizəsinə qoşulan ziyalılar ciddi səylə bu işi davam etdirməyə çalışırdılar.

XX əsrin əvvəllərindən artıq Azərbaycanın maarif və mədəniyyət sahəsində çalışan onlarca qadınlarımız nəinki onlara tapşırılan işi aparırdılar, həm də onlar əhali arasında maariflənmə işini yayırdılar. Maariflənmənin nəticəsi idi ki, təhsil almaq istəyən qızların, qadınların sayı durmadan artır və yeni-yeni məktəblərin açılmasına böyük ehtiyac duyulurdu. Öz hüquqlarını anlayan qadınlar tədricən ictimai həyata atılırdılar. Bu gün qadınlar əldə etdiklərinin həyatı əsrlərlə gözləyərək mübarizə aparmışlar. Hətta bu azadlıq bir çox qadınlarımızın həyatı bahasına başa gəlibdir.

Firidun bəy Köçərlinin davamçısı olduğu Azərbaycanın böyük materialist filosofu və maarifpərvəri M.F.Axundov da qadın azadlığının carçılarından olubdur. O, qadın hüquqsuzluğunu, qadınların cəhalət və avamlıq məngənəsində qalmasını cəmiyyət

üçün böyük bədbəxtlik hesab edir, bu ictimai bədbəxtliyə qarşı xalqı mübarizəyə çağırırdı. M.F. Axundovdan sonra yaradıcılıq fəaliyyətinə başlayan Firidun bəy Köçərli yaradıcılığı dövründə ədəbi şəxsiyyətlər, bədii əsərlər, dərsliklər, tərcümələr, sülh və xalqlar dostluğu mövzuları ilə yanaşı qadın azadlığı və məişət mövzuları haqqında bir sıra maraqlı məqalələr yazıbdır.

Azərbaycan maarifçilərinin əsərlərində haqqında geniş bəhs edilən əxlaq məsələlərindən biri ailəyə, qadına münasibət, valideynlik və övladlıq münasibətləri məsələsi artıq günün aktual mövzusu idi. Maarifçilər yekdilliklə belə fikirdə idilər ki, Azərbaycanın o vaxtkı şəraitində ailə məsələlərindəki pozğunluğun, ailələrin çoxunda mehribançılıq və ünsiyyətin olmamasının başlıca səbəbi qadına naqis bir məxluq kimi baxılması, ona kölə münasibəti bəslənməsi və ailələrin həqiqi insani münasibətlər üzərində deyil, pul, var-dövlət, mənsəb münasibətləri üzərində qurulmasıdır.

Böyük maarifpərvər F.b.Köçərli Azərbaycan qadınlarının elmdən, maarifdən, kənarda qalmasının başlıca səbəbini hökm sürən cəhaləti və nadanlığı göstərirdi.

F.Köçərli də M.F.Axundov, H.b.Zərdabi və başqa ziyalı şəxsiyyətlərimiz kimi qadının örtdüyü çadranı onların həyatının zülmət adlandırırdı. Ümumiyyətlə qadın azadlığı məsələsi cəmiyyətin siniflərə bölündüyü gündən meydana çıxmış və tarix boyu qadın azadlığı ətrafında ciddi mübarizələr və müzakirələr aparılmışdır.

Sinifli cəmiyyətlərin din xadimləri və hakim ideoloqları həmişə iddia etmişlər ki, guya qadın cinsi əqli cəhətdən qüsurlu yaranmış və kişilərdən geri qaldığı üçün ailə və cəmiyyətdə qadının hüquqsuzluğu və bərabərsizliyi allahın xüsusi nəzərətində olduğu bu məsələ toxunulmaz bir məsələ olaraq qalıbdır. Mövhumatçı dindarlar, mollalar bu yanlış fikirləri əsrlər boyu təbliğ etməyə, bunu avam əhalinin beyninə yeritməyə və hər





şeyi öz istəkləri çərçivəsində saxlamağa çalışırdılar.

F.Köçərli də başqa müasirləri kimi belə əqidədə idi ki, qadınların kölə vəziyyəti nəinki qadınların özlərinə, onların habelə kişilərinə, övladlarına və daha artıq cəmiyyətə zərər vurur. Əgər ailədə bir-birini anlamaq, bir-birinə qarşı xoş münasibət, qarşılıqlı hörmət olmazsa, o ailədə böyüyən övladın tərbiyəsində naqislik mütləqdir. Ona görə ki, "Uşağın əvvəlinci müəllimi bitəbii validəsidir".

Mütərəqqi fikirli adamların fikrinə görə uşağı dünyaya gətirmək hünər deyildir, onu düzgün tərbiyə etmək hünərdir. Cəmiyyətə tərbiyəli övlad vermək ailənin müqəddəs borcudur. Burada sözsüz ki, məsuliyyət təkcə ananın deyil, eyni zamanda atanın da üzərinə düşür.

Qadının ləyaqətini alçaltmağa, onları məcburi qaydada çadra, örtük, rübənd kimi vasitələrdən istifadə etmyə çalışanlar cəmiyyətdə qadın və kişi arasında dərin uçurum yaradaraq, bunun guya "dinimizin qanunu"dur deyə camaatı aldadaraq öz hökmləri altında saxlamağa çalışırdılar. Qeyd olunduğu kimi hətta qadınların hər hansı bir ictimai işdə çalışmasına razılıq verilməyirdi. Qadın sanki anadan kəniz, qul olmaq üçün doğulubmuş. Bu cür yanlış dini təbliğ birbaşa islam dinini kölgə altına alır, dünya ölkələri arasında islama qarşı mənfi rəyin formalaşmasına gətirib çıxarırdı.

F.b.Köçərli ətrafında gördüyü hadisələrə biganə qala bilmədiyi kimi, qadına qarşı olan ədalətsizliyə də biganə qala bilmirdi. Qadın istismarının bu son həddə çatdığını görərək, mübarizədən geri çəkilməyirdi. Köçərli çox gözəl anlayırdı ki, əsrlərin, qərinələrin çəkib gətirdiyi əsarət zəncirini qırmaq , çadra altından qadını işıqlı həyata çıxarmaq, qadın kütlələrini ayağa qaldırmaq düşünüldüyü qədər də asan və tez həll olunan məsələ deyildir. O, qadınların bu mübarizəyə tədricən qoşulacağını bilirdi. Köçərli əmin idi ki, vaxt gələcək dünyaya övlad gətirən

ananın gördüyü məşəqqətlər əlbəttə ki, bir gün onların səslərini qadırmalarına gətirib çıxaracaqdır. Sadəcə maarifləndirmə və təbliğatın gücləndirilməsi gərək idi. Köçərli qeyd edirdi ki, ailədə qadına münasibət anaya olunan hörmətə bağlıdır. Çünki qadın bir anadır. İlk növbədə qadına hörmətin anadan başlanmalı olduğunu anlatmaq gərəkdir.

O dövrün mətbuat orqanlarında ara-sıra qadından, ona təhsil verilməsinin zəruriliyindən, çadranın yabançılığından bəhs edilsə də digər tərəfdən bəzi ictimai ziddiyyətlərin üzərinə pərdə çəkərək nəzərə çarpdırmamağa çalışırdılar. Təqib və təzyiqlərə baxmayaraq "Şərqi-Rus", "Həyat", "Kaspi" qəzetlərindən fərqli olaraq "Molla Nəsrəddin" Şərq qadını məsələlərindən, onlarının həyatından geniş söhbət açır, "müqəddəs kitab"a əsaslanaraq örtüyün azərbaycanlı qadınlara yabançı olduğunu sübut etməyə çalışırdı. Başqa yerlərdə olduğu kimi Tiflisdə də dindarların qəzəbinə səbəb olan bu məqalə böyük narazılıqla qarşılandı. Tiflis ədəbi mühitində yaradıcılıq fəaliyyəti ilə məşğul olan və uzun illər Tiflisdə yaşamış Firidun bəy ətrafında cərəyan edən hadisələrdən vəziyyətin ciddiliyini anlayırdı.

Mütəmadi Bakıdakı və Azərbaycanın ucqarlarında yaşayan dostları və müasirləri ilə məktub vasitəsi ilə əlaqə saxlayan, mətbuatda tez-tez məqalələr dərc etdirən Firidun bəy Köçərli dolayı yollarla dostlarına baş verən hadisələr haqda anladır, eyni zamnda da onlardan məlumatlar alırdı. Hər yerdə vəziyyətin eyni olduğunu görən ədib mübarizəni dayandırmadan irəliyə doğru hərəkət etməyi məsləhət görürdü.

1918-1920-ci illərdə maarifpərvər qadınlarımızın milli məktəblərin yaradılmasında böyük fədakarlıq göstərdikləri məlumdur. Bakıda, Gəncədə, Lənkəranda, Şamaxıda, Naxçıvanda və başqa bölgələrimizdə başlanan hərəkat azərbaycanlı qadınların azadlıqları uğrunda mübarizəsinin artıq başlanması demək idi.





Hələ, 1901-1911-ci illərdə Tiflisdə "Müqəddəs Nina" məktəbində təhsil almış ilk pianoçu qadınlarımızdan olan Xədicə Osman qızı Qayıbova, 1911-1912-ci illərdə Bakıda ilk qadın qəzeti "İşıq"ın redaktoru Xədicə xanım Əlibəyova, Lənkəranda ilk xeyriyə cəmiyyəti yaratmış Məryəm xanım Bayraməlibəyova, 1918-ci ildə Qazax qəzası xalq məktəblərinin inspektoru təyin olunmuş görkəmli maarif xadimi Mədinə xanım Qasımbəyli, Bakıda ilk milli qız gimnaziyasında dərs demiş Nəsibbəy Usubbəyovun həyat yoldaşı Eynülhəyat xanım və onlarla belə qadınlarımızın azadlıq uğrunda mübarizə səhnəsinə atıldıqlarını Azərbaycan qadınlarının qələbəsi adlandırmaq olar.

Nadanlığın, cəhalətin hökm sürdüyü, savadsızlığın baş alıb getdiyi bir dövrdə təhsilli, ziyalı xanımların olması Azərbaycan maarif və mədəniyyətinin çox böyük uğur idi. Baxmayaraq ki, bu ziyalı xanımlar sayca azlıq təşkil edirdi, bunun özündə bir ümid, bir işıq var idi.

"Molla Nəsrəddin"jurnalı qadın azadlığı məsələsində daha sərt mövqedən çıxış edirdi. Jurnalının qadın azadlığı, qadın təhsili haqqında dərc etdirdiyi məqalələri dindarlar tərəfindən qəzəblə qarşılanırdı. Firidun bəy Köçərli jurnala böyük rəğbət bəsləyiridi. Jurnalda qadınların çadrasız gəzməsi məsələsinin işıqlandırılması böyük səs-küyə səbəb olmuşdu. Tiflisdə bu jurnalın bağlanması tələbi ilə dindarlar ayağa qalxdı. Mövhumatçı dindarlar müsəlman qadının çadrasız gəzməsini təsəvvür belə etmirdilər.

Onlar əhalini inandırmağa çalışırdılar ki, Quranla çadra əkizdir, Quran çadranı qadının bəzəyi, incisi hesab edir. Lakin, "Molla Nəsrəddin" öz səhifələrində qadın məsələsi ilə bağlı izah etməyə çalışırdı ki, çadra azərbaycanlı qadınlarına yabançıdır. O bunu "müqəddəs kitaba" əsaslanaraq yazırdı. Tiflisdə böyük səs-küyə səbəb olan bu mövzu geniş müzakirəyə çevrildi. Müzakirə gözlənildiyi kimi dindarların deyil mütərəqqi ziyalıla-

rın xeyrinə nəticələndi.

İlk dəfə olaraq otuz iki nəfər tiflisli qadın bu fikrə müsbət rəy bidirərək səs verdilər. Onlar "Zaqafqazye" qəzetinə kəskin məqalələr və məktublar göndərərək mövqelərini bildirdilər. Qadınların yazdıqları məktub öz siyasi kəskinliyi, tərbiyəvi əhəmiyyəti ilə başqa məqalələrdən fərqlənirdi. Göndərilən məktub və məqalələrin müəllifləri təkcə öz həyatlarından deyil, əsrlərlə zülm altında inləyən Şərq qadınları adından danışırdılar. Artıq qadınları təkcə "Molla Nəsrəddin" deyil, bütövlükdə Tiflis ədəbi mühiti, yeni fikirli tərəqqipərvər rus, gürcü və qeyri millətlərin ziyalıları da müdafiə edirdilər. Buna görə də həmin qadınlar dünyanı onlar üçün cəhənnəmə çevirən cəhalət dünyasının tör-töküntülərinə "yolumuzdan çəkilin"-deyirdilər.

Firidun bəy Köçərlinin də müsbət münasibət bildirdiyi bu məsələ dindarları onun da əleyhinə qaldırmışdı. Köçərli jurnalın qadın azadlığı, qadın təhsili haqqında mübarizəsini yüksək dəyərləndirdiyi üçün əhalinin savadsız təbəqəsini başa salmağa çalışırdı ki, bu cahil adamların tərəfindən uydurulan və təbliğ edilən, hətta "Quran"la heç bir əlaqəsi olmayan məsələdir, öz mənafeləri xatirinə avam camaatı aldadaraq hökmranlıqları altında saxlamaq istəyənlərin qurduqları hiyləsidir. Dindarlar bu hiylələrin geniş kütlələrin beyninə yeridilməsində və onların avamlığından və nadanlığından istifadə edərək məqsədlərini həyata keçirmələrinə mane olurdular. Onların yolunda əngələ çevrilən maarifpərvər və mütərəqqi fikirli insanlar bu səbəbdən də dindarların qəzəb və təzyiqləri ilə üzləşirdilər.

C.Məmmədquluzadə: "Üz açmaq xilafi-şəriət deyil. Çünki biz Quranda üz açmağı qadağan və haram edən bir ayə və işarə görmürük. Budur Quran, budur meydan" deyirdi (10.s.37).

Hətta çadranı milliləşdirərək "milli adətimiz" hesab edən qüvvələr də meydana çıxmışdır ki, bu adamlar çadranın ərəb işğalı zamanı bizə miras qalan cəhalətin qalığı olduğunu qətiyyətlə inkar edirdilər. Məsələn: əsrlərlə Azərbaycanın dağ rayonlarında yurd salan nənələrimizin başı çadra görməmiş, onlar heç zaman çadradan istifadə etməmişdilər. Çadra analarımızı, nənələrimizi işıqlı dünyaya həsrət qoyan, onların talesizlikləri üçün axıtdıqları göz yaşlarını gizlədən bir vasitə olubdur. Bunu dərk edən mütərəqqi ziyalılarımız çadraya qarşı mübarizə aparırdılar. Azərbaycanın böyük şairi Ə. Xəqaninin çadra əleyhinə başladığı mübarizə sonralar H.Zərdabi, M.F.Axundov, C.Məmmədquluzadə, F.b.Köçərli və s. tərəfindən davam etdirilmişdir.





Maraqlı cəhət budur ki, 1918-1920-ci illərdə qadın hərəkatı xarici dövlətlərdə Belçikada, Almaniyada, Polşada, Kanadada və ABŞ-da başlamış və hüquqi qiymətini almışdır. Azərbaycan qadınlarının bu ölkələrin qadınları ilə eyni ildə səsvermə hüququ alması ona dəlalət edir ki, cəmi iki illik hakimiyyətləri dövründə AXC hökuməti qadınlara bərabər hüquqların verilməsi məsələsini qaldırdı və bəyat etdi ki, bu hüquqlar gələcəkdə formal xarakter daşımasın.

Azərbaycan xalqının qabaqcıl şair, yazıçı və mütəfəkkirləri öz əsərlərində qadını, onun fikrini, arzusunu boğan, əzən qara qüvvələrə qarşı hər biri öz dövründə, öz zamanında mübarizə aparmışlar. Hər zaman özündən öncə yaşayıb yaratmış dahilərin yaradıcılığına müraciət edən F.b.Köçərli dahilərin ənənəsini davam etdirərək onunla həmfikir olan ziyalıları qadın azadlığı uğrunda mübarizəyə səsləyirdi.

XIX əsrin ortalarından başlayaraq Rusiyada da qadın azadlığı məsələsi mübariz bir məsələ kimi cəmiyyətin qabaqcıl demokratik fikirli ziyalıları tərəfindən qaldırılmışdır. XX əsrin əvvəllərində isə qadın azadlığı uğrunda mübarizə daha da güclənməyə başladı. Rusiyanın böyük mütəfəkkir və maarifpərvərləri qadın azadlığı uğrunda başlanan mübarizəni xalqın ümumi azadlığı məsələsinin ayrılmaz hissəsi hesab edirdilər. Hətta im-

perializm dövrünün birinci xalq inqilabı adlanan 1905-ci il inqilabının təcrübəsi də təsdiq etdi ki, zəhmətkeş və proletar qadınlar azadlıq hərəkatında doğrudan da böyük rol oynadılar. Geniş müzakirəyə səbəb olan qadın azadlığı məsələsi bütün tərəqqipərvər ziyalıları hərəkətə gətirmiş, mətbuat səhifələrində bu mövzu ilə bağlı məqalələr dərc olunmağa və Azərbaycan xalqının demokratik fikirli nümayəndələri qadın azadlığının tərəfdarları kimi çıxışlar etməyə başladılar.

Firidun bəy Köçərli qadınlarda qətiyyətlik, mərdlik, mərhəmətlik, zəriflik, ağıllı düşünmək, mübarizlik və onlara belə gözəl xüsusiyyətlərin olduğunu qeyd edirdi. O, əsrlər öncəsi qəhrəman qadınların kişilərlə çiyin-çiyinə döyüşlərdə iştirak edərək, məsləhətlər verdiklərini, birlikdə neçə-neçə qələbələrə imza atdıqlarını bilirdi və gözəl qabiliyyətlərə, yüksək keyfiyyətlərə malik olan qadınların azadlığını boğmağın günah olduğunu söyləyirdi. Köçərli izah etməyə çalışırdı ki, qadın ana deməkdir. Ana isə müqəddəsdir. Əgər Quranın ayələrində qadına qarşı mənfi münasibətin olduğunu sübut etməyə çalışırsınızsa, axı Quranda "cənnət anaların ayaqları altındadır" deyilir. Belə olan surətdə qadına qarşı necə hörmətsizlik etmək olar? Cəhalətə, nadanlıqa qarşı barışmaz mövqedə dayanan F.b. Köçərli anlatmağa çalışırdı ki, savadsızlıq, mövhumatçılıq, fanatizm bizim inkişafımıza mane olur, mədəniyyətimizin yüksəlməsinə, adamlarımızın şüurunun inkişafına mənfi təsir göstərir.

F.b.Köçərli ilk öncə dinə qarşı deyil, mövhumatçılığa qarşı təbliğatın gücləndirilməsini, israrla elmin, təhsilin inkişaf etdirilməsiniön plana çəkirdi.

Azərbaycanda başqa mütərəqqi fikirli ziyalılar siyasi xadim kimi tanınan gənc publisist Ağamaloğlu da qadın məsələsi barəsində tez-tez məqalələr yazırdı. Ağamalıoğlu mətbuat orqanlarında çıxış edərək, elm və sənət adamlarının mövcud cəmiyyət şəraitlə barışmasına, onların qadın əsarətinə dözməsinə





heyrətlənir və yazırdı: "Yalnız "Molla Nəsrəddin" jurnalı insan hənirtisi eşidilməyən sükunətin hökm sürdüyü yerdə- "zülmət səltənətində" gözlərini tükürpədən qaranlıq gecəyə dikərək tənhalıq işərisində dəlicəsinə" qəhqəhə çəkir.

Ümumiyyətlə Ağamalıoğlu, E.Sultanov, F.Köçərli, M.Şahtaxtlı, H.Münasazov kimi ziyalılar tez-tez Azərbaycan qadınından, onun dözülməz vəsiyyətindən yazırdılar (10.s.41).

Qaldırılan qadın azadlığı məsələsinin əsas mübarizlərindən heab edilən F.Köçərli, Ə.Ağayev, H.Minasazov, C.Məmmədquluzadə, H.Zərdabi və digərləri bu mövzu ilə əlaqədar Azərbaycan mədəniyyət tarixinə böyük xidmət göstəriblər. "Molla Nəsrəddin" jurnalının qadın azadlığı yolunda gördüyü işlər böyük idi. Ruhani dairələrinin əli ilə hətta jurnalı bağlamağa çalışırdılar.. Ziyalılar çox gözəl anlayırdılar ki, heç bir hədə-qorxu, qadağa və hətta jurnalın bağlanması belə artıq heç nəyə xidmət etməyəcəkdir. Gözləri açılmağa başlayan, maarifə doğru addımlayan, cəhalətin və nadanlığın qurbanlarına çevrilmiş qadınlar artıq azadlığın havasını hiss etməyə başlayırdılar. Onları bu yoldan çəkindirmək müşkül idi. Ölümdən belə qorxmayan mübariz qadınlarımız ziyalılarımızın apardıqları mübarizənin davamçılarına çevrilirdilər.

Qadın hüququnu müdafiə etməkdə M.F.Axundovun ənənələrini davam etdirən F.Köçərli göstərir ki, qadın hüququnun tapdalanması Şərq depotizminin spesifik təzahürlərindən biridir. Feodal münasibətlərinin hökm sürdüyü Şərq ölkələrində qadın "anadan kəniz doğulur, ərə getdikdə ərinə kənizlik edir və həmişə ərinə "sahibim" deyir. Axırda tərbiyəsiz övladına ana olmayıb kəniz olur". F.Köçərlinin fikrincə çox erkən məcburi nugah nəinki qadına münasibətdə bağışlanmaz zülmdür, habelə uşaq tərbiyəsinə rəxnə vuran bir qəbahətdir(11. s.121).

F.b.Köçərlinin həmfikirləri olan Azərbaycan xalqının mütərəqqi görüşlü və demokratik baxışlı nümayəndələri də qa-

dın azadlığının qızğın tərəfdarları kimi çıxış edirdilər. Bu işdə mövzu baxımından ən fəal iştirak edən C. Məmmədquluzadənin redaktoru və naşiri olduğu "Molla Nəsrəddin" jurnalı sanki bir partlayış, bir ocaq oldu. "Mollanəsrəddin"çilər qadın azadlığının düşmənləri olan dindar və mövhumatçı ruhanilərə qarşı amansız mübarizəyə qalxmışdılar. Ruhanilər də "Molla Nəsrəddin"çılərə qarşı ayağa qalxaraq bu jurnalın bağlanmasını tələb edirdilər. Geniş xalq kütləsinin sevimli jurnalına çevrilən "Molla Nəsrəddin" artıq özünün düz yolunu tutmuşdur. Bu məcmuənin demək olar ki, hər nömrəsində qadın hüquqsuzluğundan və qadın əsarətindən danışılırdı. Millətdə bir oyanış hiss olunurdu. Firidun bəy Köçərlinin yaradıcılığında bir neçə məqaləsi məhz bu jurnala həsr olunmuşdur.

F.b.Köçərli bir çox maarifpərvər ziyalılarımızla birlikdə səsini millətin səsinə qataraq, bu mübarizəyə qoşulmuşdur. Köçərlinin qadın azadlığı haqqında olan fikirləri onu çoxdan narahat edirdi. Lakin, dini fanatizmin güclü olduğu bir vaxtda kor-koranə, qəflətən bu məsələyə toxunmaq o qədər də asan deyildi. Bunun üçün ilk növbədə təbliğatın aparılması və gücləndirilməsi vacib idi. Mətbuatın rolunu əvəzsiz hesab edən ədib, bu yolda fəaliyyət göstərən "Molla Nəsrəddin" və bu tipli jurnalların və dərgilərin nəşr olunmasına müsbət yanaşırdı, hətta onları müdafiə edirdi.

1905-ci il inqilabı Şərq qadınlarının azadlığa çıxmasında, şüurunun və təfəkkürünün oyanmasında böyük rol oynadı. Bu inqilab qadınların həyatında yaxşı mənada böyük dəyişikliklər etd. Qadınların kişilərlə bərabər hüquqda özlərini görmələri, azad olmaları, öz hüquqlarını tanımaları fövqündə çıxış edənlər yetərincə idi. Mübarizəyə qatılanların sayı artdıqca köləliyə, əsarətə tabe olmayanların sayıda artırdı.

XIX əsrin sonu XX əsrin əvvəlində qadının azadlığı mövzusu, onun hüquqlarının tapdalanmasına qarşı etiraz olunması





mətbuatın ən aktual mövzularından idi. Qadın maarifi və qadın təhsilinin uğrunda mübarizə ölkədə böyük rezonans doğurmuşdu. Hər kəs yeni bir fikir, yeni bir ideya ilə çıxış edirdi. O dövr üçün qadın azadlığı, qadın təhsilinin ağır bir mövzu və dini fanatizmin yüksək olduğunu nəzərə alaraq, F.Köçərli və mütərəqqi fikirli ziyalılar son dərəcə ehtiyatlı davranmalı olurdular.

Məlumdur ki, əsrlər boyu qadına guya islamda əşya kimi baxılmış, hətta qadının şeirlə, sənətlə məşğul olmasını namusdan, əxlaqdan kənar hesab etmişlər. Aparılan səhv təbliğatın nəticəsində əsrlərlə yazıb-yaradan qadın şairlərin çoxunun əsərləri hakim mürtəce baxışların təsiri altında üzə çıxarılmayıb və beləcə də arada itib-batibdır.

F.b.Köçərli şəriət qanunlarına hörmətlə yanaşmasına, dininə olan hədsiz hörmətinə baxmayaraq, qadının çadra örtməsini köləliyin rəmzi hesab edirdi. Köçərlinin fikrincə islamın baş kitabı hesab edilən Quranda yazılanların heç biri dindar, mövhumatçı mollaların düşündükləri və təbliğ etdiyi kimi olmayıbdır. Köçərli Quranda yazılanlara istinad edərək qadın azadlığı uğrunda apardığı mübarizədə qadının hüquq bərabərliyini sübut etməyə çalışırdı.

F.b. Köçərli mövhumatçı dindarların tam əksinə olaraq dinimizdə qadına verilən qiymətdən, dəyərdən yararlanaraq iddia edirdi ki, Quranda qadın və qadınlıq ləyaqəti yüksək qiymətləndirilir.

F.b.Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində Azərbaycanın şair qadınlarından bir neçəsinin yaradıcılığını işıqlandırmaqla sanki onlar haqqındakı fikirlərinə aydınlıq gətirməyə çalışmışdır.

Azərbaycanın klassiklərdən N.Gəncəvinin, Ə.Xaqaninin, M.Füzulinin, M.F.Axundovun, H.b.Zərdabinin, C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, N.Vəzirovun, M.Ə.Sabirin və başqalarının yaradıcılığına nəzər saldıqda, qadınların arzu və

istəklərini boğan, hüquqlarını tapdalayan qara qüvvələrə qarşı mübarizə apardıqlarının və cəmiyyətin iyrənc cəhətlərini amansızcasına ifşa etdiklərini görmək olur (1.s.10).

F.b.Köçərli bu klassiklərin əsərlərindən bəhrələnərək daim qadın maarifinin önəmli olduğunu, gələcəkdə millətə, dövlətə savadlı, tərbiyəli və ziyalı gəncliyin bəxş olunmasında məhz savadlı qadınların sayəsində nail ola biləcəyimizi qeyd edirdi. Çünki, cəhalətdən çıxmağın dərmanı elmdir, maarifdir. Qadınların azadlığı uğrunda mübarizə aparanlar qadının zəkasını, fərasətini və alicənablığını ifadə edən yazılarında qadının yüksək keyfiyyətlərini əks etdirirdilər.

XX əsrin əvvəllərindəki publisistikada olan maarifçilikdə ailə və qadına münasibət məsələsi də əhəmiyyətli yer tutur. Maarifçilər belə hesab edirdilər ki, ictimai tərəqqinin yüksəlişi və onun möhkəmləndirilməsi, cəmiyyətin inkişafında mühüm yer tutması bilavasitə qadının özünün cəmiyyətdəki yerindən asılıdır.

Firidun bəy Köçərli qeyd edirdi ki, müsəlmanların həyat və məişəti onları təşəbbüssüz, cürətsiz, zəlil və xar etmişdir.

F.b.Köçərli qadınların azadlığa çıxmağının ən asan yolunu təhsil ocaqlarının artırılmasında və qadın təhsilinin inkişafında görürdü. Qız məktəblərinin açılması qızlarımızın, qadınlarımızın savad alması ilk növbədə onların köləlikdən azad olunmasına və ümumi həyat tərzinin dəyişilməsinə kömək göstərən başlıca amillərdəndir. Qadın azadlığının mübarizəsi fonunda yaranmış qadın xeyriyyə cəmiyyətlərinin qadın maarifçiliyində, qadın azadlığında və təhsinində də müstəsna rolu vardır. Çünki belə xeyriyyə cəmiyyətləri müxtəlif sahələr üzrə xeyriyyəçiliklə məşğul olmaqla bərabər həm qadınların maariflənməsinə kömək göstərir, həm də qadın peşə məktəblərinin açılmasına nail olurdu.

F.b.Köçərli, onunla bərabər qadın azadlığı, qadın təh-





sili uğrunda ziyalı şəxsiyyətlərin mübarizəsini gördükcə sanki qəlbində üsyan edən arzularının gerçəkləşməsini görürdü. Maarifçilik yolunda malı, pulu, dövləti ilə yardım edən milyonçular da az deyildi.

Bakı milyonçusu Zeynalabdin Tağıyevin bu sahədə göstərdiyi misilsiz xidmətlərini qeyd etmək yerinə düşərdi. Uzun yazışmalardan sonra 1898-ci ilin iyununda Z.A.Tağıyevin dəstəyi ilə Bakıda qız məktəbinin binasının inşasına başlanıldı. Məktəb binasının tikintisi ilə bağlı Hamilər Şurasının üç nəfər azərbaycanlı üzv - Həsən bəy Zərdabi, Fərrux bəy Vəzirov və Əlimərdan bəy Topçubaşov da məhz Z.A.Tağıyevin istəyi ilə seçilmişdir. Qız məktəbinin sonrakı fəaliyyətində bu şəxslərin böyük rolu oldu.

Belə ki, Hacı Zeynalabdin 1901-ci ildə 300 min manatlıq vəsait sərf edərək Bakıda ilk qız məktəbi tikdirmişdir. Məktəb binasını layihələşdirərkən H.Z.A.Tağıyev bir daha öz uzaqgörənliyini və işgüzarlığını nümayiş etdirdi. Xalq Maarif Nazirliyinin qadağasına baxmayaraq Hacı öz məktəbini gimnaziyaya çevirmək ideyasından imtina etməmiş və biləmkdən geniş və rahat bina tikdirmişdi. Buna görə də gələcəkdə qız məktəbini ali ibtidai məktəbə çevirmək mümkün oldu (15.s.12).

1905-ci il inqilabından sonra, Azərbaycanda yeni qız məktəbləri yaradılmağa başladı. Çox sevindirici hal idi ki, az da olsa qadın azadlığı, qadın təhsili uğrunda başlanmış mübarizənin qığılcımları görünməkdə idi. Bu da sözsüz ki, bizim Firidun bəy Köçərli və onun timsalında olan ziyalılarımızın zəhmətinin nəticəsi idi. Atılan tərəqqipərvər addımlar, yeni ədəbi qüvvələrin meydana gəlməsi, ölkədə baş vermiş inqilabi-siyasi hadisələrin sayəsində qadın azadlığı, qadın təhsili məsələsi gündəmə gəldi. Bu məsələlərin müzakirə olunmasında Köçərli və onun müasirləri yaxından iştirak edirdi.

Burada imkansız ailələrdən olan qızlardan 20 nəfəri

Z.A.Tağıyevin vəsaiti hesabına pulsuz təhsil alırdı. Lakin qız məktəbi hazır olandan sonra mövhumatçı Bakı varlıları guya "qızın təhsil alması islamiyyətdə günah hesab olunur" bəhanəsiylə öz qızlarını məktəbə göndərməkdən imtina etdilər. Fanatizmin nümayəndələri ilə üz-üzə qalan Z.A.Tağıyev Nəcəf mücdəidlərinə məktub göndərərək, qızların məktəbdə təhsil almalarına islamın icazə verib-vermədiyini öyrəndi. Nəcəf mücdəidlərindən müsbət cavab alandan sonra bəzi köhnəpərəstlər də öz qızlarını məktəbə buraxdılar (9.s.99).

Z.A.Tağıyevin heç bir savadı olmasa da fanatizmdən, gerilikdən uzaq idi. O, maarif uğrunda mübarizə aparanları dəstəkləyir və onların müasir, ziyalı fikirlərini bəyənirdi. Bu xeyirxah işinə görə Azərbaycanda Hacı Zeynal Abdin Tağıyevi qız məktəbinin hamisi, qadın təhsilinin pioneri adlandırırdılar.

F.b.Köçərli xalqın rifahı naminə, qadın azadlığı və maarifi uğrunda köhnəliyə qarşı mübarizə mövqeyində dayanan maarifpərvərlərlə bir sırada idi. O, köhnəliyə qarşı aparılan mübarizənin başında ailədəki təlim-tərbiyənin dayandığının, ata və ananın biri-birinə olan mehriban münasibətinin çox əhəmiyyətli olduğunu qeyd edirdi. Bu həqiqətdə də belədir. Əgər ailədə münasibətlər normal halda olarsa, cəmiyyətdə baş verən bir sıra pozğunluqların qarşısını almaq mümkündür. Deməli tərbiyə birinci olaraq ailədən başlayır. Ailədə də tərbiyənin əsas düsturu qadına olan münasibətdir.

Böyük pedaqoq və görkəmli ədəbiyyatşünas alim F.b. Köçərli qadına olan münasibətin dəyişilməyəcəyi təqdirdə heç bir tərəqqidən söhbət açmağın mümkün olmadığını diqqətə çatdırmağa çalışırdı. Bu yolda qeyd edildiyi kimi F.b.Köçərli tək deyildi. Müasirləri olan həmfikir ziyalılar onu müdafiə edərək, özləri də alovlu çıxışlar edirdilər.

Qaragüruhun və din xadimlərinin səylərinə baxmayaraq qadın azadlığı məsələsi qabaqcıl fikirli adamların diqqətini get-





dikcə daha çox məşğul etməyə başlayırdı. Bu adamlar yaxşı bilirdilər ki, qadınlara azadlıq verilmədən ictimai tərəqqidən söhbət açmaq mənasızdır.

Böyük mütəfəkkir M. F. Axundov hələ yaşadığı dövrdə xalqa müraciətlə deyirdi: "Ey camaat, qadınları çadrada, həbsdə-pərdədə saxlamayın, onlar haqqında zülm və cəfanı layiq görməyin"(1.s.12).

İllər ötdükcə qadın azadlığı geniş vüsət almağa başlamış və mütərəqqi adamların Azərbaycan qadınlarının da azadlığı uğrunda mübarizəsi davam etmişdir.

Təhsilə, maariflənməyə önəm verən F.b.Köçərli bu işdə mətbuatın roluna böyük dəyər verirdi. Bu səbəbdən də o teztez müxtəlif mətbu orqanlarında yazılar dərc etdirir, onu narahat edən məsələləri qəzet vasitəsilə xalqa çatdırmağa çalışırdı. O dövrün mütəfəkkir fikirli ziyalılarının demək olar ki, hamısı qadın savadsızlığına qarşı öz narazı fikirlərini bildirirdilər.

Qeyd edildiyi kimi 7 noyabr 1901-ci ildə Bakıda ilk müsəlman qız məktəbi açıldı. Məktəbə Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikova müdir təyin olundu (2.s.13). Bu məktəbdə təkcə azərbaycalı qızları deyil, qeyri millətin qızları da oxuyurdular. Məktəb qapalı şəraitdə fəaliyyət göstərirdi. Bəzi mənbələrdə ilk qız məktəbinin açılması təşəbbüsünün yanlış olaraq H.Zərdabi tərəfindən irəli sürüldüyünü qeyd edirlər. Əslində bu təşəbbüs H.Z.Tağıyevin təşəbbüsü olmuşdur. O özünün savadsız olduğunu dəfələrlə söyləyək deyirdi ki, "mənim çoxlu dövlətim, sərvətim var, ancaq elmim, savadım yoxdur. Hərgah mənim savadım olsaydı, mən həyatda daha çox nailiyyətlər əldə edərdim. Bu səbəblə də o həm oğlanların, həm də qızların təhsilli olması üçün məktəblər açılması ideyasını irəli sürmüşdür. Hər iki halda istər Zərdabi, istər Tağıyev və yaxud başqası tərəfindən irəli sürülən qadın təhsili məsələsi bu gün də xeyrimizə davam etməkdədir. F.Cabbarovun arxiv sənədləri əsasında nəşr etdir-

diyi "H.Z.Tağıyevin qız məktəbinin tarixindən" adlı kitabından qız məktəbləri haqqında geniş məlumat əldə etmək mümkündür.

Kitabda qeyd edildiyi kimi artıq Azərbaycanda qadınların həyatında azadlıq günəşi doğmağa başlamışdı. Bir-birinin ardınca açılan qız məktəbləri, yaranan qadın cəmiyyətləri, bu cəmiyyətlərə hətta evdar qadınların üzv olması, nəşr olunan mətbuat orqanları və bu mətbuat orqanlarında qadınların həyatından bəhs edən yazıların dərc edilməsi Azərbaycanda maariflənmənin sürətli inkişafından xəbər verirdi.

1906 - 1908-ci illərdə nəşr edilən "Dəbistan" məktəbli jurnalı qızların sevimli məcmuəsinə çevrilmişdi. Məcmuədə uşaqların həyatından bəhs edən maraqlı nağıllar, hekayələr, tapmacalar, atalar sözləri və şeirlər dərc edilirdi. Burada şagirdlər Mirzə Ələkbər Sabirin, Həsən bəy Zərdabinin, Soltan Məcid Qənizadənin imzası ilə bərabər Firidun bəy Köçərlinin də imzasına tez-tez rast gəlirdilər (2.s.25). Daha sonra "Məktəbli"(1911-1915) məcmuəsinin nəşri və bu məcmuələrdə yer almış yazılar qaragüruhçular tərəfindən lənətlə qarşılanırdısa da, xalq kütlələri tərəfindən sevilə-sevilə oxunurdu.

Firidun bəy Köçərli qadın təhsilinin geniş vüsət almağınahəmişə müsbət münasibətini bildirirdi. O təkcə ziyalı təbəqə tərəfindən deyil, milyonçu mesenatlar tərəfindən də qadın təhsilinə olan müsbət münasibəti görür və bu onu sevindirirdi. Z.Tağıyevin Şərqdə ilk qız məktəbi tikdirməsini ölkədə baş verən tərəqqinin, inkişafın başlanğıcı hesab etmək olardı. Tağıyev özü təhsil görməsə də təhsilə böyük dəyər verir və gənclərin təhsil almasına şərait yaradırdı.

Azərbaycan milyonçusu H.Z.Tağıyevin Şərqdə ilk qız məktəbi tikdirməsi, öz vəsaiti hesabına yüzlərlə gənci oxutdurması və bu kimi xeyriyyəçilik işləri onun xalq arasında nüfuzunu birə beş artırmışdı. Həm də qadın azadlığından danışarkən onu da xatırlatmaq yerinə düşərdi ki, Tağıyevin özündən xeyli





cavan həyat yoldaşı müsəlman qadınları arasında çadranı ilk çıxaranlardandır (9.s.179).

XIX əsrin sonlarında Azərbaycanda maarifçilik hərəkatı getdikcə güclənirdi. Dövrünün ziyalı qadınları ilə bərabər böyük arzularla yaşayan, təhsilə, biliyə, savada yiyələnmək istəyən yüzlərlə azərbaycanlı qadınlar bu arzu ilə yaşayırdılar. F.b. Köçərli qadını həm cismani və həm də mənəvi şikəst edən mənfur ictimai quruluşu pisləyərək, qadının ailə üçün, cəmiyyət üçün, həyat üçün nə qədər gərəkli və zəruri olduğunu anlatmağa çalışırdı.

Görkəmli maarifpərvər və ədəbiyyatşünas F.b.Köçərli qadınlara qarşı münasibətin cəmiyyətdə və ailədə dəyişdirilməsi uğrunda apardığı mübarizənin təzahürü kimi "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı əsərində dövrünün tərəqqipərvər şairə qadınlarından bir neçəsi haqqında qeyd etməklə, bu qadınların mübariz olmalarına işarə etmişdir. Qadınlar, onları narahat edən məsələləri şeirlərə köçürərək kütlələr arasında oxumaları böyük cəsarət tələb edirdi. Belə cəsarətli qadınlardan Heyran xanımı, Aşıq Pərini, Şahnigar xanım Rəncuru, Fatma xanım Kəminəni və başqalarını misal göstərmək olar (6.s.16).

Qarabağın görkəmli və istedadlı şairlərindən söz açarkən, F.b.Köçərli Xurşidbanu Natəvan haqqında xüsusi olaraq qeyd etmişdir. Dövrünün tanınmış şairi Mirzə Rəhim Fənanın təşəbbüsü ilə Şuşada 1864-cü ildə yaranmış "Məclisi-üns" poeziya məclisini sonralar yəni, 1872-ci ildə Xurşidbanu Natəvan öz himayəsinə götürərək, özü də həmən o məclisdə iştirak etmişdir. Az zaman içərisində üzvlərin sayı 30 nəfərə çatır və bu şairə qadınlar kişi həmkarları kimi az zaman içərisində nəinki Qarabağda, bir qədər kənar bölgələrdə tanınımış və məşhurlaşmışdırlar.

Xurşidbanu Natəvanın dövrünün adlı-sanlı şairləri ilə bir məclislərdə iştirak edirdi. O qəzəllərini sadə xalq dinidə yazdı-

ğı üçün müasirləri tərəfindən sevilərək dillər əzbərinə çevrilirdi. Ədibin bəlkə də demək istədiyi fikir bu idi ki, hər bir dövrün ağır qayda-qanununun olmasına baxmayaraq, mücadilə edənləri olurdu və bu qadınlar tərəfindən özünü göstərdikdə xüsusilə təqdirəlayiq hesab edilirdi. Çünki qadın hüquqsuzluğunun, qadın savadsızlığının, qadın azadlığının olmadığı bir vaxtda qadınların bu cür məclislərdə iştirakı, kişi şairlərlə deyişmələri özü də bir qəhrəmanlıq idi. F.Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində Aşıq Pəri və Fatma xanım Kəminə haqqında bu cür yüksək fikirlərini qeyd etmişdir.

Qadınların kölə vəziyyətində yaşamaları, qadın hüquqsuzluğunun baş alıb getməsi F.bKöçərlini ən çox narahat edən məsələlərdən bəlkə də birincisi idi. Qeyd etdiyimiz kimi Azərbaycan qadınları bütün müsəlman ölkələrinin qadınları kimi azadlıqdan məhrum bir vəziyyətdə yaşayırdılar. F.b.Köçərli çadra altında ömrünü keçirən qadınların çadradan xilas olmasının inteligentlərin öhdəsinə buraxırdı. Firidun bəyin fikrincə qadınların bağlı qalmasına görə müsəlmanlar çox nemətdən məhrum olurlar. Qadınlar bağlı qaldıqca tamamilə mədəniyyətə irişmək mümkün olmayacaqdır (3.s.29).

F.b.Köçərli sübut etməyə çalışırdı ki, islam müsəlman məişətini buxovlayan mənasız qadağalar sistemi deyildir. O qeyd edirdi ki, islam nə mənəvi, nə də maddi cəhətdən müsəlmanların inkişafına, tərəqqisinə qətiyyən mane olmur.

Qadın azadlığı və maarifi məsləsini tez-tez gündəmə gətirən Firidun bəy bilirdi ki, tez ya gec insanlar cəhalətdən oyanacaq və savadlı, ziyalı olan şəxslər azadlığın dinlə, quranla əlaqəsinin olmadığını anlayacaqlar. Çünki Quranda qadına çox böyük dəyər verilirdi. Köçərli öz müasirləri ilə mütəmadi qadın azadlığı və maarifi haqqında söhbətlər aparır, ananın və qadının cəmiyyətdəki mövqeyini müzakirə edirdi. Çox vaxt onlar arasında maraqlı fikir mübadiləsi yaranırdı. Hər bir ziyalının qadın





haqqında yüksək fikir söyləməsi sanki maariflənmənin təbliğini bir qədər də sürətləndirirdi.

F.b.Köçərli qadın azadlığı və qadın təhsili haqqında öz sələfləri Nizami, Füzuli, Vaqif, Bakıxanov, Mirzə Şəfi, Mirzə Fətəli Axundov, Həsənbəy Zərdabi, Seyid Əzim Şirvani və başqalarının yolu ilə gedərək öyrənirdi. Köçərli də sələfləri kimi qadınların hüquq bərabərliyini müdafiə edir, onların təhsilinə böyük əhəmiyyət verirdi. Bununla əlaqədar olaraq F.b.Köçərli "İslamın qadınlara münasibəti","Müsəlman qadınları keçmişdə", "Müsəlman qadınları hazırkı vaxtda" və s. məqalələrlə çıxış etmişdir. Şərq tarixindən gətirdiyi bir çox nümunələrlə F.Köçərli ictimai, ailə və digər sahələrdə qadınların da kişilərlə tam və bərabər hüquqa ixtiyarları olduğunu sübut etməyə çalışırdı. O göstəririrdi ki, əmələ gəlmiş tarixi şərait nəticəsində qadınlar hüquqdan məhrum olmuş və kölə halına düşmüşlər. Bu ədalətsizlik ləğv edilməlidir (14.s.25).

F.Köçərli müsəlman qadınlarının ailədəki vəziyyəti üzərində ətraflı dayanır və qeyd edirdi ki, qadının ailədə qeyri-bərabər vəziyyəti uşaqların tərbiyəsinə mənfi təsir göstərir.

Həyatını bütünlüklə pedaqoji fəaliyyətə həsr edən və övladlarımızın gələcəyi naminə bütün təzyiq və təqiblərə sinə gərən F.b.Köçərli bir çox mütərəqqi fikirli insanlar kimi Şərqin Qərbdən geridə qalmasının əsas səbəbini qadın hüquqsuzluğunda, bərabərsizlikdə, savadsızlıqda və mədəniyyətsizlikdə görürdü. Bir-biri ilə sıx vəhdət təşkil edən bu məsələlər müsəlman qadınının həyat tərzində dəyişiklik etməyin zamanı çatdığını qeyd edirdi. O, ailədə uşağın təlim-tərbiyəsində ananı ilk müəllim hesab edirdi.

"Keçmişdə müsəlman qadını" adlı məqaləsində bir çox dəyərli simalardan danışan Firidun bəy sonunda sübut eləyir ki, çadranı sonralar ixtira etmişlər" deyə yazırdı. O, daha sonra qeyd edirdi: "Müsəlman arvadları sair millət və əqvamın arvad-

larına nisbətən daha ziyadə rəhmdil, şəfqətli və mehriban olurlar... Müsəlman arvadlarının əli, ayağı bağlı, üzü, gözü örtülü olmağına biz tərəfdar deyilik. Əsrimiz o əsr deyil. Əli bağlı və üzü örtülü olduqda iş görmək çətindir və mümkün də deyildir... ancaq həya və ismət əndazəsindən çıxmamalıdır(3.s.30).

F.b.Köçərlinin yaşadığı dövr dini fanatizmin, savadsızlığın, insan hüquqsuzluğunun geniş vüsət aldığı dövr olmasına rəğmən, o müasirfikirli, azaddüşüncəli bir mövqeyindən çıxış edirdi. F.b.Köçərli qadınların çadrada gəzməsini pisləyirdi. Qadınlara dünyanı qara çadra altından qara görməməyi, hamı kimi açıq, gözəl görməyi arzulayırdı. Lakin gözəlliyi ifrat dərəcəyə çatdırmağın da tərəfdarı deyildi.

Firidun bəy Köçərli ədəbiyyatda qadın obrazlarının yaranması, onların məişətindən, həyatından bəhs edən əsərlərin üzə çıxmasını məqbul sayırdı. Qadının hüquqsuzluğundan, məzlumluğundan və köləliyindən bəhs edən əsərlərin oxucular tərəfindən əldə edilməsinin özü də bir uğur hesab edilə bilərdi. O, hər hansı halda insanı düşündürən və az da olsa fikrindən döndərməyə nail olan əsərlərin yazılmasının vacibliyini vurğulayırdı.

Romantizmin inkişaf etməsi bu mövzunun bir qədər də geniş müzakirə olunmasına şərait yaradırdı. Romantizmin əsas mövzularından olan qadın azadlığı Şərq qadınlarının əsarətdə olduğunu, kölə vəziyyətində yaşadıqlarını, yeni qadın nəslinin maarifə, məktəbə cəlb olunmasını təbliğ edir və qadın əsarətini kəskin tənqid edirdi. Firidun bəy qadınların azadlığı haqqında müasir fikirdə idi. O, qadınların azadlıq nemətini dadmalarını arzu edirdi. Bəşər cəmiyyətinin tam hüquqlu fərdi olan qadınalar bütün canlılar kimi azad olmalıdırlar, azadlıq nemətlərindən məhrum olmamalıdırlar. F.Köçərli qadının özünə həyat yoldaşı seçərkən tamamilə azad seçim etməsinin tərəfdarı idi. Qadının bu hüququnun tapdalanması qətiyyən yolverilməzdir.

Təkcə Şərqdə deyil, habelə Qərbdə də maarif sahəsində





qadınların vəziyyəti Köçərlini qətiyyən qane etmirdi. O, qadın hüquq bərabərliyinin yalnız maarif sahəsində deyil, həyatın bütün sahələrində inkişaf etdirilməsinə böyük əhəmiyyət veriridi. F.b.Köçərli maarif qapılarını qadınların üzünə geniş açmağı tələb edirdi.

M.F.Axundov, H.Zərdabi, C.Məmmədquluzadə, A.Səhhət, M.Ə.Sabir, F.b.Köçərli, Y.V.Çəmənzəminli, M.Hadi, T.Bayraməlibəyov, N.Nərimanov, Ö.F.Nemanzadə, M.Şahtaxtlı və digər ziyalılarımızın hər biri qadın azadlığının yorulmaz carçıları idilər. Bu ziyalıların qadın azadlığı haqqında etdikləri cəsarətli çıxışları onların şübhəsiz tarixi xidməti hesab edilməlidir. Həyatı dərindən dərk edən, savadsızlığın insan taleyində nə qədər acı nəticələri olduğunu başa düşən ziyalılar ilk öncə ailələrində öz həyat yoldaşlarına, qızlarına təhsil verməklə xalqı bu yola səsləyirdilər. Yuxarıda adları qeyd olunan ziyalılar və digərləri bu yolda əsl maarifçilik işini aparan fədailər idilər.

Azərbaycanda qadın azadlığına qarşı münasibət bir növ məhəkdaşı olmuşdu. Bütün mürtəce qüvvələr qadının insani hüquqlar əldə etməsi əleyhinə çıxır, örtünməyin, çadraya bürünməyin, çoxarvadlılığın və sairənin guya əsas milli əlamətlərdən biri olduğunu və islamın əsas sütunlarından sayıldığını "sübuta" çalışırdılar. Dövrün mütərəqqi qüvvələri isə, hər yerdə qadın-ana hüququnu müdafiə edir, qadınların maariflənməsini tələb edir, örtünmək, çadra əleyhinə çıxırdılar(13.s.70).

F.Köçərli qeyd edirdi ki, bu gün səcdə etdiyimiz peyğəmbərimizi, dahilərimizi dünyaya gətirən analar qadınlardır. Qadınlarsız həyat boşdur.

F.b.Köçərli qadını gözəllik mücəmməsi hesab edirdi. O, gözəllik dedikdə zahiri deyil, batini və əqli gözəlliyi nəzərdə tuturdu. F.b.Köçərli formaca gözəl olub, faydalı məzmundan məhrum olan heç bir şeyi gözəl hesab etmirdi. O həqiqi gözəlliyi məzmun ilə formanın birliyində görürdü. Tənqidçi göstərirdi ki,

ancaq sımaca gözəl olan qadını gözəl hesab etmək olmaz. Bu gözəllik zahiri gözəllikdir. Xaricən gözəl olan qadın o zaman tam gözəlliyə malik olur ki, onun əqli də, kamalı da, idrakı da gözəlliyinə uyğun gəlsin. Köçərli məzmun ilə formanın birliyi məsələsində çox mühüm bir cəhəti-yəni məzmunun "əvvəlinci şərt" olduğunu qeyd etməklə məzmunun aparıcı rolunu da təsdiq edirdi.(4.s.494).

Bu səbəbdən də Köçərli gözəlliyin qadınla olan vəhdətində onun ağıllı, savadlı olmasını daha məqbul sayırdı. Hətta qızların oxumasını tərəqqi və intibahın əsas şərtlərindən hesab edirdi. F.b.Köçərlinin ədəbi irsini araşdırarkən görürük ki, onun müasirlərinin də əksəriyyəti malik olduqları mənsəbdən, siyasi əqidəsindən asılı olmayaraq Azərbaycan qadınlarının dünya xalqları qadınlarından geridə qalmamağını arzu edirdilər.

Azərbaycan qadınları bütün Şərq qadınlarının timsalında sayca az olsalar da, öz zamanına görə istər ədəbiyyat, istər pedaqoji sahələrdə yetərincə öndə olublar. Azərbaycan qadınları hər zaman mübarizliyi ilə digər Şərq ölkələri qadınlarından fərqləniblər. Qadınlarımızın azadlığa çıxması Sovet hakimiyyəti illərinə düşsə də, bu hər halda yenə qadınların qələbəsibaş tuta bilmişdir. .

Azərbaycanın görkəmli siyasi xadimi N.Nərimanov "Şərqdə kommunizm" mövzusunda etdiyi məruzəsində göstərirdi ki, qadın məsələsinə gəlincə qadınlar heç kimsəyə möhtac olmadan, kimsəyə məhkum olmadan yaşamalıdırlar (5.s. 126).

F.b.Köçərli mövhumatla zəhərlənmiş adamların avamlığı və nadanlığı ucbatından mövhumatçı dindarların bu cür adamların həyatına müdaxilə etməsini qəbul edə bilmirdi və anlayırdı ki, təkcə Azərbaycan deyil, bütün Şərq cəhalət məngənəsində boğulur.

Köçərlinin qadınlar haqqındakı mülahizələri sözsüz ki, o dövrün qadınlarının yaşadıqları acınacaqlı həyatından, onlara ailədə və məişətdə olan münasibətdən qaynaqlanmışdır. Qadınların ailə həyatında gördükləri işgəncələr, təhqirlər savadsız ruhanilər tərəfindən müdafiə olunaraq, bunun hətta dinlə bağlılığının olduğunu sübut etməyə çalışmaları əlbəttə ki, bəzən narazılıqların yaranmasına səbəb olurdu.





Sözsüz ki, elmsiz, yaraşıqsız, baxımsız və mərifətsiz qadının işi də yaraşıqsız, söhbətləri maraqsız və uyğunsuz olur. Bu sonda qadın kişi arasında soyuqluğun olmasına və ərlə arvadın maraqsız həyat yaşamasına səbəb olur. Əslində bu çox düzgün bir yanaşmadır. Həqiqətdə də bütün dövrlərdə bu belə olub və ailə pozğunluğuna qədər gətirib çıxarmışdır. Ailəsində rahatlıq tapmayan kişi xoş güzəranı kənarda axtarmalı olur. O dövr üçün bu adi hal idi. Ailəyə müqəddəs məbəd kimi baxan ədib, bu məbədin qorunmasında qadının böyük qüvvə olduğunu gözəl anlayırdı. Firidun bəy buna görə qadının bu məbədi qorumağa borclu olduğunu və bu borcu isə ancaq oxumaq, təhsilə yiyələnmək yolu ilə əldə etməkdə gördüyünü qeyd edirdi..

F.Köçərli təkidlə o körpə qızların ərə verilməsinə qarşı kəskin protest etmişdir. Onun zənnincə analıq böyük şərəfdir və bunu yalnız kamil analar layiqincə yerinə yetirə bilərlər. Bu məsələyə təmas edərək, o, məqalələrinin birində yazmışdı:

"Təəccüb etməli haldır, analıq və ana olmaqlıq ziyadə çətin və bununla belə müqəddəs peşə sayıldığı halda, o çətin peşəni və müqəddəs vəzifəni layiqincə icra etməyə analar hazırlaşdırmaq fikrinə düşmürlər... Dünənki uşağı, gəlin oynadan və ağzından hənuz süd iyi gələn körpə bir qız balasını bu gün arvad edib, gəlin oynatmaq əvəzinə balaya süd və tərbiyə verməyə vadar və məcbur qalırlar. **Nə böyük zülm və ədalətsizlik!** Və **nə böyük cəhalət və divanəlik!** Filhiqqə, belə körpə, əti və sümüyü bərkiməmiş anadan vücuda gələn balalar cismən və əqlən nə qədər zəif, nəhif və mayasız gərək olsunlar. Övladın tərbiyəsi və təlimi ancaq o vədə qaydaya düşüb təbii ola bilər ki, onların

vücuduna səbəb olan ata və ana həddi-kamala yetişib, ağıl və fərasətdə, elm və bilikdə, ixtiyar və hüquqda bir-birinə müvafiq olalar və hər ikisi təlim və tərbiyənin yolunu kamalınca anlayalar (7.s.169).

Azərbaycan maarifçiləri dünyadan zövq almağı hər bir insanın təbii hüquqi hesab edirdilər. O cümlədən qadınlar da bu insan təbəqəsinə aid idilər. Əlbəttə ki, bu cür fikirlərinə görə ziyalılarımız həmişə kəskin tənqid və təqiblərə məruz qalır, Azərbaycanın işıqlı gələcəyi naminə heç bir təzyiq və təqiblərdən çəkinməyərək qadınların azadlığı uğrunda mübarizəni davam etdirirdilər.

F.Köçərli zavallı qadınların acı həyatını görür və onlara nə cür kömək etməyin yollarını axtarırdı. Kiçik yaşlı qızlarımızın atası yaşında kişiyə ərə verilməsini, bu qızların körpə vaxtlarından mənəvi əzablara məruz qalmalarını qəbul edə bilməyən ədib, bütün Şərq aləmini bürümüş çoxarvadlılığın çox mənfi bir hal olduğunu və qadınların bu işgəncədən xilas olmasına çalışırdı. F.b.Köçərlini bir pedaqoq kimi narahat edən məsələ o idi ki, təki qızlarımız, qadınlarımız oxusunlar, elmli və mədəniyyətli olsunlar, dünya hadisələrindən xəbərdar olsunlar. Yalnız o zaman qadınlar öz hüququnu anlayaraq azadlığı naminə mübarizəyə də qalxa bilər.

Dövrünün müasirləri kimi Köçərli də düşünürdü ki, Allahtalanın yaratdığı məxluqatlar kimi qadın da hüquqi insan olaraq azad olmalıdır. Azad və təhsilli qadın olmaq heç də onun əxlaq və ismətinə xələl gətirməz. Mədəni cəmiyyət qurmaq üçün qadının mütləq inkişafı vacib idi. Vətənini, torpağını, dilini və dinin sevərək ona böyük dəyər verən F.Köçərlinin qadına olan hörməti cəmiyyətə olan sevgidən irəli gəlirdi. Qadın anadır, ana övladın ana dilidir, vətənin gələcəyidir. Bütün bu fikirləri özündə cəmləşdirən Firidun bəy bu yolda apardığı mübarizədən yorulmayırdı.





1907-ci ildə Tiflisdə mürtəce adamlar tərəfindən qəzəb və nifrətlə qarşılanan qadınların azadlığı mövzusundan bəhs edən "Molla Nəsrəddin" jurnalı Tiflis mollası Mirbağır Mirheydərzadənin başçılığı ilə jurnalı boykot etməyə hazırlaşırdılar. Mir Bağır və onun dostları çadradan yazan, qadına hüquq və təhsil verilməsini tələb edən "Molla Nəsrəddin" i "müqəddəs Quranın, gözəl şəriətin" düşməni adlandırırdılar. Bu boykot heç də jurnalın əməkdaşlarını vahiməyə salmadı, əksinə, onları öz mövqelərində daha israrlı etdi. Çünki "Molla Nəsrəddin" mübarizədə tək deyildi. Tiflis ədəbi mühiti jurnalın mövqeyində dayanır, Mirbağırlara qarşı mübarizə aparırdılar.

F.b.Köçərlinin müasirləri olan Ö.F.Nemanzadə, H.Minasazov, E.Sultanov, S.Ağaoğlu və başqaları mübahisələrdə iştirak edir, məqalə və məktubları ilə jurnalın əleyhdarlarına zərbə endirirdilər (10.s.38). Bu mübarizənin önündə qadının çadrası məsələsi dayanırdı ki, bu da günün müzakirəsi mövzusuna çevrilmişdir. Qadını çadrasız təsəvvür etməyin mümkünsüzlüyünü sübut etməyə çalışan mövhumatçı dindarlar hətta Quranda çadranı qadının bəzəyi, incisi hesab etdiyini söyləyirdilər. Təəssüfedici haldır ki, bəzi elm və sənət adamlarının mövcud cəmiyyət və şəraitlə barışması, onları qadın əsarətinə dözməsi insanda heyrət doğurmaya bilmir.

F.b.Köçərlinin müasirləri E.Sultanov, S.Ağamalıoğlu, Ə.Ağaoğlu, M.Şahtaxtlı, H.Minasazov, N.Nərimanov, Ü.Hacıbəyov kimi ziyalılar tez-tez mətbuatda Azərbaycan qadınının dözülməz həyatından bəhs edən yazılar yazırdılar. Təbii ki, F. Köçərli daha fəallıq göstərirdi. F. Köçərliyə görə "Molla Nəsrəddin"in gülüşü mənalı və məzmunludur, qılınc kimi kəsərlidir, dərman kimi şəfavericidir. Lakin ruhanilərə hücumu əsaslı olsa da, bizim fikrimizcə həddindən çox kəskin və tendensiyalıdır. Bizim ruhanilərin başlıca qüsuru onların cahilliyində və məhdud düşünmələrindədir.

F.b.Köçərli "Molla Nəsrəddin"i dinə, onun nümayəndələrinə münasibətdə ehtiyatlı, səbirli olmağa, yumşaq gülüşə meyl etməyə çağırırdı(10.s.50). Əslində Köçərlinin bu təmkinli çağırışında öz dininə və din sahibi olan ruhanilərin nüfuz dairəsinə qarşı əsl müdriklik, hörmət və ehtiram duyulurdu. Əsrlər boyu insanlarda formalaşmış dini əqidə, dini yaşam tərzini belə az müddət içərisində tənqid edərək dəyişmək qeyri mümkün idi. Bunu tədricən aparılması daha məqsədəuyğun idi. F.b.Köçərli bəlkə də bu nöqteyi-nəzərdən ruhanilərin incə hissinə toxunmağın əleyhinə idi. Böyük nüfuz sahibi olan ruhani dairələrini narazı salmaq o qədər də asan məsələ deyildi. F.b.Köçərli şəraiti nəzərə alaraq avam, cahil və nadan insanların çoxluq təşkil etdiyini, dindarlara sitayiş etdikləri bir zamanda bu insanların yanında din sahiblərinin sözünün keçərli olduğunu görür, əhali arasında qarışıqlıq yaranmasına yol verməməyi düşünürdü. F.b.Köçərli də sözünü kəskin söyləyirdi, istədiyini xalqın nəzərinə çatdıra bilirdi, lakin bu təhqir deyil, tənqid xarakteri daşıyırdı.

Maariflənmədə mətbuatın rolunun əvəzsiz olduğunu bütün mütərəqqi fikirli ziyalılar təsdiq edirdi. Çünki, o dövrdə böyük əks-səda doğuran jurnallarda (xüsusilə də"Molla Nəsrəddin-P.M.) canlandırılan karikaturalar insanları nadanlığa və cəhalətə sürükləyənlərin iç üzünü açır və avam kütlələrə onları tanıdırdı.

Dövrün mütərəqqi ziyalılarının əksəriyyətinin qadınların ailədə və cəmiyyətdə bərabər hüquqlu insan olaraq meydana çıxmalarında zəhmətləri böyük olduğu danılmazdır. Lakin ziyalılarımızın hər biri öz düşüncəsi mövqeyindən çıxış edirdi ki, bu da , bəzən onları fikir ayrılıqlarına gətirib çıxarırdı.

Məsələn böyük mütəfəkkir M.F.Axundov qadınlara bütün sahələrdə kişilərlə bərabər insanlıq və azadlıq hüququnun verilməsini istəyirdi. Görkəmli ədib C. Məmmədquluzadə qadınları qara pərdə arxasından işığa çıxarıb, dünya işığını onlara göstər-





məyi arzu edirdi. O, bunun gələcəkdə mütləq olacağına inanırdı. H.b.Zərdabiyə gəlincə isə o, qadına insanlıq münasibətinin bəslənməsi uğrunda əzmlə mübarizə aparmışdır.

Həsən bəy qadına, onun əməyinə dərin hörmət göstərilməsini mühüm əxlaqi vəzifə hesab edirdi. O qadınların maariflənməsindən bəhs edərkən ailəni cəmiyyətin kiçik bir özəyi hesab edirdi və qadını bu özəyin əsasında görürdü. Çünki qadın ailədə başqa işlər görməklə yanaşı həm də övlad tərbiyəsində əsas rol oynayırdı. Həsən bəyin fikincə də qadınların təhsilli olması mütləq olmalıdır.

Mənbələrdə qeyd edildiyi kimi bədii təfəkkürün inkişafında mənəvi aləmin bəşəri duyğularla, əqli zehiyyətin idrakla vəhdətinin tərənnüm etdirilməsində insanın idrakının, estetik düşüncəsinin rolu böyükdür.. Ümumiyyətlə dünya filosofları da insanın həyati duyğuları anlamalarını, insan olaraq nə üçün yaşadıqlarını dərk etmələrini daha çox mütaliə etməkdə olduğunu anladırdılar. Onlar da insanın təlim-tərbiyəsində təhsilin, savadın və maariflənmənin güclü təsiri olduğunu qeyd edirlər. Bu cür düşünən insanlar həyatda hər kəsin istər qadın, istərsə kişi olsun hüquqlarının qorunmasını, onların canlı məxluq olaraq dəyərləndirilməsini tələb edirdilər. Belə yanaşma nəticəsi idi ki, qadına olan müsbət münasibət insanlığı dərk edən ziyalı təbəqələr tərəfindən ortaya çıxdı və qadına azadlığın verilməsi məsələsi gündəmə gəldi. Daha sonra isə bu yolda mübarizə başladı. Azərbaycanda da mədəni mübarizə özünü göstərməyə başladı. Qadınların azadlığa çıxaraq təhsilə cəlb edilməsi yolunda iş genişləndikcə, onların maarifə, ictimai həyata qovuşmaq üçün can atdıqları müşahidə olunurdu. Çadranın atılmasını qadının müstəqilliyi yolunda atılan ilk çətin və ən cəsarətli addımlardan hesab etmək olar.

Azərbaycanda mövcud quruluşun ədalətsiz qanunlarına, insan mənəviyyatını ləkələyən ictimai qüvvələrə qarşı müba-

rizə motivlərində qadın azadlığı məsələsi ön sırada durdu. Bu məsələdə əks tərəfdən çıxış edən qüvvələr, xüsusən də mövhumatçı dindarlar bütün bu qadağaların islamla bağlılığını müsəlmanların diqqətinə çəkmək üçün hər vasitəyə əl atırdılar.

Maarifçi ziyalılar qadına qarşı olan qəddarlığın, hüquqsuzluğun islamla heç bir əlaqəsinin olmadığını sübut etməyə başladılar. Azərbaycan maarifçiləri ən əsası onu xalqa sübut etməyə çalışırdılar ki, qadının hicab örtməsinin də və ya onun örtüksüz gəzməsində islamın heç bir rolu yoxdur. Şəriət qanunlarına görə islamda zor işlətmək, məcburiyyət yolverilməzdir. İslam insanların tərəqqiyə, maarifə, təhsilə yiyələnməyinə mane olmur. İslamın qaydalarını öz mənafeləri üçün yönəldən mövhumatçı dindarlar, sadəcə avam camaatın nadanlığından istifadə edərək bütün törətdiklərini islamla bağlayır və bütün bu söylədiklərinin Quranda yazıldığına insanları inandırmağa çalışırdılar. F.b.Köçərli belə qüvvələrə qarşı mübarizə aparanların fikirlərini müdafiə edirdi.

Dini fanatizmin hökm sürdüyü sinifli cəmiyyət şəraitində islam hüquq normalarını tənqid və ifşa edən Azərbaycan maarifçiləri əmin idilər ki, qadını əsarətdən azad etmək yalnız kütlələr içərisində həqiqi biliklər yaymaq yolu ilə mümkün olacaqdır. Beləliklə molla mövhumatından azad edilmiş, islah edilmiş bir dinin müsəlman xalqlarının ictimai həyatında müsbət rol oynaya biləcəyinə F.b.Köçərli inanırdı. O çalışırdı ki, ictimai inkişafın irəli sürdüyü qadın azadlığı, xalqlar dostluğu, dünyəvi elmlərin tədris edilməsi kimi problemlərin əsl dinə, Qurana zidd olmadığını və islam dinin insan həyatında tərbiyəvi rolunu sübut edə bilsin.

Qadın hüququnu müdafiə edən F.b.Köçərli yazırdı: "Dünənki uşağı, gəlin oynadan və ağzından hənuz süd iyi gələn körpə bir qız balasını bu gün arvad edib, gəlin oynatmaq əvəzinə balaya süd və tərbiyə verməyə vadar və məcbur qılırlar.





Nə böyük zülm və ədalətsizlik! bu nə böyük cəhalət və divanəlik!"(11.s.121).

Böyük maarifpərvər alim F.Köçərlinin əsas məqsədi qadının cəmiyyətdə ailədə olan münasibətinə gəldikdə qadının ilk növbədə ana olaraq hörmət və nüfuza malik, qadınsız cəmiyyətin boş və mənasız olduğunu nəzərə çatdırmaq idi.

Azərbaycan qadınları xalqımızın təşəkkül tapmasında, millət kimi formalaşmasında, çoxcəhətli mədəniyyətimizin tərəqqi etməsində böyük rol oynamışlar.

Köçərlinin yaradıcılığında cəmiyyətin qadına olan münasibətini araşdırarkən, o dövrdə qadın haqqında söylənilən yüksək fikirlərin bu günki həyatımızla uyğunluq təşkil etdiyini görürük. Buradan belə nəticəyə gəlmək olur ki, qadın azad olmalı, kölə vəziyyətində yaşamamalı, qadına həmişə hörmət olmalı və qadına ali insan kimi baxılmalıdır. Çünki, qadının da insan olaraq buna haqqı vardır.

Azərbaycanın tarixində qəhrəman qadınların olduğu məlinmdur. Dövründən asılı olaraq zaman-zaman qadına olan münasibət dəyişmiş və dözülməz həddə çatmışdır. Lakin qəddarlıqla bərabər insani münasibətlərin olduğu məlumdur. Qadına qarşı insani münasibət dedikdə biz bunu Azərbaycan ədəbiyyatının folklor nümunələrində görürük. Azərbaycan xalq nağıllarında ağıllı, igid dəyanətli, namuslu, vəfalı qadın surətlərinin olması təsadüfi deyildir. Bu, hər şeydən əvvəl, xalqın qadına bəslədiyi münasibətlə əlaqədardır.

Bu gün gələcəyin açarı qadınların əlindədir desək səhv olmazdı. Çünki istedadlı gəncləri dünyaya gətirən və tərbiyələndirən qadındır.

Azərbaycan torpağının tarixən qəhrəmanlar, igidlər, istedadlar məskəni olduğu təkcə kişilərə aid edilməyibdir. İstedadını və qəhrəmanlığını nümayiş etdirən qadınlarımız olmuşdur ki, onlar hər dövrlərdə kişilərlə bərabər müharibələrdə iştirak etmiş,

onlarla çiyin-çiyinə meydanlarda döyüşmüşlər. Təsadüfi deyildir ki, Azərbaycan ədəbiyyatının klassiklərindən dahi Nizami Gəncəvi öz əsərlərində Məhinbanu və Nüşabə kimi qadın hökmdarların, əfsanəvi Fitnə və yeddi gözəl kimi obrazlarını yaratmışdır. Nizami Gəncəvi göstərməyə çalışmışdır ki, qadın zərif olduğu qədər heç də zəif məxluq deyildir. Azərbaycan qadınının ağlı, kamalı, idrakı həmişə çətin məqamlarda köməyinə çatıbdır.

Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli haqlı olaraq "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərində Azərbaycan qadınlarının həyat və yaradıcılığını işıqlandırmışdır. Köçərli qadınlarımızın azadlığa çıxmasının ilkin yolunu onların haqqında məlumat toplayaraq xalqa çatdırmaqla xalqı maarifləndirməyə çağırırdı.

XIX əsrin sonlarında Azərbaycanda getdikcə güclənən maarifçilik hərəkatının qadınlarımızın həyat tərzinin dəyişilməsinə böyük köməyi olubdur. Dövrün ziyalıları bu hərəkata dəstək olaraq yeni-yeni məktəblərin açılmasına, qadınların təhsilə cəlb edilməsinə, qadın müəllim kadrlarının hazırlanmasına, əhalinin yoxsul təbəqələrinin dərs almaq hüququna yiyələnməsinə çalışırdılar.

Oğlan məktəbləri yanında qızlar üçün xüsusi siniflərin açılması bir yenilik idi. 1894-cü ildə Azərbaycanın görkəmli pedaqoqlarından Məmmədəmin Şeyxzadənin qızı Şəfiqə xanım Əfəndiyeva cəsarət göstərərək Şəkidə "Darüssüədə" məktəbində qızlara dərs deməyə başlayır. İlk addım sayılan bu cəsarət Azərbaycanın başqa qəzalarında da qadınların hərəkətə keçməsinə şərait yaradır. Bakıda, İrəvanda Gəncədə, Naxçıvanda, Şamaxıda və s. yerlərdə məktəblər yaranmağa və orada təhsil almağa cəlb edilən qızların sayı artmağa başlayır.

F.b.Köçərli öz əsərlərində natiq, alim, şairə, hüquqşünas, əsgər, sərkərdə olan bir çox məşhur Şərq müsəlman qadınlarının adını çəkib nümayiş etdirir. Hüquq elmləri sahəsində məş-





hur olan bağdadlı qadın Ümmul Xeyri beləl追ərindən idi. O, öz zəmanəsinin bir çox kişi alimlərindən də yüksəkdə dururdu. Ümmul Xeyrinin elmi məktəbi var idi ki, burada da bir çox məşhur kişi alimi yetişmişdi. Asima bint Məhəmməd məşhur alim və müxtəlif elmlərin böyük şərhçisi idi. Bağdad xəlifəsi Harun-əl-Rəşidin arvadı Zubeyda Ümmi Cəfər gözəl şairə idi (14.s.25).

Görkəmli ədibimiz F.b.Köçərli Azərbaycan cəmiyyətində qadına münasibətin dəyişilməsini, gələcəkdə qadınlara qarşı əsarətə, köləliyə son qoyulmasını, qadınlara azadlıq verilməsini arzu etdirdi. O, bu arzu uğrunda mübarizəyə qalxmaqla, qadının kişilərlə bərabər mövqedə dayana bilməsi gücünün olduğunu faktlarla sübut etməyə çalışırdı.

Qeyd etdiyimiz kimi hər dövrün özünəməxsus yaşam tərzi olduğundan bəzi dövrlərdə mövhumatçı dindarlar avam camaatın zəif cəhətindən öz xeyirləri üçün yararlanaraq bir çox lazımsız qadağalar yaratmışdırlar ki, onlardan da ən acınacaqlısı qadınlara qarşı olan təzyiq, zorakılıq və işgəncələrin həyata keçirilməsi idi.

Köçərli eyni zamanda bununla islam dininə bəraət qazandırmağa çalışırdı ki, avam camaata anlatsın qadınların hüququna qəsbkarlıq edən nə islam dinidir, nə də Qurandır. Bütün bunları saxtalaşdıran dindar-fanatik mollalar, ruhanilərdir. Bəzən Köçərlinin fikrinin də yanlış olduğu haqda söylənilirdi, lakin Köçərli bu söhbətlərə əhəmiyyət verməyərək, müsəlman qadınlarına qarşı olan qeyri-bərabərsizliyi, qadınların vəziyyətinin dözülməzliyini və insan cəmiyyəti üçün bunun bir ləkə olduğunu qeyd edirdi. Şəriət elmindən yetərincə məlumatlı olan Firidun bəy avam camaata başa salmağa çalışırdı ki, 14 əsr bundan qabaq Məhəmməd ə.s. ərz etmişdir ki, biliklərə yiyələnmək, kişi və qadından asılı olmayaraq hər bir müsəlmanın borcudur. İslam müsəlmanlara bilik almağı məsləhət görəndə kişi və qadına fərq qoymayıbdır. Qadın təhsil və bilik almaqda kişi ilə bə-

rabər hüququqa, eyni zamanda fikrini azad ifadə etmək hüququna malikdir. Lakin, əsrlər boyu cəhalət və nadanlıq içərisində yaşayan insanları aldadaraq islam haqqında səhv məlumatlandırmışdırlar. Köçərlinin yaşadığı dövrdə belə məsələyə toxunmaq, bu mövzuda fikir söyləmək çətin olduğu qədər də məsuliyyətli idi. Bunları incəliyinə qədər anlayan və sözün həqiqi mənasında əsl ziyalı olan Firidun bəy ehtiyatla hərəkət edir, tədricən təbliğat maşınını işə salaraq fəaliyyətə başlayır, eyni zamanda da sona qədər mübarizədən geri çəkilməməyi düşünürdü.

Azərbaycan tarixində qadının cəmiyyətdə və ailədə insan kimi sayılmamağı, hətta bəzi hallarda onların ailədə danışmalarına belə yasaq qoyulması dözülməz hal kimi tarixin yaddaşında qalmışdır. Köçərli qadınların taleyinin biz kişilərin əlində olduğunu qeyd edərək deyirdi: "Nə üçün biz analarımızın, bacılarımızın həyatının yüksəlməsinə çalışmayaq, onları maarifləndiməyək, Onların azadlığına kömək etməyək. Əgər biz bunları edəriksə, onlar da əbədi surətdə bizə minnətdar olacaqlar. Bizim və gələcək nəsillərin elmli, bacarıqlı olması analarımızın təhsilindən çox asılıdır. Təmiz və sağlam vicdanı olan belə də düşünməlidir".

F.b.Köçərli qadınların azadlığı uğrunda mübarizə aparan və hətta bir çox insanların bu mübarizəyə qoşulmasında fəallıq göstərən maarifpərvər idi. O, maarifçilik işini qadınlar arasında aparılmasına, bu yolla daha böyük uğurlar əldə edə biləcəklərinə inanırdı.

XX əsrin əvvəllərində publisistikada olan maarifçilikdə ailə və qadına münasibət məsələsi əhəmiyyətli yer tutmuşdur. Qadın hüquqsuzluğundan bəhs edən yazılar artıq yetərincə mətbuatda dərc olunurdu. Maarifçilər cəmiyyətdə və ailədə qadına olan mənfi münasibətin dəyişilməsi sahəsində aparılan işi mühüm amillərdən hesab edərək, ictimai tərəqqidə qadının diqqətdən kənarda qalmağına çalışır, hətta cəmiyyətin inkişafında qa-





dının yüksək mövqeyini müdafiə edirdilər. İlk növbədə "mübarizə nadanlığa və cəhalətə qarşı yönəlməlidir" şüarı ilə F.b. Köçərli və onun timsalında maarifpərvər ziyalılarımız bu yolda hərəkətə keçərək, qadınlarımızın maariflənməsi, savadlanması, onların azadlığa çıxması naminə mübarizəyə qalxdılar.

F.b.Köçərlinin yaradıcılığını nəzərdən keçirdikdə onun demək olar ki, bütün yazılarılardında maariflənmədən, təhsil və savadlanmadan, uşaqlara olan sevgi və rəğbətdən, dinimizə hörmətdən, dilimizə məhəbbətdən və gündəlik həyatda baş verən sosial məsələlərdən bəhs edən yazılara rast gəlmək olur.

Vətəninə sonsuz məhəbbətlə bağlı olan Firidun bəyin şagirdlərinə atalıq qayğısı ilə yanaşması, onlara ürək yanğısı ilə savad, bilik aşılaması millətinə, xalqına olan sevgisinin təzahürüdür. Ailəsində onun nəslini davam etdirən olmasa da o öz ömür-gün yoldaşı, heç bir təhsili olmayan vəfalı Badisəba xanıma təhsil vermiş və eyni zamanda öz həyatını şagirdlərin savadlanması uğrunda apardığı mübarizəyə, pedaqoji fəaliyyətə həsr etmişdir. Təsadüfi deyildir ki, o dövrün qəzet və jurnalları F. Köçərlinin bu xeyirxah işini təqdirəlayiq hesab edirdi. Ailədə və cəmiyyətdə qadına olan pis münasibətin dəyişdirilməsində, qızların təhsilə cəlb edilməsində F.b.Köçərlinin zəhmətini xüsusilə qeyd etmək lazımdır..

Azərbaycan ədəbiyyatına misilsiz miras qoyan F.b.Köçərli klassiklərimiz haqqında yazdığı ikihissəli "Azərbaycan ədəbiyyatı" kitabında bir neçə qadın şairənin həyat və yaradıcılığı haqqında məlumat verməklə geniş kütlələrə göstərmək istəyirdi ki, "bizim də belə istedadlı, igid, savadlı qadınlarımız var!".

Müsəlman ölkələrində hökm sürən dini kəbin qaydaları qadın hüququnu tapdalayan vasitələrdən biri idi. Öz mənfəətləri üçün çalışan mövhumatçı dindarlar azyaşlı qızların ərə verilməsini, çoxarvadlılığı, köləlik və zülmət kabusu olan çadranı islam dini ilə bağlayaraq avam camaatı aldadırdılar. 9-12 yaşlı qızların

ərə verilməsi kimi müdhiş bir hal rəsmi olaraq Azərbaycanda 1872-ci ilə qədər davam etmişdir (8.s.6).

Mövhumatçı dindarların fikrinə gəldik də isə onlar guya, islam dini qadınların cəmiyyətdə görünməyinə, onların təhsil, savad almağına, ictimai faydalı əməklə məşğul olmağına yol verməndiyini qadın ancaq ailəsinin, ərinin əsiri olmasını iddia edirdilər. İlahiyyatçıların islam qanunlarından bəhs edən ədəbiyyatlarına və yaxud ziyalılarımızın qadın azadlığı haqqında yazmış olduqları əsərlərə nəzər saldıqda həqiqətən də islamın mədəni, səviyyəli bir din olduğu məlum olur. Buna nümunə kimi F.b.Köçərlinin, T.b.Bayraməlibəyovun, Ə. Ağaoğlunun və başqalarının əsərlərini misal göstərə bilərik. Araşdırmalar zamanı islam və islamda qadınların vəziyyətindən bəhs edən bir çox yazıların Ə.Ağaoğluna aid olduğunu görmək olur. Ə. Ağaoğlunun islamda qadının hüququndan bəhs edən silsilə yazıları bu baxımdan daha kəskin, daha təqdirəlayiq hesab edilir.

Firidun bəy Köçərli yetərincə mütaliə etdiyi ədəbiyyatlarda qadınların hər bir dövrdə zülmə, haqsızlığa qarşı çıxdıqlarının, hətta öz azadlıqları uğrunda mübarizə apardıqlarını, qəti fikir söylədiklərini, möhkəm iradəyə sahib olduqlarını bilirdi. Bu fikrə əsaslanaraq o, qadınlar arasında maariflənməni sürətləndirməyin tərəfdarı idi. Qadın köləliyinə yox deyən maarifpərvərlər bunun yalnız xalqın gələcəyi, millətin inkişafı naminə edirdilər.

Firidun bəy Köçərli məqalələrində ən çox müsəlman xalqlarının mədəni və iqtisadi geriliyindən yazır və əsas səbəbinin savadsızlıq olduğunu iddia edirdi. Ailədə, xüsusən də ər və arvad arasında mehribançılıq ona görə zəruridir ki, bu, uşaqların tərbiyəsində mühüm rol oynayır. Valideynlərin bir-biri ilə pis rəftarı uşaqların tərbiyəsinə olduqca mənfi təsir edir. Ona görə ki, "Uşağın əvvəlinci müəllimi bitəbii validəsidir"(7.s.173).

F.b.Köçərli də bir publisist olaraq və şəriət qanunlarını gözəl bildiyi halda mətbuatda qadın azadlığı və qadın hüquqsuzluğu haqqında məqalələr dərc etdirərək, Qurandan gətirdiyi sitatları bir fakt olaraq xalqa çatdırır və islam dininin cəmiyyətdə insanlara mənəvi meyarları aşılamaqla yanaşı, tərbiyəvi meyarların da aşılanmasında çox böyük rolunun olduğunu qeyd edirdi.





İslamda qadının ictimai vəziyyəti nadir, başqa heç bir sistemdə bənzəri olmayan bir faktdır. İslamın qadına eyni yox, bərabər hüquq verməsi faktı bir daha göstərir ki, islam qadına lazımı diqqət yetirir, onu tanıyır və həmçinin qadının şəxsiyyətinin müstəqilliyini təsdiqləyir. Köçərli çalışırdı ki, mötəbər məclislərdə, ictimai yerlərdə tədricən, ara-sıra bu mövzularda söhbətlər etsin və bu mövzu ilə əlaqədar fikirlərini həyata keçirmək üçün bir növ insanları hazırlasın. Bu fikirlərin də əsasında isə qadınların təhsilə yiyələnmələri və məktəbə getmələri məsələsi dururdu.

Zəngin ədəbi irsə malik olan və 57 illik ömrünün ən mənalı illərini Azərbaycan xalqının maariflənməsinə və inkişaf etməsinə həsr etmiş görkəmli alimin yaradıcılığındakı dərin, orujinal fikirləri bu gün ki, ədəbiyyatımızda da aktual mövzudur. 410-dan çox görkəmli yazıçı və şairlərlə məktublaşan F.b. Köçərlinin özü tərəfindən yazılmış dəftərində 24-dən çox məqaləsinin də siyahısı olmuşdur. Müasirləri arasında böyük nüfuz malik olan Firidun bəy təmkini və ağlı ilə bu nüfuzu saxlamağa çalışırdı. O, bir tənqidşünas olaraq heç kəsi qərəzli tənqid etmirdi. Firidun bəy Azərbaycan dilinin qorunmasının və Azərbaycanın gələcəyi naminə dilin sadələşməsinin tərəfdarı idi.

Ədəbiyyatşünasın müasiri Abbasağa Qayıbov Nazir F.Köçərli ilə gec tanış olmasına təəssüflənərək, 1909-cu ildə ona göndərdiyi məktubunda yazırdı: "Hərgah qırx il bundan əqdəm mənim şeirimə Sizin kimi qədir-qiymət verən olsaydı, indiyə kimi 30-40 cild kitab yazardım"(12.s.13).

Müasirləri Firidun Köçərlinin fikirlərini çox bəyənir və onu dəyərli qələm sahibi adlandırırdılar.

F.b.Köçərli "Molla Nəsrəddin" jurnalında qadın azadlığından bəhs edən bir yazını yüksək qiymətləndirərək, onu təqdirəlayiq saymışdır. O qadını həm cismani və həm də mənəvi şikəst edən mənfur ictimai quruluşu pisləyir və quruluşun əsaslı şəkildə dəyişdirilməsini söyləyirdi. Ədib yaradıcılığa verdiyi qiymət kimi, insanlığa da böyük dəyər verməyi bacarırdı. F.Köçərli göstərir ki, ana olmaq təkcə körpə balaya döşündən süd verib, onu bələməkdən, ona dayəlik etməkdən ibarət deyildir. Analarımızın həm incə-zərif, həm çətin və mürəkkəb, həm də həyat qədər şərəfli xüsusiyyətləri vardır. Analığın xüsusi şərtlərini ümumiləşdirən yazıçı cəmiyyət üçün, millət üçün daha zəruri olan məsələlər üzərində dayanırdı. Qul və kəniz halında ömürlərini başa vuran Azərbaycan qadınlarının taleyini F.b. Köçərli xalq arasında məşhur olan bir misalla ümumiləşdirir:

*Qız idim, sultan idim,*
*Nişanlandım xan oldum.*
*Gəlin oldum, qul oldum,*
*Ayaqlara çul oldum.*

*Qız idim, geyindirdilər; ibrü vəfa köynəyini,*
*Nişanlandım, geyindirdilər zövqü səfa köynəyini,*
*Gəlin oldum, geyindirdilər cəbrü cəfa köynəyini.*

Misralardan qadının həyata gəldiyinə peşimançılıq duyduğunu, onun nə qədər cəfa çəkdiyini anlamaq olur. Köçərli qadına yazıq məxluq kimi baxılmasını qəbul etmirdi. O Azərbaycan qadınlarının bacarıqlı, ağıllı, dərrakəli olduğunu anlatmağa çalışırdı. Köçərli qadın hüquqsuzluğu əleyhinə mübarizə aparan, onu bu mübarizəyə ruhlandıran səbəblərdən biri kimi M.F.Axundovun bu sahədəki fəaliyyətini dəyərləndirirdi. O, düşünürdü ki, öz ağıl və bacarığını nümayiş etdirmək üçün qadına imkan verilməli,





şərait yaradılmalıdır. Ailəsinin səadəti, balalarının xoşbəxtliyi naminə, çox zaman sevmədiyi insanla yaşamaq məcburiyyətində qalan qadını əcayib məxluq kimi təsvir edən, bütün bəlaların səbəbini qadında görən bəzi şairlərin əsərlərini Köçərli heç nədən çəkinməyərək tənqid edirdi. Xalqın ictimai tərəqqiyə çatması üçün "qadın azadlığı mütləqdir" deyən Köçərli, qadının möhkəm iradəyə, gücə malik olduğunu qeyd edirdi. F.Köçərli bir maarifçi olaraq belə hesab edirdi ki, insan bəşəriyyətə verilən ən ali mükafatdır, bu mükafatın dəyəri isə qadındır.

Qadınların azadlığı uğrunda mübarizəyə qoşulanlar düz yolda olduqlarını bilirdilər. Ziyalı və görkəmli şəxsiyyətlərimiz artıq qadınların öz hüquqları üçün çalışdıqlarını və bu yolda əməli fəaliyyətə başladıqlarını görürdülər. Bu ərəfələrdə qadın cəmiyyətlərinin yaranması bunu təsdiq edirdi. Məsələn 1902-ci ildə Azərbaycanda ilk qadın cəmiyyətlərindən olan "Qadınların müdafiəsi cəmiyyəti"nin ("Общество защиты женщин") yaranması bunu deməyə əsas verir(17.s. 67).

F.Köçərli din xadimlərinin, şəriət ehkamlarının törətdiyi bəlaları, gəlincik oynadan, ağzından süd iyi gələn dünənki uşağı körpə ikən arvad edib, gəlin oynatmaq əvəzində balaya süd və tərbiyə verməyə vadar edən cahillərin əməllərini böyük zülm və ədalətsizlik adlandırır: "Nə böyük cəhalət və divanəlik. Filhəqiqə, belə körpə əti və sümüyü bərkiməmiş anadan vücuda gələn balalar cismən və əqlən nə qədər zəif, nəhif və mayasız gərək olsunlar. Övladın tərbiyəsi və təlimi ancaq o vədə qaydaya düşüb təbii ola bilər ki, onların vücuduna səbəb olan ata və ana həddi-kamala yetişib, ağıl və fərasətdə, elm və bilikdə, ixtiyar və hüquqda bir-birinə müvafiq olalar, bir-birinə həqiqi mərifət və məhəbbət ilə bağlanmış olalar və hər ikisi təlim və tərbiyənin yolunu kamalınca anlayalar. Bu surətdə demək olar ki, ər və arvad bir cismin, bir bədənin iki müvafiq hissələri və təbii parçalarıdır" (12.s.155).

Günümüzün ən vacib məsələlərindən olan erkən evliliyə mənfi münasibətin olmasını hələ ötən əsrin dahi şəxsiyyətləri gündəmə gətirmişdilər. Bu şəxsiyyətlər son dərəcə ziyalı, savadlı, dünyagörüşü dərin olan şəxsiyyətlər idilər. Onlar istər tibbi nöqteyi-nəzərdən, istərsə də insanlıq nöqteyi-nəzərindən insanların erkən ailə qurmasında nə kimi fəsadların ortaya çıxacağını avam kütlələrə anlatmağa çalışırdılar.

Böyük alim, əsl pedaqoq və dəyərli insan olan F.b.Köçərli Azərbaycan qadınlarının həyatının acınacaqlı səhifələrini göstərməklə qadınların öz hüquqlarını tanımaları üçün, inkişaf etmiş başqa ölkələrin qadınlarından geri qalmamaqları üçün qızların oxuyaraq təhsilli olmalarını tərəqqi və inkişafın əsas, yüksək şərtlərindən hesab edirdi. Ziyalılarımızın qeyd etdiyi kimi qadınların təhsilli olması birbaşa ölkənin tərəqqisi, inkişafı deməkdir. Bu mübarizədə Firidun bəy Köçərlinin özünəməxsus fikri və yeri vardır. Firidun bəy insanlığın müdafiəçisi idi. Bu müdafiə də qadınlara olan insani münasibəti xüsusilə fərqli idi.

Azərbaycanda azadlıq günəşinin doğması, onun şəfəqlərinin daha da uzaqlara işıq saçması Firidun bəy Köçərli və onun kimi mütərəqqifikirli maarifçilərin zəhmətinin bəhrəsi idi. XIX əsrin sonları və XX əsrin əvvəlllərində Azərbaycan ictimai fikir tarixində ən yüksək yerlərdən birini tutmuş F.b.Köçərli xalqımızın ədəbiyyat, mədəniyyət və maarifının tərəqqi edərək yüksəlməsi sahəsində silinməz bir cığır açdı. Həmən cığırla bu gün gedən minlərlə gənc nəsil təhsilin və maariflənmənin nə qədər önəmli olduğunu anlayaraq ziyalılarımızın bu yolda çəkdikləri zəhməti qiymətləndirir, onların yolu ilə getməyə, inkişaf və maariflənmə mübarizəsini davam etdirməyə, onların yandırdıqları azadlıq çırağını qorumağı çalışırlar. Azərbaycan qadınlarının azadlıq çırağının nurundan bəhrələnməyində Firiudin bəy kimi ziyalıların əməyi danılmazdır.





## ƏDƏBİYYAT:


1. Azərbaycan qadınlarının IV qurultayı. Bakı, 1965. 135 s.
2. S. Məmmədov: "Azərbaycanın maarifpərvər qadınları". Bakı, 1960. 140 s.
3. "Firidun bəy Köçərlinin şəxsi arxivi" kitabından: Bakı, 2006. 279 s.
4. Azərbaycan ədəbiyyatı tarixi. II cild. Bakı, 1960. 906 s.
5. N.Paşayev: "N. Nərimanov və Azərbaycan mədəniyyəti", Bakı, 1986. 176 s.
6. S. Gəncəli: "Azadlıq yollarında", Bakı, 1980. 189 s.
7. Z. Göyüşov: "Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri. Bakı, 1964. 190 s.
8. S. İmanzadə: Oktyabr Sosialist İnqilabı və Azərbaycanda qadın azadlığı". Bakı, 1957. 106 s.
9. L. Osmanqızı: "Əhmədbəy Ağaoğlunun publisistikası". Bakı, 2012. 404 s.
10. A. Hacıyev: "Tiflis ədəbi mühiti", Bakı, 1980. 182 s.
11. Ə. Həsənov: "Azərbaycan maarifçiləri tərəfindən islamın tənqidi". Bakı, 1983. 223 s.
12. İ. Bəktaşi: "Firidunbəy Köçərlinin yaradıcılıq yolu", Bakı, 1986. 183 s.
13. M.Cəfər: "Azərbaycan ədəbiyyatında romantizm. Bakı, 1963. 217 s.
14. "Azərbaycan məktəbi" jurnalı. Bakı, 1963.№ 9.
15. F. Cabbarov: "H.Z.A.Tağıyevin qız məktəbinin tarixindən". Bakı,2011. 390 s.
16. S.İmanzadə: "Qadınlar cəmiyyətdə və ailədə". Bakı,1963. 59 s.
17. Л.Алиева: "Женщины в общественно-политической жизни Азербайджана" . (1900-1920). Баку.2013. 335 стр.
18. Məqalələr toplusu (Az.Res.Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi). Bakı,2010. 271 s.

## FİRİDUN BƏY KÖÇƏRLİ VƏ RUSDİLLİ MƏTBUAT

Azərbaycan mətbuatı tarixində istərsə də rusdilli mətbuatda publisist məqalələri ilə xalqına xidmət göstərmiş ziyalılarımızın parlaq simalarından biri də, görkəmli ədəbiyyat tənqidçi, publisist və maarifpərvər F.b.Köçərli olmuşdur. Əsərləri ilə ədəbiyyatımızda əbədi olaraq izini qoymuş F.b.Köçərlinin əməli fəaliyyətinin əsasını Azərbaycan klassiklərinin yaradıcılığının tədqiqi məsələsi təşkil etmişdir. F.b.Köçərli eyni zamanda başqa xalqların klassiklərinin yaradıcılığının öyrənilməsi və tərcümə işi ilə də məşğul olurdu. F.b.Köçərlinin həyat və yaradıcılığını izləyərkən onun yazılarında bir müasirlik, mübarizlik, qətiyyətlik və azad fikirlilik olduğunu görürük.

Əsrimizin ilk rübündə böyük məsuliyyət realist bədii nəsr, dramaturgiya, inqilabi satira və publisistika sahəsində C. Məmmədquluzadənin, yeni şeir aləmində M. Ə. Sabirin, musiqi mədəniyyəti sahəsində Ü. Hacıbəyovun gördüyü iş, ədəbi tənqid və ədəbiyyatşünaslıq cəbhəsində isə Firidun bəy Köçərlinin üzərinə düşmüşdür (1. s. 336).

1879-cu ildə Qori seminariyasında təhsil alan F.b.Köçərli başqa xalqların ədəbiyyatını öyrənmək üçün, ilk növbədə rus dilini və rus ədəbiyyatını dərindən öyrənməyi qarşısına məqsəd qoyur. O, burada rus dilinə mükəmməl yiyələnərək, bir müddət Yerevan gimnaziyasında müəllimlik etməyə başlamış və ilk məqalələrini də məhz Yerevan gimnaziyasında müəllimlik etdiyi müddətdə dərc etdirmişdir. Rus ədəbiyyatına olan marağı, o dövrün məşhur rus klassiklərinin əsərlərinə müraciət etməyi onun rus dilli insanlar arasında tanınmağına səbəb olmuşdur.





F.b.Köçərli rus klassiklərinin hekayə və şeirlərini Azərbaycan dilinə tərcümə edir, rus mətbuatında isə əsasən Azərbaycanın gündəlik həyatında baş verən müxtəlif mövzularda məqalələr, eləcə də şair və yazıçıların əsərlərindən tərcümələr dərc etdirirdi. O rus klassiklərinin təkcə əsərləri və yaradıcılıqları ilə deyil, eyni zamanda onların yaşadıqları dövrün sosial, məişət məsələləri ilə də maraqlanırdı. Xalqının ağır güzəranını görən ədib, başqa xalqların həyat tərzinin öz xalqının həyat tərzi ilə müqayisə edir və onda millətinin azadlığı, firəvanlığı uğrunda mübarizə etmək üçün bir hərəkət, bir oyanış baş qaldırırdı.

Köçərlinin rusdilli mətbuatda dərc edilmiş məqalələrinə nəzər yetirdikdə, istər rus, istər gürcü, istərsə də başqa millətlərin ədəbiyyat nümayəndələri ilə mehriban münasibətinin olduğunu görünür. Firidun bəyin məhsuldar yaradıcılıq dövrü əsasən Tiflisdə çalışdığı vaxtlara təsadüf edir. Belə ki, rusdilli Tiflis mətbuatı təkcə ziyalılarımızın yazılarını verməklə kifayətlənmir, eyni zamanda Azərbaycanda mədəni tərəqqi faktlarına laqeyd qalmır, öz oxucularını onlarla tanış edirdi. Rusdilli mətbuatda məqalələr dərc etdirən Firidun bəy xalqının sosial həyatında baş verən və günün aktual məsələlərindən məhs edən mövzulara toxunur və bu yolla da azərbaycanlıların problemlərini rusdilli oxuculara anladırdı. Rusdilli mətbuatda tez-tez məqalələr dərc etdirən Firidun bəy Köçərli əsasən xalqlar dostluöundan bəhs edən mövzuları işıqlandırmaqla, təlim-tərbiyə məsələlərinə toxunur və azadlığı, vətənpərvərlik və beynəlmiləlçiliyi təbliğ edirdi.

Azərbaycan dilində demək olar ki, çap olunan heç bir mətbuat orqanı yox idi. Azərbaycanlı ziyalıların çoxu yalnız rus dilində olan mətbuatda çıxış etməli olurdu. Lakin bu çıxışların təsiri hələlik çox az idi. Görkəmli inqilabçı Nəriman Nərimanov Azərbaycan ziyalılarının o vaxtlar rus mətbuatında çıxış etmələrini müsbət bir hal kimi qiymətləndirərək, eyni zamanda

başdan-başa savadsız və rus dilini bilməyən Azərbaycan əhalisi üçün bu çıxışların əhəmiyyətinin çox az olduğunu qeyd etmişdir(15.s.23).

F.Köçərlinin Gürcüstanla, gürcü ictimaiyyəti ilə əlaqəsi məsələləri ədəbiyyatşünaslıq elmimizdə olan, araşdırılan sahələrdən biridir və bu məsələ ilə əlaqədar söylənmiş hər bir fikir maraqlıdır. Bu baxımdan keçən əsrin 70-ci illərində Tbilisi Dövlət Universitetinin əməkdaşı Həsrət Omarişvilinin "Azərbaycan tədqiqatçı-pedaqoqu Köçərli və gürcü ictimaiyyəti("Skola datsxovreba" jurnalı, 1975, 7 saylı, səh.76-80) adlı məqaləsi diqqəti cəlb edir. Məqalədə F.Köçərlinin tələbəlik illərində Razikaşvili qardaşları ilə səmimi dostluq əlaqələri haqqında yeni maraqlı bir faktla qarşılaşırıq. F.Köçərli seminariyada oxuduğu illərdə Luka və Bacana Razikaşvili qardaşları da Qoridə təhsil alırdılar. Bunlardan Bacana və Tedo sonralar gürcü ədəbiyyatında görkəmli yer tutan yazıçılar kimi tanındılar, Luka isə, qeyd etdiyimiz kimi, Vaja Pşavela imzası ilə gürcü ədəbiyyatının korifeyləri sırasına daxil oldu. Bu üç qardaşla, xüsusilə Lika və bacana ilə F.Köçərlinin dostluğu adi olmayıb, yaradıcılıq əlaqələri və birgə mübarizə fonunda bərkiyən ideya və məslək dostluğu idi (14.№67).

Firidun bəy Köçərli hər bir işə vicdanla yanaşdığı kimi, dostluğa da möhkəm, sarsılmaz tellərlə bağlı olan biri idi. Elmlərə dərin həvəsi və marağı olan F.Köçərli tələbəlik illərində sevimli müəllimləri D.D.Semyonov, A.O.Çernyayevski, M.K.Kipiani, N.O.Lomauri və başqalarının rəhbərliyi altında elmləri ciddi öyrənir, yaradıcılıqla məşğul olurdu. Seminariyanı bitirdikdən sonra F.Köçərli artıq bir neçə əsərin müəllifi idi. Təbii ki, bu dostluğun Firidun bəy Köçərlinin yaradıcılığında müsbət təsiri olmuşdur.

O, Qori seminariyasında əmək fəaliyyəti dövründə görkəmli gürcü pedaqoqu və ədəbiyyatşünası N.O.Lomauri ilə





dostluq əlaqəsi yaratmış və bu dostluq F.b.Köçərli seminariyadan getdikdən sonrakı illərdə də davam etmişdir. Hətta N. O. Lomaurinin ölümündən çox təsirlənən ədib onun haqqında mətbuatda maraqlı bir yazı dərc etdirmişdir.

N. Lomouri (1852-1915) XIX əsr gürcü maarifinin görkəmli nümayəndələrindən biri, demokratik görüşlü ictimai xadim olmaqdan başqa, eyni zamanda, istedadlı bir nasir idi(13.s.87). F. Köçərli Lomaurini gürcü dilinin istedadlı bilicisi hesab edir, onun gözəl povest və romanlarını gürcü ədəbiyyatının bəzəyi adlandırırdı. F.b.Köçərlinin fikrincə kəndli həyatının duyğularını və kədərini, gürcü qadınlarının qəmli həyat tərzini heç kim Lomauri kimi ustalıqla qələmə almayıbdır. Lomaurinin gözəl xasiyyəti, nəcib ürəyi onu müasirləri arasında məşhurlaşdırmışdır. İstedadlı müəllim haqqında F.b.Köçərli yazırdı: "Как воспитатель и учитель Н. О. Ломаури был опытным педагогом, любящим отцом и большим знатоком детской души. В основе его отношений к воспитанию юношества лежала гуманность, немешенная одноко - ж разумной строгости и требовательности. Лучше просветители народа и даровитые писатели и поэты, как братья Разикашвили: "Важа Пшавеле", "Бачана" и др. являются учениками Н. О. Ломаури" (4. №88).

Bundan başqa Köçərli dostunun əziz xatirəsinə həsr etdiyi "Dost və müəllim N.O Lomourinin xatirəsi" adlı məqaləsində yazırdı: " Hələ bir az bundan əvvəl yerli gürcü şairi Akaki Seretelinin cənazəsini Qoriyə yola salarkən Nikolay Osifoviç gözləri yaşarmış halda aşağıdakı sözləri dedi: "Şvidobit"- (yəni əlvida) əziz və unudulmaz dost! Tezliklə başqa, gözəl bir dünyada görüşərik..." . Onun peyğəmbəranə dediyi sözlər düz çıxdı. O dost və müəlliminin ayrılığına dözə bilmədi və ardınca ora, gedər-gəlməzə getdi. Vətəndən uzaqda min bir əzaba qatlaşaraq çalışan və yaşayan F.b. Köçərli min bir insanın içərisindən

seçdiyi dostlarını itirməsini qəbul edə bilmirdi. Köçərli üçün ən əziz dostlarından biri, bəlkə də birincisi ona yaradıcılığında, əmək fəaliyyətində düzgün yol göstərən sevimli müəllimi A.O.Çernyayevski idi.

Şamaxıda doğulub orada da təhsil alan, bir müddət Ağsuda işləyən, sonralar isə Azərbaycanın şəhər və kəndlərini gəzərək seminariya üçün tələbə yığan A.O.Çernyayevski, Azərbaycan maarifinin tərəqqisi yolunda xeyli iş görmüş rus ziyalılarından biri idi. O, Azərbaycan dilində yaxşı danışır və yazırdı. 1883-cü ildə böyük rus pedaqoqu Uşinskinin təsiri altında Çernyayevskinin yazıb çap etdirdiyi "Vətən dili" dərsliyi uzun zaman məktəblərimizdə qiymətli tədris vəsaiti olmuşdur. Çernyayevski seminariyada on ildən artıq müfəttiş vəzifəsində işləmişdir (13.s.87).

Firidun bəy Köçərlinin seminariyaya daxil olmasında əməyi olan Çernyayevsiki ilə Köçərlinin arasında müəllim tələbə olmaqdan əlavə səmimi bir dostluq da yaranmışdır ki, bu dostluq Çernayevskinin vəfatına qədər davam etmişdir. Köçərli bacarıqlı tələbə, sonralar gözəl pedaqoq olmaqdan başqa həm də gözəl xüsusiyyətlərə malik insan idi. Onun insanlara olan sevgisi, dostluqda mərdliyi, mehribançılığı və s. bu kimi xüsusiyyətləri F. Köçərli yaradıcılığında özünü göstərir və bir daha onun özünün həqiqətən gözəl insan olduğunu sübut edir. Nahaq deyildir ki, araşdırmalar zamanı Köçərlini maarifpərvər, vətənpərvər adlandırmaqdan əlavə, həm də insanpərvər adlandırıldığını görmək olur.

Görkəmli alim F.b.Köçərli Azərbaycan ədəbiyyatşünaslığında öz sözünü demiş peşəkar sənətkarlardan olub. Onun elmi və ictimai fəaliyyəti XX əsr Azərbaycan ədəbiyyatı və qardaş xalqların görkəmli sənətkarlarının yaradıcılığı ilə sıx bağlı idi. O, bu sahədə gələcək nəsillərin inkişafı üçün cığır açmışdır. Köçərli Azərbaycanın dilinin, sözünün, ədəbiyyatının və tarixi-





nin vurğunu idi. Bu səbəbdən o başqa xalqların ədəbiyyatını öyrənərək öz ədəbiyyatımız ilə müqayisə edir, bütün hallarda isə bir tənqidçi mövqeyindən çıxış edirdi.

Köçərli yaradıcılığı dövründə bir alim kimi xalqın tərəqqisinə çalışmış, qabaqcıl rus elminin, eləcə də rus yazıçılarının əsərlərindən nümunələri öyrənmiş, onların ədəbi fəaliyyətindən bəhrələnmişdir. Məsələn, F.b.Köçərli rus ədəbiyyatında olan klassik şair və yazıçılarının çoxu haqqında geniş məlumata malik idi, lakin onun fikrincə Puşkin və Qoqol rus ədəbiyyatına yeni, qabaqcıl ideyalar gətirən, rus ədəbiyyatı tarixində əvəzsiz xidmətləri olan sənətkarlar idilər. Bu xüsusiyyətlərinə görə onları başqalarından fərqləndirən F.b.Köçərli "Qoqol" adlı məşhur məqaləsində yazırdı: "Rusların milli ədəbiyyatının binasını qoyan Puşkin və Qoqol olubdur"(3.s.84). O, bu iki qüdrətli ədibin rus ədəbiyyatı tarixində misilsiz xidmətləri olduğunu qeyd edirdi. Tənqidçinin Puşkin və Qoqoldan əvvəl yaşamış, yaxud onun müasiri olmuş rus yazıçı və şairləri haqqında geniş məlumatı var idi. F.b.Köçərli sadəcə Puşkin və Qoqolun rus ədəbiyyatına yeni fikirlər gətirdiklərini, rus ədəbiyyatı tarixində bu ideyaların carçısı olduqlarını qiymətləndirirdi. F.b.Köçərli "Qoqol" adlı məqaləsini məhz bu böyük rus sənətkarına olan məhəbbətinin təzahürü kimi yazmış və 1909-cu ilin 18,19 mart tarixində "Tərəqqi" qəzetinin 57, 58- ci nömrələrində məqalələr dərc etdirmişdir. O, Qoqola həsr etdiyi məqaləsində daha sonra yazırdı:" Qoqolun təbiət və xasiyyətində hər bir şeyin küphünə göz yetirmək, mahiyyətinə baxmaq və hər şeyin gülünc tərəfini və istehzaya layiq səmtini görüb-göstərmək vardır. Rus ədiblərindən heç biri Qoqol kimi adamların üstə zərifanə gülmür və oxucuları güldürmür. Qoqolun gülməyi qəribə bir gülməkdir"(11.s.203).

F.b.Köçərli Puşkinin təbini durbinə, Qoqolun təbini isə zərrəbinə bənzədirdi. Yəni Puşkin durbin kimi məişətin uzaq yerlərini gözəl, işıqlı göstərdiyi halda, Qoqol isə gözümüzün

önündə həyatımıza daxil olan həşərat və mikrobları zərrəbin şüşəsi altında böyüdüb göstərirdi.

Firidun bəy rus və Azərbaycan xalqları arasında səmimiyyət, dostluq münasibətlərinin yaranması və iki ayrı-ayrı xalqları biri-birinə yaxından tanıtdırmaq üçün etdiyi tərcümə əsərlərinin də böyük rolu olacağını düşünürdü və buna görə A.S.Puşkin, M.Y.Lermantov, A.V.Koltsov, A.P.Çexovun şeir və hekayələrini Azərbaycan dilinə tərcümə edir, rus şair və nasirlərinin əsərləri ilə Azərbaycan oxucularını məlumatlandırırdı. F.b.Köçərli yorulmaq bilmədən çalışır, gələcək nəsillər üçün bir iz qoymağa çalışırdı. Onun yaşadığı dövrü çətin dövr adlandıranlar heç də səhv etməyiblər. Çar hökumətini devirmək üçün gizli iş aparan qüvvələrin yürütdükləri siyasət əlbəttə ki, Azərbaycan üçün də xeyli çətinliklər yaradırdı. Hər kəsə qarşı olan şübhələr sözsüz ki, millətin aparıcı dayağı hesab edilən ziyalı təbəqələr üçün daha çətin idi. Çünki, millətinin xoşbəxtliyi naminə çalışan, onun azad və müstəqil yaşaması üçün bir çox işlər görən insanlar, Azərbaycanı sevməyən qüvvələr üçün qorxulu idilər.

Firidun bəy Köçərli bir çox müasirləri kimi azad dünya aşiqi idi. O çox gözəl anlayırdı ki, azadlıq olan yerdə insanlıq labüddür. Necə ki, M.Ə.Sabirin dediyi kimi:

*Kim ki, insanı sevər aşiqi hürriyyət olur,*
*Bəli, hürriyyət olan yerdə də insanlıq olur.*

Rus dilini mükəmməl bilən F.b.Köçərli müsəlman məişətindən, onların həyat tərzindən, aktual mövzularda qələmə aldığı məqalələrlə rus mətbuatında fəal iştirak edirdi. O, 1895-ci ildə "Новое обозрение" qəzetində "Azərbaycan komediyaları" əsərini çap etdirmişdir(1.s.337). Bundan başqa O, Azərbaycan folklor nümunələrini toplayaraq rus mətbuatında dərc etdirir və rusdilli oxucuları qədim Azərbaycan torpağının mədəniyyəti





ilə tanış edirdi. Mənbələrdən məlumdur ki, Firidun bəy topladığı folklor nümunələrini 1908-ci ildə başa çatdıraraq, "Şifahi xalq yaradıcılığı" adı ilə çap etdirməyə çalışmış, lakin maddi imkansızlıq üzündən bunun nəşr ediməsi mümkün olmamışdır. Bu barədə "Zaqafqazskoye obozreniye" qəzetinin 1908-ci il 28 oktyabr nömrəsində məlumat verilmişdir.

Firidun bəy Köçərli folklor nümunələrinin toplanmasından əlavə klassiklərin yaradıcılıqları ilə maraqlanır və onların əksəriyyətinin yaradıcılığına həsr edilmiş məqalələrlə mətbuat səhifələrində çıxışlar edirdi.

Bu silsilə məqalələrində F.b.Köçərli M.F.Axundovun yaradıcılığının xəlqiliyindən, onun milli xarakterindən, Azərbaycan dramaturgiyasının inkişafındakı rolundan bəhs edir və rusdilli əhalini Azərbaycan ədəbiyyatı haqqında məlumatlandırırdı(10.s. 443).

Realist ədəbiyyatın ehtiraslı carçısı adlandırılan F.Köçərli görkəmli ədəbiyyat nümayəndələrinin yaradıcılığına həsr edilmiş məqalələrində tanınmış şəxsiyyətlərin yaradıcılıq xüsusiyyətlərindən bəhs edirdi. "Tatarskiyi komedii" məqaləsində o, Azərbaycan dramaturqlarından M.F.Axundovun, N.Vəzirovun, N.Nərimanovun, H.Vəzirovun və başqalarının əsərlərinə toxunmuş, onların yaradıcılıq xüsusiyyətlərini açmağa çalışmışdır.

Hələ, 1903-cü ildə Tiflisdə nəşr edilən "Literatura Azerbaydjanskix tatar" kitabında o milli ədəbiyyatımızın yaradıcılarından hesab etdiyi korifeylərin həyat və yaradıcılığını işıqlandırmış və bu əsər Azərbaycan ədəbiyyatının ən qiymətli əsəri kimi dəyərləndirilmişdir. Bu yolla Azərbaycan ədəbiyyatını təbliğ edən Firidun bəy Köçərli daha geniş əsərlər yaratmaq haqqında düşünür və yorulmadan çalışırdı.

Məlumdur ki, Firidun bəyin bu əsəri nöqsansız deyildi. Azərbaycanın ədəbiyyat tarixində ilkin addım olan əsərin nöqsanları olsa da, sonradan Firidun bəyin "Azərbaycan ədəbiyyatı

tarixi materialları" kimi sanballı əsərinin meydana gəlməsinə şərait yaratdı.

F.b.Köçərli hətta M. F. Axundovu Azərbaycan ədəbiyyatında da yetərincə tanınan dünya şöhrətli fransız yazıçısı Molyer və rus ədibi Qoqol kimi ustad sənətkarlarla bir sırada tuturdu. F.b.Köçərli rus ədəbiyyatı nümunələrindən də kiçik şeir parçalarını seçərək tərcümə edir və dərs kitablarına salırdı. Puşkinin "Torçu və balıq", Lermantovun "Üç xurma ağacı", Koltsovun "A kişi niyə yatıbsan?" əsərlərindən etdiyi tərcümələr F.b.Köçərlinin fikrincə o dövr üçün çox böyük əhəmiyyət daşıyırdı. Çətinliklər hesabına başa gələn və ana dilində mətbəələr olmadığından yuxarıda adları sadalanan tərcümə əsərlərini F.b.Köçərli nəhayət ki, Baxçasarayda, İrəvanda və Şuşada kitab halında nəşr etdirə bilir. Bu müəlliflərin əsərlərindəki xalqlar dostluğu, vətəndaşlıq borcu, əməyə məhəbbət təmsil olunmaqla yanaşı, vəzifədən istifadə, yaltaqlıq, yalan danışmaq, məmurlardan çəkinmək kimi cəhətlər də F.b.Köçərli üçün xüsusi maraq doğururdu.

F.b.Köçərli həmişə Azərbaycan və rus xalqlarının dostluğu məsələsini gündəmə gətirərək, bunun bu iki xalq arasında olduqca vacibliyini və gələcəkdə də ancaq belə əlaqələrin Azərbaycan xalqına xeyir verəcəyini xatırladırdı. Ümumiyyətlə, F.b.Köçərli rus ədəbiyyatının yaxşı bilicilərindən idi. O, hər nədən yazırdısa rus ədəbi və ictimai fikrini yaddan çıxarmır, tez-tez oradakı faktlara müraciət edir, müqayisələr aparır, ondan öyrənir və öyrənməyə də çağırırdı. Bir ədəbiyyat tarixçisi kimi o, Puşkin, Lermantov, Qoqol, Turgenyev, Nekrasov, Tolstoy, Çexov, Qorki və s. haqqında gözəl fikirlər söyləmiş və bəzilərinə isə ayrıca məqalələr həsr etmişdir(9.s. 454).

F.b.Köçərli zəngin rus ədəbiyyatının Tolstoy, Puşkin, Nekrasov, Lermantov, Çexov, Qoqol və s. kimi böyük şəxsiyyətlərini həm özlərini və həm də onların əsərlərini yüksək dəyərləndirirdi. Bu dövrdə klassik rus ədəbiyyatından tərcümələrin nəşri





Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafında mühüm mərhələ təşkil edirdi.

XIX əsrin sonlarına doğru ədəbiyyatın yeni inkişaf mərhələsi hesab edilən tərcümə işi artıq geniş vüsət almağa başladı. Beləki, A.S.Puşkinin, M.Y.Lermontovun, İ.A.Krılovun, L.N.Tolstoyun və başqa rus yazıçılarının əsərləri Azərbaycan dilinə tərcümə edilərək oxucularaın istifadəsinə verilirdi. F.b.Köçərlinin də M.Y.Lermantovdan tərcümə etdiyi "Üç xurma ağacı" və M.Y.Koltsovdan tərcümə etdiyi "A kişi niyə yatıbsan?" kitabları 1896-cı ildə oxucuların istifadəsinə verilmişdir. Hələ, 1892-ci ildə F.b.Köçərlinin "Torçu və balıq" nağılı 1000 nüsxə tirajla çap edilmişdir. O dövr üçün belə tələbatın olması fərəhləndirici amillərdən idi.

F.Köçərlinin müasirlərindən olan S.M.Qənizadənin, Məhəmmədhəsən Əfəndiyevin, Əhmədbəy Cavanşirin, Rəşidbəy Əfəndiyevin, Xan Qaradağinin rus ədəbiyyatından Azərbaycan dilinə etdikləri tərcümələr dövrün mühüm hadisəsi kimi diqqəti cəlb edir. Azərbaycan ədiblərinin yazdıqları kitabların illərlə nəşr edilə bilməməsində yaranan çəkinliklər bir qədər azalmışdı. Azərbaycanın Rusiya ilə birləşməsi maarif və mədəniyyətin başqa sahələrində olduğu kimi kitab nəşrinə də öz müsbət təsirini göstərdi. Təsadüfi deyildir ki, Şimali Azərbaycanda kitab nəşrinin başlanması və inkişafı Rusiya ilə Azərbaycanın birləşməsindən sonrakı dövrünə aiddir(12.s.35).

Rusdilli mətbuatda mütəmadi məqalələr dərc etdirən F.b.Köçərli rus ədiblərinin həyat və yaradıcılığından danışarkən ən çox Puşkin ilə Qoqolun sarsılmaz dostluğunu xüsusi dəyərləndirərək hər iki ədibin millətini sevdiyinə, millətinin maariflənməsi yolunda çəkdiyi əziyyətinə görə onları alqışlayırdı. Köçərli öz xalqını həqiqi və dərin məhəbbətlə sevən hər bir millətin nümayəndəsinə həsəd aparacaq dərəsədə təəccübünü gizlətməyirdi. Çünki, özü də bu qəbildən olan insanlardan idi. 57

illik ömrünün 40 ilə yaxın bir dövrünü millətinin maariflənməsinə həsr edən ədib məhz bu xüsusiyyətlərinə: vətən, millət, xalq sevgisinə görə Azərbaycan ədəbiyyatında silinməz iz qoya bildi.

Köçərli rus klassiklərindən qraf Lev Tolstoyun əsərlərində sanki bir Azərbaycan ruhu olduğunu deyirdi. O yazırdı: "Dünyada bəla nədən törəyir?" əsərində Tolstoyun bir maralın dilindən söylədiyi sözləri oxuyanda bizim biçarə müsəlmanların halı yadıma düşdü. Maral deyir: "Əgər ürəkdə qorxu olmasa hər şey yaxşı olar, hər iş öz yolu və qaydası ilə gedər. Hərgah böyük, yırtıcı heyvanlardan bizim üzərimizə hücum edəni olsa, bacararıq qaçıb ondan xilas olaq, çünki Allah bizə qaçan ayaqlar veribdir. Xırda heyvanlar da bizə zərər verə bilməz. Onların dəfi üçün Allah bizə buynuzlar mərhəmət edibdir.Amma nə eyləmək ki, canımız doludur qorxu ilə və bu qorxu bizə macal vermir ki, Allah verdiyi alat və əsbəb ilə dəfi-məzərrət edək və nəfsimizi xof-xətərdən qurtaraq. Balaca bir səs eşidəndə bədənimizə lərzə düşür, yarpaq kimi tir-tir əsirik, ürəyimiz döyünüb az qalır yerindən çıxsın, qəribə bir hala düşürük"(11. s. 205).

Həqiqət bu idi. Çarizmin məngənəsində əzilən millətinin hər bir təqibdən, təzyiqdən və həbsdən qorxaraq susması ziyalılarımızın çoxu kimi Firidun bəyi də narahat etməyə bilməzdi. Artıq millətdə bir hərəkət, oyanış hiss olunurdu. Köçərlinin millətinin gələcəyi haqqında düşündüklərinin gerçəkləşdiyini duyur, bu olanların azadlıq uğrunda mübarizə aparmağın artıq zamanının yetişdiyinə bir işarə, bir eyham idi.

F.b.Köçərlinin qardaş xalqların ədəbiyyatına olan marağı və bu xalqların mədəniyyətinə, təhsilinə, adət-ənənəsinə, məişətinə, sosial həyatına həsr etdirdiyi məqalələri rusdilli mərbuatda dərc edilmişdir. Bu məqalələrin dərc olunduğu aiyahıda "Kafkaz", "Zaqafqazye", "Kaspi", "Novoe obozreniye", "Tiflisski listok" və s. dövrün məşhur mətbuat orqanlarının adı vardır.





Köçərlinin Bakıda rus dilinə çıxan "Kaspi" qəzetində məşhur gürcü pedaqoqu Yakov Semyonoviç Qoqebaşvili haqqında da maraqlı bir yazısı dərc olunmuşdur. Bir sıra məşhur dərsliklərin müəllifi olan Qoqebaşvili, eyni zamanda, Gürcüstanda uşaq ədəbiyyatının banilərindən sayılırdı. Köçərli milliyətindən asılı olmayaraq xalqına, millətinə vicdanla xidmət edən, can yandıran hər bir kəsi xüsusi hörmət və minnətdarlıqla yad edirdi. Bu səbəbdən onun gürcü xalqının dəyərli oğlu hesab etdiyi Qoqebaşvili haqqında da gözəl xatirlər qələmə almışdır. Köçərli qeyd edirdi ki, "Bizə elə gəlir ki, gürcü ziyalılarından heç biri öz xalqının maarif və savadlanmasına mərhum Qoqebaşvili qədər kömək etməmişdir"(11. s.278).

F.b.Köçərli rus klassiklərinidən A.S.Puşkini əsl sənətkar hesab edirdi. Hətta Azərbaycan şairlərindən S.Ə.Şirvanini ona oxşadıb, onun da Puşkin kimi öz zəmanəsinin hər bir həyati hadisəsinə və məsələsinə çox tez cavab verdiyini yazırdı(10.s.132).

Ümumiyyətlə, F.b.Köçərlinin rus yazıçıları içərisində ən çox bəyəndiyi və təbliğ etdiyi Puşkin və Qoqol olubdur. Ədib Puşkin haqqında tez-tez xoş sözlər söyləmiş, Qoqol haqqında isə ayrıca olaraq məqalə nəşr etdirmişdir. Tənqidçinin Puşkin və Qoqoldan əvvəl yaşamış, həmçinin onların müasiri olan digər rus şair və ədibləri haqqında geniş məlumatı var idi. Bununla belə o, Puşkin və Qoqolun rus ədəbiyyatına yeni, qabaqcıl ideyalar gətirdiklərini, sənətkarlıq bayrağını çox yüksəyə qaldırdıqlarını duyur, bu iki qüdrətli ədibin rus ədəbiyyatı tarixindəki əvəzsiz xidmətlərini dərindən dərk edirdi (3. s. 83).

F.b.Köçərli nəinki rus ədəbiyyatına və yaxud Avropa ədəbiyyatına, ümumilikdə bütün dünya ədəbiyyatına maraq göstərirdi. Ədibin ədəbiyyatda ən çox önəm verdiyi orijinallıq idi. Bu cəhətdən də o, Qoqolun əsərlərini daha canlı, daha təbii hesab edirdi. O "Qoqol" haqqındakı məqaləsində rus yazıçısının məişətimizdə olan məzəli, gülməli söhbətlərin saxta olmadığını,

təbii olduğunu qeyd edərək yazırdı: "Qoqol pərdənin altını açıq görür və onu zərifanə qalxızıb, altında olan əcayibat və qərayibata baxıb, nazikanə gülür və bizə bizə göstərib bizi də güldürür. Amma Qoqol acı, ürək yandırıcı gülüşü ilə gülür, zahirdə güldüyü adamların halına batində ağlayır"(3. s. 87).

Böyük rus tənqidçisi Belinski kimi F.Köçərli də Qoqolu qüdrətli xalq yazıçısı hesab edirdi. F.b. Köçərli rus ədəbiyyatının korifeyləri sayılan L.N.Tolstoyu, A.P.Çexovu eyni məhəbbətlə sevirdi və onlar haqqında xüsusi ehtiramla danışırdı. A.P.Çexovun vəfatı münasibəti ilə yazdığı məqaləsində oxuyuruq: "Rusiyanın ən məşhur ədibi və sevgili münşişi hesab olunan Anton Çexovun bu iyul ayının ikisində vəfat etməsi cəmi mərifət əhlinəbilümum və rus üdəba və şüarasına, bilxüsus hüznəvar bir hadisə olduğu qəzetlərdə dərc olunan fəqərələrdən görünür. Çexov təbii, mətin, qələmi ötgün və dili şirin bir ədibi-binəzər idi. Onun əsərlərinin çoxusu Avropa dillərinə tərcümə olunubdur". Onun kitabları artıq şövq və həvəs ilə oxunur.(11. s.84).

F.b.Köçərli rus mətbuatı ilə həmişə sıx əlaqə yaratmağa çalışırdı. Onun rus və rusdilli ədəbiyyatçılar içərisində dostları çox idi. O, hələ Qori Müəllimlər Seminariyasında çalışdığı müddətdə tanınmış gürcü pedaqoqu və ədəbiyyatşünası N.O.Lomouri ilə tanışlığı möhkəm dostluğa çevrilmişdi. Lomourinin gürcü dilini gözəl bilməsi, gürcü ədəbiyyatına vurğunluğu F.b.Köçərlidə ona qarşı hörməti artırmışdır. Hansı millətin vətəndaşı olmağından asılı olmayaraq hər bir kəsin Vətəninə, dilinə, kökünə bağlılığı F.b.Köçərli üçün öndə dururdu. Görkəmli yazıçı və pedaqoq olan Lomouri gürcü ədəbi fikir tarixində mühüm yer tutan xalqçılar cərəyanına mənsub olmuş, kəndlilərin həyat və məişətini əks etdirən hekayələr yazmışdır. O əmək fəaliyyəti müddətində təlim-tərbiyə işlərində dönüş yaratmağa çalışır və köhnə tədris üsullarına qarşı mübarizə aparırdı.

F.b.Köçərlinin vətən eşqiylə yanan ürəyi olduğu üçün bu





qəbildən olan insanlara xüsusi rəğbət və hörmət bəsləyirdi. Hər millətin dininin, dilinin, ədəbiyyatının özünə nə qədər əziz olduğunu anlayan Köçərli öz millətinin ədəbiyyatı haqqında olan fikirlərini başqa millətlərdən olan yazıçı və şairlərə anlatmağa səy göstərir və eyni zamanda Azərbaycan ədəbiyyatının görkəmli klassiklərini rusdilli mətbuat vasitəsi ilə başqa xalqların oxucularına tanıtdırmağa çalışırdı. F.Köçərli dillərarası əlaqələri görürdü və buna düzgün mövqedən yanaşırdı. O, yaxşı bilirdi ki, xalqlar arasındakı müxtəlif tipli əlaqələr, onların dilləri arasında da əlaqələr yaradır, bir dilin lüğəti başqa dillərdən alınan sözlər hesabına zənginləşir. Firidun bəy Köçərli rusdilli mətbuatda dərc etdirdiyi məqalələrində Azərbaycan xalqının güzəranını, həyat şəraitini, sosial vəziyyətini işıqlandırmaqla millətinə xidmət göstərməyə çalışırdı. Daim dil, fikir, mətbuat azadlığı kimi mühüm ictimai-siyasi məsələlər Firidun bəy Köçərlini düşündürürdü.

F.b.Köçərli rusdilli mətbuatın həyatimıza müsbət təsirinin, köməyinin, idraki qüvvəsinin, xalqın həyatına yaxınlılığının, azadlıq uğrunda aparılan mübarizənin və bu yolda onu narahat edən məslələrin həllinin rusdilli mətbuatla əlaqəsində, həmçinin rus ədəbiyyatına müraciət etməsində görürdü. Bəlkə də onun yaradıcılığında, dünyagörüşünün inkişafında Azərbaycan və yaxın Şərq mədəniyyəti, eləcə də mütərəqqi rus və Avropa mədəniyyətinin bu səbəbdən mühüm rolu olmuşdur. O dövr ziyalılarımızın demək olar ki, hamısı rus dilində və Avropa təhsili görmüş ziyalılar idi. Bu təbəqənin adamları əsasən rusdilli mətbuatda çıxış edir və ölkədə baş verən hadisələri rus mətbuatında işıqlandırırdılar. Firidun bəyin yaradıcılığı Tiflislə bağlı olduğundan və Zaqafqaziya dövrü mətbuatının çoxu Tiflisdə nəşr edildiyindən təhsilli ziyalılarımız rusdilində yazmağa üstünlük verirdilər. Tiflis rus mətbuatında çıxış edən görkəmli Azərbaycan xadimlərinin məqalələri Bakıda fəaliyyət göstərən mətbuat orqanlarına

və bu orqanlarda çalışan əməkdaşlara təsir göstərməyə bilməzdi. Görkəmli ədəbiyyat və mədəniyyət xadimlərindən F.Köçərli, H.Minasazov, S.Ağamalıoğlu, E.Sultanov və başqaları Tiflisdə çap olunan mətbuatla sıx əlaqəsi olan qələm sahibləri idilər.

F.b.Köçərlinin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında yeni bir dövr başlamışdır. Məlumdur ki, XX əsr Azərbaycan ədəbiyyatı məfkurə mübarizəsinin genişləndiyi, ədəbiyyatda iki ədəbi cəbhənin döyüşdüyü, mübarizə apardığı, demokratik və inqilabi ədəbiyyat olmuşdur.

Ədəbiyyatda tarixi dövr adlandırılan bu dövr istər publisistikada, istər dramaturgiyada, istərsə də poeziyada, istərsə də bədii nəsrdə xüsusi yaradıcılığı olan insanların adı ilə bağlıdır. Bu siyahının ədəbiyyatşünaslıq bölməsi isə məhz F.b.Köçərlinin adı ilə bağlıdır. F. Köçərli milli ədəbiyyat tarixində müstəsna xidmətləri, zəngin dünyagörüşü, ədəbi-nəzəri irsi və çoxcəhətli fəaliyyəti ilə həmişə diqqət mərkəzində olubdur.

Maarif və mədəniyyətimizin inkişafında, ədəbi tənqidin formalaşmasında Firidun Köçərlinin öz mövqeyi, öz yolu olmuşdur. Onun Azərbaycanda çıxan rusdilli mətbuat səhifələrindəki fəaliyyəti təqdirəlayiqdir. Beləki, "Azərbaycan tatarlarının ədəbiyyatı" əsəri bu cəhətdən daha qiymətlidir. Azərbaycanın dahi klassiklərinin həyat və yaradıcılığından bəhs edən bu əsər rusdilli oxucuların nəzər-diqqətini cəlb edə bilmişdir. Eyni zamanda ədəbi mühit, ədəbi inkişafın xarakteri, sinfi mübarizə və azadlıq hərəkatı milli mədəniyyət tənqidin mövqeyini müəyyən edən amillərdən idi. F.Köçərli rusdilli mətbuatla müntəzəm əlaqə saxlayırdı.

F.b.Köçərli 1903-cü ildə "Каспий" qəzetindəki felyetonunu da məhz M.P.Vaqifə həsr etmişdir. "Из жизни Адербайджанскаго поэта Вакифа" məqaləsində F.Köçərli yazırdı: "Один из корифеев литературы Азербайджанских татар Молла Панах Вакиф, еще при жизни, благодаря





стихотворным произведением своим, пользовался большой известностью не только Карабагском ханстве, но почти во всех вилаэтах Адербайджана. При его талант и восточную ученость сложилось поговорка: «хар окуян - Молла Панах олмаз», то-есть но всякий, кто занимается наукой, сделается Молла Панахом. Современные ему поэты вь своих произведениях восхвалили ум, красноречие, поэтический талант и другия достоинства Вакифа" ( 2.№ 262).

M. P. Vaqif haqında çox yüksək fikir söyləyən və onu yüksək dəyərləndirən F.b.Köçərli onun xalq üçün anlaşıqlı, sadə bir dildə yazıb, yaratmağını, fars-ərəb sözlərinin köməyinə qaçmadığını onun haqqında yazdığı bu məqaləsində bir daha xatırlatmışdır.

Qarabağ xanı İbrahim xan M.P.Vaqifin şerinə, qəzəlinə olan hörmət və məhəbbətinə görə onu sarayının vəziri təyin edərək və özünün də ən yaxın məsləhətçisi hesab etmişdir. "Особенно почитал ум и талант ученаго Моллы и поэта Ибрагим хан Карабагский, который впоследствии на столько приблизил его к свое, что сделал Молла Панаха своим визирем и советником, и без предварительнаго совещания с ним ничего особеннаго не пред принимал и ни к чему важному не приступал"(2. № 262 ).

Azərbaycanın ədəbiyyat və mədəniyyət xadimləriilə birlikdə F.b.Köçərli də təkcə Azərbaycanın deyil, bütünlüklə Şərq xalqlarının vəziyyətindən bəhs edən məqalələr dərc etdirir və rusdilli oxucuları müsəlmanların həyatında baş verənlərlə tanış etməyə çalışırdı. Çar üsul-idarəsinin insanlığa yaraşmayan xüsusiyyətlərinin müsəlmanlara tətbiq edilməsi ziyalılar tərəfindən qəbul edilməz olduğundan, onlar bu cür mövzulara müraciət edərək insan haqlarını müdafiə edirdilər. Onlar çalışırdılar ki, cəhalət və nadanlığın girdabında boğulan milləti yuxudan oyada bilsinlər. Eyni zamanda müdafiəsiz qalan Azərbaycanın başqa

millətlər tərəfindən tanınmasına, çoxsaylı kütlələrini bu xalqlar haqqında məlumatlı olmasına, çarizmin yalançı vətənpərvərliyinin və humanizminin ifşasına nail ola bilsinlər.

Ziyalıların qarşıya qoyduqları əsas vəzifə gəncliyi maariflәndirmək, onları əsrin tələbləri səviyyəsində tərbiyələndirmək, həmçinin rus və dünya ədəbiyyatının mütərəqqi ənənələrini mətbuat vasitəsi ilə Tiflisdə yaşayan azərbaycanlılara çatdırmaq idi. Bu baxımdan Firidun bəy Köçərlinin əməyi daha diqqətəlayiq olubdur. Firidun bəy həyatını Tiflis mühiti ilə bağladığından rus və Zaqafqaziya ədəbiyyatını ən çox təbliğ edən sənətkar idi. O, Azərbaycan və gürcü ədəbiyyatının bir-biri ilə sıx əlaqəsindən bəhs edən, habelə gürcü ədəbiyyatının biliciləri hesab edilən A.Sereteli, B.Pşevala, Lomauri, Çavçavadze və başqaları haqqında yazır, bu yolla da Azərbaycan oxucularını məlumatlandırırdı. Gürcü yazarları da gürcü mətbuatında da Azərbaycan nağıl və dastanlarından nümunələr verirdilər. Gürcü mətbuat orqanları Azərbaycan xalq yaradıcılığına, yüksək qiymət verirdi. Bütün bunlar F.b.Köçərli tərəfindən dəyərləndirlir və o, millətin fədakar oğlu kimi gördüyü işləri Azərbaycanın tərəqqisində atılan addım hesab edirdi.

Firidun bəy Köçərli ədəbiyyat vurğunu idi. O, ədəbiyyatı dərindən duyur, onun zənginləşməsi yolunda çalışırdı.

Xüsusi ilə məktəb yaşlı uşaqları sevindirməyi vacib hesab edən F.b.Köçərli tez-tez müxtəlif şair və yazıçıların əsərlərinə müraciət edirdi. O, bu cəhətdən də L. N. Tolstoyun əsərlərini daha çox bəyənirdi. Çünki L. N. Tolstoyun yaradıcılığında uşaqlar üçün yazılmış hekayələr həm sayca çox idi, həm də xüsusilə maraqlı idi. F.b.Köçərli Tolstoyun cəmi 7 cümlədən ibarət olan «Bəsirətül - ətfal» hekayəsini əslinə uyğun halda tərcümə edərək, "Vətən dili"nin (I hissə) VI nəşrinə salmışdı. Sonralar bu hekayə dərsliklərdə dəfələrlə çap olunmuşdur( 7.s.180).

XX əsrin görkəmli ədəbiyyatşünası və tənqidçisi olan





F.b.Köçərli dünya şöhrəti qazanmış maarifçi-realist yazıçı Vissarion Qriqoryeviç Belinskinin yaradıcılığı ilə də maraqlanmış və onun irsi ilə yaxından tanış olmuşdur. F.b.Köçərlini Belinskini yaradıcılığında ən çox özünə cəlb edən onun o zamankı qabaqcıl adamlarını düşündürən, məşğul edən, həyəcanlandıran çox mühüm siyasi-ictimai, fəlsəfi və estetik məsələləri inqilabi demokratik cəbhədən işıqlandıran əsərlərin müəllifi olması idi. O hələ 1903-cü ildə "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı əsərində Belinskini rus ədəbiyyatının korifeylərindən biri kimi oxuculara təqdim etmişdir.(8.№ 6).

F.b.Köçərlinin müasirləri içərisində onun yazılarına ziddiyyətli münasibət bəsləyənlər də olurdu. Hətta rus dilində yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" kitabı o dövrün bir çox ədəbiyyatçıları tərəfindən birmənalı qarşılanmırdı. Məsələn Əli Nazimin, Hənəfi Zeynallının, Mehdi Hüseynzadənin, Mustafa Quliyevin bu kitab haqqında fikirləri müəyyən dərəcədə ziddiyyətli idi. Əli Nazim F.b.Köçərlinin rus dilində yazmış olduğu "Azərbaycan tatarlarının ədəbiyyatı" əsərinin "türk oxucularına büsbütün naməlum və yabançı" olduğunu, "Azərbaycan ədəbiyyatı tarixi materialları"nın isə "təsviri xronoloji məcmuədən uzaq getmədiyini", "ancaq material zənginliyi və müxtəlifliyi nöqteyi-nəzərindən qiymətli olduğunu" iddia edərək bu qənaətə gəlir ki, "Azərbaycanda tənqidin, müəyyən ictimai faktor olaraq ancaq Aprel inqilabından sonra doğduğunu söyləmək lazım gəlir". Cəmiyyətin bütün sinif və zümrələrində belə bir ümumi fikir yaranmışdır ki, artıq tənqidsiz keçinmək mümkün deyil, hər şeyə tənqidi yanaşıb onun yaxşı və pis tərəflərini meydana çıxarmaq lazımdır. XX əsr Azərbaycan ədəbi mühitində tənqidin məqsəd və vəzifələri haqqında müəyyən fikir var idi və yeni ədəbi, tarixi şərait bunun yüksəlişi üçün daha əlverişli imkanlar yaratmışdı (9. s. 66).

XX əsr Azərbaycan ədəbi tənqidinin görkəmli siması olan Firidun bəy Köçərli ədəbiyyatda olan inkişafı görürdü.

Qeyd etmək lazımdır ki, F.b.Köçərliyə bəzi insanlar tərəfindən birtərəfli münasibət hər zaman davam edibdir. Lakin bütün bunlara baxmayaraq onun tənqidə münasibəti müsbət olub. Sonralar Köçərlini burjua alimi kimi qələmə verənlər də meydana çıxanlar da oldu ki, bu da onun bir müddət tədqiqatdan kənarda qalmasına səbəb oldu. "Kaspi" qəzetinin uzun müddət redaktoru olmuş Ə.Topçubaşov F.b.Köçərliyə qarşı edilən bu təzyiqləri nəzərə almayaraq, onun "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı əsərini öz məqaləsində alqışlamış və bu əsəri Azərbaycan ədəbiyyatının yaradılmasında ilk müvəffəqiyyətli addım saymışdır.

Köçərli mətbuatda dərc olunan yazılara daha çox diqqət yetirirdi və o dövr üçün kitab almağın maddi tərəfdən çətin olduğunu, yoxsul təbəqənin onu almaq iqtidarında olmadığını gözəl anlayırdı. Bu cəhətdən də o gündəlik mətbuatda yazılar dərc etdirməyi daha məqbul hesab edirdi. Rusdilli qəzetlərlə mütəmadi əlaqə saxlayan ədib millətinin maariflənməsinə mətbuat vasitəsi ilə nail olmağa çalışırdı. O, boş dayanmırdı. Müəllimlik etməklə bərabər, folklorumuzun araşdırılması ilə məşğul olur, publisist məqalələr yazır, kitab nəşr etdirir, dərsliklər hazırlayırdı. Bütün bu işlərə vaxtını çatdıran Köçərli bəzən vaxtın azlığından şikayət edərək daha çox iş görməyin vacib olduğunu qeyd edirdi. Tənqidçilik onun işinin əsasını təşkil edirdi. Bu qədər çoxsahəli işə böyük əmək sərf edən Köçərli, işinə məsuliyyətli yanşdığı üçün çalışdığı hər bir sahədə böyük nüfuza yiyələnə bilirdi.

F.b.Köçərli Azərbaycan ədəbi tənqidinin fəal tədqiqatçılarından idi. XIX əsrin 80-ci illərindən başlayaraq Köçərlinin yaradıcılıq fəaliyyətində Azərbaycan ədəbi tənqidi tarixində, xüsusən realizmin estetik əsaslarının işlənməsi sahəsində yeni bir səhifə açılır. O, rusdilli mətbuat orqanı olan "Kaspi", "Tiflisski listok", "Otqolosski", "Novoe obozrenie" və s. qəzetlərdə realizmin ədəbiyyatımızdakı rolundan danışarkən, realizmi yeni dövr ədəbiyyatının əsas yaradıcılıq yolu hesab edirdi.

1903-cü ildə F.b.Köçərlinin rus dilində "Literatura





Aderbaydjanskix tatar" kitabının işıq üzü görməsi insanlarda sanki elmi fikrin oyanmasına təkan verdi. Böyük oxucu kütləsinin marağına səbəb olan bu kitaba bir neçə elmi resenziyalar yazıldı və müəllifə çoxlu sayda müasirləri tərəfindən təbrik teleqramları və məktubları gəldi. Rəşidbəy Əfəndiyev kitabın nəşri münasibəti ilə xüsusi məqalə çap etdirmiş və məqalədə Firidun bəyin ədəbiyyatşünaslıq fəaliyyəti alqışlanaraq ona yüksək qiymət verilmişdir. Çünki, Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatında təkcə publisist, pedaqoq kimi deyil görkəmli tənqidçi kimi fəaliyyət göstərmiş və tanınmışdır.

XX əsrin əvvəllərində ədəbiyyata tənqidi münasibət xeyli güclənmişdir.Hər kəs tənqidə öz düşündüyü nöqteyi-nəzərdən baxır, ondan öz ədəbi marağı üçün istifadə etməyə çalışırdı. Lakin, F.b.Köçərli tənqidi öz mənafeyi xatirinə deyil, Azərbaycan ədəbiyyatının mənafeyi xatirinə edirdi. Mətbuat orqanlarında artıq ədəbi tənqidə geniş yer verilirdi. Mətbuat o dövr insanlara hava, su qədər vacib idi. Mətbuat savadsızlığa, maariflənmədə inkişafa çox cüclü təsir edən bir vasitə idi.

1911-ci ildə Azərbaycan ədəbiyyatının və tənqidinin görkəmli simalarından olan Seyid Hüseyn yazırdı: "Mətbuat bir millətə, bir qövmə nəf verər ki, o millətdə eşidən qulaq, dərk edən baş və yaxşını yamandan təmyiz verən əql və fikir olmuş olsun... Mətbuat millətin dili məqamındadır"(9. s.105).

Təsadüfi deyildir ki, tənqidçi və yazıçılar mətbuatın inkişafına çox böyük əhəmiyyət verir və onların demək olar ki, hamısı bu məsələ ilə məşğul olur, bu mövzuda tez-tez məqalələr çap etdirirdilər.

F.b.Köçərli ədəbiyyatda maraqlı yazılarla çıxış etməyə səy göstərən, hər hansı millətin nümayəndəsi olmasından asılı olmayaraq onları yüksək qiymətləndirirdi. Zamanında bəlkə də Belinskinin dediyi "ədəbiyyat həyatın güzgüsüdür" kimi maraq doğuran sözləri Firidun bəy Köçərlinin diqqətini çəkmişdir. Araşdırmalarda da belə insanların F.b.Köçərlinin yaradıcılığına

yaxşı mənada təsir göstərdiyi hiss olunur.. Çünki F.b.Köçərlinin "Həqiqi şair öz zəmanəsinin ayinəsidir" deməsi, onun realist ədəbiyyatın xalq həyatının bütün rəngarəngliyini əks etdirməlidir kimi fikirlərini təsdiqləyir. M. F. Axundov və V. Q. Belinski kimi F.b.Köçərli də ədəbiyyatın realizm yolunda inkişaf etməsini ən düzgün yol hesab edirdi. Ümumiyyətlə maarifçi-realistlər bir tənqidçi olaraq F.b.Köçərlinin ədəbiyyatın həyatla əlaqəsi məsələlərinə dair fikirləri ilə Belinskinin fikirləri arasında bir yaxınlıq və uyğunluq olduğu söyləyirdilər. Bu cəhət, görünür Köçərlinin rus ədəbiyyatı tarixinə dair oxuduğu mənbələrlə əlaqədar idi.

Əsrimizin əvvəllərində N.Sovolyovun (Andreyeviç) "Rus ədəbiyyatına dair oçerklər", A.Pıpinin "Rus ədəbiyyatı tarixi", A.Meziyerin "XI-XII əsrlərdə rus ədəbiyyatı", N.Piksanovun "Rus ədəbiyyatının xrolologiyası", M.Speranskinin "Qədim rus ədəbiyyatı tarixi" kimi iri həcmli tədqiqat əsərləri çap edilmişdi. Bu əsərlərdə ən qədim dövrlərdən başlamış XIX əsrlərin axırlarınadək rus ədəbiyyatının müxtəlif inkişaf mərhələləri və ayrı-ayrı yazıçıların yaradıcılıqları təhlil edilirdi. Rus şeiri tarixinə dair o zaman ən çox yayılmış əsərlərdən biri isə "Rus poeziyası" adlı ikicildlik məcmuə idi ki, Köçərlinin öz əsərini yazarkən bu məcmuəyə yaxından bələd olduğunu güman etmək olar. Çünki onun "Materiallarının tərtib prinsipləri rus ədəbiyyatı tarixinə dair yuxarıda göstərdiyimiz əsərlərinin hamısından daha artıq "Rus poeziyası" nın tərtib prinsiplərini xatırladır. "Rus poeziyası"nda rus şairlərinin böyük bir dəstəsi əhatə edilmişdir. Əsərin təkcə I cildində 116 şair haqqında məlumat verilir. "Materiallar"da olduğu kimi bu əsərdə də şairlərin irsindən geniş nümunələr dərc edilmişdir. Beləliklə də oxucular "Rus poeziyası"nda Radişşev, Lomanosov, Kantemir, Tredyakovski, Vereşşagin, Sumarokov, Fonvizin və başqa şairlərin tərcümeyi-halına, yaradıcılığına dair qısa məlumatla yanaşı onların ümumiyyətlə 1.400-dən artıq şeirini oxuya bilərdilər.





Rus şairlərinin tərcümeyi-halları və onların yaradıcılığı haqqında əsərdə verilən məlumat təcrid edilmiş şəkildə deyil, müəlliflərin yaşadığı dövr, onları əhatə edən ədəbi mühitlə əlaqədar idi. Köçərli də, görünür, "Rus poeziyası"nın tərtib prinsiplərindən istifadə etmişdir(3. s.115).

F.b.Köçərli yorulmadan işləyir, "Kavkaz", "Kaspiy", "Tiflisskoy listok", "Zakavkazskoe obozrenie", "Zakavkazye", "Znanie", "Otqoloski", "Kavkazskiy vestnik", "Novoe obozrenie", "Azərbaycan" və bu kimi rus dilində olan mətbuat orqanları ilə sıx əlaqə yaradırdı. Ümumiyyətlə Firidun bəy Köçərli insanların maariflənməsində, cəhalətdən oyanmasında, onların mədəniyyətinin inkişafında qəzetin rolunu xüsusi olaraq qeyd edirdi.

Tərcümə işinə ciddi yanaşan F.b.Köçərli rus ədəbiyyatını dərindən öyrənirdi. O, Qori Müəllimlər Seminariyasının zəngin kitabxanasının kitablarından səmərəli istifadə edir, yeni fikir, yeni ideya arzusu ilə Rusiyada və xarici ölkələrdə çıxan qəzet və jurnalları müntəzəm olaraq izləyir, bu mətbuat orqanlarında müxtəlif məqalələrlə çıxış edirdi. F. Köçərli təkcə yaxşı ədəbiyyatşünas, görkəmli tənqidçi olmayıb, o həm də həyatını xalqının maariflənməsi və oyanması işinə sərf etmiş əsl müəllim, ziyalı və maarif xadimi olubdur. Bu səbəbdən onun rus ədəbiyyatına olan marağını və rus mətbuat orqanlarında tez-tez yazılar dərc etdirməsini anlamaq olur.

F.b.Köçərli Azərbaycanda rus dilinin ruslar tərəfindən əhali arasında yayılmasının siyasi məsələdən əlavə, öz dillərinə olan məhəbbətindən irəli gəldiyini düşünürdü. F.b.Köçərli də bir müəllim kimi Azərbaycan torpağının vətəndaşı olaraq ilk növbədə doğma ana dilimizi sevməyi və sevdirməyi, ana dilimizdə mükəmməl yazıb-oxumağımızı, səlis danışmağımızı daha sonra isə başqa xalqların dillərini öyrənməyimizi vacib sayırdı. Ölkəmizdə rus siyasətinin geniş vüsət aldığını, hər bir yerdə rus dilinin istifadə edilməsi və əhalinin əksəriyyətinin bu dili bil-

mədikləri halda qarşılaşdıqları çətinlikləri görən Köçərli, bunun üçün rus dilini öyrənməyin nə qədər lazımlı olduğunu anlayırdı. Onun "Каспий" qəzetində dərc etdirdiyi "К преподаванию местных языков в средних учебних заведениях" məqaləsi məhz bu mövzu ətrafındadır. Məqalədə qeyd olunur ki, "В №134 "Каспий" помещен краткий, но содержательный отчет происходившаго 9 сего июля в Баку заседания особой комиссии по вопросу о преподавании туземных языков в средних учебных заведениях Кавказского учебного округа. Из этого отчета видно, что на обсуждение комиссии были предложены г. попечителем округа М.Р.Завадским те вопросы, при рассмотрении коих попечительский совет встретил некоторая затруднения. Этих вопросов четыре. При рассмотрении первого вопроса, заключающегося в том, что обучение местным языкам должно – ли быть обязательным вообще для всех или для желающих и в таком случае для каких учеников, комиссия единогласно высказалась за то, чтобы местные языки вошли в число обязательных предметов обучения в средних учебных заведениях, при чем для каждой национальности обязательным является свой родной язык, для татар-татарский, армян-армянский, грузин -грузинский и т".

Bütün həyatını demək olar ki, Azərbaycan ədəbiyyatı tarixinə həsr edən F.b.Köçərli 35 ildən artıq elmi-pedaqoji, ədəbi, publisistik fəaliyyətinin nəticəsi olaraq zəngin bir irs qoya bilmişdir. Ədəbi ictimaiyyətimizin Köçərli yaradıcılığını maraqla tədqiq etməsi, onun əsərlərinin və müəllifin fikirlərinin ədəbiyyat tarixində yeni səhifə açdığını və bunun Azərbaycan ədəbiyyatı tarixinə bir töhfə olduğunu göstərir. Millətinin azadlığı, maariflənməyi, təhsili F.b.Köçərlinin yaradıcılığında ön planda dururdu.

Dinə hörmət bəsləyən, lakin fanatizmdən çox uzaq olan F.b.Köçərli millətinin gələcəyini xurafatda deyil, maariflənmək-





də görürdü. Onun yaşadığı dövrdə bu cür fikirlərlə çıxış etmək çox çətin idi. Lakin bütün bunlara baxmayaraq F.b.Köçərli insanlar arasında təbliğat apararaq xurafatın, fanatizmin, cəhalətin onlara heç bir xeyir gətirmədiyini, əksinə balalarımızın xoşbəxtliyinə maneçilik törətdiyini anlatmağa çalışırdı. O gələcəyimiz olan gənclərin inkişafını yalnız maariflənməkdə və təhsilə yiyələnməkdə görürdü. Onun "Вопросы о просвешении татар" məqaləsində ədib bu haqda geniş məlumat vermişdir(6 .№ 3-4).

Rus mətbuatında tez-tez çıxış edən F.b.Köçərli M. F. Axundovun "Aldanmış kəvakib" əsərini də rus dilinə tərcümə edərək oxucuların ixtiyarına vermişdir. Onun bu tərcümə üzərində nə qədər incəliklə və sadəliklə işlədiyini görmək olur. Böyük sənətkarın həm öz yaradıcılığında, həm də Azərbaycan bədii nəsrinin inkişafında parlaq səhifə açmış bu əsər, M. F. Axundova təkcə Azərbaycanda deyil, bəlkə də bütün Şərq ölkələrində və Rusiyada geniş şöhrət qazandırmışdır. "Aldanmış kəvakib" ilk dəfə M.F.Axundovun özü tərəfindən rus dilinə tərcümə edilmiş və o zaman Tiflisdə rus dilində çıxan "Kavkaz" qəzetinin 1864-cü il tarixində dərc edilmişdir. Bu əsərin rus dilinə tərcümələri içərisində məhz F.b.Köçərlinin tərcüməsi xüsusi qeyd edilir. İran şahı Şah Abbasın sarayında baş verən hadisələri M. F. Axundovun böyük ustalıqla komik nüanslarla qələmə alan ədib, istər istəməz insanı düşünməyə vadar edir. Əsərdə müəllif insanların hətta ulduzları da aldatdığını və hətta onların adından yalan söylədiklərini də qeyd edir "Моглили звезды подумать, что иранцы обманут их, и на место законнаго падишаха подставять под удары рока ложнаго царя?" (5. № 5). F.b.Köçərli bu əsəri dəqiq tərcümə etməyə və əsas süjet xəttini olduğu kimi saxlayaraq oxuculara çatdırmağa çalışırdı.

Rus dilində mükəmməl savada və təhsilə malik olan F.b.Köçərlinin istər rus ədəbiyyatından Azərbaycan dilinə tərcümə etdiyi əsərlərinin, istərsə də Azərbaycan ədəbiyyatından

rus dilinə çevirdiyi tərcümə əsərlərinin nəşr edilməsi, bir çox hallarda onun üçün bəzi çətinlikləri yaradırdı. Mətbəə xərcləri o dövrün bir çox mütərəqqi fikirli insanları kimi F.b.Köçərlinin də yaradıcılığının qarşısına sanki bir sədd çəkirdi. F.b.Köçərlinin hələ tələbə ikən tərcümə edərək, nəşrə hazırladığı "Təlimat – Sokrat" kitabı mətbəədə yeddi il süründürməçilikdən sonra, nəhayət 1891-ci ildə işıq üzü görmüşdür(3. s. 24). Lakin bütün bu çətinliklərə baxmayaraq istedadlı alim F.b.Köçərli, ədəbiyyatda etdiyi axtarışlarını dayandırmadan çalışırdı.

Bütün şüurlu ömrünü Azərbaycanın maarifi yolunda sərf edən F.b.Köçərli eyni zamanda zəngin rus ədəbiyyatının təbliğatçısı kimi də fəaliyyət göstərirdi. Rus klassiklərinin şeir və hekayələrindən parçaları Azərbaycan dilinə tərcümə etməklə, bu iki xalqın ədəbiyyatının zənginliyini qoruyub saxlamaq istəyini bildirdi. Yerevan gimnaziyasında müəllimlik edən F.b.Köçərli öz bacarığı sayəsində sinifdənkənar oxu üçün etdiyi bu tərcümə əsərləri həm də tərbiyəvi əhəmiyyətə malik idi. Yüksək bədii zövqə malik olan F.b.Köçərlinin maraqlı cəhəti onda idi ki, əslində o, nə şair deyildi, nə də bədii yaradıcılığı ilə tanınmayırdı(3.s.80).

F.b.Köçərlinin rus ədəbiyyatı ilə əlaqəsi rus yazıçılarından Lermantov, Puşkin və Koltsovla məhdudlaşmırdı. O, L. N. Tolstoy, Qoqol, A. Çexovun da yaradıcılıqları ilə yaxından tanış olmuş və onların əsərləri haqqında da dəyərli sözlər söyləmişdir.

Köçərlinin Puşkin, Qoqol, Çexov, L. N. Tolstoy və bu qəbildən olan yazıçı və şairlərin əsərlərini təhlil edən tədqiqatçı göstərir ki, o rus və başqa xalqların ədəbi, mədəni irsinə həmişə dərin hörmətlə yanaşmışdır. Adları qeyd olunan bu böyük rus sənətkarlarının fikirlərinin əsərlər vasitəsi ilə Azərbaycan oxucularına çatdırılmasında F.b.Köçərlinin çox böyük xidmətləri olmuşdur (8.№ 6).

F. Köçərli hər bir xalqın tarixi ilə Azərbaycan oxucularını tanış etməyi özünün vətəndaşlıq borcu hesab edirdi. Sənətkarın





vətəndaşlıq borcu məsələsinə yüksək əhəmiyyət verən maarifçi-realistlər bəzi bədii əsərlərində bu cəhətdən nümunəvi yazıçı surəti yaratmaqla ədibin ictimai mübarizədə rolunu və mövqeyini əyani surətdə göstərməyə çalışır, bir növ nəzəri fikirlərini bədii yaradıcılıq praktikasına tətbiq edirdilər (10. s.133).

F.b.Köçərli çoxcəhətli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında demokratik ideyaların yayılmasına və inkişaf etməsinə çalışmışdır. Rus və başqa xalqların ədəbiyyatına, maarif və mədəniyyət məsələlərinə həsr edilmiş məqalələri, bədii tərcümə sahəsindəki işləri, yeni əlifba və qadın azadlığı yolunda çalışması bir alim və bir vətəndaş kimi onun ədəbi ictimai fəaliyyətinin demokratik istiqamətini göstərməkdədir (9.s.401).

Qabaqcıl Azərbaycan ziyalılarının böyük rus ədəbiyyatı və elminə hədsiz marağı XX əsrin ilk onilliklərində öz gözəl səmərələrini verdi. Ədəbiyyatda realizmi inkişaf etdirən Azərbaycan yazıçıları rus klassiklərinin əsərlərini orijinalında oxumaqdan əlavə, o əsərlərin bir çox gözəl nümunələrini dərin həvəslə ana dilinə tərcümə edirdilər. Puşkim, Lermantov, Qoqol, Tolstoy, Çexov,Qorki və başqalarının onlarla əsərləri ayrıca kitabça və məcmuə halında çap olunmuşdur. Həmin əsərlərin tərcüməsi üzərində C.Məmmədquluzadə, N.Nərimaov, Ə.Haqverdiyev, A.Səhhət, A.Şaiq, F.Köçərli kimi Azərbaycan klassikləri işləyirdilər (13.s.70).

Rus ədəbiyyatını qəlbən sevən və rus klassiklərinin əsərlərini Azərbaycan oxucuları üçün təbliğ etmək həvəsi Köçərlini daha da həvəslə işləməyə sövq edirdi.

Tarixi faktlar göstərir ki, F.b.Köçərli həssas fikirli bir qələm sahibi olubdur. Onun əsərlərində tərbiyəvi fikirlərin yer aldığı, gənc nəslə humanist keyfiyyətlərin, o cümlədən insanlara məhəbbət və hörmət hissinin olduğu açıq-aşkar hiss edilir. Tənqidçinin realizm uğrunda apardığı mübarizə öz əhəmiyyətini itirmirdi, əskinə bir çox hallarda onun fikirlərini daha dəqiq, daha düzgün anlayanların sırası genişlənirdi. Məsələn, F.Köçərli

M.F.Axundov realizminin xüsusiyyətlərini təhlil edərək belə qənaətə gəlmişdi ki, ədəbiyyat həyatın eynilə əksini götürən foto rolunu oynamamalıdır. Yaradıcılıq prosesində yazıçının xəyalı fəal iştirak etməlidir. Beləliklə, həyatı sənətin yeganə qida mənbəyi hesab edən tənqidçi sənətkar təxəyyülünün də əhəmiyyətini lazımınca qiymətləndirirdi. O, yazırdı ki, həqiqi sənətkar gərək M.F.Axundov kimi "bir yandan görüb eşitdiyini götürüb yetirə bilsin və bir tərəfdən öz fikir və xəyalı ilə yoxdan var etsin"(9. s. 136).

Firidun bəy Köçərli rusdilli mətbuatı zamanın tələbi hesab edirdi, eyni zamanda dünya mədəniyyətindən xəbərdar olmaq üçün rus dilini və rusdilli mətbuatı mədəniyyətə aparan yol olduğunu göstərirdi. O, gənclər arasında maariflənməyə ehtiyac olduğunu, bu yolda aparılan mübarizənin sürətləndirilməsini arzulayırdı. Firidun bəy Köçərli bu sahədə gecə-gündüz yorulmadan çalışsa da onun arzularının çoxu illər sonrası reallaşa bildi.

## ƏDƏBİYYAT:


1. M. C. Paşayev və F. C. Hüseynov: "XX əsr Azərbaycan ədəbiyyatı". Bakı 1969.348 s.
2. " Каспий" qəzeti 1903 - cü il. № 262. S. 3.
3. B. Nəbiyev: " Firidun Köçərli" Bakı.1963.64 s.
4. "Каспий" qəzeti. 1915-ci il. № 88.s.6.
5. " Кавказский вестник" 1901-ci il. № 5.s.68-95.
6. " Каспий" qəzeti. 1906-cı il. № 3-4. s.3.
7. "Azərbaycan ədəbiyyatı məsələləri".Bakı.1964-cü il. 348 s.
8. "Azərbaycan" jurnalı. 1961.№ 6.
9. K.Talıbzadə: "XX əsr Azərbaycan ədəbi tənqidi.(1905 -1907-ci illər), Bakı. 1966.536 s.







10. X. Məmmədov: "Əkinçi"dən " Molla Nəsrəddin" ə qədər. Bakı.1987.269 s.
11. F.b.Köçərli: "Əsərləri". Bakı, 2013.495s.
12. H.Həsənov: "Azərbaycan kitabının inkişaf mərhələləri". Bakı. 1989.s.254.
13. Ə.Mirəhmədov: "Azərbaycan ədəbiyyatına dair tədqiqlər". Bakı.1983.264 s.
14. "525-ci" qəzet, 2015.№67.
15. Ziyəddin Göyüşov: "Azərbaycan maarifçilərinin etik görüşləri", Bakı. 1960. s. 212.

## FİRUDİN BƏY KÖÇƏRLİNİN AZƏRBAYCAN TƏLİM-TƏRBİYƏ ÜSULU İLƏ AVROPA TƏLİM-TƏRBİYƏ ÜSULUNA MÜQAYİSƏLİ BAXIŞI

Geniş dünyagörüşünə malik olan Firidun bəyin yaradıcılığı çoxşaxəli və rəngarəng olub. O müəllimliklə yanaşı, həm də maarif carçısı idi.

Firidun bəy Köçərli təlim-tərbiyənin insan şəxsiyyətinə, onun inkişaf və təkmilləşməyə qadir olduğunu söyləyərək, Qərbi Avropa və Şərqin ən qabaqcıl şəxsiyyətlərinin pedaqoji fikirlərinə istinad edirdi. Tərbiyənin insan həyatında böyük dəyişdirici qüvvəyə malik olduğunu qeyd edən Köçərli, çox gözəl başa düşürdü ki, adam tərbiyə prosesində biliklərə sahib olur, dünyada baş verən hadisələri düşünür və dərk edir.

F.b.Köçərli tərbiyənin davranışda, nitqdə, rəftarda və s. böyük rolunu bilir və buna görə mariflənmə sahəsində iş qurmağa çalışırdı. Bu da ilk növbədə təhsillə bağlı idi. Köçərli təcrübəli pedaqoq kimi təhsili təlim-tərbiyədə ən əsas vasitə sayırdı.

Firidun bəy təhsil sisteminin təkcə dərs oxumaqdan ibarət olmadığını bilərək, bir pedaqoq kimi təlim-tərbiyənin təhsildə əsas şərtlərdən biri, bəlkə də birincisi olduğunu qeyd edirdi. O, təhsilin insan həyatında hava, su qədər vacib olduğunu əhali arasında təbliğat aparmaqla, qəzet səhifələrində publisist yazılar dərc etdirməklə və s. xeyirxah əməlləri ilə kütlələr arasında yayır və bu yolda mübarizə aparırdı. Köçərli ilk növbədə maariflənmənin qadınlar arasında aparılmasını daha məqsədəuyğun hesab edir, bunların əsasını təlim ilə birlikdə tərbiyənin təşkil etdiyini söyləyirdi. Köçərli ailədə qadının ana olmağından əlavə həm də ilk tərbiyəçi olduğunu qeyd edirdi. İlk tərbiyəsini anadan





alan övlad cəmiyyətdə aldığı tərbiyənin əsasında formalaşdığını qeyd edən Köçərli bunu valideylər arasında yaymağa çalışırdı. Buna görə anaların təhsilli olması vacibdir. Böyük alimin bu mövzuda yazıları müxtəlif mətbuat orqanlarının səhifələrində yer almışdır.

Azərbaycan ədəbiyyatında klassiklərimizin əsərlərində təlim-tərbiyə mövzusu hər dövrdə aktual olmuşdur.

Azərbaycanın böyük şairi və mütəffəkkiri Nizami Gəncəvinin əsərləri təlim və tərbiyəyə dair zəngin fikirlərlə doludur. F.b.Köçərli dahi şairin həyat və yaradıcılığı haqqında məlumatlı olduğu üçün öz yaradıcılığında da Nizami Gəncəvidən bəhrələnməyə çalışmışdı. Nizaminin müdrik kəlamları Köçərlinin yaradıcılığında özünü büruzə verir. Firidun bəy Köçərlinin etnikrafik araşdırmalarının əsasında dayanan folklor nümunələrinin-atalar sözləri, zərb məsəllər, nağıllar və s. N. Gəncəvi yaradıcılığından gəldiyini, yaradıcılığının əsasını məhz bu nümunələrin təşkil etdiyini görmək olur .

Nizami əqli təhsilə böyük əhəmiyyət vermişdir. Onun fikrincə ağıl insanı heyvanlardan fərqləndirən əsas əlamətdir. O, ağlı var-dövlətdən üstün tutaraq, cəhalətin, nadanlığın barışmaz düşməni olmuş və yaşdan asılı olmayaraq hamını bilik almağa, elm öyrənməyə çağırmışdır.

Dahi Nizami kimi F.Köçərli də təlim və təhsildə qızlarla oğlanlar arasında fərq qoymurdu. Bu səbəbdən böyük şairin təlim və tərbiyə haqqındakı müdrik fikirləri, ondan sonra gələn Azərbaycan yazıçı və mütəfəkkirlərinə böyük təsir göstərmişdir. Onun ideyalarının parlaq şüaları əsrlərə işıq saçaraq, dövrümüzə qədər gəlib çatmışdır(2.s.9).

Şərq və Qərbin mühiti, təlim-tərbiyəsi ilə maraqlanan Firidun bəy, müraciət etdiyi hər bir əsərdə Azərbaycanın Şərq və Qərb mühitində, təlim-tərbiyəsində oxşar cəhətləri tapmağa çalışırdı.

F.b. Köçərli hər zaman Şərq və Qərb təlim-tərbiyə üsulunda çox fərqli cəhətlər olduğunu qeyd edərək söyləyirdi ki, baxmayaraq ki, "tərbiyə" və "təlim" başqa-başqa mövzular olsa da, hər ikisi bir-birindən ayrılmazdır. Tərbiyə təlimin əsası və təməlidir. Fərqli cəhətlər dedikdə Firidun bəy Şərqin hələ də qəflət yuxusunda olduğunu, Qərbin isə tərəqqiyə doğru getdiyini nəzərdə tuturdu. O, tərəqqiyə mane olan mövhumatın, geriliyin, cəhalətin tezliklə aradan qaldırılması uğrunda mübarizə aparırdı. Firidun bəy Köçərlinin müasirlərindən olan M.Ə.Sabirin:

*"Dindirir əsr bizi, -dinməyiriz,*
*Açılan toplara diksinməyiriz*
*Əcnəbi seyrə balonlarla çıxır,*
*Biz hələ avtomobil minməyiriz;*
*Quş kimi göydə uçar yerdəkilər,*
*Bizi gömmüş yerə minbərdəkilər".*

–misraları burada yerinə düşür.

Firidun bəy Köçərli Şərq, Qərb dedikdə heç də Şərqlə Qərbi bir-birilərinə qarşı qoymaq niyyətində olmayıbdır. Ədib, sadəcə Qərbin sürətli inkişafını gördükcə, Şərqin də, xüsusilə də doğma yurdunun azad yaşamağını, inkişaf etməyini istəyirdi.

Görkəmli maarifpərvər Firidun bəy yazırdı ki, insanın mənəvi keyfiyyətləri mühitin, tərbiyənin təsiri ilə formalaşaraq, həyatda yaşamaq üçün zəmin yaradır. Lakin, ziyalı maarifpərvərlərin fikrinə görə cəza tədbirləri ilə verilən təhsil, tərbiyə uşaqları qorxaq, müti edir, balaların zehni inkişafına mane olur, sağlam əhvali-ruhiyyə ilə böyüməsinə imkan vermir. Bu həqiqətən belədir. Qeyd edilmiş formada təlim-tərbiyə üsulu ilə böyüyən uşaq vətəni, torpağı sevə bilməz, onu yadelli işğalçılardan qorumağa maraqlı olmaz. Şagirdlərə düzgün təbiyə üsulu ilə təlim verilərsə o hər an ölkəsinin müdafiəsinə hazır olar.





XX əsrin əvvəllərindənki maarifçilər sələflərindən şəxsi nümunə götürərək xalq arasında maarifi yaymaq, gənc nəsli tərbiyələndirmək uğrunda mübarizəni davam etdirirdilər. Bu mövzuda ziyalılarımızın çoxlu sayda məqalələri işıq üzü görmüş və onlar xalqın maarif carçısı olaraq bu yolda mübarizə aparmışlar. Mədəniyyət hər dövrdə özünəməxsus inkişaf edibdir. O cümlədən mədəniyyətlə paralel pedaqoji fikir də öz inkişafının yeni mərhələsinə qədəm qoyurdu. Firidun Köçərli və dövrünün nümayəndələri bu inkişafın Azərbaycanda sürətlənməsi uğrunda mübarizəyə qalxaraq yeniliyin, müasirliyin, maarifçiliyin təbliğini aparırdılar.

Təlim-tərbiyədə ailənin məktəblə birliyini qeyd edən F.b.Köçərli eyni zamanda hər bir işin əsasında tərbiyənin durduğunu, tərbiyənin isə insan həyatının əsasını təşkil etdiyini göstərirdi. Azərbaycan mütəfəkkirlərinin demək olar ki, hamısı eyni fikirdə idilər.

Həsən Səbri 1907-ci ildə "Füyuzat" jurnalının 13 sayında yazırdı: "Valideynlər uşaqlarına verəcəkləri ən əhəmiyyətli şey onların tərbiyəsidir. Əgər valideynlər uşaqların qəlblərinə bu əsası kiçik yaşlarından mükəmməl surətdə yerləşdirməsələr, sonradan təlimləri və təlimlə hasil olacaq tərbiyələri də mütləq naqis olacaqdır. Tərbiyəsi naqis olan uşaqların təlim və təhsilə həvəsləri olmadığı dəfələrlə çüşahidə olunmuş bir həqiqətdir(7.s.10).

Firidun bəy Köçərli təlim və tərbiyəyə böyük əhəmiyyət verdiyi üçün gənc nəslin tərbiyəsi, əxlaqi məsələlərinə həmişə ictimai və mədəni inkişaf baxımından yanaşırdı. O, hekayələrində gənc nəslin təlim-tərbiyəsində onların mütərəqqi üsullar əsasında tərbiyələndirilməsinə çalışırdı.

Maarifin və təhsilin geniş kütlələr arasında yaılmasının tərəfdarı olan ədib dünya xalqlarının təlim, tərbiyə və tədris prosesləri ilə maraqlanır, oxşar, fərqli cəhətləri Azərbaycanın tə-

lim-tərbiyə üsulu ilə müqayisə edirdi. Firidun bəy ən çox Qərbi Avropa ölkələrinin təlim-tərbiyə sisteminin sürətli inkişafını dəyərləndiridi. Bizim bu tərəqqidən hələ çox geridə qaldığımızı misal göstərirdi.

F.b.Köçərli milli dəyərləri saxlamaqla yanaşı Qərbin nümunə ola biləcək keyfiyyətlərindən gənc nəslin bəhrələnməyinə üstünlük veririди.

Köçərlinin yazılarından Şərq ilə Qərb təlim-tərbiyə üsulu arasında olan fərqi belə anlamaq olur. Belə ki, Qərb inkişaf edərək irəliyə getdiyi halda Şərq yerində addımlayaraq geriyə qayıdırdı. Köçərliyə görə bu dəhşətli fəlakət idi. Geriliyin səbəbini isə o mariflənmə aparılmadığı halda cəhalətin, mövhumatın ayaq açaraq geniş vüsət tapmasında görürdü.

Firidun bəy Köçərli təlim-tərbiyədə təhsilin, elmin böyük tərbiyəvi rolu olduğunu dəfələrlə qeyd etmişdi. O, təlim-tərbiyəni insanın təkcə davranışında deyil, nitqində, hərəkətində, mədəniyyətində olmasını tələb edirdi. Buradan belə nətcəyə gəlmək olar ki, uşaq sadəcə bir yerdə sakit oturmağı, yaxud sakit danışmağı ilə deyil, hər yerdə özünü apamağı bacarmalı və tərbiyə mədəniyyətindən istifadə etməlidir. Bunun üçün ilk növbədə ailə ilə məktəb vəhdət təşkil etməli, birlikdə uşağın təlim-tərbiyəsinə təsir göstərməli və onun ləyaqətli insan kimi formalaşmasına kömək etməli, əsas vasitə üsulu olmalıdır.

Təlim-tərbiyəyə dair fikirlərdən danışarkən, ictimai fikrin inkişafı tarixində olduğu kimi, Azərbaycanın pedaqoji fikir tarixində də görkəmli şəxsiyyətlərimizin maraqlı düşüncələri olduğunu görürük. Bu görkəmli şəxsiyyətlərdən A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, S.Ə.Şirvani, H.b.Zərdabi və başqalarının adını çəkmək olar.

Vətənpərvər və maarif carçısı olan Firidun bəy Köçərli ölkəsinin təlim-tərbiyə üsulunu Qərb ölkələrinin təlim-tərbiyə üsulu ilə müqayisə edərək, maraqlı fikirlər ortaya çıxarırdı. O,





Almanların təlim və tərbiyəsindən bəhs edən məqaləsində yazırdı ki, fransızlara müharibədə məğlub olan almanlar gələcəkdə baş verə biləcək müharibələrə övladlarını elə hazırladılar ki, onlar illər sonrası Napoleonun intiqamını onun nəslindən ala bildilər. Köçərli belə bir xüsusiyyətin vətənini sevən hər bir millət üçün müsbət hal olduğunu göstərirdi. Yəni millətdə milli ruh olmalı, vətənə, yurda laqeydlik deyil, məhəbbət, sevgi yaşamalıdır. "Məndən keçdi qardaşıma dəydi" misalı olmamalıdır.

Firidun bəy Köçərliyə görə insanın tərbiyə olunmasında istər ailənin, istərsə də cəmiyyətin bərabər, oxşar rolu vardır. Doğrudur insanın həyatda formalaşmasının, vətənə layiqli insan kimi böyüməsinin əsasında alimlərimiz cəmiyyətin rolunun danılmaz olduğunu qeyd etsələr də, ən əsas təlim-tərbiyənin ailədən gəldiyini təsdiq edirlər. Köçərli hər zaman düzgün tərbiyənin tərəfdarı olmuşdur. Cəmiyyətdə baş verən anlaşılmazlıqlar, hadisələr, çətinliklər bir başa tərbiyəyə aparıb çıxaran vasitələrdəndir. Firidun bəy Köçərli təlim-tərbiyə haqqında danışarkən əvvəl ailəni, daha sonra isə məktəbi, cəmiyyəti nəzərdə tuturdu.

Ədibin fikrincə gənc nəslin tərbiyəsi həm çox çətin, həm də məsuliyyətlidir. Köçərlinin müasirləri olan ziyalılar da onun kimi düşünürdülər. Məsələn, S.M.Qənizadənin fikrincə gənc nəslin tərbiyəsi ən bacarıqlı tərbiyəçilərə həvalə edilməlidir. O yazırdı: "Tərbiyə işi ən çətin işlərdən birisidir ki, onu doğruca yol ilə icra etmək üçün təcrübə lazımdır(1.s.73).

Mənbələrə istinadən qeyd etmək olar ki, tərbiyə haqqında dahi şəxsiyyətlərimiz müxtəlif rəylər söyləmişlər. Onların fikrincə tərbiyənin məqsədi həqiqi insan yetişdirməkdir. Bu ideyaya həm Rusiyanın, həm də Avropanın bütün maarifpərvər pedaqoqlarının yaradıcılığında təsadüf edilir. F.b.Köçərlinin həm rus və həm də dünya ölkələrinin ədəbiyyatları ilə yaxından maraqlanmağı onun tərbiyə haqqında olan düşüncələrinin nə qədər əhəmiyyət kəsb etdiyini göstərir. Görkəmli ədibin fikrincə

Azərbaycan təlim-tərbiyə üsulu ilə Avropa, yəni Qərb təlim-tərbiyə üsulunun fərqli cəhətlərindən biri də valideynlərin uşaqlara göstərdiyi nəvazişinə görə fərqlənir. Qeyd edildiyi kimi Firidun bəy Köçərlinin düşüncələri ilə müasirlərinin üst-üstə düşən fikirləri bunu bir daha təsdiq edir. Bu cəhətdən M.T.Sidqinin də fikirləri Firidun bəy Köçərlinin fikirləri kimi xarakterikdir. O özünün "Həkimanə sözlər" adlı əsərində etikanı bütün elmlərin elmi kimi qiymətləndirməyə cəhd etmişdir. Onun fikrincə "Dünyada hər elmdən artıq elmi-əxlaqda çalışmaq insan üçün lazımlı bir şeydir. Çünki heyvanların cinsi elmi-heyvanat deyilən elmlə bilinsə. Insanların da yaxşısı elmi-əxlaqla bilinir".

M.T. Sidqinin öz məktəbinə "Tərbiyə" adı verməsi və əsas etibarı ilə həmin məktəbin əxlaq məsələləri ilə məşğul olması da bununla izah olunur(11.s.24).

Firidun bəy Köçərli dünya ədəbiyyatı ilə maraqlandığı üçün onların insan olaraq həyatda öz mövqelərini tutması, yaşayış səviyyəsinin nə qədər yüksək olduğunu görür, Qərb ölkələrinin təlim-tərbiyəsində böyük rol oynayan inkişafın Şərq ölkələrinə də siyarət etməsini, habelə Azərbaycanın müasirləşməsini və inkişaf etməsini arzu edirdi.

Firidun bəy Köçərli də başqa müasirləri kimi təlim-tərbiyə üsulunda ilk olaraq ailəni görür, bir pedaqoq olaraq cəmiyyətə ən xeyirli insan bəxş etməkdə məktəbi və müəllimləri birincilər sırasında olmalarını arzu edirdi. F.b.Köçərlinin pedaqoji fəaliyyətinə əsaslanaraq demək olar ki, o apardığı dərs saatlarında şagirdlərin tərbiyəsində müəllimlərin güclü təsiri olduğunu göstərirdi. Sözsüz ki, valideynin, müəllimin və ətrafın rolu tamamilə başqa-başqadır, amma hər bir halda bütün bunların kökünün eyni olduğunu, tərbiyyəyə söykəndiyini görürük. Köçərli insanın ailədə etdiyi sərbəst rəftarını məktəbdə etməyin düzgün olmadığını və yaxud cəmiyyətdə, ictimai yerlərdə özünüidarə etməyin tərbiyədə əsas faktor olduğunu diqqətə çatdırırdı. İlk növbədə şagird müəllimin yanında olduğu müddətdə məktəbə aid qayda-qanunlara riayət etməyə borcludur. Ailədə sərbəst olan övlad məktəbdə qanunlar çərçivəsində olur. Bu eyni zamanda həm də bir tələbdir, qanundur. Tərbiyə çərçivəsində olan rəftar şagirdə nümunə olmaq üçün müəllimlərdə də özünü doğrultmalıdır. Məktəbdə və müəllimdə olan qeyi-insani münasibətləri yəni laqeydliyi, mədəniyyətsiz davranışı, soyuq münasibəti, kobud rəftarı və s. F.b.Köçərli qətiyyən qəbul etmirdi. O müəllimi müqəddəs varlıq hesab edirdi. Eyni zamanda müəllimlərə qarşı hücum edən, onların ləyaqətini alçaltmağa çalışanları nadanlar adlandırırdı. O yaxşı başa düşürdü ki, təlim-tərbiyənin, tərəqqinin, xoşbəxt gələcəyin açarı məktəbdə, təhsildə və təhsili də şagirdlərə əxz edən müəllimlərin əlindədir. Köçərliyə görə tərbiyə olmadan nə təlim, nə də tədris mümkündür. Onun fikrincə təhsil, elm, maarif, təlim, tərbiyə bir-biri ilə bağlılıq təşkil edir. O, təlim-tərbiyədən danışarkən ilk növbədə məktəbin rolunun əsas olduğunu, daha sonra təhsilin vacibliyini, bunun müqabilində maariflənmənin mütləqliyini və daha sonra isə düzgün tərbiyənin olmasını əsas göstərirdi.





Təlim-tərbiyə sisteminin təkmilləşməsində F.b.Köçərli cəmiyyəti iki qrup üzrə görürdü. Birincidə ziyalı təbəqənin millətin inkişafı, maariflənməsi və təhsili üçün fədakarlıq göstərdiyini, ikincidə isə milləti geriyə, cəhalətə sürükləyən mövhumatı və din pərdəsi altında tərəqqiyə mane olanları nəzərdə tuturdu. Millətin tərəqqisi uğrunda çalışanlar əsasən rus və Qərb ali məktəblərini qurtaranlar idi ki, onların da çoxu (S.Mehmandarov,Ə. Ağayev, T.Bayraməlibəyov, F.Köçərli, H.Vəzirov və başqaları) demokratiyaya yaxın adamlar idilər. Gələcəyin böyük demokratı N.Nərimanov da hələlik bəzi məsələlərdə onlarla həmfikir idi (8.s.32).

Firidun bəy Köçərli yüksək əxlaqi keyfiyyətləri və geniş təhsilin gənc nəsldə tərbiyə edilməsinin tərəfdarı idi.

Klassiklərimizdən hesab edilən gözəl müəllim Mirzə Şəfi Vazehin təlim-tərbiyə haqqında özünəməxsus fikirləri olubdur. Mirzə Şəfi özünün müəllimlik təcrübəsində hələ XIX əsrin əvvəllərində hüsnxəttə olduqca ciddi diqqət yetirmiş və bununla da dövrünün qabaqcıl pedaqoji fikrinin başlıca tələblərindən birini qabaqcadan irəli sürmüşdü. Mirzə Şəfi öz şagirdlərindən gözəl yazmağı tələb edir və özü bunun ibrətamiz nümunələrini verirdi; onun son dərəcə də gözəl xətti var idi. Mirzə Şəfi deyidi: "Şərqin müdrik adamları, gözəl fikri həm danışıqda, həm də yazıda gözəl şəkildə ifadə edilməsinə böyük üstünlük verirdilər (2.s.49).

Bu təsadüfü söylənən fikir deyildir. Firidun bəy Köçərlinin yaradıcılığında istər pedaqoji fəaliyyətini, istər etnoqrafik araşdırmaların, istərsə də digər yaradıcılıq səhifələrini vərəqlədikdə bütün bu yuxarıda qeyd olunan fikirlərin onun əsərlərində yer aldığını görürük. Firidun bəy Qərb təlim-tərbiyə üsulundan bəhs edərkən, digər ictimai hadisələr kimi təlim-tərbiyənin həyatımızdakı yüksək rolunu təkrar-təkrar qeyd edirdi. Firidun bəy Köçərliyə görə təlim və tərbiyənin inkişaf etdirilməsində məqsəd vətənini sevən, mərd, mübariz elmi biliklərə yiyələnmiş vətənpərvər yetişdirməkdir.

Məlumdur ki, insan tərbiyə prosesində biliklərə sahib olur, dünya haqqında düşünür və həmçinin dünyanı dərk edir. Köçərli Qərb təlim-tərbiyəsi dedikdə heç də Şərq təlim-tərbiyəsinin qəbuledilməz olduğunu söyləmirdi. Sadəcə nəzərə çatdırmağa çalışırdı ki, sürətlə inkişafa doğru gedən Qərb, geriyə qalan Şərqi üstələməkdədir. Bunun da başlıca səbəbini dini xürafatda, cəhalət və nadanlıqda görən Firidun bəy məhz bu səbəbdən Şərqin, eləcə də Azərbaycanın cəhalət yuxusundan oyanmasına çalışırdı. Tərəqi və inkişaf yalnız bu zaman mümkün ola bilərdi. Bundan başqa F.b.Köçərli söylədiyi fikirləri ilə sanki Şərq və Qərbi təlim-tərbiyə üsulunda yaxşı mənada rəqabətə səsləyirdi.

F.b.Köçərli heç də Qərbin təlim-tərbiyə üsulunun kor-korana surətdə Azərbaycanın övladları arasında yayılmasına tərəfdar deyildi. O da, müasirləri kimi xalqının tərəqqisi üçün dünya mədəni irsinin ən yaxşı cəhətlərindən nümunə götürməyi, ondan öz milli ənənələrdən uzaqlaşmamaq şərtilə istifadə etməyi məsləhət görürdü. Qərbin təlim-tərbiyə üsulundan Azərbaycanda istifadə etməyi, xüsusilə də azadlıq, təhsil, maarif və kitab mədəniyyəti yolunda olan tərəqqini inkişaf etdirməyi düşünürdü.





Əsas aparıcı qüvvəsi tərəqqipərvər zadəgan balaları (H.Zərdabi, M.Şahtaxtinski, N.Vəzirov, F.Köçərli, E.Sultanov, Ə.Haqverdiyev, S.Qənizadə və b.) və "raznoçin" ziyalılardan(S.Ə.Şirvani, C.Məmmədquluzadə, N.Nərimanov, M.Sidqi, M.S.Ordubadi və b.) ibarət olan yeni Azərbaycan maarifçilərini onların ümumdemokratik meylləri birləşdirirdi (8.s.56).

Firidun bəy Köçərlinin qənaətinə görə millət iki təbəqədən ibarətdir: "rəiyyət tayfası-əkinçi və cütçü qardaşlar",bunlar millətin kökünü, özəyini təşkil edən əsas qüvvədir. Millətin "üst təbəqəsi"ni isə onun oxumuşları, "nücəbaları" təşkil edir. Bir ağacın yarpağına bənzəyən həmin nücəbaların borcu öz kökünə xidmət etmək, öz varlığına sahib çıxmaq, kökü qorumaq,millətin "torpaq altda qalan" təbəqəsini işığa çıxarmaqdır. Ədibi yarpaqların öz köklərinə laqeydliyi narahat edirdi: "...öz zahiri kamal və tərbiyəmizlə, nəcabətimizlə,təzə modada tikilmiş libasımızla və müzəyyən və münəqqəş otaqlarımızla iftixar və sərkəşlik edib, qaranlıqda qalan cəhl və nadanlıq cəngində zar və zəbun olan qardaşlarımızın dad və harayına yetişmirik"(5.s.32).

Firidun bəy Köçərli təlim-tərbiyə prinsiplərinin dərsliklərdə həyata keçirilməsini də məqbul sayırdı. Onun fikrincə dərsliklərdə verilmiş tərbiyəvi faktlar və misallar bədii cəhətdən həm maraqlı olmalı, həm də oxucuya tərbiyəvi təsir göstərməlidir.Təlim və tərbiyəyə böyük əhəmiyyət verən F.b.Köçərli dünya xalqlarını ədəbiyyatından nümunələr gətirərək, millətin milli

ruhda tərbiyə olunmasını qeyd edirdi. Təlimsiz tərbiyənin, tərbiyəsiz təlimin mənasız olduğunu söyləyən Firidun bəy Köçərli, tərbiyənin çox şeyə qadir olduğunu əsas gətirərək tərbiyələndirici təlimin vacibliyini vurğulayırdı.

Firidun bəy Köçərli arzuladığı azad həyatı təkcə Azərbaycan xalqı üçün deyil, bütün Şərq xalqları üçün istəyirdi. Köçərli Şərq üçün elə bir cəmiyyət quruluşu arzu edirdi ki, elm, mədəniyyət qapıları hamının üzünə açıq olsun, bütün zəhmətkeş balaları təhsil ala bilsin və hər kəs çalışıb öz zəhmətinin bəhrəsini yeyə bilsin.

Bir sıra xalqların, o cümlədən Azərbaycan xalqının fəlsəfi fikrinin inkişafının xarakterik xüsusiyyətlərindən biri-sosioloji və fəlsəfi fikrin ədəbi fikirlə, ədəbiyyatla sıx əlaqədə birgə inkişaf etməsi, ikincisi fəlsəfi fikrin tərbiyə və əxlaq məsələləri ilə bilavasitə bağlı olmasıdır(11.s.7).

Azərbaycan maarifçilərinin ideya irsi buna ən yaxşı misaldır. Bir sıra maarifçilər kimi Firidun bəy Köçərlinin də tərbiyə və əxlaq məsələlərinə həsr edilmiş nəzəri və publisist məqalələri vardır. Köçərli öz əsərlərində tərbiyə və əxlaq məsələlərinə daim xüsusi diqqət yetirib və tərbiyəni tərəqqinin ən yüksək amili hesab edibdir.

Görkəmli maarif xadimi F.Köçərli hələ keçən əsrin 90-cı illərində insan şəxsiyyətinin formalaşmasında xarici mühitin və tərbiyənin roluna dair yazdığı: "Tərbiyənin amilləri" adlı xüsusi əlyazmasında M.T,Sidqi ilə eyni mövqedə çıxış edərək, insanının bütün əxlaqi keyfiyyətlırini ictimai mühitin və tərbiyənin məhsulu hesab etmişdir. Onun şərhində tərbiyə geniş məfhumdur və özündə, ailədə, məktəbdə, cəmiyyətdə şəxsiyyətə olan bütün təsirləri ehtiva edir. Buna görə də ictimai mühit, tərbiyə yalnız insanın əxlaqi sifətlərinin deyil, habelə onun bütün mənəvi və psixiki xüsusiyyətlərinin formalaşmasında həlledici rol oynayan qüdrətli amildir (11.s.11).





Bilirik ki, insan təbiətin ən kamil varlığıdır. Bu kamil varlığın həyatda insan kimi formalaşmasında təlim-tərbiyənin xüsusi yeri vardır. Elm isə insanın qüdrətini artıran, onun azadlığının meydanını genişləndirəndir. Elm vasitəsi ilə bir çox bəşəri arzulara nail olmaq mümkündür. Köçərli başqa xalqların, xüsusilədə Avropa təlim-tərbiyə üsulu ilə Azərbaycan təlim-tərbiyə üsulunda bir çox fərqli cəhətlərin olduğunun məhz bu səbəbini göstərməyə çalışırdı.

Millətin təlim-tərbiyəsinin tərəqqisi üçün elmli olmasını əsas gətirən Köçərli xarici amillərdən bəhs edərkən maarifçiliyin ancaq Rusiya və Qərblə birbaşa əlaqəsi olduğunu göstərirdi. Lakin Şərqin Nizami, Xəqani, Bəhmənyar, Nəsimi, Füzuli, Vaqif kimi klassiklər yetirən doğma Azərbaycanın dahilərindən görüb-götürməyin, öyrənməyin yollarını da başa salırdı. Azərbaycan maarifçiliyini şərtləndirən səbəblərdən biri məhz Rusiyaya və Qərbə açılan pəncərədən yeni mədəniyyət havasının gəlməsi idi. Çünki gənclik artıq Rusiyanın və Qərbin təhsil ocaqlarında oxumağa çan atırdı. Bu maariflçilərin uğuru demək idi. Firidun bəy Köçərli Qərbi Avropanın təlim-tərbiyəsi, mədəniyyəti, elmi, texnikası və həyat formaları ilə yanaşı qoca Şərqin böyük tarixə və qədim ənənələrə malik olan mədəniyyətini yüksək dəyərləndirirdi.

Köçərli mütaliəni çox sevirdi. Kitab oxumağın ən yüksək mədəniyyət olduğunu bilirdi. Firidun bəyin publisistikasında köhnə həyat tərzini dəyişmək cəhdləri, ictimai tərəqqiyə mane olan əngəlləri araşdırmaq təşəbbüsləri qabarıq şəkildə görünür.

Azərbaycan maarifçiləri belə hesab edirdilər ki, əmək və təcrübə ictimai tərəqqinin əsas amillərindəndir. Onlar insanın əxlaqi sifətlərinin formalaşmasında zəhmətsevərliyin mühüm amil olduğunu təlim-tərbiyə işində ön plana çəkmiş, əməksevərliyin bünövrəsini ailədə, məktəbdə qoyub inkişaf etdirməyi ictimai tərəqqinin özül daşlarından hesab edirdilər.

Azərbaycanda ictimai fikrin inkişafı tarixində olduğu kimi pedaqoji fikrin tarixində elə görkəmli şəxsiyyətlər olubdur ki, bu şəxsiyyətlərin sələfləri onların davamçıları hesab edilirlər. Araşdırmalarda Firidun bəy Köçərlini M.F.Axundovun davamçısı olduğunu qeyd edilmişdir. Eyni düşüncəli, eyni təfəkkürlü insanların yekdil mübarizəsində bunu daha aydın görmək olur. Təlim-tərbiyə işinə çox ciddi yanaşan Firidun bəy Köçərli həyatda hər bir uğurlu işdə bilavasitə tərbiyənin yüksək rolunu nəzərə çatdırırdı.

Tərbiyə amillərindən birini-ailə tərbiyəsini misal gətirib F.Köçərli yazırdı: "Tərbiyə amillərinin ən mühümlərindən birisi də ailə tərbiyəsidir, ailədə, ailə arasında uşaq öz bilik və xəsaili-mənəviyyəsinin əsasını alır(11.s.12). O, ailədə baş verən hər bir münasibətin, mənfi yaxud müsbət halda gənclərin tərbiyəsinə təsirini göstərə biləcəyini söyləyirdi.

Azərbaycan mədəniyyət tarixində M.F.Axundov, A.Bakıxanov, M.Ş.Vazeh kimi görkəmli şəxsiyyətlərin təlim-tərbiyə haqqında öz fikirləri, öz baxışları olmuşdur. F.b.Köçərli belə şəxsiyyətləri özünə məktəb hesab edərək, onların yaradıcılığından bəhrələnmişdir.

Firidun bəy Köçərli ədəbiyyatın təlim-tərbiyədə rolundu qeyd edərkən, nağılların, hekayə və şeirlərin də həyatda tərbiyəvi əhəmiyyətinə toxunurdu. O, pedaqoq kimi bunları daha gözəl anlayır və təbliğ edirdi. Çünki,böyük pedaqoqlar nağıllara həmişə mühüm tərbiyə və təlim vasitəsi kimi baxırlar. Buna görə də K.D.Uşinski "xalq ən böyük pedaqoqdur" deyirdi (12.s.157)

Firidun bəy Köçərlinin həmfikirlərindən N.B.Vəzirovun təlim-tərbiyə haqqında dəyərli düşüncələri olubdur. Vəzirova görə pis insan təbiəti yoxdur, insanın pis hərəkətləri və bəd əməlləri onun cəmiyyətdən, ailədən, məktəbdən aldığı tərbiyəsinin nəticəsidir.

Köçərlinin tədqiqi ilə məşğul olarkən çox maraqlı fikir-





lər ortaya çıxır. İstər o dövrün, istərsə də çox əvvəllərdə yaşayıb-yaratmış mütərəqqi fikirli insanların düşüncə tərzlərinin bir-birilərinə çox yaxın olduqlarını görmək olur. Belə düşüncəli şəxsiyyətlər xalqın, millətin mənafeyi naminə mücadilə etmiş, hətta həyatları bahasına bu yolda mübarizə aparmalı olmuşlar. Buradan belə nəticəyə gəlmək olur ki, doğrudan da insana elm, təhsil hava, su qədər vacibdir.

M.F.Axundov Qərbi Avropadakı tərbiyə sistemi ilə Şərq ölkələrindəki tərbiyə sistemini müqayisə edərək yazırdı: "Fransa və ingilis məmləkətlərində eşşəkləri, atları və öküzləri dəxi vurmaq və incitmək qədəğəndir, amma İran məmləkətində despotun fərmanı ilə, hətta cəlilüşşən üməranın ayaqlarını fələqqəyə qoyub çubuq vururlar və bir neçə vaxtdan sonra yenə bu rüsvay olunmuş ümərədan vəzirlər və sərdarlar qayırırlar və onlardan ixlas və iradət təvəqqe edirlər və bu biçarə ümərənın təbiətlərində despotun təhəkkümü təsirindən bir tövr rəzalət übudiyyət və biqeyrətlik hasil olubdur ki, çubkarlığı özlərinə hərgiz ar bilməzlər və bu növ zillət və rüsvayçılıqdan sonra yenə bu dünyada zindəganlığa talib olurlar"(2.s.63).

Nadan mollaların yanında təlim və tərbiyə keçən uşağın dəyənəklə cəzalandırılması və bunun adi hal kimi qəbul edilməsi o dövrün ən ağrılı təhsil, tərbiyə üsulu kimi qəbuledilməzdir. Bu və digər səbəblərə görə Firidun bəy Qərbi Avropadakı təlim-tərbiyə sistemi ilə Şərq ölkələrinin təlim-tərbiyə sistemini müqayisə edərək, mənfi halların tezliklə aradan qaldırılmasına çalışırdı. Təbii ki, mənfi təlim-tərbiyə üsulları hakim siniflərin mənafelərinə uyğun gəlirdi. Onlar qəsdən bu cür tərbiyə üsullarını müdafiə edərək saxlamağa çalışırdılar.

XVIII əsr fransız materialistləri kimi Azərbaycan maarifçilərinin əxlaqi baxışlarının da ən böyük nailiyyətlərindən biri bu idi ki, onlar anadangəlmə əxlaqi sifətlərin əleyhinə çıxaraq, insanların əxlaqi və əqli qabiliyyətlərinin fitrən bərabərliyi ide-

yasını irəli sürmüş və bunu özlərinin əxlaqi görüşlərinin əsas prinsipi elan etmişlər.

İnsanın əqli və əxlaqi qabiliyyətlərinin fitrən bərabərliyi haqqında maarifçilərimizin bu müddəası Azərbaycanın o zamankı tarixi şəraitində müstəsna əhəmiyyət kəsb edirdi. Əvvəla, bu müddəa onların iradəsindən asılı olmayaraq, feodal-silki imtiyazlara qarşı çevrilmişdi. Bu müddəa obyektiv olaraq, bəylərin, mülkədarların, burjaziyanın və ümumiyyətlə imtiyazlı feodal silklərinin ağıl və əxlaq cəhətcə fitrən başqalarından üstün olmaları, əxlaqın qanla, irsən keçməsi və s.haqqında bir sıra feodal-burjua əxlaq nəzəriyyələrinə qüvvətli zərbə idi. Onlar yekdilliklə ağlın, yüksək əxlaqi sifətlərin varlıların inhisarına verilməsinin əleyhinə çıxış etmişlər.

M.Möhsün Nəvvabın "Pəndnamə" əsərində dediyi "Adəmiyyət və insaniyyət əba və qəba və libasi-fəxriyyə ilə dügil, bəlkə gözəl olan xalq, göyçək olan xasiyyətlədir" sözləri bütün maarifçilərimizin fikri idi. İkincisi, bu müddəa onların cəmiyyətdə əxlaqi təkamül və tərəqqi haqqında fikirlərinin əsasını təşkil etmişdir(11.s.20).

Azərbaycanın görkəmli alimi, maarifpərvəri, yazıçı və şairi A.Bakıxanov insan xarakterində olan mənfi cəhətlərə qarşı mübarizə aparmağı tələb edir və uşaqlarda arzu olunan müsbət keyfiyyətlərin tərbiyə edilməsini məsləhət görürdü. Müsbət keyfiyyət dedikdə Bakıxanov nəzakətli olmağı, təvazökarlığı, səmimiliyi, doğruçuluğu, sözü adamın üzünə deməyi bacarmağı, diqqətli olmağı, düşüncəli hərəkət etməyi, möhkəmliyi, dəqiqliyi, səlisliyi, planlı işləməyi, səliqəni, həssaslığı, dostluğu, özününtənqidi, müvazinətli olmağı, dözümlülüyü, özünü ələ almağı, ehtiyatlı olmağı, əməksevənliyi və s. nəzərdə tuturdu(2. s.25).

Təlim-tərbiyə sahəsində zəngin irs qoyub getmiş Cəlil Məmmədquluzadənin fikrinə görə tərbiyənin məqsədi geniş





təhsilli, azadlığı sevən, xalqına, vətəninə məhəbbət bəsləyən və zəhməti sevən mübariz insanlar yetişdirməkdən ibarətdir. C.Məmmədquluzadənin təsisçisi, naşiri və redaktoru olduğu "Molla Nəsrəddin" jurnalı tərbiyəvi cəhətdən daha səciyyəvi və orjinaldır. Məmurların, ruhanilərin, mövhumatçı mollaların və hətta sadə, avam zəhmərkeşlərin ya bilərəkdən, ya da nadanlıq ucbatından etdikləri hərəkətləri, etikadan kənar məsələləri C.Məmmədquluzadə bu jurnalda işıqlandırmaqla, eyni zamanda insanlara təlim-tərbiyəni də aşılayırdı. Ciddi tənqid hədəfinə tuş gələn C.Məmmədquluzadənin və onun əməkdaşlarının dəfələrlə "kafir" elan edilərək hətta ölümünə fitva verilir. Təqiblərə məruz qalan jurnalın və onun əməkdaşlarının məhkəmə çəkişmələri üç ilə qədər davam edir. Ə.Qəmküsar da məhkəməyə yazdığı izahatında jurnalın mövqeyini müdafiə edir və məhkəmədən xahiş edir ki, vəkili sifəti ilə məhkəmə iclasına "zadəgan" Eynəli bəy Sultanov, "ekspert" sifəti ilə "müsəlman ədəbiyyatının bilicisi və habelə rus dilini yaxşı bilən" F.b.Köçərli, İranın Tiflis vitse-konsulu Mirzə Məhəmməd xan, şahid sifəti ilə isə şeyxülislam Axund Pişnamazzadə, şahzadə Kazım Mirzə qacar və Məcidüs-Səltənə Əfşar dəvət olunsunlar. (6.s.60).

Bu adamların məhkəmə iclasına dəvət olunması rədd edilsə də, sonunda Firidun bəy Köçərli ilə Eynəli Sultanovun "Molla Nəsrəddin" jurnalının redaktorlarının müdafiə olunmasına çox böyük köməyri dəymişdir.

Firidun bəy Köçərli "Molla Nəsrəddin"nin siyasi və dini irtica əleyhinə mübarizə aparan jurnal olduğunu bilirdi. Bu jurnalın çətin maneələrlə rastlaşmasına baxmayaraq, əsl fədakarlıq və dözümlülük nümayiş etdiridi. Əslində bu jurnal cəmiyyətin eybəcərliklərini açan, onları tənqid edən, bu yolda mübarizə aparan jurnalı olduğu üçün onu döyüşkən xalq jurnalı da adlandırırdılar.

Mütərəqqi insanlardan olan Seyid Əzim Şirvaninin də tə-

lim-tərbiyə haqqında xüsusi fikirləri olmuşdur. Şirvaninin həyat və yaradıcılığının inqilabdan əvvəl tədqiqi sahəsində görkəmli tənqidçi Firidunbəy Köçərlinin rolu xüsusilə böyük olmuşdur. F.Köçərli S.Ə.Şirvaninin bəzən dinə müsbət münasibətini onun dünyagörüşündə ziddiyyət kimi deyil, yaradıcılığının ən yaxşı cəhəti kimi qiymətləndirirdi(9.s.5).

Şirvaninin Azərbaycan ictimai-ədəbi fikir inkişafı tarixində bir müəllim, publisist və alim kimi də böyük xidmətləri vardır. O, yeni üsulda məktəb açmış, yeni tipli dərslik hazırlamış, gənc nəslin təlim-tərbiyəsi ilə ciddi məşğul olmuşdur. Bu əsərlərin mərkəzində maarifçilik ideyaları ilə yanaşı, xalqı maarifləndirmək, təlim və tərbiyələndirmək kimi meyarlar dayanır. Firidun bəy bütün mütərəqqi fikirli ziyalıların xalqın maariflənməsi sahəsində gördükləri işləri dəyərləndirərək onların fikirlərinə qoşulur və bu barədə xüsusi çıxışlar edirdi.

Firidun bəy müasirləri olan şair və yazıçılarla məktublaşaraq onların ölkəsində cərəyan edən hadisələrə münasibətini də öyrənməyə çalışırdı. Həmçinin, F.b.Köçərli bu dahi şəxsiyyətlərin təlim-tərbiyə haqqında söylədikləri ibratamiz fikirləri yüksək qiymətləndirirdi.

Maraqlıdır ki, klassiklərimizin həyat və yaradıcılığında elm, təhsil, təlim və tərbiyə haqqında olan yüksək fikirlərinin eyni olduğunu və fikirlərinin üst-üstə düşdüyünü görürük. O, bir pedaqoq olaraq bunları daha gözəl anlayırdı və şagirdlərinə də gözəl fikirlər tətbiq etməyə çalışırdı. Bu artıq dövrün, zamanın tələbi idi.

Firidun bəy Köçərli təlim-tərbiyədə intizam və səliqənin mühüm vasitələrdən biri olduğunu anlatmağa çalışırdı. Tərbiyədə başlıca rol əxlaqi intizamın üzərinə düşür. F.b.Köçərli əxlaqi intizamın insan həyatının nizamı olduğunu, ömrün düzgün istiqamətləndirilməsini tənzimləyən mexanizm kimi görürdü. Təlim-tərbiyədə intizam məhfumu çoxcəhətli anlayışdır.





Tərbiyənin başlıca xüsusiyyəti olan əxlaq əgər insanın daxilində varsa onun inkişafı o qədər də çətinlik yaratmır. Hər bir fərdin davranış qaydalarına, etik normalara riayyət etməyə borclu olduğunu qeyd edən ədib anlatmağa çalışırdı ki, belə insanlar tərbiyəni daha tez qavrayır və dərk edir. Özünü əməkdə, ictimai həyatda, ailədə, məktəbdə və s. yerlərdə göstərən tərbiyə əxlaqi tərbiyənin əsas məziyyətlərindəndir. Firidun bəy Köçərli dövrünün maarifçilik fikirlərinin bəlkə də ən fəal və coşqun təbliğatçılarındandır. Təlim-tərbiyənin həyatın ən vacib, aktual mövzusunu ardıcıl təbliğ etməsi bir daha Köçərlinin dahi şəxsiyyət olduğunu təsdiq edir. Həyatını bütünlüklə azadlıq mübarizəsinə həsr edən Köçərli tutduğu amalından peşman deyildi. O hətta həbsdə olduğu müddətdə də müəllim adını, müəllim şərəfini qoruyaraq özünün yüksək tərbiyəsini göstərmiş, yalan danışmağı qəbul etməmişdir.

Firidun bəy Köçərli təlim-tərbiyəni insanın əxlaqı ilə vəhdətini qeyd edirdi.

Görkəmli ədibimiz F.b.Köçərli də başqa maarifçilərimiz kimi yüksək əxlaqi keyfiyyətlərin elm, tərbiyə yolu ilə əldə edildiyini söyləmişdir. Məlumdur ki, vaxtı ilə "Oğluma nəsihət" başlığı ilə öyüdlər yazmaq dəbdə olmuşdur. Əlbəttə, bizim dövrümüzdə gənclərə bu cür nəsihət yazmaq vaxtı keçmişdir. İndi bu cür əsərlər gənclərimizin zehninə və qəlbinə tam hakim ola bilməz. Hər dövr əxlaqı həyata öz möhrünü basır və əxlaqı davranışlar qarşısında yeni tələblər qoyur(3.s.454).

F.b.Köçərli belə bir əqidədə olmuşdur ki, pis əxlaqi sifətlər yanlış tərbiyənin məhsuludur. Hər bir insan doğularkən saf, məsum olur. Onu yaşadığı mühit istədiyi kimi tərbiyələndirir. Bunun əsasında əvvəl ailə tərbiyəsi, sonra isə ictimai tərbiyə dayanır. Firidun bəy insani şəxsiyyətin formalaşmasında ailə və məktəbdə verilən tərbiyənin qarşılıqlı vəhdətinə ciddi əhəmiyyət verirdi.

"Uşaq dəxi qabili tərbiyə bir şey olduğuna görə onu nə tövr tərbiyə etsən o cürə də adam çıxar. Tərbiyə işində cüzi səhlənkarlıq uşağın gələcəyini pozub evini yıxar" söyləyən Firidun bəy Köçərli, ailə tərbiyəsinə böyük əhəmiyyət verirdi. O yazırdı: "Tərbiyə amillərinin ən mühümlərindən birisi də ailə tərbiyəsidir, ailədə uşaq öz bilik və xəsaili-mənəviyyəsinin əsasını alır. Burada onun qəlbinə bəyənilmiş xasiyyətlərin, yaxud qəbahətlərin toxumları saçılır, ailədə hökmfərma olan mənəvi məfkurələr (ideal) yavaş-yavaş onun qəlbində yer edir. Uşaq bilaixtiyar ailədə hökmfərma olan mənəviyyata alışır və onun ailədəki saf qəlbinə ailənin mənəviyyatı əks salır. Uşaq öz ailəsində sədaqət, zəhməti sevmək, yaxud adamlara məhəbbət, itaət və ifayi vəzifə görür-özündə bu xasiyyəti dərk edir.Əgər bunların əksinə olaraq, ailədə xudpəsəndlik, tənbəllik, şöhrət düşgünlüyü müşahidə edirsə, özü də xüdpərəst, tənbəl bir vücud olub, heyəti-ictimaiyyənin nəinki faydasız, bəlkə müzür bir fərdi olur. Uşaq hər bir şeyi yaxşı və yaman tövsiyə və nəsihətlə yox, əksər əmsalə rağib olmaqla götürür (1.s.75). Azərbaycanın körkəmli şəxsiyyətlərinin təlim-tərbiyə haqqında maraqlı fikirləri olmuşdur. Məsələn:

Görkəmli maarifpərvər H.Zərdabi tərbiyənin bütün sahələrdə vacibliyini qeyd etməklə bərabər, gigenik və fiziki baxımdan daha çox lazım olduğunu yazırdı. H.Zərdabi təlim-tərbiyə üsulunda şagirdlərə zəhmətsevərlik, əməksevərlik kimi vacib olan məfhumların öyrədilməsini də əsas sayırdı. Zərdabi fiziki tərbiyəni ümumi tərbiyənin zəruri şərtlərindən hesab edirdi. Əməksevərliyin, zəhmətkeşliyin özünün də əsasında təli-tərbiyə dayanır. Ağıllı düşünən insan təlim və tərbiyənin məsuliyyətini hər addımında hiss edir və onun tarazlığının pozulmamasına çalışır. Bunun bariz nümunəsi olaraq Həsənbəy Zərdabinin ailə-məişət mövzusunda qələmə aldığı tərbiyəvi əsərlərini göstərmək olar.

Seyid Əzim Şirvaninin fikrinə görə inkişafda olan şəxsiyyətin formalaşmasında onun daxili imkanlarının zahirə çıxarılmasında tərbiyənin böyük rolu var. O, təlim və tərbiyənin ayrılmaz olduğunu, tərbiyəni xöşbəxtliyin əsası, insanın dövləti, malı hesab etmişdir.

*"Ki, nə qədər olsa şəxs naqabil,*
*Tərbiyətlə genə olur kamil".*

Satirik şair S.Ə.Şirvaniyə görə elm, təhsil, tərbiyənin başlıca vasitəsi, gənc nəslin dünyagörüşünün təşəkkülündə qüdrətli silahıdır. Onun şeirlərində elm işıq, cəhalət isə qaranlıq kimi göstərilir. S.Ə.Şirvani elmi cənnət, avamlığı isə cəhənnəm adlandırıdı. O,

*"Elmsiz kimsənə hünərsizdir,*
*Elm-bitərbiyət səmərsizdir".*

deyirdi Seyid Əzim Şirvani. Bu əsərlərin mərkəzində maarifçilik ideyaları ilə yanaşı, xalqı maarifləndirmək, təlim və tərbiyələndirmək kimi meyarlar dayanır.

Firidun bəy Köçərli bəlkə də bir pedaqoq nöqteyi-nəzərindən uşaqların tərbiyəsində olan qüsurları tez görürdü və bu təlim-tərbiyənin düzgün yola yönəlməsində daim ailənin məktəblə vəhdətindən bəhs edirdi. Firidun bəy onun kimi düşünənlərin yaradıcılığında da bu cəhətləri görürdü. Məsələn, Seyid Əzim uşaqların təlim-tərbiyəsində yumruq, sillə və falaqqanın əleyhinə çıxmış, pedaqoji tərbiyəni əsas götürmüşdür. Məlumdur ki, hələ o zaman M.F.Axundov, H.Zərdabi və N.Vəzirovun arzuladığı dərs vəsaiti yox idi. Buna görə də Seyid Əzim bu çətinliyi aradan qaldırmaq üçün köhnə təlim kitablarından fərqli yeni dərs vəsaiti yaratmaq haqda düşünür, "Rəbiül-ətfal" adlı dərslik hazırlayır. Firidun bəy Köçərli həmin dərsliyin üç dəftərdən ol-

duğunu yazmışdır. Bu göstərir ki, dərsliyin ikinci variantı (1883) F Köçərliyə məlum imiş. Lakin həmin üç dəftərdən bizə ikisi gəlib çatmışdır(9.s.167).

Firidun bəy Köçərli bir pedaqoq kimi uşaqların xasiyyətini, psixologiyasını və ümumən təbiətini gözəl bilirdi. Qərb və rus xalqlarının təlim-tərbiyə, təhsil, tədris üsullarını öyrənən Köçərli Azərbaycan balaları ilə onların arasında olan dərin uçurum fərqini görürdü. Bu nöqteyi-nəzərdən O, geridə qalan xalqının içərisində maarifçiliyi yaymaq, nadanlığa, avamlığa və cəhalətə qarşı mübarizə mövqeyində barışmaz idi.

Zəngin ədəbi ənənələrin ən yaxşı cəhətlərini özündə toplamış istedadlı poeziya klassiklərimizdən olan satirik milli şairimiz M.Ə.Sabirin də təlim-tərbiyə üsulu haqqında maraqlı fikirləri olubdur. Sabir poeziyanın elə yeni bir növünü yaratmışdır ki, hamı üçün aydın və sevilən idi. Sabiri yenilikçi şair adlandırırdılar. O, proletariatın kapitalizmə qarşı apardığı amansız mübarizə şəraitində yaradıcılığını davam etdirirdi. Onun qəlbi xalqın qəlbi ilə bir döyünürdü. Sabir millətin dərdini, güzəranını satirik formada qələmə alaraq oxucuya çatdırırdı. Bəzi şeirlərini "Ağlar güləyən" imzası ilə dərç etdirən şair, bu imzası ilə gah güldüyünü, eyni zamanda gülə-gülə ağladığını izah edirdi. Xalqını cəhalət, mövhumat və istismar məngənəsində əzilən görən şairin qəlbi necə gülə bilərdi. Sabir tərbiyəvi xarakterli yazılarını cəsarətlə "Molla Nəsrəddin" jurnalında dərc etdirirdi.

Müasirləri kimi Firidun bəy də uşaqların təlim-tərbiyəsini, onların elmə yiyələnə bilmələrini daşda nəqş salmağa bənzədirdi. Xalqın gələcəyini düşünən gərəkdir ki, uşaqlıqda dərs öyrənsin və gələcəyini hələ gənc yaşlarından qurmağa başlasın.

Əks təqdirdə yaxşı tərbiyə olunmayan gənc nəsıin gələcəkdə ölkəsi, milləti üçün hansı qəhrəmanlıqları göstərə biləcəyi sual doğura bilər.

Firidun bəy Köçərli təkcə maarifpərvər, vətənpərvər deyildi, o eyni zamanda həm də insanpərvər idi. Köçərli insanlara insan olaraq, canlı fərd olaraq hörmətlə yanaşırdı. Belə müsbət xüsusiyyətlərinə görə o, xalq arasında böyük nüfuza malik olmuşdu.





Klassiklərimizin sələflərindən olan F.b.Köçərli təlim-tərbiyənin düzgün yolunun vacibliyini vurğulayır və istər məişətimizdə, istərsə də sosial həyatımızda bunu müxtəlif səbəblərlə əsaslandırırdı. Əslində çarizmin hökmranlıq etdiyi Azərbaycanda millətin maariflənməsi əleyhinə olan hakimiyyət heç təlim-tərbiyə işinə maraqlı deyildi. Onlar təlim-tərbiyə işinin gənc nəslin formalaşmasında böyük əhəmiyyət daşıdığını gözəl anladıqları üçün Azərbaycanda hər bir tərəqqiyə mane olmağa, təhsilin, azadlığın və təlim-tərbiyə üsulununqarşısını almağa çalışırdılar.

Firidun bəy Köçərli bu yolda mübarizə aparan öncüllərdən idi. Köçərli nəinki gənclərin, eyni zamanda qadınlarımızın maariflənməsinin, təhsilə cəlb edilməsinin, elmə, biliyə yiyələnməsinin və azadlığının gələcək həyatımızda nə qədər önəmli olduğunu anladığı üçün mübarizədən çəkinməyirdi. Savadlı ananın həyata savadlı övlad verəcəyini söyləyən Köçərli, övladın təlim-tərbiyəsində əsas faktor ananın olduğunu söyləyirdi.

F. Köçərli təlim-tərbiyə işində müəllimlərin də fəal iştirakının qeyd edərək müəllimlərin təmkinli, nəzakətli və həssas qəlbə malik olmaq kimi keyfiyyətlərinin olmasını da zəruri sayırdı. O, müəllimlərdən çətinlikdən qorxmamağı, nöqsanları görüb gizlətməməyi, təşəbbüskarların səsinə səs verməy tələb edirdi.

Müəllimlər ittifaqında olan çıxışlarda F.b. Köçərli artıq təlim-tərbiyənin tərəqqi yolunu görürdü. "Müəllimlər ictimaiyyətinə dair" məqaləsində(1906) yazırdı: "Müsəlman müəllimlərinin əvvəlinci təsis olunmuş ictimai, əlbəttə qüsursuz deyil, onun kəm-kəsiri çoxdur, lakin hər halda demək olur ki, gələcək ictimai və ittifaqımız üçün bu bir imtahandır".

Gələcək ali fikirlərimizin, müqəddəs niyyətlərimizin əmələ gəlməsi və nəticə verməsi üçün bir nümunədir. Bu ictimada biz ancaq öz gücümüzü və bacarığımızı, bilik və təcrübəmizi və az bilikli olmağımızı aşkar edir, özgə bir tərəfdən bəzi yaxşı sifətlərimizi də açıq aydın-eylədi. O, sifətlərdən şayəni diqqət olan budur ki, ictimai cəmiyyət olan müəllimlər öz eyib və qüsurlarını göstərməkdən çəkinməyib, müqəddəs vəzifələrini layiqincə icra və əda etməməklərini açıb söylədilər və hər kəs öz mübtəla olduğu mərəzdən bəhs edib, o mərəzin əsasını dəxi bəyan eylədi və naxoşluqlarına çarə axtarmağa sövq həvəs göstərdi.

Bu ittifaq təlim və tərbiyə yolunda işləmək, gələcəkdəki tərəqqi və səadətimizə şəhadət verir"(5.s.17).

Qabaqcıl maarifpərvər Firidun bəy Köçərli təlim-tərbiyədə əxlaqi tərbiyə ilə yanaşı əqli tərbiyəyə də böyük əhəmiyyət verirdi. Təlim-tərbiyə haqqında çox maraqlı fikirləri olan Azərbaycanın görkəmli maarifpərvər alimi A.Bakıxanovun yalnız öz əsərlərini deyil, habelə rus ədəbiyyatından etdiyi tərcümələri də xalqın başa düşəcəyi dildə yazdığına görə Firidun bəy Köçərli dəyərləndirərək onun tərcümələri haqqında yazırdı: " Bakıxanovun "Eşşək və bülbül" adlı təmsili şairlərimizdən heç kim Bakıxanov qədər sadə, gözəl, bədii ustalıqla tərcümə edə bilməmişdir"(2.s.31). Əslində bu tipli yazıların, təmsillərin özündə bir tərbiyəvi cəhət vardır. Heyvanların dili ilə insanların etdikləri nöqsanları işıqlandırmaq, onları pis əməl və vərdişlərdən uşaqlaşdırmaq kimi halların aradan qaldırılmasında mühüm vasitə olan belə yazıları insanın təlim-tərbiyəsinə təsir göstərə bilən mühüm amillərdən hesab etmək olar.

Məlumdur ki, XIX əsrin birinci yarısında A.Bakıxanov, eyni zamanda uşaqların və gənclərin təlim-tərbiyəsi ilə əlaqədar "Təhzübil-əxlaq" və "Kitabi-nəsihət" adlı əsərlər yazmışdır. Qəflət vaqe olmasın, xəlqin göyçəkliyini istəyən gərəkdir uşaqlıqda dərs öyrənsin. Çünki sonradan, pis olan xasiyyət və





adətlər təbiətdə qərar tutsa elm və ədəb insana müşkül əsər eylər (9.s.171). Belə yazıların özünün də tərbiyəvi cəhətlərin olduğu aydındır.

Təlim-tərbiyə haqqında Qərbi Avropa və Rusiyanın qabaqcıl maarifpərvərlərinin pedaqoji fikirləri Köçərlinin fikirlərinə çox yaxın idi. Firidun bəy təlim-tərbiyə prosesində insanın biliklərə müsbət münasibətinin olduğunu, xarici aləmi dərindən düşündüyünü söyləyirdi. Ümumiyyətlə Firidun bəy təlim-tərbiyə prosesində dəyərli şəxsiyyətlərin əsərlərində bu cür fikirlərin olduğunu görür və bu bu cəhətdən də çıxış edirdi. Köçərli ondan əvvəl ki, dövrdə də təlim və tərbiyə haqqında söylənən fikirlərə istinad edərək, insan faktorunun tərbiyə almadan, təlim keçmədən insan kimi formalaşmasının mümkünsüzlüyünü anlayırdı. Görkəmli ədəbiyyatşünasımız bu haqda xeyli sayda məqalələr dərc etdirmiş, təlim-tərbiyə üsulunda onu narahat edən məsələlərdən bəhs etmişdir. Burada əxlaq tərbiyəsinin rolunu xüsusi olaraq vurğulayırdı.

F.b.Köçərlinin fikrincə tərbiyəsiz insan ibtidai insandan heç nə ilə fərqlənmir.

Mənbələrə istinad edərək qeyd etmək olar ki, F.b.Köçərli şəxsiyyəti son dərəcə ədəbli, nəzakətli, əxlaqlı ziyalı olubdur. Dostlarının Köçərli haqqında dərc etdirdikləri xatirələri nəzərdən keçirdkdə, onun etik normalardan kənara çıxmadığını görürük. Tərbiyəvi xüsusiyyətlərə malik olan Köçərli şagird və tələbələrini də məhz belə ruhda tərbiyələndiridi. Şüurlu insanın təlim-tərbiyəsinin olması vacibdir. Köçərli habelə təlim-tərbiyə üsullarında etik normalara cavab verən davranış, əxlaq nəzəriyyəsini də əsas hesab edirdi.

Məlumdur ki, 1905-ci il inqilabı geniş xalq kütlələrinin siyasi şüurunun oyanmasında böyük təsirə malik olub. Bu inqilabın təsirindən insanların ictimai, sosial və siyasi həyatında mühəm dəyişikliklər baş verib. Rusiyadakı hüquqsuz xalqların

azadlıq hərəkatının alovlanmasına təkan verən I rus inqilabı Azərbaycan xalqının həyatında da canlanma yaratdı. Adamlar öz məhdud məişət və həyat tərzi çərçivəsindən kənara çıxmağa, bütün ölkənin həyatına qoşulmağa , öz hüquqsuzluğunun səbəbini anlamağa başladılar. Firidun bəy Köçərli də bu hərəkatda ən fəal mübarizə aparan ziyalılardan idi. Vətənpərvər alim yalnız xalqının xoşbəxt gələcəyi üçün daim çalışırdı. O da öz xalqının başqa xalqlar kimi müəyyən mövqedə olmasını, digər qabaqcıl ölkələr kimi ölkəsinin mədəniyyətinin, əxlaqi keyfiyyətlərinin yüksək olmasını arzulayırdı. Mübarizədən çəkilməyən Köçərli müasirlərini də bu yola səsləyirdi.

Məsələn Avropa tərbiyəsi ilə Azərbaycanın tərbiyəsinə müqayisəli baxışı dedikdə Köçərlinin tək Qərb ölkələri deyil, elə qonşumuz olan rusları da nəzərdə tuturdu. Ədib, övladı bu gün üçün deyil, eyni zamanda gələcək üçün tərbiyələndirib hazırlamağı tövsiyə edirdi.

Professor Şamil Vəliyevin redaktorluğu ilə Firidun bəy Köçərlinin "Əsərləri"nin yenidən işıq üzü görməsi təqdirəlayiqdir. "Əsərlərin" əlavələr bölümündə səkkiz müxtəlif məqalələr ilk dəfə olaraq Ş.Vəliyev tərəfindən tərcümə edilmişdir. Bu məqalələr Firidun bəy Köçərlinin 1915-ci il 21 dekabr tarixli "Yeni İqbal" qəzetində "Almanların təlim və tərbiyəsi" başlığı altında verilibdir. Heç bir tədqiqatçı tərəfindən dərc edilməyən məqalələrdə bir çox maraqlı, insanı düşündürən məqamlara toxunulmuşdur.

Firidun bəy Köçərli "Almanların təlim və tərbiyəsi"ndən bəhs edən məqaləsində yazır: "Yüz sənə bundan müqəddəm Napoleon tamamı dünyanı təxir etmək fikrinə düşüb bir çox yerləri zəbt etdivə Yena çayının kənarında almanlara qalib gəlib məmləkətlərini zirü zəbər elədi. Buna səbəb Napoleonun qoşununda olan nizam və qaidə və bundan əlavə hər əsgər öz vəzifəsini ifa etməyə kamalincə hazır olmağı idi. Təlim və tərbiyə





işləri Napoleonun verdiyi dəsturüləməl ilə icra olunurdu. Bu dəsturüləməlin hökmüncə hər bir firəng öz millətinin dövlətinin xadimi və hamisi olmağa borclu idi. Hər fərdin şan və rütbəsi dövlətinə yetirdiyi faidənin miqdarınca vəzn olunurdu. Alçaq, orta və uca məktəb və mədrəsələrdə ancaq o qism elmlər və fənnlər təlim olunurdu ki, onlardan Firəngistanın istiqbalı şövkət və həşəməti gözlənilirdi.

Almanlar Napoleonun zərbindən məğlub və münhəzim olandan sonra qəflətdən ayıldılar və ən əvvəl təlim və tərbiyə işlərini nizam və qaidəyə salmağa sürətlə iqdam etdilər. Az müddətin içində çox şeylərə nail oldular.

Maddi zərərin yerini mənəvi bir qüvvə tutdu. Hər fərdin qəlbi başqa bir zövqlə, elmi bir hisslə doldu. Hər kəsin baş arzusu yüksəlmək, elm və hünərlə qüvvətlənmək, tərəqqi yolunda qeyrilərə səbqət etmək oldu. Yaxşılaşmaq və ətrafda olanları gözəl və məğrib bir hala gətirmək niyyəti hər nemsənin qəlbinə çökdü (4.s.477).

Təlim-tərbiyə işində bədii əsərlərin gücünün böyük qüvvəyə malik olduğunu göstərən Firidun bəy, belə əsərlərdə müsbət qəhrəman obrazlarının bolluğunun vacibliyini, uşaqların məhz belə qəhrəmanlara bənzəmək arzularının olduğunu vurğulayırdı. Pedaqoq olaraq, bunları gözəl anlayırdı. Uşaq psixologiyasına yaxından bələd olan Köçərli məhz bu səbəblərdən uşaq ədəbiyyatının, ibtidai sinif dərsliklərinin yüksək formada hazırlanmasına çalışırdı.

Əslində, təlim-tərbiyədə uşaqlar üçün yazılmış əsərlərin təsirindən Firidun bəy Köçərli haqlı olaraq əsas gətiridi. Gələcək nəslin insan kimi cəmiyyətdə yer almasında məktəbin üzərinə daha böyük məsuliyyət düşdüyünü Köçərli hər an xatırladırdı.

O yazırdı: "Məktəbin borcu elmli və tərbiyəli adamlar yetirməkdir. Hər şagird öz fitri və cibilli istedadına onda gərəkdir qəza tapsın ta ki, ancaq təhsildə müxtəlif hünərlər biruzə gətir-

məyə qadir olsun. Çünki bəşəriyyət aləmini bilumum və hər bir məmləkəti bilxüsus zinətləndirən və dövlətləndirən bu müxtəlif hünərlərdir. Adamların işlərində. Fikirlərində və hünərlərində müşahidə olunan birlik və oxşayış hər növ tərbiyənin qüsuruna dəlalət edir. Bu növ adamlar bəşəriyyət aləminə zinət və məmləkətə mənfəət yetirməkdən acizdirlər.

Firidun bəy Köçərli müəllimin köhnə məktəbin qabiliyyətsiz, səriştəsiz müəlliminin çubuq gücü ilə verdiyi tərbiyə üsulunu pisləyir və qeyd edir ki, belə tərbiyə nəticəsində rəhmsiz və dəhşətli canilər yetişdirə bilərlər(5.s.16).

Millətin milli ruhda tərbiyə olunmasına gəlincə isə Köçərli bunu Qərb ölkələrində cərəyan edən hadisələri misal göstərməklə qələmə alırdı. Almanların təlim-tərbiyə qaydalarını dəyərləndirən F.b.Köçərli, onların məğlubiyyətdən sonra nəticə çıxararaq qalib olmalarını xüsusi olaraq qeyd edirdi.

Almanlar məğlubiyyətlərindən sonra yetərincə inkişaf etməyə, irəliləməyə və vətəni müdafiə etməyə qərar verərək gələcək üçün övladlarını bu ruhda hazırlamağa başladılar. 1806-cı ildə Napoleona məğlub olan almanlar intiqam almaq hissi ilə yaşayırdılar. Nəhayət, 1870-ci onlar ildə fransızları Sedanda mühasirəyə salaraq Napoleonun intiqamını onun nəslindən aldılar. Onların qalib gəlməyinə səbəb nə oldu? Necə oldu ki, almanlar firənglərə qalib gəldilər?(4.s.477).

Firidun bəy Köçərli "Almanların təlim və tərbiyəsi"adlı məqaləsində bunun çox maraqlı və dəyərli açıqlamasını şərh edərək yazırdı ki, "firəngləri məğlub edən almanların qələbəsində onların məktəblərinin və müəllimlərinin rolu oldu. Yaxşı imtahan verən və qorxudan çıxan almanlar hətta qeyrilərə qorxu və dəhşət gətirməyə başladılar".

F.b.Köçərli "Əsərləri"ndə böyük dövlətlərin daha da güclənməsi, ərazilərini genişləndirməsi və dünyaya hökmranlıq etmək arzusunda olduqların belə şərh edirdi:





"Müxtəlif millətlər dənizlərdə gəmilər vasitəsilə zəruri əşyai və mayəhtacı uzaq vilayət və məmləkətlərdən öz vətənlərinə daşımağa məcburdurlar. Bu yolda qeyrilərin afət və sədəməsindən hifz və əmanda qalmaq üçün bir millət çalışır ki, yaraq və əsləhəsini artırıb yaxşılaşdırsın. Odur ki, biz görürük ki, böyük dövlətlərin hamısı təpə dırnaq yaraqlanıb hər anda məqami-zərurətdə dava etməyə hazırdırlar. Bu hazırlanmaq, dava etmək şövqü və xatirəsi üçün olmayıb bəlkə millətin istiqbal və səadətini təmin etmək üçündür. Ancaq mükəmməl surətdə yaraqlanmış qüvvətli və həşəmətli padşahlıq oğlanları yer üzündə cürətli və asudə gəzib bir məhəll və məkandan vətənlərinə azuqə və sair ləvazimat daşımağa müqtədirdirlər"(4.s.480).

Buradan göründüyü kimi Köçərli qeyri dövlətlərin vətəndaşlarının öz ölkələri üçün çalışdıqlarını, vətən üçün səy göstərdiklərini və ölkələrinin başqa dövlətlərin üzərində hökmranlıq etməsi arzusunu qeyd edirdi. Bu cəhətin özündə də tərbiyə üsulunun elementləri görünür. Əlbəttə ki, hər bir vətənini sevən vətənpərvər öz dövlətini qeyri dövlətlərdən yüksəkdə görmək istər. Lakin bu zorakılıq, işğalçılıq və müharibələr olmadan olsa daha məqbul sayılar. Sözsüz ki, bu da mümkünsüzdür.

Firidun bəy Köçərli yaradıcılığında təlim-tərbiyənin əsasında onun pedaqoji fəaliyyətin dayandığı və bu fəaliyyətin də ana xəttini məhz bu müddəaların təşkil etdiyi aydın görünür. Köçərli ədəbiyyatın hər hansı sahəsi üzrə araşdırmalar aparırdısa orada tədrisin, maarifin, təlib-tərbiyənin gündəlik həyatımızda hava, su qədər vacibliyini göstərirdi. Firidun bəy Köçərli millətin vətən, torpaq uğrunda canından keçməsini, başqa dövlətlərin onun torpağına müdaxilə edə bilməsi kimi fikirlərini anlatmağa çalışırdı. Dövlətin güclü olması onun vətəndaşlarının vətənə qəlbən bağlı olması deməkdir. Geniş dünyagörüşünə malik olan ədib azərbaycanlıların da təlim-tərbiyəsində belə üsullardan istifadə edilməsini istəyirdi.

Əslində Firidun bəy Köçərlinin millətinin təlim-tərbiyəsi yolunda etdikləri ölçüyəgəlməzdir. Onun minbir əziyyətlə başa gətirdiyi "Azərbaycan türklərinin tarixi" əsəri bu cəhətdən tərbiyəvi xarakter daşıyır. Bu həm də ona görə qiymətlidir ki, kökümüzün öyrənilməsində mühüm addım hesab edilən bu əsər dahi klassiklərimizin əslən azərbaycanlı olduqlarını sübut edərək, üzə çıxara bildi, eyni zamanda azərbaycanlıların necə istedadlı xalq olduğunu bir daha göstərdi. F.b.Köçərlinin əsərləri Azərbaycanın ədəbiyyat tarixində qiymətli əsərlər sırasındadır. Amma zamanında ki, Köçərlinin on beş il üzərində zəhmət çəkdiyi bu əsəri çap etdirilməsi müşkülə dönmüşdü.

Y.V.Çəmənzəminli yazırdı: "Firidun bəy Köçərli kimi müqtədir bir ədib on beş il zəhmət çəkib, üç cild "Azərbaycan türklərinin ədəbiyyat tarixi"ni vücuda gətirib. Bunları çap etdirən yoxdur".

Daha sonra M.F.Axundovu, H.M.Zərdabini, F.Köçərlini çap etməyib, "bu kitablar bizə lazım deyillər"-söyləyən cəmiyyətlərə müəllif söz tapmır ki, cavab versin: "Pərvərdigarə! Nə böyük xəta edirlər. Ədəbiyyat tarixi həyati fikrimizi, onun tərəqqisini göstərib, milli simamımızı həm özümüzə, həm əcnəbilərə göstərən bir kitab olduqda, bizə mədənilik adı qazandırdıqda, niyə lazımlı olmasın, bilmirəm. Bu kitabı... bir əcnəbi yazsa, Avropada onun ilə böyük ad qazanardı. Görəsən nə üçün bizim aramızda Firidun bəy Köçərli cənabları kimi adamların əmələ gəlməsini şövq və həvəslə qarşılamırıq?"(10.s.254).

Firidun bəy Köçərlinin tərbiyə haqqında irəli sürdüyü fikirlər bu gün də öz əhəmiyyətini itirməmişdir. Milli dəyərlərimizdən irəli gələn təlim-tərbiyə üsulu həyatımızın bir çox məqamlarında təqdirəlayiqdir, bir çox hallarda isə inkişafa, tərəqqiyə mane ola biləcək bir vəziyyət yaradır. Doğrudur tərbiyə məktəbə, ictimai mühitə təsir göstərən amillərdir, lakin, bunun da yolunu düzgün istiqamətləndirmək gərəkdir. Əks halda manеələr, çətinliklər yarana bilir. Köçərli ailə tərbiyəsini ən yüksək tərbiyə hesab edirdi. O yazırdı: "Uşaq öz bilik, öz xəsali-mənəviyyəsinin əsas dünyasını ailədə alır. Burada onun qəlbinə bəyənilmiş xasiyyətlərin, yaxud qəbahətlərin toxumu saçılır, ailədə hökm-fərma olan mənəvi ideyalar yavaş-yavaş onun qəlbinə yer eləyir(5. s.42).





Firidun bəy Köçərli Qərbi Avropa təlim-tərbiyəsi dedikdə əsasən almanların və rusların təlim-tərbiyə sistemini nəzərdə tuturdu. Baxmayaraq ki, mütərəqqi fikirli ziyalılarımız xalqın təlim-tərbiyəsinin yüksəlməsi, təhsilin inkişaf etdirilməsi uğrunda müəyyən işlər görürdülər, bununla yanaşı başqa millətlərə mənsub seminaristlərlə azərbaycanlı uşaqların təhsil və tabiyəsində təqdirəlayiq cəhətlər də az olmayıbdır. Firidun bəy belə qənaətə gəlmişdir ki, təlim-tərbiyə təkcə ailə tərbiyəsi deyildir. O, ümumilikdə insanın bütün həyatını idarə edə biləcək ictimai və sosial təlim-tərbiyəni misal göstərir və həyatın bütün sahələrində tərbiyə formalarından sitat gətiririrdi. Avropa xalqların təlim-tərbiyə üsulu ilə Azərbaycan təlim-tərbiyə üsulunu müqayisə etdikdə o, xalqımızın nə qədər geridə qaldığını, savadsızlığın geniş vüsət aldığını, eyni zamanda millətin hələ də cəhalət yuxusundan oyanmadığını qeyd etməklə bərabər yalnız azərbaycanlılara xas olan bir çox cəhətləri də dəyərləndirirdi. Doğrudur çatışmamazlıqlar həddən ziyadə çox olsa da bu sadəcə dövrün çətinlikləri ilə də əlaqələndirilirdi. Məsələn: böyüklərə ehtiram, kiçiklərə rəğbət, ağsaqqala hörmət, dözümlülük, qorxmazlıq, igidlik, mətinlik, mərdlik kimi xüsusiyyətlərin xalqımıza məxsusluğunu Firidun bəy xüsusi qeyd edirdi.

Köçərli almanların mədəniyyət haqqında kitablar nəşr etdiridyini və bütün tədris ocaqlarında bu kitabların paylandığını haqda yazırdı: "Həmin bu məzmunda ki, almanlar öz mədəniyyət və kulturları səbəbilə yer üzündə gərəkdir ağalıq etsinlər, təlim kitabları təsərrüf olunub Almaniya məktəblərində təlim olunur. Bu kitablardan birisilə "tərbiyə müxbiri"-rus jurnalında cənab

Yefimov bizi tanış edir. Yefimovun məqaləsi ziyadə maraqlı və sayani-diqqət olduğu üçün onun bəzi yerləri ilə möhtərəm "Yeni İqbal"ın oxucularını aşina etməyi münasib hal gördük. Təlim kitabının müsənnifi Hartman "Vətən tanımaqlıq və vətən övladının tərbiyəsi" adlı əsərində bu qisim məlumat verir.

Köçərli daha sonra qeyd edirdi: "Vilhelm özü təlim və tərbiyə işlərinə müdaxilə edib Napoleon kimi başlayır-məktəb və mədrəsələrdə hansı elmlər və nə üsul üzrə təlim və tədris olunması çüçn dəsturüləməl yazmağa. 1899-cu sənədə mayın əvvəlində elan etdiyi fərmanın məzmununca məktəbin baş vəzifəsi vətən sevən və dövlətə xeyir verən nəsil hazırlamaqdır. Məktəb bu vəzifəsini kəmalınca düşünüb dərk etmiş olsa-gərəkdir ən əvvəl sosial-demokrat firqələrinə elani-hərb və bu fəsad firqələr əkdiyi toxumu puç və tələf etməyə çarələr bulsun. Almaniyanın sərvət və miknəti üçün onu sevən cavan və saf etiqadlı almanlar lazımdır, çünki sosial-demokratlar dövlətin zəif və pozğun olmağına çalışırlar. Millətpərəst və vətənpərvər cavanlar yetirməyən məktəblər gərəkdir bağlansın və müəllimlər qovulsun(4.s.478).

Vilhelmin sözlərinə görə nemsə(alman) gərəkdir ki, dövlətinin və millətinin uğrunda həyatını sərf etsin. Gələcək zaman Almaniya millətinin üzərinə iki böyük və mühüm məsələnin həllini həvalə edir. O məsələlərdən birincisi dünya zindəganlığına dair dirilik məsələsidir. İkincisi əxlaqa məxsusdur. Əvvəlinci məsələdə müsənnifi-kitab Almaniya dövlətinin ətraf və hüduduna və qonşu məmləkətlərin övza və əhvalına və beynəlmiləl mütəssil vüqua gəlməkdə olan cidal və rəqabətə diqqət yetirib yəqinlik hasil edir ki, bu qədər miləl və əqvamın böylə xidmətdə çalışıb vuruşmasına ümdə səbəb dirilik məsələsidir. Hər millət çalışır li, işıqlı dünyada yaxşı alış-veriş edib ixtiyarını əlində saxlasın, başqalarından asılmasın, zəruri mayəhtacını öz məmləkətində becərib hasilə gətirsin və məhsulatı dəyərli və qiymətli olsun və filcümlə daxil işlərini öylə bir qaidəyə salsın ki, heç bir





şeydə kəm və geri qalmasın. Əgər bir şeyə ehtiyacı olmuş olsa da qeyrilərdən onu almağa qüdrət və təvanası olsun. Hartman millətinin sərapa müsəlləh olduğunun səbəbini böylə açıcaq bəyan edəndən sonra deyir: bu halda Almaniya milləti maddi və iqtisadi cəhətcə böyük təhlükədədir (4. s.480).

Daim millət üçün əmək sərf edən Firidun bəy Köçərli təbii ki, bu məqaləni ürək ağrısı ilə qələmə alıb, ona görə ki, bu sözlərdə bir həsəd, bir ümid axtarıb. Mənbələrə istinadən qeyd etmək olar ki, Köçərlinin müasirlərinin əksəriyyəti təhsil, maarif və mədəniyyət yolunda mübarizə aparan ziyalılar olmuş və onlar mədəniyyətimizin carçıları adlandırılıblar.

Alman təlim kitabının müəllifi olan Hartman "Vətəni tanımaqlıq və vətən övladının tərbiyəsi" adlı əsərində bir qisim məlumat verərək yazırdı: "İngiltərənin torpağının on dəfə Almaniya torpağından artıq olduğunu və dünyanın dörd bir hissəsi İngiltərənin ixtiyarına keçibdir. O, Fransanın da ondan kənarda qalmadığını qeyd edirdi. Bu dövlətlərin hegemonluq iddiasını Köçərli belə izah edirdi ki, Fransa dünyaya malik olmaq iddiasındadır və bir çox məmləkətlər artıq onun nüfuzuna daxil edilərək zəbt olunubdur. Amerikallar isə Şimali və Cənubi Amerikanın hər tərəfini tutublar və hər iki qitəyə sahibləniblər. Avropalılardan bir kəsin oraya daxil olmasına imkan vermirlər".

Rusiyaya gəldikdə Hartman deyir: "Rus dövləti əjdaha kimi şişib Asiya kimi böyük bir qitənin şimali səmtini tamamən zəbt ediblər. Ancaq bir Almaniya üzük qaşı kimi ortalıqda qalıbdır. Mətahımızı satmaq üçün köhnə müştəriləri əldə saxlamaq və tazə müştərilər tapmaq məsələsi gün-gündən çətinləşir. Bununla belə xarici ticarətimizə rövnəq və bazar tapmasaq dolana bilmərik. Əgər xarici bir dövlət bizim ticarətimizin intişarına mane olsa, əgər azacıq bir vəqtdə də olsa karxana və fabrikalarımız hasilə gətirdiyi əşya və əmtiənin satılmasına sədd çəkilsə dəfətən onu hiss edərik, haman dəm fabrikalarımız yatır, məta-

hımız rövnəqdən düşür, fəhlələrimiz işsiz qalıb şuriş və iğtişaş qalxızırlar". Bunun üçün Almaniya dövləti qarşısına belə bir vəzifə qoyur ki, "məmləkəti xəta və bəladan hifz edici zirək və cəsur övlad yetirək. Hər nəhv olursa olsun-gərəkdir ki, ticarət meydanı üzümüzə açıq qalsın, hər millət ki, ticarət meydanının bizim üzərimizə qapanmasına çalışır bizim düşmənimizdir, çörəyimizin kəsilməsinə çalışır".

Firidun bəy Köçərli Qərbi Avropa ölkələrinin təlim-tərbiyə üsulu ilə Şərqin, eləcə də Azərbaycanın təlim-tərbiyə üsulu arasında olan fərqi müqayisə edərkən, Qərbi Avropanın təlim-tərbiyə sistemini daha çox dəyərləndirirdi. Yuxarıda qeyd edildiyi kimi biz belə dövlətlərdən öyrənməli və yaxşı xüsusiyyətləri nümunə götürməliyik. Köçərli də Hartman kimi məktəblərdə belə üsuldan istifadə edilməsiə tərəf çıxış edirdi.

Habelə bu növ təlimatdan sonra Hartman cavanlara xitabən deyir: "pəs dünya bizim məzrəəmizdir, bunu hər birimiz kəmalətcə düşünüb anlamalısınız! "Söz yoxdur ki, ticarət səhnəsində və alqı-satqı meydanında millətlər arasında müşahidə olunan rəqabət və mübahisədə faiq və qalib gələn o millət olacaqdır ki, onun bazara çıxartdığı əmval və əmtəə qeyrilərinkindən gözəl-göyçək, zərif və işəyarar olsun. Bu cür malı ancaq əqilli, elmli, bacarıqlı və zirək millət vücuda gətirə bilər. O millətt ki, onun hər bir üzvü, hər bir fərdi fitri məharət və qabiliyyəti sayəsində böyük xidmətlər göstərə bilsin, ona binaən hər şəxs təklikdə bütün və kəmal bir vücud olmağa səy etməlidir ki, sağlam bir millət təşkil edə bilsin(4.s.482).

Firidun bəy Köçərli də Hartman kimi hər bir vətən övladının vətəni üçün xidmətlər göstərməsini, ağıllı, elmli, bacarıqlı nəsil yetişdirməyini millətin hər bir üzvünün vətəndaşlıq borcu hesab edirdi. Gələcək nəslin xoşbəxt yaşamasını istəyən vətən sakini elə vətən üçün də çalışmalıdır.

Alman müəllim və pedaqoqlarının təcrübə və bacarığın-





dan anlamaq olur ki, Almaniyada istehsal olunan malların dünya bazarına çıxarılması vacibdir. Deməli bu zaman alman mədəniyyətinin yayılması və tanınması mümükündür.

Hartman yazırdı: "Ticarət meydanında müşahidə olunan mübarizə və mübahisə bir tərəfdən də mədəniyyət və "kultura"nın intişarına səbəb olur. Almaniya tacirləri və bazərganları uzaq diyara və qərib ölkələrə daxil olduqda özləri ilə cansız və hissiz maldan səva başqa bir ziqiymət mətah nemsə millətinin fəxri olan "kultura"nın bir hissəsidir. Mətahımızın talibi və müştəriləri o yarlərdə çox ola bilər ki, dilimizi anlayıb özümüzü tanıyırlar. Ticarət əmrinə məşğul olmaqla belə yer üzündə dilimizi də intişar edirik, dilimiz isə əcnəbilər əlində "kultura"mızı götürməyə böyük vəsilə olur.Bu dilin vasitəsi ilə elm və mədəniyyətdən bibəhrə millətlər və taifələr Almaniya hükəma, üləma və şüərasının əsərlərilə aşina olub onlardan istifadə edirlər, necə ki, sabiqdə Roma tacirləri bizim məmləkətimizə nəsara dinini gətiribonun intişarına bais oldular. İmdi bizim tacirlərimiz də Almaniya "kultura"sının toxumunu dünya üzündə saçmağa məmurdurlar. Belə ki, insaniyyət aləmini mədəniyyət və elm nurilə işıqlandırmaq təklifini biz almanlar öhdəmizə götürmüşük. Bu halda Almaniya məktəblərində yeniyetmə cavanlara bu növ məlumat və bu qism tərbiyə verilməkdədir" (4.s.483).

Məktəblərdə təlim-tərbiyənin inkişaf etdirilməsinə olduqca ciddi əməl edən Almaniya pedaqoqları bunu millətə xidmət, ölkəyə məhəbbət hesab edirdilər. Beləliklə də get-gedə inkişaf edəcək və qüdrətlənəcək Almaniya ilə artıq dünya ölkələri hesablaşmalı olacaqdır. Alman pedaqoqlarının sözlərindən belə çıxır ki, dünyada varsa da, yoxsa da bir Almaniya dövlətidir. Almaniya dünyaya hökmranlıq, ağalıq etməli, başqa dövlətlər isə onun əmrinə müntəzir olmalıdırlar.

Azərbaycan maarifçiləri azadlıqla əxlaq arasında olan əlaqədən danışarkən əsasən cəmiyyətin siyasi azadlığından bəhs

etmişlər. Firidun bəy Köçərli də azadlığı geniş sosioloji cəhətdən şərh edərək, onu insanı əhatə edən ictimai mühitin ən vacib amili hesab etmişdir.

Firidun bəy Köçərlinin əsərlərində azadlıqla əxlaq və ümumi tərəqqi arasında əlaqədən geniş bəhs olunur. O da Vəzirov kimi çarın 17 oktyabr manifestindəki vəd etdiyi azadlıqlardan həddindən artıq məmun olduğunu bildirmişdir. Məqalələrdən birində o yazırdı: "Oktyabrın 17-də elan olunan hürriyyət və azadlıq Qafqaziyada, demək olar ki, hamıdan artıq gürcülərə təsir edib, hamıdan ziyada onları cünbüş və hərəkətə gətirdi...O gündən bəri "Sağ olsun hürriyyət, sağ olsun ittihad, ittifaq, qardaşlıq və azadəlik" sədası kəndlərdə və şəhərlərdə böyükdən tutmuş xırda uşaqlara kimi hər bir sinfi-xəlqin dillərində cari olmaqdadır. Azadəlik sevən, qardaşlıq axtaran, ittihad və ittifaq arzusunda olan milləti kim istəməz, kim belə millətə afərin oxumaz.

F.Köçərli öz həmvətənləri arasında azadlığın olmamasına təəssüflənərək və bunu ümumi tərəqqi işinə, əxlaq tərbiyəsinə ciddi mane olduğunu qeyd edib göstərirdi: "Görəsən, aya, bizim müsəlmanlar da öz qonşuları gürcülər kimi bu fərəhəfza və həyatbəxş azadəlik xəbərini eşidib şadlıq edirlərmi və az-çox tərəqqi yoluna düşüblərmi? Onların da milliyyət hissi və qeyrət damarı ayılıbdırmı?.. Vətəndaşlarımın dünyadan bixəbər olmaqlarını, cəhalət və zəlalət dəryasında zar və zəbun qalmaqlarını müşahidə edib, pərişanhal oldum. Onlarda nə hürriyyətdən bir xəbər, nə ittihad və ittifaqdan bir əsər görmədim...Burada mən, biləks, ittihad əvəzində ixtilaf, ittifaq yerinə nifaq, qardaşlıq yerinə düşmənçilik, büğz və ədavət, hürriyyət əvəzində übudiyyət və dənaət görüb, ürəyim qəm və qüssə ilə doldu"(11.s.40).

Ölkəsinin də qüdrətli ölkələr sırasında görməyi arzu edən Firidun bəy Köçərli bu yolda mübarizə fədaisi idi. O da alman pedaqoqları kimi tələbələrinə, gənclərə vətən, torpaq, dil, din və adət-ənənələrə sevgi və hörmət aşılayırdı.

Firidun bəy Köçərli təlim-tərbiyənin dostluqda da önəmli





yer tutduğundan bəhs edirdi. O, hətta milli və irqi ayrı-seçliliyin əleyhinə idi. Həmçinin, avropalıların qeyri millətlərə yuxarıdan aşağı nəzərlə baxmasına qarşı kəskin çıxışlar edirdi. Xüsusilə də almanların dünyada yeganə hegemon dövlət olmaq arzularını qəbul edə bilmirdi.

Azərbaycanın görkəmlim maarifçisi və ədəbiyyat tənqidçisi Firidun bəy Köçərli "Azərbaycan türklərinin tarixi", "Azərbaycan ədəbiyyatı tarixi materialları", "Azərbaycan komediyaları", "Azərbaycan ədəbiyyatı", "Ədəbiyyatımıza dair məktub" əsərlərində və bir sıra başqa ədəbi-tənqidi məqalələrində ədəbiyyatın əxlaq tərbiyəsində qüdrətli vasitə olduğunu dönə-dönə qeyd etmişdir.

Ümumiyyətlə, Azərbaycan maarifçiləri müsbət əxlaqi sifətlərin və mənəvi keyfiyyətlərin aşılanmasında bütün tərbiyə vasitələrindən istifadə etməyi zəruri saymışlar(11.s165).

Firidun bəy Köçərli Azərbaycanı azad, elmli və sürətli inkişaf etməsini arzulayırdı. O arzularının gerçəkləşməsini görməsə də bu günki, nəsil onun ruhu qarşısında hesabat verə bilər. Azad ölkə, azad gənclik, xoşbəxt gələcək. Firidun bəy Köçərlinin arzuladığı həyat bu idi.

## ƏDƏBİYYAT:


1. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri: Bakı, 1979. 260 s.

2. Ə.Seyidov: "Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən". Bakı,1958. 309 s.

3. Z.Göyüşov: "Fəzilət və qəbahət", Bakı, 1972. 470 s.

4. F.Köçərli: "Əsərləri", Bakı.2013. 495 s.

5. BDU-nin respublika elmi konfransının materialları, Bakı.2013, 262 s.

6. Ə.Mirəhmədov: "Yazıçılar, talelər, əsərlər", Bakı. 1978. 312 s.

7. "İşıq" qadın jurnalı: Bakı, 2014.№3(79). s.65.

8. Ə.Mirəhmədov: "Azərbaycan Molla Nəsrəddini", Bakı. 1980. 430 s.

9. S.Hüseynov : "Seyid Əzim Şirvaninin yaradıcılıq yolu", Bakı.1977. 217 s.

10. K.Məmmədov: "Yusif Vəzir Çəmənzəminli", Bakı. 1981. 263 s.

11. Z Göyüşov: "Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri", Bakı. 1964, 190 s.

12. Ə.Qarabağlı: "Azərbaycan ədəbiyyatının tədrisi metodikası", Bakı. 1968. 350 s.





## FİRİDUN BƏY KÖÇƏRLİ MÜASİRLƏRİNİN GÖZÜ İLƏ

Tarixdən məlumdur ki, dahi insanlar haqqında ən xoş sözlər demək, yüksək fikirlər söyləmək o qədər də asan olmayıb.

Azərbyacan mədəniyyəti tarixində dərin iz qoymuş əvəzolunmaz ədəbiyyatşünas Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi" adlı dəyərli əsərində özündən əvvəl yaşayıb, yaratmış klassiklərimiz haqqında dəyərli məlumat vermişdir. Bu məlumat ilkin olaraq məhz Firidun bəy tərəfindən toplanaraq oxucuların ixtiyaına verilib.

Bir sıra görkəmli alimlərimiz F.Köçərlinin bu dəyərli əsəri haqqında müəyyən fikirlər söyləyiblər. M.Quliyev, S.Mümtaz, F.Qasımzadə, H.Araslı, M.Arif, M.İbrahimov, M.Cəfər, Ə.Ağayev, Mir Cəlal, B.Nəbiyev, K.Talıbzadə, F.Hüseynov, İ.Bektaşi və başqaları prinsipial mövqedən çıxış edərək ədəbiyyatşünaslıq elminin inkişafındakı rolunu yüksək qiymətləndirən alimlərimizdəndir.

Firidun bəyin həyatı və yaradıcılığı haqqında dəyərli fikirlər söyləyən Azərbaycan alimlərindən bir neçəsinin fikirlərini oxucuların nəzərinə çatdırmağı özümüzə borc bilirik. Tarixə nəzər salaq:

**Yusif Vəzir Çəmənzəminli:**

"Firidun bəy Köçərli ən müqtədir, ən sevgili ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaqla bütün keçmişimizi diriltdi. Şairlərimizin ülvi ruhlarını canlandırdı və həyatı fikriyyəmizi təbii yoluna saldı".

**Seyid Hüseyn:**

"Möhtərəm Firidun bəy Köçərli cənabları bizdən ötrü kəndi "Hədiyyə"si ilə böyük bir cığır açdı. Ümid edirik ki, başqaları da o cığır ilə gedərlər".

**Professor Mir Cəlal:**

"Firidunbəyin əsərləri keçmiş məcmuələrdən fərqli olaraq, birinci dəfə ədəbi təhlili, yalnız ədəbiyyatı öyrənmək deyil, həm də qiymət təşəbbüsünü irəli sürən əsərdir... Müəllifin alimliyi, ədəbiyyatşünaslıq istedadı, ədəbi zövqü, sənətə olan münasibəti də, əsasən burada özünü göstərir."

**Akademik Məmməd Arif:**

"İlk dəfə Azərbaycan ədəbiyyatının tarixini yaratmaq məsələsi ilə XIX əsrin sonlarında Firidun Köçərli maraqlanmışdır. Köçərli yaxşı bir müəllim olmaqla bərabər istedadlı bir ədəbiyyatşünas idi. Mükəmməl rus təhsili almış Köçərli mütərəqqi görüşlərə malik idi. Ədəbiyyata aid tənqidi-publisist məqalələrində o bir sıra ciddi ictimai-mədəni məsələlərə toxunmuş, rus ədəbiyyatının gözəl nümunələri ilə Azərbaycan oxucularını tanış etmiş və Zaqafqaziya xalqlarının ədəbi əlaqələrindən yazmışdır. O, müasir Azərbaycan şair və ədibləri ilə məktublaşmış, bir çox ədəbi faktların toplanması, tərtib edilməsi ilə məşğul olmuşdur. Bundan başqa, Köçərli Azərbaycan ədəbiyyatının tarixini yaratmağa təşəbbüs etmiş, bunun üçün zəngin material toplamış, xüsusən XVIII-XIX əsrlərin ədəbiyyatını müəyyən dərəcədə işıqlandırmağa müvəffəq olmuşdur."

M.A.Dadaşzadə F.b.Köçərlinin yaradıcılığı ilə tanışlıqdan sonra onu "istedadlı ədəbiyyatşünas" adlandırmışdı.

**Akademik Kamal Talıbzadə:**

"F,Köçərlinin...40 ilə yaxın bir dövrü əhatə edən elmi fəaliyyəti, Azərbaycan ictimai, ədəbi fikrinin yeni dövrünü öyrənmək, qiymətləndirmək üçün gözəl imkanlar yaradır. Köçərli yaradıcılığı Azərbaycanda Axundzadənin ədəbi görüşlərinin necə,





hansı şəkildə, hansı yollarla davam və inkişaf etdiyini öyrənmək üçün əhəmiyyətli olduğu kimi, həmin dövrdə ədəbiyyatşünaslığın, ədəbi tənqidin hansı qüvvətli və zəif cəhətlərə malik olduğunu aydınlaşdırmaq üçün də qiymətlidir".

**Akademik Teymur Bünyadov:**

"Gənc Azərbaycan Xalq Cümhuriyyəti hökuməti cənubi Qafqaz Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin əmlakının Qoridən Qazax şəhərinə daşınıb gətirilməsini həmin şöbənin müfəttişi F.b.Köçərliyə tapşırdı. Xalq maarif nazirinin əmri ilə o, 1 oktyabr 1918-ci ildən yeni yaradılan Qazax Müəllimlər Seminariyasına direktor təyin edildi. Seminariyanın rəsmi açılışı 1918-ci il noyabrın 10-da oldu və həmin gündən dərslər başlandı. 1918-ci ildə seminariyaya 35, 1919-cu ildə isə 24 şagird qəbul edildi. Seminariya yaradıldığı vaxtdan milli zəmində, milli ruhlu müəllim kadrları hazırlanmasında böyük rol oynadı."

**Akademik Bəkir Nəbiyev:**

"Materiallar" ("Azərbycan ədəbiyyatı tarixi materialları –P.M) Azərbaycan filologiyasının inkişafında irəliyə doğru atılmış qiymətli bir addım idi. Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri tarixşünaslıqda olduğu kimi, "Materiallar" da Azərbaycan ədəbiyyatşünaslığında ilk və mötəbər mənbələrdən biridir.

"Azərbaycan ədəbiyyatı tarixi" əsəri və bütünlükdə F.Köçərli yaradıcılığı həm elmi mahiyyətinə, həm də obyektivliyinə görə daha qiymətlidir, daha çox diqqəti cəlb edir. Firidun bəy Köçərli yaradıcılığı, XX əsr Azərbaycan ədəbiyyatşünaslığımızın sonrakı inkişafı ilə vəhdət təşkil edir. Köçərlinin həm tənqidi məqalələrində, həm də tədqiqatçılıq fəaliyyətində bariz şəkildə nəzərə çarpan xüsusiyyətlərdən biri və demək olar ki, ən başlıcası, onun müasirlik problemini ön plana çəkməsidir."

**Akademik Fuad Qasımzadə:**

"XIX əsr ədəbiyyatının ilk mənbələri içərisində ən mühüm yeri F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" tutur.

**Akademik Feyzulla Qasımzadə:**

"XIX əsr Azərbaycan ədəbiyyatında ilk mənbələr içərisində Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsəri mühüm yer tutur. Firidun bəy bu əsəri qələmə almaqla, Azərbaycan ədəbiyyatı tarixçiliyi elminin əsasını qoymuşdur

**Akademik H. Əhmədov:**

"Məktəb təhsili tarixində Azərbaycan dilinin tədrisinə dair hazırlanmış proqramlar içərisində F.B.Köçərlinin proqramı özünün elmiliyi və əhatə dairəsinin genişliyi ilə diqqətə layiqdir".

**Professor Şirməmməd Hüseynov:**

"Firidun bəy Köçərli o şəxsiyyətlərdəndir ki, ona nadir şəxsiyyət deyiblər. Bu gün bütün ədəbiyyatşünaslar, tarixçilər yaxşı bilirlər ki, əgər F.b.Köçərli "Azərbaycan türklərinin ədəbiyyatı" əsərini yaratmasaydı, bəlkə də nə bu günki, nəsillər, nə də gələcək nəsillər dahi sənətkarlarımızı tanımayacaqdırlar. Bəlkə də həmişə tariximizə olan təzyiqlər, özününküləşdirmələr klassiklərimizi başqa xalqların nümayəndələri hesab edəcəkdirlər. Nə yaxşı ki, F.b.Köçərli belə bir ağır işi öhdəsinə götürərək, milli vətəndaşlığını sübut etdi və millət üçün dəyərli irs qoydu. O, bu əsəri ilə sübut etməyə çalışdı ki,Azərbaycan xalqı qədim olduğu qədər istedadlı, bacarıqlı və ağıllıdır. Ədəbiyyatımıza qoyduğu əvəzsiz miras onun əsərləri oldu. O, bu əsərlərində nə lazımdırsa Azərbaycan haqqında söyləmişdir. F.b.Köçərli sözün əsl mənasında böyük şəxsiyyət olubdur".





**Professor Şamil Vəliyev:**

"Firidun bəy Köçərli kimdir?-sualı öz aktuallığı ilə maraq doğurur, onun iş, əməl və ideyaları, əsərləri ilə yenidən tanışlıq mühüm əhəmiyyət kəsb edir. Çünki bu böyük "xalq müəllimi"-nin əsərləri bizlərə və müasir gəncliyə tam çatdırılmayıb, sovet senzurasının redaktə, ixtisar qadağaları ilə yarımçıq öyrədilib, yanlış sovetoloji şərh ilə izahlar nəticəsində "Körpü çaydan kənar düşüb". Xüsusilə ədibin publisistik araşdırmalarına münasibətdə bu özünü göstərir".

## FİRİDUN BƏY KÖÇƏRLİNİN YARADICILIĞI İLƏ ƏLAQƏDAR MƏTBU ORQANLARDA DƏRC ETDİRDİYİM MƏQALƏLƏR:

1."F.Köçərlinin Azərbaycan mətbuatına dair araşdırmaları"-"Filologiya məsələləri" jurnalı, Bakı"Elm və Təhsil" 2011-ci il, № 3, səh.279-286.

2."F. Köçərlinin publisistikasında millilik"-"Filologiya məsələləri jurnalı, Bakı, "Elm və Təhsil" 2011, №5, səh.317-328.

3."F.b.Köçərli və rusdilli mətbuat"- Elmi praktik konfransının materialları, BDU, Bakı-2011, səh. 400-412.

(İctimai-siyasi xadim, professor Nəsir İmanquliyevin anadan olmasının 100 illiyinə həsr olunmuşdur).

4. "F.b.Köçərli və ana dili"-"Filologiya məsələləri" jurnalı, Bakı, "Elm və Təhsil" 2013, №6, səh. 318-325.

5. "F.b.Köşərlinin pedaqoji fəaliyyəti"-"Filologiya məsələləri" jurnalı, Bakı, "Elm və Təhsil", 2014,№5, səh. 374-380.

6. "F.b.Köçərli və Azərbaycan folkloru"-"Filologiya məsələləri" jurnalı, Bakı, "Elm və Təhsil" jurnalı, 2014, №6, səh.426-436.

7. "F.b.Köçərlinin Etnoqrafik araşdırmaları"- "Kaspi" qəzeti, 2014-cü il, №197, səh.16-18(xüsusi buraxılış üçün).

F.b.Köçərlinin "Əsərləri" kitabına yazılan rəylər:

1. Qərənfil Dünyaminqızı: "F.Köçərlinin əsərləri nəşr olundu"- "Kaspi" qəzeti, 2013-cü il, 29-01 iyul, №115, səh.22

2. М. Мири: "Ученый, просветитель, публисист. Вышел в свет сборник "Фирудин бек Кочарли. Произведения", газета "Зеркало" №126, 13 июля, 2013. стр 4.





## MÜNDƏRİCAT


Firidun bəy Köçərli - "Elm və irfan sahibi" ....................3
Firidun bəy Köçərlinin yeni tədqiqatçısı ....................14
Firidun bəy Köçərlinin Azərbaycan mədəniyyəti tarixində rolu ....................17
Firidun bəy Köçərlinin pedaqoji fəaliyyəti ....................47
Firidun bəy Köçərlinin publisistikasında maarifçilik və millilik dəyərləri ....................92
Firidun bəy Köçərli yaradıcılığında uşaq ədəbiyyatının rolu ....................137
Firidun bəy Köçərlinin ictimai-siyasi həyat baxışları ....................189
Firidun bəy Köçərli və Azərbaycan folkloru ....................234
Firidun bəy Köçərlinin yaradıcılığında dinə münasibət ....................289
Firidun bəy Köçərlinin yaradıcılığında qadına ailədə və cəmiyyətdə münasibət ....................328
Firidun bəy Köçərli və rusdilli mətbuat ....................364
Firidun bəy Köçərlinin Azərbaycan təlim-tərbiyə üsulu ilə Avropa təlim-tərbiyə üsuluna müqayisəli baxışı ....................418
Firidun bəy Köçərli müasirlərinin gözü ilə ....................483
Firidun bəy Köçərlinin yaradıcılığı ilə əlaqədar mətbu orqanlarda dərc etdirdiyim məqalələr ....................488

*«Elm və təhsil»* **nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Çapa imzalanmış: **05.05.2016.**
Şərti çap vərəqi: **30,6.** Sifariş №: **287**
Kağız formatı: **84x108 1/16.** Tiraj: **500**

*Kitab «**Elm və təhsil**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*E-mail: **nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*



Pərixanım Mikayılqızı Bakı şəhərində anadan olub. Ali təhsilli mədəniyyət işçisidir. Kiçik yaşlarından ədəbiyyata böyük marağı olub. Pərixanım Mikayıl qızının ədəbiyyata marağı onun Azərbaycan mədəniyyət tarixində xüsusi yeri olan görkəmli ədəbiyyatşünas və istedadlı pedaqoq Firidun bəy Köçərlinin həyat və yaradıcılığına həsr etdiyi "Ümmətdən millətə doğru" əsərinin meydana çıxmasına səbəb oldu. Pərixanımın dövrü mətbuatda onlarla müxtəlif mövzulu elmi və publisistik məqalələri dərc olmuşdur. Bu məqalələrin əksəriyyəti Azərbaycanın tanınmış şair və ictimai qadın xadimlərinə həsr edilibdir. Pərixanım yaradıcılıqla məşğul olmaqdan zövq alır. O, həm də şair təbiətlidir. Şeirlərindən ibarət bir kitabı işıq üzü görüb, biri də artıq nəşrə hazırdır. "Ümmətdən millətə doğru" kitabı Pərixanımın sayca üçüncü kitabıdır.

Pərixanım Mikayılqızı ailədir. 3 övladı var.